ISSN 2409-0859

AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ

SOSİAL VƏ HUMANİTAR ELMLƏRİN MÜASİR PROBLEMLƏRİ

ELMİ ƏSƏRLƏR TOPLUSU

BURAXILIŞ № 26
(I HİSSƏ)

BAKI – 2020

ISSN 2409-0859

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi, mətbu nəşrlərin reyestrinə daxil edilmə nömrəsi: **3885, 25.05.2014-cü il.**

Ünvan: 1148, Azərbaycan, Bakı, Z.Xəlilov, 23, Bakı Dövlət Universiteti, 2 korpus, otaq 812, tel. 012 438 14 47, sayt http://sociology.bsu.edu.az/
E-mail: q.abbasova@mail.ru

Sosial və humanitar elmlərin müasir problemləri. Ali məktəblərarası elmi əsərlər toplusu. Buraxılış № 26 (I hissə). Bakı, 2020, 283 s.

Redaksiya heyəti

Rəbiyyət Nurullah qızı Aslanova, fəlsəfə elmləri doktoru, professor, BDU
Əziz Bəşir oğlu Məmmədov, fəlsəfə elmləri doktoru, professor, BDU
İzzət Əşrəf oğlu Rüstəmov, fəlsəfə elmləri doktoru, professor, BDU
Rəna Fuad qızı İbrahimbəyova, psixologiya üzrə fəlsəfə doktoru, professor, BDU
Zeynəddin Camal oğlu Hacıyev, fəlsəfə elmləri doktoru, professor, BDU
Bəxtiyar Həmzə oğlu Əliyev, AMEA-nın müxbir üzvü, psixologiya elmləri doktoru, professor, BDU
Kamilə Ramiz qızı Əliyeva, psixologiya elmləri doktoru, professor, BDU
Tatyana İvanovna Bilenko, fəlsəfə elmləri doktoru, professor, Droqobıç dövlət pedaqoji universiteti (Ukrayna)
Sergey Nikolayeviç Volkov, fəlsəfə elmləri doktoru, professor, Penza texnoloji akademiyası (Rusiya)
Ləzifə Nağı qızı Qasımova, pedaqogika elmləri doktoru, professor, BDU
Hikmət Əbdul oğlu Əlizadə, pedaqogika elmləri doktoru, professor, BDU
Qəmər Cəfər qızı Mürşüdlü, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent, BDU
Kəmalə Həsən qızı Pənahova, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent, BDU
Qızılgül Yasin qızı Abbasova, fəlsəfə elmləri doktoru, professor,baş redaktor, BDU
Daxil Cahangir oğlu Vəliyev, fəlsəfə üzrə fəlsəfə doktoru, redaktor müavini, BDU
Vüsalə Kərəm qızı Musayeva, buraxılışa məsul redaktor, BDU

Topluda müasir dövrün aktual problemlərindən bəhs olunur. Məqalələrdə müəlliflər tərəfindən qaldırılan məsələlərin geniş çeşidi dünyamızın tarix, fəlsəfə, politologiya, sosiologiya, pedaqogika, psixologiya, iqtisadiyyat, mədəniyyətşünasliq, sənətşünaslıq və digər sosial-humanitar sahələrdə baş verən proseslərə bir çox yeni aspektlərdən nəzər salmağa imkan verir. Toplunun materiallarından elmi işçilər, ali və orta ixtisas məktəblərinin humanitar fənləri tədris edən müəllimlər, tələbələr və aspirantlar faydalana bilərlər. Məqalələr müəlliflərin redaktəsi ilə çapa verilmişdir.

HUMANİTAR ELMLƏR

PEDAQOGİKA

UOT 37

FƏAL (İNTERAKTİV) DƏRS VƏ ONUN TƏŞKİLİ

prof. Məcid İsmixanov, dos. Nəzakət İmamverdiyeva
BDU-nun, Pedaqogika kafedrası
naza-52@mail.ru

Açar sözlər: fəal (interaktiv) dərs, dərsin təşkili mexanizmi və şərtləri, təlim texnologiyaları.
Ключевые слова: интерактивный урок, механизм организации и условия интерактивного урока, технологии обучения.
Key words: interactive lesson, organization mechanism and conditions for an interactive lesson, teaching technology.

Müasir dərs bir çox xüsusiyyətləri ilə ənənəvi dərsdən fərqlənir. Müasir dərs *fəal (interaktiv) dərs* kimi səciyyələnir. Fəal (interaktiv) dərsin *başlıca fərqləndirici cəhətləri – xüsusiyyətləri* aşağıdakılardan ibarətdir:

1. Müasir dərsin *məqsədi* şagirdlərin fəallığı və müstəqilliyi şəraitində bilik, bacarıq və həyati səriştələrin şüurlu və möhkəm mənimsənilməsini, onların yaradıcı bir şəxsiyyət kimi inkişafını təmin etməkdən ibarətdir;

2. Müasir dərsin başlıca *funksiyaları* öyrətmə, inkişafetdirmə və tərbiyə vəzifələrini kompleks halda həyata keçirməklə bağlıdır; ənənəvi dərsdən fərqli olaraq bu, icrası vacib olan dövlət tələbi kimi qarşıya qoyulmuşdur;

3. Fəal (interaktiv) dərs ənənəvi dərsdən fərqli yeni tələblərə - *prinsiplərə* əsaslanır. Bu prinsplər də, dövlət tələbi kimi, milli kurikulumun ayrılmaz tərkib hissəsini təşkil edir: pedaqoji prosesin tamlığı; təlimdə bərabər imkanların yaradılması; şagirdyönümlülük, inkişafyönümlülük; fəaliyyətin stimullaşdırılması; dəstəkləyici mühitin yaradılması;

4. Müasir dərsdə *təlimin məqsədi, məzmunu, strategiyası və qiymətləndirmə vahid*, bütöv bir *prosesdə birləşir*; kurikulum modelində fənnin məqsədi və ümumi təlim nəticələri (aşılanacaq bacarıq və səriştələr, keyfiyyətlər) birbaşa məzmun standartında öz əksini tapır. Təhsilin məzmunu əsas məqsədə nail olmaq üçün bir vasitə rolunu oynayır: şagirdlər təlim standartlarını yerinə yetirdikləri prosesdə biliklərlə yanaşı eyni zamanda lazımi bacarıq və keyfiyyətlərə də yiyələnmiş olurlar.

5. Müasir dərs *fəal* (*interaktiv*) *təlim metodlarına* əsaslanır: şagirdlər metodların köməyi ilə yeni biliklərin fəal mənimsənilməsi üzərində işləyir, müvafiq təlim fəaliyyətlərini və tapşırıqları yerinə yetirir, problemin həlli üzərində çalışır, fikir mübadiləsi aparır, ən başlıcası isə, bilikləri müstəqil mənimsəyirlər. Fəal (interaktiv) dərsdə *təlim prosesinin mərkəzi fəaliyyətini tədqiqat* təşkil edir (izahlı-illüstrativ xarakter daşıyan ənənəvi dərsdə isə təlim prosesinin mərkəzi fəaliyyəti müəllimin şərhidir); ənənəvi dərsdə yeni biliklər dərsin əvvəlində şagirdlərə hazır şəkildə çatdırıldığı halda, fəal (interaktiv) dərsdə bu biliklər şagirdlərin özləri tərəfindən müstəqil şəkildə dərs boyu əldə edilir.

6. Fəal (interaktiv) dərs *yeni texnologiyalar* üzrə qurulur: fəal və problem təlim texnologiyalarına istinad edilir. Şagirdlər müəyyən zehni məsələni, problemi yoldaşlarının köməyi və özlərinin tədqiqatları əsasında, kollektiv müzakirə və ümumiləşdirmə prosesində müstəqil olaraq

həll etməyə çalışır, təfəkkür fəallığı göstərirlər;

7. Fəal dərsdə müxtəlif *təlim formaları* – frontal, qrup, cüt və fərdi iş formaları kompleks şəkildə həyata keçirilir: dərs boyu bu iş formaları bir-birini əvəzləyir. Nəticədə ənənəvi dərsə xas olan yeknəsəqlik, passivlik, yoruculuq, maraqsızlıq, intizamsızlıq, şagirdlərin fərdi imkanlarının inkişafına və təlim səviyyələrinin nəzərə alınmasına olan laqeydlik halları aradan qalxır, dərsin təhsil və tərbiyə məqsədləri daha yaxşı təmin olunur. Fəal dərsdə qeyri-standart dərs növlərinə geniş yer verilir;

8. Fəal dərsin bir xüsusiyyəti də *müəllim-şagird münasibətinin* yeni səviyyədə qurulması ilə bağlıdır. Müasir dərsdə bu münasibətlər, ənənəvi dərsdə olduğu kimi tabeçilik-asılılıq mövqeyində və avtoritar üslubda yox, bərabərhüquqlu subyekt-subyekt mövqeyində, demokratik və humanist üslubda qurulur: müəllim şagirdlə dialoqa girməklə əməkdaşlıq şəraitində qarşılıqlı fəaliyyət göstərir. Müasir dərsdə şagird təlimin mərkəzi amili kimi çıxış edir; hazır bilikləri qəbul edən passiv obyekt yox, fəal subyekt kimi, tədqiqatçı kimi fəaliyyət göstərir. Müəllim isə müasir dərsdə istiqamətverici, yönəldici, məsləhətçi, bələdçi kimi fəaliyyət göstərir: şagirdi oxumağa məcbur etmir, həvəsləndirir, yol göstərir. Belə yanaşma hələ iki min beş yüz il bundan əvvəl məşhur Çin mütəfəkkiri Konfusinin müdrik deyimləri ilə səsləşir: Alicənab ər (oxu: müəllim) şagirdi öyrədəndə və tərbiyə edəndə onu irəliyə aparır – arxasınca dartmır; onda maraq oyadır – məcbur etmir; ona yol göstərir, lakin yolu sərbəst getməyə imkan yaradır. Nə qədər ki, o, şagirdi irəliyə aparır, arxasınca dartmır, deməli, onunla müttəfiqdir. Nə qədər ki, müəllim, şagirddə maraq oyadır – məcbur etmir, deməli, şagirdin bilik qazanması asanlaşır. Nə qədər ki, o, şagirdə yalnız yol açır, deməli, ona düşünmək imkanı verir.

Böyük mütəfəkkirin əsrlərin sınağından çıxmış bu tövsiyələri bu gün də öz aktuallığını saxlamaqdadır.

9. Fəal (interaktiv) dərsdə bütün diqqət şagirdin inkişafına, müstəqil və yaradıcı şəxsiyyət kimi formalaşmasına yönəlir. Müəllim dərsdə şagirdlərin intellektual, psixi və mənəvi inkişafı, habelə fərdi imkanlarının, maraq və qabiliyyətlərinin inkişafı üçün *əlverişli şərait, normal mənəvi-psixoloji iqlim, dəstəkləyici mühit yaradır,* onlara hörmət, qayğı və həssaslıqla yanaşır.

10. Fəal (interaktiv) dərs *şagird nailiyyətlərinin qiymətləndirilməsi mexanizmi* ilə də ənənəvi dərsdən əsaslı şəkildə fərqlənir. Əvvəllər qiymət şagirdləri gərdinlik, qorxu və intizarda saxlayan, dəqiq meyarlara əsaslanmayan və çox vaxtı subyektiv səciyyə daşıyan bir vasitədən müasir təlimdə qarşıya qoyulan məqsəd və təlim nəticələrinə gətirib çıxaran, müəyyən meyarlarla ölçülə bilən təsirli vasitəyə çevrilmişdir. Fəal dərsdə qiymət məqsəd yox, məqsədə çatdıran vasitə rolunu oynayır; o, şagirdin ilkin səviyyəsini, təlimdə irəliləyişini və yekun nailiyyətlərini üzə çıxarmağa və istiqamətləndirməyə xidmət edir.

11. Müasir fəal (interaktiv) dərs öz *strukturu* etibarilə də ənənəvi dərsdən çox fərqlənir. Ənənəvi dərs, əsas etibarilə, dördmərhələli mürəkkəb dərs tipində qurulurdu: keçilənlərin sorğusu, yeni bliyin izahı, möhkəmləndirilməsi və ev tapşırığı. Həm də fəndən, məqsəd və məzmundan, mövzudan, sinifdən, şagirdlərin yaş və qavrama imkanlarından asılı olmayaraq bütün dərslər bu sxemlə qurulurdu. Müasir dərs təlim prosesinin bütün komponentlərində (məqsəd, məzmun, metod, forma, texnologiya və s.) olduğu kimi, quruluş etibarı ilə də yeni-konseptual əsasda qurulur və müasir texnologiyalara əsaslanır. Buna görə ənənəvi dərsin qüsurlarından azaddır.

Müasir dərsin nəzərdən keçirilən xüsusiyyətlərindən göründüyü kimi, o ənənəvi dərsə nisbətən böyük *üstünlüklərə* və imkanlara malikdir. Bununla yanaşı, müəllimlər kurikulum əsaslı dərslərdə müəyyən çətinliklərlə qarşılaşırlar. Belə *çətinliklər* sırasında məzmun standartları ilə işləmək, problem situasiyalar yaratmaq, qruplara tədqiqat tapşırıqları vermək, fəndaxili və fənlərarası inteqrasiya yaratmaq, təlim vasitə və resurslarını hazırlayıb tətbiq etmək, şagirdlərin irəliləyişini müntəzəm izləmək və qiymətləndirmək, dərsdə çoxcəhətli işləri görmək üçün vaxtı tənzimləmək kimi çətinlikləri göstərmək olar. Bu çətinliklər kurikulumun mahiyyəti ilə yox,

daha çox, onun tətbiqi mexanizmləri ilə – bəzi müəllimlərin bu texnologiya üzrə lazımi biliklərə və təcrübəyə yiyələnməmələri ilə bağlıdır. Bunu nəzərə alaraq kurikulum modelində işləyən müəllimlər onun mahiyyətini yaxşı bilməli, fəal (interaktiv) dərsə verilən tələbləri və onun texnologiyasına yiyələnməlidirlər.

Müasir dərsə verilən tələblər. Hər bir dərs müəllimin pedaqoji-metodik simasını ifadə edir; müəllimə, əsasən, keçdiyi dərslərə görə qiymət verilir. Odur ki, müəllim hər bir dərsə böyük məsuliyyətlə yanaşmalı, onu yüksək səviyyədə qurmağı bacarmalıdır. Bunun üçün dərsə verilən müasir tələbləri yaxşı bilmək və onları düzgün tətbiq etmək lazımdır.

Dərsə verilən tələblər çoxdur. Onları iki qrupa bölmək olar: ümumi və xüsusi tələblər. Dərsə verilən *ümumi tələblər* təlim prinsiplərində ifadə olunur. Dərsdə didaktik prinsiplər (demokratizm, humanizm, şəxsiyyətə yönümlülük, həyatla əlaqə, elmilik, sistematiklik, şüurluluq və fəallıq, əyanilik, müvafiqlik. fərdi yanaşma və s.) kompleks şəkildə həyata keçirilməlidir.

Xüsusi tələblər isə təlimin təşkili formalarından biri kimi bilavasitə dərslə bağlı tələblərdir. Onları aşağıdakı əsas qruplara bölmək olar:

1. Dərsdə yüksək təhsil, inkişaf və tərbiyə *səmərəsi* əldə edilməlidir. Hər bir fəaliyyət nəticə ilə ölçülür; dərsdə təhsil, tərbiyə və inkişaf vəzifələri vəhdətdə həyata keçirilməli, real nəticələr əldə edilməlidir. Nəzərdə tutulan bilik, bacarıq və səriştələr şagirdlərin müstəqil idrak fəaliyyəti ilə mənimsənilirsə, şagirdlər müəyyən ideya-mənəvi keyfiyyətlərə və zehni qabiliyyətlərə yiyələnirsə, belə dərsi yaxşı dərs hesab etmək olar.

2. Dərsdə təlim materialının *optimal məzmunu* müəyyən edilməlidir. Müəllim dərsin qarşısında duran məqsəd və vəzifələrdən, şagirdlərin hazırlıq səviyyəsindən çıxış edərək formalaşdırılacaq bilik və bacarıqların həcmini, çətinlik dərəcəsini, əsas məsələlərini, fəndaxili və fənlərarası əlaqə imkanlarını müəyyənləşdirməli, dərs zamanı bilik və bacarıqların şüurlu və möhkəm mənimsənilməsinə əlverişli şərait yaratmalıdır.

3. Dərsdə *səmərəli metodik variant* seçilib tətbiq edilməlidir. Dərsin məqsəd və məzmununa, şagirdlərin dərketmə imkanlarına uyğun olaraq müvafiq metod, vasitə və resurslar kompleksi müəyyənləşdirilir. Dərs o zaman səmərəli olur ki, müəllim biliyi hazır şəkildə təqdim etməsin, şagirdləri fəal axtarışlara cəlb etsin, onların müstəqil fikrini oyatsın. Bu məqsədlə dərsdə problem vəziyyət yaratmaq, şagirdləri problemlərin həllinə, yaradıcı çalışmalara, dialoq, diskussiya və müzakirələrə,, kitab üzərində yaradıcı işə cəlb etmək, təfəkkürə qida verən məntiqi metodlara (müqayisə, təhlil-tərkib, ümumiləşdirmə və s.), eləcə də fəal (interaktiv) metod və priyomlara istinad etmək yaxşı nəticə verir. Dərsdə həmçinin müasir texnologiyalardan, xüsusən İKT, fəal və problemli təlim, oyun texnologiyalarından geniş içstifadə edilməlidir; bu həm təlimə marağı artırır, həm də dərsin səmərə və keyfiyyətini yüksəltməyə imkan verir.

4. Dərsdə *təlim işinin müxtəlif formaları* – kollektiv (frontal), qrup, cüt və fərdi iş formaları bir-biri ilə optimal əlaqələndirilməlidir. Bu halda dərs daha maraqlı və çevik olur, şagirdlərin fəallığı və müstəqilliyi artır, dərsin keyfiyyəti yüksəlir. Dərsdə qeyri-standart dərs növlərindən geniş istifadə olunmalı, onların bir-biri ilə, eləcə də digər dərs tipləri ilə optimal əlaqəsi təmin edilməlidir.

5. Dərsdə *müəllim-şagird münasibətləri* yeni əsasda – demokratiya və humanizm əsasında, əməkdaşlıq şəraitində qurulmalıdır. Şagird təlimin mərkəzi fiquru, bərabərhüquqlu üzvü, fəal subyekti kimi, tədqiqatçı kimi fəaliyyət göstərməlidir. Müəllim isə biliklərin ötürücüsü kimi yox, şagirdin idrak fəaliyyətinin təşkilatçısı, yönəldicisi, bələdçisi kimi çıxış etməlidir.

6. Dərsdə *əlverişli mənəvi-psixoloji iqlim, müsbət emosional vəziyyət, dəstəkləyici mühit* yaradılmalıdır. Müəllim hər bir şagirdə hörmət, qayğı və həssaslıqla yanaşmalı, onun yaradıcı şəxsiyyət kimi intellektual, mənəvi və psixi inkişafı, habelə fərdi imkanlarının, maraq və qabiliyyətlərinin inkişafı üçün əlverişli şərait yaratmalı, fəallığını və səyini stimullaşdırmalıdır.

Dərsin səmərəsi həm də onun emosional mühiti ilə sıx bağlıdır: mənfi emosiyalar (qorxu, inamsızlıq, həyəcan və s.) şəraitində keçən dərs cansıxıcı, yorucu və səmərəsiz olur. Dərsdə müəllim və şagirdlər arasında qarşılıqlı hörmət, inam, işgüzar münasibət, xoş əhval-ruhiyyə, müsbət zehni hisslər (şadlıq, təlim sevinci, inam və s.) hakim olmalıdır.

Göstərilən tələblərə cavab verən dərs yaxşı dərs hesab olunur; belə dərsdə yüksək səmərə − müsbət təlim, inkişaf və tərbiyə nəticələri əldə edilir. Yaxşı dərs təşkilati baxımdan da səmərəli olmalıdır. Müəllim fəal (interaktiv) dərsin mərhələlərini yaxşı bilməli və onun təşkilinə yaradıcı yanaşmalıdır. İndi də bu məsələni nəzərdən keçirək.

Fəal (interaktiv) dərsin təşkili

Kurikulum modelində dərs, əsasən, fəal və problemli təlim texnologiyaları üzrə keçilir. Fəal dərsin quruluşu aşağıdakı mərhələlərdən ibarətdir:

1. Motivasiya, problemin qoyuluşu.
2. Tədqiqatın aparılması.
3. İnformasiya mübadiləsi.
4. İnformasiyanın müzakirəsi.
5. Ümumiləşdirmə və nəticə.
6. Yaradıcı tətbiqetmə.
7. Qiymətləndirmə və ya refleksiya.

Hər bir mərhələnin məzmunu və təşkilini nəzərdən keçirək.

I. *Motivasiya, problemin qoyuluşu.* Fəal (interaktiv) dərs motivasiya ilə başlanır. Motiv (latınca «movere» - hərəkətə gətirmək) insanı hər hansı bir fəaliyyətə sövq edən daxili qüvvədir. Motivasiya – motivlərin təşkili və inkişafı prosesidir. Müəllim öyrənilən məsələyə (mövzuya) maraq, tələbat yaratmaq üçün motivasiyadan istifadə edir (Bu, bir növ, uşaqda yeməyə iştaha yaratmağa bənzəyir). *Motivasiya mərhələsi bir neçə pillədən* (*əməliyyatdan*) keçir:

1) *Problem situasiyanın* (*vəziyyətin*) *yaradılması*: şagirdlərin müəyyən ziddiyyətlə qarşılaşdırılması, problemin səbəbləri üzərində düşünməyə cəlb edilməsi (məsələn, dağlar torpağa və dənizə nisbətən Günəşə yaxın olduğu halda, nə üçün yayda dağlarda qar gec əriyir?). Şagirdlər problem situasiya ilə bağlı mülahizələr yürüdürlər.

2) *Problemin qoyuluşu***.** Şagirdlərin mülahizələri əsasında müəllimin istiqamətverici köməkliyi ilə problem qoyulur: hər hansı səbəb-nəticə asılılığının axtarılması müəyyənləşdirilir.

3) Problemlə bağlı *tədqiqat sualının* formalaşdırılması. Şagirdlər tədqiqat sualı ilə bağlı onun həlli üçün müxtəlif fərziyyələr irəli sürürlər. Bununla da fəal (interaktiv) dərsin 1-ci mərhələsi başa çatır.

II. *Tədqiqatın aparılması*. Bu mərhələ şagirdlərin idrak fəallığına, müstəqil təfəkkür işinə təkan verir. Onun məqsədi əvvəlki mərhələdə irəli sürülmüş fərziyyələri yoxlamaq, onları təsdiq və ya təkzib edən, habelə qoyulmuş tədqiqat sualına cavab tapmağa kömək edə biləcək faktların tapılması üzrə tədqiqat işi aparmaqdan ibarətdir. Tədqiqat işi müxtəlif məzmunda (çalışma, müşahidə, təcrübə işi, tapşırıq və s.) ola bilər, müxtəlif metod və formalarla (qrup və ya fərdi), vasitə və resurslarla (kitab, iş dəftərləri, iş vərəqləri və s.) aparıla bilər. Müəllim bunları əvvəlcədən müəyyənləşdirir və hazırlayır.

Tədqiqatın aparılması zamanı şagirdlərə verilən tapşırıqlarda, iş vərəqləri tərtibində təfəkkürə (həm məntiqi, həm də yaradıcı və tənqidi təfəkkürə) yönələn sual və tapşırıqlara geniş yer vermək lazımdır. Məsələn, müqayisə et (məntiqi təfəkkür), müxtəlif baxış nöqtələrindən qiymətləndir (tənqidi təfəkkür), öz şəxsi yanaşmanı ver (yaradıcı təfəkkür).

III. *İnformasiya mübadiləsi.* Bu mərhələdə hər qrup öz tədqiqat nəticələrini təqdim edir; tədqiqat əsasında əldə etdikləri tapıntıların, yeni informasiyaların mübadiləsini aparırlar, fikirlərini bir-birilə bölüşürlər. Bu prosesdə şagirdlərin zehni fəallığı özünü daha qabarıq şəkildə

göstərir, çünki qoyulmuş suala cavab tapmaq zərurəti tədqiqatın bütün iştirakçılarının bir-birinin təqdimatını fəal dinləməyə sövq edir.

IV. *İnformasiyanın müzakirəsi.* Bu mərhələnin məqsədi əvvəlki mərhələdə toplanan məlumatları əlaqələndirmək, sistemləşdirmək və qaydaya salmaqdır. Bu mərhələ də iki pillədən (əməliyyatdan) keçir. *I pillədə* müəllimin yönəldici sualların köməyi ilə təqdimatlarda irəli sürülən fikirlərin kollektiv müzakirəsi aparılır**.** *II pillədə* bütün faktlar arasında əlaqələr yaradılır, onlar sistemləşdirilir, başqa sözlə, informasiya təşkil edilib müəyyən qaydaya salınır.

V.*Ümumiləşdirmə və nəticə*. Bu mərhələ iki pillədən (əməliyyatdan) keçir. I pillədə müəllimin köməyi ilə şagirdlər ümumiləşdirmə aparıb, nəticə çıxarırlar. Çıxarılan nəticə iki baxımdan yoxlanır: tədqiqat sualı baxımından (nəticə tədqiqat sualına cavab verirmi?) və fərziyyələr baxımından (hansı fərziyyə doğrudur?). *II pillədə* müəllim şagirdlərin fikirlərini ümumiləşdirir və tədqiqat sualı ilə bağlı əlavə məlumat verir.

VI. *Yaradıcı tətbiqetmə.* Bu mərhələ əldə olunmuş bilikləri tətbiq edib möhkəmlətmək məqsədi güdür; müəllim yeni biliklərin praktik əhəmiyyətini şagirdlərə açıb göstərir, bacarıqları formalaşdırmağa və yaradıcılığı inkişaf etdirməyə şərait yaradır. Yaradıcı tətbiqetmə çıxarılan nəticənin yeni hallara tətbiqi ilə bağlıdır. Bunun üçün dərsdə müvafiq tapşırıqlar, calışmalar yerinə yetirilir. Yaradıcı tapşırıqlara misal olaraq sxem, cədvəl tərtib etdirmək, müqayisə etməklə analoqu tapdırmaq, qaydanı yeni hallara tətbiq etdirmək, müstəqil problem və onunla bağlı fərziyyələr irəli sürmək, müəyyən məsələyə şəxsi izahını vermək, səbəb-nəticə asılılıqlarını tapdırmaq, verilənlərə dəyişiklik etmək, yenidən yaratmaq, müəyyən məsələni simvol (rəmz) şəklində təsvir etmək, yeni bir şey yaratmaq (maket, model, hekayə, musiqi) və s. göstərmək olar.

VII. *Qiymətləndirmə və ya refleksiya.* Bu, dərsin yekun mərhələsi olub, görülən işlərin qiymətləndirilməsini nəzərdə tutur. Qiymətləndirmə müxtəlif metod və vasitələrlə həyata keçirilir: alqışlar; müəyyən meyarlar əsasında (cədvəldə) hər meyar üzrə + və - işarələri və ya ballar yazmaq (10 bala qədər) və yekun bal çıxarmaq; qrup və cütlüklər halında qiymətləndirmə; qrafiklə qiymətləndirmə (qrupların №-si və balları) və s.

Qrup qiymətləndirməsi zamanı qiymətləndirmə cədvəlində qrupun №-si və meyarlar (əməkdaşlıq, dinləmə, intizam, əlavələr etmək, ümumi nəticə) əsasında hər qrupa yekun bal çıxarılır, qalib qrup elan olunur.

Qrupları qiymətləndirmək üçün meyar cədvəli

Qrupları qiymətləndirmək üçün meyarlar					
Qrupların №-si	Əməkdaşlıq	Dinləmə	İntizam	Əlavələr etmək	Ümumi nəticə
1	+	+	+	-	3
2	-	+	+	-	2
3	+	+	+	+	4
4	-	+	-	-	1

Kiçik qrup və cütlərlə qiymətləndirmə zamanı uşaqların adı yazılmış cədvəldə müəyyən meyarlar üzrə (müzakirədə iştirak, bir-birini dinləmək, mühüm fikirlər irəli sürülməsi, nəticə) + və ─ və ya 1-dən 10-dək bal yazılıb cəmlənir. Qalib qrup və ya şagird elan olunur.

Qiymətləndirmə mərhələsi həm müəllimin iştirakı ilə şagirdlər tərəfindən, həm də şagirdlərin özləri tərəfindən aparıla bilər. İkinci halda refleksiya daha qabarıq şəkildə özünü göstərir. *Refleksiya* – şagirdin öz tədqiqat fəaliyyətini təhlil və dərketmə prosesinin şüurda inikası, özünü qiymətləndirmə mexanizmidir. Bu mərhələdə şagirdin emosional fəallaşdırılması böyük əhəmiyyətə malikdir.

Nəzərdən keçirilən dərs nümunəsi fəal təlim texnologiyası əsasında qurulmuşdur. Fəal

dərsin fərqləndirici cəhəti motivasiyanın, fəal iş və müzakirə şəraitinin yaradılması, kollektivlə və kiçik qruplarla işin əlaqələndirilməsi, interaktiv metodlara geniş yer verilməsi ilə bağlıdır. Bunun üçün fəal dərsə əvvəlcədən ciddi hazırlaşmaq, müvafiq resurslar hazırlamaq və dərsin təşkilinə yaradıcı yanaşmaq tələb olunur.

ƏDƏBİYYAT

1. Qasımova L.N., Mahmudova R.M. Pedaqogika (dərslik). B., Çaşıoğlu, 2012, s. 312-329.
2. Əlizadə Ə.Ə., Əlizadə H.Ə. Yeni pedaqoji təfəkkür: Psixopedaqogikaya giriş. B., ADPU, 2008, s. 88-98.
3. İbrahimov F., Hüseynzadə R. Pedaqogika (dərslik), 2 cilddə, I c. B., Mütərcim, 2013, s. 638-646
4. İsmixanov M. Pedaqogikanın əsasları. B.: ADPU, 2013, s. 122-129.
5. Qasımova L., Mirzəyeva Ş. Azərbaycan təhsilində kurikulum konsepsiyası. B.: Elm və təhsil, 2016, s. 114-131.
6. Veysova Z. Fəal-interaktiv təlim. B.: 2007.
7. Paşayev Ə., Rüstəmov F. Pedaqogika (yeni kurs). B.: Nurlan, 2007, s. 235-240.
8. İsmixanov M., Əliyeva S., Əliyev S. Ümumi təhsil kurikulumunun əsasları (Dərslik). B.: ADPU, 2017, s.83-93.

XÜLASƏ

Məqalədə fəal (interaktiv) dərs, onun mahiyyəti, ənənəvi dərsdən fərqli cəhətləri, başlıca şərtləri, təşkili mexanizmi-əməliyyatlar sistemi nəzərdən keçirilir.

АННОТАЦИЯ

В статье рассматриваются вопросы сущности, особенности, механизм организации и условия современного (интерактивного) урока.

SUMMARY

The article discusses the essence, features, organization mechanism and conditions of an active modern (interactive) lesson.

ALİ TƏHSİLDƏ QİYMƏTLƏNDİRMƏ VƏ MONİTORİNQİN XÜSUSİYYƏTLƏRİ

Əfəndiyeva Aysel Kamran qızı
BDU-nun II kurs magistrantı
psy.ayselefendiyeva@gmail.com

Açar sözlər: ali təhsil, motivasiya, monitorinq, qiymətləndirmə, təhsil keyfiyyətinin qiymətləndirmə sistemi, təcrübə
Ключевые слова: высшее образование, мотивация, мониторинг, оценка, система оценки качества образования, опыт
Key words: higher education, motivation, monitoring, evaluation, education quality evaluation system, experience

Müasir dünyada iqtisadiyyatın və cəmiyyətin yeni keyfiyyətinin formalaşmasında ən vacib amil kimi təhsilin əhəmiyyəti insan kapitalının artan təsiri ilə yanaşı artmaqdadır. Bu fəaliyyət təhsil sahəsində günbəgün artan beynəlxalq inteqrasiya işığında xüsusi aktuallıq qazanır. Mütəxəssislərin fikrincə, universitetlərdə kadr hazırlığının keyfiyyətinin idarə edilməsinin strateji və əməliyyat tapşırıqlarını həll etmək üçün müvafiq ali təhsil müəssisəsinin resursları, prosesləri və fəaliyyətinin nəticələri barədə obyektiv məlumatlara sahib olmaq lazımdır ki, bu da öz növbəsində, təhsil xidmətlərinin keyfiyyətinin monitorinqi və qiymətləndirilməsi sisteminin yaradılması və saxlanmasını tələb edir.

Qiymətləndirmə təhsil prosesinin ən mühüm proseslərindən biri kimi dəyərləndirilir. Mütəxəssislərin və tədqiqatçıların qənaətinə görə, hər bir ölkənin özünəməxsus təhsil qiymətləndirilməsi sistemi mövcuddur. Qiymətləndirmə təhsil prosesi kimi aşağıda sadalanan funksiyalara malikdir:

1) *Təhsil funksiyası* – biliklərin yoxlanılması, nəzarəti, uçotu təlimin üzvi elementləri olaraq qalır. Bu elementlərin vəzifəsi həm təhsilin vəziyyətini, təlim səviyyəsini müəyyənləşdirmək, həm də tələbələri yeni biliklər qazanmağa təşviq etmək, səhvləri

düzəltməyə, təlimat vermək və təhsildə daha çox nailiyyət qazanmağa təşviq etməkdir.

2) *Həvəsləndirmə funksiyası* – özündə təhsilin davam etdirilməsi və daha da təkmilləşdirilməsini ehtiva edir. Onun əsas məqsədi tələbələrə yeni-yeni uğurlar qazanmaq üçün ilham vermək, onları yeni hədəflərə çatmaq və yeni biliklər əldə etməyə təşviq etməkdir.

3) *Analitik-korrektəedici funksiya* – müəllimin pedaqoji refleksiyası, özünütəhlil və pedaqoji prosesi təşkil etməsi və planlaşdırması ilə əlaqələndirilir.

4) *Tərbiyə və inkişaf etdirmə funksiyası* – adekvat özünüdəyərləndirmə, məsuliyət, əzmkarlıq və digər sosial cəhətdən dəyərli xüsusiyyətlərin aşılanması ilə əlaqəlidir.

5) *Nəzarət funksiyası* – nailiyyət səviyyəsinin təyin olunmasını, norma və standartlara uyğunluğunu, daha yüksək bilik əldə etmə və inkişaf səviyyələrinə doğru irəliləməsini təmin edir [4, s. 241].

Qiymətləndirmədən fərqli olaraq, "monitorinq parametrin qiymətinin, obyekt və ya sistemin halının – keyfiyyət göstəricisinin dəyişmə xüsusiyyətlərinin, bu dəyişmələrin səbəblərini, onlara təsir etmək yollarını müəyyənləşdirməyə imkan verir. Beləliklə, monitorinq baş verən dəyişikliklərin xüsusiyyətlərini öyrənmək və müvafiq qərarların qəbul edilməsi məqsədi ilə vəziyyət haqqında informasiyanın fasiləsiz və sistemli şəkildə yığılması və təhlili prosesidir. Müasir dövrdə monitorinq müxtəlif fəaliyyət sahələrində, o cümlədən təhsildə uğurla tətbiq olunan texnologiya kimi qəbul olunur" [1].

Belə bir sistemin yaradılması mərhələsində idarəetmə qərarlarına əhəmiyyətli dərəcədə təsir göstərə biləcək prioritet monitorinq obyektlərinin müəyyənləşdirilməsi vacib məqamlardan biri kimi dəyərləndirilir. Prioritet monitorinq obyektlərinə, ilk növbədə kadr hazırlığı ilə məşğul olan mütəxəssislərin keyfiyyəti,təhsil xidmətləri istehlakçılarının ehtiyacları və məmnuniyyəti daxildir [1].

Pedaqoji monitorinqin mahiyyətini, quruluşunu və nəticələrini anlamaq üçün müvafiq elmi yanaşmaları təhlil etdiyimizdə müasir pedaqogika elmində və praktikada monitorinqə sistemli bir yanaşmanın hələ formalaşmadığını müşahidə edirik. Bu da öz növbəsində, bir tərəfdən tədqiqat fəaliyyətinin praktik yönümünü, digər tərəfdən praktik pedaqoji fəaliyyətin nəzəri etibarlılığını əhəmiyyətli dərəcədə azaldır [5].

Professor Abdulla Mehrabovun vurğuladığı kimi, pedaqoji monitorinq və qiymətləndirmə sistemi olmadan, təhsil prosesinin səmərəliliyini elmi əsaslarla proqnozlaşdırmaq, planlaşdırmaq, təşkil etmək, tənzimləmək və səmərəli idarə etmək mümkün deyil. İrəli sürülən bu fikir onunla əsaslandırılır ki, monitorinq və qiymətləndirmə prosesi özü-özlüyündə həm pedaqoji proses iştirakçılarının qarşılaşdıqları problemləri müəyyənləşdirməyə, pedaqoji kollektivin fəaliyyətinin inkişafına və təkmilləşməsinə, eyni zamanda pedaqoji proses iştirakçılarının fəaliyyətinin məqsədəmüvafiqliyini müəyyənləşdirməyə imkan verir.

“Bu baxımdan təhsil müəssisələrində pedaqoji monitorinq sisteminin yaradılması və müntəzəm həyata keçirilməsi təhsil prosesinin ən vacib şərtlərindən biridir. Bu, sadəcə müəssisədə pedaqoji prosesin planlaşdırılması, təşkili, prosesin gedişinə nəzarət edilməsi deyil, həm də tətbiq olunan metodların və metodikanın yoxlanılması və təkmilləşdirilməsi üçün əsas vasitədir” [2, s. 224-225].

“Monitorinq” anlayışının meydana çıxması, müəyyən obyektlərin və strukturların vəziyyəti haqqında obyektiv və subyektiv məlumatlara ehtiyac duyan informasiya cəmiyyətinin formalaşması və inkişafı ilə əlaqələndirilir. Bu konsepsiya pedaqogikada elmi tədqiqat aparmaq və ya idarəetmə nəzarətini təşkil etmək üçün təhsillə bağlı məlumatların toplanması, işlənməsi, saxlanması və yayılması sistemi kimi istifadə olunmağa başlandı.

İnsan fəaliyyətinin hər hansı bir sahəsində, şüurlu və qəbul edilmiş bir sistem olmadan müsbət dinamikaya nail olmaq mümkün deyil. Son illərdə mütəxəssislərin və tədqiqatçılaırn dəstəyi ilə təhsil müəssisələrinin reytinqini, eləcə də müəllimlərin xüsusi diqqətini tələb edən sahələri müəyyənləşdirilmişdir. Eyni zamanda, qarşıya əhəmiyyətli çətinliklər çıxsa da, işin vəziyyətini obyektiv şəkildə qiymətləndirməyə imkan verəcək monitorinqi dərhal təşkil etmək mümkün olmuşdur. Təhsil və tədris prosesinin subyektlərinin hər biri – müəllimlər, şagirdlər, tələbələr, valideynlər, təhsil ekspertləri və bütövlükdə ictimaiyyət aparılan monitorinqin iştirakçıları rolunda çıxış edirlər. Onların bu prosesdə iştirak dərəcələri fərqli prizmalardan ölçülür. Məsələn, cəmiyyət bir təhsil müəssisəsi haqqında müəyyən bir məlumat alır, bu məlumatlar əsasında ictimai rəy formalaşır. Tələbə onu öyrəndikdən sonra bu təhsil qurumunu seçir [5].

Təhsildə, ələlxüsus universitetlərdə təhsilin qiymətləndirmə və monitorinqindən danışarkən onu vurğulamaq lazımdır ki, müvafiq beynəlxalq təşkilatlar müəyyən bir ölkədə və ya bölgədə mövcud olan ali təhsilin vəziyyətini qiymətləndirir, eyni zamanda təhsil göstəricilərinə əsasən ölkələrarası müqayisələr aparmaq məqsədi ilə müxtəlif monitorinq sistemlərindən istifadə edirlər.

Məsələn, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı “Təhsil sistemlərinin beynəlxalq göstəriciləri” layihəsi çərçivəsində beynəlxalq müqayisələr üçün təhsil göstəriciləri sistemi hazırlamışdır və hər il müxtəlif ölkələrdəki göstəricilərə dair məlumatlar toplayır. Bu göstəricilər

universitetlərin iqtisadi və insan resurslarını, tədris prosesinin təşkilini, universitetlərin əldə etdikləri nəticələri və bu nəticələrin cəmiyyətə təsirini xarakterizə edir.

YUNESKO üzvü olan ölkələr tərəfindən "XXI əsr üçün Ümumdünya Ali Təhsil Bəyannaməsi"nin imzalanmasından sonra, ali təhsil üçün göstəricilər sistemi işlənib hazırlanmışdır. Bu göstəricilərin dəyərləri Birləşmiş Millətlər Təşkilatının adıçəkilən qurumuna üzv ölkələrdə ümumdünya bəyannaməsinin məqsədlərinin həyata keçirilmə müddətini izləməyə imkan verir. Göstəricilər ali təhsilin mövcudluğu, ali təhsil sisteminin modernləşdirilməsi, ali təhsil təşkilatlarının səmərəliliyi və əmək bazarı üçün müasir mütəxəssislərin hazırlanması kimi təhsil sisteminin xüsusiyyətlərini qiymətləndirir.

Pedaqoji monitorinq sistemi təhsil müəssisəsində tədris-təlim prosesinin vəziyyəti haqqında səhih informasiyanın toplanmasına istiqamətlənməli və buraya aşağıdakıların daxil edilməsi məqsədə müvafiq hesab olunmalıdır:

- ✓ təhsil müəssisəsinin, müəllim və təhsil alanın fəaliyyətinin qiymətləndirilməsi;
- ✓ təhsil alanların bilik və bacarıqlanndakı çatışmazlıqların və ləngimənin vaxtında müəyyən edilməsi;
- ✓ təlim-tədris prosesinin səmərəli təşkili üçün tələb olunan qiymətləndirmə sistemlərinin yaradılması;
- ✓ təhsil müəssisəsini idarəedənlərin fəaliyyətinin diaqnostikası, fəaliyyət funksiyalarının müasir tələblərə uyğunlaşdırılması üçün müvafiq tədbirlərin görülməsi [2, s. 225].

Ümumiyyətlə, ali təhsilin monitorinqi və qiymətləndirilməsi məsələləri həm akademik mühitdə, həm də geniş ictimaiyyətdə hər zaman xüsusi maraq doğurur. Beləliklə, son illərdə tədqiqatçılar tərəfindən ali təhsil sisteminin müxtəlif sahələrinin (universitet məzunlarının məşğulluğu, təhsil xidmətləri istehlakçılarının fikirləri və s.) monitorinqi məsələlərinə həsr olunmuş tədqiqat əsərlərinin sayı artmışdır.

Təhsil sisteminin monitorinqinin əsas məqsədləri özündə təhsil siyasətinin hazırlanması və həyata keçirilməsinə verilən informasiya dəstəyi, təhsilin vəziyyətinin və inkişaf perspektivlərinin təhlili, təhsil sisteminin fəaliyyətinin səmərəliliyinin gücləndirilməsi və təhsil qanunvericiliyinin tələblərinin pozulması məqamlarının müəyyənləşdirilməsi və s. ehtiva edir [8].

2013-cü ilin avqustunda Rusiya Federasiyasında təhsil sisteminin monitorinqinin keçirilməsi qaydaları təsdiq edilmişdir. Adıçəkilən qaydalar müəyyənləşdirmişdir ki, "Ali təhsil" alt bölməsinə daxil olan məlumatların toplanması birbaşa təhsil müəssisələri tərəfindən aparılmış özünütəftiş imtahan çərçivəsində həyata keçirilir. Özünütəftiş təhsil təşkilatlarının fəaliyyəti haqqında məlumatların mövcudluğunu və açıqlığını təmin etmək məqsədi ilə həyata keçirilir.

YUNESKO və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının timsalında beynəlxalq səviyəli qurumların, eləcə də Fransa, Polşa, Tunis, Lesoto Krallığı nümunəsində Avropa və Afrikanın, həmçinin yaxın qonşumuz Rusiya Federasiyasının ali təhsilin monitorinqi və qiymətləndirilməsi təcrübəsinin müqayisəli-analitik təhlilinə nəzər yetirməyi məqsədəuyğun hesab etmək olar.

Fransa və Polşada son on ildə bir sıra göstəricilərdən istifadə olunaraq ali təhsil sistemi haqqında məlumatlar toplanmışdır. Tunis və Lesoto Krallığı təhsil sistemi haqqında məlumatların açıqlığını təmin etmək üçün ilk addımları atır və ölkələrdə ali təhsilin inkişafına dair dövlət tərəfindən təsdiqlənmiş hədəflərə çatma müvəffəqiyyətini xarakterizə edən göstəricilərdən istifadə edərək, ali təhsilin monitorinqi sistemlərini inkişaf etdirirlər.

Rusiyada universitetlərin monitorinqi və qiymətləndirilməsi məqsədi ilə ali təhsilin əlçatanlığını xarakterizə etmək üçün iki göstəricidən istifadə olunur:17-25 yaş arasında olan ölkə əhalisi arasında ali təhsilə malik olan vətəndaşlar ilə xüsusi statusa malik olan universitetlərdə təhsil alan tələbələrin nisbəti.

Əlbəttə, xüsusi statusa malik olan universitetlərdə, bir qayda olaraq, abituriyentlərin seçilməsi üçün daha sərt meyarlar müəyyən edilir. Adıçəkilən universitetlərdə təhsilin monitorinqini və qiymətləndirilməsini daha dolğun xarakterizə etmək məqsədi ilə ümumi ölkə üzrə mövcud olan abituriyent sayı ilə xüsusi təyinatlı ali məktəblərə qəbul olunanların sayının faiz göstəricisini müqayisə etmək mümkündür. Bu göstərici xüsusi statusu olmayan universitetlərdə oxşar göstərici ilə müqayisə edilə bilər ki, bu da xüsusi statusu olan və olmayan universitetlərdə təhsilin mövcudluğundakı fərqləri qiymətləndirməyə imkan verəcəkdir [5].

Əksər dünya dövlətlərində ali təhsilin monitorinqi və qiymətləndirilməsi üçün tələbələrin cinsinə, sosial-iqtisadi vəziyyətinə (onların ailə gəlirləri, valideynlərinin təhsil və peşə statusu) və yaşayış bölgəsinə görə bölgüsünü xarakterizə edən göstəricilərdən istifadə olunur. Həmçinin, ali təhsilin əlçatanlığı nəzərdən keçirilərkən "ömür boyu təhsil" konsepsiyasının həyata keçirilməsinə uyğun olaraq, yalnız gənclər üçün deyil, həm də daha yuxarı yaş kateqoriyasına aid olan vətəndaşlar üçün də təhsilin əhatə dairəsi nəzərə alınır.

Bəzi ölkələrə məxsus olan ali təhsilin monitorinqi sistemlərində əlil tələbələrin sayının təhsil formaları üzrə (əyani, qiyabi, axşam) bölgüsünü əks etdirən göstəricilər mühüm amil kimi dəyərləndirilir. Bu göstəricilər dolayı yolla onların tələbə həyatına cəlb olunmasını xarakterizə edir [8].

Türkiyədə təhsilin monitorinqi və qiymətləndirilməsi, ilk növbədə tələbə məmnuniyəti ilə ölçülür. Ali təhsildə tələbə məmnuniyətinin ölçülməsi 2015-ci ildən bəri strateji planlaşdırma və keyfiyyət qiymətləndirməsi üçün vacib bir məlumat mənbəyi kimi istifadə edilməyə başlamışdır. Ali təhsil müəssisələri tələbələrin məmnuniyyətini ölçə, güclü və zəif tərəflərini müəyyənləşdirə və xidmət keyfiyyətinin yaxşılaşdırılması fəaliyyətləri üçün vacib məlumatlar əldə edə bilirlər [3, s. 380].

Təhsildə qiymətləndirmə və monitorinqin əhəmiyyətini, rolunu və onların pedaqoji əhəmiyyətini araşdırdığımızda, pedaqoji qiymətləndirmənin və monitorinqin effektivlik səviyyəsini müəyyənləşdirmək məqsədi ilə monitorinq iştirakçıları tərəfindən alınan məlumatın əhəmiyyətinin subyektiv-refleksiv qiymətləndirilməsinin nəticələrinə müraciət etdik. Bu nəticələrə istinad edərək deyə bilərik ki, pedaqoji qiymətləndirmə və monitorinqin prinsiplərinin aşağıdakı tələbləri fəaliyyət göstəriciləri kimi qəbul edilə bilər:

- ✓ məlumat etik baxımdan tutarlıdır və şəxsin individual hüquqlarını pozmur;
- ✓ məlumat fərdin təhsil fəaliyyətinin şəxsi və qrup məqsədlərini konkretləşdirməyə zəmin yaradır;
- ✓ məlumat, peşə hazırlığı səviyyəsini daha yaxşı qiymətləndirməyə və bir fərdin özünütəsdiq inkişafının ən təsirli yollarını təyin etməyə kömək edir;
- ✓ məlumat fərdin peşəkarlıq səviyyəsini yüksəltməyə sövq edir və onun özünüinkişafını stimullaşdırır;
- ✓ məlumat özündə təhsil fəaliyyətinin iştirakçıları arasında konstruktiv dialoqu ehtiva edir;
- ✓ məlumat fərdin peşəkar qrupunda yaranan problemlərin rasional həlli üçün şərait yaradır;
- ✓ alınan məlumatlar sayəsində təhsil fəaliyyətində iştirak edənlər arasında qarşılıqlı anlaşma inkişaf edir;
- ✓ məlumat təcavüzkar xarakter daşımır və şəxs üçün kifayət qədər əlçatandır;
- ✓ məlumat ünsiyyət mədəniyyətini yaxşılaşdırmağa kömək edir;
- ✓ məlumat "Dövlət Təhsil Standartı"nın tələblərinə uyğun olaraq, tədris prosesində tətbiqetmə keyfiyyətini qiymətləndirməyə kömək edir.

Beləliklə, təqdim olunan pedaqoji qiymətləndirmə və monitorinqin metodologiyası spesifik monitorinq texnologiyalarının inkişafı üçün nəzəri əsas hesab edilir. Hər bir texnologiyanın özünəməxsusluğu pedaqoji qiymətləndirmənin və monitorinqin obyekti və subyekti,

pedaqoji məlumatların alınması formaları, metodları, üsulları və vasitələri, eləcə də pedaqoji monitorinqdə iştirak edən subyektlər tərəfindən müəyyənləşdirilir.

ƏDƏBİYYAT

1. Hacıyeva T. Monitorinq, qiymətləndirmə və təhsilin keyfiyyəti // https://www.edu.gov.az/upload/file/monitorunqveqiymetlendirme/edebiyyat/monitorinq-qiymetlendireme-ve-tehsilin-keyfiyyeti.pdf
2. Mehrabov A.O. Müasir təhsilin konseptual problemləri. Bakı, "Mütərcim", 2010, 512 s.
3. Şimşek H., İslim Ö.F., Öztürk N. Yükseköğretimde kalite arayışında bir gösterge olarak öğrenci memnuniyeti: bir ölçek geliştirme çalışması // Trakya eğitim dergisi. № 3, cilt 9, 2019, s. 380-395
4. Загоруйко Т.В., Диденко С.Ю., Черепанская Е.И., Лактионова Е.Е., Титова Л.И., Лебедева В.В. Понятие оценивания в образовании // Молодой учёный. № 45 (231). М., 2018, с. 240-242
5. Коваленко И.В. Педагогический мониторинг как средство управления качеством образования // https://cyberleninka.ru/article/n/pedagogicheskiy-monitoring-kak-sredstvo-upravleniya-kachestvom-obrazovaniya/viewer
6. Лебедева А.С. Качество образования в соответствии с требованиями новых образовательных стандартов СПО // Концепт (научно-методический электронный журнал). Том 30, 2017, с. 36-41
7. Хильченко Л.Н., Баженов Р.И., Кириллова Д.А. Мониторинг качества высшего профессионального образования: проблемы и перспективы // Modern research of social problems (электронный научный журнал). № 9 (53), 2015, с. 757-775
8. Designing effective monitoring and evaluation of education systems for 2030: A global synthesiss of policies and practices. UNESCO Education Sector Division for Policies and Lifelong Learning Systems (ED/PLS) Section of Education Policy // http://www.unesco.org/new/fileadmin/MULTIMEDIA/HQ/ED/pdf/me-report.pdf

ALİ TƏHSİLDƏ QİYMƏTLƏNDİRMƏ VƏ MONİTORİNQİN XÜSUSİYYƏTLƏRİ

XÜLASƏ

Universitetlərdə kadr hazırlığı keyfiyyətinin idarə edilməsinin strateji və əməliyyat tapşırıqlarını həll etmək üçün müvafiq universitetin mənbələri, prosesləri və nəticələri barədə obyektiv məlumatlara sahib olmaq lazımdır ki, bu da öz növbəsində təhsil xidmətlərinin monitorinqi və qiymətləndirilməsi sisteminin yaradılması və saxlanmasını tələb edir.

Monitorinq bir parametrin dəyərini, bir obyektin və ya sistemin vəziyyətini – keyfiyyət göstəricisindəki dəyişikliklərin xüsusiyyətlərini, bu dəyişikliklərin səbəblərini və onlara təsir yollarını təyin etməyə imkan verir. Beləliklə, monitorinq, baş verən dəyişikliklərin xüsusiyyətlərini öyrənmək və müvafiq qərarlar qəbul etmək üçün vəziyyət haqqında məlumatların davamlı və sistematik şəkildə toplanması və təhlili prosesidir. Günümüzdə monitorinq təhsil daxil olmaqla müxtəlif fəaliyyət sahələrində uğurla istifadə olunan bir texnologiya kimi qəbul edilir.

ОЦЕНКА И МОНИТОРИНГ В ОБРАЗОВАНИИ

АННОТАЦИЯ

Для решения стратегических и операционных задач управления качеством подготовки кадров в вузах необходимо иметь объективную информацию о ресурсах, процессах и результатах соответствующего вуза, что, в свою очередь, требует создания и поддержания системы мониторинга и оценки образовательных услуг.

Мониторинг позволяет определить значение параметра, состояние объекта или системы – характеристики изменений показателя качества, причины этих изменений и способы на них повлиять. Таким образом, мониторинг – это процесс постоянного и систематического сбора и анализа информации о ситуации с целью изучения характеристик произошедших изменений и принятия соответствующих решений. В наше время мониторинг воспринимается как технология, успешно применяемая в различных сферах деятельности, в том числе в образовании.

ASSESSMENT AND MONİTORİNG İN EDUCATİON

SUMMARY

In order to solve the strategic and operational tasks of training quality management in universities, it is necessary to have objective information about the resources, processes and results of the relevant higher education institution, which in turn requires the establishment and maintenance of a system of monitoring and evaluation of educational services.

Monitoring allows you to determine the value of a parameter, the state of an object or system – the characteristics of changes in the quality indicator, the reasons for these changes, and ways to affect them. Thus, monitoring is the process of continuously and systematically collecting and analyzing information about the situation in order to study the characteristics of the changes that have taken place and to make appropriate decisions. In modern times, monitoring is perceived as a technology that is successfully applied in various fields of activity, including education.

YENİ TEXNOLOGİYALAR VƏ TƏDRİS PROSESİNİN İDARƏ OLUNMASI

Elmi rəhbər: dos. Bəxtiyarova Rəfiqə Ələkbər qızı
BDU-nun Pedaqogika kafedrası
Kərimli Təranə Nəbi qızı
BDU-nun II kurs magistrantı
teranerehimova94@gmail.com

Açar sözlər: yeni texnologiyalar, tədris prosesi, idarəçilik.
Ключевые слова: новые технологии, учебный процесс, менеджмент.
Keywords: new technologies, teaching process, management.

Tədris prosesinin doğru idarə edilməsi müasir dövrün əsas məsələlərindən biridir. Tədris prosesinin düzgün, qaydalara əsasən necə idarə edilməsinə bələd olmayan pedaqoq və rəhbər işçi lazımı şəkildə fəaliyyət göstərə bilməz.

Yaşadığımız zamanda həyat, elm, təhsil, mədəniyyət sürətlə inkişaf etməkdədir. Yeni texnologiyaların istifadəsi daha da genişlənir. Xüsusilə də tədris prosesində yeni metod və texnologiyalardan istifadə olunur. Bu da tədrisin daha səmərəli olmasına və təhsil alanların yaradıcı təfəkküründün inkişaf etməsinə, yeni bilikləri yaxşı qavramasına səbəb olur. Tədris prosesinin idarə edilməsi və yeni texnologiyalardan istifadə edilməsi dövrümüzün aktual məsələlərindən biridir.

Yeni texnologiyalar və tədris prosesinin idarə olunması məzmunu

Məcid İsmixanov və Rəfiqə Bəxtiyarovanın müəllifi olduğu "Məktəbin idarə edilməsi" kitabında oxuyuruq: "Müasir məktəb qarşısında duran vəzifələrin həlli onun necə idarə olunmasından çox asılıdır. Təhsil islahatı ilə bağlı məktəbdə təlimin məzmunu və texnologiyasının yeniləşməsi, maddi-texniki bazanın möhkəmlənməsi istiqamətində xeyli iş görülmüş, ciddi dəyişikliklər aparılmışdır. Məktəbin idarə edilməsi mexanizmi və demokratikləşdirilməsi istiqamətində də əsaslı təkmilləşməyə, yeniləşməyə böyük ehtiyac vardır" [1, s.5].

"Məktəbin idarə edilməsi" kitabında idarəetmə haqqında qeyd olunub ki: İdarəetmə fəaliyyətinin özünəməxsus məqsəd və vəzifələri vardır. Məktəbi idarəetmənin başlıca məqsədi cəmiyyətin məktəb qarşısında qoyduğu məqsəd və vəzifələrə uyğun olaraq dərin bilikli, müstəqil və yaradıcı düşünən, zəngin mənəviyyata, geniş dünyagörüşünə, milli və ümumbəşəri dəyərlərə yiyələnən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq vətəndaş və şəxsiyyətlər yetişdirməyi təmin etməkdən, habelə bunun üçün əlverişli şərait yaratmaqdan ibarətdir. Bu məqsədə uyğun olaraq məktəbi idarəetmə qarşısında bir sıra vəzifələr durur:

- təlim-tərbiyə işinin və bütövlükdə məktəbin demokratikləşdirilməsi və humanistləşdirilməsi;
- idarəetmədə az vaxt, qüvvə və vəsait sərf etməklə yüksək nəticələrə nail olmaq;
- məktəbdaxili nəzarət yolu ilə işdəki nöqsan və çatışmazlıqları vaxtında aşkara çıxarıb aradan qaldırmaq, təlimtərbiyə prosesinin səmərə və keyfiyyətini yüksəltmək;
- məktəb daxilində baş verən mürəkkəb münasibətləri, pedaqoji, psixoloji, metodik, təşkilatı prosesləri elmi əsasda tənzim etmək;
- təlim-tərbiyə işində yeni ideya və texnologiyaları tətbiq etmək, müəllimlərin nəzəri-metodik hazırlığını artırmaq, təşəbbüs və yaradıcılığını stimullaşdırmaq və s. [1, s.6].

Son dövrlər həyata keçirilən müasir təlim metodları tədrisin səmərəliliyini daha da artırıb. Azərbaycan müstəqillik qazandıqdan sonra demokratik ölkənin əsas prinsiplərinə uyğun yeni, müasir tələblərə cavab verən təhsil sisteminin qurulmasına başlanılıb. Hazırda tədris-təlim prosesində yeni texnologiyaların tətbiqi, pedaqoji prosesin idarəedilməsində yeni yanaşmalardan istifadə, keyfiyyətli sinif-dərs sisteminin qurulmasına geniş imkanlar açır. Bu halda sinif mühitində son dərəcə əhəmiyyətli dəyişikliklər baş verir, öyrədənlə öyrənən arasında, şagirdlərin öz aralarında və məktəblə valideynlər arasında müasir tələblərə cavab verən qarşılıqlı əlaqələr qurulur. Müasir təlim metodlarından biri olan interaktiv təlim üsullarından və İKT-dən geniş istifadəyə yeni imkanlar yaranır. Bu isə müasir təlim prosesinin qarşıya qoyduğu məqsədlərə çatmağı daha da sürətləndirir [3, s.43].

Təlimin keyfiyyəti yeni təlim texnologiyalarının tətbiqi ilə sıx bağlıdır. Belə texnologiyalar içərisində elektron təlim texnologiyaları (ETT) mühüm yer tutur. Hazırda təlim prosesinin elektronlaşdırılması istiqamətində əməli işlər aparılır: elektron kitabxanalar, dərsliklər, xəritələr, lövhələr, multimedia diskləri, izahlı rəqəmsal videoyazılar, elektron qiymətləndirmə vasitələri təlim prosesinə daxil edilməkdədir, elektron dərsliklər iki tipdə - həm kompüterdə işləyən multimedia diskləri, həm də DVD pleyer qurğusunda işləyən rəqəmsal DVD video diskləri şəklində hazırlanır. İnformasiya və kommunikasiya texnologiyalarının köməyi ilə məktəbi idarəetmə sistemi hazırlanmışdır. Bu sistem məktəbin bütün sahələrini əhatə edən informasiyaları, o cümlədən interaktiv təlim materiallarını (multimedia materialları, çalışmaları, testləri və interaktiv dərsləri) əks etdirir. Bu sistemin tətbiqi məktəbi daha keyfiyyətli və şəffaf idarə etməyə, lazımi məlumatları operativ almağa imkan verir, habelə məktəb rəhbərlərini müxtəlif hesabatlar, məlumatlar və s. tərtib etməkdən azad edir. [1, s.105-106].

XXI əsr müxtəlif fənlərin təlimində kompüter texnologiyalarının geniş istifadə edilir. Bu labüdlük işçiyə öz tələblərini irəli sürən bizim zəmanəmizin xüsusiyyətləri ilə müəyyən edilir: yüksək professionallıq, yeni biliklərin, texnologiyaların istifadə edilməsində operativlik. Bu gün informasiya texnologiyalarının geniş istifadəsi ilə informasiya mədəniyyətinin yüksəldilməsi işin yeni formalarının daimi axtarışı deməkdir. Humanitar biliklər də daxil olmaqla bütün təhsil sistemi bizə informasiya texnologiyaları təqdim edən resurslara əsaslaır. Kompüter savadlılığın formalaşdırılması çox böyük sərbəst iş tələb edir ki, buna da aşağıdakılar daxildir: mətn prosessorundan, sadə qrafik redaktələrdən istifadəni öyrənmək; mətnlərin xarici yaddaşda saxlanmasını təşkil etmək və onların çapa hazırlanması və s. Pover Point proqramında iş texnologiyasını bilmək slaydlardan ibarət olan dərs - təqdimatı işləyib hazırlamağa və həyata keçirməyə imkan verir. İnformasiya texnologiyaları fənnin öyrənilməsinə marağı artırmağa, informasiya sahəsini genişləndirməyə, informasiyanın alınması və istifadə edilməsini sürətləndirməyə, şagirdlərin idrak qabiliyyətlərini inkişaf etdirməyə imkan yaradır. Abstrakt düşüncəyə keçid mühitdən, tərbiyə və təlimdən asılıdır, əgər düşünmək üçün obyektlər yoxdursa, onda intellektin inkişafı dayanır. Kompüter məhz belə obyektlərin daşıyıcısıdır. Təhsil müəssisəsində İnternet şəbəkəsindən, mətnlərin işlənməsindən, kompüter kabinetinin imkanlarından istifadə etməklə dərslərin işlənib hazırlanmasıın yaradılmasından istifadə üçün şəraitin olmasına baxmayaraq, müxtəlif səbəblər bu imkanları məhdudlaşdırır. İnformasiya texnologiyalarının tətbiqi ilə iş müəllimlər tərəfindən tez-tez xüsusi təşkil edilmiş hazırlıq olmadan, müvafiq kurslar keçmədən, kompüterə hakim olanların: proqramçıların, informatika müəllimlərinin köməyi olmadan həyata keçirilir. Onların köməyi olmadan bu cür təcrübənin qazanılması çox çətin olur [5, s.54].

Əksər məktəblərdə interaktiv lövhələrin köməyi ilə dərslərin səmərəli, maraqlı və şagirdlərin fəallığı şəraitində keçirilməsi və informasiyaların tez, asan çatdırılması təmin olunur. Tədris filmləri və fraqmentləri, televiziya verilişləri, audiovizual dərsliklər, rollu oyunlar

əsasında keçirilən dərslər şagirdləri fəallaşdırmağa, müstəqil düşünməyə, sərbəst fikir söyləməyə və münasibət bildirməyə əlverişli şərait yaradır. Tədris prosesində interaktiv metodların çox müxtəlif növləri tətbiq olunur: beyin həmləsi («əqli hücum»), bibo, klaster (şaxələndirmə), auksion, söz assosiasiyaları, müsabiqə, rollu oyunlar, işgüzar səs-küy, Sokrat dialoqu, sinektika (oxşarlıq tapmaq üzrə müzakirə) metodları, cütlük və qrupla təlim formaları bu qəbildəndir. İnteraktiv təlimdə müəllim təşkilatçı və məsləhətçi, şagirdlər isə tədqiqatçı, yaradıcı və dərsin fəal iştirakçıları kimi çıxış edirlər. Onlar öz aralarında mübahisə edir, diskussiya aparırlar. Bütün bunlar isə təlimin fəallaşdırılması və keyfiyyəti baxımından böyük əhəmiyyət kəsb edir [1, s.106].

Qeyd edək ki, müasir təlim prosesinin başlıca məqsədi idrak fəaliyyətini gücləndirmək, öz düşüncəsi, güclü məntiqi ilə fənləri dərindən öyrənməklə, onu tətbiq etməyi bacarmaqdır. Məqsəd hər cür situasiyada çıxış yolunu tapmağı bacaran yüksək intellektli gənclər yetişdirməkdir [2, s.12].

Müasir dərsin başlıca cəhətlərirndən biri şagirdlərin fəallığıdır ki, buna da fəal-interaktiv təlim metodlarından istifadə etməklə nail olmaq mümkündür. Bu metodlara əsasən sadaladığımız iş formaları müəyyən edilir: fərdi, cütlərlə, böyük və kiçik qruplarla iş. Şagird müsahibə prosesində özünü daha fəal hiss edir. Dərsdə qruplarla, cütlərlə iş şagirdlərin tədqiqatını artırır, onların bir-biri ilə əməkdaşlıq, yaradıcılıq, qarşılıqlı münasibətlərini formalaşdırır. Həmçinin ölkəmizdə son illər təhsilin maddi-texniki bazasının möhkəmləndirilməsi ilə əlaqədar çox vacib işlər görülüb. Hazırkı dövrdə məktəblərdə informasiya, kommunikasiya texnologiyalarından geniş istifadə edilməsi, dərsliklərin tarix fənn kurikulumu əsasında işlənib hazırlanması, əyani vasitələrdən istifadə təlimin keyfiyyətinin səmərəliliyini yüksəldir, şagirdin məntiqi, tənqidi və yaradıcı təfəkküründü formalaşdırır. İnkişaf etmiş Qərb dövlətlərinin təhsil sistemində istifadə edilən aktiv və ya interaktiv təlim metodlarının tətbiqi respublikamızın təhsil müəssələrində geniş istifadə edilməkdədir [4, s.61].

Müasir təlim texnologiyalarında şagirdlərin intelektual səviyyəsi, mənəvi cəhətdən inkişaf etdirilməsi ön plana keçirilir. Müasir təlim texnologiyaların təlimdə tətbiqi şagirdlərin öz fikirlərini aydın, məntiqi ardıcıllıqla ifadə etmələrinə, nitq və lüğət bazalarının inkişafına istiqamət verir. Bu metodlar şagirdlərin yaradıcılıq qabiliyyətini inkişaf etdirməklə, onlarda yüksək mədəniyyəti formalaşdırır [2, s. 30].

Beləliklə, son olaraq qeyd edək ki, tədris prosesində yeni təlim texnologiyalarının tətbiq edilməsi nəticəsində təhsil alanlar həm tədris, həm də sosial xarakterli məsələlərin müstəqil olaraq həllinə cəlb olunur, bir çox informasiya mənbələrindən və sənədli materiallardan istifadə edərək sistemli şəkildə biliklərini artırırlar.

ƏDƏBİYYAT

1. İsmixanov M.A., Bəxtiyarova R.Ə. (2012) Məktəbin idarə edilməsi. Pedaqoji institut və universitet tələbələri üçün dərs vəsaiti. Bakı, 236 səh.
2. Kərimov Y.Ş. (2011) Təlim prosesində yeni texnologiyalar, Bakı.
3. Mehrabov A.O. (2006) Pedaqoji texnologiyalar, Bakı.
4. Topçiyeva Ş.Ə. və b. (2006) Həyati bacarıqlara əsaslanan təhsil. V-XI siniflər. Bakı.
5. Veysova Z. (2007) Fəal interaktiv təlim: müəllimlər üçün vəsait. Bakı.

XÜLASƏ

Məqalədə yeni texnologiyalar və tədris prosesinin idarə olunması şərh edilmişdir. İlk öncə onu qeyd edək ki, idarəçilik mühüm şərtdir. Məktəb və başqa təhsil müəssisələri nə qədər çoxmüasir texnoloji avadanlıqlarla, yeni təlim texnologiyaları ilə təchiz olunsa da, burada əsas aparıcı qüvvə onlardan istifadə etməyi bacaran pedaqoji kollektivdir. Bunun üçün də yeniləşmə meyli birinci növbədə onlarda olmalıdır. Müəllimlərin yeni texnologiyaları mənimsəməsi, onlardan istifadə etməsi nəticəsində şagirdlər daha çox bilik, bacarıq və vərdişlərə yiyələnirlər. Bu da müəllimdən daha çox bacarıq, və peşəkarlıq tələb edir. Həmçinin müəllimlər pedaqoji prosesə daha yaradıcılıqla yanaşmağa məsuliyyətli olurlar.

Təhsildə yeniləşmə elmi əsaslara söykənən bir prosesdir. Belə bir əsası olmayan “yenilik” ya geniş yayıla bilmir, ya da uzun müddət yaşamır.

АННОТАЦИЯ

В статье рассматриваются новые технологии и управление учебным процессом. Прежде всего, следует отметить, что управление - важное условие. Независимо от того, насколько школы и другие учебные заведения оснащены современным технологическим оборудованием, новыми технологиями обучения, основной движущей силой здесь является педагогический состав, который умеет ими пользоваться. Для этого они, прежде всего, должны иметь тенденцию к инновациям. В результате того, что учителя осваивают и используют новые технологии, студенты приобретают больше знаний, навыков и привычек. Это также требует от учителя больше навыков и профессионализма. Учителя также несут ответственность за более творческий подход к педагогическому процессу.

Инновации в образовании - это процесс, основанный на научных принципах. Подобное безосновательное «нововведение» либо мало распространено, либо длится недолго.

SUMMARY

The article discusses new technologies and management of the teaching process. First of all, it should be noted that governance is an important condition. No matter how much schools and other educational institutions are equipped with modern technological equipment, new learning technologies, the main driving force here is the pedagogical staff that is able to use them. For this, they must first of all have a tendency to innovate. As a result of teachers mastering and using new technologies, students acquire more knowledge, skills and habits. This also requires more skills and professionalism from the teacher. Teachers are also responsible for a more creative approach to the pedagogical process.

Innovation in education is a process based on scientific principles. Such an unfounded "innovation" is either not widespread or does not last long.

ÜMUMTƏHSİL SISTEMİNDƏ YENİ QİYMƏTLƏNDİRMƏ MEXANİZMİNİN TƏTBİQİ

Elmi rəhbər: Çıraqova Vəfa
BDU-nun Pedaqogika kafedrasının müəllimi
Hüseynova Ləman
BDU-nun II kurs magistrantı
lemahuseynova@gmail.com

Açar sözlər: qiymətləndirmə, məktəbdaxili kurrikulum, konsepsiya, diaqnostik, formativ, summativ, beynəlxalq, milli, təhsil.
Ключевые слова: оценка, в школе, учебная программа, концепция, диагностический, формирующий, суммативный, международный, национальный
Key words: assessment, intramural, curriculum, concept, diagnostic, formative, summative, international, national.

Bildiyimiz kimi,qiymətləndirmənin 3 növü var: Beynəlxalq,milli və məktəbdaxili.

Beynəlxalq qiymətləndirmə proqramı olan PİSA-da ölkəmiz 2006-cı ildən iştirak edib. Bu müxtəlif ölkələrin şagirdlərinin oxu, riyaziyyat və təbiət elmləri üzrə bacarıqlarının, eyni zamanda müxtəlif tipli problemləri həlletmə qabiliyyətlərinin qiymətləndirilməsi məqsədi ilə aparılır. Bundan əlavə ölkəmiz Tims və Pirls beynəlxalq qiymətləndirmə proqramına qoşulub.Bu proqramlar digərindən fərqli olaraq şagirdlərin yaşına görə deyil, kurrikuluma görə qiymətləndirilir. TİMS -riyaziyyat və təbiət elmləri üzrə orta təhsilin keyfiyyətini qiymətləndirmək üçün tətbiq olunan beynəlxalq qiymətləndirmə proqramıdır. PİRLS-oxunun və qavramanın keyfiyyətini tədqiq edən beynəlxalq qiymətləndirmə proqramıdır.

Şagird nailiyyətlərinin yoxlanılması üçün milli qiymətləndirmə çox vacibdir.Milli qiymətləndirmə 1 növ tədqiqat hesab olunur. Təhsilin bir səviyyəsindən digərinə keçid zamanı, yəni 4 və 9-cu siniflərdə aparılan milli qiymətləndirmədə ölkədə təhsil alan bütün şagirdlərin iştirakı mütləq deyil. Çünki bu qiymətləndirmədə şagirdlərin seçimi kəmiyyətə görə deyil, digər parametrlərə əsasən aparılır.

Məktəblərdəki fəaliyyət effektiv təlim nəticələri əsasında getdikcə genişlənir. Bir çox ölkələrdə şagirdlərin, müəllimlərin qiymətləndirilməsi üçün bir sıra texnikalardan istifadə edilir. Bizim ölkəmizdə "qiymətləndirmə" dedikdə yalnızca təhsilalanların təlim nəticələri nəzərdə tutulur. Dövlətlərin təcrübəsi göstərir ki, qiymətləndirmə müxtəlif istiqamətlərdə reallaşdırılır, belə ki, dünya təcrübəsində təhsilalanın biliyinə verilən qiymət həm də müəllimlərin və məktəbin fəaliyyətinə, valideynin təhsilə münasibətinə, məktəb rəhbərlərinin peşəkarlıq səviyyəsinə verilən qiymət kimi qəbul edilir.

Qiymətləndirmə təhsil prosesinin tərkib hissəsidir. Onun yaranma tarixi də çox qədimdir. Araşdırmalar göstərir ki, ilk qiymətləndirmə Çində tətbiq olunmuşdu. Çində bu qiymətləndirmə "Çin imperiya imtahanları" adlandırılırdı. Burada dövlət məmuru kimi çalışmaq üçün imtahandan keçmək lazım idi. Şifahi, sonralar həm də yazılı aparılan bu imtahanlar çində 1905-ci ilədək davam etmişdi.

Avropada da məktəblərin yarandığı gündən şagirdlərin biliklərini ölçmək haqqında müxtəlif yollar düşünürdülər. Buna görə onlar müxtəlif üsulları təcrübədən keçiridilər. Əvvələr imtahanlar şifahi götürülürdü. İlk yazılı imtahanların tarixi isə 1792-ci ildə Kembric Universitetindən başlanır.

XX əsrin əvvəllərindən başlayaraq təhsil sahəsində inkişaf meyilləri gücləndikcə şagird nailiyyətlərinin qiymətləndirilməsi ilə bağlı yeni ideyalar meydana çıxırdı. Həmin dövrdə ABŞda "mütərəqqi təhsil ideyası" yarandı və tədricən digər ölkələrə də yayıldı.

Bütün ölkələrdə qiymətləndirmənin geniş yayılmış növlərindən ədalətli təhsil sistemi üçün istifadə edilir.

İqtisadi əməkdaşlıq və inkişaf təşkilatı qiymətləndirmənin çətinliklərini 5 qrupda birləşdirir.

İdarəetmə və tətbiqetmə

Şagird qiymətləndirilməsi

Müəllim qiymətləndirilməsi

Məktəbin qiymətləndirilməsi

Sistemin qiymətləndirilməsi

Qiymətləndirmənin məqsədləri:

-Tələbənin biliklərdən istifadə bacarıqlarına necə yiyələndiyini müəyyənləşdirir.

- Şagirdin hərəkətlərinin nəticəsini müstəqil qiymətləndirmə qabiliyyətini inkişaf etdirmək.

-Tələbəni müvəffəqiyyət üçün motivasiya edin, rahat bir mühit yaradın, uşaqların psixoloji sağlamlığını qoruyun.

Dəyişən, inkişaf edən ölkəmizdə yeni islahatlar həyata keçirilir. Təhsil sistemində də yeni islahatlara ehtiyac var idi.təhsilsiz cəmiyyət olmaz. Ölkə rəhbərliyimiz də təhsilə xüsusi diqqət ayırır. təhsil sistemində yeni qiymətləndirmə konsepsiyası 13 yanvar 2009-cu ildə təsdiq edilmişdir. Yeni qiymətləndirmə konsepsiyası ilk növbədə təhsilin keyfiyyətini artırmağa xidmət edir. Belə ki, əvvəllər elə özümün oxuduğum dövrdə ancaq qiymət xatirinə oxuyurduq, hər gün "5" almaq üçün əldən-ayaqdan gedirdik. Bizim bilik-bacarığımız ancaq 1 qiymətlə ölçülürdü. Həmin dövrlərdə müəllimə sual verməyə də qorxurduq ki,birdən müəllim aşağı qiymət yazar. Səhv etməkdən də qorxurduq. Gündəlik qiymət yazılması şagirdlərin davranışına təsir göstərirdi. Əvvəlki qiymətləndirmə sisteminin 1 mənfi cəhəti də müəllim bütün şagirdlərin potensialını dəyərləndirmədən hamsına eyni çətinlik dərəcəsində sualların,testlərin verilməsi idi. Lakin indi dövr dəyişib. İndi şagird sual verməkdən çəkinmir,indi şagirdin biliyindən əlavə bacarıqları dəyərləndirlir. İndiki təhsil sistemi şagirdləri gələcək həyata hazırlayır,onları çətinliyə düşəndə bundan çıxış yolunu tapmağa,problemləri həll etməyə kömək edir. İndiki təhsil sistemi daha çox motivasiya edici olur.

Konsepsiya ölkəmizdə ümumi təhsilin müasirləşdirilməsi və yeniləşdirilməsi məqsədi ilə hazırlanmışdır. Bu milli kurrikulum çərçivə sənədi ilə bilavasitə əlaqəlidir və onun tərkib hissəsini təşkil edir.

Yeni qiymətləndirmə sistemi bunları təmin edir:

təhsildə müsbət dəyişikliklərin aparılması üçün mühüm vasitə rolunun yerinə yetirilməsini; təhsilin keyfiyyəti üçün əsas göstərici olan "şagirdin təlim nəticələri" haqqında etibarlı məlumat verilməsini; qiymətləndirmə vasitəsilə şagirdin bilik və bacarıqları haqqında kifayət qədər məlumat əldə edildikdən sonra fənn kurrikulumlarında və dərsliklərdə müvafiq dəyişikliklərin aparılmasını; təhsildə olan bəzi neqativ hallara qarşı mübarizə vasitəsi funksiyasını; qiymətləndirmədə yeni yanaşmaların yaddaşa əsaslanan qiymətləndirmənin əksinə olaraq, məntiqi təfəkkür vərdişlərinin inkişafına xidmət etməsini.

Əsas məktəbdaxili qiymətləndirmə növləri bunlardır: diaqnostik, formativ, summativ.

Diaqnostik qiymətləndirmə ona görə aparılır ki, şagirdlərin yeni bölmədən hansı hissəni bilib-bilməməsi aydinlaşdırılır. Bu da mueəllimə imkan verir ki təlimi hansı istiqamətdə qursun. Bu əsasən hansısa mövzunun, bölmənin əvvəlində aparılır. Beləliklə, şagird öyrənilmiş materialın təkrarına vaxt itirmir, həmçinin onun üçün başa düşülməyən və ya tanış olmayan material qalmır.

Formativ qiymətləndirmə şagirdlərin inkişafını izləmək məqsədilə aparılır. Standartların şagirdlər tərəfindən mənimsənilməsi nə dərəcədə olur deyə aparılır. Bu əsasən müşahidə və monitorinqlər vasitəsilə aparılır.Müəllim yalnız belə monitorinq vasitəsilə tədris prosesini tənzimləyir, bütün şagirdlərin irəliləyişlərini təmin edir, eyni zamanda uğur qazana bilməyən şagirdlərin ehtiyaclarını öyrənərək, onlara əlavə köməklik göstərir.

Summativ qiymətləndirmə yekun qiymətləndirmə hesab olunur ki,özü də 2 yerə ayrılır: kiçik summativ və böyük summativ qiymətləndirmə. Bu hər altı həftədən gec olmayaraq aparılır.Tədris olunan mövzular üzrə müəllim tərəfindən hazırlanmış testlər və standartlaşdırılmış prosedurlar vasitəsilə şagird nailiyyətlərinin kiçik summativ (bəhslər üzrə yekun) qiymətləndirilməsini nəzərdə tutur; böyük summativ qiymətləndirmə isə müəllimlər və məktəb rəhbərliyi tərəfindən aparılır. Bu qiymətləmdirmələr yarım illiyin sonunda aparılır. Və sonda nəticələri təhlil olunur, hesabat verilir, tədris və təlim prosesinin təkmilləşdirilməsində ondan istifadə edilir.

Yekun (summativ) qiymətləndirmənin ən mühüm cəhəti şagirdlərin mənimsədiklərini tətbiqetmə qabiliyyətinə nə dərəcədə malik olduqlarını aşkara çıxarmaqdır. Bundan əlavə, yekun qiymətləndirmə əldə olunan bilikləri tam əks etdirmir, lakin o, mənimsəmə səviyyəsinin etibarlı və adekvat göstəricisidir.

Qiymətləndirmə standartları 4 səviyyə üzrə qiymətləndirmə sxemləri şəklində hazırlanır. Qiymətləndirmə sxemləri xüsusi növ qiymətləndirmə şkalasıdır. Bu iki əsas sualı əhatə edir:

1. Mən nəyi qiymətləndirməliyəm?

2. Aşağı, orta və yuxarı nailiyyət səviyyələrinin xüsusiyyətlərini necə müəyyənləşdirmək olar?

1-ci səviyyə ən aşağı,

4-cü səviyyə isə ən yüksək səviyyəni əks etdirir.

1-ci səviyyə və 2-ci səviyyə əksər şagirdlər,

3-cü səviyyə və xüsusilə 4-cü səviyyə isə daha istedadlı şagirdlər üçün nəzərdə tutulur.

Bildiyimiz kimi, qiymətləndirmə sxemi 2 növə ayrılır:

Holistik-şagirdlərin işi ilə bağlı ümumi fikir yaradır ə 4-5 ballıq şkalaya əsaslanır.

Analitik – qiymətləndirmə isə ayrı-ayrı fəaliyyət sahələri üzrə aparılır.

Şagirdlərin məzmun standartlarına nə dərəcədə nail olduqlarını ölçmək və qazanılmış bacarıqlar üzrə yekun (summativ) qiymətləndirmələr aparmaq üçün qiymətləndirmə vasitələrinin (testlərin) hazırlanması bu ardıcıllıqla aparılır:

qiymətləndirmə vasitələrinin (testlərin) hazırlanması prosesində testlərin məqsədəuyğunluğu (məhz "nəzərdə tutulanı" qiymətləndirməsi) və etibarlılığı (real məlumatlara əsaslanması);

səmərəlilik üçün hər sinif üzrə nisbətən az (<10) və nisbətən çox (>10) məzmun standartına malik olan iki fənn qrupunun müəyyənləşdirilməsi;

yekun (summativ) testlərdə bütün standartların reprezentativ (təmsiledici) seçiminin təmin edilməsi;

yekun (summativ) testlərdə bütün səviyyələr üzrə də reprezentativ seçimin təmin edilməsi (1-ci səviyyə üzrə suallar 20%, 2-ci səviyyə üzrə suallar 30%, 3-cü səviyyə üzrə suallar 30%, 4-cü səviyyə üzrə suallar 20%).

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası**.**
2. Misir Mərdanov-Qiymətləndirmə pdf səh 1-5.
3. Gülər Hüseynova – Kurrikulum 2018 səh 22

4. Malik Aranlı –Kurrikulum 2014 səh 15-20
5. Təhsil nazirliyinin saytı edu.gov.az

XÜLASƏ

Ölkəmizdə hər sahədə inkişaf olduğu kimi təhsil sahəsinin də inkişafı üçün yeni islahatlar aparılır.Təhsil sistemində yeni qiymətləndirmə mexanizmləri yaradılmışdır. Ümumiyyətlə qiymətləndirmənin 3 növü var: beynəxalq,milli və məktəbdaxili. Beynəlxalq qiymətləndirmə proqramlarından PİSA, TİMS –şagirdlərin müxtəlif bacarıqlarının ölçülməsidir. Milli qiymətləndirmə- 4-9cu siniflər arasında aparılan qiymətləndirmə növüdür. Məktəbdaxili qiymətləndirmə əvvəllər 1 üsulla aparılırdısa, indi məktəblərdə 3 cür qiymətləndirmə aparılır. Bunlardır: diaqnostik,formativ və summativ qiymətləndirmə.

Diaqnostik- dərs ilinin əvvəlində,yeni bölmənin əvvəlində aparılır. Formativ qiymətləndirmə- şagirdlərin gündəlik inkişafını izləmək üçün aparılır. Summativ qiymətləndirmə-sonda yekun qiymətləndirmədir.

АННОТАЦИЯ

В нашей стране проводятся новые реформы для развития образования, а также для развития во всех сферах. В системе образования созданы новые механизмы оценки. В общем, есть 3 типа оценки: международный, национальный и школьный. PISA, TIMS из международных программ оценки- является мерой различных способностей учащихся. Национальное оценивание - это тип оценивания, проводимого между 4-9 классами. Раньше внутришкольное оценивание проводилось одним способом, но теперь в школах существует три типа оценивания. Это: диагностическая, формирующая и итоговая оценка.

Диагностика проводится в начале учебного года, в начале нового блока. Формирующее оценивание - проводится для контроля повседневного развития студентов. Итоговая оценка - это итоговая оценка.

SUMMARY

New reforms are being carried out in our country for the development of education as well as for development in all areas. New assessment mechanisms have been established in the education system.Generally,there are 3 kinds of assessment: international,national and intramural. İnternational assessment programmes PİSA,TİMS are measured the students' different capabilities. National assessment is conducted between 4-9th forms. In-school assessment used to be conducted in one way, but now there are three types of assessment in schools. These are: diagnostic, formative and summative assessment.

Diagnosis is carried out at the beginning of the school year, at the beginning of a new unit. Formative assessment - is conducted to monitor the daily development of students. Summative assessment is the final assessment.

MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏNİN TƏHSİLİN KEYFİYYƏTİNƏ TƏSİRİ

Mehdizadə Nigar Neymət qızı
BDU-nun II kurs magistrantı
nigarmehdizade95@gmail.com

Açar sözlər: cəmiyyət, keyfiyyətli təhsil, monitorinq, qiymətləndirmə, tədris, məlumat.
Ключевые слова: общество, качественное образование, мониторинг, ценообразование, обучение, информация.
Key words: society, quality education, monitoring, evaluation, teaching, information.

Monitorinq və qiymətləndirmə keçmişin tərəqqisini yoxlayan, indi və gələcəkdə təkmilləşdirilməsi lazım olan bütün layihələrin/proqramların vacib hissəsidir. Monitorinq və qiymətləndirmə səhiyyə, maliyyə, təhsil və s. kimi bütün sektorlarda mühüm rol oynayır.

Azərbaycan Respublikasında bir çox sahələrdə olduğu kimi, təhsil sahəsində də bir çox islahatlar həyata keçirilir. Bu islahatların əsas məqsədi təhsilin keyfiyyətini yüksəltmək və onun inkişafını təmin etməkdir. Müasir dövrdə keyfiyyətli təhsil cəmiyyətimizin təhsil sistemi qarşısına qoyduğu əsas tələblərdən biridir.

Hər bir sahədə olduğu kimi, təhsil sahəsində də keyfiyyət anlayışı hər hansı bir parametrin qiymətinin əvvəlcədən müəyyən olunmuş standartlara uyğunluğunu göstərir. Bu parametrlərin qiyməti müəyyən olunmuş standartlara nə qədər yaxındırsa, təhsilin keyfiyyəti də bir o qədər yüksək hesab olunur. Əsas keyfiyyət göstəriciləri kimi şagirdin təlim nəticələri və əldə etdiyi nəaliyyətlər götürülür. Nəticələrin obyektiv qiymətləndirilməsi keyfiyyətin dərəcəsini müəyyən edən əsas amillərdən biridir. Təhsil alanın təlim nəticəsi ümumi təhsil sisteminin əldə etdiyi nəticəni dəyərləndirməyə imkan verir. Şagirddən əldə edilən təlim nəticələrinə əsasən ona dərs keçən müəllimlərin, təhsil müəssisələrinin və ölkənin təhsil sisteminin fəaliyyətini qiymətləndirmək mümkün olar.

Müasir dövrdə təhsil sisteminə "Monitorinq və Qiymətləndirmə" anlayışı daxil olmuşdur. Monitorinq və qiymətləndirmə təhsilin keyfiyyətinin müəyyənləşdirilməsi üçün vacib olan amillərdəndir.

Qiymətləndirmə şagirdlərin təlim məqsədlərinə nə dərəcədə çatdığını müəyyən etmək üçün məlumatların toplanması, təhlili və şərh edilməsinin sistematik bir prosesidir. Qiymətləndirmə fəaliyyətin sonunda, fəaliyyət daxilində və ya hər hansı bir mərhələnin sonunda aparılır. Bu zaman ölçülən obyektin, sistemin və ya parametrin qiymətinin müəyyən olunmuş standartlara uyğunluğu yoxlanılır. Belə qiymətləndirmə faktiki vəziyyətin qiymətləndirilməsi kimi özünü göstərir. Qiymətləndirmə prosesinin düzgün aparıla bilməsi üçün hər bir fəaliyyət sahəsində olduğu kimi təhsil sahəsində də əldə olunmuş nəticələr qarşısında əvvəlcədən müəyyənləşdirilmiş bir sıra tələblər dayanır. Burada təhsil alanın təlim nəticələrinə qoyulmuş müvafiq tələblər öz əksini tapır. Belə tələblər qiymətləndirmə standartları adlanır. Tədris olunan hər bir fənn üzrə ümumi və xüsusi qiymətləndirmə standartları var. Qiymətləndirmə və təlim nəticələri arasındakı əks-əlaqə bu komponentləri əhatə etməklə qurulur: 1) qiymətləndirmə məlumatları

2) məlumatların toplanması 3) qiymətləndirmə nəticələri 4) qiymətləndirmə standartları.

Təhsil sistemində bir neçə növ qiymətləndirmə mövcuddur və bütün növ qiymətləndirmələrin aparılması üçün bir sıra prinsiplərə riayət olunur. Prinsiplər bunlardır:

- -məqsədəuyğunluq;
- -nailiyyətlərin və təhsil imkanlarının qarşılıqlı dəyərləndirilməsi;

- -toplanmış məmulatların keyfiyyətcə müvafiqliyinin və etibarlılığının təmin olunması;
- -qiymətləndirmədə şəffaflıq, ədalətlilik, qarşılıqlı razılaşma və əməkdaşlıq;
- -təlim fəaliyyətində qiymətləndirmə nəticələrinin inkişafetdirici rolunun təmin olunması.

Faktiki vəziyyətin qiymətləndirilməsi əsasən statik xarakter daşıyır və buna görə də əldə edilən nəticələr qiymətləndirmənin aparıldığı vaxtdakı vəziyyətini göstərir. Obyektin halını xarakterizə edən parametrlər vaxt keçdikcə dəyişir. Belə bir vəziyyətdə sistemli şəkildə qiymətləndirilmələr aparılması lazımdır. Bu halda müəyyən dövr müddətində parametrin qiymətini və vəziyyətin dəyişmə dinamikasını müəyyən etmək mümkün olar. Sistemli şəkildə aparılan proses monitorinq adlanır. Monitorinq parametrin qiymətinin, obyekt və ya sistemin halının dəyişmə xüsusiyyətlərini, onların dəyişmə səbəblərini və onlara təsir etmək yollarını öyrənir. Monitorinq təhsildə baş verən dəyişikliklərin xüsusiyyətlərini öyrənmək və müvafiq vəziyyət haqqında informasiyanın sistemli və fasiləsiz şəkildə yığılması və təhlil edilməsi prosesidir. Monitorinq məqsədlərin yerinə yetirilməsində irəliləyişin erkən göstəricilərini verən davamlı qiymətləndirmə kimi müəyyən edilir. Monitorinq vaxtında qərar verilməsinə kömək edir, hesabatlılığı təmin edir və qiymətləndirmə üçün zəmin yaradır. Qiymətləndirmə məqsədlərin uyğunluğunu və yerinə yetirilməsini, effektivliyini, təsirini və davamlılığını müəyyənləşdirməyi hədəfləyir. Burdan da göründüyü kimi monitoring və qiymətləndirmə anlayışı bir-birilə əlaqəli anlayışlardır. Biri digərinə, yəni qiymətləndirmə monitorinqə xidmət edir

Monitorinq sözü mənası "xəbərdar etmək" olan latın mənşəli "monere" felindən götürülmüşdür.Təhsilin monitorinqi təhsil siyasətinin hazırlanmasının əsas vasitələrindən biridir. Əsas məqsədi təhsil sahəsində təhlilin aparılmasıdır: təhsilin mövcud vəziyyətini ətraflı araşdırmaq, inkişaf etdirilməsi üçün alternativlər təklif etmək, məlumatlı qərarlar vermək və təhsilin, elmin keyfiyyətini təmin edən rəhbərliyi həyata keçirməkdir. Sistemli və koordinasiyalı şəkildə aparılmış monitorinq, yoxlamalara əsaslanan nəzarəti əvəz etdiyindən problemləri müəyyənləşdirməkdə və həll etməkdə, vəsaitlərə və zamana qənaətdə xüsusilə vacib rol oynayır.

Monitorinqin üç əsas komponenti var:

- Məlumatın toplanması
- Məlumatın təhlili
- Görülən tədbirlər

Məlumatın toplanması- Monitorinqin şəffaf və düzgün reallaşdırıla bilməsi üçün etibarlı mənbələrdən məlumatların toplanması önəmlidir. Məlumatların toplanması üçün müxtəlif mənbələrdən istifadə edilir. Bunlara əsasən qiymətləndirmə, tədqiqat və ya sorğu nəticələri və.s aid edilir. Əldə edilən məlumatların keyfiyyət dərəcəsi də monitorinqin düzgün aparılmasına təsir edən ən önəmli amillərdən biridir.

Məlumatın təhlili- Etibarlı mənbələrdən məlumatlar tolandıqdan sonra məlumatların təhlili həyata keçirilir. Bu təhlil elə aparılmalıdır ki, problemlərin aradan qaldırılması üçün görüləcək tədbirlərin həyata keçirilməsinə kömək etsin. Təhlilin düzgün aparılması üçün idare edənlərə doğru məlumatların verilməsi önəmlidir.

Görülən tədbirlər- Monitorinq nəticəsində bir sıra tədbirlər görülür. Bunlara: islahedici tədbirlər, ehtiyat tədbirləri və gücləndirici tədbirlər aiddir. Görülən tədbirlərin idarə edənlər tərəfindən düzgün seçilməsi, məlumatların toplanılması və toplanılan məlumatların doğru bir şəkildə təhlili qədər əhəmiyyətlidir. Monitorinq zamanı idarə edənlərin əsas vəzifələrindən biri də görüləcək tədbirləri düzgün seçmək və planlı şəkildə həyata keçirməkdən ibarətdir. Görülən tədbirlər bir neçə formada olur:

Strukturyönümlü: təhsil sisteminin inkişafına və ya kökündən dəyişdirilməsinə yönəlmiş islahat tədbirləri.

Şəxsyönümlü: buraya sanksiyalar və tövsiyələr aiddir. Sanksiyalar pozitiv - stimulverici (məsələn, vəzifədə yüksəliş, məktəb avadanlıqlarının yenilənməsi və s.) və ya neqativ - cəzaverici (məsələn, töhmət və ya işdən azad olunma) ola bilər. Tövsiyələr isə pedaqoq-məsləhətçilərin müdaxiləsi, seminarların keçirilməsi və s. vasitəsilə həyata keçirilir.

Mointorinq və qiymətləndirmə anlayışları nə qədər bir-birilə bağlı olsa da, onlar arasında bəzi fərqliliklər var. Monitorinq layihə və ya proqramın icrası zamanı davam edən irəliləyişin qiymətləndirilməsidir. Qiymətləndirmə tamamlanmış və ya yarım başa çatmış bir layihə və ya proqramın qiymətləndirməsidir. Monitorinq davamlı olaraq həyata keçirilir, qiymətləndirmə isə layihənin və ya proqramın ortasında və ya sonunda baş verir. Ən böyük fərq isə ondan ibarətdir ki, monitorinqin nəticələrindən proses davam edərkən bəzi düzəlişlərin edilməsində istifadə olunur. Lakin, qiymətləndirmənin nəticələrindən yalnız növbəti dərs ilində və ya qiymətləndirmə proqramının həyata keçirilməsi zamanı istifadə olunur.

Sonda belə bir nəticəyə gəlirik ki, monitorinq və qiymətləndirmə çox geniş və əhatəli anlayışlardır. Hər ikisinin təhsil sisteminin daha da inkişaf etməsində böyük rolu vardır.

ƏDƏBİYYAT

1. Mehrabov A.O., Cavadov İ.A, ümumtəhsil məktəblərində keyfiyyat təminatında monitorinqin və qiymətləndirmənin rolu. Bakı. ADPU, 2005, № 3, s. 507-517

2. Mərdanov M.C., Ağamalıyev R.A., Mehrabov A.O., Qardaşov T.B., Təhsil sistemində monitorinq və qiymətləndirmə. Bakı. Çaşıoğlu, 2003, s. 416

3. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2009

4. Cavadov İ.A. Təhsilin keyfiyyat təminatında monitorinq və qiymətləndirmənin rolu. // Azərbaycan məktəbi, Bakı. 2005, № 5, s. 15-21

5. Шишов С.Е., Кальней В.А. Школа: мониторинг качества образования.
М.: Педагогическое общество России. 1999, 320 с.

6. Fitz-Gibbon C.T Monitoring Education Indicators. Quality and Effectiveness. Cassell, 1996.

XÜLASƏ

Keyfiyyətli təhsil inkişaf etmiş ölkələrin hər birində olduğu kimi, Azərbaycanda da cəmiyyətin təhsil sisteminin qarşısına qoyduğu əsas tələblərdən biridir. Müasir dövrdə təhsilin keyfiyyətinin yüksəldilməsi üçün bir çox işlər həyata keçirilir. Onlardan biri də "Monitorinq və Qiymətləndirmə" anlayışlarının təhsil sistemimizə daxil edilməsidir. Monitorinq və qiymətləndirmənin aparılması uzun müddətli, ardıcıl və mürəkkəb proses hesab olunur. Bu zaman bir çox prinsiplərin və metodların düzgün şəkildə yerinə yetirilməsinə diqqət yetirilməlidir. Düzgün şəkildə aparılmış monitorinq və qiymətləndirmə təhsilin keyfiyyətinin yüksəldilməsinə və təhsil sistemimizin dünya təhsil sisteminə inteqrasiya etməsinə xidmət edir.

АННАТАЦИЯ

Качественное образование - одно из главных требований системы образования в Азербайджане, как и в любой развитой стране. В наше время ведется большая работа по повышению качества образования. Один из них - внедрение концепции «Мониторинг и Ценообразование» в нашу систему образования. Мониторинг и ценообразование - длительный, последовательный и сложный процесс. В этом случае необходимо позаботиться о правильной реализации многих принципов и методов. Надлежащий

мониторинг и ценообразование служат для повышения качества образования и интеграции нашей системы образования в мировую систему образования.

SUMMARY

Quality education is one of the main requirements of the education system in Azerbaijan, as in any developed country. In modern times, a lot of work is being done to improve the quality of education. One of them is the introduction of the concepts of "Monitoring and Evaluation" in our education system. Monitoring and evaluation is a long-term, consistent and complex process. in this case, emphasis should be placed on the proper implementation of many principles and methods. Proper monitoring and evaluation serves to improve the quality of education and the integration of our education system into the world education system.

ANA - ATA - YENİYETMƏ ÜÇBUCAĞINA MÜASİR BAXIŞ

Seyidova Səkinə Mirheydər qızı
BDU-nun II kurs magistrantı
seyidova.s87@gmail.com

Açar sözlər: valideyn, yeniyetmə, müasir;
Ключевые слова: родитель, подросток, современный;
Key words: parent, teenager, modern.

Yeniyetmə yaşında olan uşaqların şəxsiyyətin formalaşmasında bir çox dəyişikliklər baş verir. Müasir dövrdə uşaqların bir şəxsiyyət kimi formalaşmasında və inkişafında, həmçinin onların sağlamlıqlarının qorunmasında ilk amil olaraq ailənin daha sonra məktəbin rolu vacibdir. Bu amillər içərisində ətraf mühit amili də vardır. Valideynlər daima uşaqlarına nəzarət etməli, onların ətraf mühitlərində yaxşı insanların olmasına diqqət etməlidirlər.

Yeniyetməlik yaşında olan uşaqlar bir çox problemlərlə qarşılaşırlar. Belə problemlərdən biri onların valideynləri ilə olan problemləridir. **"**Bu yaş dövründə yeniyetmələrdə uşaqlıq asılılığından çıxmaq və valideynlərlə qarşılıqlı inam, hörmət, etibar və s. kimi münasibətlərə keçməyə tələbat yaranır. Əksər ailələrdə bu proses kobud və ağır şəkildə qarşılanır. Yeniyetməlik yaş dövrü bütün ailə üzvlərinin sosial fərdi və ailə yetkinliyinin yoxlanılması dövrüdür. Bu dövrdə bütün gizli işlər üzə çıxır, böhran və konfliktlər nəzərə çarpır. Yeniyetmələr və valideynlər arasında qarşıdurma belə başlayır. Yeniyetmələrin taleyi valideynlərin səriştəliliyindən çox asılıdır. İstər övladlarının Vətənin ləyaqətli vətəndaşları kimi tərbiyə almalarında, istər cəmiyyətə zidd hərəkətlərə aludə olmalarında, istərsə də cinayət yoluna düşməsində də müəyyən mənada ata-analar da günahkar olurlar. Yeniyetmənin "çətin" olmasının bir sıra səbəbləri vardır. Səbəblər sırasında uğursuz ailə şəraiti özünəməxsus yer tutur. Yenidəntərbiyəyə ehtiyacı olan yeniyetmələrlə iş xeyli çətin və çoxmərhələlidir. Odur ki, ailədə uşaq və yeniyetmələrin tərbiyə işi xüsusi yanaşma tələb edir" [6].

"Fərabi, İbn Sina və Bəhmənyar düşüncə məktəbinin təmsilçisi olan Tusinin ailə anlayışının əsasını sosial - iqtisadi amillər təşkil edir. İnsan həyatının davam etdirilməsi üçün ilk əvvəl onun sosial - iqtisadi ehtiyaclarının ödənilməsi lazımdır. Bunu isə insan təkbaşına həyata keçirə bilməz. Tusiyə görə, ideal ailə üçün vacib olan xüsusiyyətlərdən biri ailə üzvləri arasındakı münasibətləri qurarkən ümumi ailə mənafeyinin üstün tutulmasıdır. Diqqət olunan digər bir mövzu isə ailə üzvləri arasında münasib iş bölümünün olmasıdır. Bundan əlavə, ailədə möhkəm bir nizam - intizamın təmin edilməsi də ailənin şərtlərindəndir. Ən son olaraq isə Tusi ailə üçün ev, yəni bina və yer seçiminin də ailənin vəziyyətinə görə edilməsi lazım olduğunu irəli sürür. Onun fikrincə, ailənin, ideal cəmiyyətin ehtiyaclarına cavab verə bilməsi üçün qadın və uşağın önəmli yeri vardır. Tusiyə görə, uşağın əxlaq nöqteyi nəzərindən inkişaf etməsi və yaşadığı cəmiyyəti düşünən, təşəbbüskar və lider olaraq böyüməsi üçün o mənəviyyatını poza biləcək çevrədən uzaq tutulmalı, ağla və məntiqə uyğun şəkildə tərbiyə edilməli, ona sevgi ilə yanaşılmalı, bahalı, bər - bəzəkli paltarlar geydirilməməli, həddindən çox və zorla yemək yedirərək mədəsi düşkün hala gətirilməməlidir [4, s.20, 21].

"Ata-ana ilk tərbiyəçilərdir. Uşaqların sonrakı taleyi valideynlərin səriştəliliyindən çox asılıdır. İstər övladlarının Vətənin ləyaqətli vətəndaşları kimi tərbiyə almalarında, istər cəmiyyətə zidd hərəkətlərə aludə olmalarında, istərsə də cinayət yoluna düşməsində də müəyyən mənada ata-analar da günahkar olurlar" [6].

"Ata-anaların pedaqoji baxımdan səriştəsizliyi, pedaqoji maariflənmə ilə əhatə olunmamaları, valideynlər arasında ixtilafların olması, uşaqların tərbiyəsi ilə əlaqədar ailə üzvləri arasında vahid tələbin olmaması, tərbiyədən və yeniyetməni şəxsiyyətinin inkişafından ötrü zəruri şəraitin yaradılmaması, valideynlərin etik qaydaları gözləməmələri, onların öz davranışlarındakı, rəftar və ünsiyyətlərindəki xoşagəlməz hallar uşağa pis təsir göstərir, onun düzgün tərbiyə almasına maneçilik törədir. Bundan başqa, ailədə əxlaq və ictimai münasibət normalarına uyğun gəlməyən sərvət və normalar sisteminin təşəkkül tapması və s. uşaq və yeniyetmələrin tərbiyə olunmasını çətinləşdirir. Ailədə valideynlər heç zaman tərbiyəvi təsirlərini dayandırmamalıdırlar. Tərbiyə işinə laqeyd qalmaq olmaz" [6].

Mütəxəssislər çətin yeniyetmələrin 4 qrupuna diqqət yetirirlər:

1) davranışındakı qüsurları onun iradiemosional inkişaf səciyyəsi ilə şərtlənən yeniyetmə;

2) pedaqoji cəhətdən baxımsız və nəticədə əxlaqi təsəvvürlərə yiyələnməyən yeniyetmə;

3) əlverişli olmayan inkişaf şəraiti və ya tərbiyəçinin düzgün iş apara bilməməsinin təsiri ilə çətin böyüyən yeniyetmə;

4) uyğun gəlməyən münasibətlərlə şərtlənən və yaxud xüsusi çətin tərbiyə alanlar" [5].

"Valideynlərin, uşaqlarının tərbiyəsi və təliminə məsuliyyət daşıdıqlarını, uşaqları üçün ailədə əlverişli şəraitin yaradılmasını, maarifləndirici söhbətlər vasitəsilə onlara başa salmaq lazımdır. Valideynlərin pedaqoji cəhətdən maariflənməsi üçün onlarla:

1. Söhbətlər: "Niyə uşaqlar yalan danışır?", "Uşaqlar zərərli vərdişlərdən istifadə edirlərmi?", "Ailə tərbiyəsində olan səhvlər və uşaqların xarakteri", "Oğurluq, səbəblərinin təhlili və korreksiyası", "Ailə mühiti".

2. Pedaqoji təcrübə: "Uşaqlar, danılmaz sərvətdirlər".

3. Məsləhətlər: "Uşağı pis vərdişlərdən necə çəkindirmək olar?", "Uşaqlar və pul", "Uşağınız ilə yaxşı davranırsınızmı?" və s.. Valideynə məsləhət: "Necə səbirli olmaq olar?", "Natamam ailədə sağlam həyat şəraiti yaratmaq", "Valideynin davranışı uşağa necə təsir edir?". Söhbət və məsləhət zamanı valideynlərin pedaqoji hazırlıq səviyyələrini nəzərə almaq lazımdır. Valideynlərlə fərdi və qrup halında iş formalarından istifadə edilməlidir" [3, s.45].

Hər bir ailədə uşağın mükəmməl yetişməsi üçün ilk olaraq ona valideyn sevgisi aşılanmalıdır. Uşaq valideyn sevgisini, qayğısını həmişə öz üzərində hiss etməlidir. Bu cür hal uşaqda ruhi rahatlıq, təhlükəsizlik hiss yaradır.

Bu haqda Hüseyn Xəlilov yazır ki: "Əxlaqın inkişafında ən vacib cəhət ailə şəraitinin yaxşı olmasıdır. Bu bölmədə əxlaqi inkişafda ailə vəziyyətinin mənfi və müsbət təsirinə toxunulacaq. Ailələrdən daha çox sevgi görən yeniyetmələr özlərini valideynlərinə qarşı daha yaxın və məsuliyyətli hiss edirlər. Halsteadın dediyi kimi, yeniyetmələr ən çox valideynlərini əhəmiyyətli hesab edirlər. Ailələr isə öz dəyərlərini uşaqlara ötürürlər. Digər tərəfdən, uşaqların da öz əxlaqlarını müstəqil inkişaf etdirmək haqları var. Ümumilikdə isə ailə şəraiti əxlaqi inkişaf üçün sağlam bir şəraitdir. Ailə şəraitində təkcə əxlaq deyil, həyatın digər sahələri ilə əlaqəli söhbətlər də aparılmalı, yeniyetmələr də bu söhbətlərə qatılmalıdır. Bu, əxlaqi inkişafa öz müsbət təsirini göstərir. Yeniyetmələrin fikrini dinləyən ailələrdən fərqli olaraq, "görməməzlikdən gələn, mövzunu dəyişdirək" kimi yollara əl atan ailələr də var. Amma ailələr yaşadıqları təcrübə əsasında uşaqlarına yol göstərən olmalıdır. Ailələr uşaqlarına şüurlu hərəkətləri ilə bərabər, şüursuz hərəkətləri ilə dətəsir edirlər. Uşaqlar ailənin müsbət tərəflərini götürdükləri kimi, ailədə baş verən münaqişələri, təcavüzü, həddindən artıq qorumanı və təzyiqləri də müşahidə edirlər" [2, s.48].

"Yeniyetmə valideynlərinin onun haqqında dediklərini xatırlayır, lakin ona başqa qiymət verir. O, tərsliyi xaraktersizlik kimi qəbul etmir. Belə ki, bu yaşda olan yeniyetmə üçün böyüklərin onu bəyənməsi vacibdir. Lakin eyni zamanda onlara qulaq asmaq öz müstəqilliyini,

«mən»ini itirməsini bildirir. Həmin konflikti valideynlərin tələblərinə cavab verməyin mümkünsüzlüyü və öz «mən»ini saxlaması kimi hiss etməsi yeniyetmənin özünü «pis», lakin güclü kimi qiymətləndirməsinə gətirib çıxarır [1, s.473].

"Valideynlərin çox vaxt uşaqlarla yeniyetmələri düzgün ayırd edə bilməməsi bu çətinliyin baş verməsinin əsas səbəbidir. Əksər hallarda valideynlər nəyə icazə vermək və ya nəyə qadağa qoymaq lazım olduğunu bilmirlər. Bütün bunların hamısı valideynlərlə yeniyetmələr arasındakı qarşılıqlı münasibətdə bir sıra problemlərin yaranmasına səbəb olmaq olar.

1. Valideynlərlə uşaqlar arasında çox yaxın dost münasibəti olan ailələr. Bu cür abuhava bütün ailə üzvləri üçün münasibdir. Belə ki, valideynlər həyatın müəyyən bir sahəsində öz oğul qızlarına təsir etmək imkanına malikdirlər. Lakin başqa ailələrdə bu münasibət şübhə altında olur. Belə ailələrdə valideynlər uşaq və böyüklərin fikir və arzularını nəzərə alır. Məsələn, müasir musiqiyə və modaya münasibətdə və s. Həmçinin uşaqlar da valideynlərə qulaq asır, onların fikirləri ilə razılaşırlar və ortaq məxrəcə gəlirlər. Belə uşaqlar aktiv, dostcanlı, mehriban və bir sıra müsbət xüsusiyyətlərə malik olurlar.

2. Yaxşı münasibətlər atmosferi hökmranlıq edən ailələr. Bu cür ailələrdə valideynlər uşaqların inkişafını izləyir, onların həyatı ilə maraqlanırlar, öz şəxsi-mədəni imkanları ilə onlara təsir etməyə çalışırlar. Belə ailələrdə konfliktlər olsa da, bu münasibətlər aydın və tez öz həlli yolunu tapır. Uşaqlar valideynlərdən heç nə gizlətmirlər, onlara inanırlar. Belə ailələrdə böyük və kiçiklər arasında müəyyən sərhəd olur. Uşaqlar adətən mədəni, sözə qulaq asan, hörmətcil böyüyürlər. Çox nadir hallarda öz müstəqil olmaqları barədə elan edirlər.

3. Əksər ailələrdə valideynlər əsas diqqətlərini uşaqlarının təhsilinə yönəldirlər və bununla da kifayətlənirlər. Belə uşaqların həyatda yaşamaq üçün bütün şəraitləri var-geyim, videotexnika, musiqi və s. Bu uşaqların ayrıca otaqları olur və bu otaqda uşaqların özlərinə məxsus avadanlıqları yerləşdirilir. Lakin onların mebellərin yerini dəyişdirməyə və ya otağı çirkləndirməyə ixtiyarları yoxdur. Uşaqlarla valideynlər arasında baryer yaranır. Bu münasibətlər də konfliktə gətirib çıxarır.

4. Elə ailələr də var ki, uşağı izləyirlər, ona inanmırlar, onlara güc tətbiq edirlər. Belə ailələrdə valideynlərlə uşaqlar arasında həmişə konflikt müşahidə olunur. Bu cür münasibət yeniyetmələrdə valideynlərinə qarşı düşmənçilik hissi yaradır. Müəyyən vaxt keçdikdən sonra belə uşaqlarda böyüklərə qarşı inamsızlıq hissi yaranmağa başlayır, onlar cəmiyyət arasında qarşılıqlı münasibət qurmaqda çətinlik çəkirlər.

5. Dözülməz şəraitdə olan ailələr. Burada uşaqlar və valideynlər arasında münasibətlər qeyri-normal xarakter daşıyır. belə ailələrdə atmosfer hər zaman gərgin olur. Dözülməz şəraitdə olan ailələrdə əksər vaxtlar valideynlərdən biri və ya hər ikisi müxtəlif alkoqol vasitələrə meylli olurlar. Bu cür vəziyyət çox vaxt cinayət hadisəsinə gətirib çıxara bilər. Bununla da belə nəticəyə gəlmək olar ki, valideynlərin yeniyetmələrlə qarşılıqlı münasibətləri ailədə olan psixoloji iqlimindən asılıdır. Əgər uşaqlar valideynlərindən diqqət, qayğı və yaxşı münasibət görürsə, yeniyetmələrdə bu dövr rahat, səlis və asan keçir. Əgər bu dövrdə yeniyetmələr atıldığını, lazımsız olduğunu, sevilmədiyini hiss edərsə, onda başqalarına qarşı eqoizm, aqressiya, sərtlik və nifrət yaranır. Bu yaş dövründə valideynlər tələbatları ödəmək və azadlığı məhdudlaşdırmaq üçün bir mexanizmə çevrilirlər" [6].

Yeniyetmələr üçün ən qəbuledilməz şey onların tənqid edilməsidir. Bəzi valideynlər yeniyetməni dəyişmək üçün onu tənqid etməyə başlayırlar. Fikirləşirlər ki, tənqiddə fayda var. Lakin bu düzgün fikir deyildir. Əksinə bu hal yeniyetmənin valideyndən daha da uzaqlaşmasına və daha çox yanlış addımlar atmağına səbəb ola bilər. Ailəsindən uzaqlaşan yeniyetmə kənar mühitə meyil göstərir ki bu da ondaq mənfi vərdişlərin formalaşması ilə nəticələnir.

Yeniyetmələrin ən yaxın dostu onun ailəsi olmalıdır. Ona daim dəstək olmalı və hər zaman yanında olmalıdır.

Həmçinin onu da qeyd edək ki, uşaqlar böyüklərin hərəkətlərini müşahidə etməklə öyrənir. Beləliklə, valideynlər uşaqlarının necə davranmasını istəyirsə, özü də elə davranmalı və yüksək əxlaqlı uşaqlar yetişdirməlidir.

ƏDƏBİYYAT

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı, 2006.
2. Xəlilov Hüseyn Uşaq və yeniyetmələrin inkişafının social - psixoloji məsələləri. "Şərq - Qərb. 2012. 236 s.
3. Левкович В.П. Социально-психологические аспекты семейного воспитания. Прикладные проблемы социальной психологии. М.: Наука, 1983.
4. Journal of Qafqaz university, (səh 20-21)
5. http://psixologiya.net/tehsil_telebe/739-terbiye-psixologiyasi-cetin usaqlar.html
6. https://narinc.az/article/yeniyetmelerin-ailede-valideynlerle-qarsiliqli-munasibeti

СОВРЕМЕННЫЙ ВИД НА ТРЕУГОЛЬНИК МАТЬ-ОТЕЦ-ПОДРОСТК

АННОТАЦИЯ

Подростковый возраст считается периодом перехода от детства к юности. В этот период в организме человека происходят некоторые физиологические и биологические изменения. Подросток видит себя центром всего, и в результате ему трудно понимать мысли других. Семья и общество играют важную роль в формировании нравов детей и подростков. В семейной среде следует обсуждать не только моральные, но и другие аспекты жизни, и вовлекать в эти разговоры подростков. Это положительно сказывается на нравственном развитии.

A MODERN VIEW OF THE MOTHER-FATHER-TEENAGER TRIANGLE

SUMMARY

Adolescence is considered to be a period of transition from childhood to adolescence. During this period, some physiological and biological changes take place in the human body. The teenager sees himself as the center of everything and as a result has difficulty understanding the thoughts of others. The family and society have an important role to play in shaping the morals of children and adolescents. In a family setting, not only moral but also other aspects of life should be discussed, and teenagers should be involved in these conversations. This has a positive effect on moral development.

TƏHSİLİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNDƏ MÜASİR TEXNOLOGİYALARIN TUTDUĞU MÖVQE

Nəzrin Kərimova Kamal qızı
BDU-nun II kurs magistrantı
nazrin.karimova.97.mail.ru

Açar sözlər: təhsil, keyfiyyət, İKT, metod, texnologiya
Ключевые слова: образование, качество, ИКТ, метод, технология
Keywords: education, quality, ICT, method, technology.

Azərbaycanın müasir dünyaya sürətlə inteqrasiya olunması, istər sosial, istərsə də iqtisadi inkişafın təmin edilməsi elmin inkişafında bir sıra müasir elmi biliklərin, müasir texnologiyaların mənimsənilmə səviyyəsindən və başqa amillərlə sıx bağlıdır. Bəşər sivilizasiyasının əsas mərkəzlərindən biri olan Azərbaycanda da təhsil sahəsində islahatların keçirilməsi, dərslərin beynəlxalq standartlar əsasında təşkili və müasir metodlardan istifadə olunması əsas məqsəd kimi əldə rəhbər tutulmalıdır. Həyata keçirilən bu kimi tədbirlərin başlıca məqsədi isə təhsilin keyfiyyətinin yüksəldilməsi və uğurlu nəticələr əldə olunmasıdır.

Keçən tarixə nəzər salsaq görərik ki, hər bir ölkənin özünə xas olan təhsil sistemi, təhsil siyasəti formalaşmışdır. SSRİ dövründə təhsil inzibati amirlik adlı metodla idarə edilirdi. Bu zaman yuxarıdan göndərilən əmrlər məktəbin idarə olunmasında əldə rəhbər tutulurdu. Demokratizmin və prularizmin hakim olduğu ölkəmizin də özünəməxsus təhsil siyasəti vardır. Bu isə öz əksinin Təhsil Qanunu və Təhsil Haqqında İslahat Proqramlarında tapmışdır.

İstər Təhsil Qanunu, istərsə də Təhsil Haqqında İslahat Proqramlarının tələblərinə uyğun olaraq Respublika Pedaqoji İctimaiyyətinin qarşısına aşağıdakı vəzifələr qoyulmuşdur:

1. Yeni insan şəxsiyyətinin hərtərəfli və ahəngdar inkişafını təmin etmək;
2. Şəxsiyyətin formalaşması qanunauyğunluqlarını aşkara çıxarmaq;
3. Qabaqcıl pedaqoji təcrübəni ümumiləşdirmək və yaymaq;
4. Müəllimin təlim-tərbiyə fəaliyyətini nəzəri metodika əsasında işləyib hazırlamaq;
5. Gənc nəslin təlim-tərbiyə işini təşkil etmək. (3. səh 6)

Bu kimi vəzifələrin həyata keçirilməsi üçün isə müxtəlif yollardan, texnikalardan istifadə olunur. Müasir təhsil sistemində nailiyyət əldə etmə üçün istifadə olunan bu yollar məcmusu metod adlanır. Öyrənilən hər yeni metod tədqiqatçılığı, yaradıcılığı özündə birləşdirməklə yanaşı, şəxsiyyətin ahəngdar şəkildə formalaşıb mənəvi zənginləşməsinə də imkan yaradır.

Yaşadığımız informasiya dövründə məlumat axını o qədər sürətlidir ki, onları təlimin ənənəvi sxemi əsasında mənimsətmək, idarə etmək qeyri-mümükündür. Bunun üçün də ənənəvi təlim artıq öz aktuallığını itirib.

Ənənəvi təlimə nəzər yetirsək görərik ki, burada daha çox avtoritar idarəetmə üsulu qabarıqdır. Ənənəvi təlimi xəyalımızda canlandırsaq bilikləri əzbərçilik yolu ilə mənimsətməyə çalışan müəllim və passiv şagird görərik. Ona görə də bu prosesi interaktiv yox, interpassiv adlandırsaq daha düzgün olar. Fəal təlim zamanı əsas hesab edilən şagirdin şəxsi təcrübəsi, fərdi xüsusiyyətləri, maraq və qabiliyyətləri də ənənəvi təlimdə nəzərə alınmır.

Ənənəvi təlimi ümumiləşdirib deyə bilərik ki, bu təlim prosesi zamanı şagirdin fəaliyyəti passiv, yəni reproduktiv(təkraredici) xarakter daşıyır. Gəlin yaşadığımız informasiya dövrünə nəzər salaq. Ənənəvi təlimin sadalanan bu xüsusiyyətləri ilə müasir dövrün şəxsiyyətini, peşəkar ixtisaslı kadrını yetişdirmək mümkündürmü?!

Nəzər yetirsək görərik ki, istənilən sahədə keyfiyyət anlayışı qəbul olunmuş standartlara uyğunluq kimi başa düşülür. İstər obyektin, istərsə də sistemin halını xarakterizə edən parametrlər standarta nə qədər uyğundursa, məhz keyfiyyət də o qədər yüksək hesab edilir. Keyfiyyətli təhsil bütün dövrlərdə olduğu kimi müasir dövründə başlıca tələbidir. Təhsilin keyfiyyətinin müəyyənləşdirilməsi və təkminləşdirilməsi məqsədilə isə yeni təlim texnologiyalarından istifadə olunur.

Yaşadığımız informasiya-kommunikasiya dövrü tələb edir ki, şagird öyrənməyi öyrənsin. Çünki hazırki dövrdə bilik mənbələri olduqca çoxdur. Şagird bundan düzgün istifadə edib, özünə lazım olan məlumatı tapmalıdır. Əks təqdirdə informasiya bolluğuna düşər. Bu da dövrün problemlərindən sayılır.

Qeyd olunan tələblərə nəzər yetirməklə özündə yaradıcı təfəkkürü, məhsuldarlığı, aktivliyi birləşdirən müasir təlim texnologiyalarına təlim prosesində yer verilməsi dövrün tələbidir və tamamilə təbiidir.

Təlim texnologiyası anlayışını ümumiləşdirsək deyə bilərik ki, bu proses təlimin ən müasir və ən səmərəli üsullarından, vasitələrindən istifadə etməklə, yüksək intellektual səviyyəyə, milli-mənəvi dəyərlərə malik olan şəxsiyyətin yetişdirilməsini nəzərdə tutur. Bu da öz növbəsində təlimi beynəlxalq standartlar əsasında qurmağı və keyfiyyətini yüksəltməyə gətirib çıxarır.

Təlim texnologiyalarından istifadə onun müxtəlif növləri – problemli təlim, işgüzar oyunlar, modul təlim, Valdorar pedaqogikası, Şatalov pedaqoji sistemi, kompüter təlimi və s. bunların hamısı təlim texnologiyalarının formaları kimi təhlil edilməlidir.(3 səh.22)

XX əsrin 70-80-cı illərindən “ağıllı maşın”lar yəni, kompyuterlərin nəinki insana, tibb, təhsil, mədəniyyət kimi sahələrə də təsiri danılmaz faktdır. Amma bu mövzuda fikir ayrılıqları vardır:

Bəzi tərəflər bildirir ki, kompyuterin təhsilə heç bir dəstəyi yoxdur, əksinə daha çox ziyan verir. Bu kimi fikir sahiblərini araşdırsaq görərik ki, onlar Sovet təhsil sisteminin tərəfdarladır. Digər tərəf isə İKT-nin təhsildə əvəssiz rolu olduğun vurğulayırlar. Bu düşüncə sahibləri isə bildirir ki, kompyuter texnikası təhsilə tətbiq olunandan sonra bir sıra müasir metodlar ortaya çıxmış və bu metodlarda şagirdlərdə dərsə marağı artırmış, biliklərin məhsuldar mənimsənilməsinə dəstək olmuşdır. Bu insanlar isə qərb dünyası təhsil sisteminə meyl edənlərdir.

İKT-nin təhsilə tətbiqi müəyyən məsələnin reallaşmasını müəllimin qarşısına məqsəd qoymalıdır:

- Tələbənin düşüncə tərzinin inkişaf etdirilməsi;
- Bilik, bacarıq və vərdişlərin əldə edilməsi fəaliyyəti insanın bütün növ dərketmə fəaliyyətinin inkişafına kömək etməsi;
- Dərs prosesinin fərdiləşməsi prinsipinin onun tamlığını saxlamaq şərti ilə reallaşdırılması.(4. səh21)

Müstəqil Azərbaycanın ilk Konstitusiyasının "ƏSAS İNSAN VƏ VƏTƏNDAŞ HÜQUQLARI VƏ AZADLIQLARI” fəsilnin (III fəsil) "Təhsil hüququ” maddəsində (maddə 42.) bir mənalı şəkildə qeyd olunur ki, "Hər bir vətəndaşın təhsil almaq hüququ vardır.” (5)

Azərbaycan Respublikasının Təhsil haqqında qanununun 13-cü maddəsinə nəzər yetirsək görərik ki, burada təhsilalma formalarından biri kimi distant təhsil də qeyd olunub.Dövrün başlıca tələblərində olan distant təhsil dedikdə öyrədən və öyrənən arasındakı əks-əlaqənin tele-kommunikasiya vasitələri ilə təşkili nəzərdə tutulur. Distant təhsilin ən böyük üstünlüyü məkan və zaman məhdudiyyətinin olmamasıdır.

Buradan da görundüyü kimi, digər sahələrlə yanaşı, təhsil sahəsində də geniş tətbiq olunan bu kimi yeniliklərin ən əsas məqsədi təlim prosesini beynəlxalq standartlara cavab verən şəkildə qurmaq və onun keyfiyyətinin yüksəldilməsinə nail olmaqdır.

ƏDƏBİYYAT

1. Mərdanov.M. Azərbaycan təhsili islahat yollarında: uğurlar, problemlər, vəzifələr. Bakı, 2001.
2. Mehdizadə.M. Ümumtəhsil məktəblərində təlim-tərbiyə işinin təkmilləşdirilməsi yolları. Bakı, 1983.
3. Nəzərov.A Müasir təlim texnologiyaları Bakı, 2012
4. Əliyeva F. Məmmədova Ü. Müasir təlim texnologiyaları Bakı, 2014
5. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2009.

XÜLASƏ

"Texnologiyalar əsri"də təhsil sahəsində geniş istifadə olunan metodlar, onların tətbiqi mövcud vəziyyəti öyrənmək baxımından ən əsas şərtlərdən hesab edilir. Müntəzəm olaraq aparılan monitorinq və qiymətləndirmə vasitəsilə bu kimi texnologiyaların təhsil sahəsinə verdiyi töhfələr nəzərdən keçilirilir və onun keyfiyyətinin yüksəldilməsi yolları işlənib hazırlanır. Son illərdə bu sahədə aparılan düzgün dövlət siyasəti dah uğurlu nəticələrə imza atmağa əsas verir.

АННОТАЦИЯ

Методы, широко используемые в сфере образования в «век технологий», их применение считается одним из главных условий изучения современной ситуации. Посредством регулярного мониторинга и оценки рассматривается вклад таких технологий в образование и разрабатываются способы повышения их качества. Правильная государственная политика, проводимая в этой сфере в последние годы, дает основания для более успешных результатов.

SUMMARY

The methods widely used in the field of education in the "age of technology", their application is considered one of the most important conditions for studying the current situation. Through regular monitoring and evaluation, the contributions of such technologies to education are reviewed and ways to improve their quality are developed. The correct state policy pursued in this area in recent years provides a basis for even more successful results.

NİZAMİ GƏNCƏVİ YARADICILIĞINDA MİLLİ-MƏNƏVİ, ƏXLAQİ DƏYƏRLƏR

Süleymanova Fəridə Səbuhi qızı
BDU-nun II kurs magistrantı
feridеesuleymanova@gmail.com

Açar sözlər: əxlaqi dəyərlər, mənəvi tərbiyə, dostluq əxlaqi dəyər kimi, əxlaqi dəyər kimi vətənpərvərlik,milli mənəvi dəyərlər.
Ключевые слова: нравственные ценности, духовное воспитание, дружба как моральная ценность, патриотизм как моральная ценность, национально-духовные ценности
Keywords: moral values, moral education, friendship as a moral value, patriotism as a moral value, national-moral values

“Bizim hər birimizin bir vətəni var– bu Azərbaycan dövlətidir. Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dilini, dinini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daim doğma Azərbaycanla bir vurmalıdır. Təhsil ocaqlarında gənclərimizi xalqımızın mənəvi dəyərləri əsasında tərbiyələndirmək, mənəvi cəhətdən sağlam və saf insanlar tərbiyə etmək məsələsi mühüm yer tutmalıdır.” Bu cümlələr Azərbaycanın ümumilli lideri Heydər Əliyevə məxsusdur. Onun sözlərinə istinadən ifadə etməyə çalışdığım fikir isə milli- mənəvi dəyərlərin həyatımızda nə qədər mühüm rol oynamasıdır. Milli-mənəvi dəyər nədir? Mənəvi dəyərlər insanı cəmiyyətə formalaşdıran, inkişafına kömək edən davranış qaydalarıdır. Xalqın mövcudluğunun əsas göstəricisi olan milli-mənəvi dəyərlər qiymətsiz bir xəzinədir. Qeyd etmək lazımdır ki, min illər bundan öncə də, günümüzdə də ayrı-ayrı millətlərin yaratdığı milli-mənəvi dəyərlər mahiyyət etibarı ilə demək olarki eynidir. Buna səbəb isə qədim dövrlərdən fərqli xalqların yaratdığı mənəvi dəyərlərin eyni cür qiymətləndirilməsidir. Müsbət əməllərin tərifl ənməsi, mənfi əməllərin tənqid edilməsidir. Bu o deməkdir ki, yarandığı gündən bütün millətlər, bütün xalqlar, yəni, bütün bəşəriyyət eyni bir məqsədə, yüksək mənəviyyata çatmağa çalışmışlar.

Dünya xalqları içərisində milli-mənəvi dəyərləri ilə tanınan Azərbaycan xalqı yaşatdığı və təbliğ etdiyi bəşəri ideyaları, adət-ənənələri, milli xüsusiyyətləri ilə özünə məxsus yer yutur. Azərbaycan əsrlər boyu maddi və mənəvi xəzinəsini qoruyub saxlaya bilmişdir. Azərbaycanın qədim, rəngarəng mənəvi dəyərləri, mədəni irsi hazırda xalqın qürur mənbəyi və dünya mədəniyyətinə töhfəsi qismində çıxış edir (4,4.). Maddi milli dəyərlər tarix boyu millətin həyat səviyyəsinin yüksəlməsinə xidmət edirsə, milli-mənəvi dəyərlər millətin mənəviyyatının formalaşmasına, zənginləşməsinə kömək edir. Qədim dövr Azərbaycan ədəbiyyatında, incəsənətində, fəlsəfəsində milli-mənəvi dəyərlər özünün bədii-estetik, fəlsəfi ifadəsini tapmış, doğma yurda, adət-ənənələrinə bağlılıq obrazlı, poetik şəkildə ifadə olunmuşdur. Azərbaycan klassik ədəbiyyatının görkəmli nümayəndələrinin yaradacılığında milli-mənəvi dəyərlər mühüm yer tutur. Mənəviyyat xəzinəmizin bizə başucalığı gətirən, heç vaxt solmayan ən qiymətli incilərindən biri dünya poeziyasının sönməz ulduzu, sözün tam mənasında dahi insan Nizami Gəncəvinin bizə miras qoyub getdiyi ədəbi irsdir. Doqquz əsrə yaxındır ki, bu irsdən əxlaq dərsliyi kimi istifadə olunur və neçə-neçə əsrlər bundan sonra da istifadə olunacaqdır. Azərbaycan ədəbiyyat tarixinə adını qızıl hərflərlə yazdıran Nizami Gəncəvi, eyni zamanda Azərbaycanın ilk klassik pedaqoqlarından biri olmuşdur (3,110.). Mütəfəkkirin pedaqogikaya aid əsəri məlum olmasada “Xəmsə”də eləcə də qəzəl, qəsidə və rübailərində təhsil, təlim, tərbiyənin əsas problemləri ilə bağlı mütərəqqi fikir və ideyalar irəli sürülmüşdür. Nizami Gəncəviyə dünya

şöhrəti qazandıran və bu gün sanki yaşayırırmış kimi onu anmamıza vəsilə olan poemalarının toplusu "Xəmsə"sidir. "Xəmsə"də insanın zehni, mənəvi, əmək və fiziki tərbiyə məsələləri öz dolğun əksini tapmışdır. "Xəmsə" əvəzsiz pedaqoji mənbədir (1,6.).

Nizami bütün varlığı ilə insana istənilən tərbiyəni verməyin mümkün olduğuna inanırdı. Şair əsərlərində bu ideyanı dönə-dönə təsdiq etmişdir. Şairin müdrikliyi həm də onda idi ki, o, müxtəlif vasitələrdən olduqca məharətlə, zərgər dəqiqliyi ilə yerli-yerində istifadə etməklə tərbiyə etmək istəyirdi. Nizami Gəncəvinin əsərlərin əksəriyyətində əxlaq tərbiyəsi haqqında fikirlərə xüsusi diqqət yetiririlmişdir. Əxlaq ictimai şüurun əsas formalarından biri kimi həm fəlsəfi, sosioloji, həm də psixoloji, pedaqoji ədəbiyyatlarda geniş şərh olunur. Əxlaq – insanın mənəvi, dərin keyfiyyətlərini, cəmiyyətə və başqalarına qarşı münasibətlərini müəyyən edən normaları davranış qaydalarını özündə birləşdirir. Əxlaq tərbiyəsi şəxsiyyətin hərtərəfli formalaşmasının mühüm tərkib hissələrindən biridir. Əxlaq tərbiyəsi baza kimi etikaya istinad edir. Dahi şairin bizə miras qoyub getdiyi əsərlərində əxlaq tərbiyəsi bağlı dəyərli fikir və ideyalar, hikmətli sözlər neçə-neçə nəsillərin mənəvi tərbiyəsində mühüm rol oynamış və günümüzdə də rol oynamaqdadır. Dahi şair insanların mənəvi saflığı uğrunda mübarizə aparmış və bu yolda qələminin gücünü ən yüksək səviyyədə göstərmişdir. Bunun bariz nümunəsidir ki, Nizamidən sonra gələn şair və nasirlər, filosof və pedaqoqlar onun yaradıcılığından bəhrələnmişlər.

Alman şairi, dövlət xadimi və mütəffəkkiri və naturalisti, tarixdə ən çox tədqiq edilmiş yüz şəxsiyyətin siyahısına daxil olan Yohann Volfqanq Höte, Nizami yaradıcılığını yüksək qiymətləndirərək yazmışdır: "Nizaminin əxlaqi məsələrərə həsr olunmuş əsərlərində bədii səmimilik vardır" (3,53.).

Hər yanı gülşən Azərbaycanım tarix boyu dünya xalqları içərisində yüksək əxlaqi keyfiyyətləri ilə səs salıb şöhrət qazanmışdır. Əxlaqi keyfiyyətlər içərisində vətənpərvərlik, insanpərvərlik, dostluq, böyüyə hörmət, kiçiyə qayğı, düzlük, doğruculuk, mərdlik, sadiqlik və s. xüsusi ilə qabarıq şəkildə özünü göstərir. Bu əxlaq normalar Nizami Gəncəvi yaradıcılığında geniş şəkildə ifadə olunmuşdur.

Nizami Gəncəvi müsbət əxlaqi keyfiyyətləri aşılamaqla kifayətlənməmiş, insan mənəviyatına zərər verən mənfi keyfiyətləri ifşa etmişdir. İnsanları yaxşılığa dəvət etmiş, pis əməllərdən çəkinməyi tövsiyyə etmişdir. İnsanın edəcəyi hər bir əməlin onun özünə qayıdacağını söyləmiş, bir sözlə "nə əkərsən onu da biçərsən" xalq misalını dəstəkləyən fikir irəli sürmüşdür.

Quyuya atsanda yaxşılığı bil,
Yenə qayıdacaq o itən deyil.

Pedaqoji anlayışda insanpərvərlik böyük bir əxlaq dəyəridir (2,56). İnsanı yer üzünün əşrəfi hesab edən Nizami əsərlərində bu anlayışa zərgər dəqiqliyi ilə toxunmuşdur. Onun fikrincə insan insanı sevməli, bir birinə qarşı hörmət və rəğbət bəsləməlidir. Nizami Gəncəvinin yaratdığı obrazlar digər əxlaqı keyfiyyətlərlə yanaşı, özünün yüksək bəşəri duyğuları, insanpərvərliyi ilə seçilir.

Mənəvi keyfiyyətlər içərisində insana ən çox yaraşan, əxlaq anlayışlarından biri dostluqdur. Şifahi xalq ədəbiyyatı nümunələrində, klassiklərimizin aforizimlərində, pedaqoqlarımızın deyimlərində bu dəyərin nə qədər vacib olduğuna bir daha şahid oluruq. Nizami Gəncəvi misralarını eyni zamanda bu əxlaqi dəyərlə bağlı ibrətamiz fikirlərlə bəzəmişdir. Dostluğun ülvi bir hiss olduğu qənaətinə gələn şair eyni zamanda hər kəslə dostluq qurmağın müsbət nəticə verməyəcəyini də bildirmişdir. Dahi mütəfəkkir ikiüzlü, paxıl, kələkbaz insanlarla dostluq etməməyi rəva bilmiş, ədəbi ilə ad qazanmış gözəl dostlar qazanmağı tövsiyyə etmişdir. "Dostun

olmasa, həyatın fəlakət olar" deyən şairə görə həqiqi dost odur ki, dostunun eyibini üzünə desin, onun sirrini gizli saxlasın. Dostluqda sadəcə öz çıxarlarını düşünən dost, dost deyil. O düşməndən daha təhlükəlidir.

İnsanın dostu nacins olursa əgər,
Ondan yalnız hədsiz pisliklər görər.

N.Gəncəvinin yaratdığı müsbət qəhrəmanların demək olar ki, hamısı bir mənalı olaraq digər əxlaqı keyfiyyətləri ilə yanaşı, sadiq yoldaşlığı, etibarlı və sədaqətli olması, dostunun eyibini üzünə deməsi, ona ağıllı məsləhətlər verməsi, dost yolunda həyatı bahasına olsa belə fədakarlıq göstərməsi ilə fərqlənirlər.

Şairin yaradıcılılığında xüsusi yer tutan əxlaqi keyfiyyətlərdən ən baslicasi vətənpərvərlikdir. Nizamini tədqiq edən alimlər, Nizamişünaslar şairin böyük vətənpərvər olduğunu qeyd edirlər. Dahi şairimizin yaşadığı zaman çərçivəsində Gəncə şəhərini tərk etməməsi, ömürün sonuna kimi orda yaşaması yurduna olan sevgisindən irəli gəlir. Bu gün gözəl vətənimin dilbər güşəsi olan Gəncə şəhərinin Nizami yurdu adlandırılması təsadüfi deyildir. Bu şairə olan sevginin bariz nünunələrindəndir. Aydındır ki, dahi mütəfəkkirin vətənpərvərlik ideyası sadəcə Gəncə şəhərinə olan sevgisi ilə bitmir. O, bu anlayışa geniş aspekdən yanaşmışdır. Nizami "Xəmsə"sinə daxil olan poemalar içərisində, onun vətənpərvər obrazları mühüm yer tutur. Bu obrazlar "İsgəndərnamə"də Nüşabə, "Xosrov və Şirin" əsərində Şirin və Məhin Banudur. Nizami Gəncəvi ağıllı, cəsarətli qadın hökmdar kimi tərənnüm etdiyi Bərdə hakimi Nüşabə, həmdə öz ölkəsinə qol-qanad olan bir vətənpərvərdir (2,68). Öz ağlı ilə dünya fatehi İsgəndəri ram edən Nüşabə, eyni zamanda vətənənin azadlığını təmin edir və onunla əhd-peyman bağlayır. "Xosrov və Şirin" poemasında, Şirinin xalası olan Mehin Banu Arandan Ərmənə qədər böyük ərazilərə hökmdarlıq edən, vətənini sonsuz məhəbbətlə sevən, ağıllı cəsarətli bir qadındır. O qadın olmasına baxmayaraq , öz yurdunu yadelli işğalçılardan qorumağı bacarırdı. Xosrovu ilk dəfə gördükdə onu doğma yurdu Bərdəyə dəvət edir və öz vətəninin tərifini edir.

Dedi gəl bizimlə Bərdəyə gedək
Qışı qalaq orda, gəzək, kef edək.
Bizim bu Bərdənin yeri arandır.
Suyu çox, otu çox bir gülüstandır

Mehin Banunun yerinə taxta çıxan Şirin də onun kimi vətənə olan məhəbbəti ilə fərqlənir. Dahi şair vətənpərvərlik anlayışa çox geniş şəkildə yanaşmışdır. Bu anlayışa görə vətəni hər bir vətəndaş sevməlidir. Ancaq vətənpərvərlik vətəni sevməklə yekunlaşmır, eyni zamanda onu yadelli işğalçılardan qorumaq da ifadə olunur.

Bu günlərdə xalqımız "Vətən müharibə"sində, işğalda olan torpaqlarımızın yadelli işğalçılardan azad etmək uğrunda böyük addımlar atır. Bu gündə bizim vətənimizi, tormaqlarımızı düşməndən azad etməyimiz, onu qorumağımız, qələbə xəbərlərinin bizə verdiyi o möhtəşəm, təkrarolunmaz duyğular bizim əxlaqi dəyərlərimizə əsrlərdir sadiq olduğumuzun ən bariz nümünəsidir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Təhsil Nazirliyi Respublika Elmi pedaqoji kitabxanası XI-XX əsr Azərbaycan pedaqoqları. Bakı-2015
2. Bayram Apoyev "Nizami Gəncəvi"nin pedaqoji görüşləri. .Bakı, "Adiloğlu" nəşiriyyat , 2008

3. Bayram Apoyev.Nizami Gəncəvi irsindən pedaqoji prosesdə istifadə işinin sistemi (dərs vəsaiti) – Bakı- Mürtəcim, 2012
4. Milli-mənəvi dəyərlərin təbliğində kitabxanaların rolu. Bakı-2011

XÜLASƏ

Yazımda milli–mənəvi və əxlaqi dəyərlərin insan həyatında rolundan bəhs etməyə çalışdım. Milli-mənəvi dəyərlər tarixən xalqın milli ruhunu, estetik duyumunu və sənətkarlıq məharətini özündə ehtiva edib. Bəllidir ki, əxlaq normalarının adət-ənənələrin yaradıcısı xalqdır. Bütün xalqlar taledən bəxtlərinə düşən dəyərlərlə, həm də min illər boyu qazanmış olduqları dəyərlərlə fəxr edirlər. Mən bu dəyərləri Azərbaycanın görkəmli şair və filosofu, doqquz əsrdən çoxdur ki, sevərək mütailə edilən dahi Nizami Gəncəvinin yaradıcılığı fonunda işıqlandırmağa çalışdım, onun əsərlərində bir sıra əxlaqi keyfiyyətləri açmağa səy göstərdim.

АННОТАЦИЯ

В своей статье я попыталась рассказать о роли национально-духовных и нравственных ценностей в жизни человека. Национальные духовные ценности исторически включали в себя национальный дух, эстетическое чувство народа и умелость мастерства. Известно, что создателей нравственных норм, традиций является народ. Все народы гордятся ценностями, выпадающими на их судьбы, а также ценностями, которые они приобрели за тысячи лет. Я пыталась осветить эти ценности на фоне творчества выдающегося азербайджанского поэта и философа, читаемого с большой любовью более девяти веков, гениального Низами Гянджеви, я пытался раскрыть в его произведениях нравственные качества.

SUMMARY

In my article, I tried to talk about the role of national and moral values in human life. National-moral values have historically embodied the national spirit, aesthetic sense and craftsmanship of the people. It is known that the people are the creators of moral norms and traditions. For more than nine centuries, I have tried to highlight the outstanding poet and philosopher of Azerbaijan, the genius N. Ganjavi, who was loved and read, and tried to reveal a number of moral qualities in his works.

TƏLİM PROSESİNDƏ MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏDƏN İSTİFADƏNİN VƏZİYYƏTİ

Murad Ağalarov
BDU-nun II kurs magistrantı
m.agalarov@gmail.com

***Açar sözlər*:** qiymətləndirmə, monitorinq, yeni vasitələr, təlim, alternativ, ənənəvi
***Key words*:** assessment, monitoring, new tools, training, alternative, traditional
Ключевые слова: оценка, мониторинг, новые инструменты, обучение, альтернатива, традиционные

Təhsil, əsrlər boyu cəmiyyət və dövlətlər üçün ən mühüm məsələlərdən biri olmuşdur. Xüsusilə dəyişən və daim inkişafda olan dünyanın tələblərinə cavab vermək, onunla uyğunlaşmaq üçün təhsildə böyük həcmdə islahatlar aparılır, təlim prosesində innovativ texnologiyalardan istifadə olunur. Həmçinin təhsil müəssisələrində təhsilin keyfiyyətinin artırılması üçün yeni metodlardan istifadə olunur. Şagird nailiyyətlərinin qiymətləndirilməsi ənənəvi üsullarla birlikdə yeni vasitələrlə də həyata keçirilir.

XX əsrin sonlarından başlayaraq təhsil sahəsində aparılan araşdırmaların, tətbiq olunan yeniliklərin səmərəliliyinin artırılması, nəticələrin izlənilməsi, proqnozlaşdırılması və korreksiya işlərinin vaxtında həyata keçirilməsi məqsədi ilə təhsildə monitorinq və qiymətləndirmə mexanizmi tətbiq olunmağa başlanmışdır. Ölkəmizdə qiymətləndirmə ilə bağlı 13 Yanvar 2009-cu ildə "Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası" Nazirlər Kabineti tərəfindən təsdiq olunmuşdur. Bu konsepsiyada müasir dövrdə şagird nailiyyətlərinin qiymətləndirilməsi sisteminin vəzifələri, əsas xüsusiyyətləri, bu sahədə mövcud olan problemlər, əsas qiymətləndirmə növləri, qiymətləndirmə standartlarının və vasitələrinin hazırlanması və sair məsələlər əks olunmuşdur.

Monitorinq və qiymətləndirmə ümumtəhsil məktəblərində təhsilin keyfiyyətinin müəyyənləşdirilməsi üçün vacib sayılan amillərdən biridir. Bu baxımdan ümumtəhsil məktəblərində fəaliyyətin monitorinqi və qiymətləndirilməsi üçün elmi cəhətdən təsdiqini tapmış yeni mexanizmlər tətbiq olunmalıdır ki, təhsilin keyfiyyəti daha dəqiq və obyektiv ölçülə bilsin.

İnformasiya əsri olan 21-ci əsrdə dünya xalqları həyatda qalmaq üçün təhsilə böyük investisiyalar qoyacaqlar. Çünki, bu informasiya əsrində biliyə yalnız keyfiyyətli təhsil sayəsində nail olmaq olar. Bu səbəbdən də təhsildə tələbə müvəffəqiyyətinin qiymətləndirilməsi, şagirdlərin qabiliyyətlərinə uyğun istiqamətləndirilməsi kimi hər növ fəaliyyət, müəllim hazırlığı və təhsil proqramları kimi layihələr müəyyən bir plana uyğun həyata keçirilməlidir. Monitorinq və qiymətləndirmədən sonra əldə edilmiş nəticələri sağlam şəkildə şərh etmək vacibdir.

Bildiyimiz kimi, Azərbaycan müstəqillik qazandıqdan sonra təhsil sahəsində bir çox islahatlar aparılmış və daim inkişafda olan cəmiyyətin tələbinə uyğun olaraq aparılmaqda davam edir. Belə islahatlardan biri və ən vacibi Təhsildə İnkişaf Lahiyəsinə uyğun olaraq Milli Kurikuluma keçiddir. Milli Kurikuluma keçid ölkənin ümumi təhsil sistemində köklü dəyişiklikləri zəruri etdi. Yuxarıda qeyd etdiyimiz Qiymətləndirmə Konsepsiyası bu dəyişikliklərə bariz nümunə ola bilər. Belə ki, təhsil sahəsində aparılan ümumi islahatlar şagird nailiyyətlərinin qiymətləndirilməsi siyasətinə də öz təsirini göstərdi və daha müasir mexanizmlər tətbiq olunmağa başlanıldı.

Təhsil sahəsində nailiyyətlərin qiymətləndirilməsi 3 istiqamətdə aparılır.

1. Beynəlxalq qiymətləndirmə
2. Milli qiymətləndirmə
3. Məktəbdaxili qiymətləndirmə

Beynəlxalq qiymətləndirmə, ölkədə mövcud olan təhsil səviyyəsinin digər ölkələrin təhsil səviyyəsi ilə müqayisə aparmaq imkanı yaradır.

Milli qiymətləndirmə ölkə daxilində təhsilin keyfiyyətini müəyyən etməyə kömək edir.

Məktəbdaxili qiymətləndirmə isə şagird nailiyyətlərinin qoyulmuş standartlara uyğunluğu nəzərə alınaraq onların sinifdən sinifə, bir təhsil pilləsindən digər təhsil pilləsinə keçməsinə şərait yaradır. Məktəbdaxili qiymətləndirmə özü də 3 istiqamətdə aparılır.

Diaqnostik qiymətləndirmə təlim-tədris ilinin əvvəlində müəllimlər tərəfindən müşahidə və ya digər metodlardan istifadə edərək şagirdlər haqqında ilkin məlumatların toplanması və müvafiq qeydlər aparılması ilə həyata keçirilir.

Formativ qiymətləndirmə şagirdlərin inkişaf dinamikasını izləmək üçün aparılır. Tədris ili ərzində davamlı olaraq monitorinqlər keçirilir və şagirdlərin nəticələri müəllim tərəfindən xüsusi portfolioda qeyd edilir.

Summativ qiymətləndirmə isə kiçik (KSQ) , böyük (BSQ) və yekun olaraq 3 mərhələdə keçirilir. Kiçik summativ qiymətləndirmə mövzu və bəhslərin sonunda, böyük summativ qiymətləndirmə isə yarım ilin sonunda müəyyən qiymətləndirmə metodları ilə həyata keçirilir. Yekunda isə hər iki yarım ilin sonunda əldə olunmuş nəticələrə uyğun olaraq şagirdin yekun qiymətləndirilməsi tamamlanır.

Qəbul olunmuş bu konsepsiyaya əsasən qiymətləndirmə əvvəlcədən planlaşdırılmalı və onun nəticələri müəyyən olunmuş məqsədləri əks etdirməlidir. Məlumatların toplanılması prosesi, müəllimin istifadə etdiyi qiymətləndirmə meyarları və hətta onun özünün peşəkarlıq səviyyəsi şəffaf olmalıdır. Qiymət mükəmməl və düşünülmüş, məqsədəuyğun, tədris proqramlarına və digər normativ sənədlərə müvafiq verilməlidir.

Monitorinq və qiymətləndirmə təhsilin ayrılmaz və tamamlayıcı hissəsidir. Məqsədindən asılı olaraq monitorinq və qiymətləndirmə təlim prosesinin əvvəlində, ortasında və ya sonunda edilə bilər. Tədris öncəsi qiymətləndirmələr (diaqnostik) şagirdlərin hazırlıq səviyyələrini müəyyənləşdirir və təlimlərin şagirdlərin səviyyəsinə uyğun hazırlanmasını təmin edir. Təhsil prosesi zamanı aparılan qiymətləndirmələr (formativ-monitorinq) təhsildə əks əlaqə yaradır və təhsildə çatışmazlıqları və ya pozuntuları müəyyən edərək təhsilin səmərəliliyini artırır. Təhsil müddətinin sonunda edilən qiymətləndirmələrlə (summativ) şagirdlər tərəfindən əldə edilməsi gözlənilən bilik, bacarıq və davranışların qazanılıb qazanılmadığı müəyyən edilir.

Şagirdlərin bilik səviyyəsini qiymətləndirmək üçün onların müvəffəqiyyətini ölçə biləcək metod və üsullardan istifadə edilməlidir. Qiymətləndirmə sistemli bir proses olub təhsil hədəflərinin müəyyənləşdirilməsindən başlayır və şagirdlərin bu hədəflərə çatmaq üçün əldə etdikləri irəliləyişi izləyir. Monitorinq və qiymətləndirmə təlim prosesi üçün daha sistematik və obyektiv dəlillər təqdim edir. Eyni zamanda qiymətləndirmə nəticələri təlim və tədrisin yaxşılaşdırılması üçün istifadə edilə bilər. Monitorinq və qiymətləndirmə təhsil proqramının hazırlanmasında, məktəb idarəçiliyində və məktəb proqramının effektivliyində mühüm rol oynayır.

Qiymətləndirmə, şagirdləri həvəsləndirir, motivasiya edir, təhsildə yeni texnologiyaların həyata keçirilməsinə kömək edir, müvəffəqiyyəti artırır və şagirdləri təlimə təşviq edir. Lakin bütün bunların baş verməsi üçün qiymətləndirmə düzgün aparılmalıdır. Monitorinq və qiymətləndirmə nəticəsində əldə edilən məlumatlara əsasən təhsilin effektivliyi və səmərəliliyi artırıla bilər.

Ənənəvi metodlarda şagird nailiyyətlərinin qiymətləndirilməsi ümumiyyətlə tədris prosesindən ayrı və daha çox dərs materiallarına istiqamətlənmiş şəkildə aparılırdı. Bu məqsədlə seçməli və qısa cavab testlərinə, yazılı və şifahi imtahanlara üstünlük verilirdi. Yeni yanaşmada isə monitorinq və qiymətləndirmə tədris prosesinin bir hissəsi kimi qəbul edilir və yalnız tədrisin başlanğıcında və sonunda deyil, təlim prosesi boyunca davam edir. Ənənəvi metodlardan fərqli olaraq burada daha çox müxtəlif monitorinq və qiymətləndirmə vasitələrinin və ya metodlarının istifadəsi tələb olunur. Ənənəvi olaraq istifadə olunan kağız-qələm testləri ilə yanaşı, şagirdin sinif daxilində və xaricində davranışını və prosesdəki fəaliyyətini müşahidə etmək mümkündür. Bundan başqa şagirdin qiymətləndirmə prosesinə daxil edilməsi, monitorinq və qiymətləndirməni geniş perspektivdən götürməklə şagirdin inkişaf dinamikasını hər tərəfdən qiymətləndirməyə kömək edir.

Ənənəvi qiymətləndirmə sistemində şagirdin fəaliyyətinin yeganə müəyyənedicisi və icraçısı müəllim hesab olunur. Bu tip qiymətləndirmədə şagirdin məlumatı öyrənərkən hansı yolu izlədiyi, necə analiz etdiyi və məlumatı necə əldə etdiyi və digər insanlarla necə ünsiyyət qurduğu müşahidə olunmur. Yeni monitorinq və qiymətləndirmə mexanizmlərinin qəbul edilməsi ilə ənənəvi üsullarla müşahidə edilə bilməyən nəticələri izləməyə və qiymətləndirməyə imkan verən yeni metodlar ortaya çıxdı. Bu metodlar inkişaf etməkdə olan dünyamızda daima yenilənən və dəyişən informasiyalarla uyğunlaşa bilən və bu biliklərdən istifadə edərək yeni məlumatlar əldə edə bilən şəxsləri yetişdirməyi hədəfləyir. Bu hədəflərə çatmaq üçün müasir dünya təhsilinə uyğun qiymətləndirmə metodları inkişaf etdirmək vacibdir. Bunun üçün mövcud qiymətləndirmə üsullarının yanında yeni metodların işlənilməsi tələb olunur. Yenilənmiş tədris proqramında yaradıcı və tənqidi düşünmə, problem həll etmə, qərar qəbul etmə, araşdırma, təşəbbüskarlıq kimi ümumi bacarıqların nə dərəcədə əldə olunduğunu göstərmək üçün şagirdin irəliləyişlərinin monitorinqi və alternativ qiymətləndirmə anlayışları ortaya çıxdı. İrəliləyişlərin izlənilməsi, şagirdlərin təlim prosesində hər hansı bir mövzu barədə bilik, bacarıq və vərdişlərini, həmin mövzu ilə əlaqəli bir tapşırıq verməklə və şəffaflığı təmin edilən qiymətləndirmə vasitələrindən istifadə edərək bu tapşırıqda effektivliyini təyin etməkdir. Ənənəvi qiymətləndirmə vasitələri və metodları şagirdlərin bildiklərini qiymətləndirməyə yönəlmişdir. Yazılı və şifahi testlər şagirdlərin nəyi əldə etdiklərini ortaya qoyur. İrəliləyişlərin izlənilməsi isə şagirdlərin biliklərini qiymətləndirməklə yanaşı, onların nə edə biləcəyini və necə tətbiq edə biləcəyini də təyin etməyə kömək edir. İrəliləyişlərin qiymətləndirilməsi şagirdlərin işinin keyfiyyətli şəkildə qiymətləndirilməsinə imkan yaradır. Bundan başqa, irəliləyişlərin monitorinqi ənənəvi qiymətləndirmə vasitələri ilə üzə çıxarıla bilməyən təlim prosesindəki bir çox inkişaf elementlərini də qiymətləndirə bilir. Alternativ qiymətləndirmə vasitələrinə araşdırma, müşahidə, özünü qiymətləndirmə, şagirdlərin biri-birilərini qiymətləndirməsi və s. metodları göstərə bilərik. Təlim məqsədlərinin getdikcə artan mürəkkəbliyi monitorinq və qiymətləndirmə metodlarının müxtəlifliyinin artmasına səbəb olur. Müasir dövrdə yeni qiymətləndirmə metodları və vasitələrini tətbiq etmək zəruridir.

Təlim prosesində tətbiq olunan yeni monitorinq və qiymətləndirmə metodları müəllimləri yeni vəzifələri də icra etməyə vadar edir. İndi müəllimlərin öyrədici funksiyası ilə yanaşı həm də, sinif mühitinin təşkili və istiqamətləndirilməsi kimi funksiyaları da ortaya çıxır. Bu baxımdan müəllimləri bu tələblərə uyğun istiqamətləndirmək və qiymətləndirmə təcrübələrini səmərəli həyata keçirmələrini təmin etmək çox vacibdir.

Konstruktivist təlim konsepsiyasına əsasən qiymətləndirmə, test edilmiş məlumatları yadda saxlamaq əvəzinə onları izah etmək, yeni vəziyyətlərə tətbiq etmək və proqnozlaşdırmaqdır. Təlimin nəticəsindən daha çox təlim prosesini qiymətləndirmək vacibdir. Təlim, proses müddətində və mürəkkəb təlim şəraitində sınaqdan keçirilir. Bunun üçün ənənəvi imtahan

növlərinə üstünlük verilmir. Qiymətləndirmə şagirdlərin təqdim etdikləri ev tapşırıqları, layihələr, hesabatlar və sinifdəki fəaliyyətləri nəzərə alınmaqla aparılır. Qiymətləndirmə təlimin ayrılmaz hissəsi olaraq ona istiqamət verən fasiləsiz bir prosesdir. Konstruktivist təlimin mərkəzində biliklərin şagirdlər tərəfindən toplandığını nəzərə alsaq, qiymətləndirmədə tapşırığa uyğunluq və istiqamət vacib meyarlar kimi qəbul edilir.

Son vaxtlar təhsildə qiymətləndirmə və monitorinq metodları təlim prosesində iki mühüm rol oynamışdır. Bunlardan birincisi, bu metodların təlim-tədris prosesinin effektiv planlaşdırılması, tətbiqi və əldə edilən nəticələrin səmərəli və səhvsiz qiymətləndirilməsidir. İkincisi, tələbə nailiyyətlərinin düzgün aşkarlanması və cüzi səhvlərlə şagirdlər haqqında doğru qərarların verilməsi olmuşdur.

Təlim prosesində bir çox qərar qəbul etmək üçün müxtəlif qiymətləndirmə vasitələrindən istifadə olunur. Dəqiq və məqsədyönlü nəticələr əldə edilməsi üçün bu vasitələr müəyyən struktur xüsusiyyətlərə malik olmalıdır. Bu keyfiyyətlər aşağıdakılardır:

1. Etibarlılıq
2. Şəffaflıq
3. Faydalılıq

Yuxarıda da qeyd etdiyimiz kimi qiymətləndirmə vasitələrini ənənəvi və alternativ olmaqla iki qrupa ayıra bilərik. Ənənəvi qiymətləndirmə vasitələrinə yazılı və şifahi sorğular, müxtəlif növlü test tapşırıqları, inşa və imla yazıları və s. aiddir. Müasir təhsil sistemində fəal təlim prosesi ənənəvi qiymətləndirmə vasitələri ilə yanaşı alternativ qiymətləndirmə vasitələrindən də istifadəni zəruri etmişdir. Alternativ qiymətləndirmə vasitələrinə nəzər salsaq görərik ki, burada şagirdin bilik səviyyəsi ilə yanaşı davranış qaydaları, biliyin necə əldə edilməsi, hansı yollarla biliyə yiyələndiyi də qiymətləndirmədə öz əksini tapır. Bu vasitələrə - müşahidə, şifahi sorğu, müəllim tərəfindən davamlı olaraq şagird haqqında qeydlərin aparılması, şagirdin özü özünü qiymətləndirməsi, şagirdlərin bir-birilərini qiymətləndirməsi, sorğu-anketlərinin hazırlanması və s. nümunə kimi göstərə bilərik.

Aparılan araşdırmalar göstərir ki, ümumtəhsil məktəblərində hələ də qiymətləndirmə ilə bağlı ilə ciddi problemlər mövcuddur. Bəzi hallarda müəllimlər tərəfindən qiymətləndirmə vasitələri və meyarları düzgün seçilmir, bəzi hallarda isə bilərəkdən və ya bilməyərək şəffaflıq və ədalətlilik prinsiplərinə əməl olunmur. Araşdırmalara əsasən bu problemləri aradan qaldırmaq üçün bir sıra tədbirlərin görülməsi zəruridir.

- Fənn müəllimlərinin təcrübədə yaşadıqları problemlər müvafiq qurumlar tərəfindən araşdırılmalı və bu problemləri həll etmək üçün tədbir görülməlidir.
- Müəllimlər müəyyən olunmuş müddətdə monitorinq və qiymətləndirmə ilə əlaqədar ixtisasartırma seminarlarına cəlb edilməli və bu seminarlarda iştirak məcburi edilməlidir. Xüsusilə qabaqcıl iş təcrübəsi olan müəllimlər üçün bu seminarların sayı artırılmalıdır.
- Qiymətləndirmə ilə bağlı rəqəmsal mühit yaradılmalı, müəllimlər mütəmadi olaraq yenilənən məlumatlarla tanış olmalı və yeni mənbələrdən istifadə etməlidirlər.
- Məktəblərdə qiymətləndirmə ilə bağlı işlərə nəzarət gücləndirilməli və yaxından izlənilməlidir. Təhsil müfəttişləri müvafiq kurslarda iştirak edərək müəllimlərə rəhbərlik etməlidirlər.
- Müəllimlər üçün monitorinq və qiymətləndirmə haqqında bələdçi kitabları və bukletlər hazırlanaraq müəllimlərin istifadəsinə verilməlidir.
- Müəllim yetişdirən təhsil ocaqları tədris planlarına yeni metod və üsullar daxil etməlidirlər.
- Monitorinq və qiymətləndirmə sahəsində mütəxəssislərin və təlimçilərin sayı artırılmalıdır.

ƏDƏBİYYAT

1. "Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası", Bakı, 13 Yanvar 2009.
2. İlham Cavadov, "Ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmə", Azərbaycan müəllimi, 30 May 2014, səh.8.
3. Rəbiyyə Menteş, "Müəllimlərin istifadə etdikləri monitorinq və qiymətləndirmə vasitələrinin müəyyənləşdirilməsi", Kipr, İyun – 2012.
4. İlhan Keskin, "Təhsildə qiymətləndirmə və monitorinq" – Əhməd Yesevi Universiteti, Ankara, 2015.

XÜLASƏ

Təhsil cəmiyyətin və ölkələrin inkişafında mühüm yer tutur. Cəmiyyətin inkişafı üçün fərdlərin qərar qəbul etmə, problemləri həll etmə, analiz, tənqidi və müstəqil düşünmə kimi bacarıqlar inkişaf etdirilməlidir. Təlim prosesində bu kimi bacarıqları şagirdlərə aşılamaq zəruri məsələlərdən biridir. Nəzarət və qiymətləndirmə təlim-tədris prosesinin ən vacib mərhələsidir. Monitorinq və qiymətləndirmə təlim prosesində şagird çatışmazlığının erkən aşkarlanmasına və bu çatışmazlıqların aradan qaldırılmasına şərait yaradır.

Şagirdin bilik səviyyəsinin hansı dərəcədə olduğunu bilməsi ona motivasiya baxımından fayda verir, həmçinin müəllimin özünü qiymətləndirməsinə imkan yaradır. Bu baxımdan monitorinq və qiymətləndirmə təhsilin ayrılmaz hissəsidir. Müasir təhsil sistemində həyata keçirilən təhsil proqramlarında monitorinq və qiymətləndirmə əhəmiyyət qazanmışdır. Bu mənada alternativ qiymətləndirmə vasitələri və metodlarının təlim prosesində fəal şəkildə istifadəsi vacib sayılır.

АННОТАЦИЯ

Образование играет важную роль в развитии общества и страны. Для развития общества людям необходимо развивать такие навыки, как принятие решений, решение проблем, анализ, критическое и независимое мышление. Такие навыки важно прививать студентам в процессе обучения. Мониторинг и оценка - важнейший этап учебного процесса. Мониторинг и оценка способствуют раннему выявлению недостатков учащихся в процессе обучения и устранению этих недостатков.

Знание уровня ученика приносит ему пользу с точки зрения мотивации, а также позволяет учителю проводить самооценку. В этом отношении мониторинг и оценка являются неотъемлемой частью обучения. Мониторинг и оценка стали важными в образовательных программах, реализуемых в современной системе образования. В этом смысле важно активно использовать альтернативные инструменты и методы оценки в процессе обучения.

SUMMARY

Education plays an important role in the development of societies and countries. For the development of society, individuals need to develop skills such as decision making, problem solving, analysis, critical and independent thinking. It is important to instill such skills in students during the learning process. Monitoring and evaluation is the most important stage of the learning process. Monitoring and evaluation facilitate the early detection of student deficiencies in the learning process and the elimination of these deficiencies.

Knowing the level of knowledge of the student benefits him in terms of motivation, as well as allows the teacher to self-assess. In this regard, monitoring and evaluation is an integral part of education. Monitoring and evaluation have become important in educational programs implemented in the modern education system. In this sense, it is important to actively use alternative assessment tools and methods in the learning process.

XIX ƏSRDƏ AZƏRBAYCANDA SOSİAL –SİYASI VƏ İQTİSADİ VƏZİYYƏTİN ELM VƏ MƏDƏNİYYƏTİN İNKİŞAFINA TƏSİRİ

Kəmalə Qəhrəmanova
BDU-nun Pedaqogika kafedrasının dosenti
Abbasova Natəvan Şümşəd qızı
BDU-nun II kurs magistrantı
natavan029@gmail.com

Açar sözlər: cəmiyyət, mədəniyyət, iqtisadiyyat, islahat, inkişaf , maarif.
Ключевые слова: общество, культура, экономика, реформа, развитие, образование.
Key words: society, culture, economy, reform, development, education.

Azərbaycanın Rusiya tərəfindən işğalından sonra sosial-iqtisadi və mədəni həyatda ciddi dəyişikliklər baş verdi. Arazdan şimalda yerləşən torpaqların Rusiya tərəfindən istilası Azərbaycan tarixində mühüm hadisə oldu. Azərbaycanın Rusiyanın tərkibinə qatılması nəticəsində Rusiya ilə olan əlaqələr genişlənməyə və bununlada dünya bazarına qoşulmağa imkan yarandı. Şimali Azərbaycan kapitalizmin inkişaf yoluna düşdü.

XIX yüzilliyin 30-cu illəri kənd təsərrüfatı və əmtəə-pul münasibətlərinin inkişafı dövrüdür. Azərbaycan ipəkçiliyi inkişaf etməkdə davam eliyirdi. Xam ipəyin bir hissəsi, Şamaxı şəhərində və onun ətrafında olan kəndlərdəki ipəktoxuma müəssələrində emal olunurdu.

Azərbaycanın təbii zənginlikləri və daxili bazarın tələbatının yüksək olması iqtisadiyyatın çoxsahəli olmasına şərait yaratmışdı. Sənətkarlığın bazar üçün əhəmiyyətli olan sahələrindən xalçaçılığı, toxuculuğu, misgərlik, boyaqçılığı və s. göstərmək olar. Qarabağ xalçaçılığın ən çox inkişaf etdiyi zona idi. Sonradan xalça istehsalı inkişaf edərək artıq xarici ölkə bazarlarına çıxarılırdı. Azərbaycanda 160-a yaxın boyaxana fəaliyyət göstərirdi. Sənətkarlığın müxtəlif sahələrinin inkişafı ticarətində genişlənməsinə təkan verirdi.

Azərbaycan ticarəti, xüsusən xarici ticarət əlaqələri, yavaş da olsa, inkişaf və genişlənmək yolunda idi.İpək məmulatı ilə yanaşı, ağ neft, zəfəran və s. məhsulların miqdarı da artırdı.

Rusiya tərəfindən işğalın başa çatması ilə Azərbaycanda həyata keçirilən bir sıra sosial-iqtisadi tədbirlər sənaye kənd təsərrüfatı ilə yanaşı, ticarətində inkişafına kömək edirdi. Ticarət məntəqələri yaranır, ticarət müəssisələrinin sayı çoxalır və rayonlar arasında əmtəə-pul münasibətləri genişlənirdi. Neftə sahib olması və əlverişli mövqedə yerləşməsi Bakı şəhərini ticarətin mərkizinə çevirmişdi. Bakı limanının dövriyyəsi tacirlərin varlanmasına və kapital yığımının çoxalmasına səbəb olurdu. Nuxa, Şuşa, Ordubad və s. yerlərdə də kapital həcmi xeyli artmışdı.

Azərbaycanın İranla olan ticarət əlaqələri də inkişaf etmişdi. İranla olan ticarət əlaqələrində yenə də Bakı şəhəri əhəmiyyətli idi.

XIX yüzilliyin əvvəllərində Azərbaycanda inkişaf etmiş şəhərlər içərisində Şamaxı, Bakı, Yelizavetpol, Nuxa, Şuşa, Quba, Lənkəran, Naxçıvan və Ordubad kimi şəhərlərin adlarını çəkmək olar. 1821-ci ildə Şamaxı şəhərinin bərpası ilə bağlı plan işlənib hazırlandı.Şəhər bərpa ediləndən sonra onun əhalisi də artmağa başladı. Azərbaycanın digər şəhərlərinin də əhalisi artırdı.Şəhər əhalisinin ümumi sayı 100 min nəfərə çatmışdı. Şəhərlilərin sosial tərkibini hakim feodal sinfi, sənətkarlar ,tacirlər, xan ailəsi üzvləri və ruhanilər təşkil edirdi. Azərbaycan şəhərlərinin idarə olunması vəzifəsi şəhər polislərinə tapşırılmışdı.

1840-cı ildə həyata keçirilən İslahata əsasən şəhər əhalisi sayına görə dörd dərəcəyə ayrılırdı.

1) əhalisi çox olan
2) əhalisinin sayı orta təbəqə olan
3)əhalisi az olan
4)ştata daxil olmayanlar.

Şəhərlərin binalar və tikililər üçün ayrılmış torpaqlardan əlavə, örüş və əkin sahələri, meyvə və üzüm bağları var idi. Şəhər sakinləri tək bağ və bostanla məşğul olmayıb, həm də heyvan saxlayırdılar. Şəhər həyatının inkişafı nəticəsində şəhərlərdə olan tikililərində sayı artırdı.

XIX əsrin ikinci yarısında əmtəə istehsalının inkişafı sosial təbəqələşmənin güclənməsinə imkan yaratmışdı. Təbəqələşmə Şimali Azərbaycanın sosial-iqtisadi həyatında səciyyəvi hadisəyə çevrilmişdi.

Dünyanın hər yerində, sosial inkişafın hər mərhələsində cəmiyyətin təhsillə təbii bağlılığı olmuşdur.

Cəmiyyətdəki dəyişikliklər çərçivəsində, təhsil, qadınların təhsili və inkişafı da daxil olmaq üzrə sosial-iqtisadi vəziyyətin təhsil üzərindəki təsiri göründü.

İqtisadi böyümə yeni mədəniyyət formalaşdırmağı zəruri etdi. Çünki cəmiyyətdəki inkişaf mədəni tarixin bir nəticəsidir. İqtisadiyyat və Mədəniyyətdəki görünən bütün dəyişikliklər isə təhsilin inkişafını tələb edirdi. Mədəniyyətin xüsusi ilə böhran vaxtlarında təhsilin inkişafına, təhsil sisteminin yaxşılaşdırılmasına böyük təsiri oldu (K.Gahramanova, 2019).

XIX əsrdə Şimali Azərbaycanın Rusiya tərəfindən işğalından sonra çarizmin siyasətinin nəticəsində mədəni-maarif sahəsində də bir çox dəyişiklik və yeniliklər olmuşdu. Onlara aşağıdakıları misal göstərmək olar:

1) Yeni məktəb sisteminin meydana gəlməsi və inkişafı.
2) İlk dövlət məktəblərinin yaranması.
3) Azərbaycan dilində ilk dərsliyin çap edilməsi.
4) Qadın təhsilinin ön plana çıxması və ilk qız məktəbinin açılması.
5) Azərbaycan mətbuatının əsası qoyuldu.
6) Milli müəllim kadrları hazırlığı işində böyük rol oynayan, Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin açılması və s.

Azərbaycan xalq maarif sisteminin tarixi 1829-cu il ilk nizamnamənin təsdiq edilməsi ilə başlayır. Həmən nizamnamə ilə Azərbaycanda qəza məktəbi adı ilə ilk dövlət məktəblərinin əsası qoyuldu.Qəza məktəblərinin tədris planına şəriət, rus dili, hesab, hüsnxət və yerli dillər daxil idi. Azərbaycanda ilk qəza məktəbi Şuşada açılmışdı. 1830-cu il 30 dekabrda fəaliyyətə başlıyan bu məktəbin cəmi 19 şagirdi var idi.Qəza məktəblərinin vəziyyətini nəzərə alaraq 6 ildən sonra yenidən nizamnamə imzalandı. 1835- ci il nizamnaməsinə görə təhsil üç il müddətinə qaldırıldı.Birinci il hazırlıq sinfi hesab edilirdi. 1835 –ci il nizamnaməsinin əvvəlki nizamnamədən o qədər də fərqi olmadı. Qəza məktəblərinin məzmununda yenidən dəyişikliklər etmək üçün 1848-ci il sayca 3-cü nizamnamə qəbul edildi. Nizamnamənin şərtlərinə görə məktəbə daxil olanlardan nə təhsil haqqı, nə də təxmini bilik tələb edilirdi. Müəllim işləmək istəyənlər məktəbin yerləşdiyi qəzanın dilini bilməli idi (Hüseyn Əhmədov, 2001).

Azərbaycanda dövlət məktəblərinin meydana gəlməsi Azərbaycan dilinin tədris edilməsi Azərbaycan dilində dərsliklərin yaradılmasına imkan yaratdı. M.F.Axundzadə Azərbaycan dilində dərslik yazmağa çalışmış, lakin müəllimlik vəzifəsindən azad olması ilə əlaqədər davam etdirməmişdir.Ana dilində dərslik tərtib etmək işində Tiflis qəza məktəbi və gimnaziyasının digər müəllimlərinin də böyük rolu olmuşdur. Azərbaycan dilində ilk əlifba və oxu kitabı 1839-cu ildə N.Dementyevin müəllifliyi ilə çap edilmişdir. İllər keçdikcə Azərbaycan dilinin tədrisi ilə bağlı yeni dərsliklər çap edilirdi. Bunlara misal olaraq “Türk-tatar dilinin qrammatikası”, “Türk-

tatar dilinin əlifbası", "Kitabi-türki" dərslikləri göstərmək olar. Azərbaycan və Zaqafqaziya məktəblərində təhsil alan şagirdlər həmin dərsliklərdən Azərbaycan dilini öyrənmişlər.

XIX yüzillikdə Azərbaycanda qadın təhsilinin inkişafı iki istiqamətdə gedirdi. Azərbaycan qızlarının bir qismi dini məktəblərdə, evdə təhsil alırdı.Zəngin Azərbaycan qızlarının az qismi isə müsəlman olmayanlar üçün təşkil olunan rus qız məktəblərində təhsil alırdılar. Rus qız məktəblərinin açılması bir tərəfdən rus düşüncəsi, digər tərəfdən beynəlxalq mədəniyyət təsiri Azərbaycan qızlarının dünyəvi təhsil ideyasını sürətləndirirdi. Ortaya çıxan dəyişikliklər, sosial vəziyyətin təsiri ilə yeni düşüncə formalaşmağa, cəmiyyətin aktiv üzvləri hərəkətə keçdi.(K.Gahramanova, 2019) Azərbaycanda rus dilində ilk qız məktəbi 1848- ci ildə açıldı. Şamaxıda açılan bu qız məktəbi "Müqeddəs Nina"qız məktəbi adlanırdı. Qız məktəbi eyni adlı "Müqeddəs Nina " qadın xeyriyyə cəmiyyəti tərəfindən açılmışdı. Xeyriyyə cəmiyyətinin tərkibində azərbaycanlı qadınlar da iştirak edirdi. Azərbaycanın şəhərlərində qadın təhsilinə olan tələbat artırdı. Şuşada qız məktəbinin əsası 1875- ci ildə qoyuldu. Şuşada açılan bu məktəbin tədris planına rus dili, hesab, ana dilində oxu və yazı, hüsnxət, rəsm, coğrafiya və tarix daxil idi. Şuşadan sonra Gəncədə 1895-ci ildə qız məktəbi yarandı. Gəncə qız məktəbi inkişaf edərək gimnaziyaya çevrilmişdi.

XIX əsrin sonlarına yaxın qadın təhsilinin əhəmiyyəti təkcə şəhərlərdə deyil , kəndlərdə də özünü göstərirdi. Artıq bir çox qəzalarda oğlan məktəblərinə qızların cəlb edilməsinə başlanılmışdı. Bu işdə görkəmli yazıçı Cəlil Məmmədquluzadənin xidmətləri əvəzsizdir. Azərbaycan ziyalilarının qadın təhsili uğrunda mübarizəsi genişlənirdi. Milli burjuzaziyanın görkəmli nümayəndəsi H.Z. Tağıyevin öz vəsaiti ilə azərbaycanlı qızlarına dünyəvi təhsil verən məktəb açmağa çalışması Bakıda müsəlman qız məktəbinin açılması ilə nəticələndi.

Bu dövrdə Azərbaycanda ictimai-iqtisadi inkişafla bağlı olaraq realist dramaturgiya, nəsr və nəzm inkişaf edir, ədəbiyyat zənginləşir, incənətdə irəliləmə nəzərə çarpırdı.

H.Zərdabinin nəşr etdirdiyi "Əkinçi" qəzeti maarif və məktəb təhsilinin inkişafında mühüm rol oynadı. 1875 –ci ildə "Əkinçi" qəzetinin nəşrə başlaması ilə Azərbaycanda milli mətbuatın əsası qoyuldu. "Əkinçi" qəzeti xalqı elmə, maarifə səsləyir, onları həyatın bütün sahələrində tərəqqiyə doğru çağırırdı. Daha sonralar Azəarbaycan dilində "Ziya", "Ziyayi Qafqaziyyə" və "Kəşkül" adlı qəzet və jurnallar nəşr edilməyə başladə. Azərbaycan ziyalılarının, müəllim və ictimai xadimlərin Azərbaycan dilində kitab, qəzet və jurnal nəşr etdirmək cəhdləri çar hökuməti tərəfindən müqavimətə rast gəlirdi. Azərbaycan dilində qəzet və jurnalların məhdud sayda nəşr edilməsi, Azərbaycan mədəniyyətinin görkəmli nümayəndələrinin öz fəaliyyətlərini Qafqazın və Rusiyanın mətbuatında genişləndirməsinə səbəb oldu.

XIX əsrin ikinci yarısında inkişaf etməkdə olan yeni mədəniyyətin xarakterik xüsusiyyətlərindən biri xalq maarifi və məktəb təhsili ilə bağlı olmuşdur. Təhsil sahəsində ciddi inkişaf başlamışdı. Azərbaycanlı gənclər Qafqazın və Rusiyanın ali ixtisas məktəblərinə daxil olurdu.

Azərbaycanlı müəllim kadrlarının yetişməsində Zaqafqaziya Müəllimlər Seminaryasının nəzdində 1879- cu ildə Azərbaycan şöbəsinin açılması böyük rol oynadı. Azərbaycan şöbəsinin açılmasında M.F.Axundov və A.O.Çernyayevskinin xidmətləri əvəzsiz olmuşdu. Qori seminariyası 1899-cu ilədək 89 nəfər azərbaycanlı müəllim hazırlamışdı. Həmin kadrlar içərisində Mahmudbəyov, Firidun bəy Köçərli, Sultan məcid Qənizadə və başqalarının adlarını çəkmək olar. Məzunlar qəzalara, ucqar rayonlara gedib dərs deyirdilər. Qori Seminariyasının Azərbaycan şöbəsinin Qazaxa köçürülməsi ən mühüm məsələ idi. Xalqımızın maarifçiləri bu işin reallaşması üçün əllərindən gələni edirdilər. Firidun bəy Azərbaycan şöbəsinin vəziyyətinin ağır olması və şöbənin Azərbaycanın şəhərlərindən birinə köçürülməsi məsələsini qaldırmışdı.

1918-ci ildə Zaqafqaziya Müəllimlər seminariyasının Azərbaycan bölməsi Azərbaycan Respublikasının maliyyə vəasiti hesabına Qazax şəhərinə köçürülmüşdü. Həmin Azərbaycan şöbəsi Sovet hakimiyyəti qurulduqdan sonra 1940-cı ilə qədər Qazax Pedaqoji Texnikomu adı ilə fəaliyyət göstərmişdir. Azərbaycan bölməsinin qazax şəhərinə köçürülməsində Firidun bəy Köçərlinin xidmətləri unudulmazdır. Qazax seminariyasının məzunları içərisində Səməd Vurğun, Mehdixan Vəkilov, Osman Sarıvəlli, Mehdi Hüseyn, Seyfulla Şamilov, İsmayıl Şıxlı kimi böyük bir ziyalı nəsli var idi. Azərbaycan bölmsinin Qazaxa köçürülməsi Azərbaycanda təhsilin, maarifin inkişafına böyük təkan verdi. Qısa zaman içərisində 23 dövlət müəssisəsi, 6 kişi, 4 qadın gimnaziyası və başqa məktəblər fəaliyyətə başladı.Gəncədə, Qazaxda, Şuşada və Bakıda pedaqoji kurslar açılmağa başladı. Milli mədəniyəti və xalqın milli adətlərini təbliğ edən cəmiyyətlər təşkil edilirdi. Vətənpərvərlik və milli ənənəçilik ruhunun tərbiyə olunmasında Müəllimlər Seminariyasını bitirən ziyalılarımız böyük rol oynayırdı.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi, IV cild, 2007, səh. 62-83
2. Heydər Hüseynov ,2007. Azərbaycandaa XIX əsr ictimai və fəlsəfi fikir tarixindən, səh. 27-61
3. Hüseyn Əhmədov, 2001. Azərbaycan Məktəb və Pedaqoji Fikir Tarixi, səh. 80-125
4. K.Gahramaova , 2019. XX . Əsrdə Sosial-Siyasi vəziyyətin təhsilin inkişafına təsiri, məqalə.

XÜLASƏ

XIX əsrdə Azərbaycan torpaqları iki hissəyə bölündü. Bu dövrdə Azərbaycan xalqının tarixində, dövlətin sosial- iqtisadi, siyasi və mədəni həyatında mühüm dəyişikliklər baş verdi.Ticarət əlaqələri genişləndi. İctimai həyatda şəhərlərin rolu artmış və şəhər sakinlərinin sayı çoxalmışdı. Mədəniyyət və maarif əhəmiyyətli inkişaf yolu keçmişdir. Dövlət məktəblərinin yaradılmasından tutmuş milli mətbuatın əsasının qoyulmağına qədər hər bir uğur xalqın inkişafında növbəti mərhələyə təkan verdi.

АННОТАЦИЯ

В XIX веке азербайджанские земли разделились на две части. В этот период произошли значительные изменения в истории азербайджанского народа, в социально-экономической, политической и культурной жизни государства. Торговые отношения расширились. Возросла роли городов в общественной жизни, и увеличилось количество горожан. Значительное развитие произошло в сфере культуры и образования. Каждый успех, от создания государственных школ до основания нашей национальной прессы, давал толчок к следующему этапу развития народа.

SUMMARY

In the 19th century, the lands of Azerbaijan were divided into two parts. In the history of the Azerbaijani people during this period, significant changes have taken place in the country`s social-economic, political and cultural life. Trade deals expanded. The role of the dawn increased and the number of the inhabitants of the city increased in social life. People of civilization and education have crossed the important way of development. From the establishment of state schools to the establishment of our national press, every success has given impetus to the next stage in the development of the nation.

FƏLSƏFƏ

ЧЕЛОВЕК, СМЫСЛ ЕГО СУЩЕСТВОВАНИЯ И МОДЕЛИ ВРЕМЕНИ

к.ф.н. Намазова Айбала Фируддин,
доцент кафедры Философии БГУ
ada.abdulla@gmail.com

Ключевые слова: жизнь, смысл жизни, смерть, бессмертие, время.
Key words: life, meaning of life, death, immortality, time.
Açar sözlər: həyat, həyatın mənası, ölüm, ölümsüzlük, zaman.

Разве мы ошибаемся, сказав, что время существует
только потому, что оно стремится исчезнуть?
/Августин Блаженный /

Издавна человеку свойственно жить не бездумно, «как трава в поле», он стремится понять смысл своего бытия. Уже первобытный человек обнаружил своё отличие от мира животных, у него появилось осознание своей ценности, своего места в мире и своей бренности: откуда я пришел и зачем я в этом мире, куда я ухожу в момент смерти? Вопросы происхождения мира, человека, тайны рождения и смерти и др. находятся в центре внимания мифологии, религии, философии, искусства и других сфер культуры. Это вполне объяснимо, ибо постижение смысла жизни необходимо человеку для руководства своей жизнедеятельностью, для ориентации в сложном мире человеческих взаимоотношений; выяснение же смысла жизни предполагает определенное решение проблем жизни и смерти. В свое время знаменитый французский мыслитель и ученый XVII в. Б.Паскаль заметил: «Горе людям, не знающим смысла жизни» [1]. Гениальный немецкий мыслитель И.Кант так сформулировал проблему смысла жизни: «Что я могу знать? На что я могу надеяться?» [2, 265].

Проблема смысла жизни, смерти и бессмертия – одна из «вечных» гуманистических проблем, к которым мы неизбежно обращаемся, независимо от гуманистических проблем, к которым мы неизбежно, независимо от того, рассматривается ли она на уровне обыденного сознания, на уровне научного видения мира, на уровне религиозного истолкования действительности или на уровне философской интерпретации мира, во всяком случае, это мировоззренческая проблема. История человечества полна различными ответами при решении данной проблемы, причем следует отметить, что с древних времен существует две полярные точки зрения на смерть. 1. Жизнь – это однократное бытие человека, она подобна вспыхнувшей искре, после смерти человек со своим осознанием исчезает абсолютно, т.е. происходит его полное исчезновение. 2. После смерти тела душа (разум или «Я») отделяется от тела и переходит в иную форму существования либо вселяется в новое тело, во всяком случае, ее бытие вечно.

Именно последняя точка зрения лежит в основе различного рода мифологических и религиозных систем, что и обусловило их влияние на человека в его поисках смысла жизни и формирование его жизненных ориентаций. Каждая из известных нам цивилизаций, каждая эпоха, каждый класс и социальный слой наполняли своим содержанием, по-своему в зависимости от выработанных традиций и историко-культурных форм освоения мира ставили проблему смысла человеческого бытия, по-

своему решали ее. Научная философия указывает на относительность и изменчивость целей и представлений о смысле жизни, ставит их в зависимость от социальных условий, от характера исторических задач на каждом этапе общественного развития. И хотя не следует преувеличивать относительность представлений о смысле жизни, они, несомненно, имели в классовом обществе классовое содержание, несли отпечаток особенностей культуры.

Проблема смысла жизни (и соответственно нравственно-философская интерпретация проблемы смерти и бессмертия) включает в себя как общечеловеческие аспекты, так и аспекты, специфичные для данной цивилизации, данной эпохи, данного класса или социального слоя. «Тайна» бытия человеческого отнюдь не является неизменной, заранее записанной в сценарии жизни человеческого общества, который индивиду следует только исполнить, так как сама жизнь не стоит на месте. Именно в динамике социально-исторического контекста своего бытия человек, реализуя собственные потребности, стремления и желания, достигая определенных целей, обнаруживает смысл жизни. Этот аспект многослойного феномена «смысл жизни» в значительной степени определяется характером общественных отношений, господствующих в обществе.

Для нашего рассмотрения существенный интерес представляет общечеловеческий инвариант смысла жизни, ибо именно он является сердцевиной религиозных, мистических и идеалистических систем и учений, причем именно этот инвариант и получает на основе достижений науки конца XX в. философско-научное истолкование, дающее человеку надежду, по крайней мере, на приближение к практическому бессмертию. Не следует забывать, что прежде всего «тайна» человеческого бытия тесно связана с эмоцией страха смерти, с эмоциональным переживанием необратимости реального времени. Как говорил Гегель ведь «время есть чистое единство бытия и небытия…» [3, с.146].

В настоящее время общепринято положение о том, что только человек, в отличие от других животных, осознает свою бренность благодаря абстракциям, выработанным в рамках культуры, хотя жизнь его (подобно и другим живым существам) конечна во времени. Необходимо подчеркнуть абстрактный характер понятия бренности, смертности, которое присуще лишь человеку, тогда как, вопреки широко распространенному убеждению, и представление (не путать с абстрактным понятием смерти – продуктом эволюции культуры) о смерти, и похороны присуши животным. Весь узел проблем, связанных с бессмертием, смертью и смыслом жизни, требует учета роли самосознания в жизнедеятельности человека. Ведь в отличие от животных, обладающих сознанием, человек имеет еще и самосознание. Благодаря ему человек может совершать выбор и примерять в мыслях вечность, несоизмеримую с длительностью его жизни, размышлять о соотношении времени и вечности, думать о преодолении «течения» времени.

Именно поэтому понятие времени в силу подвижности его содержания всегда служило предметом олицетворяющей и драматизирующей фантазии. И какое здесь разнообразие! Каким властным, непобедимо могущественным и в каких разнообразных отношениях к жизни выступает в общечеловеческом сознании олицетворенное воображением время! Оно – и общий прародитель людей, богов и миров, и безжалостный Кронос, пожирающий собственных детей. Оно – колыбель и могила, оно является суровым потоком, увлекающим в могилу, и чудодейственным врачом, исцеляющим любые недуги. Оно – друг истины, прогоняющий мрак заблуждений, но и пособник лжи, вкореняющий ее силой предрассудка и привычки. Оно выступает в качестве мстителя, пробного камня любви, дружбы и привязанности; оно – всемогущая сила, перед которой все склоняются в мире.

Вообще, сколько эпох и культур, столько и образцов, которыми воображение одевало идею времени; и каждая эпоха, каждая культура имела свой образ времени, соответствующий ее характеру. Так, мы уже не удовлетворяемся традиционным представлением времени в виде древнего старца, а предпочитаем другие образцы, например, те, которые рисует современный филиппинский поэт А.Эрнандес в стихотворении «Время»:

«Довольство, тяготы, зной, холод, ночь и день,
теченье, ветер, цвет, звук, запах, свет и тень,
зерно и зрелый плод, и старец, и юнец.
Что есть вне времени? Его извечен бег,
в нем – все: число, размер, день, месяц, год и век.
Где путь вне времени? Таких на свете нет.
И на какой вопрос оно не даст ответ?» [4, с.57]

Так поэтизирует человек время. Если собрать воедино все образцы и символы времени, то окажется, что почти нет ни одного конкретного представления, которое не переносилось бы на идею времени. Можно сказать, что для олицетворяющего и драматизирующего воображения человека «Время есть Все». Неудивительно, что в мифологии и религии, в искусстве и философии в центре внимания находились вопросы, касающиеся отношения человека к времени и тем самым смысла его жизни, тайны смерти и возможности бессмертия. Само собой понятно, что осмысление жизни, смерти и бессмертия, несмотря на их общечеловеческое значение, проявляется только в социально-историческом контексте бытия человека. Выработанные в различных цивилизациях, исторических эпохах и социальных слоях концепции – идеи вечного возвращения, вера в метемпсихоз или идея реинкарнации (переселение души), представление об индивидуальном бессмертии и пр. – были направлены на избавление от власти всепроникающего времени.

В связи с этим заслуживает внимания вопрос о том, как в истории человеческого бытия, отношения человека к смерти и роли времени в этом. Рассмотрим ряд примеров, начнем с Древнего Египта – одной из старейших цивилизаций. Все стороны жизни древнего египтянина – социальная, политическая, экономическая – были пронизаны религией, которая выступала в качестве психологического средства преодоления угрозы смерти. Все это сопровождалось магическим ритуалом, обеспечивающим сохранение всех способностей человека и последующее оживление. В знаменитой «Книге мертвых» (от 1400 г. до н.э.) говорится о том, что Озирис (умирающий и воскресающий бог) восклицает: «Я есть Вчера, Сегодня и Завтра». Древние египтяне искали спасение от неумолимого хода времени в ритуале отождествления себя с Озирисом, включая тем самым собственное бытие в само время, в три модуса – Прошлое, Настоящее и Будущее. В религиозном мировоззрении древних египтян будущее рассматривалось как продолжение настоящего, которое ничем не отличалось от прошлого.

Время здесь статуарно, что вполне соответствует специфике этой цивилизации и объявляет обожествление фараона, захоронение кошек и собак, бальзамирование умерших и строительство пирамид. Государственный строй Древнего Египта – образец строгой централизованной бюрократической машины, видное место в ней занимали жрецы, стремившиеся сохранить свой социальный статус. Это находило выражение и в мировоззрении, согласно которому загробная жизнь (будущее) является репликой земной жизни (настоящее), т.е. существовала вера в вечное возвращение всего существующего. В

атмосфере религиозности, когда земная жизнь рассматривалась как подготовка к загробной и в этом усматривался ее смысл, древние египтяне выработали замечательные принципы нравственного поведения индивида, зафиксированные в их литературе.

Эта гуманистическая литература, очевидно, не знающая драматических конфликтов греческой трагедии, открыла внутренний мир человека и показала нам его секреты. Она воспевала чувство любви, требовала весьма далеко идущих проявлений уважения к родителям, прославляла милосердие и справедливость. Для нее земная жизнь представляет весьма высокую ценность, чтобы на нее жаловаться или пренебрегать ею. Вся сфера духовной жизни древнеегипетской направленностью была неразрывно связана с необычайной религиозностью. Иное понимание смысла человеческого существования и времени господствовало в другой великой цивилизации Древнего Востока, а именно в цивилизации Двуречья связи с участниками событий. И вечность для сознания представителей месопотамской культуры (шумеров, аккадцев, вавилонян и др.) носила конкретный, «домашний» характер, поэтому проблема соотношения вечного и временного не занимала так вавилонян (Тигра и Ефрата).

Время здесь было конкретным, оно рассматривалось в неразрывной, как греков и иранцев. В отличие от древнеегипетской концепции циклического времени вавилонское представление о времени характеризуется линейностью, причем важнейшей категорией сознания была «судьба», а не время. Это связано и с тем, что дух месопотамской культуры отражает сокрушающую силу Природы, когда человек чувствует свое бессилие и осознает трагические, последствия игры чудовищных природных стихий, и с мифологемой человека – из глубины сотворен, на крови бога замешан. Для нас существенно то, что в условиях цивилизации Двуречья или месопотамской цивилизации реалистический подход к природе человека исключал какую-либо надежду на счастливую загробную жизнь.

Социальный, культурный и нравственный опыт древне-восточных обществ Египта и Месопотамии был ассимилирован и творчески переработан греками согласно логике античной социально-культурной системы. Античные греки отождествляли Время, Справедливость и Мир, выраженные в виде трех судеб (Клото, Лахесия и Антропос) как дочерей Фемиды и Зевса. Оказывается, что задолго до философского размышления о мире понятия справедливости и морального порядка были внутренне связаны с понятием регулярного чередования периодов времени (сезоны года и этапы человеческой жизни). Время – не просто природный феномен, но и аспект морального порядка мира, т.е. темпоральный и моральный порядки вечно живого космоса неразрывно переплетены. Любое нарушение темпоральной регуляции человеческой жизни влекло за собой катастрофические последствия.

Для большинства греков, как и для древних египтян и вавилонян, время выступало в виде многочисленных качественных и конкретных интервалов, оно не было центральной и абстрактной сущностью (что стало характерным для более поздней европейской культуры). Античным символом времени является такая форма погребения, как сожжение мертвых, что свидетельствовало о привязанности античного грека к здешнему, земному существованию. Древние греки были лишены чувства динамичного времени, чувства бесконечного, поэтому у них было мало развито чувство заднего плана, потустороннего, им был присущ стихийный материализм. Были созданы материалистические концепции, отрицающие веру в загробный мир.

Знаменитый материалист и атеист античной Греции Эпикур (311-270 гг. до н.э.) не признавал страха перед смертью: «Самое страшное из всех зол, смерть, не имеет к нам никакого отношения, так как, когда мы существуем, смерть еще не присутствует, а когда

смерть присутствует, тогда мы не существуем» (5, 256). Смыслом жизни, конечной целью человеческого бытия (он признавал существование богов в виде эфирных образований, однако они не оказывали влияния на человеческую жизнь). Необходимо отметить, что в античности не существовало единого представления времени, было несколько типов временных перспектив – циклическая, линейная и др. В античном сознании появляются идеи о прогрессе человеческого общества, о направленности времени, о чем свидетельствуют миф о Прометее, произведения Эсхила, Софокла, Лукреция, Цицерона, Сенеки и других мыслителей и писателей. Именно появляются такого рода идеи, однако еще не доминируют; несмотря на элементы историзма, имеющиеся уже у Гесиода в его легенде о пяти поколениях, в сознании античного мира нет четкой идеи развития.

Для таких философских течений Греции и Рима, как аристотелизм, эпикуреизм, стоицизм и неоплатонизм, характерна идея циклизма бытия. Заметна тенденция к поиску смысла жизни, условий счастья исключительно во внутреннем мире человека, вне фундаментальных связей с социальным миром (киники, киренаики и др.). Многообразие концепций и представлений о смысле человеческого бытия, выработанных античным мышлением, рельефно подчеркивает тот момент, что цель и смысл человеческой жизни являются прежде всего (наряду с общечеловеческим содержанием) социальными категориями, историческая природа которых проявляется как в их содержании, вкладываемом представителями различных классов и слоев, так и в условиях, предлагаемых общественным строем для реального осмысления жизни и реализации поставленных людьми целей.

Рассмотренные выше концепции и представления смысла человеческого бытия были разработаны в рамках восточно-средиземноморской духовной традиции, оказавшей существенное влияние на развитие европейской культуры и определившей такие черты структуры мышления, как наличие противопоставления между богом и человеком, разумом и эмоцией, общим и единичным, материальным и идеальным и пр. Однако существует и индо-буддистско-дальневосточная традиция с ее нечеткостью и нерасчлененностью указанных только что противопоставлений. В рамках этой традиции мы встречаемся с другими толкованиями смысла человеческого бытия, с другими представлениями о времени. В древнеиндийской цивилизации, как и в других восточных цивилизациях, была выработана и эффективно использовалась правящей элитой циклическая модель времени, согласно которой Вселенная проходит бесчисленное число циклов.

В системе верований индуизма важное место принадлежит богу Шиве и его жене Кали. Концепция пульсирующего бытия лежит и в основе буддизма, согласно которому человеческое существование есть цепь циклов индивидуального рождения, смерти и возрождения, обрывающаяся при достижении состояния Нирваны (это состояние безвременья). К такому выводу пришел принц Гаутама, размышляя над причинами старости, болезни и смерти. Стремясь их избежать, он, согласно легенде, сумел еще при жизни достичь состояния Нирваны – отсутствие суетного бытия, состояние вечности. В данной концепции все различия времени носят иллюзорный характер, для буддизма характерно «ощущение небытийного времени», когда время сводится к «теперь», к внешности.

В отличие от индийской цивилизации с ее религиозностью для китайской цивилизации характерно внимание к проблемам социальной этики и административной практики, индивидуалистические поиски спасения ее мало волновали. Генеральной нормой бытия в Китае считалось Дао – великий закон природы и первопричина мира:

существующий мир рождается из Дао и возвращается в него бесконечное число раз. Конфуцианцы стремились познать Дао для достижения золотого века мудрости, даосы же – для слияния с ним. В китайском мышлении господствовал принцип вечного забвения бесконечного океана Дао, в котором « в мгновенье ока все вместе одной массой появляется и исчезает» (Го Сян). Этот принцип проявляется и в понимании соотношения жизни и смерти.

Так, даосский мыслитель Чжуан-цзы (IV-III вв. до н. э.) считал, что человеческая форма проходит через тьму бесконечных перемен, что жизнь и смерть равны между собой. В китайской культурной традиции понимание человека как конечной части вечного круговорота космической материи представляет собой попытки нравственного преодоления страха перед смертью. Не удивительно, что именно в рамках китайской культуры знаменитым мыслителем Лао-цзы четко был сформулирован принцип недеяния, согласно которому для сохранения жизни в течение долгого времени не следует делать что-то, что ограничивает или непотребно развивает природу человека. С эти принципом органически связана даосская концепция так называемого синусоидального времени – время имеет волновую, синусоидальную форму.

Это означает, что время в форме полукруглой волны то возвышается над линией поверхности жизни, то находится под ней, причем полуволна над поверхностью представляет собой интервал жизни человека, времени наяву, полуволна же под поверхностью представляет собой интервал времени смерти или сна. Даосы считали, что любые запреты или ограничения, обусловленные контактами индивида с другими людьми, навязывание в связи с этим господствующих в обществе обычаев и привычек, а также отношения властителя к подданному подавляют естественные склонности и желания человека и некоем смысле сокращают время его жизни. Вот почему принцип недеяния, нацеленный на то, чтобы человек прожил отпущенный ему отрезок времени, имеет нравственный смысл жизни и в традиционной японской цивилизации с ее дзен-буддийским отношением к миру.

Вопрос о смысле жизни – это вопрос о том, имеет ли жизнь ценность, если имеет, то какую для конкретного человека и человечества. Ведь в элементарное содержание человеческой жизни, сотканной из противоречий, входит и смерть. Она имеет непосредственное отношение к смыслу жизни, который сам является, как мы уже видели выше, продуктом длительного исторического развития общества. По мере развития общества человек начинает осознавать свою бренность, пытается проникнуть в тайны жизни и смерти, задумывается над смыслом своего бытия.

С этого момента в сознании человека прочно укореняется следующая мысль: «Смерть есть неизбежный результат необратимого течения времени. Если бы могли остановить время, тогда мы смогли избежать смерти» (6, 145). Загадка жизни, времени и смерти неумолимо влекут к себе пытливую мысль человека теперь уже независимо от того, в рамках какой цивилизации и в какую историческую эпоху он живет, т.е. на первый план начинает выдвигаться общечеловеческий аспект такого сложного феномена, как «жизнь после смерти», с его кругом вопросов.

ЛИТЕРАТУРА

1. Алексеев П.В., Панин А.В. Философия: Учебник. – 3-е изд., перераб. и доп.- М.: ТК Велби, Изд-во Проспект, 2003.
2. Ильин И.А. Философия Гегеля как учение о конкретности Бога и человека.- СПб.: 1994.
3. Новая философская энциклопедия: В 4-х т. – М.: 2001. – Т.2

4. В.Макаренко. Амадо Эрнандес и его стихи. В кн.: Амадо Эрнандес. Зерна риса. М.: 1971.
5. Чанышев А.Н. Философия Древнего мира: Учебник для вузов. – М.: Высш.шк., 2003.
6. Рейхенбах Г. Философия пространства и времени. – М.: Прогресс, 2005.

ЧЕЛОВЕК, СМЫСЛ ЕГО СУЩЕСТВОВАНИЯ И МОДЕЛИ ВРЕМЕНИ

Намазова Айбала Фируддин

АННОТАЦИЯ

В статье рассматривается значение жизни, смерти, бессмертия и проблем времени, и утверждается, что это проблемы вечного мировоззрения. Проблема смысла жизни, смерти и бессмертия, несмотря на ее универсальный характер, возникает в социально-историческом контексте человеческого существования. В разных цивилизациях, в исторические периоды, идеи о вечном возвращении, о переходе души из одного тела в другое, идея индивидуального бессмертия и т.д. Это было нацелено на то, чтобы избежать силы времени, которая пронизывала все. Поэтому отношение к смерти в истории человечества и роль времени как философской проблемы всегда привлекали внимание исследователей.

İNSAN, YAŞAMAĞIN MƏNASI VƏ ZAMANIN MODELİ

Namazova Aibala Firuddin

XÜLASƏ

Məqalədə həyatın mənası, ölüm, ölməzlik, zaman problemləri tədqiq edilərək, bunların əbədi dünyagörüşü xarakterli problem olduğu nəzərə çatdırılır. Həyatın mənası, ölüm və ölməzlik problemi özünün ümumbəşəri xarakterinə baxmayaraq, insanın mövcudluğunun məhz sosial-tarixi kontekstində üzə çıxır. Müxtəlif sivilizasiyalarda, tarixi dövrlərdə əbədi qayıdış haqqında, ruhun bir bədəndən digərinə keçməsi haqqında ideyalar, fərdi ölümsüzlük barədə təsəvvürlər və s. hər şeyə nüfuz edən zamanın hakimiyyətindən xilas olmağa yönəlirdi. Ona görə də bəşər tarixində ölümə münasibət və burada zamanın rolu məsəli fəlsəfi problem olaraq, daim insanların diqqətini çəkir.

MAN, THE MEANING OF ITS EXISTENCE AND THE MODEL OF TIME

Namazova Aibala Firuddin

SUMMARY

In article is considered problem of meaning of the life, death and immortality. It is one of “eternal” humanistic problems to which we inevitably address, irrespective of, whether it is considered at level of ordinary consciousness, at level of scientific vision of the world, at level of religious interpretation of the validity or at level of philosophical interpretation of the world, anyway, it is a world outlook problem. The history of mankind is full various answers at the decision of the given problem, and it is necessary to notice that since ancient times exists two polar points of view to death. 1. Life is a unitary life of the person, it is similar to the flashed spark, after death the person with the comprehension disappears absolutely, i.e. there is its total disappearance. 2. After death of a body of a shower (reason or “I”) separate from a body and passes in other form of existence or is installed in a new body, anyway its life is eternal. Last point of view underlies any mythological and religious systems, as has caused their influence on the person in its searches of meaning of the life and formation of its vital orientations. The problem of meaning of the life is a problem of a general line of life, orientation of the person to certain system of values. Ability to live regulating it. The question on meaning of the life is a question on, whether has life value if has, what for the concrete person and mankind.

ŞİRVAN ELİNİN DAHİSİ KAFİƏDDİN ÖMƏR İBN OSMAN HAQQINDA

f.ü.f.d., Veyisova Samira Məlik qızı,
BDU-nun Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrası,
samira029@mail.ru

Acar sözlər: Şirvan Elmlər Akademiyası, Xaqani Şirvani, Dədəgünəş
Ключевые слова: Ширванская Академия наук, Хагани Ширвани, Дедегюнеш
Keywords: Shirvan Academy of Sciences, Khagani Shirvani, Dedegunash.

O, həm mənim, həm əcdadımın fəxri, pənahı,
O, nəslimizin həm bu günü, həm də sabahı.
Xaqani Şirvani

Son dövrün tədqiqatlarına görə, XI əsrdə Şirvanşahlar dövlətinin (861-1538) paytaxtı Şamaxı şəhərində ən qədim Elmlər Akademiyalarından biri yaradılmışdı. Şirvan Elmlər Akademiyası iki şöbədən ibarət idi - Elmi-adab (qayda-qanun elmləri) və Darül-ülum (elm-evi). Azərbaycanın görkəmli alimi, böyük filosof, riyaziyyatçı, astronom, kimyacı və həkim kimi tanınan Kafiəddin Ömər ibn Osman həmin mərkəzin banisi sayılırdı. Bu haqda Eybalı Mehralıyev "Şirvan Elmlər akademiyası "adlı əsərində geniş məlumat verir. O, yazır: "“Belə alim (Kafiəddin Ömər ibn Osman) rəhbər ölkə şahının (Şirvanşah I, Fəriburz hakimiyyət illəri 1063-1096 –) hörmətini qazandığına görə geniş fəaliyyəti, nəinki tibbi-bioloji (bitkilərdən, kiflərdən və heyvan bədəni hissələrindən dərman almaq və düzəltmək) texnologiasından başlamış hər cür xəstəliyin müalicəsi üçün əldə edilən dərmanların tətbiqinin nəticələrini sınaqdan keçirmək, hətta cərrahiyyə əməliyyatı aparmaq üsullarını işləyib hazırlamaq sistemi, astronomiya, riyaziyyat, inşaat (su qurğuları, mülki və istehsalat), nəzm və nəsr, fiqh (hüquq) və fəlsəfə, sərf və nəhv, tarix, musiqi (nəzəriyyəsi və ifa qaydaları), təsvir (rəssamlıq), siyasətşünaslıq və hərbşünaslıq sahəsində elmi istiqamətlərin formalaşmasını başa çatdırmışdı"(1, s.69).

1953-cü ildə Parisdə nəşr olunan elm tarixi ensiklopediyasında Şərqdə elmin inkişafına həsr olunmuş məqalədə XI əsrdə Şirvan Elmlər Akademiyası haqqında məlumat verilir. Əsasən ona ŞirvanTibb Elmlər Akademiyası deyilirdi. Xüsusilə iki elm (tibb və farmakologiya) sahəsinin daha yüksək inkişafı və Kafiəddin Ömər ibn Osman yaradıcılığı haqqında tibb elmi ilə məşğul olan alimlər İ.Əfəndiyev, D.Dəmirov öz yazılarında qeydlər etmişdilər.

Belə bir elm mərkəzin olmasını Xaqani Şirvaninin əsərlərində öz əmiləri Ömər ibn Osman və Sadiq ibn Osman, əmisi oğlu Vahidəddin Osman Ömər oğlu haqqında yazdıqları sübut edir. Xaqani yaradıcılığının tədqiqatçısı, Q.Kəndli-Herisçinin “Xaqani Şirvani (həyatı, dövrü və yaradıcılığı)” adlı kitabında da bu haqqda əsaslı sübutlar vardır.

Kafiəddin Ömər ibn Osman– mənşəcə Azərbaycan türklərindən olan məşhur təbib-alim, filosofdur. Kafiəddin Ömər ibn Osman haqqında ən dəqiq mənbə təbii ki, Xaqani Şirvaninin əsərləri ola bilər.

Bir Əcəm türküyəm, dəricə deyən,
Yalvac tanıyanam, Tanrı istəyən.

Xaqaninin bu misralarından aydın olur ki Ömər ibn Osman türk mənşəlidir. Farsların Xaqanini oxuyarkən “türk ətri gəlir” deməsini Firidun bəy Köçərli qeyd etmişdir.

Kafiəddin Ömər ibn Osman təqribən 1080-cı ildə Şirvanın paytaxtı Şamaxı şəhərində anadan olmuşdu və 1150-ci ildə vəfat etmişdi. O, orta əsrin təbabətinin, fəlsəfəsinin,

riyyaziyatının, farmakologiyasının və digər elmlərin inkişafında böyük rol oynamışdır. Q.Kəndli-Herisçi yazır: "Bu nəslin xaricdə və Şirvanda şöhrətini təkcə Xaqaninin yaradıcılığı və ad sanı ilə bağlamaq düzgün deyildir...Onların içərisindən çıxmış elm və sənət adamları ocaqlarına Xaqanidən çox qabaq şöhrət qazandırmışdılar" (2, s.47). Kafiəddin Ömərin atası Osman toxucu olmuşdur. Xaqani "Töhfətül-İraqeyn" əsərində babası haqqında yazır:

"Sənətcə toxucu olmuşdur babam,
Onun sənətindən almışam ilham" (1, s.80).

Ömərin atası sadə toxucu deyildi, yüksək ixtisas sahibi idi. "Şirvanın görkəmli adamları özünün sənətində məharət və şöhrət sahibi olan Osmanın babaları da ipək parça toxumaqla şöhrət qazanmışdılar" (2, s.48). "Buna görə də Osmanın yaxşı maddi imkanı var idi" (2, s.69). E.Mehralıyevə görə, Osmanın üç oğlu - Ömər, Əli və Sadiq və iki qızı olmuşdur. Babası İbrahim dövrünün cox məşhur din xadimi idi və dövlət işində də vəzifə tuturmuş.

Kafiəddin Ömər ibn Osman çox istedadlı olduğu ücün Şirvan şahı Fəriburz ölkəsində elmlə məşğul olanların hamısını ona tabe edir.

Atasını itirmiş Xaqani əmisi Kafiəddin Ömər ibn Osmanın himayəsində böyümüşdür. Bir insan və bir şair kimi yetişməsində çox böyük əmələri və qayğıkeşliyi ilə heç nə ilə əvəz edilməsi mümkün olmayan taleyüklü rol oynamış əziz əmisinin xeyirxahlığını Xaqani dəfələrlə etiraf etmişdir.

Öz əmim Ömərin sayəsində mən,
Yetimlik divinin qaçdim əlindən.
Bil, mənim böyüyüm, yol göstərənim,
Tərbiyə verənim əmimdir mənim (1, s.87).

Əfzələddin Xaqaninin əsərlərindən öyrənirik ki, bu elm mərkəzində tibbi tədavi ilə yanaşı, tıbbi araşdırmalar aparılmışdı. Şair Qafkaz dağlarından toplanmış otlardan dərmanlar hazırlandığını, burada bir cox insanların təhsil alması, özünündə burada oxuduğunu yazır. Onun əsərlərindən aydın olur ki burada tıbb ilə yanışı Qurani Kərim, fəlsəfə, riyaziyyat, ədəbiyyat və dilçilikdən dərs deyilir, məntiq elminin əsasları öyrədilir. Xaqani əmisinin onu həyatı dərk etməyin mahiyyətinə necə oyrətməsini belə izah edir:

O,məni öyrətdi hər elmə, fənnə
Oxudu "Quran" dan ayələr mənə (1, s.88).

Dəlillə, sübutla eylədi bir-bir
"Quran" ın yüz on dörd sirrini təbir
Çox asan yol ilə o mahir insan
Etdi "bir", "iki", "üç", "dörd", "beş"i bəyan (1, s.89).

"Beş"- hissiyyat üzvləridir, "dörd"- dünyadakı başlanğıclar - su, hava, od və torpaqdır, "üç" - qeyri-üzvi təbiətdir, "iki" - cism və ruhdur, "bir" - Allahdır". Xaqani yuxarıdakı beytdə əmisinin rəqəmlərin bu sirrini ona öyrətdiyini xəbər verir.

Təhsil verilərkən dil qanunları da tədris olunurdu.

Mənə dil qanunu öyrətdi əmim,
Qoymadı səhv edəm oldu həmdəmim

Kafiəddin Omər ibn Osmanın yaradıcılığında bütün başqa elmlərlə bərabər nücum elminin dərk edilməsi xüsusi önəm kəsb edir.

O mənə şərh etdi hər bir məfhumu,
Sonra da öyrətdi elmi-nücumu.. (1, s.89)

O, məni apardı bürclərə sarı,

Tanıtdı, səyyarə və ulduzları (1, s. 87).

Nücum elminin inkişaf tarixinə dair əsərlərdə Şirvanda astronomiya elmi mərkəzinin olması barədə fikirlərə tez-tez rast gəlmək olur.

Kafiəddin Ömər ibn Osman ilk növbədə dahi filosof idi. O kainatda dörd ünsürün (su, hava, od ,torpaq) qarşılıqlı asılılığını əsas götürürdü.

Verdi dörd əsasdan ətraflı xəbər (1, s.89).

Hər iki aləmin sirrini açdı,

Adəm tək hər sözdə bir məna saçdı (1, s.89).

Dahi şair-filosof Xaqani Şirvaninin əsərlərində Platonun, Aristotelin, Hipokratın, Evklidin və s. adlarının çəkilməsi, onların elmi müddəalarından iqtibaslar gətirməsi göstərir ki, Şirvanın Yunanıstanın və Romanın elmi təfəkkürü ilə və Bizansla siyasi, iqtisadi əlaqəsi var idi. Şirvan Elmlər Akademiyasında Xarəzm mənbələridə araşdırılırdı . Aristotel təliminə tənqidi yanaşan Kafiəddin Ömər ibn Osman Fərabinin, İbn Sinanın əsərlərinin oyrənilməsinə xüsusi diqqət verirdi. Xaqani Şirvani öz əsərlərində əmisi Kafiəddin Ömər ibn Osmanı "əhli hikmət","gövhəri adəm",

" dahi filosof" adlandırmışdır.

Ürəyimin səfası, fikrimin parlaqlığı,

Əmimdəndi...(1, s.417)

Xaqani Şirvaninin əsərləri tədqiq edildikdə onun bütün elmləri cox yüksək səviyyədə bildiyi aydın olur. Əfzələddin Xaqani qəsidəsinin birində bu haqda yazır: “O hansı elmdir ki, mən onu bilmirəm?” və elmin bütün sahələrini əmisindən öyrəndiyini xüsusi vurğulayır.

Xaqaninin əsərlərində tez-tez qarşılaşdığımız, qədim yunan, fars, türk, hind tarixinə, mədəniyyətinə, ərəb dünyasına, islam tarixinə dair zəngin məlumat da bir daha sübut edir ki, o vaxt Şamaxıdakı kitab mərkəzlərində çoxlu qiymətli əsərlər toplanıbmış.

Gördü ki, bələdəm hər nişanəyə,

Apardi bir böyük kitabxanəyə (1, s.88).

Akademiyada şair öyrəndiklərindən söz açarkən yazır:

Mən təbib əmimdən almışam ilham,

Odur söz mülkünün bir Boqratıyam,

Ağlım pay almışdır min bir dənizdən,

Tanışam hər otla Qaf dağında mən (1, s. 85).

Bu misralardan aydın olur ki, elm ocağında Hippokrat haqqında lazımı bilgilər vardır və Xaqani özünün ölkəsində hər cür bitkidən dərman alınmasına bələd idi.

Bir cox mənbələrdə Şirvan Tibb Elmlər Akademiyası Şəfa evi kimi qeyd olunur və hesab edilir ki, Məlhəmdə yaradılmışdir, çünki burada hava nəinki çox təmizdir, həm də müalicəvi əhəmiyyət daşıyır. Əmisi haqqında Xaqani Şirvani "Töhfətül-İraqeyn" poemasında belə yazır.

Dərman qayırmağı sanki peyğəmbər,

Eyləmiş əzəldən mənə müəssər.

Mənim nəfəsimin möcüsəsindən

Yüz min qızdırmalı sağalar həmən (1, s.86)

Belə qənaətə gəlmək olur ki, XII əsrdə qızdırmanın xəstələrdə aradan qaldırılması mümkün idi. Tibb tarixini araşdıran rus alimi N.Koşkin öz əsərində qeyd edir ki, hələ XI əsrdə Azərbaycandakı Məlhəm akademiyasında müxtəlif xəstəlikləri müalicə etmək ücün penisilin (yaşıl kif) tətbiq olunurdu. Kafiəddin Ömər ibn Osman digər ölkələrdən gətirilən dərmanlardan da müalicə üçün istifadə edirdi. Bu haqqda oxuyuruq.

Qəlbim Hindistandır, ilhamım Çindir,

Nadir dərmanlarım bunlardan gəlir

Daha bir başqa yerdə Xaqani göstərir ki:

Onun əl suyundan yarandı kövsər,
Rəfrəf - dükanının rəfinə bənzər.
Verər dərmanları ölüyə həyat (1, s.86).

Bütün yuxarıdakılar Kafiəddin Şirvaninin tibb sahəsindəki fəaliyyətinin yüksək səviyyədə olduğundan xəbər verir. Kafiəddin Ömər əczaçılığa dair bilikləri özünün "Tibb-e-Nəbəvi" əsərində sistemləşdirmiş. Onun hazırladığı məlhəmlər uzaq yerlərdən gələn xəstə insanları tezliklə və tamamilə müalicə edirmiş. Belə hesab edilir ki, Şamaxının yaxınlığında olan Məlhəm kəndi həmin həkimin məlhəmlərinin adı ilə adlandırılıb. O, günəşin şüalarının məlhəmlərin müalicəvi effektini artıra bilməsinə böyük əhəmiyyət verirdi.

Kafiəddin Şirvani az müddət ərzində Akademiyada 19 şöbə yaradır. Orta Asiyanın, Şərq ölkələrinin ayrı-ayrı regionlarından, eləcə də bəzi Avropa ölkələrindən təhsil üçün, dünyanı dərk etmək üçün bura gəlirlər. Şirvan Elmlər Akademiyası yalnız bölgədə deyil, bütün Şərqdə tanınmış və elm mərkəzləri ilə sıx əlaqə qurmuşdur. Şamaxıdan, Dərbənddən İraqdakı "Nizamiye" mədrəsəsində çalışırdılar. Yazılanlardan aydın olur ki, Kafiəddin Ömər ibn Osman, Bağdadda da yaşayıb, fəaliyyət göstərib. Dövrünün tanınmış təbibi Mahmud ibn İlyas səyahətlərinin birinin təsvirində yazır: "Kafiəddinlə görüşmək, nəsihətlərini yada salmaq məqsədilə yolüstü Bağdadda böyük həmyerlimə baş çəkdim. Şirvan haqqında xatirələr bizim üşün həmişə xoşdur".

Ömər Kafiəddin öz dövrünün ən görkəmli şəxsiyyətlərindən idi və onun bir alim kimi şöhrəti Azərbaycanın hüdudlarından çox-çox uzaqlara yayılmışdı. Ömər ibn Osman Kafiəddin 1150-ci ildə vəfat etmişdir və Şamaxının yaxınlığında olan günəşli bir təpədə dəfn edilib. Rəvayətə görə, onu "yerin və insanların günəşi" adlandırırmışlar. Kafiəddin Ömər ibn Osmanın dəfn olunduğu yamac daim günəş şüaları altında isinir. Dəfn olunduğu yer sonralar Soltan "Dədə Günəş" adlandırılıb və pirə çevrilir. Burada xəstələr həkimsiz də şəfa tapa bildiyinə inanır.

ƏDƏBİYYAT

1. Xaqani Şirvani. Seçilmiş əsərləri. "Lİder nəşriyyat", Bakı: 2004
2. Qafar Kəndli Herişçi. Xaqani Şirvani (həyatı, dövrü, mühiti). Bakı: Elm,1988
3. E. Mehrəliyev. Şirvan Elmlər Akademiyası. Bakı: "Çaşıoğlu", 2000
4. Хагани Ширвани. Избранные произведения. Баку: 1959.
5. Бертельс Е.Э. История персидско-таджикской литературы. М.: 1960
6. История персидской и таджикской литературы. Под ред. Яна Рипка, М.: 1970.
7. Кошкин К. Из истории средневековой медицины. М.: 1971.

XÜLASƏ

Məqalə XI-XII əsrin dahi təbib-alim, filosof Kafiəddin Ömər ibn Osmanın yaradıcılığına həsr olunmuşdur. Kafiəddin Ömər ibn Osman Xaqani Şirvaninin əmisi idi. Xaqaninin əmisinə həsr olunmuş əsərlərinin təhlilinə əsasən Ömər Kafiəddinin bir çox elmlərin inkişafındakı rolunu tədqiq etməyə cəhd edilir.

РЕЗЮМЕ

Статья посвящена деятельности гениального ученого-врача, философа XI-XII вв. Кафияддина Омара ибн Османа. Кафияддин Омар ибн Осман является дядей по отцу великого Хагани Ширвани. На основе анализа произведений Хагани, ряд из которых посвящены дяде, проводится попытка проанализировать роль Кафияддина Омара ибн Османа в развитии многих наук.

SUMMARY

The article is devoted to activites of genius scientist-doctor, philosopher of XI-XII century Kafiaddin Omar ibn Osman. Kafiaddin Omar ibn Osman was a paternal uncle of the great Khagani Shirvani. On the basis of the analyses of works of Khagani, a number of which he devoted to his uncle, an attempt is being made to analyse the role of Kafiaddin Omar ibn Osman in development of many sciences.

f.ü.f.d.Kərimova Nəzakət İsfəndiyar qızı
BDU-nun Fəlsəfə kafedrasının müəllimi
kerimova.nezaket@gmail.com

Açar sözlər: tarixi proses, ictimai inkişaf, tərəqqi, zəka, azadlıq, bərabərlik, kamillik.
Ключевые слова: исторический процесс, общественное развитие, прогресс, интеллект, равенство, совершентсво.
Keywords: historical process, social development, progress, intelligence, freedom, equality, perfection.

Fransız maarifçisi, sosioloqu, riyaziyyatçısı və ictimai xadimi, Fransa Elmlər Akademiyasının üzvü Mari Jan Antuan de Kondorse 1743-cü ildə zadəgan ailəsində dünyaya gəlmişdir. İlk təhsilini Reymsdə Yezuit kollecində almış, qeyri-adi riyazi qabiliyyəti ilə yaşıdlarından xeyli fərqlənərək Dalamber və Klero kimi görkəmli riyaziyyatçıların diqqətini özünə cəlb etmişdir. Geniş elmi marağa sahib olan Kondorse fizikaya, riyaziyyata, siyasi iqtisada, fəlsəfəyə dair silsilə məqalələr yazmış, Fransa Elmlər Akademiyasının 50 üzvünün (o cümlədən Volter və Türqonun) bioqrafiyasını işləyib hazırlamış və «Ensiklopediya»da bir neçə məqalənin müəllifi kimi çıxış etmişdir. Kondorsenin tərtib etdiyi Avropanın mədəniyyət tarixi sistemi əsas dərs vəsaiti kimi 50 il Avropa məktəblərində tədris edilmişdir. İnqilab dövründə deputat seçilmiş Kondorse sonralar Qanunverici Assambleyanın sədri vəzifəsində çalışmış, jirondist-respublikaçılar pariyasının və Konventin üzvü olmuşdur. Özünün işləyib hazırladığı Konstitusiya ilə Robespyerə və Yakobinçilərə qarşı kəskin çıxış edən filosof 1794-cü ildə azadlıqdan məhrum edilmiş və həbsxanada vəfat etmişdir.

«İnsan zəkasının tərəqqisinin tarixi mənzərəsinə dair eskizlər» əsərində (1794) Kondorse, ilk dəfə olaraq, bəşər nəslinin ümumi mənəvi inkişafında müxtəlif təsərrüfat formalarının, texniki ixtiraların, elmi-fəlsəfi kəşflərin, əxlaq etiketlərinin əhəmiyyətini tədqiq etməyə səy göstərmişdir. O, bəşəriyyətin maddi-təsərrüfat, sosial-intellektual-əxlaqi inkişafının əsas mənbəyini kollektiv zəkanın inkişafında görmüş və onun yaranma mərhələlərini tədqiq etmək məqsədi güdmüşdür.

«Eskiz»də mərkəzi yeri zəka anlayışı tutur. Filosof "İnsan zəkası nələrə qadirdir", "İctimai ilə fərdi zəkanın nisbəti necədir", "İnsan zəkasının məqsədi nədir" kimi suallara cavab axtarmış, bütün idraki prosesin təcrübədən, ilkin hissi məlumatlardan hasil olduğu qənaətinə gəlmişdir. Kondorse zəkaya xüsusidən ümumi ideyalara doğru gedən müxtəlif nəzəri kombinasiyaların cəmi kimi baxmışdır. O, ümumi ideyaları təbii və sosial aləmin bütöv mənzərəsi hesab etmiş, bu mənzərənin daim yeni alimlər və filosoflar nəsli tərəfindən daha da təkmilləşdirilərək zənginləşdirildiyini söyləmişdir.

Kondorseyə görə, insan zəkası heç bir qadağa, sərhədd tanımır, o, özü-özünün ağasıdır və kənar qüvvələrin diktəsinə tabe olmur. "Zəka üçün heç bir avtoritet yoxdur" – deyən Kondorse təbiətin, cəmiyyətin və insanın inkişaf qanunlarını dərk etməyi onun qarşısına qoyduğu başlıca məsələ hesab etmişdir. Onun fikrincə, insan zəkası təbiəti və tarixi təcrübəni hadisələrin gələcək inkişaf istiqamətini irəlicədən görmək və onu öz arzusuna uyğun şəkildə dəyişdirmək üçün öyrənir. Maarifçi filosofa görə, zəka cəmiyyətin irəliyə doğru hərəkətinə mane olan bütün əngəlləri dəf etməyə, məntiqini təkmilləşdirmək yolu ilə özü-özünün tərəqqisini sürətləndirməyə can atır.

Kondorsenin fikrincə, zəka fəal, yaradıcı qabiliyyətdir. O, heç bir vaxt hazır biliklərlə əməliyyat aparmaqla erudisiyaya gətirib (erudisiya – hər hansı bir sahədə dərin bilik, geniş

məlumat – N.Kərimova) çıxara bilməz. Zəka üçün yeni, fundamental ideyalar daha qiymətlidir. **Filosofa görə, fərdi-bioloji qüvvə kimi zəkanın da müəyyən sərhəddi vardır, lakin kollektiv ağıl, daha dəqiq desək, onun nəticəsi olan elm və incəsənət heç bir sərhədd tanımır. Hər bir yeni nəsil bu əqli enerji ehtiyatından istifadə etməklə yanaşı, özünün yeni töhvələrini verməklə onu daha da təkmilləşdirir.**

Əvvəla, nəsillər bir-birini əvəz edib dəyişdikcə bilik və bacarıqların miqdarı da artır. İkincisi, insan idrakı daha dəqiq və ciddi düşünməyə başlayır, öz mühakimələrini riyazi formada ifadə etməyə qadir olur. Üçüncüsü, o hisslərdən, şəxsi və qrup maraqlarından daha çox azad olmağa başlayır. Dördüncüsü, zəka özünün baxış sferasını genişləndirir, yalnız yaxında olanı deyil, hadisələrin uzaq, sonrakı nəticələrini daha aydın sezmək imkanı əldə edir. Beşincisi, idrakda əxlaqi komponent güclənir: şəxsi və ictimai maraqlar arasındakı əlaqə daha dərindən dərk edilir. Altıncısı, diqqət əsasən sosial incəsənətə, daha doğrusu, cəmiyyətin idarə olunmasına yönəlir. Yeddincisi, insan zəkası özünün başlıca məqsədini - bərabərliyin, azadlığın və ədalətin əldə edilməsini daha aydın dərk edir.

Kondorsenin fikrincə, ətraf aləm, sosial mühit, ünsiyyət, tərbiyə, siyasi quruluş zəkaya son dərəcə güclü təsir edərək onun inkişafını sürətləndirə, yaxud ləngidə bilər. Lakin ağıl sonda ona mane olan hər şeyi kənarlaşdırmaq qüvvəsinə malik olduğu üçün zəkanın tərəqqisi geridönməz hal alır və heç bir vəhclə məhdudlaşmır.

Filosof zəkanı anadangəlmə qabiliyyət hesab edərək bildirir ki, o, insanların nə irqi, nə də milli mənsubiyyətdən asılıdır. Ağıllı, elmli adamlarla axmaq adamlar arasındakı yeganə fərq bu qabiliyyətin inkişaf səviyyəsindən asılıdır. Bütün qrupların, təbəqələrin və xalqların eyni cür düşündüyünü bəyan edən filosof əsas dünyagörüş xarakterli suallara verilən cavablarda vahid fikir birliyinin olmamasını onların maariflənmə səviyyəsi, habelə fərqli həyat şəraiti ilə əlaqələndirir. "Lakin fikir ayrılığının çoxluğu əqlin inkişafına mane olmur. Qədim dövrdə deyildiyi kimi, həqiqət mübahisələrdən yaranır. Adamlar ona görə mübahisə etmirlər ki, biri düz, digəri səhv düşünür. Fikir ayrılığı müxtəlif insanların təcrübəsinin nəticəsidir. Heç kim həqiqətə mütləq şəkildə nail ola bilməz, hər kəs onun müəyyən bir qismini əldə edə bilər. Əgər mübahisə düzgün və məntiqi qaydalara uyğun aparılarsa, onda bu həqiqətin zənginləşməsinə gətirib çıxarar. Başqalarının fikirlərinə dözümlü münasibət bəsləmək sivil insanın əsas əlamətidir. Söz və fikir azadlığı yalan və avamlıqla mübarizədə çox böyük əhəmiyyət kəsb edir" (2, 115).

Ağlın tərəqqisini geridönməz hesab edən Kondorseyə görə, mədəniyyətin bütün tərəflərinin inkişafı bərabər, rasional, humanist cəmiyyətə aparıb çıxaracaq. Bununla belə, filosof insan zəkasının mürəkkəb xarakterə malik olduğunu bildirərk qeyr edir ki, insan təbiətinin mühafizəkarlığı və hər cür ehtiraslardan azad olmaması əqli inkişafa müəyyən təsir göstərir. Nəticədə əqlin tərəqqisi prosesi ziddiyyətli və qeyri-bərabər olur. Kondorse hesab edir ki, ayrıca bir fərd böyüyüb yetkinləşdiyi kimi mədəniyyətlər də öz inkişafında müəyyən bir ləngimə və sürətlənmə mərhələsindən keçir. Sonda bütün xalqlar eyni bir inkişaf mərhələsindən keçsələr də, bu proses birində daha sürətlə, digərində isə ləng baş verir. Onun fikrincə, Avropa xalqlarının bügünkü inkişaf səviyyəsi Asiya və Afrika xalqlarının sabahkı inkişaf səviyyəsi deməkdir (6, 143).

Hansı ölkədə yaşamasından asılı olmayaraq, insan təbiətinin eyni olduğunu bildirən filosofa görə, bütün adamların təhsildə nailiyyətlər əldə edəcəyi şübhəsizdir. Lakin bir çox kənar qüvvələrin təsiri bu prosesi ləngidir. Dünya arenasında inkişaf etmiş və geridə qalmış xalqlar arasında yaranan mürəkkəb vəziyyəti aradan qaldırmaq üçün filosof birinciləri ikincilərə yol göstərən genişürəkli müəllim və məsləhətçi qismində təsəvvür edir: "İnkişaf etmiş xalqlar öz üstünlüklərindən istifadə edərək geridə qalmış xalqlara yardım etməlidirlər. Lakin çox zaman

onların həmin xalqları vicdansızcasına aldatdığını və onlarla kölə kimi rəftar etdiklərini görürük (2, 76).

Mədəniyyətin kumulyativ xarakter daşıdığını, onun nəsildən nəslə, əsrdən əsrə zərrə-zərrə toplanaraq ötürüldüyünü bildirən Kondorse tərəqqinin sürətli və ləng olaraq iki növünü göstərir. Filosofun fikrincə, sürətli inkişaf son dərəcə mühüm kəşf və ixtiraların hesabına baş verir. O, bunlara misal olaraq əlifba və yazının kəşfini, barıt, maqnit oxlar və təkərin ixtira edilməsini göstərir. Gündəlik fəaliyyət prosesində, eyni bir hərəkətin təkrarı nəticəsində tədrici inkişaf, təkmilləşmə baş verir. İncəsənət və sənətkarlıq bu cür inkişaf yolu keçir. İnsanlar vərdiş etdikləri iş və ritmik hərəkətlərdən məmnunluq hissi duyaraq onunla müntəzəm məşğul olur, daim mürəkkəb texniki üsullar işləyib hazırlayır, nitq sənəti, rəqs növləri və s. yaradırlar. Filosofa görə, musiqi, poeziya və elm üçün də bu cür təkrarlanma xasdır. Hətta fəlsəfədə də müntəzəm müşahidə və düşüncə, bir növ, gündəlik vərdişə çevrilir. Digər tərəfdən vərdişlər alğın yenilik yaratmaq qabiliyyətinə mane olur. İnsanlar uşaqlıqda və gənclikdə mənimsədikləri bilik və vərdişləri qocalanadək hafizələrində saxlayırlar. Məişət vərdişləri son dərəcə möhkəm və faydalı olur. Lakin ictimai fəaliyyət sahələrində (siyasətçilərin, filosofların, alimlərin və başqalarının) formalaşan vərdişləri ziyanlı olmaqla yanaşı, həm də zəkanın inkişafını ləngidir, onun tərəqqi imkanlarını məhdudlaşdırır.

Adət edilmiş mövhumat Kondorseyə görə, alğın düşmənidir. Bu, istənilən ixtisas sahibi, xüsusən ilahiyyatçılar və hakimiyyət təmsilçiləri üçün xarakterikdir. Onlardan heç biri öz tapındıqları ehkamlardan əl çəkmək istəmirlər. Hətta özləri belə özlərinə şübhə etsələr də, inandıqları doqmalardan imtina etmirlər. Bunu başa düşmək çox asandır: bu imtina onların hakimiyyətdən əl çəkməsinə və imtiyazlarının itirilməsinə gətirib çıxara bilər. Ona görə də dində və siyasi quruluşda dəyişikliklərin həyata keçirilməsi çox çətin olduğu üçün ona, əsasən, inqilabi yolla nail olmaq mümkündür.

Kondorse etiraf edir ki, mədəniyyətin heç də bütün nailiyyətləri insanlara fayda gətirmir. Lakin Russodan fərqli olaraq (Russoya görə, mədəniyyət, elm və incəsənət əxlaqa pozucu təsir göstərir – red. N.Kərimova) Kondorse əminliklə bildirirdi ki, elmin və biliyin inkişafı tərəqqiyə və xoşbəxtliyə mane ola bilməz. Əksinə, tərəqqinin ləngiməsi avamlığa, yanılmalara və yalana gətirib çıxara bilər.

Bəşər mədəniyyətinin inkişaf tarixini izləyən Kondorse onu on əsas mərhələyə ayırır və qeyd edir ki, bu dövrlərin bir-birni əvəz etməsi insan zəkasının inkişaf mərhələlərinə uyğun şəkildə baş vermişdir. Kondorse Hegel və Marksdan fərqli olaraq, tarixin kəskin məntiqi sxemini qurmur. Onun fikrincə, tarix qanunauyğun prosesdir. Burada yüksək mərhələ biavasitə aşağı mərhələdən törəmir. Hər yeni mərhələyə keçid hansısa yaradıcılıq aktı ilə bağlıdır ki, ona əvvəlki mərhələdə rast gəlinmir. Məsələn, əkinçiliyin kəşfi, yazının ixtira edilməsi, dinin yaranması, kitab çapı, Dekart tərəfindən təfəkkürün müstəqilliyi prinsipinin kəşfi və s.

Filosofun fikrincə, məşğuliyyətin müxtəlifliyi, asudə vaxt, ünsiyyət azadlığı, fikir mübadiləsi mədəniyyətin inkişafına müsbət, yoxsulluq, ifrat əyləncəli həyat tərzi isə ona mənfi təsir göstərəcək. Kondorse bəşəriyyətin tarixi inkişafını on əsas dövrə bölür:

Birinci mərhələ Kondorseyə görə, bəşəriyyətin tayfa birliyinin mövcud olduğu dövrdür. Bu dövrdə insanların əsas məşğuliyyəti balıqçılıq, ovçuluq və yığıcılıqdan ibarət olmuşdur. Ailənin yaranması uşağa qulluq, qayğı zərurətini ortaya çıxarmış, ər-arvadın bir-birinə bağlılığı hissini gücləndirmişdir. Ailə-qəbilə icmasının yaranması və uzun müddətli birgəyaşayış insanı müxtəlif fəaliyyətə - yaşayış yerinin yaxşılaşdırılması, əmək alət və vasitələrinin hazırlanması, qabların düzəldilməsi, ehtiyat qida toplamaq, bostançılıq və s. fəaliyyətə sövq etdirmişdir.

Gündəlik praktik ünsiyyət mədəniyyətin formalaşması aləti olan nitqin inkişafına gətirib çıxarmışdır. Ailə birliyinin yaranmasının digər nəticəsi kimi qarşılıqlı bağlılığın: ədalət, bir-

birinə sevgi, doğmalıq, düşmənə nifrət hisslərinin yaranmasına səbəb olmuşdur. Qəbilə daxilində müntəzəm yaranan mübahisələrin həllində atalar fəal rol oynamışdır. Bu dövrdə dərman bitkiləri ilə (şəfaverici otlarla) tanışlıq və göy cisimlərinin müşahidəsi nəticəsində əldə edilən ilkin biliklər elmin rüşeymlərinin yaranmasına gətirib çıxarmışdır. Bəşəriyyətin birinci tarixi inkişaf mərhələsində dini institutlar formalaşmağa başlamış, ilk cadugərlər və şamanlar meydana gəlmiş, qəbilə icması formalaşmışdır.

İkinci mərhələdə maldarlıqdan əkinçiliyə keçid baş vermiş, bunun nəticəsində insan əməyi daha məhsuldar olmuş, əhalinin sayı artmış, cəmiyyətin sərvəti çoxalmış, tədricən əmlak bərabərsizliyi güclənmişdir. Əldə edilmiş izafi məhsul yüksək imtiyaza malik insan qrupları tərəfindən səyahətlərə, əqli məşğuliyyətlərə, yeni hiss və təəssüratlar axtarışına sərf olunmuşdur. Ticarət inkişaf etmiş, şəhərlər yaranmışdır. Sosial-iqtisadi təbəqələşmə, özgə əməyinin istismarı acgözlüyə, zalımlığa, hakimiyyətpərəstliyə, şöhrətprəstliyə stimul vermişdir. Şəhərlərdə sənətkarlar, ustalar, elm adamları, rəssam və şairlərlə yanaşı, avantrüristlər və oyunçular da cəmləşmişdir.

Filosofun fikrincə, asudə vaxtın yaranması insan istedadının inkişafına nəzərəçarpacaq dərəcədə təsir göstərmiş, bu dövrdə astronomiya və tibb elmi güclü inkişaf sürəti əldə etmişdir. Kondorse hesab edir ki, məhdud alimlər çevrəsinə məlum olan elmi biliklərdən həm də insanları azdırıb onları daha asanlıqla istismar etmək sənəti kimi istifadə edilmişdir.

Üçüncü mərhələninin səciyyəvi xüsusiyyətini Kondorse əkinçiliklə məşğul olan xalqların tərəqqisindən yazının kəşfinə qədərki tərəqqi kimi qiymətləndirmişdir. Bu dövrdə sinfi bərabərsizlik daha da güclənmiş, cəmiyyətin yeni siyasi quruluş formaları yaranmış, irsən keçən kahinlik kastası meydana gəlmişdir. Filosof dinin yaranmasını kahinlərin xalq arasında bilərəkdən avamlığı yayması ilə əlaqələndirir.

Fransız maarifçisi belə bir qənaətə gəlir ki, dövlət əkinçilik cəmiyyətinin inkişafı və yazının kəşfi ilə nəticələnən üçüncü dövrdə yaranmışdır. Bu dövrdə despotlar ordusu güclənmiş, sadə əməklə məşğul olan insanların sayı azalmış, qul əməyindən istifadə nəticəsində nəhəng tikililərin sayı artmış, azadlığın olmaması, şəxsiyyətin alçaldılması avamlıq və axmaqlığa yol açmışdır.

Bu mərhələnin müsbət hadisələrindən biri kimi Kondorse şəhər-dövlətlərdə özünüidarəetmə orqanlarının – demokratiya elementlərinin yarandığını qeyd etmişdir. Fəlsəfənin, tibbin, elmin, dinin və incəsənətin kahinlər kastasına məxsus olduğunu bildirən Kondorse hesab edir ki, kahinlər magik dildən, gizli biliklərdən öz maraqları naminə, yəni xalqı itaətdə saxlamaq məqsədi ilə sui-istifadə etmişlər. Özlərini «Böyük yaradıcı» ilə xalq arasında vasitəçi elan edən kahinlər bunu sübuta yetirmək üçün mürəkkəb mifologiya, kult və ayinlər uydurmuşlar. Bununla belə, kahinlər yazını kəşf etməklə elm və fəlsəfənin inkişafına da güclü təkan vermişlər.

Dördüncü mərhələ antik dövr mərhələsidir. Bu dövrdə Qədim Yunanıstanda elm və incəsənət çiçəklənmiş, bir tərəfdən nəzəriyyə irəli sürmək mədəniyyəti, digər tərəfdən faktları müşahidə etmək sənəti meydana gəlmişdir. Filosof bu dövrdə xurafat və möhfumatın hələ də hökm sürdüyünü istisna etməmişdir.

Kondorseyə görə, Qədim Şərqə nisbətən Yunanıstanda güclü kahinlər kastası mövcud olmamışdır. Burada fəlsəfə çox sevilmiş, onu böyük maraqla dinləmiş və filosoflara böyük rəğbət bəslənmişdir. **Lakin buna baxmayaraq, Qədim Şərqdə olduğu kimi, Yunanıstanda filosoflara geniş hakimiyyət verilməmişdir.** Bu isə Yunanıstanda kahinlər kastasının yaranmasına mane olmuş, nəticədə fəlsəfə azad fəaliyyət sahəsinə çevrilmiş və məşhur filosofların hər biri (Demokrit, Pifaqor, Sokrat, Platon, Aristotel və başqaları – red. N.Kərimova) öz məktəbini açmağa müvəffəq olmuşlar. Yunanların zəngin dövlət quruculuğu ənənələrinin (siyasi mübarizə, qanunların işlənib hazırlanması, ölkənin iqtisadi inkişafı) olduğunu qeyd edən Kondorsenin fikrincə, yunan elmi və fəlsəfəsi zəkanın tərəqqisinə elmi zəmin hazırlasa da, ona

dolayısı ilə təsir etmişdir. "Yunan filosofları təbiəti öyrənməklə dəqiq və aydın terminologiya yaratmış, lakin bununla yanaşı, «söz oyunu» ilə məşğul olmuş, öz ağıllarını səmərəsiz mübahisələrə həsr etmiş, metafizik sistemlər və sofistik dialektika yaratmışlar" (2, 97).

Beşinci mərhələni Kondorse elmin tərəqqisindən tənəzzülünəqədərki dövr adlandırır. Bu mərhələ Yunanıstanda və Romada elmin inkişafı mərhələsindən xristianlığın rəsmi din kimi təsdiqinəqədərki dövrü əhatə etmişdir. Bu mərhələdə elmi biliklərin diferensiasiyası prosesi baş vermiş, bir sıra elmlər fəlsəfədən ayrılmış, yeni elmi məktəblər yaranmışdır. "Elmdə bir vaxtlar sübuta yetirilmiş həqiqətlərə skeptik münasibət bəslənilməsi də beşinci mərhələnin payına düşmüşdür. Özünün metod haqqında təlimi ilə bu dövrün əsas fiquruna çevrilmiş Aristotel elmlərin təsnifatını vermiş, bununla da hər kəs üçün dəqiq tədqiqat proqramı müəyyən etmişdir. Arximedin ixtiraları, Diofantın cəbri, Hippokratın tibbi – bütün bunlar yalnız texniki yeniliklər olmamış, həm də elmin nəzəri-praktik əhəmiyyətini sübuta yetirmişdir. Bu dövrdə fəaliyyət göstərmiş Akademiya, Litsey, Epikür bağı və s. məktəblər əsrlərlə elm-maarif ocağı kimi tanınmışdır" (1, 99).

Kondorse bildirir ki, romalıların hücumu nəticəsində yunan respublikalarının tənəzzülü elmin də tənəzzülünə gətirib çıxarmışdır: Romada ədəbiyyat, incəsənət və fəlsəfəyə xalq içərisində həqiqi meyl və maraq olmamış, onlara hər şey yunanlardan keçmişdir: "Hətta Vergilinin poeziyası və Tatsitin tarix elmi yunanların çiyni üzərində dayanır. Romalıların acgözlüyü və heç bir qaydaya riayət etməmələri onlarda elmi və bədii yaradıcılıq qabiliyyətinin inkişafı üçün əlverişli şərait yarada bilməmişdir. Nəticədə mənəvi və siyasi hakimiyyət zəifləmiş, bu səbəbdən fəlsəfə və elm yaxşı inkişaf edə bilməmiş, əksinə, mistik sektaların sayı çoxalmışdır. Kitab çapının olmaması, elm, fəlsəfə və əxlaqın tənəzzülü sonda mənəvi boşluğun yaranmasına gətirib çıxarmışdır. Yaranmış mənəvi boşluğu isə xristianlıq asanlıqla doldura bilmişdir. Bununla da Avropada qaranlıq orta əsrlər mərhələsi başlanmışdır. Güclü kahinlər kastasının fəlsəfəyə cüzi marağı Romada xristianlıq üçün əlverişli şərait yaratmışdır. Yazıb-oxumağı bacaran kahinlər kastası Platon və Aristotel ideyalarının köməyi ilə xristianlığı möhkəmləndirməyə can atmışlar" (2, 124).

Filosofa görə, çox da böyük olmayan yunan polislərinə nisbətən nəhəng və çoxmillətli Roma şəhərində fəlsəfi dialoqlar aparmaq və elmlə məşğul olmaq üçün əlverişli şərait olmamışdır: "Roma plebeyləri «çörək və tamaşa» tələb edirdilər. Demaqogiya və sxolastika həqiqət axtarışından daha üstün hesab edilirdi" (1, 125).

Bununla belə, Romanın sonrakı inkişaf mərhələsinin bəşər zəkasının tərəqqisində az rol oynamadığını bildirən Kondorse qeyd edir ki, burada Latın və Yunan dillərinin geniş yayılması fəlsəfə ilə tanışlığa zəmin yaratmış, kütlə ritorikasının məşhurluğu natiqlik sənətinin təkmilləşməsinə, bu isə, öz növbəsində son dərəcə vacib bir elmin - hüquqşünaslığın meydana gəlməsinə səbəb olmuşdur. Kondorseyə görə, bu tələbat, əslində, Roma hüququndakı ziddiyyətli və qarmaqarışıq məqamların çoxluğundan irəli gəlmiş, onların şərhi isə xüsusi bir sənətin – hüquqşünqslığın meydana gəlməsini şərtləndirmişdir.

Altıncı mərhələ xaç yürüşlərinin başladığı dövrdən maarifçiliyin tənəzzülə uğradığı dövrə qədər olan müddəti əhatə edir. Kondorse bu dövrü Şərq və Qərb dövrü kimi fərqləndirir. Şərqdə maarifçiliyin tənəzzülü son dərəcə ləng, Qərbdə isə əksinə, daha sürətlə getmişdir. Kondorse xristian maarifçiliyini mənfi qiymətləndirərək yazırdı ki, orta əsrlər mədəniyyət tarixində tənəzzül, iflas mərhələsi, üç tiranın – kralın, döyüşçülərin və ilahiyyatçıların hökmranlığı dövrü, bədbəxtlik və əxlaqsızlıq mərhələsidir. Onun fikrincə, avamlıq vəhşiliyə və acgözlüyə gətirib çıxarmış, acgöz monarxlar ordusu ictitmai həyatda zalımcasına hakim yer tutmuş, günahsız insanları alçaltmış, onları istismar etmiş, azad düşüncə təqib olunmuş, alimlər isə kilsə xidmətçilərinə çevrilmişlər. Bu dövrdə Qərbdə tamamilə tənəzzül baş vermişdir. Yaxın Şərqdə,

Bizansda isə yunan dili qorunub saxlanılmış, orada Homerin, Patonun, Sofoklun, Fukididin əsərləri böyük maraqla oxunmuşdur.

Kondorse məhz bu dövrdə Yaxın Şərqdə cəsur, azad enerjili ərəblərin yeni sivilizasiya ocağı yaratdıqlarını, poeziyanı, elmi və ədəbiyyatı inkişaf etdirdiklərini qeyd edərək, bildirir ki, ərəblər fəlsəfə, tibb, cəbr və həndəsə ilə ciddi məşğul olmuş, Aristotelin əsərlərini tərcümə edərək öyrənmişlər. Filosofa görə, xaç yürüşləri zamanı avropalılar ərəb dünyası ilə tanış olmuş, bu isə Avropa intibahına böyük təkan vermişdir.

Yeddinci mərhələ Qərbdə ilk elmi nailiyyətlərin inkişafı dövründən kitab çapına qədərki mərhələni əhatə edir. Kondorsenin fikrincə, hətta dini müharibələr şəraitində belə tərəqqi ruhu heç vaxt sönməmişdir. O, bir ölkədə təzyiqlə qarşılandıqda, digər ölkələrdə meydana gəlmişdir. Yeddinci mərhələdə istehsal sürətlə inkişaf etmiş, ilk kağız fabrikləri və yel dəyirmanları yaradılmışdır. Lakin əvvəlki kimi insan ağlı buxovlardan tam azad olmamışdır. Belə ki, insanlar qədim kitabları öyrənməyi təbiət hadisələrini öyrənməkdən üstün tutmuşlar.

Kondorseyə görə, Avropada intibah Şərq təsiri nəticəsində yaransa da, avropalıların özlərinin şüurunda da müəyyən irəliləyiş baş vermişdir. Kilsənin öz daxilində dini doktrinanı fanatizm və xurafatdan təmizləməyə keçid özünü göstərmiş, Lüter tərəfindən proqressiv yeniləşmə tədbiri həyata keçirilmiş, bildirilmişdir ki, insan yalnız Allahın səsini dinləməlidir, özü də kilsə xadimlərinin vasitəçiliyi ilə yox. Kondorse hesab edir ki, bu mərhələdə kifayət qədər düşüncəli insanlar təbəqəsi meydana gəlmiş, azad məktəblər, azad universitetlər, elmi cəmiyyətlər yaradılmış, yeni texniki ixtiralar, ticarətin inkişafı istehsalçılarla tacirlər sinfinin ünsiyyətinin genişlənməsi ilə nəticələnmişdir. Şəhərlərdə kommunalar – icmalar yaradılmış, özünüidarə inkişaf etmiş, vətəndaşlar dövlət idarəçiliyini öyrənməyə başlamışlar.

Səkkizinci mərhələdə kitab çapı mənəvi çevrilişə gətirib çıxarmışdır. Mədəniyyətin yeni əlaqələndirici elementinə, onun fokusuna çevrilən kitab və onun çapı prosesi ilə əhalinin əqli-məntiqi mədəniyyəti ölçüyəgəlməz dərəcədə artmışdır. Kitab elmi, fəlsəfi və əxlaqi həqiqətin kilsə tərəfindən qarşısını kəsən bütün maneələri aşmış, milli şairlərin və yazıçıların əsərləri məktəblərdə tədris edilmişdir.

Bəşəriyyət üçün kitab yeni tribunaya çevrilmiş, ağıl üzərindəki hökmranlığı aradan qaldırmış, zəkanı kobud qüvvələrin təsirindən azad etmişdir. Məhz kitab çapının meydana gəlməsi ilə tərəqqi qəti olaraq geriyədönməz hal almış, elmi kəşflər savadlı adamlar üçün əlyetən olmuşdur. Qaliley, Kopernik, Kepler elmə tənqidi ruh gətirmiş, onda təcrübənin, müşahidənin, empirik məlumatların rolunu və əhəmiyyətini təsdiq etmişlər. Həmin dövrdə ağıl və təbiət insan üçün yeganə müəllim və nüfuz sahibi olmuşdur. Bu dövrü filosof coğrafi kəşflər və dini reformasiyalar dövrü adlandırır. Afrika və Asiyaya səyahətlər insan nəslinin özünü vahid tam kimi dərk etməsinə, ticarət və sənayenin elm və texnikanın inkişafına təkan vermişdir.

Kondorseyə görə, kilsə xurafatı ilə mübarizədə islahatların da böyük rolu olmuşdur: elmin nailiyətləri sürətlə artmış, mexanika qanunları kəşf edilmiş, təbiət elmlərində olduğu kimi ictimai elmlərdə də mühüm irəliləyişlər baş vermiş, Platonun ardınca Bekon, Mor, Hobbs nümunəvi ictimai sistem axtarışına çıxmış, Makiavelli tarixi öyrənmiş, dövləti idarə etmək qaydalarını kəşf etməyə səy göstərmişdir. Yeni Dövrdə tədqiqat azadlığı və həqiqətin hər şeydən üstün olduğunu deyən Kepler, Kopernik, Qaliley, Fuko kimi son dərəcə yeni düşüncəyə malik alimlər ordusu yaranmış, teologiya tədricən elmə güzəştə getmişdir. Dekart və Bekon tərəfindən elmi tədqiqat metodlarının işlənib hazırlanması Yeni Dövrdə elmin sistemli inkişafının başlanğıcını qoymuşdur. Dekartın «Düşünürəmsə, deməli, mövcudam» formulu yalnız fəlsəfi kəşf olmayıb, həm də Yeni Dövr şəxsiyyətinin etik-hüquqi əsasına çevrilmişdir.

"Yeni düşüncə tərzinin ən mühüm əlamətlərindən biri Kondorseyə görə, hakimiyyət özbaşınalığına etiraz edən cəsarətli insanların olmasıdır. O, hesab edir ki, xalq ona xidmət

etməyə qadir olmayan sülaləni dəstəkləməkyə borclu deyildir. Filosof məsul şəxsləri tanrı yox, xalqın xidmətçiləri adlandırır. Əgər onlar xalqın inamını doğrultmasalar, onları vəzifələrindən azad etmək lazımdır"(3, 78).

Doqquzuncu mərhələ Dekartdan Fransa Respublikasının yaranmasınaqədərki dövrü əhatə edir. Bu dövrdə zəka qətiyyətlə öz buxovlarını sındırmış, elm öz konturlarını daha aydın cızmış, dahi Nyuton xurafatı məhv edərək təbiət qanunlarını kəşf etmiş, incəsənət, musiqi, ədəbiyyat və təsviri sənət yüksələn templə irəliyə doğru inkişaf etmişdir. İqtisadi, siyasi və mənəvi köləlik zənciri məhv edilmiş, cəmiyyətdə insan və vətəndaş azadlığının təminatçısı olan qanunlar fəaliyyət göstərməyə başlamışdır. Sənaye və kommersiya ruhu «əxlaqı yüngülləşdirmiş», dini dözümsüzlük öz kəskinliyini itirmişdir. Maarifçi filosof yazırdı ki, insan təbiətində azadlığa, həqiqətə, ədalətə can atma yanğısı vardır. Hökmranlıq edən qüvvələrin yalan və eqoizmi insana bu təbii istək və meylləri həyata keçirməyə mane olmuşdur. Fransız inqilabı, nəhayət, «təbii hüquq» prinsiplərini bəyan etmişdir. Əxaq və davranışda yalan və ikiüzlülüyün, fanatizmin ifşa edilməsi, ədalətə, humanizmə, insanın xoşbəxtliyinə doğru istiqamətlənmək bu mərhələnin ikinci ən böyük nailiyyəti olmuşdur. Yeni əxlaq cəmiyyətin bütün sinfilərini ümumi razılıq telləri ilə birləşdirmiş, bəşər nəslinin qardaşlığı bərqərar olmuş, vicdan azadlığı və dini seçim təsdiqlənmişdir. Kondorse bildirir ki, bu mərhələdə «təbii hüquq» və humanizm ideyaları insan düşüncəsinə hakim kəsilsə də, onu həyata keçirmək yalnız onuncu mərhələdə baş tutuacaq.

Onuncu mərhələnin səciyyəvi xüsusiyyətlərini fransız maarifçisi aşağıdakı kimi şərh edir:

1. Xalqlar arasında bərabərsizliyin ləğvi;
2. Həmrəyliyin əldə edilməsi;
3. İnsanın həqiqi kamilliyə qovuşması.

Filosof insanın kamilləşməsinə təsir edən amilləri aşağıdakı kimi qeyd edir:

- mədəni-ictimai mühitin inkişafı;
- elmin köməyilə istehsalın səmərəliliyinin artırılması;
- məişət şəraitinin yaxşılaşdırılması;
- qida təminatı, əmək şəraitinin yaxşılaşdırılması, asudə vaxtın səmərəli təşkili;

Filosof hesab edirdi ki, insan zəkası çox mürəkkəb xarakterə malik olduğu üçün onun inkişaf qanunları tamamilə öyrənilməmişdir. Sosial mühiti, təlim-tərbiyə, məşğuliyyət vasitələri və insanların münasibətdə olduğu nüfuzlu şəxsiyyətlər insanın bilik və bacarıqlarının inkişafına təsir göstərən amillərdəndir. Maarifçi filosof hesab edirdi ki, insan zəkasını pis tərbiyə korlayır, ona yeni pedaqogika lazımdır. Kondorseyə görə, məktəb kilsədən tamamilə azad olmalı, təhsilə siyasətçiər və ilahiyyatçılar deyil, alimlər rəhbərlik etməli, biliklər geniş xalq kütlələri üçün əlçatan olmalıdır. **O, hesab edirdi ki, heç bir sosial qrupun bilik üzərində monopolizm yaratmağa ixtiyarı yoxdur.** Onun fikrincə, bərabərlik insanların həyat tərzini təkmilləşdirəcək: yeni nəsil əvvəlkilərdən daha xoşbəxt olacaq (4, 297).

Avropanın mədəni missiyasına inanan Kondorse hesab edirdi ki, Avropa elmi və maarifi güc tətbiq etmədən bütün dünyaya yayılacaq. Geridə qalmış xalqların avropalıları özlərinin xilaskarı kimi gözlədiyini deyən filosod müharibəni ən qatı cinayət və axmaqlıq adlandırmışdır. O, xalqların yaxınlaşacağına, qarşılıqlı nifrətin səbəblərinin yox ediləcəyinə və əbədi sülhün bərqərar olacağına dərin inam bəsləyirdi. Kondorse inanırdı ki, elmin sonrakı inkişafı sayəsində gələcəkdə proqressiv inkişaf mümkün olacaq. İnsanlar müharibə etməkdən əl çəkəcəklər, ömür müddəti uzanacaq. Bu inkişaf zamanı geridə qalmış xalqlar qabaqcıl xalqların elmi nailiyyətlərindən, mədəni sərvətlərindən yararlana biləcək və onlar da sürətli inkişaf istiqamətinə üz tutacaqlar (1, 236).

Kondorsenin xətti inkişaf konsepsiyası fasiləsiz və tənəzzülə yer qoymadan bəşəriyyəti ağlın, ədalət və sülhün zirvəsinə doğru aparır. Maarifçilərin bu baxışları uzun müddət milyonlarla insanı tarixi fəaliyyətə ruhlandırmışdır.

ƏDƏBİYYAT

1. Hacıyev Z.C. Fəlsəfə. Ali məktəblər üçün dərslik. "Turan evi" nəşriyyatı, B, 2012, 488.
2. Кондорсе Ж.А. Эскиз исторической картины прогресса человеческого разума. пер. И.А.Шапиро. — 3-е рус. изд. под ред. и со вступ. ст. Ю.И.Семенова. — М., 2010. — 233 с.
3. Литвинова Е.Ф. Жан Антуан Кондорсе. Его жизнь и научно-политическая деятельность: документально-художественная литература. «Директ-Медиа», М., 2014, 88.
4. Семенов Ю. И. Философия истории: общая теория исторического процесса. «Трикста», М, 2013. 615.
5. Худолей Д. М. Парадоксы Кондорсе и их решение // Вестник Пермского университета. Юридические науки. 2017. Вып. 37. С. 288-302.
6. Baker Keith Michael: Condorcet: From Natural Philosophy to Social Mathematics. Chicago, 1975, 538.

JAN ANTUAN KONDORSE: ICTIMAI INKIŞAF HAQQINDA

XÜLASƏ

Məqalədə Jan Antuan Kondorsenin "İnsan zəkasının tərəqqisinə dair eskizlər" adlı əsərində irəli sürülmüş tarix fəlsəfəsinin maarifçi tərəqqi konsepsiyası təhlil edilmişdir. Fransız mütəfəkkiri dünya tarixini ayrı-ayrı fərdlərlə deyil, kütlələrlə əlaqəli olan xətti və daimi inkişaf edən bir proses kimi nəzərdən keçirir. Bu tarixi tərəqqinin əsasını və hərəkətverici qüvvəsini insanın ən qüksək qabiliyyəti hesab edlən zəka hesab edirdi. Kondorse bəşər tarixini on dövrə bölməklə tarixi prosesin əsas mərhələlərini, hərəkətverici qüvvələrini və inkişaf qanunauyğunluqlarını açmağa çalışır. Müəllifin məqsədi insan qabiliyyətlərinin inkişafında heç bir məhdudiyyətin olmadığını, onun daha da təkmilləşə bilmə imkanlarını faktların köməyilə açıb göstərməkdir. "Eskiz"də və digər əsərlərində Kondorse burjua tərəqqisinin açıq-aydın tərənnümçüsü kimi çıxış edir: o, feodal təsisatına, istibdada, despotizmə, dinə, dini təhsil sisteminə hücum edir. Qadınların bərabərliyini həvəslə müdafiə edir və bütün xalq təhsili sisteminin yenidən qurulmasını tələb edir.

ЖАН АНТУАН КОНДОРСЕ: О СОЦИАЛЬНОМ РАЗВИТИИ

АННОТАЦИЯ

В статье проанализирована просветительская прогрессистская концепция философии истории Жан Антуан Кондорсе, изложенная в его работе «Эскиз исторической картины прогресса человеческого разума». Всемирная история рассматривается французским мыслителем как линейный и неуклонный прогресс, причем не касательно отдельных человеческих индивидов, а относительно их массы. Основой и двигателем этого исторического прогресса Ж.-А. Кондорсе считал человеческий разум как высшую среди способностей человека. Кондорсе делает попытку установить закономерности развития истории, ее основные этапы, движущие силы исторического процесса, рассматривая десять эпох в истории человечества. Цель автора путем рассуждения и с помощью фактов показать, что в развитии человеческих способностей не существует предела, что способность человека к совершенствованию по сути безгранична. В "Эскизе" и других работах Кондорсэ выступает ярким апологетом буржуазного прогресса. Он нападает на феодальные учреждения, на тиранию, на деспотизм, на религию, на систему религиозного воспитания. Он

горячо отстаивает равноправие женщин и требует реорганизации всей системы общественного воспитания.

JEAN ANTOINE CONDORSET: ON SOCIAL DEVELOPMENT

SUMMARY

The article analyzes the educational progressive concept of the philosophy of history by Jean Antoine Condorcet, as outlined in his work "Sketch of the Historical Picture of the Progress of the Human Mind". World history is seen by the French thinker as linear and steady progress, not concerning individual individuals, but about their mass. The basis and engine of this historical progress is J.-A. Condorcet regarded the human mind as the highest among human abilities. Condorcet makes an attempt to establish the regularities of the development of history, its main stages, the driving forces of the historical process, considering ten epochs in the history of mankind. The author's goal is to show through reasoning and through facts that there is no limit in the development of human abilities, that man's ability to improve is inherently limitless. Condorcet is a bright apologist for bourgeois progress in "Sketch" and other works. He attacks feudal institutions, tyranny, despotism, religion, religious education. It fervently advocates women's equality and calls for a reorganization of the entire public education system.

YUNUS ƏMRƏ VƏ ONUN HUMANİZM FƏLSƏFƏSİ

Agabəyova Ülviyyə Rizvan qızı,
BDU-nun Fəlsəfə və mədəniyyətşünaslıq kafedrasının dosenti,
ulviya.agabeyli@mail.ru

Açar sözlər: Yunus Əmrə, dərviş, humanizm, İlahi eşq, insan sevgisi.
Ключевые слова: Юнус Эмре, дервиш, гуманизм, Божественная любовь, человеческая любовь.
Keywords: Yunus Emre, dervish, humanism, Divine love, human love.

Giriş. Təsəvvüfi-irfani görüşləri ilə türk ədəbiyyatına işıq saçmış Yunus Əmrə yüksək məqama çatmış sufi övliyası, böyük fikir sahibidir. Yaradıcılığında insan, Allah, İlahi eşq məsələlərinə toxunan Yunus Əmrə humanizm fəlsəfəsini irəli sürmüş, insan və onun əxlaqi keyfiyyətlərinə dəyər vermiş, əqlinə görə onu canlıların ən şərəflisi hesab etmişdir. O, dərvişlik həyat tərzini üstün tutaraq, insanın kamillik dərəcəsinə yetişməsində mühüm yol kimi qəbul etmişdir.

Yunus Əmrə, həmçinin sözə önəm vermiş və bildirmişdir ki, söz, dil, nitq Allahın təzahürüdür. O, qeyd edirdi ki, sufi-dərviş söz vasitəsilə insanları irfan edə, onu yola gətirə bilər. Mütəfəkkir eşqə əhəmiyyət verərək, onu insan varlığının ən mühüm cövhəri sayırdı. Eşq ilə yoğrulan və tərbiyə olan insan, əsl kamil insandır. Eşq insanı mənən saflaşdıran, psixoloji möhkəmlik və iradə bəxş edən bir vasitədir. İnsan bu ilahi keyfiyyətə, bənzəri olmayan mühüm xüsusiyyətə malik olmalıdır.

Bu baxımdan, İlahi eşq və insan sevgisi Yunus Əmrə yaradıcılığını bəzəmişdir. O, bütün insanları bərabər tutan, hər kəsə eşq və sevgi ilə yanaşan şair olmuşdur. İnsanı yer üzünün ən dəyərlisi kimi qiymətləndirən Yunus Əmrə bir humanistlik nümayiş etdirmişdir.

Yunus Əmrə və onun humanizm fəlsəfəsinin əsasında dayanan insan sevgisi və İlahi eşq məsələləri: Türk təsəvvüf ədəbiyyatının böyük nümayəndəsi, uca məqamlı sufi övliyası Yunus Əmrə yaradıcılığının ana xəttini eşq və əxlaq fəlsəfi, etik-irfani fikirlər təşkil edir. Mütəfəkkir dərvişlik həyat tərzinə diqqət yetirmiş, dönə-dönə qeyd etmişdir ki, dərvişliyin xüsusi geyimi, xüsusi görünüşü yoxdur. Dərvişlik xirqədə, tacda deyil, Qüdsdə, Məkkədə, Mədinədə deyil. Dərvişlik könlündə ilahi nuru hiss edən insanların yoludur ki, hər zamanda, hər məkanda ola bilər. İnsan dərvişliyi cəlbedici geyimdə, dəbdəbəli təkkələrdə, müqəddəs şəhərlərdə deyil, öz qəlbində axtarmalıdır [14, s.188].

Yunus Əmrə dərvişlik yolunu təsəvvüf metodikasının əsası sayır, sufiliyin kamillik mərtəbələrinin məhz dərvişliklə qət olunduğunu bildirir. Mütəfəkkirə görə, sufiliyin bu mərhələləri şəriət, təriqət, mərifət və həqiqətdir:

Əvvəl qapı şəriət, əmrü-nəhyi bildirir,
Yuya günahlarını, hər bir Quran hecası.
İkincisi təriqət, qulluğa bel bağlaya,
Yolu doğru gedənə, hökm edə xocası,
Üçüncüsü mərifət, can, könül gözün açar,
Bax məna sarayına, ərşə qədər ucası.
Dördüncüsü həqiqət, ərə düzgün baxmağa,
Bayram ola gündüzü, qədr ola gecəsi
Dörd qapıdır, qırx məqam, yüz altmış mənzili var,
Ona çatana açılar, vilayət dərəcəsi [13, s.97-99].

Yunus Əmrə üçün haqq yol olan islam dini təkcə şəriətdən, fiqhdən ibarət deyil. Təriqət və digər mərhələlər kimi, şəriət də ancaq Allaha çatmaq üçün vasitədir. Bu mənada, şəriət yolun başlanğıcıdır. Şəriət və təriqət haqq yolçusunu, sevgi yolçusunu mərifətə çatdırar. Lakin, bu yolda mərifət də əsas məqsəd deyil. Onun da mahiyyətində həqiqət var. Bu dörd qapının da öz içində daha mükəmməl olan özünəməxsus məqamları, halları var:

Şəriət, təriqət yoldur gedənə,
Həqiqət, mərifət ondan içəri [15, s.84].

Dərvişlik baxdığı hər yerdə Haqqı görən bir mürşidə tam təslimiyyəti zəruri etdiyi üçün, mürşidlərin söhbətləri, çıxışları, sözləri təsəvvüf təlim-tərbiyyəsinin əsasını təşkil edir. Təsəvvüf təlimində dost məclisi adlandırılan dini ritualların keçirilməsi vacibdir. Belə məclislərdə mürşid öz müridlərinə əxlaqi nəsihətlər verir, onlara mistik özünükamilləşdirmənin üsullarını öyrədir. Həmçinin, təsəvvüf təlimində ən vacib şərtlərdən biri olan mistik halların çağırılması vasitələri, yəni zikr, səma məhz bu məclislərdə icra olunur. Yunus Əmrəyə görə, dost məclislərində kollektiv mistik və dini söhbət etmək, neyin sədası altında zikrlə məşğul olmaq insanı mənəvi cəhətdən ucaldır, ruhani səviyyədə kamilləşdirir, Tanrıya yaxılaşdırır. Bu səbəbdən də təsəvvüf təlimində sözə və nəqli izahata çox ciddi əhəmiyyət verilir. Kainatdakı hər şey kimi söz, dil, nitq Allahın bir təzahürü olduğu üçün insanın danışığı, çıxışları, məclislərdəki söhbətlər də Allahın məqamına yaraşan səviyyədə olmalıdır. Sufi dərvişinin əsas vasitəsi sözlə insanları inandırmaq, sözlə irfan etmək, sözlə yola gətirməkdir [7, s.5].

Buna görə də Yunus Əmrə buyurur:

Ey sözlərin əslin bilən, gəl de bu söz hardan gəlir,
Söz əslini anlamayan sanır bu söz məndən gəlir [14, s.148].

Yunus Əmrə bildirir ki, söz kainatın əvvəli, ilahinin təzahürüdür. Ağıl, ruh, eşq kimi nitq də insana Allah tərəfindən verilmişdir. Gözəl, təsirli, ürəyəyatan sözlərin mənbəyi insanın ağlı, intellekti yox, Allahın zatıdır. Bu sözlər insandan yox, Allahdan gələndir:

Söz qaradan, ağdan deyil, yazıb-oxumaqdan deyil,
Bu yeriyən xalqdan deyil, Xaliq avazından gəlir [14, s.148].

Sözün sufilər üçün önəmi çox böyükdür. İlahi həqiqətin bütün səmavi kitablarda əks olunduğunu, lakin insanların bu əzəli və əbədi hikməti anlamaqda çətinlik çəkdiyini bildirən Yunus Əmrəyə görə, əslində dini kitabların hamısı həqiqətlərin gizli olduğu sözün, nitqin, məntiqin üstünlüyünü vurğulayır. İncilin ilk cümləsi də bu mənada, "Əvvəl ancaq söz var idi"-deyə başlayır.Göründüyü kimi, ilahi özü də öz varlığını, dünyanı yaratmasını, ilahi həqiqət və hikməti sözlə əsaslandırmışdır. Mütəfəkkirin bu fikirləri sufizm ideologiyasına tam uyğundur. O, sözə verdiyi qiymətlə özündən sonra da təsəvvüf təlimində sözün, nitqin əhəmiyyətinin anlaşılması üçün bir çox sufi mütəfəkkirləri tərəfindən qiymətli mülahizələrin irəli sürülməsinə səbəb oldu. Praktiki anlamda isə, Yunus Əmrə sözün ictimai təsirini dəyərləndirir. Allah dünyanı eşqlə yaratmış, bu yaradılış arzusunu da ilk dəfə sözlərlə ifadə etmişdir. Buna görə də, ağızdan çıxan hər söz eşqlə, ilahi sevgi ilə yoğrulmalıdır ki, insanların haqq yola gəlməsinə vəsilə olsun [14, s.153].

Təsəvvüf təliminin əsaslandığı hədisi-qüdsiyə görə, Allah özünü dərk etdikdən sonra öz varlığını gizli saxlamağı deyil, əyan etməyi sevmiş, məchulluğu deyil, məlum olmağı sevmişdir. Məhz bu sevgi, onun bütün maddi və mənəvi varlıqları, yaradılmışları yaratmasına səbəb olmuşdur. İlahidən nəql olunan qüdsi hədislərdən ən önəmlisi də məhz belədir: "Mən bir gizli xəzinə idim, amma məlum olmağı sevdim. Buna görə də, mələkləri və insanları yaratdım və məlum oldum".Göründüyü kimi, yaradılışın əsasında da elə ilahinin məlum olmağı, bilinməyi sevməsi dayanır. Allah bu eşqdən irəli gələrək yaratmış, yaratdıqlarını sevmişdir. Beləcə, ilahinin sevgisi əvvəlcə insanlarda zühur etmişdir. İnsanlar yer üzünə gəlməzdən öncə isə, aləmi

mələkutda (ideal aləmdə) Allahla insanlar arasında əhd-peyman bağlanmış, insanlar Allaha daim ona bağlı qalacaqlarına, şeytana, öz nəfsani istəklərinə uymayacaqlarına, daim ilahi eşq içində yaşayacaqlarına dair söz vermişlər. Bu əbədi müqavilə, "misaq" aktı sufiliyin əsas prinsipi olub, Qurani Kərimin "Bəqərə" surəsinin 155-ci ayəsində bu şəkildə ifadə edilir: "Allahdan gəlmişik və ona qayıdacağıq". Lakin, yer üzünə gəldikdən sonra isə, onlar öz verdikləri sözü, Allahla bağladıqları əhd-peymanı, əbədi misaqı unutmuşlar. Buna görə də, yer üzündə insanlar əbədi əzaba, dünyəvi iztiraba düçar olmuşlar [7, s.62].

Təsəvvüf təlimi ilahi eşq prinsipinə əsaslanaraq, insanı özünə dönməyə çağırır. İnsan Allahın sevgisinin təzahürü olduğu üçün, bu sevgini, bu ilahi eşqi yer üzündə əks etdirməkdə məsuldur. Lakin, insan yer üzündə bundan boyun qaçıraraq, öz nəfsinin köləsi olmağı daha üstün tutur. Bu isə insana mənəvi əzab-əziyyət, kin, həsəd, hərislik, paxıllıq kimi mənəvi-psixoloji iztirab və gərginliklər verir, onun mənəvi eşq ilə yaradılmış həyatını cəhənnəmə çevirir. Yunus Əmrə təsəvvüf təliminin bu prinsiplərindən çıxış edərək insanı öz varlığının həqiqi mahiyyəti olan eşqə, ilahi sevgiyə dönüş etməyə çağırır. Yunus Əmrəyə görə, eşq insanın özünü, dünyanı, Allahı dərk etməsi üçün ən mükəmməl vasitə, insan varlığının ən mühüm cövhəridir. Mütəfəkkirin nəzərincə, eşq ilə yoğrulan və tərbiyyə olan insan, əsl kamil insandır [8, s.22-25].

Eşq ilə tərbiyə olunmaq, eşqin yüksək əxlaq ilə münasibətini göstərmək Yunus Əmrənin düşüncəsinin ən önəmli cəhətlərindən biridir. O, bildirir ki, kainatda görülən nizamın ictimai həyatda da görülməsini istəyiriksə, insan ruhunun ancaq ilahi ruhun əxlaqi ərdəmləri ilə zənginləşdirilməsi lazımdır. Yalnız bu vasitə ilə insan Haqqa yaxınlaşa bilər. Ədalət, düzgünlük, müdriklik, tolerantlıq kimi mühüm əxlaqi keyfiyyətlər də məhz bunun nəticəsində reallaşa bilər. Buna görə də, Haqqa aşiq olan insan həm də, eyni zamanda yüksək əxlaqın ən mükəmməl və seçkin nümunəsi olmalıdır.

Təsəvvüf təliminin hədəfi hər an öz nəfsi qarşısında hesabat verərək varlığını mükəməlləşdirmiş kamil insanı yaratmaqdır. Xətalarından dərs alaraq tövbə edən, Haqq-təalanın yaratdığı hər şeydə ancaq gözəl olanları görən, öz şüurunda, düşüncəsində günahlardan çəkinib müsbət əməllərə istiqamətləndirən ilahi təqva, özünənəzarət gücünü möhkəmləndirən kamil insan, arif Yunus Əmrənin də ideal kamillik obrazıdır. Yunus Əmrəyə görə, arif Haqqi tanıyan, düzgün olanı bilən, irfan və mərifət sahibi olan şəxsiyyətdir. O, batini biliyi axtaran, könül gözü ilə göründür. Kamil insan səbirli insandır. Ekzistensial mənliyi ilə hesablaşması əsasında iztirablı bir yol qət etmiş və səbr etməyi öyrənmişdir. Beləcə, kamil insan İlahi təvəccöhə nail olmuş, Allaha yaxınlaşmışdır [5, s.47].

Eşqin əsas səbəbi kamil insan yetişdirməkdir. Kamil insan dünyanın bir keçid yeri, ölümün qəti əmr olduğunun fərqinə vararaq, dünya nemətlərinə bağlanmamağı öyrənmişdir. Dünya nemətlərindən imtina etməyən insan isə həm ilahiyə əsl sevgi göstərmir, həm də ilahinin eşqindən binəsib olandır. Belə insanlar,

Yunus Əmrəyə görə malını verməmək üçün imanından keçməyə hazırdır:

Deyim, dinlə Quran zəvalın,
Verər imanını, vermədi malın[9, s.31].

Eşq isə, insanı bu kimi mənfi xüsusiyyətlərdən uzaqlaşdırır, insanı həqiqi kamilliyə, aydınlığa çıxarır. İnsan bütün həyatı boyunca ilahi eşqin nuru üçün can atmalıdır ki, dünyadakı həyatını başa vurduqdan sonra həmişəlik olaraq Allahın nəzərində, sevgi dairəsində qalsın:

Səhavət edərsən işıq alasan,
Tamam tərk edərkən, eşqdə qalasan [5, s.21].

Yunus Əmrə insanları hər zaman mənfi xüsusiyyətlərə qarşı savaşmağa, kin və küdurətə, düşmənçiliyə, həsəd və riyaya qarşı barışmaz mövqedə durmağa çağırır. Əgər qəlb belə

eybəcərliklərlə doludursa, ilahinin eşqi bu qəlbdə özünə yer tapa bilməz. Göründüyü kimi, Yunus Əmrənin əxlaq fəlsəfəsi də məhz eşq üzərində, ilahi sevgi əsasında qurulmuşdur:

Sakın ki, olmagil kibirlə yoldaş,
Kibir hardadırsa, onunla savaş [10, s.34].

Yunus Əmrə eşq və sevgini təkcə insanın qəlbində qalan bir nemət olaraq görmür. Eşq insanın ürəyində özünə yer tapıb onun nəfsini, ruhunu təmizləməklə birlikdə, həm də mühüm ictimai vəzifə yerinə yetirir. Eşqin ən mühüm keyfiyyəti onun cəmiyyətdə nizamlayıcı, barışdırıcı funksiya yerinə yetirməsidir. İnsanlar eşq əsasında bir-birlərinə hörmət bəsləyir, eşq əsasında sosial həyatda həmrəylik, dostluq, qardaşlıq kimi ülvi dəyərlər əldə edir:

Gəlin danışıq edəlim, işi asan görəlim,
Sevəlim, seviləlim, dünya kimsəyə qalmaz [2, s.50].

Təsəvvüf Allahı tanıma və tapmaq yoludur. Bu təlim ruhani və mənəvi bir mistik yaşantı, mistik və dini təcrübə, irrasional psixoloji haldır. Hər şeydən əvvəl isə, təsəvvüf həyat tərzi mükəmməl bir əxlaq sistemi, tərbiyə prosesi, qəlbi təmizləmək, Allaha ucalmaq, ilahi nizama uyğunluq göstərməkdir. Təsəvvüf təlimi Allaha həqiqətən qul olmaq və ona qulluq etmək üçün nəfsi kamilləşdirmək, qəlbini uca Allaha bağlamağı vacib bilir. Yunus Əmrənin qəbul etdiyi sufilik düşüncəsinin təməlində Allah, insan və təbiət eşqi var. Allah əzəli və sonu olmayan bir varlıq olduğu kimi, ona olan eşq, həmçinin onun öz yaratdıqlarına olan eşqi də əzəli və əbədidir [11, s.52].

Allah əzəli olduğu kimi, insanın ruhu da Allah məqamında əzəlidir. Qurani- Kərimdə Allah insanı yaratması haqqında buyurur: "Onu düzəltdim və öz ruhumdan üflədim". Bu baxımdan, Yunus Əmrəyə görə insan da ilahi ruhdan gələn bir mahiyyətin daşıyıcısıdır. Onda ilahi bir xarakter, ilahi qüvvə vardır. İnsanın bədəni meydana gəlməzdən əvvəl Allahın qatında ikən eşq ilə dolu və xoşbəxt idi. Lakin Allah məlum olmağı sevdiyi üçün aləmi yaratmağı arzu etmiş və yaratmışdır [7, s.82].

Yunus Əmrəyə görə, aləmin yaradılış qayəsi də elə eşqdir. Allah öz gözəlliyi və əzəmətini tamaşa etmək üçün aləmi yaratmışdır. Hədisi qüdsidə ifadə olunan mətləbin mahiyyətindən də yalnız eşq meydana gəlir. Yunus Əmrəyə görə eşq, metafizik bir kateqoriya, Allahın yaradıcı qüvvəsinin özüdür. Kainatın əsasını, mahiyyətini eşq təşkil edir və bu eşq külli mövcudatdaki ilk cövhərdir. Kainatda var olan hər şey eşqin əsəri olduğu və Mütləq Gözəlliyin izlərini daşıdığı üçün, insanı Haqqa çatdıracaq olan yeganə həqiqi yol da yenə eşqdən keçir. Bu eşq həm Haqq-təalanın insanlara duyduğu, həm də insanların Allaha duymalı olduğu eşqdir. Yunus Əmrəyə görə, Allahın insalara duyduğu eşq sonsuzdur. İnsanlar isə öz maddiyyatına daha çox yönəldiyi üçün bu eşqi tam sərgiləyə bilmir, hətta bəzi hallarda cəhalətə belə varır.

Yunus Əmrəyə görə, eşq həqiqi və məcazi eşq olaraq iki yerə bölünür. Həqiqi eşqin obyekti Haqq-təalanın özü, məcazi, bəşəri eşqin obyekti isə insandır. Yaradılış prosesi ilahi eşqin yer üzündə yayılması olduğu üçün, Yunus Əmrə də daxil olmaqla bir çox sufilər çox vaxt bəşəri eşqi ilahi eşqə çatmaq üçün körpü, vasitə olaraq düşünmüşlər. Bu baxımdan həm təsəvvüf fəlsəfəsinin, həm də Yunus Əmrənin əsas şüarı "yaradılmışı Yaradandan ötrü sevmək"dir. Mütəfəkkirə görə bütün yaradılmış şeylər, aləm, bütün insanlar bizi birbaşa Allaha, Allahın eşqinə aparır. Çünki, insan da daxil olmaqla, hər bir varlıq Allah ilə insanın qəlbi arasında bir pərdədir. Varlıqlar Allahın zatını, onun üzünü insandan gizləyən pərdələrdir. Bu mənada, dünyanı mahiyyətli edən şey də elə onun bir pərdə olmasıdır. Əgər Allah pərdəsiz və açıq

olsaydı, nə sirr, nə ilahi qüvvə, nə mənəvi mahiyyət və gözəl hisslər, həmçinin nə eşq və nə də küfr olmazdı. Buna görə də, dünya hər şeyi mənalı edən, insan həyatına yalnız mənəvi məna verən bir vasitədir, məqsəd deyil [6, s.30].

Yunus Əmrə qeyd edir ki, Allahın insanlara bir lütfü kərəmi olan eşq qəlbləri kamilləşdirən sonsuz bir elmdir. Qəlb isə, Haqqı tanımağa, onu görməyə kifayət edən ən vacib dəyərdir. Allah öz yaradıcı xüsusiyyətlərini yaratdıqlarıda, xüsusilə də insanda təcəssüm etdirmişdir. Allahın elmi sevgidə daha mükəmməl və ideal şəkildə təzahür edir. Belə vəziyyətdə, Haqqı bilməyin, Haqqı tanımağın ən ideal və kəsərli yolu insanın öz qəlbindən keçir:

Elm elm bilməkdir, elm özün bilməkdir.
Sən özünü bilməz isən, bu necə oxumaqdır.
Oxumaqda məna nə?! Kişi Haqqı bilməkdir.
Çün oxudun, bilməzsən, boş bir quru əməkdir [2, s.165].

Yunus Əmrə israrla bildirir ki, insanların oxumaqdan, elm öyrənməkdən əsas qayələri özlərindən, öz daxili dünyalarından çıxış edərək, Haqqa aparacaq yolu tutmaq, bu yolla getməyi bacarmaqdır.

Elm insana onun özü haqqında, öz bədəni haqqında, hətta öz şüuru haqqında bilik verə bilər, lakin həqiqətin mahiyyətini, ruhun özəlliklərini açа bilməz. Həqiqi mənada özünün daxili dərinliklərinə varmaq, öz daxili dünyasındakı ilahi cövhəri sezmək isə irfandır. Öyrənilən elm əgər irfandan əxz olunursa, o, həqiqi elmi əhəmiyyətə malikdir. Gerçək elm irfan, mərifət isə ancaq eşq kitabından, qəlb aynasından öytənilə bilər. Qəlbində mərifət günəşi parlayan irfan əhli bir kişinin bunu dili ilə söyləməsi Yunus Əmrəyə görə, çox da vacib deyil. Çünki, mərifət dil ilə yox, könül ilə bağlıdır:

Sufiyəm xalq içində, təsbeh əlimdən getməz,
Dilim mərifət söylər, könlüm heç qəbul etməz [2, s.170].

Yunus Əmrəyə görə, dindarlıq, möminlik əslində hələ tam ariflik, tam müdriklik deyil. İlahi nuru əxz etməyənlər dindar kimliyə malik olsalar da, mahiyyəti etibarilə cahildirlər. Əsl iman ilahi eşqi, ilahi nuru özündə təqdim etməkdir.

Yunus Əmrə islam dininin çərçivələri daxilində yaşamış, islam dəyərlərilə bəzənmiş, Məhəmməd peyğəmərin əxlaqı ilə əxlaqlanmışdır. Lakin, onun fəlsəfəsində diqqət çəkən bir mühüm məqam da, öz dininin, məzhəbinin yalnız eşq olduğunu bildirməsidir. O, bu fikirləri ilə dindən çıxmış deyil, əksinə, islam dininin həqiqi mahiyyətinə uyğun şəkildə çıxış edərək, əsl eşq dinini təbliğ etmiş, islamın mahiyyətində də eşqin dayandığını göstərmişdir:

Ey aşiqlər, ey aşiqlər, məzhəbi din eşqdir mənə,
Gördü gözüm dost üzünü, yas qəmi düzgündür mənə,
Dost eşqə ulaşılandan dünya axirət bir oldu,
Əzəl, əbəd sorar insan, dünlə bu gün birdir mənə [3, s.23].

Beləcə, Yunus Əmrə təsəvvüf təlimi və islam əxlaqının sərhədləri içərisində həqiqi eşq və humaniz fəlsəfəsi təqdim etmişdir.

Yunus Əmrə ilahi eşq və insan sevgisi ilə dolub daşan, bir "ərən şair"dir. Onun yaradıcılığı başdan-başa ilahiyə və insana olan sevgi çağırışı ilə yoğrulub. O, bütün insanlara, eşq və qəlb gözü ilə baxan, bütün yaradılmışları bir tutan humanist bir şair, mütəfəkkirdir. Yunus Əmrəyə görə, insan bütün yaradılmışların əşrəfidir, ən dəyərlisidir. İnsan Allahın ən mükəmməl əsəridir.

İnsanı sevməyən, Allahı da sevməz. Buna görə də, Yunus Əmrə "insanı Allahdan ötürü sevmək sevərik"- deyərək, dünyanı insan və Allah eşqi ilə yüksəldən bir humanistdir. İnsanın əsl vəzifəsinin könül qırmaq deyil, könülləri ucaltmaq olduğunu bildirən ustad Əmrə ruhları Haqqdan gələn şərbətlə şərəfləndirməyə çağırır. Yunus Əmrə bütün bu mükəmməl xüsusiyyələri ilə təriqət ədəbiyyatının, təsəvvüf təliminin ən mükəmməl və ən çox sevilən nümayəndələrindən biri olaraq insanlıq tarixində və bütün sevgi dolu insanların qəlbində özünün layiqli yerini tutmuşdur [14, s.120].

Nəticə: Yunus Əmrə klassik humanizmin ən böyük mütəfəkkirlərindən biridir. Humanizm "insansevərlik", "insan sevgisi" deməkdir. Ona görə də təsəvvüf fəlsəfəsinin əsas qayəsi humanizmdir. Yunus Əmrə yaradıcılığının başlıca məqsədi insan sevgisini tərənnüm etməkdən ibarətdir. Humanizm təsəvvüf dünyagörüşünə görə ilahi qaynaqlı bir anlayışdır. Sufilikdə insan sevgisi İlahi qaynaqlıdır. Bu təlimə görə, insan hər bir xüsusiyyəti ilə sevilir. Çünki insan Allahın yaratdığı ən uca varlıqıdır. Yunus Əmrənin fikrincə, insan sevgisi bir vasitədir, əsl məqsəd Allahla bir olmaq, Ona yetişməkdir.

Yunus Əmrə fəlsəfəsində insan sevgisi tamamilə islam dininin əsaslarına söykənir.Yunusun humanizminin əsasında Allahın insanı mükəmməl şəkildə yaratması ideyası dayanır [13, s.89].

Tətbiqi əhəmiyyəti: Məqalədən fəlsəfə tarixi, filologiya ilə məşğul olan mütəxəssislər, ali məktəblərin bakalavr və magistr pilləsində təhsil alan tələbələr istifadə edə bilərlər. Təqdim olunan məqalədən fəlsəfə tarixinə dair dərslik, dərs vəsaitləri və proqramların hazırlanmasında elmi mənbə kimi istifadə oluna bilər.

ƏDƏBİYYAT

1.Aydın Abi Aydın. "Türkiyə ədəbiyyatı tarixi", I cild, Bakı, 2010.
2.Əmrə Y. "Əsərləri", (tərtibçi C. Bəydilli). Bakı, Öndər nəşriyyatı, 2004.
3.Əmrə Y. "Əsərləri". Bakı, Şərq – Qərb, 2009.
4.Quliyev E. "Türk xalqları ədəbiyyatı". Bakı, 2014.

Türk dilində:

5.Başgöz İ. "Yunus Emre", Pan yayıncılık, İstanbul 2004.
6.Bayrakdar M. "Yunus Emre ve Aşk Felsefesi", Bilgi yayınevi, Ankara 2000.
7.Çubukcu İ. A. "İslam düşünürleri", Ankara Üniversitesi İlahiyyat Fakültesi yayınları, Ankara 1994.
8. Demirci M. "Tasavvuf ve Tarikatler", Damla yayınları, İstanbul 2006.
9.Gölpınarlı A. "Yunus Emre", Varlık yayınevi, İstanbul 1975.
10.Karakoç S. "Yunus Emre", Diriliş yayınları, İstanbul 1999.
11.Karataş Y. "Sevgi seli Yunus Emre",Taşkent Belediyesi yayınları, Konya 2001.
12.Maraş İ. "Yunus Emrenin humanist yorumlanması", Başkent Üniversitetsi yayınları, Ankara 1998.
13.Özçelik M. "Bizim Yunus",TC Eskişehir Valiliği yayınevi, Eskişehir 2010.
14.Özçelik M. Yunus Emre. İstanbul, Kültür Yayınları, 2015.
15. http://dergiler.ankara.edu.tr/dergiler/37/771/9806.

YUNUS ƏMRƏ VƏ ONUN HUMANİZM FƏLSƏFƏSİ

Ağabəyova Ülviyyə Rizvan qızı

XÜLASƏ

Sufi şairi Yunus Əmrə zəngin yaradıcılığı ilə türk-islam ədəbiyyatını işıqlandırmış, əsərlərində insan və onun yüksək əxlaqi keyfiyyətləri, insan sevgisi, İlahi eşq, humanizm kimi məsələləri geniş şəkildə ifadə etmişdir. Yunus Əmrə insanın kamilləşməsində dərvişlik yolunu dəyərləndirmiş, həmin yolu insanları irfan edə biləcək vasitə hesab etmişdir. Yunus Əmrəyə görə eşq və sevgi insanın qəlbində yer tapıb onun nəfsini, ruhunu təmizləməklə birlikdə, cəmiyyətdə nizamlayıcı, barışdırıcı kimi çıxış edərək ictimai vəzifəni yerinə yetirir. İnsanlar eşq əsasında bir-birlərinə hörmət bəsləyir, eşq əsasında sosial həyatda həmrəylik, dostluq, qardaşlıq kimi ülvi dəyərlər əldə edir.

O, sözün sufilər üçün önəm daşıdığını və onun Allahın təzahürü olduğunu vurğulamışdır. Mütəfəkkir bütün insanları bərabər tutaraq, humanist ideyalar sərgiləmişdir.

ЮНУС ЭМРЕ И ЕГО ГУМАНИСТИЧЕСКАЯ ФИЛОСОФИЯ

Агабекова Ульвия Ризван кызы

АННОТАЦИЯ

Суфийский поэт Юнус Эмре озарил турецко-исламскую литературу своим богатым творчеством, в своих произведениях широко освещал такие вопросы, как человек и его высокие нравственные качества, человеческая любовь, божественная любовь и гуманизм.

Юнус Эмре ценил путь дервишизма в совершенствовании человека и полагал, что этот путь является средством просвещения людей. Согласно Юнусу Эмре влюбленность и любовь, находясь в сердце человека, наряду с очищением его от внутренних желаний и духа, выполняет выступающую в качестве регулятора и примирителя в обществе социальную функцию. Люди уважают друг друга на основе любви, и на основе любви они приобретают такие возвышенные ценности в общественной жизни, как солидарность, дружба и братство.

Он подчеркнул, что слово важно для суфиев и что это проявление Бога. Мыслитель одинаково относясь ко всем людям, выражал гуманистические идеи.

YUNUS EMRE AND HIS HUMANISTIC PHILOSOPHY.

Aghabayova Ulviyya Rizvan

SUMMARY

The Sufi poet Yunus Emre illuminated Turkish-Islamic literature with his rich creativity, in his works he widely covered such issues as human and his high moral qualities, human love, divine love and humanism.

Yunus Emre appreciated the path of dervishism in human perfection and believed that this path is a means of enlightening people. According to Yunus Emre, being in love and the love, being in the heart of a person, along with cleansing him of inner desires and spirit, performs a social function as a regulator and conciliator in society.

People respect each other on the basis of love, and on the basis of love they acquire such exalted values in public life as solidarity, friendship and brotherhood.

He emphasized that the word is important to Sufis and that it is a manifestation of God. The thinker, treating all people equally, expressed humanistic ideas.

TARİX FƏLSƏFƏSİ: FORMALAŞMASI VƏ İNKİŞAFI

F.ü.f.d.,Əlizadə Bilal Xudabaxış oğlu
BDU-nun Fəlsəfə kafedrasının dosenti

***Açar sözlər*:** tarix fəlsəfəsi, tarix, tarixi proses, tarixin mənası, tarixin vəhdəti, fəlsəfi tarix.
***Ключевые слова*:** философия истории, история, исторический процесс, смысл истории, единство истории, философская история.
***Key words*:** philosophy of history, history, historical process, meaning of history, unity of history, philosophical history.

Ümumi fəlsəfənin ayrılmaz və özünəməxsus sahəsi olan sosial fəlsəfə cəmiyyətin mövcudluğu və inkişafının nəzəri əsaslarını, ümumi qanunauyğunluqlarını tədqiq edir. Onun predmetinin çox mühüm tərəfini, tarixi proseslərin fəlsəfi təhlili təşkil edir. Söhbət müəyyən ölkənin keçmişində baş vermiş hadisələrə və proseslərə retrospektiv yanaşmadan, onların adekvat nəzəri obrazının yaradılmasından gedir. Buraya həm də müxtəlif cəmiyyətlərin qarşılıqlı təsirinin bəşəriyyətin ümumi inkişafının, yəni tarixi prosesin bütöv bir sistem kimi araşdırılması daxildir. Keçmişə belə hər tərəfli yanaşmanın zəruriliyi onunla şərtlənir ki, cəmiyyət sadəcə mövcud ictimai formaların və strukturların müasir vəziyyətinin qorunub saxlanılması və təkrar istehsalı demək deyildir. O, keçmişi müəyyən zaman və məkanda baş vermiş proseslərin özünəməxsus davamı kimi çıxış edir. Buna görə də tarixi proseslərin nəzəri təhlilindən kənarda sosial fəlsəfə yarımçıq və natamam xarakter daşıyırdı.qeyd olunanlar sübut edir ki, tarix fəlsəfəsi sosial fəlsəfənin ayrılmaz və çox mühüm tərkib hissəsidir. Bəşəriyyət tarixinin yaranması və inkişafının nəzəri mənalandırılması istiqamətində göstərilən cəhdlər çox qədim tarixə malik olsa da "tarix fəslsəfəsi" anlayışı sonrakı dövrün məhsuludur. Bu anlayışı 1765-ci ildə A.Volter irəli sürmüşdür. O vaxtdan keçən üç əsrə yaxın müddət ərzində bu anlayış genişlənərək və təkmilləşərək xüsusi bir müstəqil elm sahəsinə çevrilmişdir.

Tarix elmi cəmiyyətin keçmişini bütöv halda dərk etməyə çalışanda fəlsəfəyə çevrilir. Yəni sadəcə faktların ardıcıl şərhli ilə kifayətlənmir, təfəkkür qanunlarına əsaslanaraq onları bir-biri ilə əlaqələndirir, mahiyyətini və səbəblərini aşkara çıxarır. Ümumi şəkildə götürdükdə tarix fəlsəfəsi elminin predmetinə belə tərif vermək olar: Tarix fəlsəfəsinin predmetini insan cəmiyyətinin keçmişinin daxili məntiqinin və inkişaf qanunauyğunluqlarınınöyrənilməsi, tarixi prosesin vəhdəti və rəngarəngliyinin, sosial determinizm, sosial tərəqqi problemlərinin, tarixin subyektləri və hərəkətverici qüvvələrinin araşdırılması təşkil edir. Ümumilikdə götürdükdə tarix fəlsəfəsinin amalı tarixi prosesləri və tarixi keçmişi nəzəri cəhətdən bərpa etməkdir.

"Bu, tarixi idrak nəzəriyyəsi, tarixi qnoseologiya, yaxud tarixi epistemologiya adlanır... Tarix fəlsəfəsi elə öyrənilməlidir ki, o, Qərbdə deyildiyi kimi "tarixin sonu" deyil, bəşəriyyətin keyfiyyətcə yeni durumlarını açan, kəşf edən prosedur olsun"[1].

Tarix fəlsəfəsi cəmiyyətin keçmiş həyatı və inkişafının ümumi prinsiplərini, ümumdünya tarixi prosesinin inkişafı qanunauyğunluqlarını təhlil edərkən humanitar elmlərin, birinci növbədə tarixin, sosialogiyanın, dövlət və hüquq nəzəriyyəsinin, siyasi iqtisadın və s. elmlərin köməyinə arxalanır. Tarix fəlsəfəsi sosial fəlsəfə ilə daha yaxındır. Yuxarıda qeyd edildiyi kimi, o həmin elmin xüsusi və spesifik aspektidir. Bu iki elmin ümumi metodoloji əsasları, prinsipləri,

[1] Q.Əliyev. Tarix fəlsəfəsi. Bakı 2019. Səh 4.

kateqoriyaları və qanunları vardır ki, onlar fəslsəfi fikrin tarixi gedişində formalaşmış və inkişaf etmişdir. Bundan əlavə tarix fəlsəfəsi elmi tarix, sosilogiya ayrılmaz vəhdətdədir.

Bununla belə, tarix fəlsəfəsi həmin elmləri təkrar etmir, onun özünəməxsus obyekti və predmeti vardır. Bu müstəvidə yanaşdıqda onun əsas vəzifələri fasiləsiz srətdə davam edən və son dərəcə mürəkkəb xarakter daşıyan bəşəriyyətin tarixi inkişafını öyrənməkdir. Sözügedən prosesin tarixi yolu çox uzun olub, ibtidai cəmiyyətdən başlayır və müasir dövrün yüksək inkişaf etmiş sivilizasiyalı cəmiyyətinə qədər nəhəng tarixi zamanı əhatə edir.

Tarixi prosesin miqyasının son dərəcə geniş və mürəkkəb olduğunu qeyd edərək G.U.Hegel yazırdı: "Əgər biz ümumdünya tarixinə nəzər salsaq gözlərimiz qarşısında fasiləsz sürətdə bir-birini əvəz edən xalqların, dövlətlərin, fərdlərin sonsuz dərəcədə müxtəlif dəyişikliklərini və fəaliyyətini əhatə edən nəhəng dəyişikliklər mənzərəsi canlanar"[2].

Tarix və fəlsəfənin bəşəriyyətin keçmişini öyrənmədə rolunu G.U.Hegel dəyərləndirərkən diqqəti tarix ilə fəslsəfə arasındakı əksliyə yönəldir. Fəlsəfə dəyişməz əbədi olanı, tarix isə nə vaxtsa mövcud olmuş, başqa bir vaxtda isə sıradan çıxmış olanlardan danışır. "Tarixçi hər bir dövrdə hadisələrin mümkün gedişat variantları, imkanları içərisindən ancaq birinin gerçəkləşmiş, həyata keçmiş variantın təsvirini verir"[3].

Tarix fəlsəfəsi nəzəri elm olmaqla aşağıdakı əsas sualları cavablandırmağa yönəlir:

Bəşəriyyətin tarixi nə deməkdir və necə yaranır? İnsan cəmiyyətinin inkişafı kortəbii və qarma-qarışıq prosesdir, yoxsa o müəyyən qanunlar üzrə baş verir? Hər bir ölkə (xalq) digərlərindən təcrid olunmuş halda, tam ayrılıqda inkişaf edir, yoxsa onların hamısını əhatə edən ümumi cəhətlər və meyllər vardırmı?

Volter belə hesab edirdi ki, tarixçi sadəcə hadisələri təsvir etməli və xronoloji ardıcıllıqla düzməli deyil. Onun əsas vazifəsi tarixi prosesə fəlsəfi baxışı nümayiş etdirmək, bu prosesi refleksiya etmək, nəzəri mənalandırmaqdır.

Tarix fəlsəfi elminin formalaşmasında mühüm rol oynamış digər bir mütəfəkkir İ.Q.Herder "Bəşəriyyətin tarix fəlsəfəsinə dair ideyaları" adlı iri həcmli əsərində dünya tarixinin geniş mənzərəsini vermişdir. Onu bəşəriyyətin yarandığı gündən bu günə qədər olan tarixini təsvir edən elm yaradılması maraqlandırırdı. Herderə görə, belə elm qismində tarix fəlsəfəsi çıxış edir. Onun bu fikri tarix fəlsəfəsinin müstəqil bir fənn kimi formalaşmasında əhəmiyyətli yer tutmuşdur.

"Tarix fəlsəfəsi tarixi prosesin obyektiv gedişi, onun qanunauyğunluqları və tarixi prosesin mənəvi-əxlaqi mənasından, tarixi prosesin ümumbəşəri vəhdəti, istiqaməti və məqsədlərindən, tarixdə bəşəri mahiyyət qüvvələrinin reallaşdırılması yollarından bəhs edən elmdir"[4].

Kalssik alman fəlsəfəsinin görkəmli nümayəndəsi G.U.Hegel tarix fəlsəfəsi ilə daha geniş məşğul olmuşdur. O, "ümumdünya fəlsəfi tarixi" terminini irəli sürdü və bu anlayış adı altında o, tarix fəlsəfəsini başa düşürdü. Həmin anlayışı aydın izah etmək üçün Hegel tarixşünaslığın aşağıdakı üç növünü göstərmişdir:

1. İlkin tarix. O, buraya Herodotu və Fukidini aid edirdi ki, onlar şahidi olduqları tarixi hadisələri təsvir edirdilər. Burada Hegelə görə tarixçi refleksiyadan istifadə etmirdi.

2. Reflektri tarix. Artıq burada materialların təsviri həmin hadisələrdə tarixçinin iştirakı ilə bağlı deyil. Bunun özünü Hegel üç yerə ayırırdı: a) Ümumi tarix – hər hansı bir dövlətin və ya

[2] Гегель. Философия истории. СП, 1993, Т. 8, с. 969

[3] S.Xəlilov. Fəlsəfə: tarix və müasirlik. Bakı 2006, s.2829

[4] V.Paşayev, M.Paşayev. "Tarix fəlsəfəsi". Bakı 2019, s. 15

bütün dünyanın tarixini təsvir edərkən tarixçinin başlıca vəzifəsi tarixi materialı özünün ruhu nöqteyi-nəzərindən (yəni materialın ruhundan fərqli) işləməkdir. Bu prosesdə onun metodoloji prinsipləri olmalıdır; b) Praqmatik tarix. Bu, keçmişi hazırki dövrün mövqeyindən təsvir etməyi nəzərdə tutur. Hegel yazırdı ki, hadisələr müxtəlif olsalar da onlar arasında nə isə bir ümumi və daxili tərəf vardır; c) Tənqidi tarix. Bu halda Hegelə görə, tarixin özü deyil, tarixin tarixi şərh olunur, tarixi əsərlərə qiymət verilir, onların həqiqiliyi və mötəbərlik dərəcəsi müəyyən olunur.

3. Fəlsəfi tarix. Bu növ daha mühümdür, çünki tarixi material təsvir edilərkən ümumi fəlsəfi prinsiplər əldə rəhbər tutulur. Hegelə görə, fəlsəfi tarix və ya tarix fəlsəfəsi "tarixə düşünərək yanaşmaq" deməkdir. O özünün əsas nəzəri tezisi olan – dünyada zəkanın ağalıq etdiyi teisindən çıxış edərək göstərirdi ki, ümumdünya tarixi proses zəkalı şəkildə baş verir. Zəka elə bir substansiyadır ki,bütün gerçəklik onun sayəsində öz varlığınıəldə edir, zəka sonsuz dərəcədə qüdrətlidir, onun hüdudsuz dərəcədə məzmunu vardır. Hegelə görə, tarix fəlsəfəsi tarixə olduğu kimi yanaşmalı, yəni faktları və hadisələri öyrənməli, aprior uydurmalara yol verməməlidir. həqiqi biliklər əldə etmək üçün zəka daim düşünməli, öz fəaliyyətini dayandırmamalıdır. Hegelin fikrincə, tarix fəlsəfəsi, tarixdə bütün dünya tarixinə xas olan ümumi prinsipləri axtarır. Belə prinsiplərdən ən əsası zəkadır (zəka dedikdə, bu halda o tarixi prosesin inkişafı qanunauy-ğunluqlarını başa düşürdü). Digər prinsip dünyanın son nəticəsinin – azadlıq məqsədinin axtarılıb tapılmasıdır. O yazırdı ki, ümumdünya tarixi azadlıq şüurunun tərəqqisi prosesidir, bu elə tərəqqidir ki, biz onu öz zərurətində dərk etməliyik. Hegel dialektik metodun görkəmli nümayəndəsi olduğu üçün göstərirdi ki, ümumdünya tarixinin təhlilində inkişaf prinsipi əldə rəhbər tutulmalıdır.

XIX əsrin sonlarında yaşamış X.Rappoport tarix fəlsəfəsinin formalaşmasında böyük rol oynamışdır. O, tarix fəlsəfəsinin iki növ əhəmiyyət (nəzəri və praktiki) kəsb etdiyini göstərirdi. Birinci (nəzəri) baxımdan tarix fəlsəfəsi aşağıdakılara görə vacibdir: a) insanların bütün tarixi prosesi nəzəri mənalandırmağa olan tələbatını ödəyir; b) o bütün tarixin elmliyinin zəruri şərtidir (yəni, tarixi faktların elmi izahını verir, onların öz əhəmiyyəti və mühümlüyü dərəcəsinə görə təsnifatını verir). Tarix fəlsəfəsinin praktiki əhəmiyyəti bundadır ki, o, insanların praktiki həyatına, onların bu və ya digər siyasi qərarlar qəbul etməsinə bilavasitə təsir göstərir.

Постнеклассическая картина мира основывается на том, что «мир бесконечен, в нем в единстве существуют порядок и хаос, дисгармония и гармония, разумность и неразумность, правильность и неправильность, сознательное и бессознательное начала, законы бытия, носящие динамический и статистический характер, парадигмальные нормативы. Эта методология является несиловой, толерантной, консенсусной, основанной на антропном принципе и коэволюционном подходе. Для постнеклассической культуры актуальна проблема виртуальности, неподлинности, симулякров. Опираясь на концепцию Ж. Бодрийяра, можно сказать, что симулякры - это копии, не имеющие оригинала. Сегодня симулякры активно населяют социальный мир, формируя у человека ложное, искаженное, желаемое им восприятие мира и самого себя. Сфера образования не исключение. Наряду с указанными особенностями постнеклассической культуры нельзя забывать о таком значительном и во многом противоречивом явлении современного общества и культуры как глобализация. Можно с уверенностью утверждать, что основные черты и особенности постнеклассической культуры и рациональности складываются именно под влиянием мировых глобализационных процессов. Наряду с позитивными следствиями, такими как развитие коммуникации, интенсификация научно-технического прогресса, развитие культурных связей, глобализация породила и серьезные проблемы, например, проблему разрушения национально-культурной идентичности под влиянием космополитической массовой культуры.

Влияние глобализации на систему образования также имеет как положительные, так и отрицательные стороны. К явлениям, положительно влияющим на развитие образования, можно отнести отрицание замкнутости отдельного общества и провозглашение открытости в социальном, научном, культурном, политическом планах. Одной из негативных черт является то, что глобализация экспансивно корректирует функции и цели образования, меняет профессионально-квалификационную модель, стержнем которой становятся принципы экономоцентризма и утилитаризма.

Система образования включена сегодня в глобальный процесс реформирования. Но не стоит думать, что, войдя в череду изменений, переустройства, мы не должны подвергать активному анализу, проверке, критике существо самих реформ. Ведь именно реформируемые, переходные общества и структуры как нестабильные, развивающиеся системы демонстрируют свою потенциальность, т.е. способность генерировать новые идеи, новые движения, то есть варианты, альтернативы развития системы.

Наряду с описанными выше тенденциями, зреет и получает отчетливое звучание гуманитарная парадигма образования, идея развития самобытного отечественного образования. Эта тенденция противостоит технократическому, формально-бюрократическому подходу к образованию. Гуманитарная ориентация в развитии образования отвечает логике исторической эволюции отечественного образования. История развития азербайджанского образования показывает, что гуманитарно-ориентированные подходы к воспитанию и образованию человека всегда были альтернативой традиционной системе.

Становление и развитие гуманитарной парадигмы образования - есть возвращение к подлинной сути образования, возможность реализации истинных целей и задач образования.

Утрачивается сегодня и способность человека не только воспринимать мир как целостность, но и понимать его. Именно с дефицитом понимания, во многом и связано кризисное состояние современного общества.

Культуротворческий подход к образованию реабилитирует гуманитарное начало в целом. Гуманитарное знание, являясь безусловным противовесом сциентизму, может способствовать процессу возвращения к целостной картине мира, к целостному, всестороннему постижению человека и реальности, к подлинно ценностному мировоззрению, которое «обнаруживало бы» все «этажи», все пласты, все аспекты человеческого существования.

Подлинное гуманитарное образование требует созидания культурно-образовательного пространства, особой атмосферы культуры на уровне взаимоотношений «студент – преподаватель», когда со всей очевидностью понимается, что образованный человек есть не сумма компетенций, а есть сумма человека.

Одновременно с глобализационными процессами возникают проблемы общенационального характера.

Поэтому, важно понимать и качественно оценивать степень проникновения глобализации, в пределах которой образование выступает как созидательный процесс, отвечающий интересам не только отдельного человека, но и государства в целом.

Современные процессы глобализации оказывают значительное влияние на развитие системы высшего образования всего мира.

Соотношение глобализации и интернационализации образования - вопрос соотношения экономического и культурного в развитии современного высшего образования.

Интернационализация длительный процесс, который в современной социокультурной реальности становится более выпуклым и предполагает межкультурное взаимодействие систем образования в противоречивых условиях усиливающегося культурного разнообразия и культурной унификации.

В период перехода к глобальному информационному сообществу именно информатизация выступает в качестве главного фактора глобализации образования.

В то же время следует отметить тот факт, что в нашей стране решение проблемы глобализации образования на основе его информационной модернизации до сих пор еще находится на начальной стадии.

ЛИТЕРАТУРА

1. Иванова З.И. Сущность глобализации в рамках глобализационной парадигмы // Гуманитарные науки, культура и образование: актуальные проблемы современности: Сб. науч. тр. Саратов, 2006. С.57-64.
2. Кара-Мурза, С.Г. Угасание рациональности: имитация / С.Г. Кара-Мурза // Социально-гуманитарные знания. - 2004. - № 6. - С. 3 - 25.
3. Маслова, А.Н. Процессы глобализации с социологической точки зрения: определения и концепции // Актуальные проблемы экономической социологии: Сборник научных трудов студентов, аспирантов и преподавателей / [Под общ. ред. Н.Р. Исправниковой, М.С. Халикова]. - М.: Университетская книга, 2008. - Вып. № 9. С. 25 -27.
4. Тараканова Е.В., Ширяева В.А. Подготовка специалистов в условиях глобализации образования. - Саратов, 2006. С.48-49.
5. Шумилов М.М. Концептуальные основы глобализации//Многоликая Европа: пути развития. М., 2002. С. 123-131.

ГЛОБАЛИЗАЦИЯ ОБРАЗОВАНИЯ

Юсифова Г.Ю.

АННОТАЦИЯ

В настоящей статье предпринимается попытка рассмотрения образования в контексте современных международных процессов. Интернационализация университета связана с существенными изменениями в содержании университетского образования.

TƏHSİLİN QLOBALLAŞMASI

Yusifova G.Y.

XÜLASƏ

Bu məqalədə təhsil problemi çağdaş beynəlxalq proseslər kontekstində nəzərdən keçirməyə çalışmışıq. Universitetin beynəlmiləlləşməsi universitet təhsilinin məzmundakı əhəmiyyətli dəyişikliklərlə əlaqələndirilir.

GLOBALIZATION OF EDUCATION

Yusifova G.Yu.

SUMMARY

This article attempts to consider education in the context of contemporary international processes. The internationalization of the university is associated with significant changes in the content of university education.

SOSİOLOGİYA

TARİX TERRORİZMİ VƏ SAXTAKARLIĞI BAĞIŞLAMIR

dos. Fazil Vahidov, dos. Tahir Ağayev,
Sosiologiya kafedrası, Bakı Dövlət Universiteti

Açar sözlər: münaqişə, terrorçuluq, tarix, tarixi həqiqətlər, tarixi saxtakarlıq, ikili standartlar, dövlətlərarası münasibətlər.
Ключевые слова: конфликт, терроризм, история, исторические факты, фальсификация истории, двойные стандарты, межгосударственные отношения.
Key words: conflict, terrorism, history, historical facts, falsification of history, double standards, interstate relations.

Hər bir xalqın tarixi çox ciddi və önəmli bir problemdir; bu tarix əsaslı elmi təhlillərə istinad etməli, faktları düzgün, obyektiv araşdırmalı, ağ ləkələrdən mümkün qədər uzaq olmalıdır. Bir şərq müdrikliyində deyilir ki, "Tarix gəminin arxasındakı işıqlar kimidir – ancaq iz buraxır. Tanrı mənə qüvvət versin ki, bacardığımı dəyişdirim, fədakarlıq versin ki, dəyişdirə bilmədiklərimi qəbul edim və müdriklik versin ki, birini digərindən fərqləndirə bilim (4, s. 3). Biz tarixin buraxdığı izi həyatın reallığı kimi hərtərəfli araşdırmaqla nəyin dəyişməli olduğunu, nəyi qəbul etməyin məqbulluğunu, bunların fərqli məqamlarını dəqiqləşdirə bilərik, keçiləcək yolu optimallaşdırmağı bacararıq. Lakin görkəmli filosof G. Hegelin qeyd etdiyi kimi, işin mahiyyəti öz məqsədi ilə yox, özünün həyata keçirilməsi ilə ehtiva olunur.

Tarixi faktların, hadisələrin necə təqdim olunması ilə tanışlıq göstərir ki, son iki əsr ərzində bu məsələ kifayət qədər aktuallaşıb. Bu baxımdan bəzi məqamları yığcam şəkildə nəzərdən keçirməyə ehtiyac vardır.

14 fevral 2012-ci ildə Rusiya Federasiyası prezidentinin 183 saylı fərmanı ilə 2012-ci il Rusiyanın tarixi ili elan edilmişdir (3). Fərman istər Rusiya tarixində, istərsə də dünya tarixi prosesində Rusiyanın roluna cəmiyyətin diqqətini gücləndirməyi, bu ölkənin milli maraqlarına zərər vurmaq məqsədi ilə tarixi faktların və hadisələrin saxtalaşdırması cəhdlərinin qarşısını almağı nəzərdə tutur. Araşdırmalar göstərir ki, Rusiya kimi böyük dövlətçilik ənənələrinə malik olan ölkənin tarixində müxtəlif səbəblərlə əlaqədar müxtəlif xarakterli ağ ləkələr mövcuddur. Amma, axı onlar mövcuddur. Onları şərti olaraq üç dövrə bölmək olar.

Birinci dövrə nəzər salmaq üçün XIX əsrin sonlarına qayıdaq. Çar III Aleksandr erməni millətçiliyinə qarşı qətiyyətli ölçülər görülməsi ilə bağlı 1882-ci ildə Daxili İşlər naziri Tolstoya müvafiq göstərişlər verir. 80-ci illərin sonlarında hökumətin sərəncamı ilə, demək olar ki, bütün ermənilər yüksək dövlət vəzifələrindən kənarlaşdırılır. 1885-ci ildə 160 erməni prixod məktəbi bağlanır. 1889-cu ilin mart ayında Ermənistanın tarixi və coğrafiyasının tədrisinin orta məktəb proqramından çıxarılması haqqında fərman verilir. Bu sərt tədbirlər daşnakların Rusiyanın dövlət quruluşunun əsaslarını dağıtmağa yönələn xain niyyətlərinə adekvat cavab idi.

1902-ci ildə rus çarı II Nikolay erməni kilsəsinin mülkiyyətinin müsadirəsi və erməni məktəblərinin bağlanması haqqında fərman vermiş, erməni kilsəsinin fəaliyyətinə qadağalar qoymuş, Rus pravoslav kilsəsi erməni kilsəsini lənətləyən çağırışlar etmişdir. Faktlar göstərir ki, II Nikolay öz babası I Nikolayın siyasətinin tam əksinə olaraq, bu qədər radikal tədbirlər görməyə məcbur olması səbəbsiz deyildir.

Məsələ ondadır ki, birinci rus inqilabı ərəfəsində bütün Qafqaz üzrə bir çox erməni kilsələrində gizli silah saxlanan yerlər, döyüş sursatları, qeyri-leqal mətbəələr aşkar edilmişdir.

Çar mütləqiyyəti anlamışdır ki, Qafqazdakı təbii görünən çaxnaşmalar xaricdən idarə olunur və başlıca tədbirlər erməni təşkilatları, əsasən Daşnaksutyun vasitəsilə həyata keçirilir. Erməni terrorçularının cinayətkarlığı haqqında məlumatları B.Veliçko, imperator Elmlər Akademiyasının müxbir üzvü N.Kaptelev, kilsənin tarixi üzrə doktor A.Annunskiy, məşhur qafqazşünas İ.Kanadeyev və başqaları ürək ağrısı ilə yazmışlar. Amma bu gün həmin müəlliflərə az diqqət yetirilir. Rusiya tarixinin bu səhifələrində ağ ləkələr hələ də qalmaqdadır.

1912-ci ildə Peterburqda 150 müttəhim və 850 şahid cəlb edilməklə Daşnaksutyun partiyasının üzərində möhtəşəm məhkəmə prosesi getmişdir. Təsəvvür etmək çətin deyildir ki, XX əsrin birinci onilliyində Rusiyanın ərazisində erməni millətçilərinin qanlı terroru hansı həddə çatmışdır.

Erməni millətçi hərəkatının əsasını terror təşkil edir. Mütəmadi olaraq dövlət məmurlarına qarşı bir sıra sui-qəsdlər təşkil edilirdi. 1903-cü ilin oktyabrında terror dalğası özünün ən yüksək pik nöqtəsinə çatdı. Erməni terroristləri Rusiyanın Qafqazdakı canişini knyaz Q.S. Qolitsını ağır yaraladılar. Başından xəncər zərbəsi almış knyaz tezliklə öldü. Araşdırmalar göstərir ki, 1897-ci ildə Q.S. Qolitsın Tiflisdə və Bakıda ermənilərin bütün hakimiyyəti ələ keçirdikləri barədə məlumatlar vermişdir. Buna görə də çar ermənilərin şəhər seçkilərində iştirakdan tamamilə kənar edilməsi haqqında fərman vermişdir. Çar məmurlarına Daşnaksutyun partiyasından erməni terrorçularının hücumu II Nikolayı Daşnaksutyunun fəaliyyətini qadağan etməyə məcbur etdi və uzun müddət ərzində partiya qanundan kənar elan edildi.

Rusiya milli tarixində ağ ləkələrin ikinci dövrü M.S. Qorbaçovun Sovet İttifaqı Kommunist Partiyası MK-nın birinci katibi vəzifəsində fəaliyyəti ilə erməni terrorçularının Qafqazda tam şəkildə fəallaşmasına, qol-qanad açmasına kömək etdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2020-ci ilin oktyabrın 28-də Rusiyanın İnterfaks agentliyinin müxbirinə müsahibə verərkən demişdir: ”Son 200 ilin tarixini, Qafqazın tarixini izləsək, ermənilərin ucbatından neçə müharibə baş verməsini, onların başqa ölkələr üçün necə təxribat yaratmasını görərik” (2).

1988-ci ildə Daşnaksutyunun ofisi Afinadan Yerevana köçdü və bu hadisə sovet dövlətinin əsas televiziya proqramlarında təntənəli surətdə nümayiş etdirildi. Beləliklə, Rusiyanın dövlət quruluşuna qarşı sistematik dağıdıcı fəaliyyətinə görə qadağan edilmiş partiya SSRİ-nin dağılması ərəfəsində Rusiya imperiyasının yeritdiyi siyasətin ön cəbhəsinə qayıtdı. Elə bu dövrdə də, M.S. Qorbaçov Dağlıq Qarabağın Ermənistana verilməsinin mümkünlüyü barədə Daşnaksutyun partiyasının liderlərinə vədlər vermişdir. Daşnaksutyun Ermənistanda əsas sistem təşkil edən, şovinist bir partiya olaraq Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlarda daim barışmaz mövqelər göstərirdi. Burada ciddi izah tələb edən ağ ləkə qalmaqdadır. Bu ağ ləkənin arxasında hiyləgərliyin və saxtalaşdırmanın çoxəsirlik tarixi durur. Yeni dünya nizamının formalaşdığı müasir dövrdə onların araşdırılması və aradan qaldırılması mühüm əhəmiyyət kəsb edir.

Sözügedən dövrdə SSRİ -ə rəhbərlik edən şəxslərin Dağlıq Qarabağ münaqişəsinə münasibətdə ciddi yanlışlıqlara və qanun pozuntularına yol verdikləri məlumdur. Məlumdur ki, həmin dövrdə Ermənistan SSRİ Ali Sovetinin Dağlıq Qarabağı Ermənistana birləşdirmək haqqındakı qərarı SSRİ Konstitusiyasına zidd idi və bu problem həmin anda həll oluna bilərdi. Lakin M.S. Qorbaçov nəinki ermənilərin bu qanunazidd hərəkətinin qarşısını almamış, əksinə, onların bu separatçı, işğalçı siyasətinə dəstək vermişdir. Nəticədə bu yanlışlıq, ədalətsizlik, xristian həmrəyliyi sovet dövlətinin özünün başında çatlamış SSRİ-nin süqutunu şərtləndirən mühüm səbəblərdən biri olmuşdur.

Üçüncü ağ ləkələr dövrü isə müstəqillikdən sonrakı mərhələni əhatə edir. Özünü SSRİ-nin varisi elan etmiş Rusiya dövləti, gözləntilərin əksinə olaraq, sözügedən məsələdə Sovet İttifaqının səhvlərindən yetərincə nəticə çıxarmamışdır, bu yanlış siyasəti xeyli dərəcədə davam

etdirməkdədir. Bu münaqişədə Rusiya ATƏT-in Minsk qrupunun üzvü kimi öz öhdəliklərini icra etmək əvəzinə Türkiyə Cümhuriyyətinin prezidenti Rəcəb Tayyib Ərdoğanın dediyi kimi, digər üzv dövlətlərlə birlikdə 28 ildir ki, hər vasitə ilə işğalçı Ermənistan dövlətinə köməklik göstərməkdə davam edir. Cəzasızlıqdan, zəruri təzyiqlərin olmamasından istifadə edən Ermənistanın silahlı birləşmələri 27 sentyabrda ölkəmizin yeni ərazilərini işğal etmək məqsədi ilə bir sira istiqamətlərdən şəhər və kəndlərimizi artilleriya atəşinə tutmuşdur. Bununla da, Azərbaycan üçün vətən müharibəsi xarakteri daşıyan 2-ci Qarabağ müharibəsi başlanmışdır. Ölkəmizdə qismən səfərbərlik elan edilmiş, bir sıra şəhər və rayonlarda müharibə qaydalarına uyğun olaraq komendant saatı müəyyən edilmişdir. Əks - hücum əməliyyatına keçən rəşadətli ordumuz qısa bir müddət ərzində 5 şəhər, 3 qəsəbəni, 300–ə yaxın kəndlərimizi işğaldan azad etmişdir.

Uğurlarımızı gözügötürməyən qüvvələr (elə ATƏT-in Minsk qrupunun üzvləri) hər vasitə ilə ölkəmizə təzyiq göstərərək müharibənin dayandırılması, atəşkəs elan edilməsinin vacibliyinə çağırışlar edirlər. Hərbi əməliyyatların getdiyi bir şəraitdə atəşkəs çağırışları ilk öncə erməni işğalçılarına qüvvələrini səfərbər etmək, yeni silahlar gətirmək istəyinə xidmət edir. Bütün bunlara baxmayaraq, ölkəmiz atəşkəsə razılıq versə də, müvafiq qaydalara əməl etsə də, erməni işğalçıları min bir dil tökərək elan olunmuş humanitar atəşkəsə əməl etməyərək müharibə zonasından xeyli uzaqda yerləşən Gəncə, Bərdə, Mingəçevir və digər şəhərlərə raket artilleriya zərbələri endirirlər. Xüsusi ilə, gecə yarısı qadağan olmuş raketlərlə Gəncədəki yaşayış məntəqələrinə endirilmis zərbələr erməni terrorunun, vəhşiliyinin, insanlığa sığmayan hərəkətlərinin yeni səhifəsidir. Bu müharibə cinayətlərinin nəticəsində yüzlərlə yaşayış evləri dağıdılmışdır. Dinc sakinlər və uşaqlar arasında çox sayda ölənlər və yaralanalar vardır.

Rusiyanın milli tarixinin müstəqillik dövründə ağ ləkələrin aradan qaldırılmasının mühüm istiqamətlərindən biri Dağlıq Qarabağ münaqişəsinə münasibətlə bağlıdır. Sirr deyil ki, Rusiya 80- ci illərin sonunda baş vermiş bir sıra hadisələrə, məsələn, (Sumqayıt, konfliktin mahiyyəti və s.) obyektiv yanaşma sərgiləməmiş, əksər hallarda ermənіləri müdafiə etmişdir. Münaqişə aktiv hərbi qarşıdurmaya çevrildikdən sonra prezident V. Putin Valday diskussiya klubunda çıxış ederkən müharibənin Azərbaycan dövlətinin ərazisində getdiyi üçün Rusiyanın müdaxilə etməyəcəyini bəyan etmişdir. Qafqaz bölgəsində yaranmış geosiyasi şərait, Putinə görə, dövlətin milli maraqlarının xarici siyasətdə prioritet kimi dəyərləndirilməsini aktuallaşdırır. Beləliklə, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll ediməsi Rusiyanın daxilində də təhdid xarakterli separatçı meyillərin aradan qaldırılmasına, suverenlik maraqlarına və sabitliyin qorunmasına tamamilə uyğundur.

Ermənistan isə keçdiyi yolu diqqətlə təhlil etməli, terrorçuluqdan imtina etməli, terrorçu təşkilatlarını buraxmalı, dəyişən reallıqları hərtərəfli nəzərə almalıdır. Bilməlidir ki, terrorizim siyasi cəhətdən motivləşdirilmiş qeyri- hümanist fəaliyyət olub, özündə sosial-psixoloji (qorxutma, hədələmə) və fiziki (zorakı fəaliyyət) komponentləri birləşdirir. Ən müxtəlif formalarda təzahür edir, bir sıra hallarda cinayətkarların, pisxopatların imkanlarından yararlanır. Erməni terrorizmi artıq çoxdan milli hüdudları aşıb, beynəlxalq arenada möhkəmlənmək üçün öz səylərini artırmaqla yeni-yeni fəlakətlər törədir. Terrorist qruplar müxtəlif vasitələrdən istifadə edirlər: müəyyən insan qruplarının oğurlanması, ictimai yerlərdə bomba partladılması, təyyarələrin, digər nəqliyyat vasitələrinin qaçırılmasına cəhtlər göstərilməsi, mülkiyyət, vəsait əldə etmək üçün qarışıqlıq salması, bankların talan edilməsinə, işgəncə verilməsinə cəhtlər və s. bu qəbildəndir. Belə qrupların fəaliyyəti dövlətə qarşı çevrilə bilər, sabitliyin pozulmasına xidmət edə bilər, dövlət tərəfindən təşkil olunaraq dövlət terrorizimi kimi də təzahür edə bilər. Adətən terrorçu qrupların məqsəd və tələbləri çoxşaxəli olub, geniş diapazonu əhatə edir.

Azərbaycan Ermənistanın terrorizminə, vəhşiliyinə və mənəviyyatsızlığına qarşı uğurla müharibə aparır. Müstəqilliyimizi möhkəmləndirmək üçün müxtəlif istiqamətli tədbirlərin reallaşdırılması nə qədər vacib olsa da, qüdrətli bir ölkəyə çevrilmək əsl müstəqilliyi qazanmaq üçün bu hələ azdır. Ulu Öndər qeyd edirdi ki, "Gərək hər bir insan və xüsusən gənc nəsil müstəqilliyin nə qədər müqəddəs olduğunu bütün varlığı ilə dərk etsin, onu qorumağa və möhkəmləndirmək üçün hər cür qurban verməyə hazır olsun. Bunun üçün isə o, ilk növbədə yüksək mənəviyyata malik olmalıdır. Xalqımızın milli - mənəvi dəyərləri onun şəxsiyyətinin mahiyyətini təşkil etməlidir" (1, s. 119).

Yazımızı görkəmli sosioloq R. Darendorfun münaqişələrlə bağlı əsaslı bir mülahizəsi ilə bitirmək istəyirik: "Kim münaqişələrin etiraf olunması və nizamlanması yolu ilə onların öhdəsindən gələ bilirsə, o, tarixin ritmini öz nəzarətinə götürür. Kim bu imkanı əldən buraxırsa, ritmi özünə düşmən kimi qəbul edir" (4, s.280).

ƏDƏBİYYAT

1. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında: Azərbycan Respublikasının Prezidenti Heydər Əliyevin Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına Müraciəti: Bakı: Bakı Unversiteti nəşriyyatı, 2001.
2. "Azərbaycan" qəzeti, 29 oktyabr, 2020-ci il
3. 14 fevral 2012-ci ildə Rusiya prezidentinin 183 saylı fərmanın surəti
4. Капитонов Э.А. Социология XX века. Ростов на Дону: Издательство «Феникс», 2006.
5. https://genprosecutor.gov.az/az/page/azerbaycan/ermeni-terroru

TARİX TERRORİZMİ VƏ SAXTAKARLIĞI BAĞIŞLAMIR

Vahidov F.Q., Ağayev T.B.

XÜLASƏ

Məqalə Ermənistanın terrorizm və saxtakarlıq yolu ilə tarixi həqiqətlərin ziddinə olaraq, azərbaycanlılara qarşı işğalçılıq mövqeyində olması, Rusiyanın Qafqaz siyasətini təhrif etməsi, bölgədə vəziyyəti gərginləşdirməsi məsələlərinə həsr olunmuşdur. Məqalədə belə bir fikir əsaslandırlır ki, münaqişə problemini etiraf etmək və onun həllinə yardım göstərmək həm tarixi baxımından, həm də qərarlaşmış münasibətlər baxımından daha əhəmiyyətlidir.

ИСТОРИЯ НЕ ПРОЩАЕТ ТЕРРОРИЗМА И ФАЛЬСИФИКАЦИИ

Вахидов Ф.К., Агаев Т.Б.

АННОТАЦИЯ

Статья посвящена вопросам агрессии Армении против азербайджанцев посредством терроризма и фальсификации, искажения политики России на Кавказе, обострения ситуации в регионе. В статье утверждается, что признание Нагорно-Карабахского конфликта и помощь в его разрешении важны как исторически, так и с точки зрения сложившихся отношений.

HISTORY DOESN'T FORGIVE TERRORISM AND FALSIFICATIONS

Vakhidov F.K., Agaev T.B.

SUMMARY

The article is devoted to the issues of Armenian aggression against Azerbaijanis through terrorism and falsification, distortion of Russian policy in the Caucasus, aggravation of the situation in the region. The article argues that the recognition of the Nagorno-Karabakh conflict and assistance in its resolution are important both historically and in terms of existing relations.

BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN MÜASİR NƏZƏRİYYƏLƏRİ

Şəbnəm Əsgərova
BDU-nun II kurs magistrantı
sebnemaskerova97@gmail.com

Açar sözlər: beynəlxalq münasibətlər, beynəlxalq münasibətlər nəzəriyyəsi, realizm, neorealizm, liberalizm, neoliberalizm, konstruktivizm
Ключевые слова: международные отношения, теория международных отношений, реализм, неореализм, либерализм, неолиберализм, конструктивизм
Key words: international relations, theory of international relations, realism, neorealism, liberalism, neoliberalism, constructivism.

Beynəlxalq münasibətlər dövlətlərin sərhədlərindən kənarda hər gün baş verən çoxsaylı hadisələrdən, proseslərdən, münaqişələrdən, davranışlardan və s. ibarətdir. Bu yuxarıda sadalananlar ayrı-ayrılıqda beynəlxalq arenada baş verən proseslərin mahiyyətini, səbəblərini və tendensiyalarını başa düsmək üçün kifayət deyil. Beynəlxalq münasibətləri təşkil edən kompozisiyalar, faktlar, hadisələr arasında bağlılığı, ümumi əlaqəni və qanunauyğunluqları beynəlxalq münasibətlər nəzəriyyəsi öyrənir. Beynəlxalq münasibətlərin nəzəriyyə məktəbləri bu elmin ümumi anlayışlarını, kateqoriyalarını təklif edir ki, bunlarsız beynəlxalq aktorların fəaliyyətinin əsasını, səbəb və nəticələrini, bu məkanda baş verən hadisələrin xarakterini və tendensiyalarını müəyyən etmək mümkün deyildir. Hər bir elm kimi, beynəlxalq münasibətlər nəzəriyyəsi də beynəlxalq aləmdə baş verən hadisələrin səbəb-nəticə əlaqələrini, daxili və xarici faktorların bu hadisələrdəki rolunu, daha dayanıqlı, təkrarlanan və təsadüfi halların ümumiləşdirilib nəticə çıxarılması vəzifəsini icra edir. [2, səh.18]

Beynəlxalq münasibətlər nəzəriyyələri beynəlxalq sistemlərin işləmə yolunu, eləcə də xalqların bir-biri ilə necə əlaqədə olduğunu və dünyaya baxışlarını anlamağımıza kömək edir. Liberal, bərabər mərkəzli strategiyalardan birbaşa realist konsepsiyalara qədər dəyişən beynəlxalq münasibətlər nəzəriyyələri diplomatlar və beynəlxalq münasibətlər mütəxəssisləri tərəfindən tez-tez bir hökumətin beynəlxalq siyasi məsələdə istiqamətini diktə etmək üçün istifadə olunur. Əsas beynəlxalq nəzəriyyələri öyrənərək bu sahədəki mütəxəssislər dünya miqyasında siyasət qərarlarını qəbul edən motivləri və hədəfləri daha yaxşı fərqləndirə bilərlər.

Beynəlxalq münasibətlər nəzəriyyəsinin bir elm kimi meydana çıxması XX əsrin ortalarından başlansa da, onun tarixi kökləri çox-çox uzaqlara gedib çıxır. Beynəlxalq münasibətlərlə bağlı ilk yazılı mənbələrdən biri yunan tarixçisi Fukididin (b.e.ə. 471- 401) "Peloponnes müharibəsinin tarixi səkkiz kitabda" adlı əsəridir. Sonralar klassik və ya ənənəvi istiqamət adını almış bu təlim Nikollo Makiavellinin (1469-1527), Tomas Hobssun (1588-1679), Emerik de Vattelin (1714- 1767) və başqa mütəfəkkirlərin baxışlarında öz inkişafını tapmış, alman generalı Karl fon Klauzevssin (1780-1831) əsərlərində isə bitkin forma almışdır [2, səh.18].

Beynəlxalq münasibətlərin bir nəzəriyyə olaraq araşdırılmasına E. H. Carrın 1939-cu ildə nəşr olunan "İyirmi illik böhran" və Hans Morgenthau'nun 1948-ci ildə nəşr olunan "Millətlərarası Siyasət" əsərləri aid edilə bilər. Beynəlxalq münasibətlərin Birinci Dünya Müharibəsindən sonra, Aberistvayt Uels Universitetində Alfred Ekhard Zimmern tərəfindən Woodrow Wilson kafedranın başında olmaqla beynəlxalq münasibətlər kafedrasının qurulması ilə ortaya çıxmışdır. [3, səh.1-6]

Beynəlxalq münasibətlər nəzəriyyəsini təyin etmək çətindir. Çox vaxt bu nəzəriyyələr həm keçmiş dövlət davranışlarını izah etməyə, həm də gələcək dövlət davranışlarını proqnozlaşdırmağa çalışan bir nəzəriyyə olaraq öyrənilir. Ancaq bu tərifə belə bir çox nəzəriyyəçi tərəfindən tənqidi yanaşılır. Ənənəvi beynəlxalq münasibətlər nəzəriyyələri ümumiyyətlə insanlara, dövlətlərə və ya qarşıdurmanın ilkin mənbəyi kimi dövlət sisteminə yönəlmələri ilə təsnif edilə bilər. Beynəlxalq münasibətlər nəzəriyyəsinin istənilən biblioqrafiyası oxucuları arasında mübahisələrə səbəb olur. Niyə müəllif digərini deyil, bu nəzəriyyəni seçdi? Niyə müəllif digərini yox, bu mənbəyi əsas götürdü?

Nəzəriyyələr daim ortaya çıxır və bir-biri ilə rəqabət edir. Nəzəriyyələrlə ayaqlaşdığını düşündüyün anda digər bir nəzəriyyə ortaya çıxır. Ənənəvi olaraq beynəlxalq münasibətlərin iki əsas nəzəriyyəsi mövcuddur: realizm və liberalizm. Bəzi tədqiqtçılar isə konstruktivizmi də beynəlxalq münasibətlərin mərkəzi nəzəriyyələrindən hesab edirlər.

Beynəlxalq münasibətlərlə bağlı müasir ədəbiyyatlarda nəzəriyyələrin çoxsaylı təsnifatı mövcuddur. Bu təsnifatların bəzisində coğrafi meyarlar əsas götürülür və buna görə də, anqlo-sakson konsepsiyasına əsaslanır, bəzisində beynəlxalq münasibətlərə sinfi yanaşmaya üstünlük verilir, məsələn, sovet və çin nöqteyi-nəzərindən izaha, digərlərində isə ("üçüncü dünya"nı təmsil edən ölkələrin müəllifləri) qlobal izah etmə metoduna üstünlük verirlər. Beynəlxalq münasibətlərin çoxlu xüsusi nəzəriyyələri mövcuddur. Onlara missal olaraq beynəlxalq aktorlar nəzəriyyəsi (Baqat Korani), beynəlxalq sistem çərçivəsində qarşılıqlı təsir nəzəriyyəsi (Corc Modelski, Samir Amin, Karl Kayzer), inteqrasiya nəzəriyyələri (Amitai Etsioni, Karl Doyç), dünya strategiyaları, konfliktləri və onların tədqiq olunması nəzəriyyələri (Lüsyen Puarye, Devid Sinqer, Yoxan Haltunq), beynəlxalq təşkilatlar nəzəriyyəsi (İnis Klod, Jan Siotis, Ernst Xaast) daxildir. Beynəlxalq münasibətlərlə bağlı müasir nəzəriyyələrin müxtəlif təsnifatının nümunələrini artırmaq da olar. Ancaq burada bütün nəzəriyyələr üçün xarakterik olan üç əsas cəhəti xüsusi qeyd etmək lazımdır. Birincisi, istənilən təsnifatlar şərti xarakter daşıyır və beynəlxalq münasibətlərin təhlilində müxtəlif nəzəri baxışlar və metodoloji yanaşmaların hamısını özündə əks etdirmək qabiliyyətində deyil. İkincisi, nəzəriyyələrin çoxluğu o demək deyildir ki, müasir nəzəriyyələr əvvəldə göstərilən üç əsas nəzəriyyə ilə "qan qohumluğunu" aradan qaldırıb. Nəhayət, üçüncüsü, hələ də rast gəlinən ziddiyyətli fikirlərə baxmayaraq, əvvəlki barışmaz nəzəriyyələr arasında sintez, qarşılıqlı zənginləşmə, qarşılıqlı "kompromis" əlamətləri hiss olunur. [2, səh.20]

Bir neçə nəzəriyyə ilə yaxından tanış olaq:

Realizm - Realizm və ya siyasi realizm beynəlxalq münasibətlərin hakim nəzəriyyəsidir. Nəzəriyyə, Thucydides, Makiavelli və Hobbs kimi yazıçıların daxil olduğu qədim bir düşüncə ənənəsinə əsaslandığını iddia edir. Erkən realizm müharibələrarası idealist düşüncəyə qarşı bir reaksiya kimi xarakterizə edilə bilər. II Dünya müharibəsinin başlaması realistlər tərəfindən idealist düşüncənin çatışmazlıqlarının sübutu kimi qəbul edilirdi.

Realizm təhlükəsizlik və hakimiyyət faktorlarının vacibliyini əsas götürən bir ideologiyadır. Bu ideyaların əsasını başqalarının onu məhv etməyə cəhd etməsi təşkil edir və onlar bu səbəbdən özlərini müdafiə məqsədi ilə başqalarını öldürməyə hazır olmalıdırlar. Buna görə də bəzi realistlər, dövlətlərin mahiyyət etibarilə təcavüzkar olduqlarına, ərazi genişlənməsinin yalnız əks güclər tərəfindən məhdudlaşdırıldığına inanırlar. Realizmin əsasında təsadüfi olmayan, qanunauyğun xarakter daşıyan xalqların mübarizəsi durur. [1, Səh.71]

Realizm, dövlətlərin mənfəətlərini güdmək üçün mənbələr toplamağa çalışdıqlarını və dövlətlər arasındakı münasibətlərin nisbi güc səviyyələri ilə təyin olunduğunu düşünür. Bu güc səviyyəsi öz növbəsində dövlətin hərbi, iqtisadi və siyasi imkanları ilə müəyyən edilir.

Neorealizm - Kenneth Waltzın Beynəlxalq Siyasət Nəzəriyyəsində irəli sürdüyü realizmin inkişafıdır. Bu nəzəriyyənin görkəmli nümayəndələrinə Robert Qilpin və Stefan Krasneri də misal göstərmək olar. Onlar beynəlxalq iqtisadi aktorların dövlətin fəaliyyətinə davamlı surətdə təsir etməsinə görə sosial-iqtisadi inkişafda dövlətin rolunun böyük əhəmiyyətini vurğulayırdılar. Waltzın neorealizmi, dövlətin davranışını izah edərkən quruluşunun təsirinin nəzərə alınmalı olduğunu iddia edir. Dövlətlərin beynəlxalq aləmdəki bütün xarici siyasət seçimlərini formalaşdırır. Məsələn, dövlətlər arasındakı hər hansı bir fikir ayrılıqları, qaydaları tətbiq etmək və onları daima qorumaq üçün ümumi gücün (mərkəzi orqan) olmamasından qaynaqlanır. Beləliklə, beynəlxalq sistemdə dövlətlərin yaşamalarını təmin etmək üçün güclü silahlar əldə etmələrini zəruri edən davamlı anarxiya mövcud olur. Əlavə olaraq, anarxik bir sistemdə daha böyük gücə sahib olan dövlətlər təsirlərini daha da artırma meylinə sahibdirlər [4.].

Liberalizm - Liberal beynəlxalq münasibətlər nəzəriyyəsinin öncüsü "idealizm" idi. İdealizmə (və ya ütopikliyə) özlərini "realist" adlandıranlar, məsələn E. H. Carr tərəfindən tənqidi baxılırdı. Beynəlxalq münasibətlərdə idealizm (Woodrow Wilson ilə əlaqəli olduğu üçün "Wilsonianizm" də deyilir) bir dövlətin daxili siyasi fəlsəfəsini xarici siyasətinin hədəfi etməsi lazım olduğunu düşünən bir məktəbdir. Məsələn, bir idealist evdə yoxsulluğun sona çatması ilə xaricdəki yoxsulluğun həlli ilə əlaqəli olduğuna inanır.

Liberalizm, dövlətlər arasındakı qarşılıqlı əlaqələrin yalnız siyasi - təhlükəsizlik ("yüksək siyasət") ilə məhdudlaşmadığı, həm də iqtisadi firmalar, təşkilatlar və ya fərdlər vasitəsi ilə iqtisadi - mədəni ("aşağı siyasət") əlaqələr olduğunu qeyd edir. Beləliklə, anarxik bir beynəlxalq sistem əvəzinə mədəni kapital (məsələn, ölkə mədəniyyətinin populyarlığına səbəb olan filmlərin təsiri və dünya miqyasında ixrac üçün bazar yaratması kimi) geniş əməkdaşlıq anlayışı və güc anlayışları mövcuddur.

Liberallar müharibə və ticarəti bir-birinə qarşı qoyurdular. Onların fikrincə dövlətlər müharibələri merkantilist məqsədlərinə çatmaq üçün aparırdılar. Rikardonun nisbi üstünlük nəzəriyyəsinə görə, hər bir iqtisadiyyat millətçilik və avtokratiyadan əl çəksə, onun maddi vəziyyəti yaxşılaşa bilər. Hətta dövlətlərarası ayrılığı azaldaraq sərbəst ticarət həmin subyektləri bir qrupda birləşdirəcəkdir. Ticarətə dövlət tərəfindən qoyulan süni maneələr subyektlər arasındakı münasibətləri gərginləşdirir. Bunun nəticəsində beynəlxalq münaqişə baş verir. Belə süni maneələrdən azad olan sərbəst ticarət isə ticarətin subyektləri hesab olunan xalqlar, millətlər və ya ayrı-ayrı fərdlər arasında əlaqlərin qurulmasına, onların genişlənərək dostluğuna və qarşılıqlı anlaşmanın formalaşmasına şərait yaradır. Başqa sözlə desək, bir-biri ilə ticarət əlaqəsi olan xalqlar qarşılıqlı asılılıq münasibətləri şəraitində fəaliyyət göstərirlər. Bunun nəticəsində xalqlar arasında yarana biləcək münaqişələrin qarşısını almağa köməklik göstərir. Liberallara görə, sərbəst ticarət milli dövlətlərin milli ambisiyalarının qarşısını alaraq kosmopolitizmin yayaılmasına şərait yaradır. [1, s.56]

Neoliberalizm - liberal institusionalizm və ya neoliberal institusionalizm, liberal düşüncənin inkişafıdır. Neoliberalism beynəlxalq təşkilatların, millətlərin beynəlxalq sistemdə uğurla əməkdaşlıq etməsinə icazə verə biləcəyini iddia edir.

Konstruktivizm - Beynəlxalq münasibətlər nəzəriyyəsi olaraq konstruktivizmin mövqeyi Soyuq Müharibənin başa çatması, Berlin divarının və Şərqi Avropadakı Kommunizmin yıxılmasından sonra güclənməyə başladı [6, s.41], çünki bunlar mövcud əsas nəzəriyyələr olan realizm və liberalizm tərəfindən proqnozlaşdırılmamış bir hadisə idilər. Soyuq müharibənin bitməsini nə dövlətlər, nə də beynəlxalq təşkilatlar deyil, adi insanların hərəkətləri təmin etmişdir. Sosial dünyanı bizim yaratdığımızı iddia edən konstruktivizm nəzəriyyəsi bu hadisəyə belə yanaşır: aktorlar əsasən də liderlər və nüfüzlu vətəndaşlar fəaliyyətləri və qarşılıqlı təsirləri

ilə beynəlxalq münasibətlərin mahiyyətini və istiqamətini davamlı olaraq formalaşdırır və bəzən də dəyişdirir.

Konstruktivistlər ayrıca dövlətlərin beynəlxalq münasibətlərdə ən vacib aktyor olmadığını, əksinə beynəlxalq qurumların və digər qeyri-dövlət aktyorlarının lobbiçilik və inandırma hərəkətləri ilə davranışlara təsir göstərməsində dəyərli olduğunu müdafiə edirlər. Bu səbəbdən son onilliklərdə Amnesty International, OXFAM və Greenpeace kimi beynəlxalq təşkilatlar kimi qeyri-dövlət aktorlarının siyasi nüfuz qazanması səbəbindən konstruktivizm populyar və vacib bir nəzəriyyə halına gəldi. Beynəlxalq təşkilatlar insan haqlarının təşviqində və ölkələrin beynəlxalq standartlara uyğunlaşmasında böyük rol oynayır [7].

Emanuel Adler, konstruktivizmin beynəlxalq münasibətlərin rasionalist və şərhçi nəzəriyyələri arasında orta bir yer tutduğunu bildirir. Konstruktivist nəzəriyyə ənənəvi beynəlxalq münasibətlər nəzəriyyəsinin statik fərziyyələrini tənqid edir və beynəlxalq münasibətlərin sosial bir quruluş olduğunu vurğulayır. Konstruktivizm beynəlxalq münasibətlərin rasionalist nəzəriyyələrinin ontoloji əsaslarını tənqid edən bir nəzəriyyədir. Realizm əsasən təhlükəsizlik və maddi güclə, liberalizm isə ilk növbədə iqtisadi qarşılıqlı asılılığa və daxili səviyyəli amillərə baxarkən, konstruktivizm özünü ən çox beynəlxalq sistemin formalaşmasında fikirlərin rolu ilə əlaqələndirir; həqiqətən konstruktivizmlə realizm və ya liberalizm arasında bir-birinin üst-üstə düşməsi mümkündür, lakin ayrı düşüncə məktəbləri olaraq qalırlar.

ƏDƏBİYYAT

1. Ağalar Abbasbəyli, Etibar Nəcəfov, “Beynəlxalq münasibətlər nəzəriyyəsi”. Bakı:Mütərcim, 2007, 208 s.
2. Əli Həsənov, “Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti”. Bakı, 2005, 631 s.
3. Burchill, Scott and Linklater, Andrew "Introduction" Theories of International Relations”. Palgrave, 2005, 12 p.
4. The Globalization of World Politics. Oxford University Press. 2008.
5. Stephen Mclinchey, Rosie Walters, Christian Scheinpflug, “İnternational Realitions Theory”. Bristol-England, 2007, 166 p.
6. Stephen M. Walt, Foreign Policy, No. 110, Special Edition: Frontiers of Knowledge. (Spring, 1998), "The end of the Cold War played an important role in legitimizing constructivist t realism and liberalism failed to anticipate this event and had trouble explaining it.
7. https://online.norwich.edu/academic-programs/resources/key-theories-of-international-relations
8. https://en.wikipedia.org/wiki/International_relations_theory

BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN MÜASİR NƏZƏRİYYƏLƏRİ

XÜLASƏ

Məqalədə beynəlxalq münasibətlərin müasir nəzəriyyələrindən danışılır. Ilk növbədə beynəlxalq münasibətlərin özündə nəyi ehtiva etdiyi izah olunur. Beynəlxalq münasibətlərin tarixi kökləri, onun bir elm kimi formalaşması və inkişafı müzakirə olunur. Beynəlxalq münasibətlər nəzəriyyələrinin mahiyyəti öz əksini bu məqalədə tapmışdır. Burada beynəlxalq

münasibətlər nəzəriyyələrinin və cərəyanların Dünya Müharibələrindən sonrakı dövrə təsadüf etdiyi və bu hadisələrdən sonra daha da aktual bir mövzuya çevrildiyi haqqında məlumat verilir. Nəzəriyyələrin çoxsaylı təsnifatı və onların bəziləri haqqında daha əhatəli məlumat verilmişdır. Realism, liberalism və konstruktivizmin əsas müddəaları izah olunmaqla onların bir-birləri ilə oxşar və fərqli cəhətləri göstərilir.

СОВРЕМЕННЫЕ ТЕОРИИ МЕЖДУНАРОДНЫХ ОТНОШЕНИЙ

АННОТАЦИЯ

В статье рассматриваются современные теории международных отношений. Прежде всего, это объясняет, что такое международные отношения. Обсуждаются исторические корни международных отношений, их становление и развитие как науки. В статье отражена сущность теорий международных отношений. В нем содержится информация о том, что теории и направления международных отношений восходят к периоду после Мировой Войны и стали еще более актуальными после этих событий. Даны многочисленные классификации теорий и некоторые из них более подробно. Объясняя основные положения реализма, либерализма и конструктивизма, выявляются их сходства и различия.

MODERN THEORİES OF İNTERNATİONAL RELATİONS

SUMMARY

The article deals with modern theories of international relations. First of all, it explains what international relations are. The historical roots of international relations, its formation and development as a science are discussed. The essence of the theories of international relations is reflected in this article. It states that theories and currents of international relations date back to the post-World Wars period and have become even more relevant after these events. Numerous classifications of theories and some of them are given in more detail. Explaining the main provisions of realism, liberalism and constructivism shows their similarities and differences.

ПРОБЛЕМА УПРАВЛЕНИЯ МИГРАЦИОННЫМИ ПРОЦЕССАМИ В СОВРЕМЕННОМ МИРЕ

Халилова Фарах
д.ф. п.с.,кафедра социологии БГУ

Açar sözlər: miqrasiya, idarəetmə, qloballaşma, müqavilə.
Ключевые слова: миграция, управление, глобализация, договор.
Key words: migration, management, globalization, compact.

Одной из основных задач любого общества является управление протекающими в нем процессами, что необходимо для поддержания нормального функционирования социума, определения существующих угроз и коррекции и предотвращения нежелательных состояний, могущих привести систему к серьезным дисфункциональным последствиям, включая уничтожение. Одним из процессов, протекающих в современном обществе и требующем особого внимания как руководителей государств, различных организационных структур, ученых, да и вообще людей, небезразличных к происходящему вокруг, являются международные миграции.

Современные глобализационные процессы делают как никогда актуальной проблему управления миграционными процессами в современном мире. Интенсификация взаимодействий между людьми, появление в результате этого различного рода эффектов – как позитивных, так и негативных, приводит к необходимости усиления внимания к вопросам, касающимся регулирования миграций.

Говоря об управлении миграционными процессами, в первую очередь, следует обозначить основные направления осуществления этого процесса. Здесь можно говорить об основных трёх направлениях, которые естественным образом взаимодополняют друг друга:

1) правовое;
2) организационное;
3) социетальное.

Рассмотрим эти направления более конкретно.

Правовое направление предполагает выработку и задействование различных принципов и норм, регулирующих процессы миграции, а также изменение этих принципов и норм в случае необходимости - принятие дополнительных норм, изъятие недействующих, коррекцию уже существующих и т.д.

Среди принципов управления миграционными процессами базовым является принцип соблюдения прав человека. Существуют различные международные документы по правам человека, являющиеся фундаментом системы управления международными миграциями. Среди основных из них можно отметить Всеобщую декларацию прав человека (принята в 1948 г.), Международный пакт о гражданских и политических правах (1966), Конвенцию о защите прав человека и основных свобод (1950), Международный пакт об экономических, социальных и культурных правах (1966), Международную конвенцию о ликвидации всех форм расовой дискриминации (1965), Конвенцию о правах ребенка (1989), Факультативный протокол к Конвенции о правах ребенка, касающийся торговли детьми, детской проституции и детской порнографии (2000), Факультативный протокол к Конвенции о правах ребенка, касающийся участия детей в вооруженных конфликтах (2000), Конвенцию против пыток и других жестоких, бесчеловечных или унижающих

достоинство видов обращения и наказания (1984), Международную конвенцию о защите прав всех трудящихся мигрантов и членов их семей (1990), Конвенцию о ликвидации всех форм дискриминации в отношении женщин (1979), и др. Эти и другие международные документы по правам человека имеют самое непосредственное отношение к проблеме управления миграционными процессами ввиду необходимости и неизбежности решения вопросов, связанных с управлением человеческим фактором, в том числе связанных с перемещением людских ресурсов.

В данных документах приводится перечень основных прав и свобод личности, соблюдение которых выступает в качестве некоего критерия, своего рода лакмусовой бумажки определения статус-кво в социуме касательно нормальности (адекватности) или анормальности его функционирования, что, в свою очередь, позволяет понять почву, питающую феномен международной миграции – выявить факторы, причины и условия, определяющие потенциал и уровень международной миграции. Так, согласно статье 9 Всеобщей декларации прав человека «никто не может быть подвергнут произвольному аресту, задержанию или изгнанию». Согласно статье 6 данного документа « каждый человек, где бы он ни находился, имеет право на признание его правосубъектности». В статье 13 отмечаются два важных момента: 1) «каждый человек имеет право свободно передвигаться и выбирать себе местожительство в пределах каждого государства» и 2) «каждый человек имеет право покидать любую страну, включая свою собственную, и возвращаться в свою страну».

Статья 14 Всеобщей декларации прав человека утверждает, что 1) «каждый человек имеет право искать убежище от преследования в других странах и пользоваться этим убежищем» и 2) «это право не может быть использовано в случае преследования, в действительности основанного на совершении неполитического преступления или деяния, противоречащего целям и принципам ООН» [1]. Этот список можно продолжить, что, естественно, не представляется целесообразным в рамках данной статьи. Все эти и множество других примеров подтверждают необходимость основательной проработки правового фундамента международных миграционных процессов.

Важным событием в рамках проблемы правового обеспечения регулирования международных миграционных процессов стала Межправительственная конференция для принятия Глобального договора о безопасной, упорядоченной и легальной миграции, состоявшаяся 10-11 декабря 2018г. в Марракеше (Марокко). В основу принятого на конференции Глобального договора положены следующие основные принципы – ориентированность на интересы людей, международное сотрудничество, национальный суверенитет (суверенное право государств определять свою национальную миграционную политику и регулировать миграцию в пределах своей юрисдикции в соответствии с нормами международного права.), верховенство права и соблюдение правовых процедур, устойчивое развитие, права человека, учет гендерных аспектов, учет интересов детей, вовлечение всех государственных структур, вовлечение всего общества.

На основе принятой Нью-Йоркской Декларации о беженцах и мигрантах в Глобальном договоре были сформулированы 23 цели, направленные на оптимизацию управления миграционными процессами на национальном, региональном и глобальном уровнях. Среди этих целей можно отметить:

- сбор и использование точных и дезагрегированных данных в качестве основы для выработки эмпирически обоснованной политики;
- сведение к минимуму неблагоприятного воздействия различных сил и структурных факторов, которые заставляют людей покидать страны своего происхождения;

- повышение эффективности транснациональных мер противодействия незаконному ввозу мигрантов;
- предупреждение, пресечение и искоренение торговли людьми в контексте международной миграции;
- применение практики помещения мигрантов в центры временного содержания исключительно в качестве крайней меры и поиск альтернатив;
- повышение эффективности консульской защиты, помощи и взаимодействия на протяжении всего миграционного цикла;
- охват мигрантов базовыми услугами;
- создание для мигрантов и обществ благоприятных условий, обеспечивающих полную социальную интеграцию и сплоченность;
- искоренение всех форм дискриминации и поощрение основанных на фактических данных общественных обсуждений в целях формирования общественного мнения о миграции;
- инвестирование в развитие навыков и содействие взаимному признанию навыков, квалификации и компетенции и т.д [3].

Организационное направление в управлении международными миграциями предполагает создание и задействование организационных структур, регулирующих процессы миграции в социуме на самых различных уровнях – макроуровне, региональном, международном уровнях. Если говорить о международном уровне, то следует отметить, что сегодня в мире функционируют различные структуры по управлению миграционными процессами в мире. Одной из них и ведущей является Международная организация по миграции (МОМ), учрежденная в 1951г. в связи с проблемой массовой миграции в Западной Европе после второй мировой войны. Сейчас сфера деятельности данной межправительственной структуры намного шире, чем это было в начале её создания. Международная организация по миграции оказывает содействие в связи с целым комплексом проблем, связанным как с последствиями политических, в том числе военных конфликтов, так и с миграциями в целях поиска более приемлемых условий труда, исследует причины, факторы, последствия миграций, оказывает консультационные услуги правительствам различных стран и т.д.

Также можно отметить Глобальный форум по миграции и развитию – неофициальный консультативный процесс, организуемый государствами-членами ООН и наблюдателями, первое совещание которого состоялось в 2007 г. в Брюсселе. Деятельность данного форума предполагает встречи правительственных экспертов, обеспечивает диалог и сотрудничество на национальном, региональном и мировом уровнях в направлении разрешения вопросов, связанных с международной миграцией и проблемами мирового развития [2].

В целях реализации вышеупомянутого Глобального договора о безопасной, упорядоченной и легальной миграции и обеспечения эффективной, своевременной и координированной помощи государствам-членам ООН по вопросам миграции, в декабре 2018 г. была создана Сеть Организации Объединенных Наций по вопросам миграции [4]. Отметим, что Азербайджан оказался в числе первых стран, присоединившихся к этой инициативе Генерального секретаря ООН, и сейчас ведутся соответствующие работы по созданию Миграционной сети ООН в нашей стране [5].

Среди ключевых принципов данной структуры особо следует выделить:

1) оказание содействия по усилению механизмов координации миграции на национальном и региональном уровнях и реализации Глобального договора на

национальном уровне через более эффективную интеграцию миграционных вопросов в рамках реализации сотрудничества ООН в области устойчивого развития и 2) оказание содействия развитию национальных планов реализации Глобального договора [4].

Одно из основных направлений в управлении международными миграциями – это оптимизация функционирования самого общества, различных его сфер. Наиболее важными здесь являются следующие вопросы:

- просвещение населения как непосредственно по вопросам, связанным с миграционными процессами, так и по вопросам, связанным с разными сферами общественной жизни – проблеме прав человека, повышения квалификации и т.д.;

- формирование и обеспечение здоровой политической ситуации в социуме-политической устойчивости, возможности выражения позиции по существующим проблемам, активности населения в вопросе сотрудничества с государством, регулирование межнациональных конфликтов и т.д., что позволяет предотвратить проявления миграции, вызванные политической напряженностью в стране – массовые репрессии и соответственно рост числа беженцев, направляющихся в результате безысходности в другие страны;

-создание здоровой экономической ситуации, способствующей удовлетворению человеческих потребностей на должном уровне, своевременное регулирование возникающих в данной сфере проблем и кризисов, обеспечение равного доступа к экономическим благам всего населения страны и т.д. ;

- создание возможности миграции для желающих – обеспечение для этого правовой базы, задействование соответствующих структур в заданном направлении, обеспечение их адекватного функционирования и т.д.

Итак, на основе рассмотренных выше основных направлений управления миграционными процессами в современном мире, можно отметить, что эффективность этого процесса требует системного подхода к проблеме, предполагающего учет состояния функционирования различных сфер общества и его структур и осуществление преобразований, соответствующих сложившейся ситуации.

ЛИТЕРАТУРА:

1. Всеобщая декларация прав человека//https://www.un.org/ru/universal-declaration-human-rights/index.html

2. Глобальный форум по миграции и развитию// https://www.un.org/ru/development/migration/forum.shtml

3. A/CONF.231/3*Межправительственная конференция для принятия глобального договора о безопасной, упорядоченной и легальной миграции Марракеш, Марокко, 10 и 11 декабря 2018 года Пункт 10 предварительной повестки дня** Итоговый документ Конференции//http://undocs.org/ru/A/CONF.231/3

4. United Nations Network on Migration Workplan// https://migrationnetwork.un.org/about/united-nations-network-migration-workplan

5. https://migration.gov.az/press/news_content/14113

АННОТАЦИЯ

В статье анализируется проблема управления международными миграционными процессами в современном мире. Автор рассматривает основные направления управления международной миграцией, существующую ситуацию, достигнутые результаты и перспективы, связанные с этим вопросом.

XÜLASƏ

Məqalədə müasir dünyada miqrasiya proseslərinin idarəetmə problemi təhlil olunur. Müəllif beynəlxalq miqrasiya proseslərinin idarəolnmasının əsas istiqamətlərini təhlil edir, bununla bağlı mövcud vəziyyəti, əldə olunan nəticələri və perspektivləri araşdırır.

SUMMARY

The problem of management of international migration processes in modern world is analyzed in the article. Main directions of international migration management, existing situation, attained results and perspectives related to this question are considered by author.

RİFAH DÖVLƏTİ: NƏZƏRİYYƏ VƏ MÜASİRLİK

İmanov Fuad
BDU-nun II kurs magistrantı
imanovfuad55@gmail.com

Açar sözlər: rifah dövləti, sosial dövlət, bərabərlik, eqalitirizm, utopiya, ictimai müqavilə, ictimai quruluş layihələri
Ключевые слова: государство всеобщего благосостояния, социальное государство, равенство, экалитиризм, утопия, общественный договор, проекты социального строительства
Key words: welfare state, social state, equality, egalitarianism, utopia, social contract, social construction projects

İnsan hər zaman xoşbəxt, firavan bir həyat arzusunda olub. O, ictimai münasibətlərin sabit bir təməlini axtarır və birgəyaşayış qaydaları barədə razılığa gəlməyə çalışır. Bunun sübutlarını ən qədim mənbələrdə tapa bilərik. Qədim Yunanıstan mütəfəkkirlərinin məşhur əsərlərində ədalətli bir ictimai həyatın ilk təsvirlərinə rast gəlirik. Orta əsrlərdə, Renesans dövründə, optimal sosial quruluş məsələsi müxtəlif sosial layihələrdə öz əksini tapmışdır. Bu dövrdə Tomas Morun ideal bir cəmiyyət modeli ilə başladığı utopik düşüncə istiqaməti formalaşmağa başlayır. Onun fikrincə "Utopiya" bir tərəfdən sosial reallığın mənfi tərəflərinin tənqidi, digər tərəfdən xəyalların bir forması kimi insan ruhunun ən dərin ehtiyaclarının ifadəsi idi. Bu da, insanın reallığın qeyri-kamilliyindən, natamamlığından yaranan başqa bir - "mükəmməl" gerçəkliyə can atmasına əsaslanır. İctimai müqavilə nəzəriyyəsinin inkişafı (XVII-XVIII əsrlər) ideal bir ictimai quruluş modelinin axtarışı tarixində yeni bir mərhələyə və bərabərlik, sosialist yönümlü layihələrə müəyyən bir alternativə çevrilir. Keçmişin utopiyalarında nizam, nəzarət və itaət təməlləri üzərində qurulmuş sosial rifah modelləri təklif olunurdusa, sosial müqavilənin nəzəriyyəçiləri azadlığı və insan haqlarını birinci yerə qoyurdular. Bu sahədəki ən vacib nəzəri sənədlərdən biri Fransız filosofu Jan-Jak-Russonunnun "Sosial Müqavilə haqqında" (1762) əsəridir. Russo-nun bu əsəri, cəmiyyətin azadlıq və bərabərlik əsasında təşkilatlanmasına olan inam üzərində qurulmuşdu. Russo-ya görə nə bir fərd, nə də bütöv bir xalq özlərini ya da övladları könüllü olaraq köləliyə verə bilməz: O, bildirirdi ki, "Bir insanın özünü köləliyə verdiyini iddia etmək mənasız və anlaşılmaz bir şey irəli sürmək deməkdir: belə əməl qanunsuz və etibarsızdır, çünki onu edənin ağlı başında deyil. Bütöv əhali haqqında eyni şeyi söyləmək, əhalinin ağılsız insanlardan ibarət olduğuna inanmaq deməkdir. Ola bilsin ki, hər kəs özünü özgələşdirə bilsin, lakin eyni şeyi öz övladları üçün edə bilməzlər, çünki onlar insandır və azaddırlar" [3, səh. 204].

Beləliklə, sosial bərabərliyə aşağıdakılar daxildir: qanun qarşısında bərabərlik, fürsət bərabərliyi və məcburi bərabərlik. Burada xüsusi olaraq eqolitarizm (fr. Égalitarisme, égalité - bərabərlik) konsepsiyasını qeyd etmək olar. Bu konsepsiya idarəetmə üçün bərabər imkanlara malik olan və bütün üzvləri üçün maddi resurslara bərabər əlçatanlığa imkan verən bir cəmiyyətin yaradılmasını nəzərdə tutur. Sosial quruluşun maraqlı bir variantı da İngilis filosofu Bernard Mandevilin (1670-1733) yanaşmasıdır. Onun "*The Fable of the Bees*" əsəri sosial müqavilə nəzəriyyəsinin bir növ təkzibidir. Mandeville, insanın mənfi cəhətləri və fəzilətləri məsələsinə toxunur. İnsanın dövlətin xeyrinə hərəkət etməsini əngəlləyən hər şeyi qüsur və əksinə onu ictimai rifahın artırılmasın sövq edən şeyləri isə fəzilət adlandırırdı. Heç bir hərəkət və ya keyfiyyət özlüyündə pis və ya yaxşı deyil. Xeyri pisdən ayırma üçün meyar insanların özləri tərəfindən yaradılır, ona görə də o, heç vaxt obyektiv ola bilməz. Əksər sosial müqavilə

nəzəriyyəçiləri kimi, Mandeville də dövlət yaranmazdan əvvəl insanların yaşadıqları təbii vəziyyət haqqında yazır: "Təbii vəziyyətdə olan bütün canlılar yalnız özlərinə zövq verməklə maraqlanırlar və aldıqları zövqün başqalarına yaxşı və ya pis gətirdiyinə fikir vermədən bilavasitə öz meyillərinin arxasınca gedirlər. Bu səbəbdən də ən zəkalı və nəticədə daha az istək sahibi olan canlılar daha çox dinc, yanaşı yaşamağa uyğunlaşa bilirlər" [2, səh. 23].

İnsan bütün ömrü boyu öz istəklərin öhdəsindən gəlir. Hədəflərinə çatan kimi, yenisini təyin edir, bəzi ehtiyaclar başqalarını əvəz edir, bu səbəbdən bir insanın istəklərini daima məhdudlaşdıraraq bir cəmiyyətdə yaşaması bu qədər çətindir. Yalnız hökumət sistemi tərəfindən qoyulmuş sərt məhdudiyyətlərin olması insan cəmiyyətində sülh və barışı təmin edə bilər. İnsanı şəxsi mənafelərini, insan təbiətinin bir hissəsi olan istəklərini unutmağına, istəklərinə laqeyd yanaşmasına nə vadar edə bilər? Cəmiyyətin yaradılmasını özlərinə məqsəd qoyan qanunvericilər və siyasətçilər bütün insanlara elə bir şey təklif etməli idilər ki, bu - vurulan zərərlərini kompensasiya etsin və insanın istək və ehtiyaclarından imtina etdiyinə görə qarşılaşdığı zorakılığa haqq qazandırsın. Ancaq insanı sosial bir heyvana çevirməyə qərar verənlər, hər kəs üçün həqiqi mükafat verə bilməyəcəklərini başa düşürdülər, buna görə də xəyali bir mükafat tapdılar. Siyasətçilər insan təbiətini diqqətlə araşdırdılar, insan mənfi cəhətləri üzərində qurulmuş və qanunverici orqanların özləri üçün heç bir dəyəri olmayan bir illüziya yaratdılar. Mandevilleə görə, ictimai müqavilə ictimai yalana çevrilir. Beləliklə, sosial düşüncə tarixində sosial quruluşun ictimai əsasları ilə əlaqədar olaraq müəyyən sabit bir alternativ formalaşır: "nizam, nəzarət və paylanma bərabərliyi" və "azadlıq və hüquq bərabərliyi".

Müasir dövrdə ictimai-siyasi islahatlar, o cümlədən utopik sosializm layihələri geniş yayılmışdır. V.P.Volgin "Utopiya-nın Tarixi Əhəmiyyəti" adlı məqaləsində bildirirdi ki, "bu yaradıcılıq ictimai düşüncənin utopik sosializm adlanan yeni istiqamətinin formalaşmasının" başlanğıc nöqtəsidir. Erkən utopik sosialistlər arasında ingilis Gerard Winstanley və John Bellers var idi. Gerard Winstanley (1609–1676) çoxsaylı broşuralarda (1649 ildə "Yeni Ədalət Qanunu"-ndan başlayaraq) özünün sosial doktrinasını ortaya qoydu. Bunların əsas hissələri sosial ədalət qanunu, demokratik aqrar çevrilişin zəruriliyinin əsaslandırılması və Azad Cümhuriyyət layihəsidir. Winstanley "yeni ədalət qanunu"-nu xüsusi mülkiyyət, pul, alqı-satqının müvcud olmadığı sinifsiz cəmiyyət adlandırdı. Bu "qanunun" qurulmasından əvvəl kasıbların çöl ərazilərini pulsuz olaraq becərmək hüququnu təmin edən demokratik bir aqrar inqilab başlamalı idi. Winstanley respublikanın monarxiya üzərində qələbəsini aqrar çevrilişin həyata keçirilməsinin əsas şərti hesab edirdi. 19-cu əsrin birinci yarısında sosialist ideallarının reallaşması üçün hərəkata başçılıq edənlər arasında R.Owen, C.Fourier, K.A.Saint-Simon. Cəmiyyəti dəyişdirmək məsələsində ilk yer elm və texnikanın son nailiyyətlərindən istifadə edərək geniş miqyaslı ictimai istehsalın yaradılmasına verildi. Utopiklər "qabiliyyətinə görə" paylanma prinsipini irəli sürdülər, onlar gələcək cəmiyyəti insan ehtiyaclarının ödənilməsini, istehsal güclərinin hədsiz böyüməsini və fərdin çiçəklənməsini təmin edən bolluq cəmiyyəti kimi təsvir etdilər. Robert Owen (1771–1858) D. Bellersin təlimlərindən təsirlənmişdir. O, 1799-cu ildə qayınatasının Yeni Lanarkdakı keçmiş fabrikinin sahibi və meneceri olur və sənaye əlaqələrində islahlar etmək və sosial bir təcrübə aparmaq niyyəti ilə bu şəhərə gəlir. Owenin təcrübəsi yoxsulların kapitalist işəgötürənlər olmadan birlikdə işləyə biləcəyi kasıblar üçün kooperativ kəndlər yaratmağa yönəlmişdi. Bu məhsuldar kooperativ kəndlərin vəzifəsi insanların yaxınlarına olan ümumbəşəri sevgisinə və insan təbiətinin həqiqi biliklərinə əsaslanan birlik və əməkdaşlıq sistemi sayəsində ümumbəşəri xoşbəxtliyi təşkil etmək idi. Zamanla Owen'in layihəsi, cəmiyyəti yenidən qurmaq üçün əhatəli bir proqrama çevrildi. Bu prosesdə əsas rolu kooperativ əmək icmaları oynamalı idi.

A.İ. Herzen “Keçmişim və Düşüncələrim” əsərinin fəsillərindən birini Ouenə həsr etmişdi. (1852–1855). Rus mütəfəkkir Ouenin fikirləri və onların praktiki həyata keçirilməsi barədə böyük hörmətlə yazır: “Ouenin yüngül əli ilə İngiltərədə kooperativ işçilər dərnəkləri inkişaf etməyə başladı; bunların sayı 200-ə qədər idi. 15 il əvvəl təvazökar və zəif kapitalla - cəmisi iyirmi səkkiz liv kapitalına sahib olan Rochel Cəmiyyəti, indi dövlət pulu ilə hər biri otuz min funt sterlinqə başa gələn iki maşınlı bir fabrik inşa edir. Kooperativ cəmiyyətləri yalnız işçilər tərəfindən nəşr olunan "The Cooperator" jurnalını nəşr etdirirdi” [1].

Fransız utopik mütəfəkkir Claude Henri de Sen-Simon (1760–1825) "Sənaye Sistemi" (1821-1822), "Sənayeçilərin Katexizmi" (1823–)1824), "Yeni Xristianlıq" (1825) əsərləri yeni bir ictimai quruluşun layihəsini özündə cəmləşdirir. Sen-Simon, istehsalın hərtərəfli inkişafının cəmiyyətin təşkilinin elmi prinsiplərindən istifadə yolu ilə işçiləri effektli bir şəkildə fəlakətlərdən qurtara biləcəyinə inanırdı. Bu prinsiplərə universal məcburi məhsuldar əməyin tətbiqi, hər kəsə öz qabiliyyətlərindən istifadə etmək üçün bərabər imkanlar yaratmaq, cəmiyyətin bütün ehtiyaclarını ödəməyə qadir olan istehsalın planlı bir təşkilatının yaradılması daxil idi. Sen-Simon "sənaye sistemi" bütün sahibkarların vahid bir iş planına tabe olmasını təmin edirdi. Sosial həyatın bütün sahələrində insanları qiymətləndirməyin yeganə prinsipi onların qabiliyyətləri və işləri olmalıdır.

XVII-XIX əsrlər İdeal bir sosial düzənin sosial layihələrini - Yeni Lanarkdakı Robert Owen fabriki, Charles Fourier'in falanster sarayları, Sen-Simon qardaşlığını, Bentham'ın Panoktikum'u (1748-1832) ilə tanınırlar. Owen, Fourier və Sen-Simon sosialist yanaşma tərzi ilə tanınırdılarsa, Benthamın layihəsi, bir nəzarətçinin bütün məhbusları eyni anda izləyə biləcəyi ideal bir həbsxana modeli ilə müqayisə edilirdi. Bentham öz əsərində sosial nizam və nəzarətin əsasları üzərində qurulmuş sosial təşkilatın inkişaf hüdudlarını, sosialist utopyanın və eqalitarizmin mənfi perspektivlərini nümayiş etdirirdi. B.Russellə görə Bentham "insanları avtomatik olaraq fəzilətli edəcək bir sosial sistem" yaratmaq istəyirdi. Bu, 18-ci əsrin sonunda nəşr olunan "Panopticon" əsərində eks edilmişdi. Fransız inqilabçıları İnsan Haqları Bəyannaməsini hazırladıqda, Bentham bunu “metafizik əsər” - “ne plus ultra of metaphysics” adlandırdı. Onun fikrincə bu bəyannamənin məqamlarını üç sinifə bölmək olar. 1) anlaşılmaz, 2) yalan, 3) həm anlaşılmaz, həm də yalan. Benthamın idealı azadlıq yox, təhlükəsizlik idi. "Ən yaxşısı müharibələr və fırtınalar haqqında oxumaq, sülh və əmin-amanlıq içində isə yaşamaqdır” [4].

19-cu əsrin sonunda optimal ictimai quruluşa çatma yolları ilə bağlı mübahisələr liberalizm və eqalitarizm formasını almağa başladı. Sosial Darvinizm məktəbinin nümayəndələri, dövlətin sosial problemlərin həllinə müdaxilə etməməsi və insanın öz rifahı üçün məsuliyyətini dərk etməsi mövqeyində dayandılar. Yoxsulluğun sosial Darvinist təfsiri varlıq üçün mübarizə, təbii seleksiya, və sosial islahat və xeyriyyəçiliyin inkar edilməsi prinsiplərinə əsaslanırdı. Bu cərəyanın nümayəndələri (G.Spenser, W.Sumner, F.Qiddinqs və s.) sosial bərabərsizliyin mövcudluğununu təbii olaraq qəbul edirdilər və bunun səbəblərini, fərdin şəxsi çatışmazlıqları ilə "yüklənmiş" ictimai inkişaf qanunlarında görürdülər. Amerikalı sosial darvinist William Sumner (1840-1910) yazırdı: “Başqa alternativimiz olmadığını başa düşməliyik: azadlıq, bərabərsizlik, ən güclülərin həyatda qalması və sərbəstliyin olmaması, bərabərlik, zəiflərin sağ qalması. Birincisi cəmiyyətin inkişafına, sonuncusu böhrana aparır" [6, səh. 19] .

Rifah dövləti konsepsiyası II Dünya Müharibəsindən sonra yalnız sosial-iqtisadi düşüncələrdə deyil, eyni zamanda bir sıra ölkələrin real siyasətində də, geniş yayılmağa başlamışdır. Rifah dövləti genetik olaraq sosial ədalət, bərabərlik ideyalarını özündə birləşdirən burjua-reformist (I. Bentham, E. Chadwick, C. Booth və başqaları) və sosial-demokratik nəzəriyyələrlə, eləcə də xeyriyyə cəmiyyətlərinin təcrübəsi ilə əlaqəlidir. Konsepsiyanın nəzəri əsası aşağıdakı müddəalara əsaslanır:

1 - cəmiyyətin rifahı bütün üzvlərinin rifahından ibarətdir; 2 - dövlət yalnız iqtisadiyyatı deyil, eyni zamanda sosial sahəni də tənzimləmək məcburiyyətindədir (ictimai malların əhalinin yoxsul təbəqələrinin xeyrinə yenidən bölüşdürülməsi də daxil olmaqla); 3- yoxsulluq cəmiyyətin aradan qaldıra biləcəyi və aradan qaldırmalı olduğu sosial bir şərdir [7].

Bütün əhaliyə xidmət edən dövlətin ilk xüsusiyyətləri 1850-ci ildə Lorens fon Şteyn tərəfindən işlənib hazırlanmış "Sosial dövlət konsepsiyasında" birləşmişdir. 1942-ci ildə İngiltərə parlamentində sosial tərəqqinin idarə olunması üçün " Beveridge Model" adlı geniş bir plan müzakirə edildi və müharibədən sonrakı illərdə İngiltərədə, daha sonra Belçika, Hollandiya, Almaniya, İsveç, Fransa və digər ölkələrdə həyata keçirilməyə başladı [8].

1980-ci illərin əvvəllərində bu konsepsiya neokonservatizm nümayəndələri tərəfindən tənqid olunmağa başladı (Marqaret Tetçer və Ronald Reyqan siyasəti). Onlar qeyd edirdilər ki, sənaye istehsalı üçün lazım olan vəsaitin sosial proqramların həyata keçirilməsinə istifadə olunması istehsala yatırım səviyyəsinin azalmasına və iqtisadi tənəzzülə gətirib çıxarır. Bu problemlərin həlli kimi büdcə xərclərində məhdudiyyətlərin tətbiqi, bazar təşviqlərinin gücləndirilməsi, sosial proqramların azaldılması və ya ümumiyyətlə dayandırılması təklif edilmişdir. Lakin rifah dövlətinin dəyərlərindən tam imtina etmək qeyri-mümkündür, bunlar konstitusiya ilə təsbit edilmiş və demokratik dövlətin ayrılmaz bir hissəsidir. Müasir dövrdə bu dəyərlərin yenidən mənalandırılması getdikcə cəmiyyətə inteqrasiya hüququ halına gələn sosial hüququn sırf istehlakçı təfsirindən çıxması ilə əlaqələndirilir. Sosial sahədə dövlət siyasəti ünvanlı xarakter daşıyır və konkret bir insanın xüsusi ehtiyaclarını ödəməyə yönəlir. Fərdiləşdirilmiş maddi yardımın göstərilməsi, əhalinin informasiya əlçatanlığı, təhsil və səhiyyə sahələrində ən yeni texnologiyaların əldə edilməsini maksimum dərəcədə artırmaq kimi vəzifələr iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə iqtisadiyyat sahələrinin ictimai sektorlara ayrılması üçün ən səmərəli sistemlərin modelləşdirilməsi yolu ilə həll olunur.

ƏDƏBİYYAT

1. Герцен А.И. Примечание 39 к разделу «Роберт Оуэн» // Былое и думы. Части 1–3. М.: ГИХЛ, 1958. 976 s.
2. Мандевиль Б. Исследование о происхождении моральной добродетели // Мандевиль Б. Басня о пчелах, или Пороки частных лиц — блага для общества. М.: Наука, 2000. С. 23. 112 s.
3. Руссо Ж.-Ж. Об общественном договоре. М.: Кучково поле, 1998. 416 s.
4. Рассел Б. История западной философии. Новосибирск: Новосибирское университетское издание, 2001. 832 s.
5. Фергюсон Е.Д. Социальное равенство // Психологическая энциклопедия / Под ред. А. Аурбах, Р. Корсини. СПб.: Питер, 2006. 1096 s.
6. Государство всеобщего благосостояния / Т. Ю. Сидорина. — СПб. : Нестор-История, 2018. 144 s.
7. https://bigenc.ru/sociology/text/2373648
8. https://ru.wikipedia.org/wiki/Модель_Бевериджа

RİFAH DÖVLƏTİ: NƏZƏRİYYƏ VƏ MÜASİRLİK

XÜLASƏ

Məqalədə qədim dövlərdə sosial quruluşla bağlı mütəfəkkirlərin fikirlərindən bəhs olunur. İctimai müqavilə nəzəriyyəsinin meydana gəlməsi və inkişafından danışılır. Jan Jak Russonun "Sosial müqavilə haqqında" (1762) əsəri vacib nəzəri sənədlərdən hesab olunur. Əsərdə cəmiyyətin azadlıq və bərabərlik əsasında təşkilatlandırılması fikri irəli sürülüb. Sosial quruluşun digər bir nəzəriyyəsi olan eqalitarizm konsepsiyası izah olunur. Utopik sosializm adlanan yeni bir istiqamətinin formalaşması haqqında məlumat məqalədə öz əksini tapmışdır. II Dünya Müharibəsindən sonra bir sıra ölkələrin siyasətində rifah dövləti konsepsiyası geniş yayılmağa başlamışdır.

ГОСУДАРСТВО БЛАГОДЕНСТВИЯ: ТЕОРИЯ И СОВРЕМЕННОСТЬ.

АННОТАЦИЯ

В статье рассматриваются взгляды мыслителей на социальную структуру древности. Обсуждается возникновение и развитие теории общественного договора. Работа Жан-Жака Руссо «Об общественном договоре» (1762 г.) - один из важнейших теоретических документов. В работе была выдвинута идея организации общества на основе свободы и равенства. Объясняется другая теория социальной структуры - концепция эгалитаризма. В статье отражены сведения о формировании нового направления, получившего название утопический социализм. После Второй мировой войны концепция государства всеобщего благосостояния получила широкое распространение в политике ряда стран.

WELFARE STATE: THEORY AND MODERNITY

SUMMARY

The article discusses the views of thinkers on the social structure of ancient times. The emergence and development of the theory of social contract is discussed. Jean-Jacques Rousseau's On the Social Contract (1762) is one of the most important theoretical documents. The idea of organizing society on the basis of freedom and equality was put forward in the work. Another theory of social structure, the concept of egalitarianism, is explained. Information about the formation of a new trend called utopian socialism is reflected in the article. After World War II, the concept of a welfare state became widespread in the politics of a number of countries.

SOSİAL İŞ

ƏLİLLİYİN MAHİYYƏTİ, YARANMASI SƏBƏBLƏRİ VƏ REABLİTASİYASI

Zeynəddin Hacıyev,
BDU-nun Fəlsəfə kafedrasının professoru,

Açar sözlər: əlillik, Azərbaycanda əlilliklə bağlı vəziyyət, reabilitasiya.
Ключевые слова: инвалидность, инвалидность в Азербайджане, реабилитация.
Keywords: disability, disability situation in Azerbaijan, rehabilitation.

Cəmiyyətin fəaliyyəti və inkişafının bütün mərhələlərində (əlbəttə hər birində müxtəlif determinantlar komleksi ilə şərtlənən özünəməxsusluqla) belə bir umumisosioloji qanun təsir göstərir: ictiami sərvətin müəyyən bir hissəsi qayğıya xüsusi ehtiyacı olan insanlara yönəldilir. Bu istiqamət cəmiyyətdə sosial müdafiə sisteminin mötəbərlik səviyyəsini ifadə etməklə yanaşı həm də, ümumbəşəri humanizm idealının tələblərini reallaşdırmaq deməkdir. Səciyyəvi cəhət burasıdır ki, cəmiyyətin iqtisadi, sosial, siyasi və mənəvi-mədəni potensial artıdıqca, sözügedən sahəyə ayrılan vəsait və diqqət də durmadan çoxalır. Bu münasibətdə müasir Azərbaycan cəmiyyətinin məqsədyönlü, ardıcıl sosial siyasətinin ayrılmaz tərkib hissəsi olan sosial müdafiə sistemi önəmli uğurlar qazanmaqdadır (5,371)

Milli müstəqilliyin əldə olunmasından sonra, ictimai həyatın bütün əsas sahələrində baş verən əsaslı transformasiyalar iqtisadi kapitalın bütün növlərinin insan kapitalına çevrilməsi xəttinin dönməsən həyata keçirilməsi, əhalinin aztəminatlı təbəqələrinin, o cümlədən də sağlamlıq imkanları məhdud insanların (başqa sözlə əlillərin, əmək və məişət şəraitinin dönəmdən yaxşılaşdırılması stratigeyası dövlətimizin prioretet istiqamətləri sırasında öncül yerlərdən birini tutur. Bu qəbildən olan proqramların reallaşdırılması, aşağıdakı əsas məqsədə xidmət edir: həmin insanların tənhalıq və bədbinlik psixologiyasına qapılmasına yol verməmək, onların sosial reabilitasiyasını, həyat fəaliyyətinin bütün sahələrinə aktiv qovuşmasını təmin etməkdir.

Cəmiyyətdə fiziki və əqli imkanları məhdud insanların mövcudluğuna nə isə bir təsadüfi və ya müvəqqəti hadisə kimi yanaşmaq doğru olmazdı. Sözügedən sosial qrup bir çox cəhətdən təbii və sosial amillərdən irəli gələn zərurət kimi çıxış edir. Məsələ burasındadır ki, bu gün iqtisadi, sosial və mədəni sferalarda reallaşdırılan geniş miqyaslı və dərin əhatəli proqramlar və islahatlar, müxtəlif həyat fəaliyyəti sahələrində mütərəqqi işçilər qruplarının (sahibkarların, fermerlərin, orta sinfin tərkibinə daxil olan digər təbəqələrin) sayı və xüsusi çəkisinin artması ilə müşayət olunur. Bununla yanaşı, müxtəlif genetik, texniki, təbii, ekoloji və sosial amillərin təsiri ilə əhalinin sosial tərkibində müəyyən arzuolunmaz qruplar və təbəqələr də vardır. Bu sırada əlillər ğzünəməxsus yer tutur. Sonunculara hərtərəfli sosial qayğı göstərilməsi, müasir cəmiyyətin dayanıqlı və sabit inkişafına hədəflənmiş sosial siyasət strategiyasının vacib tərəfini təşkil edir. Bu istiqamətdə məqsədyönlü və ardıcıl, daim genişlənməkdə olan tədbirlər, sosial ədalət və humanzim kimi umumbəşəri dəyərlərin tələbləri ilə həmahəng səslənir. Əks halda aztəminatlı ailələrin böyük bir qismini əhatə edən bu insanlar, ictimai həyatın bütün toxumalarına dərindən nüfuz edən bazar münasibətinin sərt və amansız qaydalarının təsiri altında iqtisadi və mənəvi tənəzzülə uğraya bilərlər. Nəzərə alınmalıdır ki, əlillər cəmiyyətimizin ən riskli və həssas sosial kateqoriyasına aiddir.

Əlillər müəyyən səbəblər üzündən öz sağlamlığını fiziki və əqli əmək qabiliyyətini tam və ya qismən itirmiş insanlardır. Cəmiyyətdə onlara münasibət müxtəlif tarixi dövrlərdə birmənalı

olmamasıdır. Əvvəla, bunu qeyd edək ki, əlillik cəmiyyət yarandığı gündən, onu müşayiət edən problemlərdəndir. Arxeloji qazıntılar nəticəsində bu qəbildən olan insanların ən qədim dövrlərdən etibarən mövcudluğu sübuta yetirilmişdir. Buradan aydındır ki, əlillik sözün müəyyən mənasında sosial-tarixi zərurətin ifadəsi kümü özünü göstərir. Bununla belə, həmin qəbildən olan insanlara münasibət hər bir dövrün xarakteri, mədəniyyəti və dəyərlər sisteminin özünəməxsusluğu ilə şərtlənən spesifik formada çıxış etmişdir.

İlk dövrlərdə əlillik insanların pis ruhlarının nəticəsi kimi qiymətləndirilirdi. Qədim Yunanıstanda, xüsusilə də Sparta tərbiyə sistemində fiziki və əqli məhdudluq, sərt qaydada lənətlənirdi, belə insanların məhv olması üçün onları şəhər kənarında kimsəsiz xarabalıqlarda yaşamağa məhkum edirdilər. Əlil doğulan uşaqların öldürülməsi halları da mövcud idi. Bundan fərqli olaraq bəzi Roman tayfaların dövlətə qarşı ola biləcək qiyamların qarşısını almaq məqsədi ilə əlilliyi olan insanlara müəyyən yardım göstərilirdi. Dunyavi dinlərin yaranmasından sonra, qərarlaşan kreasionist dünyagörüşü, əlillərə münasibəti də ciddi surətdə dəyişdirdi. Belə insanların doğulması, insanların günahlarına görə Allahın onlardan narazılığının ifadə forması hesab edilirdi. Doğrudur onların öldürülməsinə yol verilmirdi, lakin cəmiyyətdən kənar elan olunur və dini məbədlərə buraxılmırdılar. Dini inanclara görə insanlar valideynlərinin və özlərinin günahları səbəbindən əlil olurlar.

Yeni dövrdə qərarlaşmaqdı olan kapitalist ictimai münasibətləri bütün sahələrdə olduğu kimi, fiziki və əqli cəhətdən qüsurlu insanlara münasibətdə də əhəmiyyətli yeniliklər yaratmışdır. Həmin dövrdə insanların müxtəlif kateqoriyalara bölgüsü yeni meyarlar üzrə aparılamağa başladı. Nəticədə yetimlər, korlar və digər əlillər xüsusi qrupa daxil edilir və onlara xeyriyyəçilik etmək məsləhət görülürdü. Bu işdə qərarlaşmaqda olan yeni cəmiyyətin humanizm və azadlıq, ədalət və bərabərlik çağırışları öz rolunu oynamışdı. XVIII əsrdə Qərbi Avropanı və digər ölkələri əhatə edən qüdrətli maarifçilik ideologiyası və hərəkatı əlillərdən də yan keçməmişdir. Bu qəbildən olan insanlara müəyyən qayğı göstərilir, onlar üçün müxtəlif sığınacaqlar tikilir, qidalanma təşkil edilir, tibbi yardım və digər xidmətlər göstərilirdi.

Qeyd olunan dövrdə həm də əlilliyin mahiyyətini izah etməyə yönələn elmi cəhdlər edildi.Lakin yönümlü araşdırmalar birtərəfli və məhdud idi, çünki əlilliyin başlıca səbəbini yalnız bioloji amillərdə və uyğunsuzluqda görürdü. Buna görə də professional müdaxilə yolu ilə onu aradan qaldırmağa çalışırdılar, bu məqsədlə müəyyən muəssisələr şəbəkəsi yaradılırdı.

Son əsrlərdə (XIX-XX) əlillərə münasibətdə müəyyən qədər ziddiyyətli mövqelər özünü göstərmişdir. Bir tərəfdən, optimist əhval ruhiyyə daha da inkişaf etdi, yəni fiziki və əqli qüsurları olan insanların cəmiyyət tərəfindən qəbul olunmasına, onların dəyişə biləcəyinə ümidlər çoxaldı. Digər tərəfdən, əlillərin sosial cəhətdən arzu edilməyən insanlar elan olunması, onların cəmiyyətdən gizlədilməsi, hətta qınaq və utancaq obyektinə çevrilmədi halları artırdı.

Qeyd etmək lazımdır ki, sivilizasiyanın inkişafı gedişində əlilliyə və əlil insanlara olan münasibət də müsbət istiqamətdə dəyişilir. Bu baxımdan XX əsrin sonlarından başlanan qloballaşma və insan hüquqlarının əhatə dairəsinin genişlənməsi, xüsusi əhəmiyyətə malikdir. Bəşəriyyətdə ümumi humanistləşmə meylinin inkişafı (özünün bütün ziddiyyətliyi və çətinlikləri ilə birlikdə) cəmiyyətdə əlilliyin aşkara çıxarılması, onların hüquq və faktiki statusunun müəyyən edilməsi, diqqət və qayğı ilə əhatə olunması yolunda mühüm irəliləyişləri sərtləndirmişdir. Müasir dünyada baş verən dərin proseslər, bəşəriyyətin intellektual yüksəlişi, postinaustrial cəmiyyətin mədəniyyətində vı dəyərlər sistemindəki yeniliklər, əlillik probleminin nəzəri mənalandırılmasına diqqəti daha da artırdı. Bununla əlaqədar olaraq əlillik statusunun müəyyən edilməsi və qiymətləndirilməsi, ona düçar olan insanların sosial haqqlarının qorunması, bu işdə etnik, mənşə, dini, cinsi fərqlər kimi ayrıseçkilik formalarının yolverilməzliyinin nəzəri cəhətdən əsalandırılması önə çəkildi.

Əlilliyin sosial problem kimi araşdırılması, həm də ona görə önəmlidir ki, bu modeldə əlil bir tərəfdən fərdi və şəxsi hüquqlar_olan kənara çıxarılaraq bütün cəmiyyət miqyasında mənalandırılır ona daim mövcud olan, təkrar yaranan bilən hadisə kimi yanaşılır. Digər tərəfdən onu sərtləndirən sosial, iqtisadi, mədəni və ekoloji amillər kompleksi vəhdətdə götürülür. Qeyd olunan mövqe həm də buna görə diqqət çəkir ki, burada əlillilərin çoxtərəfli sosial reabilitasiyasının bütün əsas istiqamətləri (sağlamlığın təmin olunması, məşğulluq, təhsil və sosial müdafiə) açılır və onları reablaşdırmaq üçün tələb olunan tibbi, hüquqi, siyasi və inzibati tədbirlər müəyyənləşdirilir.

Əlil və əlillik probleminin nəzəri mənalandırılmasında onun statusunun müəyyənləşdirilməsi, birinci yerdə durur. İlk nəzərdə çox asan görünən bu məsələyə diqqətlə yanaşdıqda mübahisəli məqamların və fikir ayrılıqlarının olduğu aşkara çıxır. Çox vaxt adı danışdıqda və elmi ədəbiyyatda bu anlayış xəstəlik və ya qocalıq nəticəsində əmək qabiliyyətini itirmiş insan, yaxud fiziki və ya xəstəlikdən doğan qüsurlar nəticəsində həyat fəaliyyəti məhdudlaşan, sosial yardıma və müdafiyə ehtiyacı olan şəxs kimi səciyyələndirilir (5,62). Bu yönümlü definisiyalar özü özlüyündə müəyyən əhəmiyyət kəsb etsə də, əlillik anlayışının məzmununu tam açmır, onun bir və ya bir neçə tərəfini qabartmaqla məhdudlaşır. Əslində əlillik son dərəcə geniş məzmuna malikdir. Buna görə də ona aşağıdakı tərif verilməsi daha məqsədəuyğundur. Əlillik təbii, genetik və ya sonradan qazanılan amillər nəticəsində şəxsin cəmiyyət həyatında tam iştirakına əngəl yaradan sabit fiziki, psixiki,əqli və hissiyyat qüsurlarının məcmusu deməkdir.

Bu və ya digər fərdin əlillik keyfiyyətinə malik olub-olmasının müəyyənləşdirilməsi də xeyli dərəcədə mürəkkəb məsələdir.

Əlillik ölkənin daxili hududları ilə məhdudlaşmayan, dünya miqyası kəsb edən problem olduğundan, ona beynəlxalq təşkilatlar da mühüm diqqət yönəldirlər. Bunun aydın nümunəsini 13 dekabr 2006-cı ildə BMT tərəfindən Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiyanı göstərmək olar. Bu sənəddə fiziki və əqli imkanlar məhdud insanlarla aparılan işlərin məqsədləri, əsas istiqamətləri və yolları müəyyənləşdirilmiş, onların şəxsiyyətinə və ləyaqətinə hörmətlə yanaşılması prinsipləri irəli sürülmüşdür. Çox keçmədən ölkəmiz də, bu sənədi yüksək qiymətləndirmiş, 2 0ktyabr 2008-ci ildə bu konvensiyaya qoşulmaq barəsində Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Burada konvensiyada əks olunan müddəaların və öhdəliklərin yerinə yetirlməsi ilə bağlı əsas vəzifələr müəyyənləşdirilmişdir (3).

Dünya Səhiyyə Təşkilatı əlilliyin statusu və reabilitasiyası tədbirlərini müəyyən edən ümumi təsnifat sistemi işləyib hazırlamışdır. Bu sənəddə fiziki və əqli imkanların məhdudluğunu səciyyələndirən əsas göstəricilər ifadə olunmuşdur ki, onların sırasına əqli məhdudluq, görmə və eşutmə zəifliyi, nitq qüsuru, funksional pozuntular, davranış və kommunikasiyada, vərdişlərin yerinə yetirilməsində nöqsanlar ilə yanaşı oriyentasiyada, mobillikdə və sosial inteqrasiya prosesində çatızmazlıqlar əsas yer tutur.

Əlillər sosial qrupunun nəzəri təhlili, onun yaranması səbəblərinə diqqət yetirməyi tələb edir. Bu yönümlü səbəblər son dərəcə müxtəlifdir. Burada genetik, irsi, texnogen, antropogen və ekoloji amillər əsas yer tutur. Birinci növ səbəblər daha çox valideynlərin dünyaya xəstə və əlil uşaqlar gətirməsi ilə bağlıdır. Belə ki, müxtəlif xəstəliklər, cinsi münasibətlərdə yol verilən qüsurlar yaxın qohumların ailə qurması, erkən nikahlıq çox vaxt əlil övladların doğulması ilə nəticələnir. Burada valideynlərin əlilliyi, irsən keçən xəstəliklər, uşaqların erkən doğulması halları, abortlar və uşaqsalma nəticəsində qadınların orqanizmində yaranan ciddi pozuntular daha geniş yayılmışdır. Uşaqların peyvənd edilməsindən sonra yaranan ditizm sındromu, doğru aparılmamış müalicələr, istifadə olunan dərmanlardan törənən fəsadlar və sair bu qrupa aid edilir.

Əlilliyin ikinci növü, yəni sonradan qazanılan əlillik həm öz məzmunu baxımından, həmdə yaranma səbəblərinə görə son dərəcə müxtəlif və rəngarəngdir. Burada əmək fəaliyyətinin müxtəlif sahələrində texniki vasitələrdən və texnoloji proseslərdən düzgün istifadə olunmaması, onlarla ehtiyatsız davranma nəticəsində baş verən əlillik əsas yer tutur. Antopogen amillər başlıca olaraq insanların əmək fəaliyyətinin törədə biləcəyi fəsadları irəlicədən görməməsi ilə bağlıdır. Onların sırasında təbiətə atılan tullantılar, torpağın, havanın, suyun çirklənməsi və digər ekoloji problemlər xüsusilə böyük təhlükə törədir, çünki onlar əhalinin kütləvi surətdə sağlamlığını itirməsi və əlillik vəziyyətinə düşməsi ilə nəticələnir.

Əlilliyin meydana gəlməsi səbəbləri sırasında müharibələr xüsusi qeyd edilməlidir. Bəşəriyyətin tarixində baş vermiş çoxsaylı müharibələr, təkcə milyonlarla insanın ölümü ilə nəticələnməmiş, həm də milyonlarla əlillər yaratmışdır. Xüsusi ilə birinci və ikinci Dünya müharibələri gedişində saysız hesabsız əlillər ordusu törədilmişdir, onların bir qismi müalicə mərkəzlərində öz sağlamlıqlarını bərpa etsələr də, əksəriyyəti ömrünün axırına qədər sağlamlıq imkanlarından məhrum vəziyyətdə qalmışdılar. Müasir dövrdə aparılan müharibələr və kütləvi terrorlar təkcə hərbçilərin ölümü ilə deyil, həm də çoxsaylı mülki vətəndaşların əlil olması ilə nəticələnir. Müxtəlif döyüşlər zaman fiziki xəsarət almış, əllərini, ayaqlarını, görmə və eşitmə qabiliyyətini, bədəninin digər orqanlarını itirmiş insanların sayı minlərlədir. Sadalanan amillərə düçar olan insanlar uzunmüddət evdə və xəstəxana şəraitində müalicə alsalar da, çox vaxt öz əmək qabiliyyətini, hərəkət və düzgün səmtləşmə qabilliyətlərini tam və qismən itirirlər.

Əlilliyin yaranması səbəbləri içərisində təbii fəlakətlər də qeyd edilməlidir. Dünyanın müxtəlif yerlərində hər il baş verən dağıdıcı zəlzələlər, sel və su basqınları, torpaq sürüşmələri, şiddətli küləklər və qasırğalar minlərlə adamın həyatına son qoymaqla yanaşı, həm də çoxsaylı əlillər yaradır.

Yuxarıda qeyd olunan səbəblər əlilliyin yaranmasının ümumi şəraitini əks etdirir. Hər bir ölkənin həyat fəaliyyətinin müxtəlif sahələri ilə bağlı konkret problemlər, həmin sıyahını daha ola dəqiqləşdirmək imkanı verir. Bu baxımdan yanaşdıqda 1990-ci ilin (yanvarında rus imperiyasının Bakıda törətdiyi qırğınlar burada çoxlu miqdarda ölənlərlə yanaşı 800 nəfərdən çox insan əlil olmuşdur), həmin dövrdə başlanan və bu günə qədər davam edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı döyüşlərin gedişində yüzlərlə insanın əlil vəziyyətinə düşməsi daha səciyyəvidir. Bütün bunların və digər səbəblərin nəticəsidir ki, hazırda ölkəmizdə 600 mindən artıq əlil vardır.

Əlilliyin yaranması səbəblərinə müvafiq surətdə onlarla aparılan reabilitasiya işləri də müəyyən olunur. Bu proses dağınıq formada deyil, vahid sistem üzrə aparıldıqda daha yüksək effekt verir. Odur ki, cəmiyyətimizin aidiyyəti olan qurumları imkanları məhdud insanlarla işin nəzəri-təşkilatı əsaslarını işləyib hazırlayır, onu yerinə yetirməyi planını, vasitələrin və yollarını müəyyənləşdirir. Bu vahid modelin tərəfləri arasında tam bərabərlik olmasa da, onların bir – birilə əlaqələndirilməsi son dərəcə vacibdir.

Əlillik daha çox tibbi problemlər ilə bağlı olduğundan, səhiyyə təşkilatlarının bu yönümlü fəaliyyətinə üstünlük verilir. Söhbət tibb müəssisələrində, xəstəxanalarda müayinə və müalicənin düzgün təşkilindən, əlillərin realibitasiya mərkəzlərinin sayının artırılmasından və fəaliyyətinin yaxşılaşdırılmasından gedir. Deyilənlərə yanaşı belə bir məqam da vurğulanmalıdır ki, əlillik yalnız sağlamlıq qüsurlarından ibarət deyildir. O, həm də mühüm sosial məna kəsb edir. Buna görə də, bu qəbildən olan insanların müxtəlif xidmət və sosial infrasfruktur qayğıları ilə əhatə olunması, onlara imkanlarına uyğun iş yerlərinin yaradılması, özlərini tənha, ümidsiz və kimsəsiz, sosial həyatdan təcrid olunmuş vəziyyətdə hiss etməmələri üçün şərait yaradılması, cəmiyyətə inteqrasiya olunmasının təmin edilməsi əsas vəzifələr kimi çıxış edir. Qeyd

olunanlarla birlikdə hər bir əlil ilə fərdi tərbiyəvi məsləhətlər təşkil edilməsi, onlara optimist əhval-ruhiyyənin təlqin olunması və psixoloji yardım göstərilməsi də zəruridir.

Milli müstəqillik əldə olunduqdan sonra ölkəmizdə əlil insanlara diqqət və qayğının durmadan artması müşahidə olunur. Buna nümunə kimi, əlilliyin hüquqi qanunvericilik əsaslarının təkmilləşdirilməsini, əhalinin bu təbəqəsinə münasibətdə demokratik prinsiplərin tətbiqini göstərmək olar. Əsaslı transformasiya prosesləri nəticəsində cəmiyyətimizin iqtisadi potensial möhkəmləndikcə, əlillərin ehtiyaclarının ödənilməsi və reabilitasiyası sahəsində qazanılan uğurlar daha da çoxalır.

Ölkəmizdə fiziki və əqli imkanları məhdud insanlara qayğı, dövlət siyasəti səviyyəsinə yüksəldilmişdir. Bunu son illərdə qəbul edilən qanunvericilik aktları və dövlət proqramaları sübut edir. Sözügedən sahədə məqsədyönlü fəaliyyət Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin birinci bəndində təsbit olunmuş müddəalara arxalanır (1). Son dövrlərdə qəbul edilmiş digər qanunvericilik aktları və sənədlərində əlilliyi olan şəxslər barəsində dövlət siyasətinin əsasları, onların hüquqlarının müdafiəsi ilə bağlı vəzifələr, habelə əlilliyə səbəb olan risklərin, əlilliyə görə irqiayrı seçkiliyin bütün formalarının aradan qaldırılması zəruriliyi irəli sürülmüşdür. Burada həm də əlillərin hərtərəfli reabilitasiyası, cəmiyyət həyatında tam həcmdə iştirakı və sosial inteqrasiyasına əlverişli şərait yaradılması, bu qəbildən olan insanların hüquq və azadlıqlarının tam həyata keçirilməsi, şərəf və ləyaqətinin qorunması ilə bağlı məsələlər ətraflı şərh olunmuşdur. Qeyd olunan baxımdan Azərbaycan Respublikası Prezidenti İ.Əliyev tərəfindən 31 may 2018-ci ildə verilmiş Əlilliyi olan şəxslərin hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu" daha önəmlidir.(3)

Ölkəmizdə əlil şəxslər barəsində dövlət siyasəti aşağıdakı əsas prinsiplərə söykənir: a) əlillərin (o cümlədən də 18 yaşa qədər olan məhdud qabiliyyəti uşaqların) fərdi qabiliyyətlərinə və xüsusiyyətlərinə hörmətlə yanaşılması, əlilliyin insan müxtəlifliyinin və bəşəriyyətin bir hissəsi kimi qəbul olunması, b)inklüzivlik prinsipi, yəni növündən, formasından və ağırlıq dərəcəsindən asılı olmayaraq bütün əlillərə layiqli həyat sürmələri üçün iş, təhsil və digər sosial mühitin yaradılması, infrasfruktur növlərinin müəyəssərliyinin təmin olunması, c)inteqrasiya-bütün əlillərin digər insanlarla yanaşı cəmiyyətin həyatında tam və səmərəli iştirakının təmin edilməsi ç)bərabərlik-əlilliyi olan bütün şəxsləri üçün maddi nemətlərdən və xidmətlərdən istifadə olunmasında eyni şərtlərin və imkanların yaradılması; a)əlillik əlamətlərinə görə heç bir ayrı seçkiliyə yol verilməməsi, cəmiyyətin digər üzvləri kimi əlillərin də hüquqlarının müdafiə olunması, əlilliklə bağlı hər cür fərq qoymaya, istisnaya və məhdudiyyətə yol verilməməsi.

Yuxarıda adı çəkilən Qanunda Əlilliyin qarşısının alınması məqsədilə erkən dioaqnostikanın keçirilməsi, müalicə tədbirləri, ətraf mühitin yaxşılaşdırılması, sağlam həyat tərzinin və təhlükəsiz əmək şəraitinin yaradılması, istehsalat zədələrinin, peşə xəstəliklərinin aradan qaldırılması tədbirləri müəyyənləşdirilmişdir. Bunlarla yanaşı əlil şəxslərin reabilitasiyası ilə bağlı məsələlər geniş işıqlandırılmış, əlilliyə son qoyulmasına və ya kompensasiyasına yönəlmiş tibbi, psixoloji, pedaqqoji, idman, sosial-iqtisadi və digər tədbirlərin həyata keçirilməsinin zəruriliyi əsaslanıdırılmışdır. Hazırda Əlilliyi olan şəxslərlə bağlı dövlət təminatlarının geniş spektri mövcuddur. Dövlət bu qəbildən olan insanlara ictimai həyatın bütün sahələrində öz fərdi qabiliyyətlərinə maraqlarına uyğun həyat sürməsi üçün lazımi şərait yaradılmasına təminat verir.

-Qanunda göstərilir ki, əlillik statusu onun səbəbi, dərəcəsi və davam etmə müddəti, müvafiq icra hakimiyyəti orqanı tərəfindən tibbi-sosial ekspertizasının nəticələri əsasında müəyyən olunur. Əlillik meyarlarının işlənib hazırlanması və qiymətləndirilməsi də bu orqanın səlahiyyətindədir. Şəxs yalnız müvafiq icra hakimiyyəti orqanı tərəfindən bu barədə qərarın qəbul edildiyi andan əlil hesab olunur.

Qanunda əlillərin reabilatasiyasının bütün formalarına ciddi diqqət yetrilir. Söhbət birinci növbədə tibbi reabilitasiyadan gedir. Bu, orqanizmin anadan gəlmə, yaxud xəstəlik və ya zədə nəticəsində sonradan pozulmuş funksiyalarının bərpasına və kompensasiyasına yönəldilmiş tibbi tədbirlər sistemini həyata keçirilməsidir. Bu yönümdən olan fəaliyətin əsas hədəfi cəmiyyətdə əlillərə sağlam həyat tərzinin təmin edilməsidir. "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda, göstərilir ki, əlil şəxslərə dövlət tibb müəssisələrində tibbi xidmət ödənişsizdir. Bundan əlavə əlilliyi olan şəxslərin tibbi reabilitasiyası, həm də Fərdi Reabilitasiya Proqramları üzrə baş verir. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən tərtib və təsdiq edilən bu sənəddə əlil şəxslərin o cümlədən 18 yaşınadək uşaqların sağlamlığının qorunması qaydaları əks olunur və onların yerinə yetirilməsi dövlət müəssisələrinə, idarələrə və təşkilatlarına həvalə olunur. İcra hakimiyyəti orqanları əlilləri dərman preparatları, ölkə daxilində sanatoriya-kurort müalicəsi ilə də təmin edirlər.

Peşə-əmək reabilitasiyası-əlillərin peşə seçiminə, əvvəlki və ya yeni peşədə əmək qabiliyyətinin qaytarılması məqsədi güdür. Bu hə də onların zəifləmiş və ya itirilmiş funksiyalarını bərpa edilməsinə, yaxud yeni peşəyə uyğunlaşdırılmasına yönələn tədbirləri nəzərdə tutur. Fiziki və əqli sağlamlığı məhdud insanlara digər şəxslərlə bərabər əmək fəaliyyəti göstərmək, əmək bazarında açıq iştirak etməklə öz yaşayışını təmin etmək hüququ verilmişdir. Onlar ilə əmək müqaviləsi bağlanarkən hər hansı ayrı seçkilik, sonradan bu müqavilələrə öz razılığı olmadan xitam verilməsi qadağan hesab olunur. Əlilliyi olan şəxslərin məşqulluğunu təmin etmək məqsədi ilə müəsisə və təşkilatlarda kvota müəyyən edilir, onlara əməl olunması məcburi xarakter daşıyır. İşə götürənlər həmin istehsalatda bədbəxt hadisələr nəticəsində əmək qabiliyyətini itirmiş və ya peşə xəstəliyinə tutulmuş əlillər üçün, onların razılığı ilə yeni iş yerləri ayırmağa borcludurlar. Sonra, onların peşə hazırlığının yüksəldilməsi daha yeni münasib peşələrə yiyələnmələrini təmin edilməsi zəruriliyi irəli sürülür. Müəyyən ixtisarların labüd olduğu hallarda, belə şəxslərin işdə saxlanılmasına üstünlük verilir. Əlillər üçün normal əmək şəraiti yaradılması, onların əməkhaqqı, iş, istirahət vaxtı və məzuniyyət müddəti müvafiq qanunvericiliklə tənzimlənir. Dövlətimiz əlilliyi olan şəxslərin həyat şəraitinin yaxşılaşdırılmasına, onların ehtiyaclarının ödənilməsinə qayğı ilə yanaşır.

Son illərdə ölkəmizdə həyata keçirilən uzunmüddətli inkişaf proqramlarında fiziki və əqli imkanları məhdud insanların işlə təmin olunmasına xüsusi diqqət yetirilir. Belə ki. 2007-2015-ci illər üzrə Azərbaycan Respublikası Məşğulluq strategiyasında əlilliyi olan şəxslərin əmək bazarına fəal cəlb edilməsinə geniş yer verilmiş, bu vəzifə dövlətimizin fəaliyyətinin prioritet istiqamətləri sırasına ifadə olunmuşdur. Bu işi daha da yaxşılaşdırmaq üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə, Dövlət Məşğulluq Agentliyinə, xüsusilə də onun rayon şöbələrinə, əlilliyi olan şəxslərin peşə hazırlığını və təhsilini yüksəltmək üçün müvafiq kurslar təşkil etmək tapşırılmışdır. Bu kurslar öz istiqaməti baxımından müxtəlif olub dil, komputer savadı, bərbər, dərzi, toxucu və sair peşələri əhatə edir.

Müasir dövrdə elmi-texniki tərəqqi nailiyyətləri, texnoloji yeniliklər insnların əmək fəaliyyətinin bütün sahələrinə dərindən nüfuz edir. Onların əmək prosesində yaratdığı böyük uğurlar ilə yanaşı bəzi neqativ tərəfləri də diqqətdə tutulmalıdır. Təhlükəli iş şəraitləri, texniki və texnoloji qəzalar çox vaxt işçilərin əlilliyi ilə nəticələnir. Təkcə bu faktı qeyd etmək kifayətdir ki, 1986-ci ildə Ukraniyanın Çernobil şəhərində AES-də baş verən partlayış nəticəsində minlərlə insanlar o cümlədən yardım üçün göndərilən onlarla azərbaycan vətəndaşları, radiasiyaya məruz qalaraq şüa xəstəliklərinə düçar olmuşlar. Bu qəbildən olan fəsadlar özünün uzunmüddətliyi ilə (bəzən də irsən keçə bilməsi) seçilir, onlarda sonradan bədxassəli şişlərin, xərçəng xəstəliklərinin baş verməsi ehtimalı yüksəkdir.

Texniki təhlükəsizlik qaydalarına əməl olunmayan sənaye müəssisələrində, kimyəvi maddələrdən düzgün istifadə olunmayan kənd təsərrüfatı sahələrində işçilərin sağlamlığı üçün ciddi fəsadlar baş verir. Sahibkarlar və istehsalat müdirləri, işçiləri əmək müqaviləsi olmadan isə qəbul edirlər ki, bu isə onların tibbi sığortasının olmaması, işdə yarana biləcək qəza vəziyyətlərində qorunmaması ilə nəticələnir. Son dövrlərdə ölkəmizdə tikinti sektoru geniş vüsət almışdır. Bununla əlaqədar sözügedən sahədə (xüsusilə də hündürmərtəbəli binaların tikinti prosesində) ehtiyatsızlıq üzündən yıxılmalar nəticəsində fiziki xəsarət hallarına tez-tez rast gəlinir. Bundan əlavə istehsalatda vaxtı keçmiş köhnə avadanlıq və qurğulardan istifadə edilməsi, texniki təhlükəsizlik qaydalarına ciddi əməl olunmaması, yüzlərlə işçinin ölümünə və əlil vəziyyətinə düşməsinə səbəb olur. Ölkəmizin bu qəbildən olan neqativ halların aradan qaldırılması istiqamətində işlərin miqyası durmadan genişlənir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzdində fəaliyyət göstərən Əmək Mütəffisliyi qurumu vaxtaşırı reydlər keçirir, belə pozuntulara yol verən şəxslər və təşkilatları ciddi cərimələr, digər sərt qaydalarla cəzalandırır. Müvafiq qanunvericilik əsasında iş qəzaları hallarında baş vermiş bədbəxt hadisələr nəticəsində zərər çəkmiş işçilərə müəyyən kompensasiyalar ödənilir, onlar haqqında sığorta tədbirləri görülür.

Əlillərin həm də psixoloji-pedaqoji reabilitasiyası ilə bağlı məsələlər dövlət tərəfindən tənzimlənir. Bu, onların müxtəlif tədris metodlarından istifadə olunmaqla inklüziv və ya inteqrasiyalı təhsil almasına, ünsiyyət, özünəxidmət və davranışına nəzarət qabiliyyətlərinin bərpasına yönəlmiş tədbirlərlə təmin edilir.

Əlilliyi olan şəxslərlə sosial işdə müyəssərlik çox mühüm yer tutur. Söhbət iş, təhsil, səhiyyə və digər sosial mühitin , ictimai nəqliyyat və kommersiya infraksturlarının onların xüsusiyyətlərinə uyğunlaşdırılmasından gedir. Dövlət, onların informasiya və rəqabətdən, o cümlədən informasiya-kommunikasiya texnologiyalarından, əhali üçün təqdim edilən digər xidmətlərdən normal istifadəsini təmin edir. İnfrastruktur obyektləri layihələndirilərkən və tikilərkən, əlil şəxslərin istifadəsinə uyğunlaşdırılmasına ciddi diqqət yetirilir. Binalar, pilləkənlər, dəhlizlər, giriş və çıxışlar, keçidlər, liftlər, onların rahat və təhlükəsiz hərəkəti üçün uyğunlaşdırılır. Mədəniyyət və idman obyektlərinin əlillər üçün müyəssər olmasında da geniş işlər aparılır. Ölkəmizdə əlillərin normal unsiyyət də təmin olunması üçün müxtəlif vasitələr şəbəkəsi mövcuddur. Onların sırasında Brayl əlifbasından, dillərdən, toxunmaqla duyulan vasitələrdən, audio və video aparatlarından, ünsiyyəti gücləndirən usullardan istifadə edilməsi xüsusi ilə mühümdür.

Ölkəmizdə əlillərin sosial bacarıqlarının reabilitasiyası və inkişaf etdirilməsi, sosial vərdişlərin mənimsənilməsi, cəmiyyətin həyatında digər şəxslərlə bərabər müstəqil istirak etmək üçün imkanlar yaradılması məqsədinə xidmət edir. Bunlardan əlavə ictimai maarifləndirmə sistemində əlillərə düzgün münasibətin tərbiyə olunmasına, onlara hörmətlə yanaşma hissinin asılanmasına yönələn geniş miqyaslı proqramlar həyata keçirilir.

Cəmiyyətimizdə əlil uşaqların və gənclərin təhsilə cəlb olunması sahəsində mühüm işlər görülməkdədir. Respublikamızın Milli Məclisi tətəfindən xüsusi qanun-Sağlamlıq imkanları məhdud şəxslərin təhsili haqqında qanun qəbul etmişdir. Bu sənəddə əlil uşaqların orta təhsil almaları üçün şərait yaradılması onların hüquq və imtiyazları təsbit olunmuş, bu yönümdə konkret tədbirlər sistemi müəyyənləşdirilmişdir. Azərbaycan Respublikasında 2018-2024-cü illəri əhatə edən sağlamlıq imkanları məhdud şəxslərin inklüziv təhsilinin inkişafına dair Dövlət Proqramında həmin təbəqədən olan uşaqların və gənclərin təhsilin bütün pillələrində digər şəxslərlə bərabər səviyyədə təmsil olunmasına əlverişli mühit yaradılması vəzifəsi irəli sürülmüşdür. Təhsilin inkluziv forması buna görə mühümdür ki, o fiziki, əqli, psixi və sair cəhətdən məhdud imkanlı uşaqların öz həmyaşıdları ilə eyni məktəbdə təhsil almalarını nəzərdə

tutur. Bu prosesdə həm də, normal və əlil uşaqlar arasında ünsiyyət möhkəmlənir, onlarda bir-birinə münasibətdə səmimilik və hörmət hissi qərarlaşır. Bundan əlavə, əlilliyi olan uşaqların evdə fərdi qaydada təhsil almaları işi də genişlənir. Onlara umumtəhsil və ya yardımçı məktəblərin tədris proqramları üzrə dərslər keçilir. "Xəstə" şagirdlərin evdə fərdi qaydada təhsil almalarının təşkili barədə" təlimatda göstərilir ki, bu proses üçün sinif rəhbəri və təlim-tərbiyə üzrə direktor müavini məsuliyyət daşıyır.

Azərbaycanda fərdi ev təhsili Bakı və Sumqayıtda fəaliyyət göstərir. Bununla yanaşı rayonlarda və kəndlərdəki umumtəhsil məktəblərində əlil uşaqlar müvafiq siniflərin tərkibinə daxil edilir, lakin onların tədrisi, xüsusi təhkim olunmuş müəllimlərə həvalə olunur. Fiziki və əqli imkanları məhdud uşaqların fərdi ev təhsilinin düzgün təşkili, mühüm əhəmiyyətə malikdir. Hər şeydən, əvvəl belə uşaqlar evdə özlərini daha rahat və sərbəst hiss edir. Bu onların psixoloji durumuna müsbət təsir göstərir.Digər tərəfdən, yoldaşları və ya kənar adamalar onların qüsurlarını görmürlər. Nəticədə həm onların özü, həm də valideynləri ümidsizlikdən, sıxıntılardan və narahatlıqdan qismən də olsa yaxa qutara bilir. Bütövlükdə dövlət, xalq təhsili, sosial təminat və səhiyyə orqanları sistemi əlil uşaqların və yeniyetmələrin həm məktəbəqədər təlim-tərbiyəsini təşkil edir, həm də onların orta texniki-peşə və ali təhsil almaları üçün qanunverilikdə nəzərdə tutulmuş tədbirləri ardıcıl surətdə yerinə yetirməklə, onların təhsil sisteminin bütün pillələrində normal təmsil olunmasına şərait yaradırlar.

Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və Konstitusiya quruluşunun müdafiəsində öz sağlamlığını qurban vermiş insanlar daim diqqət mərkəzində saxllanılır. Onlara əlillik qruplarının müvafiq surətdə aylıq müvainət (I qrup əlillərə 110 manat, II qrup əlillərə 85 manat və III qrup əlillərə 60 manat miqdarında) verilir. Bu qəbildən olan insanların mənzil təminatına xüsusi diqqət yetirilir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət Qaçqınlar Komitəsi və yerli İcra Hakimiyyətlərinin birgə komissiyası tərəfindən mənzillərin bölüşdürülməsində növbəlilik prinsipinə ciddi nəzarət olunur. Belə komissiyaların fəaliyyətində insan hüquqları üzrə Müvəkkil (ombudsman) Aparatının, Azərbaycan respublikası Prezidenti yanında Qeyri-Hökümət Təşkilatlarına Dövlət Dəstəyi fondunun, habelə əlil təşkilatlarının nümayəndələri iştirak edirlər.

Manələrin xeyli qismi əlillərin təbii və sosial mühit ilə münasibətlərindəki fiziki sədalər ilə bağlıdır. Belə ki, onların yaşadığı binalarda hələ də liftlərin yaxşı işləməməsi, pilləkənlərin və səkilərin yetərli olmaması halları mövcuddur. əlilliyi olan şəxslərin təhsil və informasiya əldə etmə mənbələrindəki nöqsanları da buraya əlavə etmək olar. Məsələn, hələ də görmə imkanları məhdud şəxslərin müvafiq əlifba, jestlər, işarəvi dillər ilə təminatında müəyyən qüsurlar mövcuddur, bu sahəni dərindən bilən peşəkar mütəxəssislərin, tərcüməçilərin azlığı tez-tez rast gəlinən hallardır. Kütləvi informasiya vasitələrində bəzən əlillərin zəlil və yazıq kimi qələmə verilməsi, onların aşağılanması özünü göstərir. Bu qəbildən olan hərəkətlər əlil insanlara çox pis təsir edir, onlarda silinməz izlər qoyur, özünə inamı azaldır və tənhalıq hissini gücləndirir. Qeyd olunan hallar fiziki və əqli imkanları məhdud şəxslərə dərin psixoloji cəsarət yetirir ki, onun da aradan qaldırılması üçün uzun müddət lazım gəlir.

Yuxarıda sadalan və digər əngəllər, əlillərin həyat tərzində, məşğulluğunda, təhsilində, mənzil şəratində, sağlamlığı və istirahətinin təşkilində, cəmiyyətə adaptasiya olunaraq burada layiqli yer tutmasında xeyli çətinliklər törədir. Bunu nəzərə alaraq ölkəmizdə qərarlaçmış sosial müdafiə sistemi sözügedən nöqsanları aradan qaldırmağa yönəlmişdir. Bundan əlavə əlilliyi olan şəxslərin hüquqları haqqında Qanunun 7-ci maddəsində ictimai maarifləndirmə səviyyəsinin yüksəldilməsi və genişləndirilməsi nəzərdə tutulur. Onların hüquq və ləyaqətinə hörmət olunmasını möhkənləndirmək, potensial imaknlarını və qabiliyyətlərini təbliğ etmək, əhalidə bu qəbildən olan insanlar haqqında müsbət təsəvvürlərin təsviri irəli sürülür.

Yuxarıda aparılmış təhlil bir daha sübut edir ki, ölkəmizdə əlilliyin tam və ya qismən aradan qaldırılması, onların reabilitasiya və sosial həyata tam hüquqlu vətəndaşlar kimi qovuşmasını təmin etmək məqsədinə xidmət edən uzunmüddətli strateji xətt uğurla həyata keçirilməkdədir.

ƏDƏBİYYAT

1.Azərbaycan Respublikasının Konstitusiyası (Bakı "Qanun" 2005)
2. BMT, Əlillərin hüquqları haqqında Konvensiya (13 dekabr 2006)
3. Əlillərin hüquqları haqqında Konvensiyaya qoşulmaq barəsində Azərbaycan Respublikasının qanunu (2oktyabr 2008-ci il)
4. Əlilliyi olan şəxslərin hüquqları haqqında Azərbaycan Respublikasının qanunu (31 may 2018)
5. Həsənzadə S.B. Azərbaycan Respubliksında əlillərin sosial müdafiəsinin hüquqi tənzimi Bakı Elm 2007
6. Rəcəbıli H.M Azərbaycan Respublikasında əhalinin sosial müdafiə sistemi. Azərbaycan Respublikasının sosial siyasətinin transformiyası və komporativ təhlili. Bakı Gənclik 2003

ƏLİLLİYİN MAHİYYƏTİ, YARANMASI SƏBƏBLƏRİ VƏ REABLİTASİYASI

Z.C.Hacıyev

XÜLASƏ

Əlilliyi sosial problem kimi araşdırdıqda, bu qrupdan olan insanların sosial münasibətlər sisteminə tam hüquqlu üzvlər kimi cəlb edilməsi yolunda müəyyən manələrin də mövcudluğu qeyd olunmalıdır. Sonuncular öz daxili məzmunu etibarilə müxtəlif şəkildə özünü göstərir. Hər şeydən əvvəl, cəmiyyətin mənəvi həyatında insanların şüurunda əlillərə lazımi diqqət yetirilməsinə onlara laqeydlik göstərilməsi, hətta qınaq obyektinə çevrilməsi halları özünü göstərdiyi vurğulanmalıdır. Bundan əlavə, insanların ictimai fəaliyyətini tənzim edən sosial normalar sistemində, adət və ənənələrdə, ümumi əhval-ruhiyyədə və kütləvi şüurda bəzi çatışmazlıqlar olduğu qeyd edilməlidir.

ПРИРОДА, ПРИЧИНЫ И РЕАБИЛИТАЦИЯ ИНВАЛИДНОСТИ

З.Дж. Гаджиев

АННОТАЦИЯ

Рассматривая инвалидность как социальную проблему, следует отметить, что существуют определенные препятствия для вовлечения людей этой группы в систему социальных отношений в качестве полноправных членов. Последние проявляются по-разному по своему внутреннему содержанию. Прежде всего, следует отметить, что в духовной жизни общества, в сознании людей бывают случаи безразличия к необходимости внимания к инвалидам и даже к объекту критики. Кроме того, следует отметить недостатки в системе социальных норм, обычаев и традиций, общего настроения и массового сознания, регулирующих социальную активность людей.

NATURE, CAUSES AND REHABILITATION OF DISABILITY

Z.J. Hajiyev

SUMMARY

Considering disability as a social problem, it should be noted that there are certain obstacles to involving people of this group in the system of social relations as full members. The latter manifest themselves in different ways in their internal content. First of all, it should be noted that in the spiritual life of society, in the minds of people, there are cases of indifference to the need for attention to disabled people and even to the object of criticism. In addition, it should be noted shortcomings in the system of social norms, customs and traditions, general mood and mass consciousness that regulate the social activity of people.

MİQRANTLARLA ÇALIŞAN TƏŞKİLATLAR

Vəliyeva Mehriban Zahid qızı
Azərbaycan Universiteti (Bakı)
mehriban.valiyeva86@gmail.com

***Açar sözlər*:** miqrasiya, qaçqın və məcburi köçkün, münaqişə, emiqrasiya, immiqrasiya
Key words: migration, refugees and IDP, conflict, emigration, immigration.
Ключевые слова: миграция, беженцы и вынужденные переселенцы, конфликт, эмиграция, иммиграция.

Dünyada yerli və beynəlxalq səviyyədə çalışan təşkilatların bir çoxu miqrasiya sahəsində fəaliyyətlərlə birbaşa – yəni spesifik, və ya bilavasitə - yəni əlavə fəaliyyət növü, istiqaməti kimi məşğul olurlar. Bir qayda olaraq bu təşkilatların əksər çoxluğu yerli və ya beynəlxalq səviyyədə çalışan humanitar təşkilatlardır. Belə qurumlar adətən miqrasiya sahəsini öz nizamnamə və ya əsasnamələrinə daxil etməklə bu sahədə fəaliyyət göstərmək üçün yerli səviyyədə öz dövlətlərindən, beynəlxalq səviyyədə isə miqrasiya problemləri ilə məşğul olan müvafiq institutlar, BMT və ya digər aidiyyatı federasiyalardan akkreditasiya əldə edərək işlərini təşkil edirlər. Bəzi təşkilatlar isə çalışdıqları mühitdə (cəmiyyətdə) miqrasiya problemlərinin artıb-azalmasından asılı olaraq müəyyən dövrlərdə özlərinin strateji iş planlarına bu sahəni əhatə edən fəaliyyətləri əlavə edirlər. Bu zaman onlar qısa zaman çərçivəsini əhatə edən layihələr işləyib donorlardan qrantlar cəlb edir, təşkilata mütəxəssislər dəvət edərək fəaliyyətlərini genişləndirirlər.

Ümumi olaraq miqrasiya sahəsində çalışan təşkilatların klassifikasiyasını tərtib etməyə çalışsaq, aşağıdakı 6 kateqoriyanı asanlıqla müşahidə etmək olar:

- Hər bir ölkədə çalışan miqrasiya üzrə dövlət qurumu (misal üçün – Azərbaycanda Dövlət Miqrasiya Xidməti);
- Hər bir ölkədə spesifik olaraq miqrasiya sahəsində çalışan vətndaş cəmiyyəti sektoru – müvafiq QHT-lər;
- Beynəlxalq səviyyədə spesifik (professional) olaraq miqrasiya sahəsində çalışan tanınmış aktorlar/təşkilatlar (misal üçün: BMT-nin qaçqınlar üzrə ali komissarlığı – BMTQAK/UNHCR, Beynəlxalq Miqrasiya Təşkilatı – BMqT/IOM);
- Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı (neytral humanitar qurum olaraq bütün növ insan izdirabının azaldılması (o cümlədən miqrasiyadan əziyyət çəkənlər) üzrə çalışan humanitar Hərəkat);
- Hər bir ölkədə çalışan vətəndaş cəmiyyəti sektoru – QHT-lər;
- Digər Beynəlxalq Humanitar təşkilatlar.

Miqrasiya hadisəsinin başvermə səbəbləri də müxtəlif ola bilər. Aşağıda bu halların bir neçəsinə diqqət yetirək:

- İnsanların öz istəyi və imkanları çərçivəsində yaşadıqları ərazini tərk edərək digər yerlərə (ölkə daxili və ya ölkə xarici) köçməsi. Bu zaman, insanlar müvafiq texniki hazırlıq işlərini aidiyyatı dövlət qurumları ilə yerinə yetirərək, mövcud köçmə/yerdəyişmə) qaydalarına uyğun olaraq hərəkət edir. Bu miqrasiya halında əsas işlər miqrasiya sahəsində mövcud olan müvafiq dövlət qurumları tərəfindən yerinə yetirilir. Bu zaman dövlət miqrasiya xidməti ilə yanaşı, digər dövlət qurumlarının da bu prosesdə fəaliyyəti müşahidə oluna bilər (daxili işlər nazirliyi, xarici işlər nazirliyi və s.). Bu tam normal bir miqrasiya halıdır və insanlar bu hərəkəti yerinə

yetirməkdə tam hüquqlu və sərbəstdirlər (sözsüz ki, mövcud olan müvafiq miqrasiya qaydalarına əməl etməklə);

- İnsanların öz istəyi olmadan yaşadıqları ərazini məcburən tərk etməsi. Bu da bir miqrasiya halıdır və əsasən hərbi münaqişələr, təbii və texnogen fəlakətlər, sosial-iqdisadi, siyasi problemlər, epidemiya-pandemiya və s. səbəblərdən baş verə bilər. Bu halda, həmin miqrasiya prosesində məcburi iştirak edən insanlar yerli və beynəlxalq hüquq və konvensiyalar, qayda və qətnamələr vasitəsilə təsdiqlənmiş adlara (kateqoriyaya) yiyələnirlər. Hazırda bu adların ən geniş yayılanı "qaçqın" və "məcburi köçkün" adlarıdır. Daha dəqiq yanaşsaq, qaçqın və məcburi köçkünlər əsasən hərbi münaqişələr, təbii və texnogen fəlakətlər, epidemiya və pandemiya hadisələri nəticəsində miqrasiya hadisəsi iştirakçısına çevrilən insanlardır. Qaçqınlar əsasən öz ölkəsini tərk edərək digər ölkələrə miqrasiya edənlər, məcburi köçkünlər isə, öz ölkəsi daxilində bir yerdən digər yerə köç edənlər sayılır. Bu kateqoriyaya aid olan insanlar, yuxarıda qeyd etdiyimiz kimi, təsdiqlənmiş müvafiq yerli və beynəlxalq hüquqlar çərçivəsində müdafiə olunaraq müvafiq dövr üçün (öz daimi yaşayış məntəqəsinə qayıdanadək) imtiyazlarla əhatə olunurlar (dövlət tərəfindən müvəqqəti yaşayış yeri ilə təmin olunma, yemək, təhsil, səhiyyə, maliyyə və s.). Təəssüf ki, bu miqrasiya halı dünyada çox geniş yayılmışdır və aidiyyatı dövlət qurumları ilə yanaşı (bəzi hallarda daha çox) miqrasiya üzrə spesifik çalışan yerli və beynəlxalq humanitar təşkilatların oynadığı professional rolu müşahidə etmək olar (xüsusilə də BMTQAK və BMqT). Praktiki tərəfdən baxdığımızda, təşkilatların rolu əsasən aşağıdalı qaydada həyata keçirilir.

Qaçqın və məcburi köçkünlərin durumunun qiymətləndirilməsi, onların yuxarıda qeyd olunan hüquqi müdafiəsini təmin edən kateqoriyanın verilməsi və beynəlxalq səviyyədə bu insanların "qaçqın" və ya "məcburi köçkün" statusu daşımaq hüququnun tanınması kimi fəaliyyətlər BMTQAK və ya BMqT kimi qurumların əsas iş prinsiplərinə aiddir. Adətən bu növ miqrasiya hadisəsi baş verən ilk gündən bu kimi qurumlar özlərinin qiymətləndirmə dəstələrini müşahidə missiyası üçün ölkəyə göndərirlər. Bu zaman, bu missiya üzvləri miqrasiya hadisəsi iştirakçıları (sonradan benefisiar), aidiyyatı dövlət qurumları, QHT sektoru və ölkədə fəaliyyət göstərən Milli Qızıl Xaç və ya Qızıl Aypara Cəmiyyətləri (müsəlman ölkələrində Qızıl Aypara) ilə müzakirələr aparır, mövcud durumu və ölkədəki potensialı qiymətləndirir, gələcək fəaliyyət istiqamətlərinin əsas konturlarını təyin edir və ölkədə nümayəndəliklərinin açılması üçün əsaslanmış hesabat tərtib edir. Sonrakı mərhələdə, artıq bu qurumlar ölkədə mövcud durumun tələblərinə uyğun şəkildə fəaliyyətlərini təyin edir, aidiyyatı dövlət qurumu ilə tərəfdaşlıq edəcəyi sahələri müəyyənləşdirir və müxtəlif humanitar sahədə fəaliyyətlərinin həyata keçirilməsi üçün yerli QHT-lər, Milli Qızıl Xaç və ya Qızıl Aypara Cəmiyyətləri ilə əməkdaşlıq sazişləri imzalayır. Yerli QHT-lər üçün BMTQAK və ya BMqT həmçinin potensial donor kimi çıxış edir.

Yerli və beynəlxalq humanitar təşkilatların rolu da (xüsusilə də Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı) qeyd olunan miqrasiya halında çox mühümdür. Əgər BMTQAK/BMqT və aidiyyatı dövlət qurumları daha çox qaçqın və məcburi köçkün statusuna aid olan insanların hüquqlarının müdafiəsi, imtiyazlarının verilməsi və s. üzrə aparıcı-spesifik rola malikdirsə, humanitar təşkilatlar bu insanların gündəlik normal həyat tələbatlarının ödənilməsi istiqamətində dövlət üçün mühüm yardımçı rolunu oynayırlar (həmçinin BMT-nin digər humanitar qurumları da olmaqla). Bura sığınacaqların təşkili, gündəlik yemək rasionu, mobil hospitalların təşkili, ilk yardım və psixososial fəaliyyətlər, sanitar-gigiyena dəstəyi, təhsil, itkin düşənlərin axtarışı, su təchizatı və s. sahələr.

Sosial-iqdisadi cəhətdən miqrasiya edən insanlar isə adətən köçdükləri ilk aylarda müəyyən çətinliklərlə üzləşməli olurlar. Bu müddət əsasən yeni məkanda iş axtarışına sərf olunan

zamandır. Yuxarıda qeyd etdiyimiz qaçqın və məcburi köçkün statuslu miqrantlardan fərqli olaraq, bu kateqoriyadan olan insanlar düçar olduqları "humanitar böhranı" nisbətən yüngül formada keçirirlər. Amma yenə də, miqrasiya sahəsində çalışan təşkilatların köməkliyi burada müşahidə olunur. Xüsusilə də inkişaf etmiş ölkələrdə. Belə ölkələrdə dövlət qurumlarının qayğısı QHT sektoru, beynəlxalq humanitar təşkilatlar və Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətlərindən daha çox seçilir. Yəni, dövlət öz imkanları çərçivəsində iş üçün müraciət etmiş əcnəbilərə müvafiq yaşayış yeri və aylıq müavinətlər verir. Bir çox hallarda isə hətta miqrantların iş yeri ilə təmin olunması prosesində də yaxından iştirak edir. Bu çox yaxşı təcrübədir.

Siyasi baxışlarının fərqliliyinə görə mühacirət edən insanlar isə getdikləri ölkələrdə müxtəlif positif və ya neqativ qarşılanma ilə üzləşə bilərlər. İnkişaf etmiş ölkələrdə bu proses çox zaman pozitiv sonluqla müşahidə olunur və miqrant mühacirət həyatına həmin ölkədə yerli qurumların dəstəyi ilə başlayır. Amma, qeyd etməliyik ki, neqativ təcrübələr də kifayət qədərdir (öz ölkəsinə deportasiya, interpol tərəfindən saxlanma və öz ölkəsinə qaytarılma və s.).

Yuxarıda qeyd olunan ümumi baxışdan anlaşılır ki, hazırda dünyada miqrasiya sahəsində birbaşa və ya bilavasitə qaydada fəaliyyət göstərən təşkilatların bu sahədə çox önəmli rolu var. Bu təşkilatlar çalışdıqları ölkələrdə aidiyyatı dövlət qurumları və vətəndaş cəmiyyəti ilə yaxşı tərəfdaşlıq və əməkdaşlıq təcrübəsinə malikdirlər və koordinasiya qaydasında bir-birinin işini tamamlaya bilirlər. Bu da, nəticə olaraq miqrasiya problemlərindən əziyyət çəkən insanlar üçün müxtəlif sahələrdə problemlər üzrə müraciət ünvanlamağa çoxlu sayda qurumların olması deməkdir.

İllər keçdikcə ölkədə mövcud sahədə dövlət siyasəti möhkəmlənir, milli qanunvericilik beynəlxalq miqrasiya qanunvericiliyinə uyğunlaşdırılır və milli təhlükəsizlik kimi mühüm məsələlər diqqət mərkəzində saxlanılır. Azərbaycan Respublikasında miqrasiya sahəsində dövlət siyasətinin həyata keçirilməsi, qanunvericiliyin beynəlxalq normalara və müasir dövrün tələblərinə uyğun təkmilləşdirilməsi, milli təhlükəsizliyin və sabit sosial-iqtisadi, demoqrafik inkişafın təmin edilməsi, əmək ehtiyatlarından səmərəli istifadə edilməsi, ölkə ərazisində əhalinin mütənasib yerləşdirilməsi, miqrantların intellektual və əmək potensialından istifadə edilməsi, tənzimlənməyən miqrasiya proseslərinin mənfi təsirinin aradan qaldırılması, insan alveri də daxil olmaqla, qeyri-qanuni miqrasiyanın qarşısının alınması məqsədi ilə qəbul olunmuş Azərbaycan Respublikasının Dövlət Miqrasiya Proqramı əhəmiyyət daşımışdır.

Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı (UNHCR)

14 DEKABR 1950-ci il tarixində BMT-nin tərkibində yaradılmış və əsas məqsədi dövlətlərin tələbi və ya BMT-nin öz təşəbbüsü ilə qaçqınları himayə etmək və dəstəkləmək, onların öz ölkələrinə qaytarılması, üçüncü ölkələrə köçürülməsi və lokal inteqrasiyasını təmin etmək olan beynəlxalq təşkilatdır.

Mərkəz qərargahı İsveçrənin Cenevrə şəhərində yerləşir.

BMT QAK qaçqın məsələlərinin həllinə dair idarəetmə təcrübəsini və zəruri yardımı Azərbaycana gətirmiş ilk beynəlxalq təşkilatlardan biri idi.(3)

BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı Nümayəndəliyi 1992-ci ilin dekabr ayından fəaliyyət göstərir (4).

Təşkilat hazırda ölkədə sığınacaq axtaran şəxslərə və qaçqınlara səhiyyə xidməti, aztəminatlı ailələrə maliyyə yardımı ayırıb ehtiyacların ödənməsinə, orta təhsilə dəstək, qaçqın və məcburi köçkünlərə hüquqi yardımın təmin edilməsi ali məktəblərdə təhsil alan çalışqan tələbələr üçün Almaniya Federativ

Respublikasının ayırdığı təqaüdlərin təmin edilməsi, qaçqın və məcburi köçkün gənclər üçün kompyuter və digər təlim-tədris fəaliyyətinin təşkili, , həmçinin ailə-məişət zorakılığı ilə

mübarizə və gender bərabərliyinin təbliği üzrə layihələri icraçı tərəfdaşları vasitəsi ilə həyata keçirir.

İOM- Miqrasiya üzrə beynəlxalq təşkilat.

BMqT-nin Azərbaycandakı mövcudluğu 1996-cı ildə yanvar ayında BMqT-nin Bakı ofisinin yaradılması ilə başlayır. 2006-cı ilin avqust ayında BMqT-nin ölkədəki ofisi Mingəçevirdə açıldı. Naxçıvan Muxtar Respublikasındakı alt ofis 1998-ci ildən 2011-ci ilədək fəaliyyət göstərmişdir. 8 dekabr 1999-cu il tarixində BMqT ilə Azərbaycan Respublikası arasında miqrasiya məsələlərinin həllində gələcək əməkdaşlıq üçün hüquqi baza yaradan Saziş imzalanmışdır. Sazişin 8 fevral 2000-ci ildə Azərbaycan Respublikası Milli Məclisi tərəfindən təsdiqlənməsindən sonra BMqT Şurası Cenevrədə 81-ci iclasında Azərbaycanı 7 iyun 2001-ci ildə BMqT Üzv Dövləti kimi qəbul etdi.

Əməkdaşlıq üçün hüquqi baza yaradan Saziş imzalanmışdır. Sazişin 8 fevral 2000-ci ildə Azərbaycan Respublikası Milli Məclisi tərəfindən təsdiqlənməsindən sonra BMqT Şurası Cenevrədə 81-ci iclasında Azərbaycanı 7 iyun 2001-ci ildə BMqT Üzv Dövləti kimi qəbul etdi. (5)

Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası (IFRC)

Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının tərkib hissəsi olan və 1919-cu ildə yaradılmış Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı, dünyanın ən böyük humanitar təşkilatı olaraq özünün 192 ölkədə çalışan Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri ilə müxtəlif təbii və texnogen fəlakətlər, sosial problemlər və s. sahədə humanitar fəaliyyətləri həyata keçirir. Bu humanitar istiqamətlər arasında müxtəlif səbəblərdən qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş, sığınacaq axtaran miqrantlarla aparılan fəaliyyətlər də vardır.

Ənənəvi qaydada müxtəlif səbəblər ucbatından miqranta çevrilmiş və zavallılıq vəziyyətinə düşmüş insanlara humanitar dəstək verən Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı 2009-cu ilin noyabr ayında Keniyanın Nayrobi şəhərində özünün 17-ci Baş Assambleyasında Miqrasiya Siyasətini qəbul etmişdir. Bu Siyasət Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı üçün miqrantlarla apardığı çoxşaxəli fəaliyyətləri konkretləşdirir və hədəfləri dəqiqləşdirir.

Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı Miqrasiya Siyasəti əsasən əmək miqrasiyası nəticəsində miqranta çevrilənləri, vətəndaşlığı itirilmiş (olmayan) miqrantları, qeyri müntəzəm (irregular) miqrantları, qaçqın/məcburi köçkünləri və sığınacaq axtaranları əhatə edərək onlar üçün (onların yaşayış vəziyyətinin yaxşılaşdırılması üçün) müvafiq humanitar fəaliyyətlərin həyəta keçirilməsini nəzərdə tutur. Bütün Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri (Azərbaycanda Azərbaycan Qızıl Aypara Cəmiyyəti) Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının Miqrasiya Siyasətini yerli səviyyədə öz daxili qanunvericiliyi və qaydalarına inteqrasiya edərək individual qaydada və ya Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı ilə əməkdaşlıq çərçivəsində yuxarıda göstərilən miqrant kateqoriyalarına aid olan insanların ehtiyaclarına cavab vermək məqsədilə müvafiq humanitar fəaliyyətlər, proqramlar və ya layihələr həyata keçirir.

Beynəlxalq Qızıl Xaç Komitəsi

Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının tərkib hissəsi olan və 1863-cü ildə yaradılmış Beynəlxalq Qızıl Xaç Komitəsi hərbi münaqişələr zamanı zərər çəkmiş insanların ehtiyaclarının ödənilməsi istiqamətində fəaliyyət göstərən humanitar təşkilatdır. Bildiyimiz kimi, hərbi münaqişələrdə yaralı və ya əsir düşmüş əskər və zabitlərlə (hərbi personal/kombatant) yanaşı, mülki əhali də zərər çəkir və ən çox hallarda qaçqın, məcburi köçkün və ya müvəqqəti sığınacaq axtaran miqranta çevrilir. Bu zaman Beynəlxalq Qızıl Xaç Komitəsi özünün təsbit olunmuş mandat və missiyasına uyğun olaraq (Cenevrə Konvensiyalarında, Beynəlxalq Humanitar Hüquqda və Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının Nizamnaməsi və

digər nizamnaməvi sənədlərində təsbit olunmuş) bu miqrant kateqoriyasına aid olan insanlar üçün ümumi və ya spesifik humanitar fəaliyyətləri həyata keçirir. Beynəlxalq Qızıl Xaç Komitəsi bu humanitar fəaliyyətləri özünün ölkələrdəki ən əsas tərəfdaşı olan Milli Qızıl Xaç və ya Qızıl Aypara Cəmiyyətləri (Beynəlxalq Qızıl Xaç Komitəsi və Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının tərkib hissələridir) ilə birgə reallaşdırır.

Beynəlxalq Qızıl Xaç komitəsi bir neytral qurum olaraq hərbi münaqişələr zamanı miqranta çevrilmiş insanların ehtiyaclarını qiymətləndirərək onların bütün insan hüquqlarının müdafiə olunması (normal insanın bəhrələnə biləcəyi yaşayış vəziyyəti üçün çalışmalar), ailə əlaqələrinin bərpa olunması (itkin düşənlərin axtarışı) və s. istiqamətində humanitar fəaliyyətləri həyata keçirir. Amma neytrallıq prinsipindən çıxış edərək miqrantların hüquqi statuslarının (miqrasiya kateqoriyasının və s.) təyin olunması və s. işlərdə fəaliyyət göstərmir.

Azərbaycan Qızıl Aypara Cəmiyyəti

Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının tərkib hissəsi olan və 1920-ci ildə yaradılmış AzQAC ölkənin ən böyük humanitar təşkilatı olaraq öz mandatı, missiyası və nizamnaməsinə uyğun olaraq bütün növ fəlakətlər zamanı insan izdirabının azaldılması istiqamətində humanitar fəaliyyətlər həyata keçirir. Miqrasiya fəaliyyətləri də AzQAC-ın əsas humanitar fəaliyyət istiqamətlərindədndir və həyata keçirilən fəaliyyətlər qurumun Strateji Planlarında müvafiq məqsəd və vəzifələrlə təsbit olunmuşdur.

AzQAC-ın Miqrasiya şöbəsi ölkə daxili qaçqın və məcburi köçkünlərlə (Qarabağ münaqişəsi nəticəsində formalaşmış 1 milyona yaxın insa) və ölkəyə təşrif buyurmuş miqrantlarla (müxtəlif hərbi münaqişələr, əmək miqrasiyası, təhsil almaq üçün gələnlər və s.) müxtəlif səpkidə humanitar fəaliyyətlər həyata keçirir. Qurumun ən geniş yayılmış layihələrindən biri olan miqrantlar üçün Azərbaycan dili kurslarını misal çəkmək olar (əmək miqrantlarının ölkəyə asanlıqla miqrasiya olunmasına köməklik).

AzQAC 2014-cü ilin Yanvar ayında özünün Miqrasiya Siyasətini qəbul etmişdir (Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı -nin Miqrasiya Siyasətinə uyğun olaraq).

AzQAC miqrasiya fəaliyyətlərini həyata keçirərkən Dövlət Miqrasiya Xidməti, UNHCR (BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı), IOM (Beynəlxalq Miqrasiya Təşkilatı) və QHT-lərlə əməkdaşlıq çərçivəsində həyata keçirir. Bu qurumlarla müvafiq Anlaşma Memorandumları mövcuddur.

Miqrasiya Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti və Beynəlxalq Miqrasiya Təşkilatı ilə əməkdaşlıq üzrə imzalanmış Anlaşma Memorandumlarından irəli gələn öhdəlikləri yerinə yetirmək, BQXQACF-nın və AzQAC-ın mövcud olan Miqrasiya siyasətinə uyğun olaraq ölkə daxilində miqrant statusu alan məcburi köçkünlərə, başqa ölkələrdən qaçqın olan miqrantlarla etdikləri müraciətlərə əsasən imkanlar daxilində qayğı göstərmək, miqrantları ölkədə qaldıqları müddətdə ünsiyyət qurması və müvafiq işlə təmin olunması üçün təmənnasız azərbaycan dili kursları ilə təmin etmək, onların hüquq və azadlıqları, şərəf və ləyaqətlərinin qorunması istiqamətində vəkil kimi çıxış etmək, bu sahədə müxtəlif layihə və fəaliyyətləri həyata keçirmək. (4)

Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi

Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1989-cu il 19 Sentyabr tarixli Fərmanı ilə daimi yaşayış yerlərinin tərk etməyə məcbur olmuş şəxslərin qəbulu, yerləşdirilməsi və güzəranları ilə əlaqədar məsələləri həll etmək və bu sahədə respublikanın sovet, təsərrüfat, inzibati və ictimai təşkilatlarının fəaliyyətlərini əlaqələndirmək məqsədilə "Daimi yaşayış yerlərini tərk etməyə məcbur olmuş şəxslərlə iş üzrə Azərbaycan SSR Dövlət Komitəsi" kimi yaradılmışdır.

1992-ci ildə Azərbaycan Respublikasının "Qaçqınların və məcburi köçkünlərin statusu haqqında" qanununun qəbul edilməsi ilə əlaqədar olaraq Komitənin adının adı çəkilən qanunun tələblərinə uyğunlaşdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 1993-cü il 5 yanvar tarixli 396 nömrəli Fərmanı ilə "Daimi yaşayış yerlərini tərk etməyə məcbur olmuş şəxslərlə iş üzrə Azərbaycan SSR Dövlət Komitəsi"nin adı dəyişdirilərək "Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi" adlandırılmışdır.

Bəhs etdiyimiz komitə qaçqın və məcburi köçkün düşmüş şəxslərin hüquqlarının kütləvi şəkildə pozulması faktının beynəlxalq və yerli ictimaiyyətə çatdırılmasını aidiyyəti icra hakimiyyəti orqanları vasitəsilə həyata keçirir, qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli sahəsində normativ hüquqi aktların təkmilləşdirilməsi üzrə təkliflər verir.

Həmçinin qaçqınlar və məcburi köçkünlər üçün mənzil, sosial və texniki infrastruktur obyektlərinin tikintisinə cəlb olunmuş tikinti təşkilatlarının işinə sifarişçi kimi nəzarət edir.

Məskunlaşma yerləri üzrə qaçqınların və məcburi köçkünlərin uçotunun aparılmasını, onlar haqqında vahid informasiya bazasının yaradılmasını təşkil edir, müvafiq icra hakimiyyəti orqanları ilə birlikdə qaçqınların və məcburi köçkünlərin işlə təmin edilməsi, peşə hazırlığı kurslarının təşkili, onların kiçik sahibkarlıqla məşğul olmaları üzrə tədbirlər görür.

Azərbaycan Respublikası Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu

Bu təşkilat ümummilli lider Heydər Əliyevin 6 dekabr 1999-cu il tarixli fərmanı ilə yaradılmışdır. Fondun əsas məqsədi məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasını, onlar üçün iş yerlərinin açılmasını təmin edən tədbirlərin həyata keçirilməsini, əsasən sosial infrastrukturun bərpasına yönəldilmiş layihələrin yerinə yetirilməsi üçün vəsait ayrılmasını və bu vəsaitlərdən səmərəli və məqsədyönlü istifadəsini təmin etməkdən ibarətdir. Fondun yarandığı ilk günlərində fəaliyyətinə Azərbaycan hökuməti və beynəlxalq donorlar tərəfindən dəstək verildi.

Fond aşağıdakı funksiyaları yerinə yetirir: fəaliyyətinin məqsədləri barədə mərkəzi və yerli icra hakimiyyəti orqanlarına, beynəlxalq və yerli qeyri-hökumət təşkilatlarına və əhaliyə müasir məlumatlar verir; sorğular keçirir, tədqiqatlar aparır və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və onlar üçün iş yerlərinin yaradılması üçün konkret təkliflər hazırlayır; mütəxəssislərə və qeyri-hökumət təşkilatlarına mikro layihələrin hazırlanması və həyata keçirilməsində yardım göstərir; Əməliyyat Departamentinin müddəalarına uyğun olaraq təqdim olunmuş mikro layihələrin nəzərdən keçirilməsini, qiymətləndirilməsini və qəbul edilməsini təşkil edir, Müşahidə Şurası ilə razılaşdırılaraq bu layihələrin icrası üçün vəsait ayırır.

Beləliklə, 2000-ci ildə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının və Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı nümayəndəliyi fondun institusional inkişafı üçün 40.000 dollar vəsait ayırdı.

Əslində fond fəaliyyətinə 2001-ci ildən başlamışdır və maliyyələşmə mənbəyi isə Dünya Bankının Azərbaycan hökumətinə 10 milyon ABŞ dolları həcmində ayırdığı güzəştli kredit vəsaiti olmuşdur. Bu vəsait məcburi köçkünlərin müvəqqəti məskunlaşma yerlərində infrastrukturun yaxşılaşdırılması və məşğulluğun artırılması üçün mikrokredit layihələrinin həyata keçirilməsinə sərf edilmişdir.

Daha sonra fondun fəaliyyəti genişlənməyə başladı və maliyyə mənbələri artdı. Hazırda Fonda maliyyələşdirmə mənbələrinə dövlət büdcəsindən, Azərbaycan Respublikası Dövlət Neft Fondundan və Dövlət Neft Şirkətindən, Dünya Bankından, İslam İnkişaf Bankından, Yaponiya Sosial İnkişaf Fondundan və s. maaliyyə yardımı olurBu beynəlxalq təşkilat tərəfindən təmin edilmiş 10 milyon ABŞ dolları məbləğində ilk güzəştli kredit müqaviləsi çərçivəsində həyata keçirilən layihə 2001-ci ilin yanvarında başlayıb və 2005-ci ilin sentyabrında başa çatıb.

Bu layihə iki əsas komponentdən (icma mikrolayihələri və mikrokredit proqramı) ibarət olmuşdur. 30 sentyabr 2005-ci il tarixə 192 müxtəlif növ icma mikrolayihəsi (mikrolayihələrin ümumi dəyəri 7,1 milyon. ABŞ dolları təşkil etmişdir) həyata keçirilmişdir Bu icma mikrolayihələrindən 168 min nəfərdən artıq məcburi köçkün faydalanmışdır. Azərbaycanın 4 mərkəzi şəhərində və 26 kənd inzibati rayonunda bu mikarolayihələr həyata keçirilmişdir. Fondun mikrokredit fəaliyyətləri beş beynəlxalq mikrokredit təşkilatı və yeddi yerli kredit ittifaqı da daxil olmaqla rəqabət yolu ilə seçilmiş vasitəçilər tərəfindən həyata keçirilmiş və bu məqsədlə 2 milyon ABŞ dolları istifadə edilmişdir. 30 sentyabr 2005-ci il tarixinə 8624 məcburi köçkün (fərdi olaraq) MKSİF vasitəçiləri vasitəsi ilə kredit alıb. Kredit alan hüquqi şəxslərin (məcburi köçkünlər tərəfindən yaradılan kiçik müəssisələr) sayı 1255 nəfərdir. Bu müəssisələrdə 5123 nəfər işləyir.

Azərbaycan Respublikası Prezidentinin fərmanları və sərəncamlarına əsasən 2001-ci ildən başlayaraq MKSİF Azərbaycan Respublikasında çadır düşərgələrində və digər uzunmüddətli yaşayış üçün yararlı sayılmayan yerlərdə müvəqqəti olaraq yerləşdirilmiş məcburi köçkünlər üçün yeni yaşayış qəsəbələrinin tikintisinə başlamışdır. Bu işlər son illərdə daha da genişlənmişdir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 1 iyul tarixli sərəncamı ilə "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" təsdiq edilmişdir. Bu dövlət proqramı ilə məcburi köçkünlər üçün nəzərdə tutulmuş yeni qəsəbələrin layihələndirilməsi və tikintisi Məcburi Köçkünlərin Sosial İnkişaf Fonduna həvalə edilmişdir. Dövlət Proqramına əsasən fond tərəfindən 2005-2007-ci illərdə Ağdam, Ağcabədi, Biləsuvar, Füzuli və Sabirabad rayonlarının ərazilərində 26 qəsəbə salınmış və bu qəsəbələrdə 8 mindən artıq ev tikilmişdir. Fondun apardığı işlər nəticəsində 2007-ci ilin sonunda ölkəmizdə son çadır düşərgələri tamamilə ləğv olundu və beləliklə, Dövlət Proqramı ilə nəzərdə tutulmuş məqsədlər həyata keçirildi (6).

ƏDƏBİYYAT

1. Aslanov N. 100 il Humanizm naminə. Bakı: Orxan, 2020, s. 243
2. Sərdarov. M. Ə. Qloballaşma siyasəti və miqrasiya siyasəti. Bakı: Təknur, 2010
3. http://idp.gov.az/az/activity/15/parent/251
4. http://idp.gov.az/az/content/1/parent/1
5. https://az.wikipedia.org/wiki/Qaçqınların_və_Məcburi_Köçkünlərin_İşləri_üzrə_Dövlət_Komitəsi_(Azərbaycan)
6. http://www.anl.az/down/meqale/xalqqazeti/2010/aprel/114953.htm

MİQRASİYA SAHƏSİNDƏ ÇALIŞAN TƏŞKİLATLAR

Vəliyeva M.Z.

XÜLASƏ

Məqalədə beynəlxalq səviyyədə və Azərbaycanda miqrasiya sahəsində çalışan təşkilatlar haqqında məlumatlar verilmişdir. Hal-hazırda dünyada və Azərbaycanda UNHCR (BMT-nin qaçqınlar üzrə ali komissiarlığı), IOM (Beynəlxalq Miqrasiya təşkilatı), ICRC (Beynəlxalq Qızıl Xaç Komitəsi), AzQAC (Azərbaycan Qızıl Aypara Cəmiyyəti), Qaçqın və Məcburi Köçkünlər üzrə Dövlət Komitəsi, MKSİF (Azərbaycan Respublikası Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu) və s. miqrantlarla işləyən aparıcı təşkilatlardır.

ОРГАНИЗАЦИИ, ЗАДЕЙСТВОВАННЫЕ В ОБЛАСТИ МИГРАЦИИ

Валиева М.З

АННОТАЦИЯ

В статье представлена информация об организациях, работающих в сфере миграции на международном уровне, и в Азербайджане. В настоящее время в мире и в Азербайджане УВКБ ООН - Верховный комиссар ООН по делам беженцев, МОМ - Международная организация по миграции, МККК - Международный комитет Красного Креста, АзКК - Азербайджанское общество Красного Полумесяца, Государственный комитет по делам беженцев и внутренне перемещенных лиц, МККК - ВПЛ Фонд социального развития - это организация, которая работает с беженцами и вынужденными переселенцами.

ORGANIZATIONS WORKING IN THE FIELD OF MIGRATION

Valiyeva M. Z.

SUMMARY

The article provides information on organizations working in the field of migration at the international level and in Azerbaijan. Currently, in the world and in Azerbaijan: UNHCR (UN High Commissioner for Refugees), IOM (International Organization for Migration), ICRC (International Committee of the Red Cross), AzRCS (Azerbaijan Red Crescent Society), State Committee for Refugees and Internally Displaced Persons, IDPs Azerbaijan Republic Social Development Fund for IDPs are main organizations working with migrants.

SOSİAL QRUP KİMİ GƏNCLƏRİN MƏŞĞULLUQ PROBLEMININ XÜSUSIYYƏTLƏRI

Cəfərova Validə Şahbaz qızı
Azərbaycan Universitetinin magistrantı
sharifovavalida@gmail.com

Açar sözlər: sosial qrup, gənclərin məşğulluğu, əlil gənclər, şəhid ailələrin övladları.
Keywords: social group, youth employment, disabled youth, children of martyr families, social, economic
Ключевые слова: социальная группа, трудоустройство молодежи, молодежь с ограниченными возможностями, дети из семей шехидов.

Müstəqil Azərbaycan Respublikasının gəncləri müxtəlif sosial qruplarda təmsil olunurlar. Azərbaycanlı gənclər orta təhsilli, ali təhsilli, vətənimizin ərazi bütövlüyü uğrunda əlil olmuş gənclər, əlil, şəhid ailələrinin övladları, valideyn himayəsindən məhrum olmuş, xüsusi istedada malik olan, xaricdə təhsil almış, respublikamızı xaricdə təmsil edən, işsiz gənclər, narkomaniyaya düçar olmüş və sair kimi sosial qruplarda təmsil olunurlar.

Bu və digər sosial qruplarda təmsil olunan gənclər məşğulluq, mənzil təminatı, təhsil, tibbi xidmətlər, sosial təminat ilə əlaqədar müxtəlif problemlərlə qarşılaşırlar. Nəzərə alsaq ki, gənclər ölkəmizin gələcəyini iqtisadi, hüquqi, tibb, beynəlxalq və digər bütün sahələrdə müəyyən edəcək demoqrafik qrupdur, bu problemin həllinin ən birincilər sırasında olması vacibdir.

İstedadlı uşaq və gənclərin aşkara çıxarılması, onların potensial imkanlarının inkişaf etdirilməsi ötən əsrin 70-ci illərindən etibarən diqqət mərkəzində olmuş, bu vacib iş sahəsinin mühüm prioritetlərdən biri kimi irəli sürülərək reallaşdırılması istiqamətində ciddi addımlar atılmışdır. Azərbaycanda dövlət müstəqilliyinin bərpasından sonra, xüsusən 1993-cü il iyunun 15-də görkəmli dövlət xadimi Heydər Əliyevin respublikamızda siyasi rəhbərliyə qayıdışı ilə milli-mənəvi dəyərlərin dirçəlişinə, iqtisadiyyatın, sosial sahələrin inkişafına güclü stimul verilmiş, bunlarla bərabər, ölkənin təhsil sisteminin yenidən qurulmasına, qabaqcıl dövlətlərin təhsil sistemlərinə inteqrasiya olunmasına geniş imkanlar açılmış, istedadlı uşaq və gənclərə diqqət və qayğının artırılması Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilərək, təhsil sahəsində dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilmişdir. Istedadlı gənclərin müəyyənləşdirilməsi, onların istedadlarının üzə çıxarılması Təhsil Nazirliyinə həvalə edilmışdir. Təhsil Nazirliyi təhsilini uğurla başa vuran gənclərə qızıl və gümüş medalların təsis edilməsi, istedadlı gənclərə təqaüdlərin təyin edilməsi, onların yay və qış fəsillərində istirahətləri ilə bağlı təkliflər hazırlamışdır.

Bundan başqa, istedadlı gənclərin evlə təmin olunması, işlə təmin olunması, təhsili və digər sosial problemləri ölkə prezidenti İlham Əliyevin və birinci vitse-prezident Mehriban xanım Əliyevanın daim diqqətindədir. Bizim dövlətimizin xüsusi istedada malik gənclərə göstərdiyi qaygı gələcəyimizin təminatı deməkdir.

Gənclər məşğulluq xüsusiyyətlərinə görə müxtəlif yaş qruplarında təmsil olunurlar. Gənclik yaşı öz inkişafında, adətən iki mərhələdən keçir: birinci mərhələ - erkən gənclik (15-18 yaş), ikinci mərhələ isə yetkin gənclik (18-25 yaş) dövrü adlanır [6,s.341]. 15- 16 yaşlı yeniyetmələrin əmək bazarında iştirak etməsi əhalinin həyat səviyyəsinin aşağı səviyyədə olmasına işarədir. Ailənin gəlirləri az olduqda yeniyetmələr daha tez əmək fəaliyyətinə başlayırlar. Bu zaman yeniyetmə orta təhsilini dayandırmağa məcbur olur və heç bir sənətə, ixtisasa sahib olmayan insan kimi əmək fəaliyyətinə başlayır. Buradan belə nəticəyə gəlmək olar ki, bu qeyri-rəsmi

əmək fəaliyyətidir. Bu qrupdan olan yeniyetmələr tətillər zamanı və yaxud yarımgünlük işlərdə çalışırlar. Azərbaycan Respublikasının Əmək Məcəlləsinə əsasən vətəndaş 15 yaşında əmək fəaliyyətinə başlaya bilər[1,s.29]. 15 yaşından tez əmək fəaliyyətinə başlamaq qadağandır.

15- 18 yaşlı gənclə müqavilə bağlayan təşkilat onun təhsil aldığı vaxtı iş saatı kimi qəbul etməlidir. 18 yaşdan kiçik vətəndaş işə qəbul edilərkən xərcləri işə qəbul edən tərəfindən ödənilmək şərtilə hər il tibbi mayinədən keçirilməlidir. Bu yaş qrupunda olan gənclərə sağlamlığa ziyan vura biləcək əmək fəaliyyəti ilə məşğul olmaq qadağandır. 16-18 yaşlı gənclər mənəvi dəyərlərə mənfi təsir edə biləcək fəaliyyətlə məşğul ola bilməzlər. Digər yaş qrupunda təmsil olunan gənclər 21-24 yaşlı gənclərdir ki, onlar artıq peşə təhsili və yaxud ali təhsil almışlar. Bu kateqoriyadan olan gənclər müvəqqəti olmayan, daimi işlə məşğul olmaq, vəzifədə yüksəlmək arzusunda olurlar. Gənclər arzuladıqları iş ilə real iş şəraiti arasında nə qədər fərq olduğunu əmək fəaliyyətinə başladıqları zaman dərk edirlər.

Müasir dövrümüzdə gənclərin dünyagörüşləri, xarici dillər uzrə bilikləri, informasiya kommunikasiya bacarıqları daha yüksək səviyyədədir. Gənclərin bu və digər sosial qruplarına dəstək olmaq respublikamızın gələcəyinin daha etibarlı əllərdə olmasına zəmin yaradılması üçün ümummilli lider Heydər Əliyev tərəfindən istedadli gənclərin, Qarabağda əlil olmuş gənclərin, xaricdə təhsil almış və sair gənclərin problemləri ön plana çəkilmiş və onların həlli üçün mühüm addımlar atılmışdır.

1997-ci ildə Heydər Əliyevin sərəncamı ilə 2 fevral Azərbaycanda gənclər günü kimi təsdiq olunub. Bu sərəncam dahi öndərin gənc nəslə, onun problemlərinə, qayğılarına olan diqqətin təcəssümüdür. Heydər Əliyev siyasətinin davamçısı İlham Əliyevin hakimiyyəti dövründə gənclər və onların aktual problemləri diqqət mərkəzindədir. Bu səbəbdən ölkə başçısı tərəfindən 19 dekabr 2011-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun yaradılması haqqında sərəncam verilmişdir[3]. Bu sərəncam gənclərin çox şaxəli problemlərini, o cümlədən gənclərin təhsili, sağlamlığı, peşəyönümü, məşğulluğu, inkişafı, asudə vaxtın səmərəli təşkili üçün zəruri olan hüquqi, iqtisadi və digər məlumatların toplanması və yayılması üzrə proqramların və layihələrin həyata keçirilməsinə hər tərəfli dəstək olmağı nəzərdə tutur.

Ali təhsilli gənclərə fondun dəstəyi ilə keçirilən təlimlərdə əmək müqaviləsinin bağlanması, işə götürənlə işə qəbul olanın arasında münasibətin qurulması, kadrların uçot vərəqinin doldurulması, əmək kitabçasının yazılması, işə qəbul olunan şəxs işə qəbul olduğu və işdən azad olduğu zaman hansı hüquqlarının olduğu, təqaüd təminatı, əmək hüququ, gənclərin məşğulluğunun təmin edilməsi, gənclərin və yeniyetmələrin məşğulluğuna kömək, əmək məcəlləsinin müəyyən tələbləri şərh olunur. Bundan başqa 6 mart 2014-cü il tarixdə gənclərin məşğulluğunun artırılması ilə bağlı ilk vahid elektron portal myCv.az saytı yaradılmışdır. Saytın yaradılmasında məqsəd işsiz gənclər, dövlət qurumları, özəl şirkətlər, sahibkarlar arasinda elektron əlaqənin yaradılmasıdır. Elektron portal video tövsiyyələr, test imtahanı, cv bölmələrindən ibarətdir. Tədbirdə iştirak edənlər bu layihəyə orta məktəbin yuxarı sinif şagirdlərinin qatılmasını təklif etmişlər.

10 iyun 2019-cu il tarixdə “Nar” mobil operator şirkəti tərəfindən tələbələrin öz ixtisasları üzrə uğurlu karyera qurmalarına və peşəkar inkişafına kömək etmək məqsədilə növbəti karyera sərgisində iştirak edib[nar.az/news] . Mobil operator Azərbaycan Respublikası Təhsil Nazirliyi və Gənclər və İdman Nazirliyinin dəstəyi, UNEC-in təşkilatçılığı ilə "Gənclər üçün Əmək Yarmarkası - 2019" da iştirak edib.

“Nar” tələbə, magistr, məzunlar, eyni zamanda əlilliyi olan şəxslər üçün satış, müştəri dəyərinin idarəedilməsi və digər vakant vəzifələrinə sənəd qəbulu təşkil edib. Bundan başqa, mobil operator universitetin tələbə və məzunlarına uğurlu karyera barədə məsləhətlər verib.

"Nar" təmsilçiləri ilə birbaşa ünsiyyətdə olan tələbələr karyera imkanlarını dəyərləndirmək, həmçinin bu şirkətlərin təcrübə proqramlarında iştirak barədə məlumat əldə etmək imkanı qazanıblar.

Gənclərin məşğulluğunun təmin edilməsinə dəstək göstərmək məqsədilə təşkil olunan yarmarkada 50-yə yaxın şirkət və qurum iştirak edib. Karyera sərgisinin keçirilməsində məqsəd, gənclərin məşğulluğunun təmin edilməsinə dəstək göstərmək, iş imkanlarını genişləndirmək, iş təcrübəsi olmayan gənclər üçün karyera fürsəti yaratmaqdır.

Qeyd edək ki, gənclərə dəstək və iş imkanlarına çıxışın təmin edilməsi "Nar"ın korporativ sosial məsuliyyət (KSM) strategiyasında yer alan istiqamətlərdən biridir.

Beləliklə, ölkəmizdə fəaliyyət göstərən müxtəlif şirkətlər "Nar"ın bu istiqamətdə atdığı fəaliyyətdən nümunə götürməli və gənclərin işlə təmin olunmasını sosial məsuliyyət kimi dərk etməlidirlər.

Yuxarıda sadaladığım tədbirlər gənclərə dövlət və ictimai təşkilatlar tərəfindən göstərilən qayğını əks etdirir. Ancaq müasir bazar iqtisadiyyatı dövründə gənclərin məşğulluğunun təmin edilməsi, işsizlik dövlət qarşısında daim diqqətdə saxlanılan məsələlərdən biridir.

Müxtəlif səbəblərdən insanlar əlil ola bilərlər və həmin şəxslər arasında əlilliyi olan gənclər xüsusi yer tuturlar. Əlil gənclər bədənin quruluşunda fiziki və psixoloji pozuntuları, fəaliyyət məhdudiyyətləri və cəmiyyətdə mümkün iştirakını özündə cəmləşdirən sosial qrupda birləşirlər. Əlil gənc bədənində həyat funksiyalarını itirmiş, daxili və ya xarici orqanlarında müxtəlif dərəcədə çatışmamazlıqları olan şəxsdir. Bu çatışmamazlıqlar əlilin hər hansı bir fəaliyyəti həyata keçirməsində maneəyə çevrilir və bu qrupdan olan insanlar yaxınlarının himayəsində yaşamaq məcburiyyətində qalırlar.

Əlilliyin səbəbləri müxtəlifdir: ümumi xəstəliklər, uşaqlıqdan əlillik, iş zədəsi, peşə xəstəliyi, dövlətin müdafiəsi zamanı və ya hərbi xidmətin digər vəzifələrini yerinə yetirərkən aldığı yaralanma (yaralanma, kontuziya) və ya cəbhədə olma ilə əlaqəli xəstəliklər, terror hadisələri zamanı alınmış zədələr. Əlil insan normal insandan motor funksiyalarının pozulmasına, qan dövranının pozulmasına, tənəffüs yollarının pozğunluğuna, tənəffüsü, həzm, maddələr mübadiləsi, görmə, eşitmə, zehni pozğunluqlar, zəif yaddaşına görə fərqlənir. Əlilliyin və sağlamlıq imkanlarının məhdudluğunun qiymətləndirilməsi Ümumdünya Səhiyyə Təşkilatının xəsətəliklərlə əlaqədar təsnifatına uyğunlaşdırılmışdır. Əlil gənclərin sayı müasir dövrümüzdə çoxluq təşkil edir. 2019-cu ilin statistik hesablamalarına görə ilk dəfə əlilliyi müəyyən edilən 18 və yuxarı yaşlı şəxslərin sayı 10 000 nəfərə 28 nəfər düşür[4].

Onların fiziki çatışmamazlıqları ictimai həyatda, əmək fəaliyyətində bir sözlə sosiallaşmasında maneə olmamalıdır. Əlil gənclərin valideynlərin və yaxud qohumların himayəsində yaşaması kimi stereotiplər mövcuddur. Müasir cəmiyyətdə əlil gənclərin məşğulluğu problemi aktualdır və heç də az əhəmiyyət kəsb etmir. Əlillər çox vaxt müxtəlif bəhanələrlə işəgötürənlərin onları işə götürməməsu, hüquqlarını məhdudlaşdırması, əlillərin müxtəlif növlərinə fiziki cəhətdən çatışmazlığı səbəbindən müəyyən iş növlərini əlçatmaz etməsi səbəbindən iş tapmaqda bir sıra çətinliklərlə qarşılaşırlar.

Bütün bunlar cəmiyyətdə əlavə gərginlik yaradır, çox sayda insanı "lazımsız" edir. Bir şəxs üçün əmək fəaliyyəti tam hüquqlu həyat üçün vacib şərtdir. Bu, mövcudluğunu iqtisadi cəhətdən təmin etmək üçün bir yol deyil, həm də yaradıcı qabiliyyətlər daxil olmaqla bacarıqlarını həyata keçirmək üçün bir fürsətdir. Əmək fəaliyyəti insanı sosial dəyərlərlə tanış edən bir amildir. İş hər bir vətəndaşın özünə hörmət etməsini, fərdiliyinin fərqində olmasını və müasir cəmiyyətin tam hüquqlu bir hissəsi olmasını təmin edir. Ancaq unutmamalıyıq ki, əlillər arasında işləmək və müstəqil olmaq istəyənlər var.

Təhsildə, istehsalatda, elmin bir çox sahələrində əlil gənclər öz uğurlu fəaliyyətlərini nümayiş etdirirlər. Əlil gənclərin işlə təmin olunması, sosial ehtiyyaclarının ödənməsi, cəmiyyətə inteqrasiyasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzdində Dövlət Məşğulluq Xidməti fəaliyyət göstərir. Əlillərin məşğullu təkcə dövlət qurumlarının deyil, ictimai təşkilatların, əlillər cəmiyyətlərinin, sahibkarların, təhsil müəssisələrinin və digər şəhər və rayon müəssisələrinin orqanların nəzarətində olmalıdır. Əlillərə əmək potensiallarını həyata keçirmək üçün optimal şərait yaradılmalıdır.

Hal-hazırda əlil gənclərin böyük hissəsi az təminatlı ailələrin övladları olduğuna görə işləmək yox hətta təhsil almaq imkanlarından məhrum olmuşlar, əksər binalarda əlillər üçün panduslər, liftlərin olmaması, əlillərə dərs keçmək üçün müəllim çatışmamazlığı, əlillərin müasir bazar iqtisadiyyatına hazır olmaması gənc əlillərin qarşılaşdığı problemlərin ciddiliyindən xəbər verir. Əlillərə qayğı sahəsində müsbət nəticələr də var. Bu cəmiyyətin şüurunda onlara müsbət münasibətin meydana gəlməsi, onların istifadəsi üçün kompyuterlərin sayının əhəmiyyətli dərəcədə artması, gənc əlillərin məşğul olduqları sahədə uğurlar qazanması bu sahədəki müsbət tendensiyalardandır.

Sosial müdafiəyə xüsusi ehtiyyacı olan və işə düzəlməkdə çətinlik çəkən əlillər üşün Azərbaycan Respublikasının Məşğulluq haqqında qanununda kvota müəyyən edilmişdir. "Məşğulluq haqqında" qanunun 1.1.8-ci maddəsinə görə kvota – sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin işlə təmin edilməsi məqsədi ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən işəgötürənlər üçün müəyyən edilmiş iş yerlərinin (işçilərin) minimum sayıdır [5].

AR Nazirlər Kabinetinin 22 noyabr 2005 tarixli "Sosial müdafiəyə xüsusi ehtiyyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşlar üçün kvota tətbiq etməsi qaydası" ilə əlillərin işə düzəlməsi tənzimlənir. Rayon İcra hakimiyyətinin, DOST mərkəzlərinin göndərişləri ilə göndərilmiş əlilləri işə götürməyənlər qanunla cəzalanırlar. Bundan başqa Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yeni yaradılan "Məşğulluq" alt sistemi vasitəsilə müəssisələrdə müəyyən kateqoriyalı şəxslərin işə götürülməsi üçün müəyyən edilən kvotaya nəzarət mexanizminə elektron üsülla nəzarət edəcək . Əlillərin işə götürülməsi hər bir müəssisə üçün 5 faiz müəyyən edilmişdir.

Ümumiyyətlə, xüsusi təhsil ehtiyacı olan şəxslərə, sağlamlıq imkanları məhdud tələbələrə fərqli yanaşma problemlərinin həllinə imkan verəcək bir tənzimləmə bazası hazırlamaq üçün idarələrarası komissiya yaratmaq labüddür.

Mən hesab edirəm ki, əlillərin fərdi ehtiyaclarını nəzərə alaraq kadr hazırlığı və müayinə metodlarının inkişafı üçün ortaq bir proqramın hazırlanması üçün yeni təkliflərlər hazırlamaq lazımdır.

Dövlət uşaq müəssisələrinin məzunu olan, hər iki valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş gənclərdən ibarət olan sosial qrup Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə fondunun dəstəyi ilə mənzillərlə təmin edilir, onların məşğulluğu təmin etmək üçün müvafiq işlər görülür. Azərbaycan Respublikasının vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın xüsusi diqqəti bu gənclərin üzərindədir. Heydər Əliyev fondunun dəstəyi ilə "Məzun evi" layihəsi (Abşeron rayonu, Masazır kəndi) əsasında 120 mənzillik iki yaşayiş binası inşa edilərək gənclərin istifadəsinə verilib.

Gənclərdən 20 nəfərinin elə yaşadıqları "Məzun evi"ndəki ştat vahidlərində, habelə ictimai-iaşə xidməti sahələrində daimi iş yerləri ilə təminatı həyata keçirilib. "Məzun evi"nin digər gənc sakinlərinin əməyindən istifadə olunması üçün sosial dialoq çərçivəsində işəgötürənlərlə mütəmadi əlaqələr yaradılıb. Ötən dövrdə görülən tədbirlər nəticəsində 30 nəfər gəncin

yaşıllaşdırma müəssisəsində, 25 nəfər gəncin "Məzun evi" üçün tikilən yeni yaşayış binasının, 6 nəfər gəncin yaxın ərazidəki "Yeni Bakı" yaşayış kompleksının və 11 nəfərin məcburi köçkünlər üçün inşa olunan yaşayış kompleksinin tikintisi işlərində, 6 nəfərin karton fabrikində, 3 nəfərin Dövlət Neft Şirkəti (SOCAR) sistemində, 3 nəfər gəncin beton istehsal edən zavodda, 2 nəfər gəncin şəxsi klinikalarda və s. daimi iş yerləri ilə təminatı həyata keçirilib [7].

Hazırda "Məzun evi" üçün tikilən növbəti yaşayış binasında onlar üçün uşaq bağçasının fəaliyyət göstərməsi, binanın ətrafında məzunlar üçün idman kompleksinin olması, yaxınlıqda məktəbin inşası da nəzərdə tutulub. Bununla əlaqədar həmin ərazidə yaranacaq yeni iş yerləri üzrə aidiyyəti əmək sahələrində də ilk növbədə müəssisədəki gənclərin məşğulluğunun təminatı həyata keçiriləcək. Qeyd olunanlarla yanaşı, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən "Məzun evi"nin elə özündə əmək bazarının tələblərinə uyğun bir sıra peşələr üzrə peşə hazırlığı kurslarının təşkilinə hazırlıq işlərinə də başlanılıb. Ölkə başçısının 7 iyul 2011-ci il tarixli sərəncamı ilə "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramında gənclərin məşğulluğunun təmin olunması əsas fəaliyyət istiqaməti kimi təsbit edilmişdir [2].

Bu proqrama müvafiq olaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi gənclərin səmərəli məşğulluğunun təminatı sahəsində müvafiq tədbirlər həyata keçirilir. Cari ilin birinci yarımili ərzində DMX tərəfindən münasib işlə təmin edilən 13676 min nəfərdən 5647 nəfərini, habelə peşə hazırlığı və əlavə təhsil kurslarına cəlb olunan 1800 nəfərdən 1454 nəfərini gənclər təşkil edib. Dövlət Məşğulluq Xidməti (DMX) tərəfindən təşkil edilmiş peşə hazırlığı kursunu bitirən internat məktəbinin 12 nəfər məzununa peşə sertifikatları təqdim olunub. Dövlət uşaq müəssisələrinin məzunu olan, hər iki valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş gənclərə dövlətimizin diqqət və qayğısı bir vətəndaş kimi məndə qürur hissi doğurur.

Yuxarıda sadalanan sosial qruplara əlavə olaraq narkomaniyaya düçar olmuş gənclərin məşğulluq problemləri actual problemlərdəndir. Təəssüf hissi ilə qeyd etmək istəyirəm ki, narkomaniya masir dövrümüzdə bəşəriyyətin qarşılaşdığı ən geniş miqyaslı problemdir. BMT-nin 1987-ci il Konvensiyasına daxil olan ölkələrin "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" Bəyannaməsinə əsasən 26 iyun "Narkomaniya və narkotiklərin qeyri-qanuni dövriyyəsinə qarşı Ümumdünya mübarizə günü" kimi qeyd olunur.

Nəzərə alsaq ki, narkotik maddələrə alüdə olmuş insanların arasında gənclər üstünlük təşkil edir, bu problemlin nəinki bu gün, gələcəkdə də bizi qarabaqara izləyəcəyini gözləyirik. Başqa dövlətlərlə müqayisədə respublikamızda narkotizm geniş yayılmamışdır . Lakin yaddan çıxartmamalıyıq ki, narkomanlıq yoluxucu xəstəlikdir, üstəlik də QİÇS-ə aparan bir yol kimi, gizli şəkildə, sürətlə yayılmaq xüsusiyyətlərinə malikdir. Narkomaniyaya düçar olmuş gənclərlə heç kim işləmək və ya işə götürmək istəmir. Bu da normaldır. Bu qrupdan olan şəxslərə qarşı cəmiyyətdə etibarsızlıq, qorxu kimi hisslər formalaşmışdır.

Fikrimizcə, narkomaniyaya düşar olmuş gənclər valideynlər, müxtəlif təşkilatlar, dövlət qurumları tərəfindən sosial-psixoloji, mənəvi həm də məşğulluq sahəsində dəstəklənməlidirlər. Çünki, yalnız tibbi yardım ilə narkomaniyaya düçar olmuş gəncə kömək etmək olmaz. Əlil gənclər, narkomaniyaya düçar olan gənclər iş tapmaqda ciddi problemlərlə üzləşirlər.

Müxtəlif sosial qruplarda təmsil olunan gənclər ailələrinin sosial təminat səviyyəsindən asılı olaraq daha tez və yaxud ali təhsilini başa çatdırdıqdan sonra, gənclərin təhsil səviyyəsindən, müasir kommunikasiya vasitələrinə və xarici dillərə yiyələnmə səviyyəsindən, işaxtaran və işverənlərin qarşılıqlı razılaşması əsasında əmək fəaliyyətinə başlayırlar.

Gənclərin məşğulluğunu təmin etmək üçün aşağıdakı təklifləri məqsədə müvafiq hesab edirəm:

- Ali məktəb tələbələri əmək bazarında tələb olunan ixtisaslara uyğun ixtisaslarda təhsil almalı, müasir biliklərə, xaricı dillərə, kompyuter biliklərinə malik olmalıdırlar.

- Təhsil müəssisələrində əmək bazarının tələblərinə uyğun ixtisaslara tələbələr qəbul olunmalı və ali təhsil alanların sayı əmək bazarındakı tələbə uyğunlaşdırılmalıdır.
- Əlil gənclərin və digər sosial qruplarda təmsil olunan gənclərin məşğulluğunun təmin edilməsi ilə bağlı Azərbaycan Respublikasının Sosial Müdafiə Nazirlilyi, həmkarlar ittifaqları, məşğulluq mərkəzləri, icra hakimiyyətləri qarşılıqlı əlaqədə fəaliyyət göstərməli, hər bir gəncin məşğulluq probleminin həllində yaxından iştirak etməlidir.
- Müxtəlif növ layihələrdə, xidmət sahələrində gənclərin yaxından iştirak etməsi üçün əlaqələndirici qurumların yaradılaraq fəaliyyətinin təmin edilməsinə zərurət vardır.

ƏDƏBİYYAT

1.Azərbaycan Respublikasının Əmək Məcəlləsi. Bakı: Hüququ Yayın Evi, 2019, 256 s.
2. Azərbaycan Respublikasının Prezidentinin 7 iyul 2011-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı/ www.e-qanun.az
3. "Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun yaradılması haqqında" Azərbaycan Respublikasının Prezidentinin19 dekabr 2011-ci il tarixli sərəncamı/ www.e-qanun.az
4. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2020, https://www.stat.gov.az
5. «Məşğulluq haqqında» AR-nın 29 iyun 2018-ci il tarixli Qanunu/ www.e-qanun.az
6. Qədirov Ə.Ə.Yaş psixologiyası. Bakı:Təhsil, 2002, 448 s.
7. http://www.e-sosial.gov.az

SOSİAL QRUP KİMİ GƏNCLƏRİN MƏŞĞULLUQ PROBLEMİNİN XÜSUSİYYƏTLƏRİ

Cəfərova V.Ş.

XÜLASƏ

Gənclərin məşğulluğunun təmin olunması dövlətin iqtisadi, sosial siyasətinin tərkib hissəsidir. Müxtəlif sosial qruplarda təmsil olunan gənclərin məşğulluq probleminin həlli qanunlarla, məşğulluq strategiyaları ilə, layihələrlə tənzimlənir. Gənclərin məşğulluq sahələrinin genişləndirilməsi, peşə və ixtisaslarına fərdi qabiliyyətlərinə, bazarın tələblərinə uyğun işçilərin formalaşdırılması üçün tədbirlər, proqramlar, layihələr həyata keçirilir. Müxtəlif sosial qruplarda təmsil olunan gənclərin əmək ehtiyyatlarından səmərəli istifadə əmək məhsuldarlığının yüksəldilməsinə, iqtisadi inkişafa səbəb ola bilər. Müxtəlif sosial qruplarda təmsil olunan gənclərin əmək bazarında işlə təmin olunması cəmiyyətdə məşğulluğun inkişafına, layiqli həyatın təmin olunmasına, işçi qüvvəsinin bacarıqlarının yüksəlməsinə, əmək məhsuldarlığının artmasına səbəb olacaq.

ПРОБЛЕМА ЗАНЯТОСТИ КАК СОЦИАЛЬНОЙ ГРУППЫ МОЛОДЕЖИ

Джафарова В.Ш.

АННОТАЦИЯ

Обеспечение занятости молодежи – неотъемлемая часть экономической и социальной политики государства. Решение проблемы занятости молодежи в различных социальных группах регулируется законами, стратегиями занятости и проектами. Реализуются меры, программы и проекты по расширению занятости молодежи, формированию сотрудников в

соответствии с их индивидуальными способностями, профессиями и специальностями, требованиями рынка. Эффективное использование трудовых ресурсов молодежи, представленной в различных социальных группах, может привести к повышению производительности труда и экономическому развитию. Вовлечение молодых людей из разных социальных групп на рынок труда приведет к развитию занятости в обществе, обеспечению достойной жизни, повышению квалификации рабочей силы, повышению производительности труда.

THE PROBLEM OF YOUTH EMPLOYMENT AS A SOCIAL GROUP FEATURES

Jafarova V.Sh.

SUMMARY

Ensuring youth employment is an integral part of the state's economic and social policy. The solution to the problem of youth employment in various social groups is regulated by laws, employment strategies and projects. Measures, programs and projects are being implemented to expand the employment of young people, to form employees in accordance with their individual abilities and market requirements. Effective use of labor resources of young people represented in different social groups can lead to increased labor productivity and economic development. The employment of young people from different social groups in the labor market will lead to the development of employment in society, ensuring a decent life, improving the skills of the workforce, increasing labor productivity.

İQTİSADİYYAT, İDARƏETMƏ VƏ POLİTOLOGİYA

AZƏRBAYCANDA "VƏTƏN MÜHARİBƏSİ" TÜRKİYƏ VƏ RUSİYA KİV-DƏ

s.e.ü.f.d. Zeynalova Aytəkin Əli qızı
BDU-nun Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının müəllimi
Süleymanlı Lamiyə Nurbala qızı
BDU-nun magistrantı

Açar sözlər: İnformasiya sahəsi, dövlət siyasəti, Dağlıq Qarabağ, Türkiyə, Rusiya, media, informasiya, dünya, hüquq, normativ.
Ключевые слова: Информационное поле, государственная политика, Нагорный Карабах, Турция, Россия, медиа, информация, число, мир, законодателствы, норматив..
Keywords: Information field, state policy, Nagorno-Karabakh, Turkey, Russia, media, information, world, law, normative.

Müasir dövrdə dünya jurnalistikasında geniş formada eyniləşmə prosesi müşahidə olunur. Bu meyllər hazırda media sahəsində hökmranlıq edir. Zaman axarında Avropa ölkələrinin jurnalist təcrübəsində, KİV qanunvericiliyində oxşar, ortaq meyarlar yaranır və bu yaxınlaşma getdikcə daha da güclənir, qabarıq şəkil alır. Beynəlxalq təşkilatlar meydana gəldiyi dövrdə isə bu universallaşma prosesi sürətlənir (1).

İstənilən ölkənin siyasəti münaqişələrin həlli prosesi gedişində daha çox nəzərə çarpır. Bu zaman yalnız həmin tərəflərin deyil, eyni zamanda coğrafi baxımdan yaxın, dil,din və s. kimi faktorlara görə yaxın ölkələrin informasiya siyasəti də açıq aşkar ortaya qoyulur (2). Həmçinin İkinci Dağlıq Qarabağ vətən müharibəsi də bir sıra ölkələrin informasiya sahəsində dövlət siyasətini daha qabarıq şəkildə ortaya qoydu və onların müqayisəli cəhətlərini aşkara çıxardı.

Bu istiqamətdə əsas aktivlik isə Türkiyə və Rusiya KİV-də müşahidə olundu. Bu ölkələrin Dağlıq Qarabağ vətən müharibəsi ilə bağlı tamamilə bir-birlərinə zidd informasiya siyasəti yürütdükləri bəlli oldu. Məsələn, dünya mediasında Azərbaycan və Ermənistan arasında şiddətli döyüşlərlə yanaşı, kiber müharibə getdiyi bəyan edildi. Türkiyə mediası - xüsusilə də ahaber.com və huriyyet.com.tr saytları kiber savaşın öncə Ermənistan tərəfindən başladığını yazırdılar. Türkiyə mediasında bildirilirdi ki, ermənilər Azərbaycanın gov.az dövlət saytına hücum ediblər. Bir müddət sonra saytın fəaliyyəti dayandırılıb. Nəticədə türklər Ermənistanın bir sıra dövlət əhəmiyyətli saytlarına hücum etməyə başlayıblar.

Türkiyənin informasiya sahəsində dövlət siyasətinə uyğun olaraq, xəbərlərdə "Azərbaycan xalqı Ermənistanın kiber hücumunu cavabsız qoymadı" cümləsi yer aldı. Nəticədə Ermənistan Türkiyə vətəndaşlarının erməni saytlarına İP girişinə məhdudiyyət qoydu. Buna baxmayaraq, türkiyəlilər VPN proqramları vasitəsilə digər ölkələr üzərindən daxil olaraq bir neçə erməni saytlarına hücum etdilər. Nəticədə Ermənistanın e-dövlət sistemi çökdü. (12). Rusiya mediası isə İnformasiya sahəsində dövlət siyasətinə uyğun olaraq prosesi əksinə işıqlandırırdı, Azərbaycan tərəfindən edilən kiber hücumların cavabsız qalmadığını bildirirdi. Bundan əlavə, Türkiyə mediasında mütəmadi olaraq cəbhə gündəliyi tipində materiallar yayımlanırdı. Bu Azərbaycanın informasiya sahəsində dövlət siyasətinin əsas istiqamətləri ilə üst-üstə düşürdü. Mütəmadi olaraq Ermənistanın mülki əhalini atəşə tutması, 100-dən çox ölkə tərəfindən qadağan olunan kasetli bombalardan istifadə etməsi, bunkerlərdə yaşamağa məcbur olan əhalinin dilindən fotoreportajlar və s. yayımlanırdı. Həmçinin Türkiyə rəsmilərinin Azərbaycanın mövqeyini

müdafiə edən bəyanat və nitqləri də ölkəmizin informasiya sahəsində dövlət siyasəti ilə üst-üstə düşürdü (12).

Rusiyanın kütləvi inforfmosiya vasitələri də Azərbaycanın "Vətən müharibəsi"ni çox yaxından izləyib geniş işıqlandırırdı. Türkiyə mediası Azərbaycana dəstək nümayiş etdirdiyi halda Rusiya mediası isə müxtəlif mövqelərdən çıxış edirdi. Amma daha çox ermənipərəst çıxışları qabarıq gözə çarpırdı. Bu Ria novosti, Lenta.ru, Qazeta.ru, İtartass və s.-nin materiallarında açıq aşkar görünürdü. Vladimir Sovolyovun verilişi isə informasiya sahəsində yürütdüyü şəxsi siyasətinin bariz nümunəsi idi. Rus mediasında mütəmadi olaraq Azərbaycan tanklarının məhv edildiyi yazılır, Ermənistanın hazırladığı saxta video materiallar yayımlanırdı. Xeyli canlı qüvvəmizin Ermənistan tərəfindən məhv edildiyini yazır, sonra çox kiçik şəkildə mövqeyimizi bildirməklə kifayətlənir, guya jurnalistikanın qərəzsizlik prinsiplərinə riayət edirdilər. Məsələn, sonda "Azərbaycan tərəfi isə deyilənləri inkar edir" cümləsini yazırdılar. Ümumiyyətlə, bəzən rus mediasındakı yazılarda qərəzsizlik müşahidə olunsa da, başlıqlar birmənalı olaraq qıcıqlandırıcı idi, "Azərbaycan hücum edib", "işğal edib", "geri çəkilib", "yaşayış məskənlərini bombalayıb" və s. sözlərə yer verilirdi (6). WarGonzo layihəsinin müəllifi, rusiyalı hərbi jurnalist Semyon Peqov Beynəlxalq Qırmızı Xaç Komitəsinə məxsus olan və cəsədləri toplamaq üçün nəzərdə tutulmuş maşına minib, Hadruta daxil olaraq, rahat bir yerdə maşından düşərək video və fotolar çəkərək, yayırdı, Hadrutun Azərbaycan tərəfindən azad edildiyi halda ermənilərin nəzarətində olduğunu iddia edirdi (4). O, Azərbaycan əsgərinin Beynəlxalq konvensiya və razılaşmaya əsasən həmin maşına atəş açmayacağını bildiyi üçün belə arxayın davranırdı.

Daha bir məqam: Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyanın RBK televiziya kanalına müsahibəsində bir rus jurnalistin "Mən Bakıda gəzəndə çoxlu Azərbaycan bayrağı gördüm, bir qədər az, lakin yenə də çox sayda Türkiyə bayrağı gördüm və bircə dənə də Rusiya bayrağı görmədim. Bu, o deməkdirmi ki, Azərbaycanda Rusiyanın təsiri azalıb və ya Azərbaycanda insanların Rusiyaya münasibəti dəyişib?" sualına cavabı həm Azərbaycan, həm də Rusiyanın informasiya sahəsində dövlət siyasətini ortaya qoyur:

"-Düşünmürəm ki, münasibət dəyişib. Türkiyə bayraqlarının çox olması təbiidir. Biz qardaş xalqlarıq. Bu gün Türkiyə ilə Azərbaycan arasında etimad, qarşılıqlı dəstək və münasibətlərin səviyyəsi elədir ki, mənim fikrimcə, dünyanın hər hansı başqa, hətta ən yaxın ölkələri arasında elə səviyyə yoxdur. Bu, reallıqdır və bu reallığı biz yaratmışıq – Türkiyənin və Azərbaycanın rəhbərliyi. Özü də məsələ bizim ortaq köklərimizlə və ortaq tariximizlə bağlı deyil. Dünyada Türkiyə və Azərbaycan kimi etnik kökləri yaxın olan, lakin öz aralarında döyüşən xalqlar var. Bu, sizə də çox yaxşı məlumdur. Yaxud bir-biri ilə intriqa aparırlar. Buna görə Azərbaycanda Türkiyə bayraqlarının olması reallıqdır və əgər siz Türkiyəyə getsəniz orada da çox yerlərdə Azərbaycan bayraqlarını görərsiniz.Siz artıq bir neçə gündür ki, buradasınız və erməni işğalı amilinin insanların ovqatına nə dərəcədə təsir göstərdiyini bilirsiniz. İnsanlar hər bir sözü, hər bir jesti, hər bir mimikanı duyurlar. Əlbəttə, açıq deməliyəm, bu müddətdə, bu günlər, bu həftələr ərzində bəzi Rusiya kanallarında qatı antiazərbaycan təbliğatını, tok-şouların iştirakçılarının saxtakarlığını, manipulyasiyasını, iştirakçılar heyətinin tarazlaşdırılmış olmamasını görəndə, Rusiyanın aparıcı telekanallarında Azərbaycan xalqı, Azərbaycan Prezidenti təhqir ediləndə, əlbəttə, bunlar Rusiyanın nüfuzunu artırmır. Mən bu məsələni Rusiya rəhbərliyinin diqqətinə çatdırmışam. O mənada yox ki, bunlar bizi narahat edir, Azərbaycan cəmiyyəti və ictimai fikri Azərbaycanın daxilində formalaşır. O mənada ki, belə münasibət haçansa bizim planlarımızda müəyyən çətinliklərə gətirib çıxara bilər. Rusiya ilə biz qarşılıqlı əlaqələri daha da inkişaf etdirməyi planlaşdırırıq. Hazırda biz iqtisadi və digər sahələrdə əməkdaşlıq üzrə beş yol xəritəsi üzərində fəal iş aparırıq. Siyasi baxımdan çox yaxşı məsələlər var. Lakin bu müddətdə Rusiya

mediasında üzləşdiyimiz informasiya hücumu, əlbəttə, ictimai fikirdə Rusiyaya münasibətə böyük ziyan vurub. Düşünürəm ki, bu vəziyyəti qaydaya salmaq üçün vaxt və hər iki tərəfin rəhbərliyinin səyləri lazım gələcək" (5).

Göründüyü kimi, Rusiyalı jurnalistin Azərbaycanda onun ölkəsinin bayraqlarının gözə dəyməməsi narahat edir, səbəbini bizdə axtarmağa çalışır. Lakin Prezident İlham Əliyev ona və dolayısı ilə Rusiyanın başında duranlara izah edir ki, problem bizdə deyil, sizdədir. Cənab Prezidentin müsahibədə "Dünyada Türkiyə və Azərbaycan kimi etnik kökləri yaxın olan, lakin öz aralarında döyüşən xalqlar var". deyərkən Rusiya və Ukraynanı nəzərdə tutması isə çoxlarına məlumdur və bu kimi nüanslar Azərbaycanın informasiya sahəsində dövlət siyasətinin detallarının bariz nümunəsidir.

Ermənilərin Gəncədəki sivil əhalini dəfələrlə raket atəşinə tutması, terror törətməsi hadisələrinə dünya ölkələrinin susma siyasətinin onların mediasına da təsir etdiyi aydın göründü. Gəncədəki fotoların saxta olduğunu, Suriyada çəkildiyini iddia edən xarici media mənsubları da az olmadı. Və bu sıravi jurnalistlərin deyil,mənsub olduqları ölkələrin informasiya siyasətinin bariz göstəricisi idi. Müharibə dövründə informasiya siyasəti yalnız sayt, qəzet və televiziyalarda deyil, həm də sosial şəbəkələrdə aydın şəkildə görünürdü. Türkiyə və Azərbaycan rəsmilərinin sosial şəbəkələrdəki paylaşımları, iki ölkənin birliyini ifadə etmələri, dünya ölkələrini terrorizmlə mübarizəyə səsləmələri buna nümunədir. Prezident köməkçisi Hikmət Hacıyevin 17 oktyabrda Gəncə terrorunda vəfat edən, 18 oktyabrda doğum günü olan balaca Nigarı təbrik etməsi, təbrik də "düşmənimiz qaniçən erməni olduğu üçün bizi bağışla, Nigar" deməsi, sonda isə terroru lənətləməsi ölkə rəsmilərinin necə sadə, səmimi detallara söykənərək ustalıqla informasiya siyasəti yürütmələrinə sübutdur.

Münaqişənin belə dəhşətli epizodlarla davam etdiyi vaxtda Rusiya mediasında "Şuşa bombalandı", "Ermənistanın dinc sakinləri bombalandı" kimi başlıqlar yer alırdı. Komsomolskaya pravda Gəncədəki terror nəticəsində dağıdılmış binanın görüntülərini yayımlayaraq onu Stepanakertdə vurulmuş bina kimi təqdim etdi. Oxucuların sosial şəbəkələr və gmail vasitəsilə etirazlarından və Azərbaycanın media qrumu olan REAL TV-nin Komsomolskaya pravda redaksiyasına müraciətindən sonra materiala düzəliş edildi. Digər rus media qurumları isə Gəncə ilə bağlı bircə cümləlik xəbər verərək sonda "Ermənistan tərəfi bunu təkzib edir" yazmaqla kifayətlənirdilər. Xəbərlərdə "tanınmamış Dağlıq Qarabağ" ifadəsini tez-tez işlədir, Azərbaycanda xaricdən gətirilmiş terrorçuların döyüşdüyünü yazırdılar. Yalnız redaktorlarından biri Azərbaycanda doğulan Mixail Qusman olduğu üçün İTAR TASS informasiya agentliyi qərəzini digərləri ilə müqayisədə az nümayiş etdirirdi (7).

Ən dəhşətlisi isə CBC World-un Gəncədəki terrorunun fotolarını paylaşaraq "Azərbaycanın atəşi nəticəsində 13 nəfər dünyasını dəyişib" yazması idi. Müharibə gedişində aydın oldu ki, hər kəs hər şeyi çox yaxşı anlayır. Lakin dünya ölkələrinin informasiya sahəsində dövlət siyasəti bəzən mediadan bütün həqiqətlərə kar, kor, lal olmağı tələb edir.

"HaberGlobal" telekanalı 04/10/2020, 17/10/2020 tarixlərində Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncənin bombalanmasını birbaşa efirə verərək, ermənistanın yenə də mülki əhalini hədəfə almasını dünyaya duyurdu. Amma düşmən Gəncədəki bu terroru guya hansısa erməni şəhərində baş verən bir olay kimi təqdim etməyə çalışırdı. Haber Globalın müxbirləri Azərbaycan-Ermənistan təmas xəttindən xüsusi buraxılışlarla cəbhədəki son vəziyyəti ictimaiyyətə daha düzgün və dolğun çatdırırdı.

Habertürk telekanalında işğalçı Ermənistanla Azərbaycan arasındakı Dağlıq Qarabağ gərginliyindən bəhs edən Azərbaycan Prezidenti İlham Əliyev son hadisələri belə şərh etdi:

"Beynəlxalq aləmə demək istədiyim fikirlər isə Ermənistan rəhbərliyinin son günlər dilə gətirdiyi iki cəfəng bəyanata münasibətdən ibarətdir.Sentyabrın 27-dən bəri həm Ermənistan,

həm də onlardan alət kimi istifadə edən ölkələrin bəzi mətbuat vasitələri yazırlar ki, Azərbaycan Ordusunun Dağlıq Qarabağa hücumları nəticəsində çoxlu sayda dinc sakin həlak olur və mülki obyektlərə dağıdıcı zərbələr vurulur. Guya ona görə də Dağlıq Qarabağın Azərbaycana qaytarılmasından sonra sülhdən danışmaq mümkün olmayacaq".

Azərbaycan Prezidentinin "Haber Türk"ə müsahibəsində isə bu əsassız ittihama olduqca aydın və konkret cavab verilir: "Sülhdən sonrakı dönəmə gəlincə, bizim mövqeyimizdə hər hansı bir dəyişiklik yoxdur. Bizim mövqeyimiz tarixi ədalətə, beynəlxalq hüquqa və dünyada mövcud olan müsbət təcrübəyə əsaslanır. Yəni, birinci mərhələdə işğal olunmuş rayonlardan erməni silahlı qüvvələri çıxarılır. Prinsip etibarilə bu məsələ artıq Minsk qrupu çərçivəsində təsbit edilib, beş rayon, ondan sonra iki rayon, ondan sonra Dağlıq Qarabağın özündən, Şuşadan, Xankəndidən orada bir çox kəndlərdə azərbaycanlılar yaşayıblar. Azərbaycan vətəndaşları oraya qayıdır və Dağlıq Qarabağın gələcəyi ilə əlaqədar müzakirələr davam edir. Ancaq yeni bir şəraitdə, yeni bir iqlim çərçivəsində. Artıq biz sülhə daha da yaxınlaşacağıq. Ona görə orada yaşayan ermənilərlə əlaqədar bizim mövqeyimizdə dəyişiklik yoxdur".

Prezident xatırladır ki, Azərbaycan çoxmillətli dövlətdir, ölkəmizin müxtəlif yerlərində, ilk növbədə, Bakı şəhərində minlərlə erməni yaşayır və onlar bizim vətəndaşlarımızdır. Bizim ölkəmizdə bir çox millətlər yaşayır və bu, ölkəmizin gücünü artırır:"Ona görə Dağlıq Qarabağda yaşayan ermənilər narahat olmasınlar. Biz onların canını o kriminal xunta rejimindən qurtarandan sonra onlar daha yaxşı yaşayacaq, daha güvənli, daha təhlükəsiz şəraitdə yaşayacaq və onların rifahı daha da artacaq. Çünki orada indi səfalət hökm sürür".

Dünya ictimaiyyətinə demək istədiyim ikinci məsələ isə ermənilərin islamofobiyası və Türkiyə faktorundan qorxmalarıdır. Onlar beynəlxalq aləmdə həyasızcasına vay-şivən qaldırırlar ki, Türkiyənin Dağlıq Qarabağ münaqişəsinin həllinə cəlb edilməsi ədalətsizlikdir və buna yol vermək olmaz. Ancaq Prezident İlham Əliyevin dediyi kimi, Türkiyə–Azərbaycan birliyi bölgəyə sabitlik, sülh gətirir.

Dövlət başçımız müsahibəsində dedi ki, "müharibə başa çatandan sonra, əlbəttə ki, nəinki bölgə, dünya dəyişəcək: Artıq dəyişir. Hər kəs bizim gücümüzü gördü. Bizimlə hesablaşmaq səviyyəsi daha da artacaq. Onsuzda müəyyən regional məsələlərdə Azərbaycanın rolu çox önəmlidir, o daha da artacaq. Təbii ki, Türkiyə–Azərbaycan birliyi daha da möhkəm olacaq. Bu da həm Türkiyə, həm Azərbaycan üçün həyati əhəmiyyət, önəm daşıyır. Türkiyə–Azərbaycan birliyi bölgəyə sabitlik, sülh gətirir" (4).

Bu müsahibədə region ölkələri və dünya ictimaiyyəti üçün önəm kəsb edən məqamlar da var idi. Belə ki, erməni ideoloqları və bəzi ermənipərəst siyasətçilər həmişəki kimi, yenə də əsassız iddialar irəli sürürlər ki, iş bərkə düşərsə yəni Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməkdə israrlı olarsa, onda Ermənistan dövləti və bəzi başqa ölkələr Dağlıq Qarabağın müstəqilliyini tanıya bilər. Səhv edir və gözlərinin içinə qədər yalan danışırlar.Bu barədə danışan Azərbaycan Prezidenti bütün dünyanın eşitdiyi tərzdə deyir ki, Ermənistanın hazırda göstərdiyi cəhdlər yersizdir və onların özləri üçün zərərlidir: "Çünki birinci növbədə heç bir ölkə Azərbaycanın ayrılmaz hissəsi olan və beynəlxalq hüquq baxı-mından Azərbaycana mənsub olan Dağlıq Qarabağa müstəqillik verməyəcək, onu tanımayacaq. Belə olan halda, bu cəhdlər səmərəsiz qalacaq. Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınıb (13).

Cənab Prezident bir daha dünyaya bildirdi ki, "Bir sözlə, döyüş meydanında bizim üstünlüyümüz artıq heç kimə sirr deyil. Biz haqq yolundayiq. Bizim işimiz haqq işidir. Biz öz torpağımızda vuruşuruq, şəhidlər veririk, öz ərazi bütövlüyümüzü bərpa edirik. Bundan sonra da bu addımlar atılacaq. Ermənistan yenidən nə qədər gec deyilsə, bəyənat verməlidir ki, işğal edilmiş torpaqlardan çıxıram. Ondan sonra döyüşlər dayana bilər".

Boşu boşuna jurnalistikaya IV hakimiyyət adı verilmir. Bu ad medianın, KİV-in, jurnalistikanın təsir qüvvəsinə görə verilir. Jurnalistikanın isə ən əsas prinsiplərindən biri qərəssizlik prinsipidir. Doğrunu, düzgünü işıqlandırma prinsipidir. Və bu prinsiplərə dayanaraq deyə bilərəm ki,"Dağlıq Qarabağ" vətən müharibəsi Rusiya ilə Türkiyə KİV-də öz müsbət və mənfi tərəflərini əks etdirir. Türkiyə mediası yalnız döğruları göstərib şərh edərkən, Rusiya mətbuatı həm qərəzli, həm də qərəzsiz yanaşması ilə tarixə yazıldı.

ƏDƏBİYYAT

1. Məmmədli S. "Beynəlxalq jurnalistika dünya media sistemində" Bakı, "Bakı Universiteti", 2013 .
2. Niyazov X. "Dövlət İnformasiya siyasəti" Bakı, 2016
3. Yaqublu N, Rüstəmli A, "Xarici ölkələrin jurnalistikası" 2007
4. https://president.az/articles/42869
5. "Rossiya – 24" televiziya kanalı.
6. https://ria.ru/
7. https://tass.ru/
8. https://www.ahaber.com.tr/
9. https://www.hurriyet.com.tr/
10. https://lenta.ru/
11. https://www.cbc.ca/news/world/azerbaijan-armenia-attack-ceasefire-1.5766622
12. https://www.hurriyet.com.tr/dunya/siber-savas-da-basladi-41623021
13. http://xalqqazeti.com/az/news/59955
14. http://azia.az/cemiyyet/14098-wargonzo-nun-qirmizi-xach-firildagi-foto.html

AZƏRBAYCANDA "VƏTƏN MÜHARİBƏSİ" TÜRKİYƏ VƏ RUSİYA KİV-DƏ

Zeynalova A.Ə., Süleymanlı L.N.

XÜLASƏ

Məqalədə Azərbaycan Respublikasının informasiya sahəsində dövlət siyasətinin əsas istiqamətləri, Türkiyə və Rusiya KİV- də yeri və rolu araşdırılır. Xüsusilə də ikinci Dağlıq Qarabağ müharibəsi gedişində Türkiyə və Rusiyanın informasiya sahəsində dövlət siyasəti onların mediasına nəzərən təhlil olunur. Mediada ortaya qoyulan ikinci "Dağlıq Qarabağ" münaqışəsi məsələsi göstərilir. Türkiyə Azərbaycan birliyi təkcə siyasi arenada yox, istər Türkiyə mediasında istərsə də dünya mediyasında bir daha bu çətin dönəmdə özünün mövqeyini dünyaya göstərdi. Ikinci "Dağlıq Qarabağ" münaqişəsinin Türkiyə ilə Rusiya KİV-də öz müsbət və mənfi tərəflərini əks etdirirlməsi təhlil olunur.

В АЗЕРБАЙДЖАНЕ «ОТЕЧЕСТВЕННАЯ ВОЙНА» В ТУРЕЦКИХ И РОССИЙСКИХ СМИ

Зейналова А.А., Сулейманлы Л.Н

.

АННОТАЦИЯ

В статье исследуются основные направления государственной политики Азербайджанской Республики в области информации, место и роль турецких и российских СМИ. В особенности во время Второй нагорно-карабахской войны государственная информационная политика Турции и России анализируется в отношении их СМИ. В СМИ освещается вопрос второго нагорно-карабахского конфликта. Турецко-азербайджанский союз еще раз продемонстрировал миру свою позицию в этот непростой период не только на политической арене, но и в турецких и мировых СМИ. Турецкие и российские СМИ анализируют положительные и отрицательные стороны второго нагорно-карабахского конфликта.

TURKEY AND RUSSIA MEDIA ABOUT “WAR OF THE PLAGUE” OF AZERBAIJAN

Zeynalova A.A., Suleymanli L.N.

SUMMARY

The article examines the main directions of the state policy of the Republic of Azerbaijan in the field of information, its place and role in the Turkish and Russian media. Especially during the Second Nagorno-Karabakh War, the state information policy of Turkey and Russia is analyzed in relation to their media. The issue of the second Nagorno-Karabakh conflict has been highlighted in the media. The Turkish-Azerbaijani union has once again shown its position to the world in this difficult period, not only in the political arena, but also in the Turkish and world media. The Turkish and Russian media are analyzing the positive and negative aspects of the second Nagorno-Karabakh conflict.

ERMƏNİSTAN-AZƏRBAYCAN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ AZƏRBAYCAN-ATƏT ƏMƏKDAŞLIĞI KONTEKSTİNDƏ

Polkovnik, fəlsəfə üzrə fəlsəfə doktoru, professor Quliyev Bəbir Şərqi oğlu
Polkovnik, magistrant İbrahimov Rəşad Miraslan oğlu
Silahlı Qüvvələrin Hərbi Akademiyası

Açar sözlər: ATƏT, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, işğal olunmuş ərazilər, yüksək status, baza prinsiplər
Ключевые слова: ОБСЕ, Армяно-Азербайджанский Нагорно-Карабахский конфликт, оккупированные территории, высокий статус, основные принципы.
Keywords: OSCE, Armenian-Azerbaijani Nagorno-Karabakh conflict, occupied territories, high status, basic principles

1991-ci ilin sonlarında Sovet İttifaqının rəsmi buraxılması nəticəsində müttəfiq respublikalar müstəqillik əldə etmiş oldular. Həmin andan Dağlıq Qarabağ problem SSRİ-də daxili münaqişəsi vəziyyətindən çıxaraq dövlətlərarası səviyyəyə – Ermənistanın ölkəmizə qarşı ərazi iddiasından qaynaqlanan hərbi qarşıdurmaya çevrildi. İlk nizamlanma səyləri elə 1992-ci ilin başlanğıcından start götürməyə başladı. İranın məlim münaqişədə vasitəçilik cəhdləri ilə ATƏM Minsk Qrupunun (MQ) təsis edilməsi demək olar ki olduqca eyni vaxta təsadüf etmişdi. İranın qısamüddətli vasitəçilik (1992-ci ilin fevral-may) missiyasının uğursuzluğu fonunda ATƏM-in münaqişənin həllində sülhyaratma potensialı daha yüksək qiymətləndirildi. Məhz bu səbəbdən 1992-ci ildən başlayaraq bu təşkilatla qarşılıqlı əməkdaşlıq Azərbaycanın xarici siyasət kursunun əsas tərkib hissələrindən birinə çevrildi. Təkcə bir faktı xatırlamaq kifayətdir ki, 1993-2000-ci illər arasında Prezident Heydər Əliyev ATƏT rəhbərliyi və MQ təmsilçiləri ilə 130-dan çox görüş keçirmişdir [1,s.133].

1994-cü ilin dekabrında ATƏM-in Budapeştdə keçirilən Zirvə görüşündə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏM-in fəaliyyətinin intensivləşdirilməsi barədə qərar qəbul olundu. ATƏM dövlətlərinin başçıları nizamlamanın mərhələli xarakterini müəyyən edərək və ATƏM MQ-nin həmsədrlərinə silahlı münaqişənin dayandırılması barədə saziş hazırlamağı tapşırdı. Saziş bütün tərəflər üçün münaqişənin əsas nəticələrinin aradan qaldırılmasını özündə əks etdirməli və Minsk Konfransının çağırılması üçün əsas olmalı idi. Münaqişə zonasında sülhün təmin edilməsi üçün ATƏM-in çoxmillətli qüvvələrinin yerləşdirilməsi barəsində də qərar qəbul olundu.

1995-ci ilin yanvarın 1-dən ATƏM ATƏT-lə əvəz olundu. 1996-cı ildə ATƏT-in Lissabon Zirvə görüşü zamanı Prezident Heydər Əliyevin siyasi uzaqgörənliyi və müdrikliyi sayəsində Azərbaycanın mövqeyi Ermənistan istisna olmaqla, dünyanın 53 dövləti tərəfindən qəbul edildi və tanındı.

Münaqişənin nizama salınmasının baza formulu məhz həmin görüşdə müəyyən edildi. Ermənistan-Azərbaycan münaqişəsinin həllinə dair ATƏT-in iştirakçı dövlətləri tərəfindən (Ermənistan istisna olmaqla) aşağıdakı prinsiplərə razılıq verilmişdir:

1. Ermənistan Respublikasının və Azərbaycan Respublikasının ərazi bütövlüyü;
2. Dağlıq Qarabağa Azərbaycanın tərkibində ən yüksən özünüidarəetmə statusunun verilməsi;
3. Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinin təminatı.

Bununla da münaqişənin sülh yolu ilə həlli üçün dünya dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən dəstəklənən ədalətli hüquqi bünövrə yaradıldı və vasitəçilərin vəzifələri müəyyən olundu [2, c.195].

Bu sənəd Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini, beynəlxalq hüquqla müəyyən edilmiş sərhədlərinin toxunulmazlığını təsdiq etmiş oldu.

Bir çox politoloqların və siyasi ekspertlərin gəldikləri ümumi rəy Lissabon sammitində Azərbaycan diplomatiyasının qələbəsini şərtləndirən əsas amilləri ümumiləşdirməyə imkan verir: Birinci, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair ATƏT-in formalaşmış mövqeyi. Zirvə görüşündə Minsk qrupu məsələnin həllinin əsas prinsilərinin əks olunduğu və məhz Azərbaycan tərəfinin təklifləri əsasında hazırlanmış layihələri müzakirəyə çıxardı. Bu, ərazı bütövlüyünün qorunmasının başlıca şərt kimi qəbul edən ATƏT-in ədalətli yanaşmasma dəlalət edirdi. Ikinci, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı əvvəlki zirvə görüşlərindən fərqii olaraq Azərbaycan Respublikasının mövqeyinə rəğbət hissinin yüksəlməsı sammit ərəfəsində Avropanın və dünyanın aparıcı dövlətlərinin başçılarından Azərbaycan prezidentinin ünvanma daxil olmuş məktublarda bu məsələlərdə respublikanın haqq işini dəstələdiklərini bildirmişdilər. Üçüncü, Azərbaycanın mövqeyinin beynəlxalq hüquq normaları və ATƏT-in prinsipləri ilə tam uzlaşmasına, ışğala məruz qalmış ölkə kimi Azərbaycan torpaqlarının azad olunması zərurətinin diinya ictimaiyyəti tərəfindən dəstəklənməsinə artıq nail olunmuşdur. Nəhayət, beynəlxalq aləmdə Azərbaycanın sülhsevər, Ermənistanın isə işğalçı dövlət olması, Azərbaycan diplomatiyasının məqsədyöniü vs uzaqgörən siyasi fəaliyyəti Budapeştdən Lissabonadək ötən bir zaman ərzində, nəinki Minsk qrupunun işində, hətta bütün beynəlxalq və regional toplantılarda, dövlətlərarası ikitərəfli əlaqələrdə öz əksini tapmışdı [3, s. 248].

1999-cu il noyabrın 18-də ATƏT-in İstanbul zirvə toplantısında da Heydər Əliyev bir daha bəyan etdi ki, Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş əraziləri azad edilməlidir. Yalnız bundan sonra Azərbaycan Respublikasının tərkibində Dağlıq Qarabağa müvafiq status verilə bilər (4, s. 117).

Ümumiyyətlə, ulu öndər keçirilən hər bir rəsmi görüşdə və zirvə toplantılarında Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaradılmasına heç vaxt yol verilməyəcəyini bəyan etmişdir. Azərbaycan tərəfi konfliktin həllində "vasitəçilik inhisarı"nın bir dövlətin – konkret halda Rusiyanın əlində cəmləşməsini məqbul hesab etmirdi. Ona görə də qarşıda ilk növbədə ATƏT-də həmsədrlik məsələsi dururdu [5, s. 68]. Birinci həmsədr Fransa təyin olunmuşdur, lakin Heydər Əliyev bu namizədin Azərbaycan tərəfi ilə razılaşdırılmadığını əsas götürərək, haqlı olaraq buna qarşı çıxmışdı. Respublikanın Xarici İşlər Nazirliyi təşəbbüs göstərərək, Azərbaycan tərəfi üçün ABŞ-ın dövlət katibinin birinci müavini Strob Talbotun namizədliyinə üstünlük verdiyini bildirmişdir. Ermənistan tərəfindən olduqca soyuq qarşılanan üç sədrlik ideyası məhz belə yarandı. Son nəticədə 1997-ci il fevralın 10-da üç həmsədrlik real fakta çevrildikdən sonra konfliktin həlli yolunda diplomatik cəhdlər və səylər yeni vüsət aldı.

ATƏT-in Lissabon Zirvə görüşündən sonra Minsk qrupunun həmsədrləri dünyanın üç ən böyük dövləti - Rusiya, ABŞ, Fransa oldu. Həmsədrlər 1997-1998-ci illərdə regiona səfər edərək münaqişə tərəflərinə Dağlıq Qarabağ münaqişəsinin həllinə dair üç təklif təqdim etdilər. 1997-ci ilin iyununda həmsədrlər münaqişənin həllinə dair ilk konsepsiyalarını **"Dağlıq Qarabağ münaqişəsinin həllinə dair hərtərəfli saziş"** adlanan sənəd layihəsini hazırladılar və onu tərəflərə təqdim etdilər. Təklif bir paketdə ehtiva olunan iki anlaşmadan ibarət idi. Birinci anlaşma silahlı münaqişənin dayandırılmasını, ikinci isə Dağlıq Qarabağın statusunun müəyyən edilməsini nəzərdə tuturdu.

Silahlı qüvvələri iki mərhələdə çıxarmaq tövsiyə olunurdu. Birinci mərhələdə Dağlıq Qarabağdan şərqə və cənuba doğru indiki təmas xətti boyunca olan qüvvələr razılaşdırılmış xətlərə tərəf bir neçə kilometr geri çəkilir, bu zaman ATƏT-in çoxminli qüvvələrinin ön dəstəsini hərbi nöqteyi-nəzərdən əsaslandırılmış bufer zonasında ilkin qaydada yerləşdirməyə, tərəfləri bu xətt boyunca ayırmağa və qüvvələrin çıxarılmasının ikinci mərhələsində təhlükəsizliyin təmin edilməsinə imkan yaratmaq məqsədilə yüksək səviyyədə planlaşdırma qrupunun tövsiyələri lazımınca nəzərə alınmalıidi.

İkinci mərhələdə erməni qüvvələri Ermənistan Respublikasının sərhədləri daxilinə aparılır, Dağlıq Qarabağ qüvvələri Dağlıq Qarabağ Muxtar Vilayətinin 1988-ci ildəki hüdudları daxilinə qaytarılır, Azərbaycan qüvvələri yüksək səviyyədə planlaşdırma qrupunun tövsiyələri əsasında razılaşdırılmış xətlərə çəkilir.

Status adlanan ikinci sazişdə isə Azərbaycanın və Ermənistanın ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının tanınması əsas prinsip kimi göstərilirdi, bu sənədə görə, Dağlıq Qarabağ Azərbaycanın tərkibində dövlət və ərazi qurumudur və onun öz müqəddəratını təyin etməsi Azərbaycan Respublikası ilə Dağlıq Qarabağın hakimiyyət orqanlarıarasında sazişdə rəsmiləşdiriləndən, Minsk Konfransı tərəfindən bəyəniləndən, Azərbaycanın və Dağlıq Qarabağın konstitusiyalarında inkorporasiya olunandan sonra mümkündür.

Belə bir razılaşmanın olduğu halda isə Dağlıq Qarabağ və Naxçıvan Ermənistan və Azərbaycanla sərbəst, maneəsiz nəqliyyat vərabitə əlaqəsi saxlamaq hüququna malik ola bilərdilər. Bundan başqa, Dağlıq Qarabağın inzibati sərhədləri keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin sərhədləri üzrə müəyyən edilməliydi. Saziş layihəsində Dağlıq Qarabağın konstitusiyasının olmasının mümkünlüyü də göstərilirdi. Lakin həmin konstitusiya bu sənəd əsasında öz müqəddəratınıtəyin etmək formasıhaqqında Dağlıq Qarabağın hakimiyyət orqanları ilə Azərbaycan arasında rəsmi sazişi inkorporasiya etməli idi. Sənəddə Dağlıq Qarabağın özünün qanunverici orqanının olması, milli qvardiya saxlamasıda öz əksini tapmışdı.

Bir sıra çatışmazlıqlarına baxmayaraq, Azərbaycan tərəfi təklifi qəbul etdiyini bildirdi. Məsələ burasındaydı ki, saziş layihəsi adlandırılmasına baxmayaraq, bu sənəddə münaqişənin həllinin dəqiq mexanizmləri yox, əslində danışıqlar prosesinin təxmini istiqamətləri əks olunmuşdu və buna görədəAzərbaycan tərəfi layihənin əsas kimi qəbulundan imtina etmədi. Digər tərəfdən, çox güman ki, Ermənistanın bu layihə ilə razılaşmayacağını Azərbaycan proqnozlaşdırmışdı və proseslərin sonrakı inkişafı proqnozları doğrultdu.

Ermənistan hakimiyyəti və Qarabağda məskunlaşmış separatçı rejimin rəhbərləri təklifi rədd etdilər. Bu, qarşı tərəfin dialoqa hazır olmadığını nümayiş etdirən növbəti fakt kimi Azərbaycana çox lazım idi.

Elə həmin ilin sentyabrında həmsədrlər regiona yeni təkliflər paketi ilə gəldilər. Münaqişənin **"mərhələli həll" planını** nəzərdə tutan "Dağlıq Qarabağ silahlı münaqişəsinin dayandırılması haqqında" adlı yeni saziş layihəsi Azərbaycan üçün əvvəlkindən daha məqbul idi və oktyabrın 1-dərəsmi Bakı bu təklifi danışıqlara başlamaq üçün əsas kimi qəbul etməyin mümkün olduğunu bildirdi.

Qeyd edək ki, "mərhələli həll" planı kimi tanınan bu təkliflər paketində münaqişənin iki mərhələdə həlli nəzərdə tutulurdu. Birinci mərhələdə münaqişənin dayandırılması və onun nəticələrinin aradan qaldırılması haqqında müddəalar öz əksini tapmışdısa, ikinci mərhələdə ATƏT-in Minsk Konfransına qədər Azərbaycanın tərkibində Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsi nəzərdə tutulurdu.

"Mərhələli həll" planının üstünlüyü ondan ibarət idi ki, burada Azərbaycanın Dağlıq Qarabağdan başqa, işğal olunmuşdigər 7 rayonundan 6-nın azad edilməsi göstərilmişdi. Bu rayonlar Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, QubadlıvəZəngilan idi. Laçın rayonunun taleyi

sonrakı mərhələdə həll edilməli idi. Digər tərəfdən, saziş layihəsinin bir üstünlüyü də müvafiq müddəalara əməl etməyən tərəflərə qarşı sanksiya tətbiqinin mümkünlüyünü göstərməsində idi.

Prezident L.Ter-Petrosyanın səylərinə baxmayaraq, bu təklif də reallaşmadı. Bir qədər sonra 1998-ci ilin fevralında daxili və xarici təhdidlərə davam gətirə bilməyən Levon Ter Petrosyan istefa verməli oldu. Lakin onun "Belə getsə bir neçə ildən sonra Dağlıq Qarabağla birlikdə Ermənistanıda itirə bilərik" fikri artıq ictimaiyyəti ciddi şəkildə silkələmişdi.

1998-ci ilin noyabrında həmsədrlər münaqişə tərəflərinə üçüncü həll variantını təqdim etdilər. Bu, yenə də paket həll variantı idi və onun əsasını "ümumi dövlət" konsepsiyası təşkil edirdi. Bu təklifə əsasən "Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə respublika formasında dövlət və ərazi vahidi statusu verilməli və o, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində Azərbaycanla birlikdə ümumi dövlət təşkil etməli idi".

Həmsədrlərin "ümumi dövlət" təklifini Azərbaycan tərəfi qəbul etmədi. Çünki heç bir beynəlxalqhüquqi bazası olmayan "ümumi dövlət" məfhumu Dağlıq Qarabağı müstəqil dövlət və ərazi qurumu kimi nəzərdə tutur, ona Azərbaycan ilə bərabərhüquqlu "ümumi dövlət" subyekti statusu verir, Azərbaycanı öz ərazisinin bir hissəsindən məhrum edir və faktiki olaraq Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalını qanuniləşdirirdi [].

Nəhayət, 1999-cu ilin aprelindən başlayaraq, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması istiqamətində yeni bir format yaranmış və o, öz fəaliyyəti ilə əslində ATƏT-in Minsk qrupunun işini tamamlamaq məqsədi güdürdü. Bu, Azərbaycan və Ermənistan prezidentlərinin birbaşa dialoqu idi.

1999-2001-ci illərdə Azərbaycan və Ermənistan prezidentləri arasında 20 görüş keçirilmiş, lakin bu görüşlər nəticəsiz qalmışdır. 2002-ci ilin mart ayında ATƏT-in Minsk qrupunun həmsədrləri bölgəyə səfərləri zamanı danışıqlar prosesinin Azərbaycan və Ermənistan prezidentlərinin xüsusi nümayəndələri səviyyəsində davam etdirilməsi təklifini irəli sürmüşdürlər. Bu təklif hər iki dövlət başçısı tərəfindən qəbul olunmuşdur.

2002-ci ilin 13-15 mart və 29-30 iyul tarixlərində Praqa yaxınlığında hər iki dövlət başçısının xüsusi nümayəndələrinin iki görüşü keçirilmişdir. 2004-cü ildən etibarən "Praqa prosesi" çərçivəsində Azərbaycan və Ermənistan Xarici işlər nazirləri arasında birbaşa danışıqlar başlamışdır.

2005-ci ilin 25 yanvar tarixində Avropa Şurasının Parlament Assambleyası "ATƏT-in Minsk konfransının məşğul olduğu Dağlıq Qarabağ münaqişəsi" adlı 1416 saylı qətnamə qəbul etmişdir. Parlament Assambleyası Azərbaycan ərazisinin böyük bir hissəsinin işğal olunduğunu təsdiq edərək, etnik düşmənçilik və onu müşayiət edən hərbi əməliyyatlar nəticəsində çoxlu sayda insanın etnik əsasda didərgin düşməsi və monoetnik ərazilərin yaradılmasına dair narahatlığını ifadə etmişdir. Assambleya Avropa Şurasının üzvü olan bir dövlətin digər dövlətin ərazisini işğal etməsinin həmin dövlətin üzvlük öhdəliklərini kobud şəkildə pozması demək olduğunu açıq şəkildə bəyan edərək, münaqişə zonasından didərgin düşmüş şəxslərin təhlükəsiz və ləyaqətlə geri qayıtması hüququnu bir daha təsdiq etmişdir. Assambleya həmçinin BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini xatırladaraq, münaqişə tərəflərini onları yerinə yetirməyə, xüsusilə də işğal olunmuş ərazilərdən hərbi qüvvələri çıxarmağa çağırmışdır.

2008-ci ilin avqustunda Rusiya və Gürcüstan arasında baş vermiş qarşıdurma Cənubi Qafqazda yeni bir geosiyasi vəziyyət yaratmaqla yanaşı, qlobal və regional aktorların Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması istiqamətindəki səylərini birləşdirdi. Bu dövrdə təqdim edilmiş təşəbbüslərdən biri də 2008-ci ilin 2 noyabr tarixində RF-nin Prezidenti Dmitri Medvedevin Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Prezidenti Serj Sarkisyan ilə birgə imzaladıqları üçtərəfli Mayendorf deklarasiyası idi [6].

2009-2011-ci illərdə ATƏT MQ-nin həmsədr ölkələrinin prezidentləri – Dmitri Medvedev, Barak Obama və Nikola Sarkozi "Böyük səkkizlik" (G-8) ölkələrinin Akvildə (İtaliya), Muskokada (Kanada) və Dovildə (Fransa) keçirilən sammitlərində Dağlıq Qarabağ münaqişəsi ilə bağlı verdikləri birgə bəyanatlarda münaqişənin həllinin əsas prinsiplərini yekunlaşdırmaq istiqamətində Azərbaycan və Ermənistan liderlərini dəstəklədiklərini bəyan etdilər (yeri gəlmişkən, "Madrid prinsipləri"nin yeniləşdirilmiş versiyası məhz Akvildə qəbul edilmiş bəyannamədə ictimaiyyətə açıqlandı). Bu bəyanatlarda vurğulanırdı ki, münaqişə tərəflərinin bu prinsipləri təsdiq etməsi gələcəkdə münaqişə ilə bağlı hərtərəfli sülh sazişinin hazırlanmasına imkan yarada bilər.

Beləliklə, Dağlıq Qarabağ münaqişəsinin həllinin əsas prinsiplərinin yeniləşdirilmiş versiyası (onlar həm də "Madrid prinsipləri" adlandırılır) aşağıdakı altı maddədən ibarətdir: 1) Dağlıq Qarabağın ətraf ərazilərinin Azərbaycanın nəzarətinə qaytarılması; 2) Dağlıq Qaraba-ğa təhlükəsizlik və özünüidarə hüququnu təmin edən müvəqqəti statusun verilməsi; 3) Dağlıq Qarabağla Ermənistanı birləşdirən dəhliz; 4) İradənin hüquqi yolla ifadə edilməsi ilə Dağlıq Qarabağın yekun hüquqi statusunun gələcəkdə müəyyən edilməsi; 5) Bütün məcburi köçkünlərin və qaçqınların öz əvvəlki yaşayış yerlərinə qayıtmaq hüququ; 6) Sülhməramlı əməliyyatların daxil olduğu beynəlxalq təhlükəsizlik zəmanəti [7].

Bu prinsiplərin Azərbaycan, Rusiya və Ermənistan prezidentlərinin 2011-ci il iyunun 24-də Kazanda keçiriləcək görüşündə təsdiqlənməsi və daha sonra münaqişə tərəflərinin hərtərəfli sülh sazişi ətrafında danışıqlara başlayacaqları gözlənilsə də, bu görüşdə müsbət bir irəliləyiş əldə etmək mümkün olmadı.

Bu bir həqiqətdir ki, Minsk Qrupunun həmsədr ölkələri qlobal güc mərkəzlərini təmsil edirlər. Həmin ölkələr təcavüzkara təzyiq etmək üçün geosiyasi nüfuza malikdirlər. Məsələ burasındadır ki, problem böyük dövlətlərin münaqişəni həll etmək bacarıqlarında yox, onların siyasi iradələrindədir. Minsk Qrupunda Dağlıq Qarabağ münaqişəsinin həllinə ciddi marağın olmamasının nəticəsidir ki, qurum öz öhdəliklərini yerinə yetirmir. Bu da münaqişənin sülh yolu ilə həlli prosesində Minsk Qrupunun fəaliyyətinə mane olur. Minsk Qrupunun həmsədr ölkələri münaqişənin gərginləşməsinin qarşısını almaq üçün regiona səfərlər edirlər. Beləliklə də onlar daha çox "münaqişənin həlli mexanizmləri"nin icrası ilə deyil, "münaqişənin idarə edilməsi" ilə məşğuldurlar. Artıq Azərbaycan ictimaiyyətində həmsədrlərin regiona səfəri haqlı olaraq "turistik ekskursiya" kimi qiymətləndirilir [8 421).

2016-cı ildə dördgünlük Aprel savaşı və ondan sonrakı iki il ərzində ATƏT MQ-ni elə də səmərəli fəaliyyəti ilə yadda qalmayıb. 2018-ci ildə Ermənistanda baş vermiş narinci inqilab nəticəsində hakimiyyətə gələn N.Paşinyan əvvəlcə özünü liberal və sülhsevər siyasətçi kimi göstərsə də, sonda daha sərt xətt tərəfdarı kimi özünü gostərməyə başlamışdır. Onun danışıqların formatını dəyişdirmək və ora Dağlıq Qarabağı tərəf kimi daxil etmək cəhdləri, təqribən 30 ildən sonra yenidən Miatsumu dilə gətirməsi və "yeni müharibə - yeni ərazilər" ideyasını dəstəkləməsi 2020-ci ildə iki dəfə – 12-16 iyulda Tovuz təxribatı və 27 sentyabr - 10 noyabrda İkinci Qarabağ Müharibəsinin baş verməsilə nəticələndi. Təəssüf ki, yenə də ATƏT-in MQ Ermənistanın təcavüzkar ritorikasına məhəl vermədi və sonda 44 günlük qanlı hərbi qarşıdurma ilə nəticələndi.

28 illik fəaliyyətsizliyi bir yana, Ermənistanın hərbi təxribatlarının qarşısında Azərbaycan Ordusunun həyata keçirdiyi əks-hücum əməliyyatlarının ilk günündən Fransanın sərgilədiyi qərəzli, birtərəfli və böhtan xarakterli yanaşması ilə diqqəti öz üzərinə çəkmiş oldu. Fransa prezidenti E.Makronunun "Qarabağın yenidən ələ keçirilməsinə razı olmayacayıq" fikrini səsləndirməsi bir daha ona dəlalət etdi ki, münaqişə ATƏT MQ-nin vasitəçiliyi ilə heç zaman öz ədalətli həllini tapa bilməzdi. Çünki Azərbaycanın ərazi bütövlüyünün təmin olunması Minsk qrupunun həmsədrləri, xüsusilə də Fransanı qane etmirdi. Həmsədrlər münaqişəni və bu

münaqişə vasitəsilə regiona təsir imkanlarını qoruyub saxlamaq istəyirdilər. Münaqişə bir sıra ölkələr, xüsusilə də Fransa üçün geosiyasi alət funksiyasının yerinə yetirirdi və təbii ki, onun aqressiyasını şərtləndirən məhz bu amil idi.

Fransanın ATƏT MQ-nin həmsədri kimi fəaliyyəti isə bütövlükdə bu ölkənin vasitəçilik mandatı ilə ziddiyyət təşkil edirdi və rəsmi Paris proses boyu tərəfsizlik prinsipini kobud şəkildə pozaraq Azərbaycan torpaqlarının anneksiyasına birbaşa və dolayısı ilə dəstək verirdi. Yaranmış vəziyyət və cəzasızlıqdan, himayə olunmaqdan ruhlanan təcavüzkar ölkənin davamlı hərbi təxribatları, həmsədrlərin işğalçı ilə işğala məruz qalan arasında bərabərlik işarəsi qoyması, bir çox hallarda isə Ermənistanı açıq şəkildə dəstəkləmələri Azərbaycan üçün seçim yeri qoymurdu [9].

Azərbaycan Ordusunun qələbəsi isə münaqişə ətrafında yaradılmış geosiyasi vəziyyəti tamamilə və birdəfəlik dəyişdi. Azərbaycanın ərazi bütövlüyü ATƏT MQ-nin vasitəçiliyi ilə deyil, Prezident İlham Əliyevin və Azərbaycan Ordusunun qətiyyəti, cəsarəti, fədakarlığı nəticəsində təmin edildi. İllərdən bəri "başımızın altında yastıq qoymaq" məqsədi daşıyan, işğalın davam etdirilməsinə, işğalçının torpaqlarımızda möhkəmlənməsinə xidmət edən status-kvo ləğv edildi.

Problemin məhz Azərbaycanın səyləri nəticəsində həll edildiyinə baxmayaraq, həmsədr ölkə Fransanın siyasi dairələri bu gün də erməni lobbisinin təsiri altında qərəzli, aqressiv mövqe nümayiş etdirərək, bölgəyə davamlı sülhün gəlişinə mane olur. Fransa mandatından irəli gələn vəzifələri icra etmək əvəzinə, tamamilə əks mövqedə dayanaraq Qarabağda sülhə və birgəyaşayışa, münaqişənin tam və hərtərəfli həllinə mane olmağa çalışır

ATƏT MQ-nin yaranma məqsədi Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə nail olmaq idi. Tərəflərin hansınasa meyllənmək və yaxud yaranmış münaqişə vəziyyətində tərəflərin hansınasa dəstək verməк, münasibət balanslığını pozmaq birbaşa ATƏT-in mandatına ziddir.

Ümumiyyətlə, ATƏT-in hal-hazırda missiyası dondurlmuş vəziyyətdədir. Onun edə biləcəyi bir şey var ki, onlar Ermənistanı Azərbaycanın sülh şərtlərini qəbul etməyə razı salsın. Əgər bir qurumun məqsədi yalnız sülhün bərqərar olmağıdırsa, həmin qurum bu vəziyyətdə yalnız ədalətin bərpası üçün, yəni Ermənistanın sülh şərtləti ilə razılaşması üçün səy göstərməlidir. Halbuki ATƏT MQ 28 ildə məsələnin həlli üçün heç nə etməyib.

Nəticə:

1. ATƏT MQ 44 günlük İkinci Qarabağ Müharibəsində vasitəçiliyə xas olan neytrallığını saxlaya bilmədi və Azərbaycanın ərazi bütövlüyünə qarşı çıxmaqla özünü ifşa etmiş oldu;
2. Yaxın gələcəkdə belə bir formatın ya dəyişəcəyi, ya da fəaliyyətinə xitam veriləcəyi ehtimal olunur;
3. Dağlıq Qarabağda post-konflikt dövründə Rusiya ilə Türkiyənin əməkdaşlığı daha ciddi problemlərin nizamlanmasında özünü büruzə verəcək.

ƏDƏBIYYAT

1. Azərbaycan Respublikası 1991-2001. - B. XXI-Yeni Nəşrlər Evi, 2001. - 280 s.
2. *Чернявский* С.И. *10 лет истории Азербайджана*: *2003-2013 годы*. *М.:ФЛИНТА*, *2013 г. - 400с.*
3. Həvva Məmmədova Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsı. Bakı: Elra, 2009, 360 s.
4. Mirbəşiroğlu Elşad. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi istiqamətində Heydər Əliyevin fəaliyyəti // Tarix və onun problemləri, 2009, №1-2, s. 114-119.

5. Emin Arif (Şıxəliyev). Geosiyasi maraqların toqquşması kontekstində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi. Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2018, 384 s.
6. Paşayeva G. Həll edilməmiş Dağlıq Qarabağ münaqişəsi Avropada təhlükəsizliyə dair yeni müqavilənin layihəsi çərçivəsində. // "Analitik baxış", Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin aylıq nəşri, say 5, noyabr-dekabr 2010, s.8
7. Joint Statement on the Nagorno-Karabakh Conflict, The White House, Office of the Press Secretary, July 10, 2009. Available at: https://www.whitehouse.gov/the-press-office/joint-statement-nagorno-karabakh-conflict
8. Azad Garibov. Why the OSCE Keeps Failing to Make Peace in Nagorno-Karabakh.http://nationalinterest.org/blog/the-buzz/why-theosce-keeps-failing-make-peace-nagorno-karabakh-16161?page=2.
9. Fransa ATƏT-in Minsk qrupunun həmsədri kimi fəaliyyətini ... *ordu.az* › news › fransa-atet-in...

ERMƏNİSTAN-AZƏRBAYCAN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSI AZƏRBAYCAN-ATƏT ƏMƏKDAŞLIĞI KONTEKSTINDƏ

XÜLASƏ

Beynəlxalq təşkilatlar müasir dünyada baş verən ictimai-siyasi, iqtisadi və mədəni proseslərdə, dövlətlərarası müna-sibətlərin inkişafı və möhkəmlənməsində mühüm rol oynayır. Onların yaranması tarixi gerçəkliyin tələblərindən irəli gəlir və beynəlxalq səviyyədə qlobal məsələlərin, dövlətlərarası münasibətlərin tənzimlənməsinə əsaslı şəkildə təsir göstərir. Azərbaycan müstəqillik əldə etdikdən sonra beynəlxalq təşkilatlarla münasibətlər xarici siyasətimizin prioritet istiqamətinə çevrildi. Bu, bir tərəfdən dünyaya inteqrasiya etmək, digər tərəfdən isə həmin təşkilatlarin potensialından istifadə etməklə Ermənistanın işğalçılıq siyasətini dünyaya tanıtmaq məqsədindən irəli gəlirdi. Məhz bu baxımdan ATƏT-lə münasibətlərimiz, onun MQ-nin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində yeri və rolunun təhlili məqalənin leytmotivini təşkil edir. Məqalənin hazırlanması zamanı tarixi, politoloji və müqayisəli təhlil metodundan geniş istifadə edilib.

АРМЯНО-АЗЕРБАЙДЖАНСКИЙ НАГОРНО КАРАБАХСКИЙ КОНФЛИКТ В КОНТЕКСТЕ СОТРУДНИЧЕСТВО АЗЕРБАЙДЖАН С ОБСЕ

АННОТАЦИЯ

Международные организации играют важную роль в социально-политических, экономических и культурных процессах, происходящих в современном мире, в развитии и укреплении межгосударственных отношений. Их появление вытекает из требований исторической реальности и оказывает глубокое влияние на регулирование глобальных вопросов и межгосударственных отношений на международном уровне. После обретения Азербайджаном независимости отношения с международными организациями стали приоритетом нашей внешней политики. Это было направлено, с одной стороны, на интеграцию в мир, а с другой - на использование потенциала этих организаций для ознакомления мира с агрессивной политикой Армении. С этой точки зрения суть статьи

составляют наши отношения с ОБСЕ, ее место и роль в урегулировании армяно-азербайджанского нагорно-карабахского конфликта. При подготовке статьи широко использовался метод исторического, политического и сравнительного анализа.

ARMENİAN-AZERBAİJANİ NAGORNO KARABAKH CONFLICT IN THE CONTEXT OF AZERBAIJAN - OSCE COOPERATION

SUMMARY

International organizations play an important role in the socio-political, economic and cultural processes taking place in the modern world, in the development and strengthening of interstate relations. Their emergence stems from the requirements of historical reality and has a profound effect on the regulation of global issues and interstate relations at the international level. After Azerbaijan gained independence, relations with international organizations have become a priority of our foreign policy. This was aimed at integrating into the world on the one hand, and on the other hand, using the potential of these organizations to introduce Armenia's policy of aggression to the world. From this point of view, our relations with the OSCE, its place and role in the settlement of the Armenian-Azerbaijani Nagorno-Karabakh conflict are the essence of the article. The method of historical, political and comparative analysis was widely used in the preparation of the article.

MİRZƏ FƏTƏLİ AXUNDOVUN İCTİMAİ-SİYASİ GÖRÜŞLƏRİ (1812-1878)

dos. İsmayıl Eyyubov
BDU-nun Politologiya və sosiologiya kafedrasının müəllimi

Açar sözlər: XIX əsr Azərbaycan ədəbiyyatı, Mirzə Fətəli Axundov, dini ehkamlar, Tiblisi Rus səfirliyi, ictimai-siyasi görüçlər
Ключевые слова: азербайджанская литература XIX века, Мирза Фатали Ахундов, религиозные доктрины, посольство России в Тбилиси, общественно-политические взгляды.
Key words: Azerbaijani literature of the 19th century, Mirza Fatali Akhundov, religious doctrines, the Russian Embassy in Tbilisi, socio-political views.

Azərbaycan ictimai-siyasi fikir tarixində Mirzə Fətəli Axundov böyük rol oynamışdır.

M.F.Axundov elmi, fəlsəfi və bədii əsərləri ilə Azərbaycanın ictimai-siyasi həyatında özünəməxsus yer tutaraq, mədəniyyətin, ictimai-siyasi, fəlsəfti-etik və ədəbi-tənqidi fikrinin inkişafına çox dəyərli təsir göstərmişdir.

M.F.Axundov XIX əsrin ikinci yarısından etibarən, elmi, bədii, fəlsəfi və sosioloji xarakterli əsərləri ilə nəinki görkəmli maarifçi, eləcə də filosof və ictimai xadim kimi tanınmışdır.

Şərqdə feodal-patriarxal üsul-idarəsinin tənqidçisi kimi məşhur olan, qayda-qanunlarına, zülm və özbaşnalığına, ədalətsizliyinə, nadanlığına, dini fanatizmə qarşı çıxan M.F.Axundov doğma xalqının azadlığı, xoşbəxt həyatı uğrunda həyatı boyu mübarizə aparmışdır.

Mirzə Fətəli Axundov 1812-ci ildə Nuxada (indiki Şəki şəhərində) anadan olmuşdur. 1814-cü ildə atası Mirzə Məhəmmədtağı və anası Nanə xanəmla Təbriz yaxınlığındakı Xamnə qəsəbəsinə köçmüdülər. 13 yaşınadək İran Azərbaycanında müxtəlif yerlərdə yaşamışıdr.

1825 -ci ildə anası ilə Nuxaya qayıtmışdır. Anasının əmisi Axund Hacı Ələskər Fətəlini oğulluğa götürmüşdür. Onun təlim-tərbiyəsi ilə məşğul olmuş, ona ərəb və fars dilllərini öyrətmişdir. Fətəlinin ruhani olmasını istəyən Axund Hacı Ələskər 1832-ci ildə onu Gəncəyə aparmışdır.

Mirzə Fətəli Axundov burada məntiq və figh elmlərini, habelə məşhur şair Mirzə Şəfi Vazehdən nəstəliq xəttini öyrənmişdir.

Mirzə Şəfi Vazeh onun istedadını görüb, onu ruhani olmaq fikrindən daşındırmışdır. Mirzə Şəfi Vazeh Axundovun ictimai taleyinə müsbət təsir göstərmişdir. Bu münasibətlə, Mirzə Fətəli Axundov öz xatirələrində yazmışdır: "Bir gün həmin möhtərəm şəxs məndən soruşdu:

- Mirzə Fətəli, elmləri öyrənməkdə məqsədin nədir?

Cavab verdim ki: - Ruhani olmaq istəyirəm.

Dedi: - Deməli, riyakar və şeytan olmaq istəyirsən?

Təəccüb edib çaşıb qaldım ki, görəsən bu nə sözdür?

Mirzə Şəfi mənim vəziyyətimə nəzər salıb dedi:

- Mirzə Fətəli! Öz ömrünü bu iyrənc camaatın sıralarınsa zay etmə! Başqa bir peşə dalınca get!

- Elə ki, ondan ruhanilərə nifrət etməyin səbəbini soruşdur, o, elə mətləbləri açıb söyləməyə başladı ki, o günə qədər mənə məlum deyildir.

Nəhayət "ikinci atam" Məkkədən qayıdana qədər Mirzə Şəfi ürfanın bütün məsələlərini mənə tələqin etdi və qəflət pərdəsini mənim gözümdən aldı. Bu əhvalatdan sonra ruhaniliyə nifrət etdim və əvvəlki niyyətimi dəyişdirdim".

Ictimai – siyasi dünyagörüş etibarı ilə ateist olan Mirzə Fətəli Axundov yaradıcılığı 6 komediiya və "Aldanmış Kəvakib" povesti, əlifba layihələri ilə seçilir. O, "Kəmaliddövlə məktubları" fəlsəfi traktı ilə digər başqa fəlsəfi, ədəbi-tənqidi əsərləri ilə də özünə böyük şöhrət qazandırmışdır.

Axundov daha çox komediyaları ilə tanınmışdır. M.F.Axundov 1837-ci ildə A.S.Puşkinin faciəli ölümü münasibətilə yazdığı "Şərq poeması" rus xalqı içərisində ona böyük hörmət qazandırmışdır. Bu poemanı Axundov özü rus dilində tərcümə etmişdir. Həmin tərcümə rus yazıçısı N.N.Klementyevin rəyi ilə birlikfə "Moskovskiy nablyudatel" jurnalında 1837-ci ildə çap olunmuşdur.

M.F. Axundov XIX əsrin ortalarından başlayaraq, 1850-185-ci illər arasında "Hekayəti Molla İbrahim Xəlil kimyagər" (1850), "Hekayəti – Misyö Jordan həkimi nəbatat və Dərviş məstəli şah caduguni – məşhur" (1850), "Sərgüzəşti-vəziti-xani Lənkəran" (1851), "Sərgüzəşti mərdi-xəsis" (Hacı Qara) (1852), "Müdafiə vəkillərinin hekayəti" (1855), "Hekayəti-xırs quldurbasan" (1855) komediyalarını yazmışdır. O, bu komediyalarda xalqın həyatı və məişətini geniş, əhatəli və dərin əks etdirmişdir. Bu komdeiyalarda Azərbaycanda maarifçilik ideyalarının təbliği ilə yanaşı,real həyat həqiqətlərini, ictimai-siyasi ziddiyyətləri, sosial ədalətsizliui aydın şəkildə təsvir və təhlil etmişdir. M.F.Axundov komediyalarında Azərbaycanda hökm sürən feodal cəmiyyətinin eybəcərliklərini ustalıqla göstərə bilmiş, mövcud cəmiyyətin insanlar üçün yaratdığı ağır ictimai bəlaları və fəlakətləri açıqlamışdır.

M.F.Axundov "Aldanmış Kəvakib" əsərində şah Abbas dövründə İranda hökm sürən ədalətsiz ictimai quruluşu, yaramaz feodalizm üsul idarəsini, istibdadı qətiyyətlə ifşa etmişdir.

M.F.Axundov həmin əsərində Yusif Sərracın simasında sarayda baş verən hadisələrə mütərəqqi münasibət bildirməklə yanaşı, həmçinin onun nümunəsində maarifçi və demokratik ideyaları, dövlət quruluşunu, dinə baxışı səciyyələndirmişdir. Əsərdə Yusif Sərrac sadə, təvəzökar, namuslu insan kimi təsvir olunur. O, həmişə xalqın xidmət edən müsbət qəhrəman kimi nəzərə çatdırılır. əsərdə Yusif Sərrac maarifi, ictimai mədəni tərəqqini təmsil edən maarifçi hökmdar kiçi qələmə alınmışdır. Axundov Yusif Sərracın simasında ədalətli şah surətini yaradır. Axundov Yusif Sərrac kimi ədalətli bir şahı hakimiyyət başına gətirməsilə, xalqın azadlığa və xoşbəxtliyə çatacağına cəmiyyətin inqilab yolu ilə deyil, islahat yolu ilə dəyişdirilə biləcəyinə inanmışdır. Onun yaradıcılığının belə səciyyəvi məqamları məhz, ictimai-siyasi görüşlərin mahiyyəti kimi mənalanır.

M.F.Axundovun ictimai-siyasi baxışlarının formalaşmasına Qədim Yunan və Qərbi Avropa ədəbiyyatının ictimai-fəlsəfi fikri ilə yanaşı, Şərq klassiklərinin yaradıcılığı və qabaqcıl rus ictimai fikri də əhəmiyyətli təsir göstərmişdir.

M.F.Axundov Platon, Aristotel, Spinoza, Volter, Monteskye, Holbax, Şekspir, Bokl kimi filosoflarla yanaşı, Şərq ədəbiyyatının nümayəndələri olan Əbu Əli ibn Sina, Xəyyam, Firdovsi, Nizami, şeyx Mahmud Şəbustəri, Sədi və Hafizin ədəbi yaradıcılığı ilə yaxından tanış olmuşdur.

M.F.Axundov eyni zamanda Azərbaycanda və bütün Yaxın Şərq ölkələrində materialist fəlsəfəni sistemləşdirən və inkişaf etdirən, onu elmi təbiətşünaslıqla əlaqələndirməyə və xalqın azadlıq hərəkatı ilə bağlamağa səy göstərən materialist filosof kimi tanınır. Axundov deyirdi ki, "filosof xalqı "Qəflətdən" oyadıb ona həqiqətin yolunu göstərməlidir".

Axundovun fəlsəfi dünyagörüşündə materialist fəlsəfə ilə demmokratik ictimai-siyasi fikir vəhdət təşkil etmişdir. Onun fəlsəfi düşüncəsinə görə, təbiət fasiləsiz dəyişir, daha doğrusu o daimi hərəkətdədir. O materiya anlayışı ilə əlaqədar qeyd edirdi ki, varlığı iki yerə bölmək

olmaz. Vahid "kamil" və qadir varlıq olan "əşya", "öz mahiyyətinə görə səbəbə möhtac deyil", yəni materiya özü özünə səbəbdir. Materiya "ancaq bir növdən başqa bir növə, bir haldan ayrı bir hala keçməsində və növbələşməsində səbəbə möhtacdır". O, belə nəticəyə gələ bilmişdir ki, cisimlərin cəmləşməsi onun mahiyyətindən asılı olaraq meydana çıxır.

Axundov fəlsəfi görüşlərində olduğu kimi, ədəbi-estetik baxışlarında da materialist dünyügörüşünə əsaslanaraq ədəbiyyat və incəsənəti varlığın bədii etikası hesab etmiş, onun ictimai-tərbiyəvi əhəmiyyətini, cəmiyyətin inkişafındakı rolunu yüksək qiymətləndirmişdir.

Onun siyasi görüşlərinin mühüm cəhətlərindən biri odur ki, xlaqın azadlığı və səadəti uğrunda feodal dünyasına, onun istibdad üsul-idarəsinə qarşı mübarizəni həyatın əsas mənası hesab etmişdir.

Axundov əsərlərində Azərbaycan xalqı ilə yanaşı, Yaxın Şərq xalqlarının da son dərəcə acınacaqlı vəziyyəə məruz qaldığını qeyd edərək, xalqların vəziyyətlərinin yaxışlaşmasını onların azadlıq hərəkatı ilə əlaqələndirilir, xalqların istibdad üsul-idarəsinin zülm və istismarından azad olmalarını arzulayırdır. Onun sosial görüşlərində azadlıq, humanizm, bərabərlik, vətənpərvərlik, xalqlar dostluğu ideyaları mühüm yer tutmuşdur. M.F.Axundov ədəbiyyat və incəsənəti varlığın bədii inikası hesab etmişdir. Onun ictimai, tərbiyəvi əhəmiyyətini cəmiyyətin inkişafındakı rolunu yüksək qiymətləndirmişdir.

O, göstərmişdir ki, məzmun və forma gözəlliyin vəhdəti, bədiiliyin başlıca meyarıdır.

Axundov ədəbiyyatın vəzifəsini bir filosof kimi xalqa xidmətdə görürdü.

Axundovun yaradıcılığına inqilabi demokaratizm mühüm rol oynamışdır. Onun sosioloji görüşlərində azadlıq, humanizm, vətənpərvərlik, xalqlar dostluğu ideyaları mühüm yer tutmuşdur. M.F.Axundov yaradıcılığında şərq xalqları tarixindən bəhs etmişdir. Axundov yaradıcılığından Azərbaycanda tarix elmi pilləyə qaldırılmışdır.

Axundov dini-idealist, mistik ideyalara qarşı böyük cəsarətlə mübarizə aparmış, xalqın fəlsəfi, sosial-siyasi dünyagörüşünün təşəkkülünə ciddi təsir göstərmişdi.

Axundov Azərbaycan və fars dilində yazıdığı lirik şeirlərində, "Hekayəti – pota Kərim və Səfər dəllək", "Hekayəti Seyid Ələm Səlyani" adlı mənzumələrində, "Molla Əli" və s. şeirlərində tufeyli din xadimlərini, seyid və mollaları kəskin satira atəşinə tutmuşdur.

Axundov belə hesab edirdi ki, din hər cür tərəqqinin qarşısında dayanan maneə və insanların hər cür zülmə, fəlakətə və əsarətə dözməsinə şərait yaradan amildir.

Y.E.Bertels M.F.Axundov yaradıcılığına yüksək qiymət verərək, yazmışdır ki, "M.F.Axundov öz komediyalarında Şərqdə müsəlman xalqları arasında geniş yayılmış xurafat və cəhalətə qarşı mübarizə etməyi, sehirbazlara, cadugərlərə, kimyagərlərə gülməyi, onların yalançılığını ifşa etməyi öz qarşısına bir vəzifə qoymuşdur".

M.F.Axundovun 1860-cı ildə "Hindistan şahzadəsi Kəmalüddövlənin öz dostu İran şahzadəsi Cəlalüddövləyə yazdığı üç məktub və Cəlalüddövlənin ona göndərdiyi cavab" adlı məşhur fəlsəfi traktatı onu bir daha böyük filosof olduğunu təsdiqlədi.

"Kəmalüddövlə məktubları adlanan bu fəlsəfi əsərdə M.F.Axundov yazmışdır ki, "Kəmalüddövlənin məsədi bütün Asiya qitəsində bu gün zülmət və cəhalət dənizində qərq olan insanların xoşbəxtliyə və səadətə çatmasına səbəb olacaqdır.

Axundov həmin əsərdə insanların azadlıq problemini ön plana çəkir. O, "milətin zülmətdən nicat tapıb işıqlığa çıxması yolundan söhbət açır, "cəhalət aləmindən çıxaq, elm, təhsil edək və sivilizasiyon qazanaq" sözləri ilə həmvətənlərinə müraciət edir. Bu fikir mütəfəkkirin ictimai-siyasi təfəkkürünün əyani təsdiqidir.

Axundov "Kəmalüddövlə" əsəri haqqında özü yazmışdır ki, "Asiya xalqlarını nadanlıq və qəflət yuxusundan oyatmaq və islam dinində protestanizmin lüzumunu sübut etmək üçün "Kəmalüddövlə"ni yazmağa baxşladım".

Dünyanın dərk edilməsində insan zəkasına böyük qiymət verən Axundov "Kəalüddövlə məktubları"nda yazmışdır ki, "din və inamla, elm və fəlsəfə iki zidd halətdir, qətiyyən bir yerə toplana bilməz. Din və imam sahibi olan adam, alim və filosof sayıla bilməz, əgər elm və fəlsəfə sahibi olarsa, dindar və mömin ola bilməz".

Insan azadlığından, bərabərliyindən danışarkən Axundov "Kəmalüddövlə məktubları"nda yazmışdır: "Tam azadlıq iki növ azadlıqdan ibarətdir: biri ruhani azadlığıdır, o biri cismani azadlıqıdr. Bizim ruhani azadlığımı islam dininin rəhbərləri əlimizdən almış, bizi bütün ruhani işlərdə tamamilə alçaq bir qul etmişlər... Cismani azadlığımızı isə, despot hökmdarlar əlimizdən almış, bizi... cürbəcür ağır yüklərin və təkliflərin hammalı etmişlər. Biz bu maddədən dəxi zalimlərin hüquqsuz qulu və zəlil bəndələri olub, azadlıq nemətlərindən məhrumuq".

Beləliklə, Axundov insanların azad yaşaya bilmədiklərini, bu imkandan məhrum olduqlarını mövcud ictimai münasibətlərlə, siyasi mütəfəkkir səviyyəsinə yüksəldiyini təzahür etdirir.

Axundov "Kəmalüddövlə məktubları" əsərində islam dininə qarşı çıxmış, dinin və dini ideologiyanın mürtəce yolunu göstərə bilmişdir. O qeyd etmişdir ki, "Mən külli-ədyanı puç və əfsanə hesab edirəm". "Mən o dini tərcih edirəm ki, onun vasitəsilə insan bu dünyada xoşbəxt və azad ola bilsin.

İnsanın ağıl və zəkasına yüksək qiymət verən Axundov onları dini təriqətlərdən uzaq olmağa çağırır. O yazmışdır ki, "... bəşər evladına səadət və qurtuluş ancaq o zaman nəsbi olacaqdır ki, istər Asiyada və istərsə də Avropada insanın şüuru tamamilə əbədi həbsdən xilas olacaq və bütün işlərdə və təfəkkürdə hadisələr deyil, insanın ağlı yeganə dəlil, sənəd və hakimi mütləq olacaqdır".

Axundovun fikrincə, şəriət qadını "Ömür boyunca bədbəxt edir", yaşamaq nemətlərində məhrum edir, qadının ən adi hüquqlarını tapdalayır.

M.F.Axundov ömrü boyu bütün qadınları xoşabəxt və azad görmək arzusunda olmuşdur. Beləliklə, bu böyük mütəfəkkir qadın azadlığını siyasi məsələ kimi əsaslandırır.

M.F.Axundovun filosof kimi yetişməsində XVIII əsrin fransız maarifçilərinin, eləcə də XIX əsrin rus inqilabçı demokratlarının mühüm rolu olmuşdur.

Axundovun "Kəmalüddövlə məktubları" adlı məşhur traktatı, "Həkimi-ingilis Yuma cavab", "Con Stürat milli azadlıq haqqında", "Babilik əqidələri", "Mirzə Mülküm xana məktub", "Yek kəlmə haqqında" və s. fəlsəfi əsərləri onun əsl filosof kimi tanıtmışdır.

M.F.Axundov "Yek kəlmə" haqqında məqaləsində belə bir qənaətə gəlir ki. "insan əlcaı nəsihət və vəz etmkdə, məsləhət verməkdə deyil: göz qabağında olan əsas istibdad quruluşu kökündən, dibindən qparmalıdır... Ədaləti yerinə yetirmək və zülmü aradan qaldırmaq ancaq yuxarıda dediyim şəkildə mümkündür; yəni millətin özü bəsirət və elm sahibi olmalı, ittifaq və yekdillik edərək deməlidir: səltənət və hökümət büsatından əl çək!...

Ondan sonra özü zamanın vəsiyyətinə uyğun olaraq qanun qoyub konstitusiyon yazmalı və ona əməl etməlidir. O zaman millət yeni həyat tapacaq və Şərq torpağı gözəl cənnət kimi olacaqdır".

Bu fikirdə cəmimyyətin inqilabi yolla dəyişdirilməsində xalq kütlələrinin başlıca rol oynaması aydın nəzərə çarpır.

M.F.Axundovun yaradıcılığında yeni Əlifba uğrunda mübarizə də mühüm yer tutur. Ərəb əlifbasının insanların savadlanmasında ciddi mane olduğunu qeyd edən Axundov bir neçə yeni əlifba layihəsi hazırlamışdır.

O bu layihələri həyata keçirtmək üçün müxtəlif dövlət başçılarına, elm xadimlərinə, nasirlərə, dostlarına yüzlərlə məktub yazıb onlardan kömək istəmişdir.

Axundovun məqsədi o olmuşdur ki, geniş xalq kütləsi yeni əlifbadan bəhrələnərək maariflənəcəklər və işıqlı həyata qədəm qoyacaqlar.

Yeni əlifbanın yaradılması sahəsində Axundov demokrat düşüncəli filosof kimi çıxış etmişdir. O, bu işə 0 ildən artıq vaxt sərf etmişdir.

M.F.Axundov 1863-cü ildə Türkiyəyə getmiş, layihənin Türkiyənin baş naziri Fuad Paşaya təqdim etmiş, baş nazirin göstərişi ilə layihə "Cəmiyyəti-elmiyeyi Osmaniyyə"də müzakirə olunmuşdur. Osmaniyə üzvləri Axundovun yeni əlifba layihəsinin beyənməklə bərabər onun həyata tətbiq olunmasına icazə vermişlər. Lakin şər qüvvələr, o cümlədən İranın Türkiyədəki baş səfiri Mirzə Hüseyn xan da bu işə ciddi mane olmuşdur.

Axundovun yaradıcılığı yalnız Azərbaycanda deyil, həmçinin Yaxın Şərqdə ədəbiyyatın, ictimai-siyasi və fəlsəfi fikrin inkişafında ciddi rol oynamışdır. M.F.Axundov əsərləri hələ öz dövründən etibarən rus, alman, ingilis, fransız, gürcü və digər dillərə tərcümə edilmişdir.

Azərbaycanın bir sıra maarif və mədəniyyət ocaqlarına onun adı verilmişdir. M.F.Axundov 1878-ci ildə Tiblisdə vəfat etmiş Azərbaycan qəbristanlığında müəllimi Mirzə Şəfi Vazehin qəbri yanında dəfn olunmuşdur.

ƏDƏBİYYAT

1. Azərbaycan ədəbiyyatı tarixi. II hissə, Bakı, 1960.
2. Azərbaycan tarixi. V – VI hissə, 2008.
3. Axundov M.F. Seçilmiş əsərləri. I, II, III cildlər.
4. Köçərli F. Mirzə Fətəli Axundovun dünyagörüşü. Bakı, 1989.
5. Məmmədzadə H. Mirzə Fətəli Axundov və Şərq. Bakı, 1971.
6. Eyyubov İ.Ə. Azərbaycanın siyasi təlimlər tarixi. Dərslik (Ali məktəblər üçün), Bakı, 2011.
7. Cəfərov M.Ç. M.F.Axundovun ədəbi-tənqidi görüşləri. Bakı, 1950.
8. Qasımzadə F.S. M.F.Axundovun həyat və yaradıcılığı. Bakı, 1962.

MİRZƏ FƏTƏLİ AXUNDOVUN İCTİMAİ-SİYASİ GÖRÜŞLƏRİ (1812-1878)

Eyyubov İ.

XÜLASƏ

XIX əsr Azərbaycan ictimai-siyasi fikir tarixinin inkişafında Mirzə Fətəli Axundovun da rolu böyük olmuşdur. M.F.Axundov Azərbaycanda maarifçi, filosof, demokratik fikirli ziyalı kimi tanınmışdır. M.F.Axundov Şərqdə dini fanatizmə qarşı çıxan bir mütəfəkkir olmuşdur. M.F.Axundov 1934-cü ildə Tiblisfı Qafqaz Canişinin baş dəftərxanasında Şərq dilləri mütərcimi təyin olunmuş, ömrünün axırına kimi orada işləmiş, polkovnik rütbəsinə kimi yüksəlmişdir. "Puşkini ölümünə Şərq poeması"na görə rus xalqı Axundovu çox sevmişdir. O, peomanı özü rus dilinə tərcümə etmişdir. Yaradıcılıqla şeirlə başlayan M.F.Axundov 6 komediya, bir sıra digər mövzularda əsərlər yazmışdır. M.F.Axundovun ictimai-siyasi baxışlarının formalaşmasına Qədim Yunan və Qərbi Avropa ədəbiyyatı ilə yanaşı rus ədəbiyyatı və ictimai fikrinində rolu böyük olmuşdur. M.F.Axundov Tiblisdə vəfat etmiş, orada dəfn olunmuşdur.

СОЦИАЛЬНО-ПОЛИТИЧЕСКИЕ ВСТРЕЧИ МИРЗЫ ФАТАЛИ АХУНДОВА (1812-1878)

Эюбов И.

АННОТАЦИЯ

Мирза Фатали Ахундов сыграл важную роль в развитии общественно-политической мысли Азербайджана в XIX веке. М.Ф.Ахундов известен в Азербайджане как просветитель, философ, демократический интеллектуал. М.Ф.Ахундов был мыслителем, выступавшим против религиозного фанатизма на Востоке. В 1934 году М.Ф. Ахундов был назначен переводчиком восточных языков в главном канцелярии кавказского наместника в Тбилиси, проработал там до конца своей жизни и дослужился до звания полковника. Согласно «Восточной поэме о смерти Пушкина», русский народ очень любил Ахундова. Он перевел поэму на русский язык. Помимо поэтических произведений, М. Ф. Ахундов написал 6 комедий и сочинил ряд других рассказов. Велика роль в формировании общественно-политических взглядов М.Ф.Ахундова, наряду с литературой Древней Греции и Западной Европы, также и русской литературы и общественного сознания. М.Ф.Ахундов скончался в Тбилиси и был похоронен там.

SOCIAL AND POLITICAL MEETINGS OF MIRZA FATALI AKHUNDOV (1812-1878)

Eyyubov I.

SUMMARY

Mirza Fatali Akhundov played an important role in the development of the socio-political thought of Azerbaijan in the 19th century. MF Akhundov is known in Azerbaijan as an educator, philosopher, and democratic intellectual. MF Akhundov was a thinker who opposed religious fanaticism in the East. In 1934 M.F. Akhundov was appointed translator of oriental languages in the main office of the Caucasian governor in Tbilisi, worked there until the end of his life and rose to the rank of colonel. According to the "Eastern Poem about the Death of Pushkin," the Russian people loved Akhundov very much. He translated the poem into Russian. In addition to poetry, MF Akhundov wrote 6 comedies and composed a number of other stories. A great role in the formation of the socio-political views of M.F. Akhundov, along with the literature of Ancient Greece and Western Europe, as well as Russian literature and public consciousness. MF Akhundov died in Tbilisi and was buried there.

VERGİ SİYASƏTİNİN DAVAMLI İQTİSADİ İNKİŞAFA TƏSİRİNİN MÜASİR PROBLEMLƏRİ

i.ü.f.d.,Qarayev İmran Əliyar oğlu,
Vergilər Nazirliyinin Tədris mərkəzi
shafaq.ace@gmail.com

Açar sözlər: iqtisadi artım, vergi siyasəti, vergi dərəcələri, vergi yükü, davamlı inkişaf.
Ключевые слова: экономический рост, налоговая политика, налоговые ставки, налоговая нагрузка, устойчивое развитие.
Keywords: economic growth, tax policy, tax rates, tax burden, sustainable development.

Giriş

Vergi siyasətinin əsas funksiyalarından biri dövlət sektorunun qarşısında duran vəzifələri həyata keçirmək üçün zəruri olan büdcə gəlirlərinin təmin edilməsindən ibarətdir. Vergi siyəsitinin bu istiqaməti adətən fiskal funksiyaya aid edilir.Vergi siyasətinin digər və hal-hazırda daha çox tətbiq edilən istiqamətlərindən biri də iqtisadi artımın stimullaşdırılmasından ibarətdir. Nəzəri tədqiqatlar və praktiki müşahidələr sübüt edir ki, vergi gəlirləri birbaşa olaraq ölkədəki mövcud iqtisadi artım səviyyəsindən asılıdır. Yalnız iqtisadi artım hesabına yüksək vergi daxilolmalrını təmin etmək mümkündür. Vergi inzibatçılığının təkmilləşdirilməsi hesabına vergi gəlirlərinin artırılması imkanları məhduddur.

Vergi siyasətinin iqtisadi inkişafa təsiri mexanizmlərinin təhlili istər nəzəri, istərsə də praktiki baxımdan mühüm əhəmiyyət kəsb edir. Qloballaşan dünya iqtisadiyyatında iqtisadi artımın təmin edilməsi və onun davamlı inkişaf xarakter alması iqtisadi nəzərıyyənin əsas məsələlərindən biridir.

Vergi siyasətinin digər mühüm funksiyalarına əhalinin gəlirlərinə görə paylanmasındakı sosial-iqtisadi bərabərsizliyin tənzimlənməsi də aid edilir. Bu funksiya inkişaf etmiş Avropa ölkələrində və xüsusi ilə ABŞ-da geniş şəkildə tətbiq edilir. Aparılan elmi araşdırmalar sübut edir ki, Cini əmsalının artmasi iqtisadi artıma mənfi təsir göstərir və cəmiyyətdə sosial gərginliyin artmasına səbəb olur [11].

Davamlı sosial-iqtisadi inkişaf bir tərəfdən makroiqtisadi göstəricilərin stabilliyinin təmin edilməsində, digər tərəfdən isə dövlət sektorunun inkişafında, onun qarşısında duran vəzifələrin yerinə yetirilməsində əsas və həlledici şərtdir. Lakin iqtisadi artıma təsir edən amillər müxtəlif xarakterli göstəricilərdən ibarətdir. Vergi siyasəti, sosial siyasət, investisiya siyasəti, monetar siyasət birbaşa və dolayı olaraq iqtisadi artımı stimullaşdıran institusional mühitin formalaşmasına təsir göstərir. Bu eyni zamanda davamlı iqtisadi inkişafa təsir etdiyinə görə hansının daha əhəmiyyətli olmasını söyləmək üçün xüsusi şərtlər irəli sürmək lazımdır. Məsələn monetar siyasəti alətlərinin (faiz dərəcəsi, ehtiyat normaları, pul aqreqatları, pul kütləsi və s.) sabit qaldığı şəraitdə vergi siysətinin iqtisadi inkişafa təsir mexanizmlərinin səmərəliliyini təhlil etmək olar. Bu amillər sırasına aşağıdakıları aid etmək olar:

- daxili və xarici investisiyaların dinamikası və əsas istiqamətləri;
- ölkənin iqtisadi modernləşdirilməsi və innovativ inkişaf potensialı;
- sahibkarlığın mövcud vəziyyəti və inkişaf perspektivləri;
- əmək ehtiyatlarının strukturu və onun iqtisadi inkişaf tendensiyalarına uyğunluğu;
- sosial-iqtisadi infrastrukturun səviyyəsi;
- əmək bazarının çevikliyi və mobilliyi;
- sosial kapitalın, institusional mühitin iqtisadi inkişaf baxımından üstünlükləri;

- əsas ticarət partnyorlarının iqtisadi inkişaf templəri;
- rəqabət qabiliyyətli mühitin formalaşma səviyyəsi.

Göründüyü kimi, iqtisadi artıma təsir edən amillər müxtəlif olmaqla demək olar ki, iqtisadiyyatın və cəmiyyətin bütün sahələrini əhatə edir. Bu amillərin formalaşmasında və son nəticədə iqtisadi artıma təsir dərəcəsində vergi sistemi xüsusi rol oynayır. Müxtəlif vergi növlərinin və vergi dərəcələrinin tətbiqi, vergi inzibatçılığının keyfiyyəti, vergi qanunvericiliyinin təkmilləşdirmə dərəcəsi bilavasitə iqtisadi artıma təsir göstərir. İqtisadi ədəbiyyatda bu problemlər daimi diqqət mərkəzində olmaqla çoxlu sayda tədqiqatlardan ibarətdir [1, 2, 3, 4, 8, 9, 10, 11].

Ölkədə həyata keçirilən vergi siyasəti birbaşa olaraq makroiqtisadi səviyyədə vergi yükünə təsir göstərir. Qloballaşan dünyada iqtisadi artımın əsas göstəricisi olan ÜDM-in formalaşmasında ölkədə fəaliyyət göstərən multi-milli korporasiyalar, beynəlxalq şirkətlər və holdinqlər əhəmiyyətli rol oynayır. Yalnız o faktı qeyd etmək olar ki, hal-hazırda dünyada həyata keçirilən beynəlxalq ticarət əlaqələrinin 80%-i multi-milli korporasiyalar tərəfindən həyata keçirilir. Həmin şirkətlərin müxtəlif vergi dərəcələrinə malik ölkələrdə fəaliyyət göstərməsi onların gəlirlərinin artırılması məqsədilə vergilərin minimuma endirilməsi məsələsini real surətdə həyata keçirilməsinə imkan verir ki, nəticədə külli miqdarda vəsait dövlət büdcəsindən yayındırılır. Cədvəl l-də müxtəlif ölkələr üzrə vergi yükünün göstəriciləri verilmişdir. Cədvəl 1-dən göründüyü kimi Azərbaycanda vergi yükü digər ölkələrlə müqayisədə xeyli aşağıdır. Bu cədvəldə Azərbaycan üzrə vergi yükü gömrük rüsumlarımdab daxilolmalar nəzərə alınmaqla hesablanmışdır.

Cədvəl 1. Ölkələr üzrə vergi yükünün paylanması (2017-ci il ÜDM-ə nibətdə %-lə)*

Azərbaycan	12,1
Belcika	44,6
Türkiyə	24,9
ABŞ	27,1
Meksika	16,2
İsvecrə	28,5
Polşa	33,9
İsvec	44

* Revenue Statistics 2018/ Tax revenue trends in the OECD. OECD 2018.

Lakin, göründüyü kimi, inkişaf etmiş ölkələrdə vergi yükü kifayət qədər yüksəkdir. Ən yüksək vergi yükü güclü səsial siyasət həyata keçirən Skandinaviya əlkələrində müşahidə edilir. İsvecdə vergi yükü 2017-ci ildə 44% təşkil etmişdir. Vergitutma iqtisadiyyatının əsas prinsiplərinə görə iqtisadi artımı stimullaşdıran vergi siyasəti aşağıdakı ümumi cəhətləri özündə birləşdirməlidir:

- vergi yükünün aşağı salınması;
-vergi yükünün istehsaldan istehlaka və əmlaka keçirilməsi;
-aşağı vergi dərəcələrini tətbiq etməklə, vergitutma bazasının genişləndirilməsi;

- vergi kreditlərinin verilməsi;
- vergi qanunvericiliyinin sadələşdirilməsi və s.

Vergi siyasətinin iqtisadi artıma təsir mexanizmlərinin araşdırılması sahəsində aparılan beynəlxalq təcrübə sübut edir ki, bu ümumi cəhətlər hər bir ölkədə fərqli təsir dərəcəsinə malikdir. Məsələn, vergi yükünün istehsaldan istehlaka keçirilməsi ancaq iqtisadi islahatlar apardıqdan sonra gözlənilən nəticələri verə bilər. Əmlak vergisinin dərəcəsinin artırılması ev təsərrüfatlarının əmlakdan azad olunmasını stimullaşdırılır və nəticədə onun satışından əldə olunan vəsaitin investisiyalar istiqamətində yönəldilməsinə şərait yaranır. Belə olduğu halda əldə olunan vəsaitlər daha mobil xarakter daşıdığına görə qisa müddətdə mənfəət verən sahələrə yönəldilməklə iqtisadi artımı stimullaşdırır.

Butün bu deyilənlər ilk növbədə vergi daxilolmalarının ümumi daxili məhsuldan asılı olması faktını irıli sürür. Cədvəl 2-də Azərbaycanda vergi daxilolmaları və ÜDM barədə statistik məlumatlar verilmişdir.

Cədvəl 2. Azərbaycanda ÜDM və vergi daxilolmaları

İllər	**Ümumi daxili məhsul (ÜDM), milyon manatla**	**Vergi və digər ödənişlər, milyon manatla**
2005	12 522,50	1427,4529
2006	18 746,20	2706,2823
2007	28 360,50	4549,259
2008	40 137,20	5746,5658
2009	35 601,50	4113,4
2010	42 465,00	4292,8
2011	52 082,00	5475,062
2016	60425,70	7015,3665
2017	70 337,00	6973,6334
2018	79797,80	7907,6224

Mənbə : www.taxes.gov.az; www.azstat.gov.az

Bu asılığın xətti reqressiya modeli E-views 7.0 proqram paketi əsasında qurulmuş və aşağıdakı nəticələr əldə edilmişdir [2].

Vergi daxilolmalarının ÜDM-dən asılılığı üçün aşağıdakı reqrqssiya tənliyi alınır:

$TAX=729459.061829+101.585327306*UDM$, (1)

Burada:

TAX – vergi daxilolmaları;

UDM – ümumi daxili məhsul (ÜDM).

Dependent Variable: TAX				
Method: Least Squares				
Included observations: 10				
TAX=C(1)+C(2)*UDM				
	Coefficient	Std. Error	t-Statistic	Prob.
C(1)	729459.1	557197.2	1.309158	0.2268
C(2)	101.5853	12.93110	7.855892	0.0000

R-squared	0.885247	Mean dependent var	4811344.
Adjusted R-squared	0.870903	S.D. dependent var	1770975.
S.E. of regression	636312.6	Akaike info criterion	29.74162
Log likelihood	-146.7081		
F-statistic	61.71504		
Prob(F-statistic)	0.000050		

Substituted Coefficients:
==========
TAX=729459.061829+101.585327306*UDM
Qrafik 1-dən göründüyü kimi, hər iki göstərici arasında güclü asılılıq mövcuddur.

Hər hansı bir ölkədə iqtisadi artımı stimullaşdıran aktiv vergi siyasətinin səmərəliliyi mövcud vergi sistemi ilə yanaşı iqtisadiyyatın cari vəziyyətindən də əhəmiyyətli dərəcədə asılıdır. Məsələn əmək ehtiyatlarının yüksək olduğu ölkələrdəki gəlir vergisi siyasəti əhalinin qocalması problemi ilə üzləşən ölkələrdən fərqlidir. Son zamanlar maliyyə böhranı baş verən ölkələrin böyük əksəriyyətində əhalinin əmək qabiliyyətli yaşdan yuxarı olan təbəqəsinin payı kifayət qədər yüksəkdir.

Qrafik 1. Ümumi daxili məhsul ilə vergi daxilolmaları arasında asılılıq [4].



İqtisadi artımı stimullaşdıran vergi siyasətinin əsas xüsusiyyətlərini təhlil etməmişdən əvvəl qeyd etmək lazımdır ki, eyni bir stimullaşdırıcı təkliflər müxtəlif ölkələrdə fərqli nəticələrə gətirib çıxara bilər. Bu faktın əsas səbəbi vergi mexanizmlərinin mürəkkəb olması onun sosial xarakterli faktorlar və insan amili ilə bağlı olması ilə əlaqədardır. Tətbiq edilən vergi növləri və onların dərəcələri də bir-birindən fərqli olduğuna görə iqtisadi artımı stimullaşdıran vahid vergi sistemini formalaşdırmaq mümkün deyildir.

Qloballaşma prosesləri demək olar ki, ölkələrin böyük əksəriyyətinin iqtisadiyyatını açıq iqtisadiyyat etmişdir. Liberal və açıq iqtisadiyyatda vergi sistemi xarici vergi sistemlərindəki

xüsusiyyətlər nəzərə alınmaqla formalaşmalıdır. Məsələ ondan ibarətdir ki, vergi siyasəti adətən lokal xarakter daşıyır və yalnız ölkə sərhədləri daxilində təsir göstərir.

Lakin vergi ödəyiciləri öz fəaliyyətini genişləndirmək üçün ölkə xaricidən kənar fəaliyyət göstərmək istəyir. Vu isə vergi siyasətləri sahəsində ölkələr üzrə büyük fərqlərin aradan qaldırılmasını və bu sahədə beynəlxalq standartların qəbul edilməsi zərurətini yaradır. Bu zaman beynəlxalq şirkətlərin rolu və onların iqtisadi artıma təsir dərəcəsi də nəzərə alınmalıdır. Beynəlxalq korporasiyaların milli iqtisadiyyatda fəaliyyəti investisiya imkanlarını genişləndirməklə yanaşı yeni iş yerlərinin yaradılmasına, əhalinin həyat səviyyəsinin yüksəlməsinə kömək edir. Buna görə də vergi qanunvericiliyinin təkmilləşdirilməsi və xüsusilə transfer qiymətləndirmə haqqında normativ hüquqi aktların hazırlanması bu şirkətlərin iqtisadi aktivliyini məhdudlaşdırmamalıdır [11].

Qloballaşmanın sürətlənməsi , informasiya imkanlarının gücləndirilməsi, rəqəmsal iqtisadiyyatın inkişafı vergi sisteminin formalaşmasında aşağıdakı ümümi prinsiplərin nəzərə alınması zərurətini qarşiya çıxarır:

- Vergilər birbaşa olaraq maya dəyərinə təsir göstərir. Bu isə qlobal iqtisadiyyatda rəqabət qabiliyyətli mühitdə struktur dəyişikliklərin baş verməsinə iqtisadiyyatın müxtəlif sektorlarında nisbi üstünlüklərin əmələ gəlməsinə səbəb olur;
- Gəlir vergisinin yüksək olması əmək resurslarının miqrasiyasına səbəb olur. Bu isə növbəsində yüksək təhsil səviyyəsinə malik olan işçilərin aşağı vergi dərəcəli ölkələrdə işləməklə yüksək gəlirlərin əldə edilməsini stimullaşdırır;
- Hüquqi şəxslərin mənfəət vergisi dərəcəsi investisiyaların hansı ölkələrdə yerləşdirilməsinə təsir göstərir. Vergi siyasətı ölkədə rəqabətqabiliyyətli mühitin formalaşmasında mühüm rol oynayır. Lakin aşağı vergi dərəcələri hesabına iqtisadiyyatını inkişaf etdirən ölkələr çox qısa bir müddət ərzində iinvestiyların cəlb edilməsinə baxmayaraq uzun müddətli dövrdə daimi vergi sistemidən həssas şəkildə asılı bir vəziyyətə düşürlər;
- Beynəlxalq aləmdə əmək bazarında baş verən dəyişikliklər, iqtisadiyyatın tələbləri ilə əmək bazarında məşğulluğun strukturundakı uyğunsuzluq , yüksək ixtisaslı mütəxəsislərlə , ixtisassız əmək arasındakı fərqlər vergi sisteminin təkmilləşdirilməsini tələb edir;
- Qloballaşma şəraitində tətbiq edilən korporativ vergilərin dərəcəsi multi-milli şirkətlərin istehsalının hansı ölkədə təşkil edilməsinə birbaşa təsir göstərir və beləliklə kapitalın yüksək vergi dərəcələrinə malik olan ölkələrdən aşağı vergi dərəcəli ölkələrə axını baş verir.

Bu isə onu göstərir ki, iqtisadi artımı stimullaşdırmaq məqsədi ilə aparılan vergi siyasəti beynəlxalq aləmdə baş verən proseslərə uyğun şəkildə aparılmalıdır. Artıq heç bir ölkə qapalı şəkildə öz vergi siyasətindəki mövcud problemləri təklikdə beynəlxalq konvensiyalara qoşulmadan həll etmək iqtidarında deyildir. Bu isə vergi siyasəti sahəsində beynəlxalq əməkdaşlığın daha da gücləndirilməsini tələb edir.

İqtisadi nəzəriyyə sübut edir ki, vergi siyasəti birbaşa olaraq ümumi daxili məhsulun (ÜDM) artım sürətlərinə təsir göstərir. Lakin buna baxmayaraq bir çox səbəblərə görə bu təsirlərin riyazi-iqtisadi modellər vasitəsi ilə qiymətləndirilməsi kifayət qədər çətindir. Bu səbəblərin ümumi cəhətlərini aşağıdakı şəkildə qruplaşdırmaq olar:

- Vergi sistemi bir çox müxtəlif tipli vergilərdən ibarətdir. Bu vergi növləri isə xarakterinə və xüsusiyyətinə görə bir-birindən fərqlidir. Məsələn istehlak vergiləri ilə birbaşa vergilərin iqtisadi artıma təsiri tam şəkildə fərqlidir.
- Yalnız bir vergi növü dərəcəsində baş verən dəyişikliklər ÜDM-in müxtəlif komponentlərinə təsir göstərir. Məsələn fiziki şəxslərin gəlir vergisində və sosial vergilərin dərəcələrində baş verən azalmalar məşğulluğun səviyyəsini artırmaqla yanaşı yüksək ixtisaslı

təhsilə çəkilən xərclərin alternativ dəyərini artırir. Bu isə öz növbəsində təhsilə yönəldilən investisiyaların stimulunu azaldır.

- Vergi islahatları adətən bir vergi növünü yox ümumi vergi sisteminin təkmilləşdirilməsini nəzərdə tutur. Bunun nəticəsində ÜDM-in determinantlarının əksər komponentləri təsirə məruz qalır.
- İqtisadi islahatlar yalnız vergi siyasətini deyil digər sahələrdəki məsələn invesitisiya , sahibkarlığın inkişafı, sosial sahələrdə dövlət tərəfindən həyata keçirilən siyasəti nəzərdə tutur. Çox vaxt bu siyasətlər paralel olaraq həyata keçirildiyinə görə hansının təsirinin daha çox olmasını demək mümkün deyildir. Ekonometrik modellərə daxil olan izahedici dəyişənlərdə olan multikolleniarlıq xüsusi riyazi metodların tətbiq edilməsini tələb edir.

Vergi siyasətinin iqtisadi artıma təsirinin hərtərəfli araşdırılması ümumi tarazlıq modelinin qurulmasını zəruri edir. Bu modellər sisteminin əsas məqsədi iqtisadi sistemdə baş verən dəyişikliklərə uyğun olaraq makro və mikro səviyyədə vergi proqnozlarının və potensialının qiymətləndirilməsi və vergi siyasətində baş verə biləcək dəyişikliklərin kompyuter imitasiyası şəklində təhlilinin aparılmasından ibarətdir.

Beynəlxalq təcrübədə istehlak vergiləri iki əsas təsnifat üzrə qruplaşdırılır:

- Ümumi istehlak vergiləri;
- Xüsusi istehlak vergiləri.

Birinci qrup vergilərə klassik olaraq əlavə dəyər vergisi (ƏDV) və maların satışından və xidmətlərin göstərilməsindən təbiq edilən satış vergisini göstərmək olar. İkinci növ vergilərə bir qrup mal və xidmətlər üçün tətbiq edilən aksizləri və idxal rüsumlarını aid etmək olar. İqtisadi ədəbiyyatda adətən istehlak vergiləri dolayı vergilər olmaq etibarı ilə neytral xarakter daşıyır və mənfəət vergisinə nisbətən ev təsərrüfatlarının və şirkətlərin qərarvermə prosesinə az təsir göstərir. Adətən istehlak vergiləri proqressiv xarakter daşımır və vahid vergi dərəcəsi üzrə tətbiq edilir. Bu xüsusiyyətinə görə istehlak vergilərinin ÜDM-ə təsiri nisbətən zəifdir.

İqtisadi sistemdə baş verən dəyişikliklər birbaşa olaraq vergi potensialına və vergi daxilolmalarının proqnoz göstəricilərinə təsir göstərir. Bu baxımdan vergi modelləri sistemi iqtisadiyyatın ümumi tarazlıq modelləri ilə bağlı şəkildə işlənilməlidir. Qarşıya qoyulan məqsədlərə çatmaq üçün ümumi iqtisadi tarazlıq modellərinin aşağıdakı əsas alt sistemlərin hazırlanmalıdır:

- Çox sektorlu ümumi tarazlıq modelinin qurulması;
- İstehlak vergiləri üzrə mikrosimulyasiya modellərinin qurulması;
- Birbaşa vergilər üzrə simulyasiya modellərinin qurulması;
- Ümumi tarazlıq modeli çərçivəsində vergi sistemi modellərinin uzlaşdırılması;

Vergi siyasətinin təhlil edilməsi prosesində qarşıya qoyulan əsas məsələlərdən biri də iqtisadiyyatın vergi yükünün qiymətləndirilməsindən ibarətdir. Vergi yükünün qiymətləndirilməsi zamanı iqtisadiyyatın mövcud vəziyyəti, onun quruluşu, xarici iqtisadi əlaqələri nəzərə alınmaqla yanaşı vergi yükünün struktur və konyunktur tərkib hissələri də təhlil olunmalıdır.

Əgər dövlət büdcəsinə daxil olan vergilər xarici bazardakı mövcud qiymət münasibətlərindən asılıdırsa, onda belə vergi daxilolmaları vergi yükünün konyunktur, əks halda isə struktur komponentləri adlandırılır. Vergi gəlirlərinin struktur tərkib hissələri fundamental amillərdən –vergi qanunvericiliyindən, vergi dərəcələrindən asılı olmaqla iqtisadiyyatın strukturu ilə təyin olunur. Konyunktur komponent isə bilavasitə xarici bazardakı mövcud qiymətlərin səviyyəsindən asılı olmaqla dəyişməyə meyllidir. Azərbaycan iqtisadiyyatının ixrac potensialında neft sektorunun payı yüksək olduğundan onda dünya bazarında neftin qiymətində baş verən dəyişikliklər vergi yükünə təsir göstərə bilir.

Dünya bazarında neftin qiymətində baş verən dəyişikliklər bir çox iqtisadi və siyasi amillərdən asılı olduğundan onun qiymətlərinin dinamikasını proqnozlaşdırmaq mümkün deyildir. Bu isə vergi daxilolmalarının proqnozlaşdırılması üçün struktur komponentlərdən istifadə olunmasını zəruri edir. Dünya bazarında neftin qiymətindəki baş verən dəyişikliklər əgər orta qiymətlərindən kəskin şəkildə fərqlənərsə, onda vergi yükündə baş verən dəyişikliklər (vergi daxilolmalarının ÜDM-də xüsusi çəkisi) ümumi vergi yükünə təsir göstərən vergi sisteminin dəyişilməsi kimi qiymətləndirilə bilməz. Dünya bazarında qiymətlərin qalxması nəticəsində büdcəyə daxil olan vergi gəlirlərinin artması və onun ÜDM-də xüsusi çəkisinin yüksəlməsi həmçinin vergi yükünün artması kimi qəbul edilməməlidir.

Azərbaycanda ölkə iqtisadiyyatında baş verən inkişaf vergi sistemində səmərəli islahatların aparılmasına, bu sahədə məbil və aktiv vergi siyasətinin həyata keçirilməsinə şərait yaratmışdır. 2003-2018-ci illər ərzində vergi sisteminin təşkilati-nəzarət potensialının daha da gücləndirilməsi, maddi-texniki təchizatının yaxşılaşdırılması, vergi inzibatçılığının bütün sahələrində müasir informasiya kommunikasiya texnologiyalarının tətbiqi, inzibati idarəetmənin keyfiyyətcə yaxşılaşdırılması və avtomatlaşdırılması sahəsində həyata keçirilən iri miqyaslı tədbirlər qısa müddətdə öz müsbət təsirini göstərmişdir.

2006-ci ildən başlayaraq Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertlərin həyata keçirilməsi nəticəsində vergi daxilolmalarının büdcə gəlirlərindəki xüsusi çəkisi azalmışdır. Əgər 2003-cü ildə vergi daxilolmaların büdcə daxilolmalarındakı xüsusi çəkisi 67,4% təşkil edirdisə, 2017-ci ildə bu göstərici 39% təşkil etmişdir.

2013-ci ilin yekununa görə tədiyyələr üzrə vergi daxilolmalarına diqqət yetirdikdə görərik ki, 2003-cü illə müqayisədə ən çox artım mənfəət vergisi və əlavə dəyər vergisi üzrə olmuşdur. İnvestisiyaları təşviq etmək, müəssisələrin istifadəsində qalan maliyyə vəsaitlərini artırmaq məqsədilə ötən 10 il ərzində mənfəət vergisinin dərəcəsi mərhələlərlə aşağı salınaraq, 2003-cü ildə 27 faizdən 25 faizə, 2004-cü ildə 24 faizə, 2006-cı ildə 22 faizə, 2010-cu ildən isə 20 faizə endirilmişdir. Vergi dərəcələrini azalması vergitutma bazasını genişləndirilməsinə, o cümlədən də mənfəət vergisi üzrə daxilolmaların artmasına səbəb olmuşdur.

Beynəlxalq təcrübədə mənfəət vergisinin dərəcəsinin azaldılması meylləri artmaqdadır. Xüsusi ilə şon dövrdə ABŞ-da mənffət vergisi dərəcəsinin azaldılmsı yüksək iqtisadi inkişaf meyllərinə səbəb olmuşdur. Digər tədbirlər əsasən kiçik orta biznesin vergi yükünün azaldılması və elmi tədqiqat (R&D) işlərinə və bilik yönümlü kapitala (BYK) vergi kreditlərinin verilməsi ilə bağlı tədbirlərə üstünlük verirlər. Hal-hazırda bilik yönümlü kapital və onun vergiyə cəlb edilməsi müasir vergi siyasətinin ən mühüm istiqamətlərindən biridir.

Hal-hazırda dünyanın inkişaf etmiş ölkələrində verginin istehsaldan istehlaka ötürülməsi meylləri artmaqdadır. Mənfəət vergisinin dərəcələri aşağı salınmaqla dolayı vergilərin dərəcələri qaldırılır. Gələcəkdə əmlak vergisinin potensial mənbə kimi rolunun artması da beynəlxalq təcrübədə əsas gözlənilirdən biridir.

Azərbaycanda vergi sisteminin inkişafının növbəti mərhələsi olaraq vergi siyasəti vasitəsi ilə kölgə iqtisadiyyatının səviyyəsinin aşagı salınması vacib istiqamətlərdən biri kimi qeyd olunur. Gəlir vergisinin təkmilləşdirilməsi bu sahədə şəffavlığın əldə olunmasına təsir göstərəcəkdir.

ƏDƏBİYYAT

1. Qarayev İ.Ə. Beynəlxalq təcrübədə vergi xərcləri və vergi güzəştlərinin tətbiqi. // Azərbaycanın vergi jurnalı, 2017, № 3
2. Garayev İ.A. Globalization and Tax policy. EcoMod 2017. İnternational Conference on Economic Modeling. Sloveniya, 2017, p. 64-66

3. Musayev A.F. “Moderləşdirmə və aktiv vergi siyasəti” // Azərbaycanın vergi jurnalı, 2012, № 6
4. Qarayev I.Ə., Rəcəbov B.Ə., Rəsulova G.B. Vergi siyasəti və iqtisadi artımın stimullaşdırılması // Azərbaycanın vergi jurnalı, 2016, № 1
5. Musayev A.F. “Vergi siyasətinin iqtisadi problemləri” Bakı: 2004
6. Musayev A.F., Qarayev İ.Ə. “Sosial siyasət və iqtisadi inkişaf” // Azərbaycanın vergi jurnalı, 2013 № 1
7. Musayev A.F., Qarayev İ.Ə. “Elektron kommersiya və vergitutma” // Azərbaycanın vergi jurnalı, 2013 № 2
8. Тарасов В.Ф., Владыка М.В., Сапрыкина Т.В., Семыкина Л.Н. Налоги и налогообложение. Учебник, Москва, 2012
9. Пансков В.Г. Налоги и налогообложение. Учебник. М.: 2018
10. David Romer. Advanced makroeconomics. Second edition. Mc.Graw.Hill 2013
11. OECD (2010) *Tax Policy Reform and Economic Growth*, OECD Tax Policy Studies, No. 20
12. W.Beck, J.Laurent, van der Macsen and Alan Walker Social Quality: A Vision for Europe. Kluwer Law International 2002
13. The Journal of Private Enterprise, The Impact of Economic Growth, Tax Policy and Economic Freedom on İncome İnequality. 24 (1), 2008, 23-31
14. OECD (2009) Transver Pricing Guidelines for Multinational Enterprises and Tax Administrators.

VERGİ SİYASƏTİNİN DAVAMLI İQTİSADİ İNKİŞAFA TƏSİRİRİNİN MÜASİR PROBLEMLƏRİ

Qarayev İ.Ə.

XÜLASƏ

Məqalədə vergi siyasətinə iqtisadi artımın stimullaşdırılmasının əsas tənzimləyici mexanizmi kimi baxılmış və onun xüsisiyyətləri araşdırılməşdır. Nəzəri və praktiki baxımdan iqtisadi artımın davamlı xarakter almasına təsir edən amillərin sayı kifayət qədər çoxdur. Bu faktı nəzərə alaraq iqtisadi artımı stimullaşdıran mühitin formalaşması prosesində vergi alətlərindən kənar digər amillərin rolu da nəzərə alınmışdır. Statistik baxımdan ümumi daxili daxili məhsulun dinamikası ilə vergi daxl olmalarının dinamikası arasındakı münasibətlər təhlil edilmişdir. İqtisadi artımı stimullaşdıran vergi siyasətinin beynəlxalq təcrübədə istifadə olunan seçim istiqamətlərinə baxılmışdır. Bu secım istiqamətlərinin müxtəlif vergi növləri üzrə tətbiqi xüsusiyyətlərinə də diqqət yetirilmişdir.

СОВРЕМЕННЫЕ ПРОБЛЕМЫ ВЛИЯНИЯ НАЛОГОВОЙ ПОЛИТИКИ НА УСТОЙЧИВОЕ ЭКОНОМИЧЕСКОЕ РАЗВИТИЕ

Гараев И. А.

АННОТАЦИЯ

В статье рассматривается налоговая политика, как основной регуляторный механизм стимулирования экономического роста и исследуются ее особенности. Теоретически и

практически существует множество факторов, влияющих на устойчивость экономического роста. Учитывая этот факт, также принималась во внимание роль других факторов, помимо налоговых инструментов, в формировании среды, стимулирующей экономический рост. Со статистической точки зрения анализируется взаимосвязь между динамикой валового внутреннего продукта и динамикой налоговых поступлений. Варианты налоговой политики, стимулирующие экономический рост, используются в международной практике. Также было уделено внимание специфике применения этих опций для разных видов налогов.

MODERN PROBLEMS OF THE IMPACT OF TAX POLICY ON SUSTAINABLE ECONOMIC DEVELOPMENT

Garaev I.A.

SUMMARY

The article examines tax policy as the main regulatory mechanism for stimulating economic growth and examines its features. In theory and practice, there are many factors that affect the sustainability of economic growth. Given this fact, the role of factors other than tax instruments in creating an environment that stimulates economic growth was also taken into account. The relationship between the dynamics of gross domestic product and the dynamics of tax revenues is analyzed from a statistical point of view. Tax policy options that stimulate economic growth are used in international practice. Attention was also paid to the specifics of applying these options for different types of taxes.

ATƏT - AVROPA TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİ VASİTƏ KİMİ

Polkovnik, fəlsəfə üzrə fəlsəfə doktoru, professor Quliyev Bəbir Şərqi oğlu
Polkovnik, magistrant İbrahimov Rəşad Miraslan oğlu
Silahlı Qüvvələrin Hərbi Akademiyası

Açar sözlər: ATƏM/ATƏT, "soyuq müharibə", neoliberal yanaşma, Helsinki Yekun aktı, Avropada Adi Silahlı Qüvvələr haqqında Müqavilə (AASQM)
Ключевые слова: СБСЕ/ОБСЕ, холодная война, неолиберальный подход, Хельсинкский Заключительный акт, Договор об обычных вооруженных силах в Европе (ДОВСЕ).
Keywords: CSCE/OSCE, Cold War, neoliberal approach, Helsinki Final Act, Treaty on Conventional Armed Forces in Europe (CFE).

"Soyuq müharibə" və onun bitməsindən sonrakı vəziyyət dünya nizamına ciddi təsir göstərmiş, ölkələr arasında yeni növ əməkdaşlıq formalarının yaranmasına, iqtisadi inteqrasiyasının möhkəmlənməsinə, Avropada və dünyada aparıcı siyasi cərəyanların dəyişikliyə məruz qalmasına zəmin yaratmışdır. Bu müharibə özü-özlüyündə SSRİ ilə ABŞ arasında birbaşa hərbi əməliyyatlara gətirməsə də, fövqəldövlətlər arasında üçüncü ölkələrdə davam edən müharibələrdə müxalifət qrupları dəstəkləməyə və onlara yardım göstərməyə, neytral ölkələrə dolayı yolla təsir göstərməyə, qızğın silahlanma yarışına, o cümlədə nüvə silahı ilə təçhizat sahəsində rəqabətə gətirib çıxardı.

1947-1991 -ci illər arasındakı zaman kəsiyi "soyuq müharibə" dövrü hesab olunur. Avropa Virtual Bilik Mərkəzinin (CVCE) yanaşmasına əsasən "soyuq müharibə" üç mərhələyə bölünür: 1945-1953-cü illər arasında dünya quruculuğunun bipolyar xarakter alması; 1953-1962-ci illərdə "soyuq müharibə"nin paroksizmləri ("güclü sancıları"); 1962-1985-ci illərdə gərginliyin yenidən baş qaldırması və 1985-1989-cu illər arasında "soyuq müharibə"nin sona çatmasına yönəlmiş cəhdlər. Beləliklə, birinci mərhələdə - 1949-cu ildə Sovet İttifaqının təcavüzünün qarşısını almağa və ideoloji fərqlərə görə bölünmüş Avropa ölkələrini birləşdirməyə çalışan ABŞ-ın başçılığı altında kollektiv təhlükəsizlik üzrə Şimali Atlantika Müqaviləsi Təşkilatı (NATO) yaradıldı [1]. Daha sonra, ikinci mərhələ çərçivəsində - 1955-ci ildə Sovet İttifaqı tərəfindən Varşava Müqaviləsi Təşkilatı (VMT) yaradıldı. Avropa ölkələrini sülhü və təhlükəsizliyi təşviq etməyə çağıran həmin təşkilat sosialist hərəkatını və inkişafını SSRİ-nin təklif etdiyi plan üzrə təmin etməyi öhdəsinə məqsəd qoymuşdu. Bu təşkilatın yaradılması iki super güc dövlət arasındakı münasibətlərin artan gərginlik dövrünə şamil olunur və nəticə etibarilə Avropa ölkələrinin bloklara ayrılması prosesinin başlanğıcını göstərir. Üçüncü mərhələnin ortalarında - 1970-ci illərdə beynəlxalq birlik gərginliyi azaltmaq, münaqişənin müharibəyə çevrilməsinin qarşısını almaq üçün Qərblə Şərq arasında dialoq platforması axtarışına təşəbbüs göstərdi. Belə bir dialoqun təməli təcavüzün qarşısını almaq və məsləhətləşmələr aparmaq cəhdləri dövlətlərarası əməkdaşlıq üçün vahid platforma yaratmaq və bölgədə sülhə və təhlükəsizliyə nail olmaq üçün təsirli həll yollarını tapmaq ideyası idi.

Belə bir beynəlxalq təsir vasitəsinin yaradılmasının əsas şərti BMT-nin səlahiyyətləri arasındakı uyğunsuzluq və dövlətlərarası ziddiyyətləri idarə edə bilməməsi idi. Beynəlxalq münasibətlər sistemində sülhü təmin edə və dövlətlərin hərəkətlərini koordinasiya edə biləcək qlobal bir alət olmadığı təqdirdə xaos yaranır, sabitlik və dünya nizamını təmin etmək ehtiyacını ortaya çıxarır. 1975-ci ildə ATƏM-in yaradılması Avropada beynəlxalq böhranların tənzimlənməsi və dayanıqlı dövlətlərarası münasibətlər sisteminin təsbit edilməsi cəhdi idi.

Beynəlxalq təşkilatların yaradılmasında neoliberalizm və neorealizm arasındakı münaqişə: ATƏM konteksti

Beynəlxalq ictimaiyyətin əməkdaşlıq, məsləhətləşmə və məlumat mübadiləsi yolu ilə beynəlxalq münasibətlərdəki anarxiyadan uzaqlaşma cəhdləri dövlətlərarası təşkilatların yaranmasına səbəb oldu.

"Soyuq müharibə"dən sonrakı real şəraitdə üstün yanaşmalar hesab edilən neoliberallar və neorealistlər xaotik durumdan nizamlı beynəlxalq münasibətlər sisteminə keçidin yollarını təklif etməyə başladılar. 1960-cı illərin sonunda kommunist düşərgəsində Avropa dövlətlərinin sosialist sistemlərinin, inkişaf etməkdə olan və Qərbin digər sosial-demokrat yönümlü ölkələrində isə kapitalist sisteminin zəifləməsi açıq-aydın hiss olunmağa başladı. Lakin bölgələrdə mövcud olan yanaşmaların hərtərəfli tənqidi hakim rejimlərin yekun devrilməsinə səbəb olmasa da, qlobal maliyyə ideyasının mövqeyinin artmasına, azad bazar ideologiyasının əsaslandırılmasına və sonda beynəlxalq münasibətlərdə neoliberalizm ideyasının üstün yer almasına kömək etdi (2, p.10).

Neoliberalizmin əsas şüarı ondan ibarətdir ki, dövlətlərarası qurumlar oxşar maraqlara malik ölkələrin ittifaqları hesab edilir. Başqa sözlə, ölkələrin ittifaqları hər cür fayda əldə etmək və suveren ölkələrin milli hədəflərə çatmasına mane olan problemləri mümkün qədər aradan qaldırmaq üçün qüvvə və vasitələrin kollektivləşdirilməsi ehtiyacından irəli gəlmişdi. Bunun üçün dövlətlər tam müstəqillikdən imtina etməli və öz maraqlarını birliyin digər üzvlərinin maraqları ilə birləşdirməli oldular. Neoliberalizm ideologiyası ölkələr arasındakı müttəfiqlik və milli mənafelərin ortaq maraqlarla əvəzlənməsi prosesini şərtləndirir ki, bu da öz növbəsində konglomeratdakı bütün iştirakçıların fayda əldə etməsinə kömək edir, fərdi suveren hədəflərin paralel şəkildə təmin edilməsinə zəmin yaradır. Bu baxımdan beynəlxalq iştirakçılar yalnız əməkdaşlığın qurulması və həyata keçirilməsindən faydalanırlar. Neoliberal yanaşmanın üstünlüyünün əks arqumenti xarici siyasətin inkişaf etdirilməsində və qərar qəbuletmədə ölkələrin sərbəstliyinə təkid edən və bu səbəbdən alyansların qurulmasını tənqid edən neorealizmdir.

Neorealizmin tərəfdarlarına görə suverenlik daimi, ekzogen, bütöv və bölünməz dövlət atributudur. Məhz bu səbəbdən suverenliyin bir hissəsinin təhvil verilməsi (mütləq suverenlikdən könüllü imtina) yanlış qərardır, belə ki, beynəlxalq təşkilatlar böyük dövlətlərin marağı və dəstəyi olmadan hərbi-siyasi vəziyyətə təsir göstərə bilmir.

Beləliklə, hər iki yanaşma beynəlxalq münasibətlərin anarxiyalı vəziyyəti ilə razılışır. Neoliberalizm dövlətləri anarxiyanı yumşaldacaq və təhlükəsizlik problemlərinin həllinə kollektiv yanaşma tapacaq təşkilatlar yaratmağa sövq edir. Neorealizm isə dövlətlərin və xüsusən də milli mənafelərin təmin edilməsi üçün dövlətlər arasında güc münasibətlərinə istinad edir, suverenliyin üstünlüyünü saxlayır.

ATƏM/ATƏT çərçivəsində ölkələrin birləşməsi neoliberal baxışlara cavab verir. Bu əməkdaşlığın əsasını ölkələrin demokratikləşdirilməsi, iqtisadi inteqrasiya, azad bazarın yaradılması, eyni zamanda münaqişələrin həlli ilə bağlı qərarların qəbulu üzrə kollektiv yanaşma prinsipi təşkil edir. Bu təşkilat çərçivəsində iştirakçı ölkələr nəzəri olaraq, dialoq prosesində bərabər hüquqlara malikdirlər ki, bu da daha az inkişaf etmiş ölkələrin baxışlarına qarşı diskriminasiyasının olmamasını dəlalət edir. Lakin, səs bərabərliyi konsensusun tez əldə edilməsi imkanı demək deyil, bu əsasən, Rusiya və ABŞ-ın iştirakı ilə keçirilən dialoqda nəticə verə bilər.

SSRİ-nin dağılması ilə ikiqütblü dünya nizamının süqutu, Qərblə Şərq arasındakı münasibətlərdə (artıq Rusiya başda olmaqla) gərginlik səviyyəsinin aşağı enməsi ilə nəticələnmədi. "Soyuq müharibə" bitdikdən sonra Rusiya-Amerika münasibətlərinin yeni paradiqması qarşılıqlı tolerantlıq səviyyəsinin yüksəlişi, lakin tərəflər arasında bərabər məsafəli mövqenin saxlanılması və uzaqlaşmaq istəyi ilə xarakterikdir.

Tərəflərin Avropa təhlükəsizliyinin yaradılmasında öz müstəqil maraqlarının saxlanmasına və dərin olmayan əməkdaşlığa istiqamətlənmiş cəhdlərini nəzərə alsaq, ATƏT-in qərarlarının məcburi xarakterə malik olmayan tövsiyələrdən başqa bir şey deyil. Beləliklə, neorealizmin belə bir arqumenti öz təsdiqini tapır ki, suveren dövlətin marağı olmadan beynəlxalq institutların fəaliyyətinin səmərəli olacağı qeyri-mümkündür.

"Soyuq müharibə"nin bitməsinə baxmayaraq, ATƏM-in 1995-ci ilin yanvarın 1-də ATƏT-lə əvəzlənməsi, eləcə də Sovet İttifaqının dağılması şəraitində təşkilatın coğrafi təsir sərhədlərini genişləndirməsi zəruri konstruktiv-funksional dəyişikliklərlə nəticələndi. Buna baxmayaraq, "soyuq müharibə" dövründə yaradılan və o dövr üçün məqsəd və prinsiplərinə görə mütərəqqi təşkilat kimi xarakterizə edilən ATƏM/ATƏT Avropanın bu gün üzləşdiyi yeni şərtlərə və təhdidlərə uyğunlaşa bilməməsi səbəbindən öz nüfuzunu itirməkdədir.

ATƏM / ATƏT-in fəaliyyət göstərməsi üçün əsas ideyalar

Yuxarıda qeyd olunduğu kimi, ATƏM ABŞ və SSRİ arasında səmərəli danışıqlar aparmaq, II Dünya Müharibəsinin siyasi və ərazi nəticələrini möhkəmləndirmək və yeni hərbi münaqişələrin başlanmasının qarşısını almaq üçün bipolyar dünya nizamı çərçivəsində yaradıldı. Birliyin əsası olan ATƏM-in Yekun Aktı ozündə on dövlətlərarası qarşılıqlı fəaliyyət prinsiplərini və təhlükəsizliyin üç ölçüsünü birləşdirdi. İnsan hüquqlarına hörmət prinsipini özündə əks etdirən bu akt, cəmiyyət, regional təhlükəsizlik və güclü dövlət arasında ayrılmaz əlaqəni vurğulayan özünəməxsus bir sənəd oldu.

Helsinki Yekun Aktına görə iştirakçı dövlətlərin suverenliyi bərabərdir; güc təhdidi və onun istifadəsi yolverilməzdir; Avropa dövlətlərinin sərhədləri və ərazi bütövlüyü toxunulmazdır; mübahisələr barışıq yolu ilə həll olunur; hər bir dövlətin daxili işləri yalnız həmin dövlətin səlahiyyəti ilə məhdudlaşır; bütün dövlətlər insan hüquqlarına və əsas azadlıqlarına hörmət edir; bərabər hüquqlara və xalqların öz müqəddəratını təyinetmə hüququna hörmət edilir; dövlətlər əməkdaşlığa təşəbbüs göstərir; beynəlxalq hüquqa görə öhdəliklər vicdanla və sarsılmaz şəkildə yerinə yetirilir (3, p.4-8). Bu normativ struktur Avrasiya təhlükəsizlik rejiminin əsasını təşkil etmişdir (Hopmann 1999, 8).

Təşkilatın fəaliyyəti üç ölçü üzrə aparılır: etimadın möhkəmləndirilməsi, sülhün saxlanılması və tərksilah; ölkələr arasında iqtisadiyyat, elm, texnologiyaların inkişafı və ətraf mühit sahəsində əməkdaşlıq; humanitar məsələlərdə əməkdaşlıq. Sənəddə nəzəri olaraq fəaliyyətlər hər üç səbət arasında bərabər paylanmalıdır. Qitənin üç ölçü üzrə təhlükəsizlik məsələsinə kompleks yanaşma bu təşkilatı Avropa təhlükəsizlik arxitekturası çərçivəsində mövcud olan digər təşkilatlardan əhəmiyyətli dərəcədə fərqləndirir (4, p. 110). Helsinki sazişləri ilə bir araya gəlmiş dövlətlər arasındakı struktur və geniş əməkdaşlıq spektri Avropada təhlükəsizliyin təmin edilməsi üçün hərtərəfli səlahiyyətli və səmərəli bir institut yaratmaq üçün yaxşı bir bünövrə hesab edilir. Lakin əksər hallarda təsir vasitələrinin olmaması və konsensusa əsaslanan qərar qəbuletmə prinsipinin işlək vəziyyət almaması səbəbindən praktikada təşkilatın inkişafı və fəaliyyətinin səmərəliliyi minimuma enmiş və davamlı hərtərəfli tənqidlərə məruz qalmışdır. İki fərqli sistemin sülh üçün razılıq əldə etməsinə baxmayaraq, dövlətlər arasında ideoloji differensasiya üçün siyasi təşviqat bir an da dayanmamışdır. Nəticədə, Helsinki Aktı heç bir yeni prinsip irəli sürmədi, mahiyyət etibarilə 1945-ci ilin Yalta Konfransının qəbul etdiyi geosiyasi nizamı: Avropanın iki antaqonist sistemə bərabər bölünmə prinsipini təsdiqlədi: (5, p.7).

Avropada Adi Silahlı Qüvvələr haqqında Müqavilə ATƏT-in Avropa təhlükəsizliyinin gələcəyinə bir töhfə kimi

ATƏT-in Paris sammiti çərçivəsində Avropada Adi Silahlı Qüvvələr haqqında Müqavilə (AASQM) 1990-cı ildə imzalanmış və faktiki olaraq, iki blok arasındakı qarşıdurma dövrünün

sonuna təsadüf edib. İştirakçılar 16 (on altı) NATO ölkəsi və 6 (altı) VMT (Varşava Müqaviləsi Təşkilatı) dövləti oldu. Müqavilə silahlanma səviyyəsinin və Avropada yeni silahlı qarşıdurma təhlükəsinin aşağı salınmasına yönəlmişdi. Əsas niyyət isə Avropa ölkələrinin silahlı qüvvələrinin təqribi bərabərliyinə və tarazlığına əsaslanan kəmiyyət bərabərliyi idi. Lakin Sovet İttifaqının dağılmasından və bəzi keçmiş sosialist ölkələrin NATO blokuna birləşməsindən, eyni zamanda VMT-nin ləğvindən sonra hərbi balans pozuldu və nəticədə müqavilənin yeni reallıqlara uyğunlaşdırılması zərurətinə gətirib çıxardı.

1999-cu ildə İstanbulda hər bir dövlət üçün onun hansı bloka aidiyyatından asılı olmayaraq, kvotaların bölüşdürülməsinə dair yeni yanaşma şəraitində yeni kəmiyyət standartlarını təyin edilərək, AASQM-ə uyğunlaşmaya cəhdi edildi.

1999-cu ildə İstanbulda AASQM-in yeni reallığa uyğunlaşdırılmasına cəhdlər edildi. Həmin cəhdlər hər hansı bir bloka aid olmasından asılı olmayaraq hər bir dövlət üçün kvotaların bölüşdürülməsinin dəyişmiş yanaşması kontekstində yeni kəmiyyət standartlarının müəyyənləşdirilməsinə yönəlmişdir. Mövcud müqaviləyə dəyişiklik edilməsi zərurəti barədə qərar qəbul edildiyi zaman Avropada hərbi-siyasi maraqlar ətrafında birləşən yalnız bir qrup - NATO ölkələri var idi. Tərəzinin digər tərəfində bölgədə hərbi baxımdan üstünlük təşkil edən NATO-ya ayrılan kvotaların paylanması prinsipinin yenidən nəzərdən keçirilməsində israr edən Rusiya dayanmışdır.

İstanbul Zirvə görüşündə ölkələr kvotaların formalaşması ilə dövlətlərin ittifaqa üzvlüyü arasında heç bir əlaqənin olmamasına əsaslanan yeni bir paylanma prinsipi ortaya qoydular. Ümumilikdə, yeni paylanma prinsipi hər iki tərəfin maraqlarına cavab versə də, yeni razılaşma qüvvəyə minmədi. Uyğunlaşdırılmış AASQM-i yekdilliklə təsdiqləmək üçün tərəflərin regiondakı sabitlik, şəffaflıq və proqnozlaşdırmanın artırılmasına yönəlmiş bir sıra "İstanbul öhdəliklərini" yerinə yetirməsi vacib idi. Məsələn, Rusiya cinah məhdudiyyətləri üzrə yeni şərtlərə uyğunlaşmalı, Gürcüstan və Moldovadan qoşunlarını geri çəkməli və onların sayını müəyyən edilmiş normalara endirməli idi. NATO-nun Avropa üzvlərinə də öz növbəsində konkret şərtlər irəli sürülmədi. AASQM-in yeni versiyasının qəbul edilməsindən sonra alyans ölkələrinə münasibətdə zəruri düzəlişlərin edilməsi nəzərdə tutulmuşdu. Lakin 1999-cu il Konfransının Yekun Aktının ən vacib maddəsini AASQM-in iştirakçı dövlətləri tərəfindən kompromisli razılaşmanın sürətli ratifikasiyası təşkil edirdi.

Lakin nə İstanbul razılaşmaları, nə də Rusiya tərəfinin zəruri maddələrin yerinə yetirilməsi ilə bağlı verdiyi zəmanətlər də faktiki olaraq müqavilədə dəyişikliyə gətirib çıxarmadı. Əksinə, narazı tərəflərin sonrakı dialoqlarını çətinləşdirdi. Rusiyanın mövqeyi Xarici İşlər Nazirliyinin (XİN) rəhbəri Sergey Lavrovun (2011) bəyanatında öz əksini tapmışdır. Bəyanata əsasən Rusiya bütün öhdəliklərini tam həcmdə, hətta lazım olandan artıq yerinə yetirmiş, lakin NATO tərəfdən yeni qaydaların ratifikasiyası əvəzinə İstanbul müqavilələri ilə birbaşa əlaqəsi olmayan bir sıra yeni ultimatumlar irəli sürülmüşdür. Nəticə etibarilə, opponentlər arasında anlaşılmazlığın artması, AASQM-in adaptiv versiyası barədə konsensusun axtarışını arxa plana keçirmiş, Qərbin xarici siyasət məqsədlərinə çatmaq üçün ATƏT platformasından bir vasitə kimi istifadə etməsi nəticəsinə gəlməyə rəvac vermişdir. Getdikcə artan anlaşılmazlıq çərçivəsində Rusiya ilə ABŞ arasındakı dialoq daha da pisləşdi və tərəflər optimal həll yolu tapmaq əvəzinə öz mövqelərini müdafiə etməyə başladılar. Məsələn, Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Aleksander Yakovenkonun (2005) bəyənatında deyilirdi ki, NATO bloku və assosiativ ölkələr uyğunlaşdırılmış müqavilənin qəbul edilməsinin uzadılması üçün əllərindən gələni edirlər, çünki sərhədlərini genişləndirən alyans üçün köhnə razılaşmaların tələbləri daha əlverişli idi. Alyans tərəfindən Rusiyanın razılaşmaları yerinə yetirməsi faktına ratifikasiya prosesinin uzadılması

üçün bir əsas kimi baxılmırdı (NATO 2000). Rusiya tərəfi belə bir spekulyasiyalara Qərbin təzyiq aləti kimi AASQM-dən əlverişsiz istifadə cəhd kimi baxırdı (6).

ATƏT daxilində mövcud qərar qəbul etmə prosesi ilə əlaqədar aparılmış tədqiqatlara əsasən, ABŞ-SSRİ arasındakı qarşıdurmanın Rusiya ilə ABŞ-ın rəhbərlik etdiyi Şimali Atlantika Müqaviləsi ölkələri bloku arasındakı qarşıdurma ilə əvəz olunduğu qənaətinə gəlmək olar. Yəni, Avropa təhlükəsizliyi kontekstində Qərblə Şərq arasındakı qarşıdurma regiondakı ümumi sülhün əldə edilməsi üçün bir maneə olaraq qalır. Bunu Rusiyanın AASQM-ə tətbiq etdiyi moratorium təsdiq edir. 2007-ci ildə Rusiya hazırkı müqavilənin aktuallığını itirməsi və Qərbin yeni əməkdaşlıq şərtlərini qəbul etməkdən yayınmasını əsas gətirərək müqavilədəki iştirakını dayandırdı. Rusiya tərəfinin fikrincə, silahlara nəzarət rejiminin dəyişdirilməsinə ehtiyac var, lakin AASQM-ə iştirakçılar tərəfindən o məqsədlə riyaət edilir ki, müqavilənin mövcud vəziyyətə uyğunlaşdırılmış versiyası tezliklə ratifikasiya (təsdiqlənməsi) edilsin.

Avropa təhlükəsizliyinin təməl daşı kimi tanınan, Avropa ölkələrinin qitədəki tarazlığını və dinc mövcudluğunu təmin etmək üçün tərəflərin hərbi güc balansını tənzimləməyi hədəfləyən AASQM müqaviləsi nəticədə regional təhlükəsizlik aləti əvəzinə maneəyə çevrildi. Qərb ölkələri blokunun uyğunlaşma versiyasını imzalamaqdan yayınmasına görə Rusiyanın narazılığı müqaviləyə moratoriumun tətbiq edilməsinə gətirib çıxardı ki, bu da öz növbəsində Rusiyanın beynəlxalq hüququ pozması kimi qiymətləndirildi, üstəlik digər dövlətlərin də müqavilədən geri çəkilməsinə əsas verdi. Aktorların istənilən vaxt və istənilən şəkildə müqavilədən düşünülmüş qaydada geri çəkilmə ehtimalı ölkələrin beynəlxalq müqavilələrdən asılılığını və həmin sənədlərin əhəmiyyətini zəiflədəcək, bu da regiondakı stabilliyə mənfi təsir göstərəcək (7, p.1066-1068). Dövlətlər üzərində nəzarət mexanizmlərin olmaması səbəbindən beynəlxalq təşkilatların mövqeləri daha da zəifləyəcəkdir.

Yeni iştirakçılar hesabına Avropa sərhədlərinin genişləndirilməsi

1975-ci ilin Helsinki Yekun Aktı 33 (otuz üç) Avropa ölkəsi, Kanada və ABŞ tərəfindən imzalanmışdır. ABŞ-ın hansı yolla Avropa təhlükəsizliyinə aid olması məsələsi dəfələrlə araşdırılmışdır. İlk növbədə, onları dini və mədəni dəyərlər, siyasi quruluşa oxşar baxışlar, qlobal demokratləşmə təşəbbüsü birləşdirir. Lakin Avropanın atlantizmə pənah gətirməsi səbəblərindən biri - onun müstəqil şəkildə təhlükəsizliyini təmin etməsindəki uğursuzluğu hesab edilir. Uzun illər NATO-ya üzv olan və Böyük Britaniyanın müttəfiqi olan Kanada da qeyd edilən səbəbdən Avropanın təhlükəsizlik arxitekturasına daxil olmuşdur. ATƏT-in hazırkı tərkibi ATƏM iştirakçılarının tərkibindən xeyli fərqlənir. Sovet İttifaqının dağılmasından sonra Orta Asiyanın 3 (üç) yeni müstəqil ölkəsi, Andorra, Albaniya və Cənubi Qafqazın da 3 (üç) ölkəsi ATƏM çərçivəsindəki əməkdaşlığına qoşuldu. Hazırda təşkilat 57 (əlli yeddi) ölkəni birləşdirir. Bir tərəfdən çoxlu sayda iştirakçı mədəniyyətlərarası və siyasi dialoq üçün yaxşı bir zəmin yaradır, digər tərəfdən isə konsensus əsasında qərar qəbul edilməsi prosesini çətinləşdirir.

Strateji baxımdan Orta Asiya ölkələri Avropanın təhlükəsizliyi üçün əhəmiyyətli rol oynayır. Əfqanıstanla həmsərhəd olan Özbəkistan, Tacikistan və Türkmənistan və onların bölgəni təmin edən təbii sərvətləri SSRİ-nin dağılmasından və Əfqanıstanla həmsərhəd ərazilərə Rusiyanın hərbi dəstəyinin azalmasından sonra təhlükə altına düşdü. Beləliklə, xarici tərəfdaşlar tərəfindən vəziyyətin əlavə monitorinqinə və ATƏT çərçivəsində yardımın göstərilməsinə zərurət yarandı. Orta Asiyanın Avropaya gətirə biləcəyi potensial təhdidlər - qanunsuz silah, insan və narkotik alveri; terrorizm; demokratik dəyərlərə xələl gətirmə; yerli əhalinin Avropaya genişmiqyaslı miqrasiya problemləri və bölgənin iqtisadi sabitsizliyidir. Vəziyyətə nəzarət etmək üçün Aşqabad, Bişkek, Düşənbə və Astanada ATƏT qurumları, Özbəkistanda ATƏT-in Layihə Koordinatoru fəaliyyət göstərir. Təşkilat əməkdaşlığı yuxarıda qeyd edilən üç ölçü üzrə aparır,

lakin ATƏT-in əsas diqqəti hələ də birbaşa təhdidlərin aradan qaldırılmasına deyil, Orta Asiyanın demokratikləşməsinə və insan hüquqlarına riayət olunmasına yönəldilib.

Təşkilatın Orta Asiyada fəaliyyətini qiymətləndirərkən bölgə problemləri ilə Avropa ölkələrinə xas olan böhranlar arasında əhəmiyyətli fərqi qeyd etmək lazımdır. Məsələn, Tacikistanda 1994-cü ildə başlayan və 1997-ci ildə vətəndaş müharibəsinə son qoyan missiya, müharibədən sonrakı dövrdə də ölkədə dövlət quruculuğu məqsədini gerçəkləşdirmək üçün öz fəaliyyətini davam etdirib. Bununla belə, bütün regiona təşkilatın büdcəsinin beş faizindən az hissəsinin ayrılması ev sahibi olan ölkələrlə daha geniş və dərin əməkdaşlığa mane olurdu. Burada qeyd etmək vacibdir ki, missiyanı qəbul edən ölkələr ATƏT-in qərarlarını tez-tez əngəlləyir, təkliflərin çoxunu daxili işlərə müdaxilə kimi qiymətləndirərək öz ərazilərində yeni layihələri tətbiq etməkdən imtina edir. Misal qismində Türkmənistanın ATƏT-ə qoşulmasından sonra qəbul etdiyi öhdəlikləri dəfələrlə və kobud şəkildə pozmasını qeyd etmək olar. ATƏT-in ən qeyri-demokratik iştirakçılarından biri olan Türkmənistan Saparmurad Niyazovun prezidentliyi dövründə dəfələrlə vətəndaşlarının hüquq və azadlıqlarına laqeyidlik göstərib. Türkmənistan hökümətinin siyasətinə cavab olaraq, 2003-cü ildə böhranı araşdırmaq üçün "Moskva mexanizmi" fəaliyyətə başladı. Lakin nə ATƏT iştirakçıları, nə də Türkmənistan layihəyə lazımi dəstək vermədi, nəticədə missiya donduruldu və müəyyən müddətdən sonra qüvvədən düşdü (8). Buradan belə bir nəticəyə gəlmək olar ki, Orta Asiya dövlətləri müdaxilə və demokratiya istiqamətindəki dəyişikliklərdən yayınmaq üçün əllərindən gələni edib, ATƏT isə əməkdaşlıq platforması olaraq, öz missiyasını yerinə yetirməyib, əksinə regionlar arasında yeni qarşıdurmalar və anlaşılmazlıqlar üçün zəmin yaradıb.

Siyasi dairələrdə Orta Asiya ölkələrinin təşkilatın tərkibində iştirakı son dərəcə mübahisəli və əksər hallarda tənqidi şəkildə qiymətləndirilir. Şübhəsiz ki, ATƏT çərçivəsində bu regionla əməkdaşlıq Avropanın potensial təhdidlərə dolayı yolla təsir etməsinə imkan yaradır. Lakin həm ATƏM-in varlığı dövründə, həm də müasir dünyada təşkilat çərçivəsində regiondan qaynaqlanan təhdidlərin tamamilə aradan qaldırılması mümkün deyil, belə ki, tərəflər tərəfdaşlıqda fərqli üstünlüklər görür. Dəyişən siyasi rejimlər baxımından, Mərkəzi Asiya ölkələrinin demokratikləşməyə tələsməməsi dəfələrlə özünü büruzə verib. ATƏT-ə üzv olmaq, onlara Avropa Yenidənqurma və İnkişaf Bankı, Dünya Bankı və Asiya İnkişaf Bankı kimi maliyyə müəssisələrinin resurslarından yararlanmaq imkanı verir. Həmin ölkələr guya insan hüquqları sahəsində böhranı həll etmək adı altında qeyd edilmiş maliyyə institutlarının yardımlarından faydalanmağa çalışırlar.

Siyasi və ictimai həyatın liberallaşması istiqamətində ATƏM/ATƏT Cənubi Qafqaz ölkələrində ciddi fəaliyyət göstərməyib desək səhv etmərik. Təbii ki, buna başlıca səbəb Cənubi Qafqaz regionunun xarici və daxili münaqişələrə məruz qalmasıdır. 2008-ci ildə Gürcüstan-Rusiya müharibəsi, dondurulmuş gürcü-osetin və gürcü-abxaz münaqişəsi, habelə Dağlıq Qarabağ münaqişəsində ATƏT-in Minsk Qrupunun fəaliyyətsizliyi regionda hərbi təhdidlərin qalmasından xəbər verir. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində də elə bir yadda qalan fəaliyyət göstərməyib. 1992-ci ilin martında yaranan ATƏT-in Minsk Qrupu 2020-ci ilin sentyabrınadək BMT Təhlükəsizlik Şurasının 822, 853, 874, 884 saylı qərarlarını nəinki həyata keçirməmiş, hətta bəzi məqamlarda işğalçı Ermənistanın xeyrinə susmaqla kifayətlənməli olmuşdur.

Nəzəri olaraq, bütün ölkələr həm müşavirələr, həm də təşkilatlar qismində qərar qəbuletmə prosesində bərabər hüquqlara malikdirlər. Lakin bir çox münaqişələrin sətiraltı mənasını əksər hallarda ATƏT-in ən nüfuzlu üzvləri olan ABŞ və Rusiya Federasiyası arasındakı rəqabət təşkil edir. Qafqaz və Orta Asiyadakı qarşıdurmalar regiondakı ölkələrin rəqib tərəflərdən biri ilə əməkdaşlıq istəyini göstərir. Məsələn, Rusiyanın 1991-1994-ü ildə baş vermiş Dağlıq Qarabağ

münaqişəsində ermənipərəst möveyi, Azərbaycanın neft siyasətinin reallaşmasına mane olmaq cəhdləri Azərbaycandakı qərbyönümlü əhval-ruhiyyənin artmasına əhəmiyyətli dərəcədə təsir etmişdi (9, c.14). Lakin Putin Rusiyada hakimiyyətə gələndən sonra Ermənistana açıq dəstək verməkdən əl çəkmiş və həm Azərbaycana, həm də Ermənistana münasibətdə balanslaşdırılmış siyasət yeritməyə başlamışdır.

Bir çox ölkənin milli maraqları rəhbər tutması Avropada sabitləşmə və təhlükəsizlik prosesini çətinləşdirir. Məhz bu səbəbdən bir ölkənin dövlətlərarası əlaqələrin qurulması prinsipi nizam və sabitliyi pozmaq məqsədi güdürsə, heç bir xarici vasitə həmin dövlətin böhranlı problemlərini həll etmək iqtidarında olmayacaq (10).

ATƏT-in institusional genişləndirilməsi

1990-1994-cü illərdə ATƏM öz institutlarının və fəaliyyət sahələrinin sayını əhəmiyyətli dərəcədə genişləndirdi. 1992-ci ildə Helsinki və 1994-cü ildə Budapeştdə keçirilən zirvə görüşləri təşkilatın fəaliyyətidə yeni bir sistemin təməlini qoydu və o dövrdə Qərb ilə Şərq arasındakı münasibətlərin yaxşılaşması sayəsində böyük nəticələrə nail oldu.

Təşkilat üzvlərinin rəsmi şəkildə məsələləri qaldırmasına və müzakirələri aparmasına imkan verən institusional mexanizmlər sahəsində əhəmiyyətli dəyişikliklər edilmişdir. Dövlətlər arasında əməkdaşlıq üçün öhdəliklər və normativ çərçivələr hazırlanmışdır. Azad seçki Bürosu ləğv edimiş, onun fəaliyyəti 1990-cı ildə yaradılan Demokratik Təsisatlar (institutlar) və İnsan Haqları Bürosuna (DTİHB) həvalə edilmişdir.

Millətlərarası münaqişələr və onların tənzimlənməsi 1990-cı illər ərzindəki təşkilat üçün yeni bir çağırış oldu. Milli Azlıqlar üzrə Ali Komissar (MAAK) bu işin öhdəsindən qismən də olsa gələ bildi və nəticədə ATƏT-in dünya səhnəsindəki əhəmiyyəti artdı. Münaqişələrin monitorinqinə, qarşısının alınmasına, regionların demokratikləşdirilməsinə və insan haqlarının təşviqinə istiqamətlənmiş missiyalar Balkanlarda, Qafqazda və Orta Asiyada genişləndirilmişdir. Müzakirə proseslərinin qaydası da dəyişdirilmişdi: ATƏT iştirakçılarının hər həftə Vyanada görüşərək məsləhətləşmələr aparmaq və cari prosesləri idarə etmək üçün bir araya gələn səfirlər səviyyəsində təmsil olunduqları Daimi Şura müşavirələr üçün direktiv orqana çevrildi.

Budapeştdəki sammitdə müşavirənin adı dəyişərək təşkilata – ATƏT-ə çevrildi. Dəyişilmənin məqsədi davamlı fəaliyyət və müəyyən funksiyaların olmasını göstərmək idi. Lakin təşkilatın səmərəliliyinin artırılması baxımından əhəmiyyətli bir dəyişiklik edilməmişdi. ATƏT müşavirə formasında fəaliyyət göstərdiyi müddətdə olduğu kimi, beynəlxalq hüquqa müvafiq olaraq hüquq subyektliyi əldə etməyib. ATƏT-in siyasi öhdəlikləri hüquqi qüvvəyə malik deyil. Buna baxmayaraq, ATƏT BMT Nizamnaməsinin VIII Fəslinə əsasən sülhü və asayişi təşviq edən regional bir təşkilat kimi tanınmışdır. Bürokratikləşmənin olmaması Qərb ölkələri blokuna ATƏT-dən öz siyasi məqsədləri üçün istifadə etmək marağına cavab verirdi. Üstəlik nizamnaməni tamamlayaraq və ATƏT-in qətnamələrinə hüquqi güc verməklə, ABŞ-ın fikrinə əsasən, təşkilat əsas gücü olan çevikliyini itirəcəkdir.

Müşavirə sistemindən (ATƏM) təşkilata (ATƏT) keçid istiqamətində görülən işləri təhlil edərkən, ölkələrin əməkdaşlıq etmək istəklərini və bu təşkilat daxilində kompromis axtarmaq niyyətində olduqlarını, lakin təhdidlərə qarşı daha təsirli bir strategiyanın inkişafı və təşkilatın nüfuzunun artırılması istiqamətində konkret addımların atılmadığını vurğulamaq olar. Helsinki Sazişləri və Yekun Aktı əsasında ATƏT praktiki olaraq yeni təhdidlərə cavab verməyə hazır olmadığı yeni reallıqlar dövrünə qədəm qoydu. ATƏT-in formalaşması prosesi nəzəri cəhətdən, sərhədlərə nəzarət və riayət etmə kimi ənənəvi təhlükəsizlik aspektlərindən daha normativ təhlükəsizlik məsələlərinə: insan hüquqları, demokratikləşmə və azadlıqlara nəzarətin cəmləşməsinə təkan verdi.

ƏDƏBİYYAT

1. Kortunov, A. (1997). Russian-American Relations in the Post-Cold War Environment. http://www.ponarseurasia.org/sites/default/files/policy-memos-pdf/pm_0016.pdf (10.04.2018).
2. Priestland, D. (2013). Neoliberalism, Consumerism and the End of the Cold War.https://ora.ox.ac.uk/catalog/uuid:39c49213-e310-4e32-8ad1-33284474ef1c/download_file?file_format=pdf&safe_filename=DPriestland_HWP_complete.pdf&type_of_work=Book+section (10.04.2018).
3. CSCE. (1975). Final Act Helsinki 1975. https://www.osce.org/helsinki-final-act?download=true (12.05.2018).
4. Andrić, M. (2016). OSCE and contemporary security challenges. – The OSCE and Contemporary Security Challenges: A collection of essays. Organization for security and co-operation in Europe Mission to Serbia, 109-120.
5. Richter, W. (2015). Foundations and Crisis of the European Peace and Security Order. http://library.fes.de/pdf-files/id-moe/12060.pdf (10.04.2018).
6. Арешев, А. (2007). ДОВСЕ. Устаревший договор и новые реалии. https://interaffairs.ru/jauthor/material/1697 (10.04.2018).
7. Shterngel, M. (2008). Bucking Conventional Wisdom: Russia's Unilateral "Suspension" of the CFE Treaty. – Brooklyn Journal of International Law, Vol. 33, 1037-1068. https://brooklynworks.brooklaw.edu/cgi/viewcontent.cgi?article=1207&context=bjil (10.04.2018).
8. Тухбатуллин, Ф. (2007). ОБСЕ теряет себя. http://archive.chrono-tm.org/?id=302 (10.04.2018).
9. Центральная Азия и Южный Кавказ: Насущные проблемы. (2007). /Румер,Б. Москва: Новое издательство. http://avidreaders.ru/download/centralnaya-aziya-i -yuzhnyykavkaz-nasuschnye.html?f=pdf (10.04.2018).
10. Schmidt, J. (2003). Security challenges in the Caucasus and Central Asia – A German and European perspective. http://avrasya.istanbul.edu.tr/wpcontent/uploads/2015/02/caucasus_smj_030301.pdf (10.04.2018).

ATƏT - AVROPA TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİ VASİTƏ KİMİ

XÜLASƏ

BMT-nin təsir mexanizmləri yetərli olmadığından, ölkələrin oxşar mənafeyi baxımından bölgələr və birliklər ortaq hədəflərə çatmaq üçün əməkdaşlıq formaları yaratmağa başladılar. "Soyuq müharibə" dövründə Avropada bir neçə əməkdaşlıq forması meydana gəlmiş, onlardan bəziləri, dəyişikliklərə məruz qalsa da, bölgəni sabitləşdirmək istəyini əsas gətirərək mövcudluğunu saxlamağa və fəaliyyətini davam edirməyə nail olub. ATƏM/ATƏT fəaliyyətini davam etdirən qurumlardan biri olaraq, müasir dünyada böyük maraq və potensiala malikdir. Onun inkişaf istiqamətini müəyyənləşdirmək və funksional effektivliyini təhlil etmək üçün neoliberal institusionalizmin ilkin tarixi şərtləri və xüsusiyyətlərini, təhlükəsizliyin regionalizasiyası və təşkilatın əsas fundamental sənədlərini nəzərdən keçirmək lazım gəlir.

ОБСЕ КАК СРЕДСТВО ОБЕСПЕЧЕНИЯ БЕЗОПАСНОСТИ В ЕВРОПЕ

АННОТАЦИЯ

Поскольку механизмы влияния ООН были недостаточными, регионы и союзы начали формировать формы сотрудничества для достижения общих целей в интересах схожих стран. Во время холодной войны в Европе возникло несколько форм сотрудничества, некоторые из которых, хотя и подвергались изменениям, сумели сохранить свое существование и продолжать действовать на основе стремления к стабилизации региона. Как один из действующих институтов СБСЕ / ОБСЕ, имеет большой интерес и потенциал в современном мире. Чтобы определить направление его развития и проанализировать его функциональную эффективность, необходимо рассмотреть исходные исторические условия и особенности неолиберального институционализма, регионализации безопасности и основные основополагающие документы организации.

OSCE AS A MEANS TO ENSURE SECURITY IN EUROPE

SUMMARY

As the UN's mechanisms of influence were insufficient, regions and unions began to establish forms of cooperation to achieve common goals in the interests of similar countries. During the Cold War, several forms of cooperation emerged in Europe, some of which, although subject to change, managed to maintain their existence and continue to operate on the basis of a desire to stabilize the region.

As one of the CSCE / OSCE's ongoing institutions, has great interest and potential in the modern world. In order to determine the direction of its development and analyze its functional effectiveness, it is necessary to consider the initial historical conditions and features of neoliberal institutionalism, regionalization of security and the main fundamental documents of the organization.

AZERBAYCANDA UYGULANAN DEVALİVASİYONUN NEDENLERİ VE ALINMASI GEREKEN TEDBİRLER

Niftalıyev Kenan Bartın Üniversitesi Sosyal Bilimler Enstitüsü İşletme Anabilim Dalı
niftaliyev.k@mail.ru

Anahtar kelimeler: Azerbaycan, banka, kriz, ekonomi, para.
Açar sözlər: Azərbaycan, bank, böhran, iqtisadiyyat, pul.
Ключевые слова: Азербайджан, банк, кризис, экономика, деньги.
Keywords: Azerbaijan, bank, crisis, economy, money.

Mövzunun aktuallığı.

Yuxarıda göstərilən problemlərin nümunələri, yeni iqtisadi münasibətlər şəraitində bank sisteminin səmərəliliyinin artırılması üçün iqtisadi və hüquqi mexanizmlərin təkmilləşdirilməsi və seçilmiş problemin əhəmiyyəti, xüsusilə dövlətin yeni həll yollarına əsaslanan gücünün artırılması və əhalinin maddi rifahının yüksəldilməsi vurğulanmışdır.

Tədqiqatın əsas məqsədi.

Maliyyə və bank sektorundakı qloballaşan iqtisadi münasibətlər kontekstində maliyyə böhranları nəzəriyyəsi və metodologiyasının inkişafı, maliyyə nəzarətinin təkmilləşdirilməsi və bu sahədə elmi cəhətdən əsaslandırılmış nəzəri və praktik təkliflərin hazırlanması.

Özet. Şu anda, ekonominin tüm alanlarındaki reformlar, özellikle sosyal ve ekonomik sistemde istisnai bir rol oynayan finans sektörünün tüm yönlerini kapsamaktadır.Bu gün istenilən iktisadi sisteme malik olan ulkenin maliyye-iktisadi durumunu öyrenmek için onun maliyye-bank sisteminde baş veren prosesleri araşdırmak lazımdır. Çünki mehz her bir ülkenin maliyye sistemi ilkin olarak, onun iktisadiyyatında baş veren yükselişe ve ya tenezzüle adekvat reaksiya vererek, bu prosesleri onceden prognozlaşdırmak için şerait yaratır.Piyasa ekonomisinin koşullarında, finansal krizler, içkin orantısızlıklar ve çelişkilerle yasal ve koşulludur. Bu bağlamda, finansal sektörde krizlerin nedenleri araştırılıp, gelişmekte olan ülkeler son yıllarda artmaktadır.

Son yıllarda, 2008'in başından bu yana, bankalar dünyanın pek çok ülkesinde iflas etmeye başladılar ve finansal istikrarsızlıklar ve para piyasaları, büyük ölçekli bir bankacılık krizi sorununu gündeme getiren küresel aksaklıklardan kaynaklandı. Geçtiğimiz birkaç yılda, bu sorunlar gittikçe daha fazla "salgın" hale geldi ve daha fazla ülke ve bölgeyi cezbetti. Bu krizlerin ortaya çıkması, mevduat ve büyük kredi verenlerin hakları için etkili mekanizmaların bulunmadığını ortaya koydu. Bu durum, finansal ve bankacılık sistemine olan güvenin azalmasına yol açtı ve bu da mevduat hacminde bir azalmaya yol açtı. Bu sorunların bir sonucu olarak, birçok ülkede, bankaların yeniden yapılandırılması için karmaşık programlar, bankacılık krizi yaşanırken kısa bir sürede başlatılmıştır. Çünkü dünya bankacılığı sistemi için finansal istikrar sorunları çok önemlidir. Bu nedenle banka mevduatlarının zorunlu sigorta sistemi dünyadaki gelişmiş ülkelerde uygulamaya başlamıştır. Yeni küresel mali krizin tehdidi, 2007-2008 yıllarında ABD'deki krizin "finansal enfeksiyon" gibi yeni bir fenomenin sonucu olduğu ortaya çıktığında, özellikle akutlaşmaya başladı. 1970'lerde ve 2000'lerde yaşanan finansal krizler, ülkedeki ulusal finansal varlıkların yaklaşık % 10-30'unu kaybetmesine neden odlu. 2008 ve 2009'da birçok gelişmış ve gelişmekte olan ülkelerin bankacılık sistemleri krizler yaşadı ve bu krizler sadece bankaları değil aynı zamanda bankalara bağlı gerçek sektörü ve ev sahiplerini

de etkiledi. 2008'in ikinci yarısı - Hisse senedi endekslerindeki düşüş:% 70-80, küresel finans sektöründeki kayıplar: 3 trilyon dolar veya küresel GSYİH'nın% 4,3'ü.

Gördüğünüz gibi, devletin gücü, ekonomik bağımsızlığı, siyasi egemenliği ve ulusal güvenliği, güçlü mali ve bankacılık sistemine büyük ölçüde bağımlıdır.

Bununla birlikte, ekonomik gelişmenin ulusal özellikleriyle ilgili olan küresel finansal krizin daha temel nedenleri vardır:

1. şirketler tarafından türev menkul kıymetler ihraç edilmesi ve mikroekonomik faktörler gibi risklerin değerlendirilmemesi; Yatırımcılar arasında dağıtılan ipotek kredisinin şeffaf olmaması;

Makroekonomik bir faktör olarak, para politikasında, menkul kıymetler piyasasında, yumuşak veya son derece düşük faiz oranlarında, bankaların para tabanı ve kredi hacimleri arasındaki keskin fark ve farklı varlıkların rolünün belirsizliği;

2. dünya ülkelerindeki mali krizin nedenlerini göz önünde bulundurmadan ekonomik ilişkiler kurmak, bir mecoko-ekonomik faktör olarak, sadece ithalat-ihracat operasyonlarının temel ilkelerine öncelik vermek, diğer ülkelerle ulusal çıkarlar ve güvenlik gibi ekonomik işbirliği düzeyine bağlı olmak;

3. Kurumsal bir faktör olarak, bir regülatör ve derecelendirme aracı olarak riskin rolünün değerlendirilmesi, vb. bağlandı.

Bu faktörlerin doğurduğu komplikasyonlar her biri ayrı ayrı olsa da, genel olarak para-kredi sistemine ciddi etki göstermekle, kriz riskini artırmakla, ekonomik resessiyaya veya ekonomik enmələrə imkan sağlamıştır ki, netice itibariyle, dünya ekonomik sistemine dahil olan ülkelerin ulusal ekonomik gelişiminde belli tereddütlü dürtünün oluşumu nedeniyle. Bazı ülkelerin ekonomisi sırf kritik duruma, bazıları ekonomik resessiyaya, bezilari keskin ekonomik enmələrə, diğerleri ise durgunluk durumuna düşmüştür. Bu da, sırayla, ekonomik gelişmenin döngüsel karakter almasına neden olmakla, ekonomik dinamikanın zayıflamasına yol çıkartmıştır.

İster küresel ekonomik gelişmenin, ister ayrı ayrı gelişmiş ülkelerin ekonomilerinde yaşanan tereddütlerin veya inmeleri nedenlerini değerlendirirken esas amaç mevcut durumdan çıkış yaparak, ulusal ekonomik gelişime vurabileceği hasarı en aza indirmek yollarını müəyyənləşdirməkdən oluşur. Bu nedenle, küresel ekonomik büyümenin zayıfladığı bir ortamda ulusal ekonominin büyüme hızını korumak, onun reel sektör üzerinde yükselmesini sağlamak gerekli ve önemli meselelerdendir.

Konunun güncelliği.

Yukarıda bahsedilen sorunların örnekleri, yeni ekonomik ilişkiler bağlamında bankacılık sisteminin verimliliğinin artırılmasına yönelik ekonomik ve yasal mekanizmaların iyileştirilmesi ve seçilen sorunun önemi, özellikle de devletin yeni çözümlerine dayanarak gücünün artırılması ve nüfusun maddi refahının artırılması üzerinde durulmaktadır.

Araştırmanın temel amacı.

finansal ve bankacılık sektöründe küreselleşmiş ekonomik ilişkiler bağlamında reformlar, finansal kontrolün iyileştirilmesi bağlamında finansal krizlerin teori ve metodolojisinin geliştirilmesi ve bu alanda bilimsel olarak haklı, teorik ve pratik önerilerin geliştirilmesi.

Giriş. Finansal krizler, bu krizlerin gelişim özelliklerine, ekonomik ve finansal sistemlerin yapısına bağlı olarak tüm ülkelerde de görülmektedir. Finansal krizin tanımına dayanarak, yerli ve yabancı yazarların finansal istikrarsızlığının geliştirilmesi ve geliştirilmesi için finansal bir çerçevenin oluşturulmasına yönelik tek bir yaklaşımın olmadığı kesin olarak kanıtlanabilir. Finansal kriz kavramı o kadar yoğun ki, özü açıkça tanımlanamaz. Ekonomist bilim adamları arasında finansal krizin yapısı konusunda bir fikir birliği yoktur.

Dış ekonominin açık ekonomide açık ekonomide farklı pazarlar üzerindeki etkileri, ülkenin finansal sistemi ve makroekonomik istikrarı konusunda farklı kanallardan etkilenmektedir. Mali krizin işleyişini özetlemek gerekirse, mali krizin aşağıdakileri içerdiği sonucuna varmak mümkündür: Finansal kriz finansal varlıkların ya da finansal piyasanın keskin bir şekilde bozulması, özellikle ulusal paranın bozulması ve devlet borçlarının geri ödenmesi sorunudur; finansal kurumların aracılık fonksiyonunun bozulması ve hisse senetlerinin hisse fiyatındaki keskin düşüşü ile karakterize olunuyor.

Kriz sonucunda, kayıplar büyük ve hatta kabul edilemez olabilir. Finansal piyasa segmentlerinin karşılıklı bağımlılığı, krizin bir segmentten diğerine yayılmasına neden olarak, küresel finansal krize, ekonomik krize ve durgunluğa yol açabilir. Paranın ve finansal krizlerin ana nedenleri, ifade biçimleri ve sonuçları, çalışma ülkesi ve dış kaynaklar temelinde sistemleştirilmiştir.

Küresel mali krizin etkisi, Azerbaycan'ın mali sisteminde daha fazla psikolojik olmuştur ve finansal kurumları kendi kalkınma stratejilerini gözden geçirmeye itmiştir. Elverişsiz ortama rağmen, Azerbaycan bankacılık sistemi riskler açısından risklere davamlılık nümayiş etmişdir.

Azerbaycan ekonomisi, yeterince hazır ve güçlü bir kaynak ile küresel bir krize uğradı. Bu durum, kriz öncesi dönemde ülkede uygulanan rasyonel makroekonomik ve para politikası, yerleşik döviz rezervleri ve gelişmiş modda finansal risk yönetimi sayesinde mümkün olmuştur.

Tüm bunlar ekonominin “güvenlik yastığını” önemli ölçüde güçlendirerek makroekonomik ve finansal istikrar potansiyelini artırdı. Uluslararası borsalara aktif katılımın rasyonel ve ihtiyatlı yaklaşımı, cumhuriyetimizin mali güvenliğinin sağlanması açısından menkul kıymetler piyasası, Cumhuriyetimizdeki mali krizi zayıflatan başlıca faktörlerden biridir. Azerbaycan'ın küresel mali krizdeki gerilemesinin nedenlerine değinirken, Cumhurbaşkanı İlham Aliyev özellikle ülkenin ulusal çıkarlarına dayanan ekonomi politikasına dikkat çekiyor: “Bazı durumlarda, Azerbaycan'da finans sektöründeki bazı muhafazakar eğilimler uluslararası finans kurumları tarafından eleştirildi. Bazen entegrasyon eğilimlerine daha hızlı katılmaları ve uluslararası ticaret örgütleriyle bütünleşmeleri tavsiye edildi. Ama bizim pozisyonumuz her zaman çok temkinliydi. Çünki Azerbaycan ekonomisi kendi kendini idame ettiren bir ekonomidir. Diğer bazı ülkeler gibi, dış yardımlara bağımlı değiliz. Bu yüzden uluslararası ekonomik işbirliğine her zaman özen gösterdik. ”

Krize karşı alınan önlemler sırasında, "Merkez Bankası Üzerine" Kanun'da yapılan değişiklikler 2009 yılında önemli bir rol oynamıştır. Kanunda yapılan değişiklikler ve eklemeler, merkezi bankaların statüsündeki son küresel eğilimleri yansıtıyordu. Merkez Bankası, bankalara uzun vadeli ve sermaye benzeri krediler de dahil olmak üzere çeşitli krediler verebilmiştir. Merkez Bankası, reel sektördeki makroekonomik eğilimleri ve makroekonomik eğilimleri dikkate alarak, muhasebe oranını% 15'ten% 2'ye ve zorunlu rezerv oranlarını% 12'den% 0,5'e indirmiştir.

Milli Meclis'te kabul edilen "Azerbaycan Cumhuriyeti Devlet Bütçesine İlişkin 2010" Azerbaycan Cumhuriyeti Kanunu da, küresel kriz koşullarında cumhuriyetin hedeflerine güvendiği ülkeler arasında olduğunu da teyit etmektedir. Gelişmiş ekonomilerin finansal kriz bağlamındaki ekonomik büyümesindeki yavaşlamaya rağmen, Azerbaycan'da büyümenin bütçe gelirlerinin tam olarak oluşturulmasına izin verme eğilimi. Cumhuriyetin ekonomik ve sosyal gelişimi kavramına uygun olarak hazırlanan yeni bütçe projesi, önümüzdeki yıllarda dünya ekonomisinde beklenen eğilimleri de dikkate aldı.

Azerbaycan'daki sigortalı mevduat miktarı AZN 6,000'den AZN 30,000'e yükseldi. Bu da, bankalardaki mevduat sahiplerinin güveninin güçlendirilmesine katkıda bulunmuştur. Bu olay neticesinde bankalar finansal pozisyonlarını iyileştirdi. Bu bağlamda Standard & Poor'un notları:

“Bölgenin diğer bölgelerindeki bankacılık sistemlerinden farklı olarak, Azerbaycan bankacılık sistemi, küresel kriz başladığında panik tarafından büyük miktarlarda tasarruf sağlayabildi”.

Standard & Poor's, hükümetin Azerbaycan'da ciddi sorunlarla karşılaşmadığından ve olumlu sonuçlar aldığından emin olmak için gerekli önlemleri aldığını bildirdi. Örneğin, Ocak 2009'dan bu yana, kurumlar vergisinin bankacılık sektörünün yeniden sermayelendirilmesini teşvik etmek için kullanıldığı belirtilmektedir. Genel olarak bankacılık sektörü 2012 yılına kadar kâr vergisinden muaf tutulmuş olup, bu durum, kapitalizasyonları için elverişli koşullar yaratmakta ve kriz durumlarında finansal sorunlarla karşılaşmamaktır.

Azerbaycan Cumhuriyeti İdaresi Başkanı Akademisyen Ramiz Mehdiyev, konuya özel bilimsel yaklaşımıyla güncel konulara dikkat çekti: “... Bugünün küresel finansal ve ekonomik kriz karşısında gösterdiği göstergeler büyük bir başarı olarak değerlendiriliyor. İktisat alanındaki yüksek başarılarımız kolaylıkla elde edilemez. Temel amacımız, önümüzdeki yıllarda eğitim, bilim ve akılda ciddi bir dönüş yapmak ve bilgi tabanlı bir ekonomi kurma sürecini yoğunlaştırmaktır. ”

Bu nedenle, başarılı bir kalkınma ve modernleşme stratejisi sayesinde, Azerbaycan ekonomisi küresel krize yüksek istikrar göstermiş ve istikrarını yitirmiş, büyüme dinamiklerini ve sosyal kalkınma düzeyini korumuştur. Güçlü sürdürülebilirlik potansiyeline sahip ülkede yaratılan antimikrobiyal politika, finansal istikrarın korunması için iyi fırsatlar yaratmıştır.

Azerbaycan, mali ve ekonomik kriz bağlamında istikrarlı bir post-Sovyet ülkesidir: yüksek yatırım oranları korunmakta, ekonomik göstergeler olumlu sonuçları yansıtmakta, sosyal alan devlet tarafından desteklenmektedir ve hükümet, vatandaşların ve uluslararası toplumun üstlendiği tüm yükümlülüklerden hala sorumludur. BDT ülkeleri arasındaki küresel durgunluğun Azerbaycan'daki en zayıf yansımada ısrar edilmesi için bir neden var.

Dünya finansal ve ekonomik krizi ermenistan, Litvanya, Letonya, Ukrayna, Estonya, Rusya ve Kazakistan'ın çoğunu etkiledi. Moldova, Kırgızistan ve Beyaz Rusya orta düzey bir kriz seviyesinde. Uluslararası Para Fonu, Dünya Bankası, Avrupa İmar ve Kalkınma Bankası ve diğer etkili uluslararası ve bölgesel kuruluşların tahminleri, Azerbaycan ekonomisinin krizde en başarılı olan ülkeler arasında olduğunu göstermektedir. 2008 yılında dünyadaki ekonomik büyüme oranı yüzde 2,3, avro bölgesinde yüzde 2 ve BDT'de yüzde 5 iken, Azerbaycan'da ortalama ekonomik büyüme hızı 4 kat, avro bölgesi 5 kat ve gelişmekte olan ülkeler olmuştur. ve BDT ülkelerinin büyüme oranı 2 kat ve% 10,8 oldu. BDT Interstate İstatistik Komitesi ve Avrupa Yeniden Yapılanma ve Kalkınma Bankası (EBRD) verilerine göre, Rusya'da GSYİH 2009'da yüzde 8,5, Ukrayna'da yüzde 14, ermenistan'da yüzde 19, Moldova'da yüzde 8, Litvanya'da yüzde 18 Letonya'da- Yüzde 16, Estonya - yüzde 13 azalacağı, Azerbaycanda ise yüzde 8 artım göstərmişdir.

Bunu şartlandıran amiller içerisinde aşağıdakı megamlar hususi yer tutur:

1. Azerbaycan ekonomisinin küresel finans piyasasına güçlü bir bağımlılığı yoktur. Krize kadar Azerbaycan bankaları yabancı finans piyasalarından 2.5 milyar dolar alacaklar. Tüm bankacılık taahhütlerinin yaklaşık% 25'ini çekmiştir.

2. Krizden önceki yıllarda, Rusya, Ukrayna ve Kazakistan ekonomilerinde yoğun bir şekilde yurtiçi yatırımlara odaklanırken, yerli yatırımın payı artmış ve Azerbaycan'da büyük petrol projelerine yapılan yatırımın da katkısıyla 2009'daki payı yüzde 80'e ulaşmıştır. Büyük projelerin finansmanında bütçe fonlarının payı artmış ve sonuç olarak devlet özel sektörün en büyük alıcısı haline gelmiştir.

3. Merkez Bankası, Maliye Bakanlığı ve diğer hükümet yapılarının tutucu, ihtiyatlı ve yeterince de eğitimli politikası dünya mali krizinin Azerbaycana olumsuz etkisini en aza endirilməsində önemli rol oynamıştır.

Krizin yarattığı komplikasyonlar çoğu ülkelerin döviz rezervlerinin erimesine neden olsa da, Azerbaycan'ın döviz rezervleri 2007 yılındaki 7,4 milyar dolardan 2009 yılında 20 milyar dolara ulaşmış ve 2,5 kat artmıştır. Kriz sonucunda 2008 yılının ortalarından 2009 yılının başlarına kadar Rusya'nın altın ve döviz rezervleri yüzde 35, Belarus 37 oranında, Ukrayna'nın 27 oranında, ermanistanın 21 oranında, Kırgızistan'ın yüzde 17, Kazakistan'ın yüzde 13 azaldığı halde Azerbaycan'ın döviz rezervleri 30 oranında artmıştır. Sonuçta Azerbaycan küresel krizin fesadlarından korunmaktan dolayı iyi "güvenlik yastığı» elde etmiş, bu ise, sırayla, hükümetin manevra olanaklarını artırarak krizin olumsuz etkisinden yayınmaqda, psikolojik ve potansiyel imkanlar açısından ise krizin sonuçlarını kendi gücüne gidermek imkanı yaratmıştır.

Azerbaycan emlak piyasası, küresel finansal krizden bir miktar zarar gördü. Devlet mülkiyet tescil verilerine göre, 2008-2009 döneminde her türlü mülk için fiyatlar ortalama yüzde 10-15 oranında azalmıştır. 2008 sonunda ikincil konut piyasasındaki fiyatlar 2007 seviyesine gerilemiş ve bu süreç 2009 yılında istikrar kazanmaya başlamıştır. Fiyatlardaki düşüş, küresel finansal krizin etkisi altında emlak piyasasındaki faaliyetlerdeki düşüşe bağlıdır. Sonuç olarak, Azerbaycan'ın emlak piyasasında sorun yükü taşıyamayan firmaların piyasasını terk etme süreci devam ediyor. Diğer firmalar, finansal problemleri çözmek için konut maliyetini azaltmak için diğer tanıtım yöntemlerini kullanırlar.

Rəsmi məlumatlara görə, hazırda Mədəniyyət və Turizm Nazirliyinin fəaliyyət dairəsinə 28 teatr, 6308 tarix və mədəniyyət abidəsi, 1 sirk və 12 konsert müəssisəsi, 3985 kitabxana, 2708 klub, 189 dövlət muzeyi (filiallarla birlikdə), 234 uəaq musiqi, incəsənət və rəssamlıq məktəbi, 33 rəsm qalereyası və sərgi salonu, 21 dövlət qoruğu, 60 mədəniyyət və istirahət parkı, 1 zoopark, Mədəniyyətəünaslıq üzrə Elmi-Metodiki Mərkəz, 4 asudə vaxt Mərkəzi, 6 təsərrüfat təşkilatı, "Azərbaycanfilm" də daxil olmaqla 7 film istehsalı studiya, 134 janrhər və rayon kinoteatrı, Dövlət Film Fondu (Naxçıvan filialı ilə birlikdə), Respublika Kitabxana Kollektoru, bir qəzet ("Mədəniyyət"), iki jurnal ("Mədəni-maarif" və "Pəncərə") redaksiyası, Dövlət Turizm İnstitutu, Bakı Xoreoqrafiya Məktəbi, Mədəniyyət İəçilərinin İxtisasartırma Mərkəzi, Mingəçevir Turizm Kolleci, Milli Kulinariya Mərkəzi, 62 şəhər və rayon mədəniyyət və turizm şöbəsi, Naxçıvan MR Mədəniyyət və Turizm Nazirliyi, Bakı, Gəncə, Sumqayıt janrhər turizm idarələri, Şəki Atçılıq Mərkəzi, Bakı Turizm İnformasiya Mərkəzi, Bakı Turizm İnformasiya Mərkəzi, Lənkəran UŞaq düşərgəsi daxildir.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən bu sahəyə böyük diqqət və qayğı göstərilmiş, mədəniyyət və turizm işçilərinin əmək haqları artırılmış, mədəni-sosial, maddi-texniki bazanın tamamilə yenidən qurulması prosesinə start verilmiş, teatr, kino, kitabxana iəi, abidələrinin qorunması sahələrində dövlət başçısının fərmanları, sərəncamları verilmiş, Dövlət proqramları iələməyə başlamışdır. Turizm inkişafı istiqamətində əhəmiyyətli tədbirlər həyata keçirilmişdir.

Nazirlik dövlətlərarası müqavilələrə uyğun olaraq Avropa, Asiya və İslam ölkələri, ABŞ və Latın Amerikası ilə beynəlxalq mədəniyyət proqramlarını həyata keçirir.Nazirlik çoxtərəfli əməkdaəlıq çərçivəsində BMT, MDB, GUAM, Qaradəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Avropa İttifaqı, İslam Konfransı Təşkilatı, YUNESKO, Dünya Turizm Təşkilatı, TÜRKSOY, İSESKO və digər beynəlxalq qurumlar vasitəsi ilə Azərbaycan mədəniyyətini dünyada təbliğ edir, eyni zamanda dünya mədəni sərvətlərinin ölkəmizdə tanıdılması sahəsində əhəmiyyətli proqramlar həyata keçirir.

Azərbaycanın vahid mədəniyyət siyasəti Mədəniyyət Nazirliyi ilə bərabər, İdman və Gənclər Nazirliyi, Dövlət Teleradio Şirkəti, Dövlət Arxivi tərəfindən həyata keçirilir, bir sözlə ümumi fəaliyyət sahəsi üçün geniş imkanlar yaranır.

Müasir dövrdə Azərbaycan Respublikasının mədəniyyət siyasətinin ən mühüm vəzifələri kimi kulturologiya elmi əsasında bəşəriyyətin sosial-mədəni inkişaf təcrübəsi əsasında köhnə dünyagörüş, adət və normalarının yenidən işlənilməsi; Avropa və dünya mədəniyyətinin mütərəqqi yeniliklərinin Azərbaycan mədəniyyətinə inteqrasiyasına və yaradıcı tətbiqinə şəraitin

yaradılması; «mənəvi istehsal» sferasının idarə edilməsi və maliyyələşdirilməsinə yeni üsulların tətbiqi; təhsil, elm və incəsənətin inkişafının əlaqələndirilməsi; ziyalıların ictimai statusu, hüquqi və sosial müdafiəsinə diqqətin artırılması; kulturoloji bilik və təhsilə əsaslanın «humanitar» mədəniyyətinin formalaşdırılması; mədəni identifikasiya və mədəniyyət müxtəlifliyi proseslərinin harmonikləşdirilməsi; sosial-mədəni inkişaf imkanlarının bərabərliyinin təmin edilməsi; sovet mədəniyyətinin tədricən demokratik mədəniyyətə transformasiya edilməsi; dövlət və QHT arasında mədəniyyət sferasında əməkdaşlığın dəstəklənməsi və inkişaf etdirilməsi; sülh mədəniyyətinin, həmçinin qlobal mədəniyyət siyasətinin vahid prinsiplərinin müəyyən edilməsi.

Mədəniyyət siyasətinin ən mühüm istiqamətlərindən biri millətlərarası və dinlərarası münasibətlər mədəniyyətidir. Azərbaycan Respublikası çoxmillətli və çoxdinli bir ölkədir. Bu ölkənin milli siyasəti müxtəlif millət, etnik qrup və dini azlıqların birgəyanaşıyaşamasıvə dözümlülük prinsipləri əsasında müəyyənləşdirilib.

Azərbaycan Respublikasının Əsas Qanunu – Konstitusiyasının 25-ci maddəsinin III bəndinə görə «Dövlət irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaə hüquqlarını və azadlıqlarını irqi, milli, dini, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaədırmaq qadağandır».

Bir neçə əsr ərzində milli azlıqlara mənsub olan şəxslər Azərbaycan Respublikasında Azərbaycan xalqı ilə sülh və harmoniya janrraitində yaəamıə və yaəayırlar. Azərbaycan tarixən unikal çoxmillətli cəmiyyət olduğu üçün bu multimədəniyyətli, multietnik irsin bu gün də Azərbaycanda qorunub saxlanılması mədəniyyət siyasətinin prioritet istiqamələrindəndir.

Azərbaycan mədəniyyət siyasəti ölkəmizin və cəmiyyətimizin daxili işi deyildir. Azərbaycan dünya icmasının bərabərhüquqlu üzvü olduğundan, onun mədəniyyət siyasətidə bəşər mədəni-sivilizasion prosesinin tərkib hissəsi olmalı, varlığın dərk olunmasında dünya mənəvi-dəyər tendensiyalarını özündə əks etdirməlidir. «Qapalı milli inkişaf» eyforiyasından, ifrat rasionalizmdən, sosial ehtiyacların hedonist baxımından ödənilməsinə can atmasından imtina; mövcudatın ekoloji alqoritmlərinin axtarışları; siyasətdə humanitar aspektin gücləndirilməsi; «dünya mədəniyyəti» adlandırılan lokal və universal başlanğıcları ehtiva edən «multimədəniyyət» prinsiplərinin aktuallaşması yuxarıda göstərilən proseslər qəbilindəndir. Tarixi inkişafın müasir mərhələsində mənşəcə Şərq mədəniyyətinin ayrılmaz tərkib hissəsi olan, inamlı addımlarla Qərbə doğru addımlayan Müstəqil Azərbaycanın mədəniyyət quruculuğu «problem sahəsinə» qədəm qoyması ölkənin milli mədəniyyət siyasətinin vacib və təbii komponetləridir.

Qloballaşma proseslərinin dinamik inkişafılə müşahidə olunan müasir dövrdə dünya siyasətində və beynəlxalq mnasibətlər sistemində mədəniyyət faktorunun əhəmiyyəti, ümumdüqya iqtisadi-siyasi proseslərə, dövlətlərarası münasibətlərə təsiri getdikcə artır. Bu səbəbdən dövlətlər mədəniyyət siyasətinə böyük diqqət yetirirlər. «Xarici mədəniyyət siyasəti» termini gündən-günə aktuallaşır, çünki milli mədəniyyətin eksportu, təbliği və populyarlaşdırılması, əks təqdirdə isə xarici mədəni ekspansiyanın qarşısının alınması diplomatiyanın səmərəli instrumenti və dövlətin milli maraqlarının mübarizəsində effektiv vasitə kimi çıxış edir.

ƏDƏBİYYAT

1. Beynəlxalq mədəni əlaqələr (Dərslik, M.S.Manafova və N.T.Əfəndiyevanın redaktəsilə). Bakı: ADMİU- 1. Aşurbəyli S. Bakı şəhərinin tarixi. Bakı: "Avrasiya press" NPM, 2006, 416
2. N.Abbasov , Mədəniyyət siyasəti və mədəni dairələr, Bakı 2009.
3. Əfəndi R. Azərbaycan İncəsənəti. Bakı: Çaşıoğlu, 2001, 312 s.
4. Əliyeva Nəzirə. Mədəni irsin qorunmasında informasiya texnologiyalarından istifadənin inkişaf perspektivləri. Bakı, ADMİU, 2010, 52 s.
5. Əliyeva Nəzirə. Mədəni irsin qorunmasında informasiya texnologiyalarından istifadənin inkişaf perspektivləri. Bakı, ADMİU, 2010, 110 s.

AZƏRBAYCAN MƏDƏNIYYƏT SIYASƏTI

XÜLASƏ

Qloballaşma proseslərinin dinamik inkişafılə müşahidə olunan müasir dövrdə dünya siyasətində və beynəlxalq mnasibətlər sistemində mədəniyyət faktorunun əhəmiyyəti, ümumdüqya iqtisadi-siyasi proseslərə, dövlətlərarası münasibətlərə təsiri getdikcə artır. Bu səbəbdən dövlətlər mədəniyyət siyasətinə böyük diqqət yetirirlər. «Xarici mədəniyyət siyasəti» termini gündən-günə aktuallaşır, çünki milli mədəniyyətin eksportu, təbliği və populyarlaşdırılması, əks təqdirdə isə xarici mədəni ekspansiyanın qarşısının alınması diplomatiyanın səmərəli instrumenti və dövlətin milli maraqlarının mübarizəsində effektiv vasitə kimi çıxış edir.

AZERBAIJAN CULTURAL POLICY

SUMMARY

In modern times, accompanied by the dynamic development of globalization, the relationship of the cultural factor in world politics and the system of international relations, the impact of global economic and political processes, interstate relations is growing. For this reason, states pay great attention to cultural policy. The term "foreign cultural policy" is becoming more relevant day by day, as an effective tool for the export, promotion and popularization of domestic national culture, otherwise the activities of foreign cultural expansion in the development of diplomacy and the struggle of national interests of the state.

КУЛЬТУРНАЯ ПОЛИТИКА АЗЕРБАЙДЖАНА

АННОТАЦИЯ

В современное время, сопровождаемое динамичным развитием глобализации, взаимосвязь культурного фактора в мировой политике и системе международных отношений, влияние глобальных экономических и политических процессов, межгосударственных отношений растет. По этой причине государства уделяют большое внимание культурной политике. Термин «внешняя культурная политика» становится все более актуальным день ото дня, как эффективный инструмент для экспорта, продвижения и популяризации отечественной национальной культуры, иначе деятельность иностранной культурной экспансии в развитии дипломатии и борьбы национальных интересов штат.

YARADICILIQ FƏLSƏFİ PROBLEM KİMİ

Əliyeva Gülşən Fazil qızı,
BDU-nun politologiya və sosiologiya kafedrasının müəllimi,
g.mammadova@list.ru

Açar sözlər: yaradıcılıq fəlsəfəsi, müxtəlif elmlərdə yaradıcılıq probleminə yanaşmaların mahiyyəti, fəlsəfi yanaşmanın özünəməxsusluğu.
Ключевые слова: философия творчества, характер подходов к проблеме творчества в различных науках, своеобразие философского подхода.
Key words: philosophy of creativity, the nature of approaches to the problem of creativity in various sciences, the originality of the philosophical approach.

Yaradıcılığın elmi-fəlsəfi nəzəriyyəsinin əhəmiyyəti müasir dövrün –sənaye istehsalına əsaslanan industrial cəmiyyətdən biliyə əsaslanan informasiya cəmiyyətinə keçid dövrünün xüsusiyyətləri ilə müəyyənləşir. Belə ki, yaranmaqda olan informasiya cəmiyyətində bilik və ən müxtəlif innovasiyalar əsas iqtisadi resursa çevrilir, insanın mənəvi-intellektual fəaliyyətinin bəhrəsi olan yaradıcılıq cəmiyyətin dinamik inkişafı üçün əsas hərəkətverici qüvvə kimi çıxış edir. Bununla belə qeyd etmək lazımdır ki, yaradıcılığın tədqiqi heç də yeni hadisə deyil. Lakin indiyə qədər əsas diqqət yaradıcı fəaliyyətin müxtəlif aspektlərinə yönəldilirdi. Bu zaman öyrənilən problemə psixoloji, texniki, estetik yanaşmalar üstünlük təşkil etmişdir. Yaradıcılıq problemi daha çox intellektual-axtarış fəaliyyətinin struktur və daxili mexanizmlərinə, təxəyyülə, intuisiyaya, bədii fantaziyaya aid psixoloji problem kimi tədqiq edilmişdir. Bununla yanaşı yaradıcılıq, fəaliyyətin tipi və yaxud insan mövcudluğunun əlahiddə təzahürü qismində nəzərdən keçirilmişdir. Deməli yaradıcılıq problemi psixoloji və estetik axtarışlar zəminində tədqiq edilmiş, onun fəlsəfi düşünülməsi mücərrəd-psixoloji və yaxud qneseoloji təhlillə məhdudlaşmışdır.

Oxşar tədqiqatlarda, bu tədqiqatların nə qədər rasional və məhsuldar aparılmasından asılı olmayaraq yaradıcılıq probleminin fəlsəfi mahiyyəti aşkarlanmır. Rus tədqiqatçısı Q.A.Davıdovaya görə: "Yaradıcılığa fəlsəfi yanaşma insanın mahiyyəti və onun gerçəkləşmə şərtləri ilə əlaqədə cizgilənir" [1, c.14]. Məhz bu prinsipi əsas götürən rus tədqiqatçısı yaradıcılığa aşağıdakı kimi tərif verməyə çalışır: "Oxşar yanaşma çərçivəsində yaradıcılıq ən ümumi şəkildə insanın bənzərsizlik üsuludur: insan məhz yaradıcılıqda özünü insan kimi təsdiq edir, daha doğrusu özünü insan kimi formalaşdırır, təkrar istehsal edir və inkişaf etdirir" [1, c.14]. Yaradıcılığın fəlsəfi problem kimi təhlilinin zəruriliyi baxımından İ.İ.Oropayın fikirləri də ciddi maraq doğurur. O, insanın hər hansı bir intellektual-mənəvi fəaliyyət sferasındakı yaradıcılığı əsasında fəlsəfi ümumiləşdirmələrin səmərəsiz olduğunu vurğulayır. İ.İ.Oropayın fikrincə: "Yaradıcı fəaliyyətin ayrılıqda götürülmüş hansısa səciyyəvi növünün daxili məxsusiyyətlərinin öyrənilməsindən çıxış etməklə yaradıcılığın təbiətini aşkarlamaq mümkünsüzdür və yalnız bir elmin vasitələrindən yararlanmaqla bu mürəkkəb fenomeni təhlil etmək mümkün deyil" [2, c. 46]. Mahiyyət etibarilə eyni mövqeni bölüşən V.D.Qubin isə yaradıcılığın ayrı-ayrı forma və növlərinin öyrənilməsini zəruri hesab edir. Lakin bununla birgə o, Aristotelin məşhur "dünyanın dərkində bütün elmlər eyni dərəcədə qiymətlidir, lakin "birinci fəlsəfə"(metafizika) onların ən qiymətlisidir" prinsipinə sadiq qalaraq yaradıcılığın fəlsəfi tədqiqini əvəzsiz olduğuna diqqət çəkir: "...Elmi, sosial, bədii yaradıcılığın mahiyyətini aydınlaşdırmaq üçün yaradıcılıq ilk növbədə fəlsəfi cəhətdən tədqiq edilməlidir, bu suala cavab verilməlidir: ümumiyyətlə yaradıcılıq necə mümkündür? İnsanın sənətkar, mütəfəkkir, alim

olmasından asılı olmayaraq, yaradıcılığın insanda işləyən daxili mexanizmləri və hərəkətverici qüvvələri hansılardır? Yaradıcılığın metodoloji əsaslarının elmi, son dərəcə dialektik tədqiqi ayrı-ayrı parlaq fərziyyələr və öncəgörmələrdən, təsviri empiriyalardan yaradıcılığın obyektiv təhlilinə keçməyə kömək edər və bu problemlə bağlı bütün mümkün olan idealist mücərrədləşdirmələrin yolunu bağlayar" [3, c.161].

Bütün deyilənlərlə yanaşı, yaradıcılığın ayrı-ayrı konkret məsələlərinin tədqiqi əsasında "yaradıcılığın ümumi nəzəriyyəsinin qurulması" haqqında da fikirlər səsləndirilmişdir. Ayrı-ayrı tədqiqatçılar belə bir fikir söyləmişlər ki, artıq yaradıcılığın, onun bütün çoxobrazlığı və rəngarəngliyində tədqiq edəcək yeni elm sahəsi –evrologiya və yaxud kreatologiya formalaşmaqdadır. Bu problemə ilk toxununanlarından biri də rus mühəndisi, alim və ixtiraçı P.K.Engelmeyer olmuşdur. O yaradıcılıq haqqında universal elmin yaradılması və buna kifayət qədər əsas olduğuna qəti əminliyini bildirmişdir. P.K. Engelmeyer "Yaradıcılıq nəzəriyyəsi" əsərində yazırdı: "Mən yaradıcılığın ən ümumi nəzəriyyəsini evrologiya adlandırıram, bu elə bir nəzəriyyədir ki, o həm bədii yaradıcılığı, texniki ixtiranı, elmi kəşfləri, həmçinin hər nə olursa-olsun onun faydasına və xeyrinə istiqamətlənmiş praktiki fəaliyyəti əhatə edir. Beləliklə evrologiya həm də iradə nəzəriyyəsidir" [4, c.132]. Lakin, qeyd etmək lazımdır ki, yaradıcılıq haqqında əlahiddə elmi nəzəriyyə qurmaq mümkün olmamışdır. Oxşar yanaşma metodoloji baxımdan yanlışdır. Belə ki, yaxın keçmişdə marksist-leninçi fəlsəfə "çərçivəsində" xüsusi "marksist fəlsəfi antropologiya", "praksiologiya" və yaxud "fəaliyyət nəzəriyyəsi" yaratmaq cəhdləri də uğursuzluğa düçar olmuşdur.

Yaradıcılığın xüsusi elmi kimi ümumi nəzəriyyəsinin mümkünsüzlüyü təkcə, xüsusi və ümuminin dialektikası kontekstində nəzərdən keçirilməlidir. Belə ki, xalis yaradıcılıq (o cümlədən xalis materiya, xalis inkişaf) empirik müşahidə edilmir. Ona görə də nə psixoloji, nə estetik, nə də bu qəbildən olan digər hansısa bir yaradıcılıq nəzəriyyəsi mümkün deyil. Hər belə halda yaradıcılıq kifayət qədər genişləndirilmiş şəkildə olsa belə bu və ya digər sosial qarşılıqlı təsirin ümumi halı kimi nəzərdə tutulur. Bununla belə, yaradıcılıq probleminin həm estetik, həm psixoloji, həm elmi-təbiyyətşünaslıq və digər tədqiqi təkcə kimi götürülən yaradıcılıq aktını ən ümumi kimi qəbul edilən yaradıcılıq prosesini xüsusi olaraq əlaqələndirir. Məhz təkcə (yaradıcılıq aktı) və xüsusi (yaradıcılığın psixoloji, estetik, elmi və s. nəzəriyyəsi) yaradıcılığın fəlsəfi təhlili üçün nəzəri bazanı hazırlayır. Bu səbəbdən ümumi yaradıcılıq nəzəriyyəsi haqqında yox, yaradıcılığın fəlsəfəsindən danışmaq daha düzgün olardı.

Ümumiyyətlə, yaradıcılıq probleminin həlli istiqamətində aparılan tədqiqatları iki böyük qrupa bölmək olar: psixoloji və fəlsəfi. Psixologiya yaradıcılığı proses kimi, fərdin subyektiv fəaliyyəti qismində götürülmüş yaradıcılıq aktının gerçəkləşməsinin psixoloji mexanizmlərini öyrənir. Fəlsəfə isə yaradıcılıq probleminin həllində bu suallara cavab axtarır: yeninin yaradılması qismində götürülmüş yaradıcılıq ümumiyyətlə necə mümkündür? Yaradıcılıq aktının ontoloji mənası nədir? Onun hansı növ və formaları var? Azadlıq və yaradıcılığın qarşılıqlı münasibətləri necədir? Daha geniş və ümumi şəkildə götürüldükdə şüurun psixologiyadan öncə fəlsəfənin əsas tədqiqat predmetlərindən biri olduğunu nəzərə alsaq, belə bir nəticəyə gələ bilərik ki, yaradıcılığın psixoloji təhlili fəlsəfi təhlilin xüsusi halıdır.

Hal-hazırda yaradıcılığın ümumi sosioloji-fəlsəfi təhlili ön plana keçir. Bu həm də ayrı-ayrı elm sahələrində tədqiqatların sürətli inkişafı üçün səmərəli olması, onun metodologiyasının hazırlanması üçün əhəmiyyətlidir. Yaradıcılığın məhz fəlsəfi nəzəriyyəsi yaradıcılığın mahiyyət və formaları, onun ictimai-tarixi prosesdə və sosial idrakda yeri və rolu, yaradıcı prosesin subyekti kimi çıxış edən insanın azad və harmonik inkişafı üçün lazımi şərtlər haqqında suallara cavab verməlidir.

Yaradıcılığın fəlsəfi təhlili ilk növbədə bu problemə fərqli dövr və fərqli fəlsəfi ənənələrdə necə nəzərdən keçirilməsini ehtiva edir. Ən müxtəlif forma və növlərdə götürülmüş yaradıcılıq problemi fəlsəfənin yarandığı dövrdən filosofların diqqət mərkəzində olmuşdur.

Antik fəlsəfədə yaradıcılıq sonsuz və əbədi varlığın deyil, keçici və dəyişkən, hissi qavranılan varlıq sferası ilə əlaqələndirilirdi. Əbədi varlığın canlı seyri hər bir fəaliyyətdən, o cümlədən yaradıcı fəaliyyətdən üstün tutulurdu. Bunu sözün əsl mənasında fəlsəfənin yaranmasının əsas prinsipi kimi qəbul edilən mifdən loqosa keçidlə, daha doğrusu "hər şeyi kim törədib, kim yaradıb" sualının "hər şey nədən əmələ gəlib" sualı ilə əvəzlənməsi ilə də izah etmək olar. Eley məktəbinin nümayəndəsi Parmenidin "varlıq var, heçlik isə yoxdur" tezisi gerçək anlamda yaradılışı heçə endirirdi. Onun "opponenti" Heraklit isə xalis varlığı inkar etməklə hissi qavranılan dünyanı əbədi qərarlaşma, sonsuz yaradılış kimi təsvir edirdi. Yaradıcı fəaliyyətin tərkib hissəsi kimi götürülən bədii yaradıcılıq isə Platondan başlayaraq Eros haqqında təlim kimi təfsir edilir. Bu təlimə görə insan daim dünyanı ali, canlı seyrə can atır və yaradıcılıq bu prosesin bir həlqəsi kimi dəyərləndirilir. Digər bir tərəfdən Platonda incəsənətə, bədii yaradıcılığa neqativ münasibət, onun həqiqətin dərkində heç bir rola malik olmaması ilə əlaqəlidir. Belə ki, Platon "Dövlət" əsərinin 10-cu kitabında yazır ki, incəsənət (poeziya, boyakarlıq, plastika) ontoloji baxımdan hissi olana (insanlara, şeylərə, faktlara, müxtəlif növlü hadisələrə) hansısa "mimesis", imitasiya, bənzətmədir. Məlumdur ki, hissi olanlar mahiyyətcə əbədi ideal paradiqmanın surətləridir və onlar həqiqi olandan surətin orijinaldan fərqləndiyi qədər fərqlənir. Belə ki, əgər incəsənət öz növbəsində hissi olanın imitasiyasıdırsa, onda başa düşməmək olmaz ki, o bununla surəti təkrar istehsal edən surətdir, bununla da həqiqətdən üç dəfə uzaqdır [5, c.115].

Orta əsrlər Qərb xristian fəlsəfəsində yaradıcılığın tam fərqli anlamı meydana gəlir. Yeni anlamda yaradıcılıq iki təmayülün çulğalaşması zəminində inkişaf etmişdir:

1) Teistik –qədim yəhudi dininin təsiri;
2) Panteistik –antik fəlsəfənin təsiri.

Birinci təmayül Allahın şəxs olaraq anlaşılması və dünyanın hansısa ədəbi nümunələr (Platonun kosmoqoniyasında Demiurqun dünyanı "eydoslar" nümunəsində yaratmasının əksinə olaraq) əsasında yox, tam sərbəst yaratması prinsipinə söykənir. Yaradıcılıq İlahi şəxsiyyətin iradəvi aktı nəticəsində heçlikdən varlığı törətmişdir (kreasionizm). Xristian teologiyasının nəzəri prinsiplərini hazırlamış Müqəddəs Avqustin antik filosoflardan, xüsusilə neoplatonçulardan fərqli olaraq insan şəxsiyyətində də iradənin əhəmiyyətini qeyd edir və onun funksiyalarını zəkanın funksiyasından fərqləndirir. İradə üçün zəkadan asılı olmayan həll, seçim, razılıq və yaxud narazılıq motivləri səciyyəvidir. Əgər zəka nə varsa onunla məşğuldursa, iradə isə daha çox olmayan, lakin iradəvi aktla həyata gələnlə məşğuldur.

Orta əsrlər sxolastik fəlsəfəsinin nümayəndələrinin böyük əksəriyyətinin tərəfdarı olduğu ikinci təmayül yaradıcılıq problemində antik ənənəyə müraciət etmişlər. Bu məsələdə xristian teologiyasının rəsmi doktrinasını sistemləşdirmiş Foma Akvinalı da istisna deyil. F.Akvinalının təlimində Allah kamil xeyir, əbədi öz-özünü canlı seyr edən zəkadır. Ona görə də Foma Akvinalıda İlahi yaradılışın anlamı Platon təliminə yaxındır.

Lakin orta əsr filosoflarının yuxarıda göstərilmiş teistik və panteistik təmayüllərin hansısa birinə yaxın olmasına baxmayaraq insan yaradıcılığı antik ənənələrdə olduğundan tam fərqli şərh edilir. Xristian dini zəminində insan yaradıcılığı ilk növbədə "tarixin yaradılması" kimi dəyərləndirilir. Təsadüfi deyil ki, tarix fəlsəfəsi məhz xristian ilahiyyatı zəminində meydana gəlmişdir (Müqəddəs Avqustinin "Allah şəhəri" əsəri): orta əsrlər teoloji təsəvvürlərinə görə tarix sonlu insan vücudunun dünyada İlahi niyyətin gerçəkləşdirilməsində iştirak etdiyi sferadır. İnsanı Allahla əlaqələndirən zəka deyil, iradə və imanın iradəvi aktın olduğu səbəbindən ,

yaradıcılıq Allahın dünyanı yaratmasında fərdi qərarın forması, şəxsi əməl kimi əhəmiyyət kəsb edir. Bu isə yaradıcılığın əvvəllər olmayanın, nadir olanın və təkrarolunmazın yaradılması kimi anlaşılmasına zəmin yaradır. Yəni insanın yaradıcılıq qabiliyyəti onun İlahi niyyətin gerçəkləşdirilməsində iştirakı ilə ölçülür. Bədii-estetik və elmi-texniki yaradıcılıq isə, ikinci dərəcəli kimi qəbul olunur. Qeyd etmək lazımdır ki, sonuncu prinsip də Platonun incəsənətə münasibəti ilə səsləşir.

Orta əsrlərdə insan yaradıcılığının özünə məxsus şəkildə məhdudlaşdırılması İntibah dövründə aradan qaldırılır. Məhz bu amil İntibahı əvvəlki dövrlərdən fərqləndirən, onu bəşər tarixinin xüsusi mərhələsi hesab etməyə ciddi əsas verən səciyyəvi xüsusiyyətdir. Dini ehkamların bütövlükdə insan fəaliyyətinə, xüsusi halda yaradıcılığına qoyduğu məhdudiyyətlər tədricən zəifləyir və insan özünü yaradıcı kimi qavrayır.

İntibah dövründə yaradıcılıq ilk növbədə bədii yaradıcılıq, sözün geniş anlamında isə yaradıcı canlı seyr kimi nəzərdən keçirilən incəsənət kimi başa düşülür. Təsadüfi deyil ki, İntibah dedikdə ilk öncə A.Dante, F.Petrarka, C.Bakkoço, L.Da Vinçi, Mikelancelo xatırlanır. İntibah üçün səciyyəvi olan və yaradıcı başlanğıc kimi qəbul edilən dahiyə pərəstiş də məhz buradan qaynaqlanır. İntibah dövründə yaradıcı aktın özünə və bununla birlikdə sənətkarın şəxsiyyətinə əvvəllər müşahidə olunmayan maraq oyanır. Əgər orta əsrlərdə mövcud olan təsəvvürlərə görə tarix Allah və insanın birgə yaradıcılığının nəticəsi kimi qavranılırdısa, artıq İntibah dövründə tarix insan yaradıcılığının məhsulu kimi başa düşülür.

Tarixi baxımdan İntibahla eyni vaxta təsadüf edən Reformasiya dövründə yaradıcılıq fərqli interpretasiya edilir. Artıq yaradıcılıq estetik məzmuna malik deyil, o fəaliyyətdir. Lüteranlıq və xüsusilə sərt, riqoristik etikanı təbliğ edən kalvinizm vurğunu əşyavi-praktik, o cümlədən təsərrüfat fəaliyyəti üzərinə qoyulur. Bu haqda fransız sosioloqu Maks Veber "Protestant etikası və kapitalizm ruhu" adlı əsərində yazırdı: "Sənin çəkicinin səsini sənə borc verən səhər saat beşdə və axşam saat səkkizdə eşidirsə, bu onun inamını daha altı ay müddətinə uzadır; ancaq əgər o səni bilyard stolu arxasında görsə, yaxud iş vaxtı sənin səsini meyxanadan eşitsə, onda elə səhərisi gün borcunu sənin yadına salar və pulunun olmadığı vaxtda öz pulunu geriyə tələb edər" [6, c.72]. Yəni, protestant etikası hər hansı oyun, əyləncə, və yaxud incəsənəti məqsədəmüvafiq hesab etməyib, hətta mömin insanın duasına əvəz tutulacaq əməyə, maddi nemət istehsal edəcək təsərrüfat yaradıcılığına üstünlük verir.

Yeni dövr fəlsəfəsində yaradıcılıq probleminə yanaşmada hər iki təmayül: həm teistik, həm də panteistik yanaşmalar müşahidə edilir.

Haqlı olaraq Yeni dövr fəlsəfəsinin zirvəsi hesab olunan klassik alman fəlsəfəsi də yaradıcılığa biganə qalmamışdır. Klassik alman fəlsəfəsinin banisi hesab olunan İmmanuil Kant yaradıcı fəaliyyəti təxəyyülün məhsuldar qabiliyyəti kimi təhlil edir. İ.Kant yaradıcılıq haqqında nəsə yeni, əvvəllər mövcud olmayan "insaniləşdirimiş" dünyanın yaradılraq dünyanın simasını dəyişən əşyavi-dəyişdirici fəaliyyət kimi qəbul edilən protestant ideyasını mənimsəmiş və bu ideyanı ciddi fəlsəfi təhlil etmişdir.

Müasir Qərb fəlsəfəsində də yaradıcılıq prosesi ən müxtəlif aspektlərdə, fərqli fəlsəfi məktəb və cərəyanlar çərçivəsində təhlil edilmişdir. Həyat fəlsəfəsi çərçivəsində yaradıcılığın genişləndirilmiş təhlili fransız filosofu Anri Berqson tərəfindən verilmişdir. O, "Yaradıcı təkamül" əsərində yaradıcılığı yeninin fasiləsiz doğuluşu kimi qəbul edərək onu həyatın mahiyyəti ilə eyniləşdirir: "Ümumiyyətlə həyat coşqusu ...yaradıcılığa tələbatla müəyyənləşir" [29. c.277]. Filosofa görə, yatadıcılıq nəsə obyektiv gerçəkləşmədir və subyektiv texniki konstruksiya fəaliyyətinə əks mövqedə dayanır.

XIX əsrin sonu XX əsrin əvvəllərində populyar olmuş praqmatizm və onun fərqli modifikasiyaları kimi çıxış edən instrumentalizm və operasionalizm kimi fəlsəfi cərəyanlarda

yaradıcılıq problemi nisbətən fərqli interpretasiya olunmuşdur. Bu cərəyanlar çərçivəsində yaradıcılıq sferası kimi özünün indiki anlamında götürülən elm çıxış edir. Məsələn, amerikalı filosof Con Dyui "Biz necə fikirləşirik" adlı əsərində yaradıcılığa məqsədi konkret situasiya tərəfindən qoyulmuş məsələnin həlli olan ixtiraçılıq kimi şərh edir. Deməli instrumentalist yanaşmada yaradıcılıq sosial fəaliyyətin intellektual ifadə forması kimi təfsir edilir.

Yaradıcılıq realizm və fenomenologiya zəminində də öyrənilmişdir. Bu istiqamətlərdə aparılmış tədqiqatlarda yaradıcılığın intellektualist anlamı ön plana çıxarılmışdır. E.Husserl, N.Hartman, A.Uatheyd kimi filosofların yazdıqları əsərlər ciddi elmi-fəlsəfi maraq doğurmuşdur.

Yaradıcılıq probleminə xüsusi diqqət yetirmiş və bu mövzuda ayrıca əsər yazmış fikir insanlarından biri də rus filosofu N.Berdyayev olmuşdur. N.Berdyayev "Yaradıcılığın mənası" adlı əsərində yaradıcılığı fəlsəfi aspektdə şərh edərkən belə bir tezisdən çıxış edir ki, yaradıcılıq zahiri səbəblər və dünyanın tələbləri ilə determinləşmir. Əsl yaradıcılıq heç nədən nəyinsə yaradılmasıdır, bu isə azadlığın emanasiyasıdır. Yəni azadlıq Plotinin anlamında hissi qavranılan dünyanın fövqündə dayanan və öz-özünün səbəbi olan Təkcə, yaradıcılıq isə onun şüalanaraq (emanasiya) bütün mövcudatı əmələ gətirməsidir. N.Berdyayev insandakı yaradıcılıq qabiliyyətinin ona Allah tərəfindən əta edildiyini bildirir, bununla belə yaradıcılıq aktında hətta Allahın tərəfindən determinləşməmiş azadlıq elementinin olduğunu xüsusi vurğulayır. Filosofa görə: "Yaradıcı akt həmişə azadolma və dəfetmədir. Onda yaşantının gücü var. Özünün yaradıcı aktının açkarlanması ağrıdan qışqırma, passiv iztirab, lirik nurlanma deyil... Yaradıcılıq mahiyyətcə çıxış, qurtuluş, qələbədir" [7, c.255].

XX əsrin ən geniş yayılmış fəlsəfi cərəyanlarından biri olan ekzistensializmdə yaradıcılığın daşıyıcısı ekzistensiya, daha doğrusu azadlığın hansısa irrasional başlanğıcı kimi başa düşülən şəxsiyyətdir. Onun təbii zərurət və zəkalı məqsədəmüvafiqlik coşqusundan "dünyaya nəsə gəlir". Ekzistensializmin dini variantında insan öz ekzistensiyası vasitəsilə hansısa transendent varlığa, qeyri-dini ekzistensializmdə isə heçliyə qovuşur. Xüsusi halda təbii və sosial dünyanın, ümumilikdə isə "bütövlükdə" dünyanın hüdudlarından kənara çıxan və ekstatik coşqu kimi təzahür edən ekzistensiya dünyaya, adətən yaradıcılıq adlandırılan yenini gətirir.

Ekzistensializmdə yaradıcılığa münasibət digər fəlsəfi məktəb və cərəyanlarda olan münasibətin əsas fərqi yaradıcılığın daxili mexanizmləri ilə əlaqədardır. Bu isə bütövlükdə ekzistensialistlərin idrak nəzəriyyəsi konsepsiyası ilə bilavasitə bağlıdır. "İdrak probleminə ekzistensialist yanaşma predmetin daxildən seyr edilməsindən ibarətdir. Buna görə ekzistensializm idrakın klassik qneseoloji modelini müəyyən mənada rədd edir, subyektlə obyektin bilavasitə və ya fikrən təması (məsələn, bədii ədəbiyyat, incəsənət) üzərində qneseoloji problematikanı cəmləşdirir. Onlarda idrak təəssürat, canlı seyr, intuisiya şəklində meydana çıxır. Məsələnin bu cür qoyuluşu obyekt-subyekt, materiya-şüur və s. kimi dilemmaları rədd etməyə, elmlər və elmi metodlardan imtina etməyə, idrakı ancaq intuitiv idraka müncər etməyə gətirib çıxarır" [8, s.254-255]. Prof. Fərman İsmayılovun iqtibas edilən fikirləri ekzistensialistlərin idrak nəzəriyyəsinə münasibətlərini aydınlaşdırmaqla yanaşı, həm də onların yaradıcılığın interpretasiyasına da işıq salır. Belə ki, ekzistensializm yaradıcılığa intuitiv, mistik və irrasional proses kimi izah edirlər. Yaradıcılığın əsas sferası kimi ekzistensialistlər dini, fəlsəfi, bədii və əxlaqi yaradıcılığı fərqləndirirlər.

Qısa tarixi icmaldan aydın görünür ki, yaradıcılıq problemini təhlil etmiş əksər filosof və tədqiqatçılar ilk növbədə ona lakonik tərif verməyə cəhd göstərmişlər. Yaradıcılığa müxtəlif dövrlərdə verilmiş tərifl ərlə tanışlıq onu deməyə əsas verir ki, hər bir müəllif öz fəlsəfi dünyagörüşü çərçivəsində bu problemi fərqli formalarda həll etmişlər. Bu isə əlbəttə ki, verilən tərifl ərin birtərəfliyinə, yaradıcılığı kompleks, bütöv şəkildə deyil, onun müəyyən, konkret aspektini işıqlandırmışdır.

Fəlsəfə tarixində yaradıcılığa verilmiş ilk metafizik tərif Platona məxsusdur. O, yazdığı "Ziyafət" traktatında yaradıcılığa belə tərif vermişdir: "Heçlikdən varlığa keçidi təmin edən hər şey yaradıçılıqdır" [9, c.115]

Bir çox sonrakı müəlliflər kimi Platon da yaradıcılığın həcmcə geniş tərifini vermişdir. Bu istiqamətdə aparılan tədqiqatlarda müəlliflər təkcə canlı deyil, hətta cansız təbiətdə yaradıcılığın bəsit formalarının olduğunu iddia edirlər. Rus tədqiqatçısı Y.A.Ponamaryovun baxışları da bu aspektdə maraq doğurur. O yazır ki: "Yaradıcılıq materiyanın inkişafı, onun yeni formalarının əmələ gəlməsinin zəruri şərtidir, yeni formaların əmələ gəlməsi ilə yaradıcılıq formalarının özü də dəyişir... Yaradıcılıq produktiv inkişaf mexanizmi kimi çıxış edir... Harada ki, ibtidaidən aliyə doğru hərəkət var, yaradıcılığı da orada axtarmaq lazımdır".[101, c.117] Burada da yaradıcılığın tərifinin geniş mənada verilməsi aşkardır. Düzdür, müəllif özü də mövqeyinin, yəni yaradıcılığa olduqca geniş anlamda tərif verdiyini etiraf edir. Aydındır ki, məsələ belə qoyulduqda materiyanın, onun təbiətinə xas olan daxili ziddiyyətlərin sayəsində özinkişafı da yaradıcı proses kimi interpretasiya olunacaq.

Yaradıcılıq kateqoriyasının daxili məzmunun aşkarlanması üçün aşağıdakı əlamət və parametrlər daha məqbul hesab edilə bilər:

- yaradıcılıq insan tələbatlarının ödənilməsi üçün maddi və mənəvi dəyərin yaradılması istiqamətində fəaliyyətidir;
- proses olaraq yaradıcılıq orijinaldır;
- genetik planda yaradıcılıq kombinəetmədir (yəni əvvələr mövcud olanın bazasında yeninin yaradılması);
- yaradıcılıq qeyri-standart (yəni əvvəllər qoyulmayan) məsələ və problemlərin qoyuluşu və həlli prosesidir;
- yaradıcılıq cəmiyyət, təbiət, mədəniyyət və insanın özünün keyfiyyətcə inkişaf formasıdır;
- icraedici, stereotip fəaliyyətlə müqayisədə yaradıcılıq insanın ali fəaliyyət forması kimi ilkindir;
- yaradıcılıq insanın bütün mənəvi-ruhi (arzu, istək, iradə, idrak, şüur, intuisiya və s.) qabiliyyətləri və onların inkişaf qanunları və fəaliyyəti ilə üzvi şəkildə bağlıdır;
- yaradıcılıq insanın ən geniş anlamda götürüldükdə yaşam və varlıq üsuludur.

ƏDƏBİYYAT

1. Давыдова Г.А. Творчества и диалектика. М.: «Наука», 1976, 175 с.
2. Оропай И.И. Методологические проблемы творчества. // Методология, общества, познания. Л.: 1979, вып.19., с.43-51
3. Губин В.Д. Критика современных буржуазных теорий творчества. Харков: Виша школа,1981, 168 с.
4. Энгельмейер П.К. Теория творчества. М.: Книжный дом «ЛИБРОКОМ», 2010, 208 с.
5. Реале Дж., Антисери Д. Западная философия от истоков до наших дней. Т.I. Античность. М.: ТОО ТК «Петрополис», 1994, 336 с.
6. Вебер М. Избранные произведения. М.: Прогресс, 1990, 808 с.
7. Бердяев Н.А. Философия свободы. Смысл творчества. М.: «Правда», 1989, 607 с.
8. İsmayılov F. Müasir Qərb fəlsəfəsi. B.: Azərnəşr, 1991, 310 s.
9. Платон. Собрание сочинений в 4 т. Т 2. М.: «Мысль», 1993, 528 с.

YARADICILIQ FƏLSƏFİ PROBLEM KİMİ

Əliyeva G.F.

XÜLASƏ

Fikrimizcə, yaradıcılıq kimi mürəkkəb fenomenə birqiymətli, birmənalı tərif vermək metodoloji-nəzəri cəhətdən mümkün olmur. Məhz bu səbəbdən yaradıcılığın onto-qnoseoloji mahiyyətini müəyyən əlamətlər və parametrlər üzrə verilməsi daha məqbul hesab edilə bilər.

ТВОРЧЕСТВО КАК ФИЛОСОФСКАЯ ПРОБЛЕМА

Алиева Г.Ф.

АННОТАЦИЯ

На наш взгляд, методологически и теоретически невозможно дать однозначное определение такому сложному явлению, как творчество. По этой причине, возможно, более целесообразно дать онтогносеологическую сущность творчества по определенным признакам и параметрам.

CREATIVITY AS A PHILOSOPHICAL PROBLEM

Alieva G.F.

SUMMARY

In our opinion, methodologically and theoretically, it is impossible to give an unambiguous definition of such a complex phenomenon as creativity. For this reason, it may be more expedient to give the ontognoseological essence of creativity according to certain characteristics and parameters.

AZƏRBAYCANDA VƏTƏNDAŞ CƏMİYYƏTİNİN FORMALAŞMASININ XÜSUSİYYƏTLƏRİ

Şəmiyeva Bəsdi Hikmət qızı
BDU-nun II kurs magistrantı
basti.shamy@gmail.com

Açar sözlər: insan hüquq və azadlıqlarının qorunması, vətəndaş cəmiyyəti, qeyri-hökumət təşkilatlarının formalaşması, dövlət siyasəti, ictimai birliklər, vətəndaş cəmiyyətinin bərqərar edilməsi, siyasi-ictimai institutlar, cəmiyyətin davamlı inkişafı.
Ключевые слова: защита прав и свобод человека, гражданское общество, создание неправительственных организаций, публичная политика, общественные объединения, создание гражданского общества, политические и социальные институты, устойчивое развитие общества.
Keywords: protection of human rights and freedoms, civil society, formation of non-governmental organizations, state policy, public associations, establishment of civil society, political and social institutions, sustainable development of society.

Ölkəmizin tarixi inkişaf yoluna nəzər salsaq, görə bilərik ki, tarixi inkişaf yolumuz nə qədər şərəfli olsa da, bir o qədər də keşməkeşli olmuşdur. Uzun dövr ərzində bir çox dövlətlərin istilasına məruz qalmış, və onların müstəmləkəçiliyi altına düşmüşdür. Amma bunlara baxmayaraq millətimiz heç bir zaman öz azadlıq ideologiyasından əl çəkməmişdir. Bunun nəticəsidir ki, ölkəmiz ilk müstəqillik tarixi olan Azərbaycan Xalq Cümhuriyyəti dövründən bugünki istiqlaliyyət günümüzədək milli dəyər və normalarını üstün tutmuş, bununla belə bəşəri dəyərlərə də hər zaman açıq olmuşdur.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra sosial dövlət kimi formalaşmaq istiqamətində müəyyən addımlar atıb. Müasir dövrdə Respublikamızda mövcud olan sosial dövlət modeli milli ənənələri özündə birləşdirir [6, s.99].

Rusiya imperiyasının işğalından qurtulmuş və zamanla öz milli dövlətçilik ənənələrini formalaşdırmış bir xalq olaraq 1918-ci ilin 28 may tarixli İstiqlal Bəyannaməmizdə də demokratik ideyaların və vətəndaş cəmiyyəti ünsürlərinin öz əksini tapdığının bir daha şahidi olduq.

Daha sonra isə ikinci müstəqillik dönəmimizdən bu yana Azərbaycan dövləti yüksələn xətt üzrə inkişaf yoluna qədəm qoymuşdur. Azərbaycan öz müstəqilliyini ikinci dəfə elan etdikdən sonra demokratik, hüquqi və eləcə də dünyəvi dövlət quruculuğu sisteminin davamı kimi vətəndaş cəmiyyəti təssisatlarının daha əlverişli bir şəraitdə daha da inkişaf etməsi istiqamətində mühüm addımlar atıldı. Bu proseslərin açıq və daha uğurlu bir formada aparılmasına biz 1993-cü ildən başlayaraq şahid olduq və həmin illərdən başlanan proses çərçivəsində vətəndaş cəmiyyəti, eləcə də vətəndaş cəmiyyətinin formal təzahürlərindən biri kimi QHT-lərlə bağlı bir sıra qanunvericilik sisteminin yaradılması, hökumətlə münasibətlər, bir çox mühüm qeyri-hökumət təşkilatları hadisələri və s. diqqəti cəlb etmişdir.

Təşkilat insanların stabil və dayanıqlı əlaqələr yaratmağa istiqamətlənmiş, bir qrup insanların yeni normalar və qaydalar işləyib hazırlamağa, qarşılıqlı əməkdaşlıqlarını ifadə edən fəaliyyət formasıdır [9, s.182].

Hər bir təşkilatın və ya birliklərin yaranmasının ilkin əsaslarının kortəbii proseslərə bağlı olduğunu bilirik. Təşkilat sözü özündə fransız dilində “orqanization” sözündən götürülüb,

mənası quruluş, qurma, nəticə olaraq, müəyyən bir məqsədə nail olmaq üçün birləşmiş insanlar qrupudur.

Sosiumun digər hissəsinin yəni qeyri-hökumət hissəsinin izahı üçün vətəndaş cəmiyyəti anlayışından da istifadə olunur. Vətəndaş cəmiyyəti müstəqil birlik formalarından biri kimi dövlətdən asılı olmayaraq fəaliyyət göstərir [5, s.306].

Bu məsələdən çıxış edərək deyə bilərik ki, qeyri-hökumət təşkilatları dövlətdən asılı olmadan öz fəaliyyətini təşkil edən, özünü vətəndaş cəmiyyətinin xüsusi bir tərkib hissəsi hesab edən müxtəlif ictimai birliklər,müxtəlif hərəkatlar, komitələr, fondlar və xüsusi halda sosial institutlardır.

Qeyri-hökumət təşkilatlarının fəaliyyət istiqaməti kommersiya məqsədləri daşımır, bununla belə humanitar sahələri, eyni zamanda təhsil, səhiyyə, ictimai-siyasi, sosial, insan hüquqları və ətraf mühitin qorunması məsələlərini də özündə ehtiva edir. Müstəqil dövlətimizdə qeyri-hökumət təşkilatları (buraya aiddir: bütün ictimai birliklər və fondlar) bağlı qanununda da qeyd edildiyi kimi ictimai birlik fəaliyyət sənədlərində müəyyən olunmuş məqsədlərlə ümumi ortaq dəyərlər və maraqlar əsasında birləşmiş bir qrup fiziki yaxud hüquqi şəxsin cəhdləri ilə yaradılmış könüllü, özünü idarəedən, öz fəaliyyət istiqamətinin ilkin prioriteti olaraq qeyri-kommersiyaya yönəlmiş, maddi qazanc güdməyən, bununla belə, əldə olunan gəliri öz üzvləri arasında bölməyən qeyri-hökumət təşkilatıdır [6, s.125].

Ölkəmizdə də "İctimai birliklər haqqında" qanunun qəbul edilməsi elə müstəqilliyin ilk illərindən 200-ə yaxın qeyri-hökumət təşkilatı Azərbaycan dövləti tərəfindən qeydiyyata alınsa da, görə bilərdik ki, həmin sahədə yetərincə irəliləyiş olmamışdı. Həmin dövrlərdə ölkədə davam edən qeyri-sabitliyin və onun ardınca da baş verə biləcək vətəndaş müharibəsi təhlükəsinin qarşısının alınması üçün 1993-cü ildə xalqın böyük bir qisminin tələbi ilə Ulu Öndər Heydər Əliyevin yenidən ölkəmizdə siyasi hakimiyyətə geri dönməsi ilə növbəti bir neçə il ərzində hadisələrin inkişafı mexanizması artan xətt üzrə kəskin şəkildə dəyişdi və belə ki, 1993-1995-ci illər ərzində ölkədə aparılan önəmli tarixi addımlar nəticəsində ölkədə siyasi sabitliklə yanaşı cəbhədə atəşkəs də təmin edildi. Ulu Öndərimiz Heydər Əliyevin bu məşəqqətli və tarixi mübarizəsi öz məntiqi, eləcə də qanuni nəticəsini 1995-ci il 12 noyabr tarixində qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında tapdı. Bu konstitusiyanın qəbul edilməsi dövlətçilik tariximiz üçün və vətəndaş cəmiyyətimiz üçün çox mühüm tarixi əhəmiyyət kəsb edən önəmli sənəd oldu. Bu önəmi sübut edən bir çox faktorlar vardır ki, bunlardan biri də həmin sənədin özünün alternativi olan digər öncəki sənədlərlə müqayisəsidir. Belə ki, 1993-cü ildə qəbul edilmiş konstitusiyamızdan fərqli olaraq keçmiş bütün sənədlərdə ancaq məhdud və ideoloji çərçivədə olan birləşmək hüququndan söz gedirdi. Bu hüquqdan məhdud çərçivədə bəhs edilməsi ilə yanaşı hətta bu hüququn hüquqi təminatı belə yox idi.

1995-ci il konstitusiyasının 58-ci maddəsində qeyd edilmiş olan birləşmək hüququ, onun preambulasındakı milli niyyətlərdən biri və daha dəqiq desək üçüncüsü olan "vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq" artıq bizə ölkəmizin müstəqilliyinin verdiyi böyük və yararlı imkanların hüquqi formada olan ifadəsi idi [1, s.20].

Və hal-hazırda ölkəmizdə fəaliyyət göstərən müasir və beynəlxalq standartlara cavab verən QHT-lər, əslində, məhz 1995-ci il konstitusiyasından sonra yaranmağa başlamışdır. Təbii ki, bütün dünya dövlətlərində olduğu kimi ictimai birliklərin davamlı formada dövlət qeydiyyatına alınması hələ həmin ölkədə vətəndaş cəmiyyətinin inkişaf etdiyi mənasını vermir.

Amma 1995-ci il konstitusiyamızda az öncə də bəhs etdiyimiz formada Azərbaycan Respublikasının preambulasındakı milli amallardan üçüncüsü olan "vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq" özü-özlüyündə artıq dövlət müstəqilliyinin bizə verdiyi böyük imkanın rəsmi və bir o qədər də hüquqi ifadəsi idi. Vətəndaş cəmiyyətinin tərkib hissəsi hesab

edilən QHT sistemi bu gün də müasir Azərbaycan dövlətinin ayrılmaz bir hissəsi olaraq öz fəaliyyətini davam etdirir. QHT-lərin inkişaf etdirilməsi yönümündə hələ müstəqilliyin ilk illərindən Heydər Əliyev tərəfindən atılan addımlar bu gün də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün xarici dövlətlərə inteqrasiya edən Azərbaycan hökuməti Avropa Şurası və onun struktur bölmələri ilə davamlı və səmərəli əməkdaşlıq edir və elə buun nəticəsidir ki, avropalı və eləcə də digər dünya dövlətlərinin ekspertlərinin iştirakı ilə son illər ərzində ölkəmizdə QHT sahəsində də mühüm islahatlar aparılıb. Və hal-hazırda da QHT-lərin dövlət qeydiyyatına alınması işinə nəzarət sisteminin bir parçası olaraq Ədliyyə Nazirliyi də QHT-lərin planladığı layihələrin həyata keçirilməsinə dəstək verib, Avropa Şurasının da Bakıda olan ofisi ilə səmərəli bir şəkildə iş aparıb. Hal-hazırki dövrdə qeyri-hökumət təşkilatlarının bir neçə özlərinəxas olan xüsusiyyətləri mövcuddur: Qeyri-hökumət təşkilatları öz-özünü idarə edən sistemi olan , özünün qanun və qaydalarına uyğun olaraq fəaliyyətdə olan azad və muxtar bir xüsusiyyətə malikdir; əlavə də olaraq QHT-lər müəyyən bir sahə üzrə açıq rəqabətə yönələn bir xarakter və ya başqa cür desək xüsusiyyətə malikdirlər.

Günümüzdə həm dövlət, həm də qeyri-hökumət təşkilatları da çox önəmli sosial vəzifələ yerinə yetirir. Müasir sosiumun özündə müxtəlif sahə və funkisyalar həyata keçirən bir çox ictimai birliklər və eləcə də təşkilatlar var. Dövlət təşkilatları ilə bağlı bir çox hallarda izah vermək mümkündür amma ən çox istifadə edilən tərif kimi hökumətin və ya dövlətin, cəmiyyətin elm, təhsil, səhiyyə, təhlükəsizlik və eləcə də yaşama, qidalanma və sağlam bir şəraitdə tələbatlarını ödəmək istiqamətli yaratdığı qurumlara dövlət təşkilatları olması qəbul edilir. Həmin ictimai təşkilatlar və birliklər müəyyən bir amal istiqamətində fəaliyyət göstərən və bu fəaliyyətlərinin nəticələrini müəyyən edə bilən qurumlar kimi də cəmiyyətdə xüsusi rola malikdirlər. Ümumilikdə götürdükdə isə, nəinki dövlət təşkilatları, həmçinin qeyri-dövlət təşkilatları sosial sferada və sosial mühitdə önəmli rola malikdir. Qeyr-hökumət təşkilatları indiki dövrdə dünyanın bir çox yerlərində, ölkələrində yerli özünüidarə orqanları hesab edilir.

Ümumiyyətlə, biz dövlət təşkilatları ilə bir sıra qeyri-hökumət təşkilatları arasında bir çox halda oxşarlıqlar görsək də, bu oxşarlıqlarla yanaşı onların iş sistemi arasında kəskin fərqlər də mövcuddur. Daha dəqiq desək, dövlət təşkilatları çox hallarda milli mənafelərinin və mədəni norma və dəyərlərin aşılanması ilə, qeyri-hökumət təşkilatları isə mədəniyyətlərarası inteqrasiya edici mahiyyəti ilə ümum dəyərlərə önəm verir. Bununla bərabər qeyri-hökumət təşkilatlarının maliyyə vəsaiti və iqtisadi təminatı çox hallarda dövlət təşkilatlarından fərqli olaraq dövlət tərəfindən ödənilmir.

İndiki vəziyyətdə dünya üzrə qeyri-hökumət təşkilatlarının ümumi sayı 10 milyona çatır. Həmin təşkilatların təxminən 2 milyona qədəri Hindistan ərazisində, 1,5 milyona yaxını Amerika Birləşmiş Ştatlarında, 0,3 milyona qədər və təqribi olaraq 0,5 milyonu müvafiq olaraq Rusiya ərazisində və Çində mövcuddur və fəaliyyət göstərirlər.

Müstəqil dövlətimizdə baş verən əsaslı və nəzərəçarpan dəyişikliklər bir çox sosial əsaslı qeyri-hökumət və ictimai təşkilatların, həmçinin birliklərin yaranması və müstəqil fəaliyyət göstərməsi üçün müvafiq şərait yaratmışdır [4, s.30].

Azərbaycan Respublikasında mövcud olan və davamlı inkişaf edən qeyri-hökumət təşkilatlarının üç yöndə əsas fəaliyyət istiqaməti qeydə alınmışdır:

1.Bu əsas fəaliyyət istiqamətlərdən ilki ölkə ərazisində baş verə biləcək hər-hansı təbii fəlakətlər dövründə xeyriyyə tədbirləri yönündə ianələrin toplanılması və ehtiyaca uyğun şəkildə bölüşdürülməsi, hüquqi əsasda mümkün olan müxtəlif cür məsləhət xidmətlərinin reallaşdırılması, sosial əsaslı kənd və şəhər layihələrinin hazırlanılması və iş müddətində bir-biri ilə əlaqələndirilməsi ilə bağlıdır. Məsələn, bu fəaliyyət istiqaməti üzrə fəaliyyət göstərən qeyri-

hökumət təşkilatlarından biz Azərbaycan Qızıl Aypara Cəmiyyətinin adını çəkə bilərik ki, təşkilatın iş prinsipi yuxarıda qeyd etdiyimiz yöndə iş üçün səciyyəvi xarakter daşıyır.

2.Digər bir istiqamət yerli iqtisadiyyatın inkişaf etdirilməsinə nail olmaqla məşğulluğun artırılması, stimullaşdırılması və əhalinin həyat rifahının yüksəldilməsinə xidmət edən forma və işlərin təşkili səciyyəsi daçıyan qeyri-hökumət təşkilatlarıdır.

3.Üçüncü, yəni digər bir istiqamət də qeyri-hökumət təşkilatlarının səciyyəvi xüsusiyyətlərindən biridir və belə ki, bu əsasda qeyri-hökumət təşkilatları dövlət orqanları tərəfindən lazımi qədər diqqət ayrılmayan və eləcə də təmin edilməyən layihə və proqramları yerinə yetirirlər. Belə layihə və proqramlara biz misal olaraq ailə planlaşdırılması və cinsi tərbiyə kimi cəmiyyətin maarifləndirilməsi istiqamətində olan layihələri aid edə bilərik.

İndiki vəziyyətdə nəzər salsaq qeyri-hökumət təşkilatlarının ölkə ərazisində iqtisadiyyatın, özəl sektorun, vətəndaş cəmiyyətinin, əhalinin sosial-iqtisadi və eləcə də mədəni rifahının yüksəldilməsində geniş töhvələri və pay tərkibi olduğunu görə bilərik. Qeyri-hökumət təşkilatları bu kimi özəlliklərlə bərabər həm də özünün fəaliyyətində demokratik ünsürlərin davamlı göstəricilərini tətbiq etməklə həm sosiumun demokratik cəhətdən özünü təkmilləşdirməsi yönündə əsaslı paya malikdir. Ümumiyyətlə, vətəndaş cəmiyyətinin bərqərar edildiyi ölkələrdə hər zaman tolerant düşüncə tərzi ilə yanaşı həm də birgəyaşayışı təmin edən əsas faktorlar nəzərə çarpacaq dərəcədə yüksəkdir. Belə ki, insan və vətəndaş azadlıqlarının təmin edilməsi, söz azadlığına qarşı heç bir şəkildə əlavə təyziq göstərilməməsi həmin ölkədə demokratik ünsürlərin davamlı inkişafını təmin etməklə yanaşı ölkədə xüsusi sahibkarlığın və eləcə də özünüməşğulluğun artırılması və bunun da nəticəsi olaraq iqtisadi faktorların davamlı inkişaf göstəricilərinə malik olması kimi nəticələr formalaşır. Bu nəinki dövlətin lokal çərçivədə, eləcə də beynəlxalq səviyyədə ad qazanmasl ilə nəticələnə bilir. Beləliklə, biz vətəndaş cəmiyyətinin bir ünsürü kimi qeyri-hökumət təşkilatlarının stabilizasiya edə bilmə və sabitləşdirici xarakterə malik ola bilmə xüsusiyyətindən bəhs edə bilərik.

Bu kimi məsələləri nəzərə alsaq deyə bilərik ki, son zamanlarda qeyri-hökumət təşkilatlarının sosial sferada rolu və əhəmiyyəti önəmli dərəcədə artmış və QHT-lər müasir dünyada son dərəcə mürəkkəb proseslərin əsas amilinə dönüşmüşdür.

Перечисленные формы процессов изменения можно проследить на познание движения. В процессе труда, передвигая одну вещь по отношению к другой, неподвижной или движущейся, человек познает движение как специфический процесс. На этой основе он фиксирует своё перемещение по Земле и по отношению к другим движущимся в поле его зрения предметом природы. Осуществляя те или иные подсистемы общества, человек констатирует новые перемещения своего тела или его органов по отношению к другим телам. Его знания являются объективными и составляют содержание его способности осуществить такие действия в соответствующих процессов подсистемах общества. Без этого арсенала знаний его функционирования не только как социального, но и как биологического существа, невозможно. Аналогичное познание он осуществляет и в наблюдаемом субъект – объектном преобразовательном и конструктивном процессах познания. Он наблюдает перемещение предметов природы по отношению к его телу в процессу труда. Человек может сконструировать такие перемещения в своем мышлении. Однако это он способен сделать только в тех отношениях, которые реально осуществляется или осуществляются как субъект – объективные отношения. За пределами этих отношений он может сконструировать в своем сознании ошибочные представления, наблюдая движение Солнца, человек объективно фиксирует относительно движение солнца по отношение к его телу. Если он стоит на земле неподвижно, то он фиксирует относительно суточное движение Солнца. Но при этом он не фиксирует суточное движение Солнца по отношению к Земле, так как в отношении с → о но не может наблюдать землю в солнечной системе. По этому его мысленная конструкция движения Солнца по отношению к Земле будет ошибочной в этом случае, когда правильное наблюдение относительного движения Солнца по отношению к своему телу,

неподвижному по отношению к Земле, он переносит на движение Солнца по отношению к Земле.

И так изучая целостные системы, философия не могла подвергаться дифференцации. Окружающая человека природы и общество принципиально различаются; природа развивается по естественным законам, общество конструировано. Научная картина мира и историческая картина мира, социально сфера общества два основных раздела философии. Субъектом конструирования и познания является человек. Это послужило основанием для выделения таких объектов исследования как процесс познания, наука, научный метод, нравственность, эстетические отношение и эстетическая деятельность человека. По этому можно утверждать, что философия превратилась в систему наук. Конструирование процессы и процессы познания функционируют во всех относительно самостоятельных подсистемах общества. Типа «человек, изменяющий объект,→ средство изменения объекта → объект, подвергающий изменению». До возникновения науки человек разрабатывал социальные конструкции и познавал природу только в этих процессах будучи исходным в генезисе общества, они сохраняют свое значение на всех ступенях его развития.

ЛИТЕРАТУРА

1. Файнберг Е.Л Обыкновенное и необычное / наука сегодня.М.,1979.-с.72
2. Никитин Е.Г. Объяснение- функция науки.- М.,1980.- с.11
3. Капица П.Л. Объяснение современных научных идей на общество//Вопросы философии.- 1989, - №1.- с.62
4. Герасимов И. Г. Научное исследование.- М, 1982, - с.84.
5. Попов П.В. Эмпирический уровень научного познания и его методы // Методологические основы научного познания,- М, 1972,- с.131.
6. Мостепаненко М.В Философия и методы научного познания.Л.,1982-с.90.

SUMMARY

Условия для возникновения наук формируется в относительно самостоятельных сферах общества, которые представляет собой подсистемы типа человек, осуществляющий не изменение объекта,- средства изменение объекта- объект подвергающийся изменению. Такие подсистемы содержат в себе конструктивные и познавательные процессы и определяют наиболее общее строение этих процессов. На определённый ступени развития рассматриваемых подсистем в них возникают конструктивные и познавательные задачи, которые не могут быть решены и с помощью «средств изменения объекта» или «объекта подвергающегося изменения», используемых в качестве средств конструирования и познания. В предлагаемой стать анализируется решение подобных задач и определяются факторы их выполнение.

XÜLASƏ

Elmlərin meydana çıxması üçün şərait cəmiyyətin nisbətən müstəqil sahələrində formalaşır ki, bu da bir obyekti dəyişdirməyən bir şəxsin alt sistemidir - bir cismin dəyişdirilməsi deməkdir - dəyişikliyə məruz qalan bir obyektdir. Belə alt sistemlər konstruktiv və idrak proseslərini ehtiva edir və bu proseslərin ən ümumi quruluşunu müəyyənləşdirir. Baxılan alt sistemlərin müəyyən

bir inkişaf mərhələsində, yaradilan və idrak vasitəsi olaraq istifadə edilən "bir obyekt dəyişdirmə vasitələri" və ya "dəyişdirilməkdə olan bir obyekt" köməyi ilə həll edilə bilməyən konstruktiv və idraki vəzifələrin həll edilməsi zərurəti meydana çıxır. Təklif olunan məqalədə bu cür problemlərin həlli təhlil edilir və onların həyata keçirilməsinin amilləri müəyyənləşdirilir.

SUMMARY

The conditions for the emergence of sciences are formed in relatively independent spheres of society, which are subsystems of various types of a person who does not change the object — as means of changing the object — but the object itself undergoessome changes. Such subsystems contain constructive and cognitive processes and determine the most general structure of these processes. At a certain stage of development of these subsystems, constructive and cognitive tasks arise in them, which cannot be solved with the help of “means of changing an object” or “an object undergoing change”, used as means of construction and cognition. In the proposed article, the solution to such problems is analyzed and the factors for their implementation are determined.

AZƏRBAYCAN RESPUBLIKASINDA DEMOKRATİYANIN TƏMİN OLUNMASINDA DÖVLƏT SİYASƏTİ

dosent Əfəndiyeva Xatirə Bəxtiyar qızı
BDU-nun Politoligiya və sosiologiya kafedrası
xatira-bdu@yandex.ru

Açar sözlər: Azərbaycan, demokratiya, dövlət, siyasət
Ключевые слова: Азербайджан, демократия, государство, политика
Keywords: Azerbaijan, democracy, state, politics.

"Demokratiya" anlayışı bəşəriyyətə iki min beş yüz ildən artıq məlumdur. İlk dəfə Fukidid tərəfindən işlədilmiş olan bu qədim yunan sözü "xalq hakimiyyəti" mənasını ifadə edir. Qədim Yunanıstanda dövləti idarə etməyin xüsusi forması kimi qəbul olunan demokratiya müasir dünyada yeni məna çalarları kəsb edərək çoxşaxəli sosial hadisə qismində çıxış edir. Müasir anlamda "demokratiya" termini bir sıra mənalarda işlədilir. Onun ən geniş yayılmış məna çaları bu sözün etimologiyası ilə bağlıdır. Bu mənada, demokratiya, hər şeydən əvvəl, xalq hakimiyyətinə əsaslanan dövlət quruluşu kimi xarakterizə olunur. Lakin demokratiya anlayışı yalnız dövlət formasına aid edilmir. O, daha geniş hüdudlara və daha ətraflı məna çalarlarına malikdir. Buna uyğun olaraq demokratiya adı altında ümumilikdə cəmiyyətin, cəmiyyətlə vətəndaşların müəyyən dəyərlər sisteminə və dünyagörüşünə əsaslanan ictimai quruluşu, habelə insanların şaquli şəxsiyyətlərarası münasibətlərini tənzimləyən norma və prinsiplərin toplusu başa düşülür. Cəmiyyətin təşkilinin demokratik formalarının meydana gəlməsi uzun tarixi inkişaf yolu keçmişdir. Demokratiyanı bəşəri toplumun yaranmasının vacib şərti olduğunu nəzərə alaraq bəzən hətta onun antropogenezdə əhəmiyyətli rol oynanan amil olduğunu qeyd edirlər. Müasir etnoqrafik tədqiqatlar demokratiyanın insanların bərabər şəkildə təmasının, onların özünüdərketməsinin və təfəkküründün, şəxsi ləyaqətinin inkişafına stimul yaradaraq, ümumiyyətlə, insan nəslinin formalaşmasında böyük rol oynadığını təsdiqləyən tutarlı materiallar verir.(H,Ş səh 202) Demokratiyanın soaial haidəsi kimi tarixin müəyyən inkişaf mərhələsində meydana gəldiyini irəli sürən və inandırıcı arqumentlərə əsaslanan fikirlər mövcuddur. Bəzi nəzəriyyəçilərin fikrincə, əgər demokratiya dövlət idarəetmə forması kimi qəbul edilərsə, onda demokratiyanın dövlətin meydana gəlməsindən sonra yaranmasının sübuta ehtiyacı qalmır. Lakin demokratiya yalnız dövlət forması kimi deyil, eyni zamanda bütövlükdə cəmiyyətin ictimai təşkili forması kimi dərk edilərsə, onun başlanğıcını tarixin dövlətin meydana gəlməsindən daha qabaqkı dövlərinə aid etmək mümkündür.

Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikasının qarşısında duran ən vacib məsələlər demokratik prinsip və ideyalara əsaslanan dövlətin qurulması, insan hüquq və azadlıqlarının təmin olunması, dövlət strukturlarında islahatların aparılması, çökmüş iqtisadiyyatın yenidən canladırılması, böhran vəziyyətinin aradan qaldırılması, düzgün daxili və xarici siyasət kursunun işlənib həyata keçirilməsindən ibarət idi. Demokratikləşmə prosesində cəmiyyətin bütün sahələrində - siyasi, iqtisadi, sosial, mədəni-mənəvi və s. dəyişikliklərin həyata keçirilməsi zəruri əhəmiyyət kəsb edir. Ictimai-siyasi sabitliyin, qanunçuluğun bərpası, dövlətin və cəmiyyətin təhlükəsizliyinin qorunması, cinayətkarlığın qarşısının alınması məqsədilə həyata keçirilən qətiyyətli tədbirlər nəticəsində Azərbaycanda insan hüquq və azadlıqlarının yüksək səviyyədə qorunması, humanizm ideyalarının gerçəkləşməsi, sivil cəmiyyətin formalaşması, dövlət idarəçiliyinin demokratikləşməsi mümkün oldu. Ümummili lider Heydər Əliyevin hüquqi dövlət quruculuğu sahəsində siyasəti bu gün də uğurla davam etdirilir. 11 aprel 2018-ci il

Azərbaycan Respublikasının president seçkilərində Heydər Əliyev siyasi kursunun layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyevə yenidən etimad göstərən ölkə vətəndaşları əmindir ki, Azərbaycanda bütün sahələrlə yanaşı, demokratiyanın tam bərqərar olmasına və hüquqi dövlət quruculuğunun inkişafına xidmət edən islahatlar qarşıdakı illərdə davam etdiriləcəkdir.

Azərbaycan Respublikasında demokratik siyasi sitemin qurulması əsasında Azərbaycan dövlətçiliyi ilk növbədə:

-yarımmüstəqil dövlətdən tam müstəqil dövlətə;

-totalitar irsdən - yeni bəşəri dəyər olan demokratiyaya;

-iqtisadiyyatda planlı təsərrüfatdan bazar iqtisadiyyatının mühüm göstəricisi olan azad sahibkarlığa;

-mənəvi sahədə formal ateizmdən İslam dininə;

-sosialist mədəniyyətindən ümumbəşəri dəyərlərə malik olan mədəniyyətə;

-kosmopolit tərbiyə sistemindən milli tərbiyə sisteminə keçir.

Azərbaycan Respublikası Konstitusiyasında siyasi demokratiyanın və hüquqi dövlətin siyasi və ideoloji plüralizm, hakimiyyətin bölünmsəi, dövlət hakimiyyətinin hüquqa və qanuna tabe olması, yüksək dövlət hakimiyyəti orqanlarının seçkili olması və digər başqa prinsiplər öz əksini tapmışdır. Toalitar SSRi cəmiyyətində Azərbaycanın siyasi sistemi dövlətin şəxsiyyət və vətəndaşlar üzərində üstünlüyü, total nəzarəti ilə səciyyələnirdisə, hazırda əksinə, şəxsiyyətin və cəmiyyətin dövlət üzərində üstünlüyü nəzərə çarpır. Demokratik sistemin bərqərar olması üçün bir sıra şərtlər zəruridir. Bu baxımdan xüsusilə demokratik ənənələr, siyasi təcrübə, dialoq, kompromis, tərəfdaşlıq mədəniyyəti, qarşılıqlı sağlam siyasi münasibət və s. çox vacibdir. Ümumiyyətlə, əsl demokratik şüura və düşüncə tərzinə yiyələnmək ictimai tələbatdır. Azərbaycan cəmiyyətində yeni siyasi sistemin təşəkkülü və formalaşmasına başlıca olaraq iki amillər qrupu təsir göstərmişdir: sovet irsi və müasir Azərbaycanın sosial-siyasi inkişaf xüsusiyyətləri. Azərbaycan Respublikasının demokratik siyasi sisteminin özəyi suveren Azərbaycan dövlətidir. Bu siyasi sistem özündə eləcə də bunları əks etdirir:

1) siyasi hakimiyyətin təşkilini,

2) cəmiyyət və dövlət arasındakı münasibətlərin birləşdirilməsini,

3) hakimiyyətin təsisatlanması da daxil olmaqla, siyasi prosesləri,

4) cəmiyyətdəki siyasi fəaliyyətin vəziyyətini,

5) siyasətdə iştirakçılığın xarakterini,

6) təsisatlı mahiyyət kəsb etməyən siyasi münasibətləri.

Azərbaycan Respublikasının siyasi sistemi nəinki milli və tarixi şəraitin xüsusiyyətlərini özündə əks etdirir, həmçinin yeni siyasi sistemə inteqrasiyanın əhəmiyyətli təsirini öz üzərində hiss edir. Dünyanın aparıcı ölkələrinin siyasi sistemində olduğu kimi, Azərbaycan Respublikasının da özünəməxsus xüsusiyyətləri mövcuddur. Müstəqillik əldə etdikdən sonra siyasi sistemin struktur formalaşması prosesinin əsası qoyuldu. Hakimiyyətin bölünməsi prinsipinə uyğun olaraq Azərbaycanda müstəqil şəkildə formalaşan və fəaliyyət göstərən üç hakimiyyət qolu qərarlaşmışdır: qanunverici hakimiyyət səlahiyyətlərini həyata keçirən Milli Məclis, icra hakimiyyətini həyata keçirən prezident və məhkəmə hakimiyyəti. Dövlət hakimiyyətinin həyata keçirilməsinə formasına görə Azərbaycanda prezident üsul-idarəsi qərarlaşmışdır. Ölkəmizdə prezidentlik institutu müasir konstitusion təcrübəni, milli ənənləri, bütün dünyada, eləcə də keçmiş SSRİ respublikalarında siyasi reallıqları nəzərə almaqla daha əlverişli modeli seçməklə tətbiq edilir. Azərbaycan Respublikasında icra hakimiyyəti prezidentə mənsubdur və konstitusiya ilə ona geniş səlahiyyətlər verilmişdir. Azərbaycan Respublikası Konstitusiyasının 8-ci maddəsinə uyğun olaraq Azərbaycan dövlətinin başçısı Azərbaycan

Respublikası Prezidentidir. Prezident ölkənin daxilində və xarici münasibətlərdə dövlət təmsil edir. Prezident həmçinin dövlət müstəqilliyinin, ərazi bütövlüyünün, ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əməl edilməsinin təminatçısı kimi çıxış edir. Prezident daxili və xarici siyasətə rəhbərlik edir, ölkənin Silahlı Qüvvələrinin Ali Baş Komandanıdır. Azərbaycan respublikasının prezidenti məhkəmə hakimiyyətinin müstəqilliyinin təminatçısıdır. Prezident icra hakimiyyəti orqanlarının və vəzifəli şəxslərin məhkəmələrə müdaxiləsinin qarşısını alır, məhkəmələrin müstəqilliyini və maddi təminatı məsələlərini həll edir. 2016-ci il 26 sentyabr tarixli referendumla edilmiş dəyişikliklərə əsasəsan yaş senzi aradan qaldırılmışdır. Azərbaycan Respublikası ərazisində 10 ildən artıq daimi yaşayan, seçkilərdə iştirak etmək hüququna malik olan, o cümlədən ağır cinayətlərə görə məhkum olunmamış, başqa dövlətlər qarşısında öhdəliyi olmayan, ali təhsilli, ikili vətəndaşlığı olmayan Azərbaycan Respublikasının hər bir vətəndaşı Azərbaycan Respublikasının prezidenti seçilə bilər. 2016-ci il 26 sentyabr dəyişikliyinə əsasən, Azərbaycan Respublikasının dövlət başçısı ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə 7 il müddətinə seçilir. Səsvermədə iştirak edənlərin yarısından çoxunun səs çoxluğu ilə seçilir. Geniş səlahiyyətləri çərçivəsində Milli Məclisin razılığı ilə baş naziri təyin və azad edir, Nazirlər Kabinetini istefaya göndərir, nazirləri təyin edir, mərkəzi və yerli hakimiyyət orqanlarını yaradır, icra başçılarını təyin və azad edir, zəruri hallarda Nazirlər Kabinetinin iclaslarına rəhbərlik edir. Prezident Milli Məclisdə qanunvericilik təşəbbüsü hüququna malikdir. Bununla yanaşı, onun səlahiyyətləri bir sıra qaydalarla məhdudlaşdırılmışdır. Konstitusiya ulə Azərbaycan Respublikasının Prezidentinə Milli Məclisi buraxmaq səlahiyyəti verilməmişdir. Dövlət başçısı toxunulmazlıq hüququna malikdir, şərəf və ləyaqəti qanunla qorunur. 2016-ci il 26 sentyabr tarixində keçirilmiş referendum nəticəsində konstitusiyaya edilmiş dəyişikliklərə uyğun olaraq yeni demokratik təsisat yaradılmışdır. Yeni yaradılmış vitse-prezidentlik institutu demokratik cəmiyyətlədə başlıca təsisasatlardan biridir. Konstitusiyaya əsasən Azərbaycan Respublikasının birinci vitse-prezidenti və vitse-prezidentləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və azad edilir.Vitse-prezident vəzifəsinə seçkilərdə iştirak etmək hüququna malik olan, ali təhsilli, başqa dövlətlər qarşısında öhdəliyi olmayan Azərbaycan Respublikası vətəndaşı təyin edilir. Eyni zamanda səlahiyyət müddəti ərzində Azərbaycan Respublikasının vitse-prezidentinin şəxsiyyəti toxunulmazdır. Cinayət başında yaxalanma halları istisna olmaqla, cinayət məsuliyyətinə cəlb edilə bilməz, onun barəsində məhkəmə qaydasında inzibati tənbeh tədbirləri tətbiq edilə bilməz, axtarışa məruz qala bilməz, şəxsi müayinə oluna bilməz. Cinayət başında yaxalanarsa , bu zaman onu tutan orqan dərhal Azərbaycan Respublikasının Baş prokuroruna xəbər verməlidir. Azərbaycan Respublikasının vitse-prezidentinin toxunulmazlığına yalnız Azərbaycan Respublikasının Baş prokurorunun təqdimatına əsasən Azərbaycan Respublikasının Prezidenti tərəfindən xitam verilə bilər. Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikası Prezidentinin yuxarı icra orqanıdır. Nazirlər Kabineti Prezidentə tabedir və onun qarşısında cavabdehdir. Onun iş qaydasını prezident müəyyənləşdirir. Azərbaycan Respublikasının hakimiyyətin digər qolu qanunvericilik səlahiyyətlərini həyata keçirən Milli Məclisdir. Konstitusiyaya görə Milli Məclis nümayəndəli orqandır və Milli Məclisin deputatları parlamentə majoritar seçki sistemi, ümumi, birbaşa və bərabər seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə seçilirlər. 24 avqust 2002-ci ildə keçirilən referendum nəticəsində proporsional seçki sistemi ləğv edilmisş, növbəti parlamet seçkiləri 6 noyabr 2005-ci il majoritar seçki sistemi əsasında keçirilmişdir. Parlametdə seçkilər bütün seçki prosesini tənzimləyən vahid hüquqi sənəd – 27 may 2003-cü ildə qəbul olunmuş və 3 iyunda qüvvəyə minmiş Azərbaycan Respublikasının Seçki Məcəlləsi əsasında keçirilmişdir.Azərbaycan Respublikasının Milli Məclisi 125 deputatdan ibarətdir. Milli Məclisin hər çağırışının səlahiyyət müddəti 5 ildir. Deputatların səlahiyyət müddəti isə Milli

Məclisə çağırışın səlahiyyət müddəti ilə məhdudlaşır. Azərbaycan Respublikasının seçkilərdə iştirak etmək hüququna malik olan hər bir vətəndaşı qanunla müəyyən edilmiş qaydada Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilə bilər. İkili vətəndaşlığı olan, başqa dövlətlər qarşısında öhdəliyi olan, icra və ya məhkəmə hakimiyyəti sistemlərində qulluq edən, elmi, pedoqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, başqa ödənişli fəaliyyətlə məşğul olan cinayətlərə görə məhkum olunmuş şəxslər, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrumetmə yerlərində cəza çəkən şəxslər Azərbaycan Respublikasının Milli Məclisinə deputat seçilə bilməzlər. (maddə 85, 3) Milli Məclisin fəaliyyət və səlahiyyət statusu iki başlıca istiqamətdə reallaşır: birincisi, geniş məsələlər kompleksi üzrə ümumi qaydaları müəyyənləşdirir (maddə 94). Həmin qaydalar çərçivəsində icraedici hakimiyyət konkret idarəçilik funksiyası həyata keçirir. İkincisi, parlamentin bilavasitə həll etdiyi məsələlər. (maddə 95) Azərbaycan Respublikasının parlamentinin növbədənkənar sessiyaları Milli Məclisin sədri, Azərbaycan Respublikasının Prezidentinin və ya Azərbaycan Respublikasının Milli Məclisinin 42 deputatının tələbi əsasında çağırıla bilər.Azərbaycan Respublikasının Milli Məclisində qanunvericilik təşəbbüsü hüququ Milli Məclisin deputatlarına, Azərbaycan Respublikasının Prezidentinə, Ali Məhkəməyə, Respublika Prokurorluğuna və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə mənsubdur. Azərbaycan Respublikasının siyasi siteminin struktur formalaşmasında məhkəmə hakimiyyəti də əhəmiyyətli yer tutur. Məhkəmə hakimiyyəti insan və vətəndaş hüquq və azadlıqlarını müdafiə edən hüquq qaydasını, cinayət və digər hüquqpozmalardan mühafizə edən dövlət orqanlarının fəaaaliyyətinin hüquqi çərçivəsindən kənara çıxmasına nəzarət edən dövlət hakimiyyətinin bir qoludur. Məhkəmə hakimiyyətini ədalətli mühakimə vasitəsilə yalnız məhkəmələr həyata keçirir. Məhkəmə haimiyyətini Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Ali Məhkəmə, Azərbaycan Respublikasının appelyasiya məhkəmələri, ümumi və digər ixtisaslaşdırılmış məhkəmələr həyata keçirir. Prezidentin təqdimatına əsasən Milli Məclis tərəfindən təyin edilən doqquz hakimdən ibarət Konstitusiya Məhkəməsi ən yuxarı məhkəmə orqanıdır və əsas vəzifəsi Konstitusiyanın aliliyini təmin etməyə yönəlmişdir. Azərbaycan Respublikasının Ali Məhkəməsi ümumi və ixtisaslaşdırılmış məhkəmələrin icraatına aid edilən mülki, cinayət və digər işlər üzrə ali məhkəmə orqanıdır. Ali Məhkəmənin hakimlərini Prezidentinin təqdimatı ilə Milli Məclis təyin edir. Appelyasiya məhkəmələrin hakimlərini də prezidentin təqdimatı ilə Milli Məclis təyin edir. Hakimlər müstəqildir, yalnız Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına tabedirlər və səlahiyyətləri müddətində dəyişilməzdirlər. hakimlər öz razılığı olmadan başqa vəzifəyə dəyişdirilə bilməz. Hakimlər işlərə qərəzsiz, ədalətlə, tərəflərin hüquq bərabərliyinə, faktlara əsasən və qanuna müvafiq baxmalıdırlar. Məhkəmənin qəbul etdiyi qərarlar dövlətin adından çıxarılır və onların icrası məcburidir. Demokratik idarəçiliyə keçid istiqamətində ictimai münaibətlərin bütün sistemin demokratikləşdirilməsi xüsusən vacibdir, çünki məhz dövlətimizin gələcəyi bu prosesin ölkədə necə getməsindən asılıdır. Ölkə artıq ilk suveren konstitusiyasını qəbul etmiş, dünyanın azad, müstəqil dövlətləri arasında özünəməxsus yer tutmağa başlamışdır. Cəmiyyətdə bütün sahələr üzrə plüralizim meyilləri, o cümlədən də, siyasi plüralizm meyilləri inkişaf edir. Plüralizm mövqelərin, baxışların, fikirlərin və insanın daxili aləminin müxtəlif olmasıdır, başqa sözlə desək, daimi olaraq insanın alternativ seçim imkanının olması deməkdir. Azərbaycan Respublikasının demokratikləşməsi prosesində dövlət siyasətinə çoxpartiyalılıq, müxtəlif ictimai birliklərin, siyasi hərəkatların formalaşması xüsusiyyəti xasdır. Demokratikləşmənin ən zəruri elementi kimi onun əsas siyasi institutlarının və demokratik prinsiplərinin qurulmasıdır. Demokratiyanın vacib prinsipi kimi çoxpartiyalılıq çıxış edir, bununla yanaşı həm də cəmiyyətdə mövcud olan sosial qrupların öz aralarında apardığı rəqabətin də göstəricisidir. Siyasi sistemi təşkil edən siyasi təsisatlar arasında siyasi partiyalar əhəmiyyətli

yer tutur. Partiyaları ictimai təşkilatlardan fərqləndirən səciyyəvi cəhət hakimiyyət uğrunda mübarizə aparmaqdır və ya hakimiyyətə təsir göstərməkdir. Siyasi partiyalar, birincisi, yüksək dərəcədə təşkilatlanmağa qadirdir, ikincisi, öz məqsədlərini hakimiyyət uğrunda mübarizə yolu ilə reallaşdırmağa cəhd edir. Azərbaycan Respublikasının demokratik siyasi sisteminin formalaşmasının əhəmiyyətli istiqamətlərindən biri məhz partiyalaşma prosesinin sürətli və əhatəli təzahürüdür, siyasi partiyaların nəinki sayca xeyli artmasıdır, eləcə də partiya sistemlərinin, bloklarının təşəkkülü və inkişafıdır. Yeni siyasi sistemin struktur formalaşmasına uyğun olaraq ictimai birliklər haqqında qanunvericiliyin əsasını ölkənin əsas qanunu, "Qeyri-hökumət təşkilatları haqqında qanun" və "Siyasi partiyalar haqqında qanun" və digər normativ aktlar təşkil edir. Partiyalaşma mərhələsinin tarixi baxımdan bölgüsünü belə göstərmək olar:

1.Hazırlıq mərhələsi (1988-1990);

2 Siyasipartiyaların yaranma mərhələsi (1991-1992);

3 Azərbaycan Respublikasında həqiqi çoxpartiyalılığın qurulması (1993-1995);

4 Siyasi partiyaların bloklaşmaya və birgəiştiraka meyilliliyi ilə səciyyələnən müasir dövr (1995-ci ildən bu günə qədər).

Birinci mərhələ ölkədə mövcud rejimə qarşı milli-azadlıq hərəkatının başlanması ilə xarakterizə olunur. İctimai-siyasi hərəkat mahiyyətcə Azərbaycan vətəndaşının şüurunun keyfiyyətcə yeniləşməsi və onda yeni siyasi dəyərlər olan azadlıq, demokratiya müstəqil dövlətçilik, humanizm və bir sıra başqa idealların dərin kök salması demək idi. Partiyalaşması prosesinin ikinci mərhələsində AXC daxilində ideoloji və əqidə baxımından fərqli qruplar yaranmağa başladı və nəticədə bu qruplar ayrılaraq siyasi partiya halında formalaşmağa başladılar. "Müsavat" , "MHP" və s. bu kimi partiyaları misal göstərmək olar. Eyni zamanda həmçinin, AXC-yə müxalif olan partiyalar da məhz bu dövrdən başlayaraq yarandı.Üçüncü mərhələdə isə, Azərbaycanda partiyalaşma prosesi siyasi həyata daha güclü təsir göstərməyə başladı. Partiyaların sayı rəsmi olaraq 20 oldu (Hal hazırda 50-yə yaxın partiya mövcuddur). Demoktatik idarəçiliyi dəstəkləyən əsas partiyalarda olan Yeni Azərbaycan Partiyası məhz bu mərhələdə yaranmışdır.Bu partiya 21 noyabr 1992-ci ildə təsis edilərək, həmin ilin 18 dekabrında Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır. Partiyanın nizamnaməsində qeyd edilir ki, YAP-ın əsas məqsədi – "Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi və müasir beynəlxalq münasibətlər sistemində layiqli yer tutması, demokratik, hüquqi, dünyəvi dövlətin qurulması, sabit və social yönümlü iqtisadiyyatın yaradılması, irqdən, milliyətindən, sosial mənşəyindən, dilindən və dinindən asılı olmayaraq şəxsiyyətin hüquq və azadlıqlarının hərtərəfli və etibarlı müdafiəsinin təmin edilməsi, qanunçuluq, möhkəm əmin-amanlıq, ictimai həmrəylik və firəvan həyat üzərində qurulmuş vətəndaş cəmiyyətinin forlamalaşdırılması və insanların müstəqil dövlətçilik ətrafında birləşdirilməsindən ibarətdir". Dördüncü mərhələnin isə, əsas xarakterik cəhətini o təşkil edir ki, artıq siyasi partiyalar sərbəst şəkildə demokratik prosedurlardan istifadə edərək , siyasi hakimiyyət uğrunda leqal mübarizəyə başladılar. İstər Milli Məclisə keçirilən seçkiləri, istərsə də sonrakı tarixi mərhələlərdə prezidentlik kürsüsünə və bələdiyyə orqanlarına keçiriliən seçkiləri buna misal göstərmək olar.Bu hakimiyyət orqanlarına keçirilən seçkilərin əsas xarakterik cəhətləri ondan ibarətdir ki, müxtəlif səpgili siyasi partiyalar hakimiyyətə gəlmək üçün həm ayrılıqda, həm də blok və ittifaqlarda geniş şəkildə iştirak etmişlər. Yeni Azərbaycan Partiyasının 1999-cu ilin dekabr ayında keçirilən birinci qurultayı onun inkişaf imkanlarının və perspektivlərinin, yüksək intellectual potensiallığının sarsılmaz birliyinin nümayişinə çevrilmişdir. Yeni Azərbaycan Partiyasının birinci qurultayı öz əhəmiyyətinə,qəbul etdiyi qərarların müasirliyi və əhatə dairasinə görə ölkənin siyasi həyatında tarixi hadisəyə çevrildi. Forumda Heydər Əliyevin proqram nitqi partiyanın gələcək strategiyasının müəyyənləşdirilməsi ilə yanaşı onun praktikada həyata keçirilməsi üçün konkret

vəzifələrin göstərilməsi baxımından zirvə nöqtəsi kimi qurultay iştirakçılarının yaddaşlarına həkk olundu. Bunun nəticəsi olaraq qurultaydan sonra partiyanın sıralarına 30 mindən çox üzv qəbul edilmişdir. Müasir dövrdə bu partiyanın fəaliyyət istiqamətinin əsasını demokratiyanın inkişafı, insan hüquq və azadlıqlarının daha etibarlı şəkildə qorunmasına fəal kömək etmək təşkil edir. Partiya çalışır ki, siyasi mənsubiyyətindən asılı olmayaraq hər bir Azərbaycan vətəndaşı Konstitusiya hüquqları çərçivəsində rahat yaşasın. Kütləvi ictimai təşkilatlar - siyasi yaxud digər məqsədlər uğrunda mübarizə aparan və qəti müəyyən edilmiş üzvlüyə malik olmayan birlikər hesab olunur. Belə təşkilatlarda üzvlüyün olmaması ictimai hərəkatları digər birliklərdə fərqləndirir. Cəmiyyətin demokratik siyasi sistemində həmkarlar ittifaqları da böyük rol oynayır. Həmkarlar ittifaqları qəti müəyyən üzvlüyə malikdir. Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq bütün ictimai təşkilatlar və kütləvi hərəkatlar siyasi sistemdə qanun çərçivəsində fəaliyyət göstərməlidir. Demokratik siyasi sistemə keçid qarşılqlı əlaqədə olan üç məsələnin yerinə yetirilməsinin başa çatması hesab olunur:

1) Azad ümumi seçkilər nəticəsində hakimiyyətə yeni hökumətin gəlməsi;
2) Bu hökumətinin öz kursunu həyata keçirmək üçün tam imkana malik olması;
3) Hakimiyyətin əsl bölgüsünün mövcudluğu .

Hüquqi dövlət quruculuğu sahəsində Azərbaycan Prezidenti İlham Əliyevin fəaliyyəti bu sahədə yeni mərhələdir.Tarixi varisliyə əsaslanan bu dövlət quruculuğu aşağıdakıları nəzərdə tutur :

1) Sabitlik və inkişaf ;
2) Qarabağın işğaldan azadedilməsi;
3) işsizliyin ləğvi;
4) insanlara layiqli həyat səviyyəsinin təmin edilməsi;
5) neft gəlirlərinin ümummilli tərəqqi işinə yönəldilməsi;
6) etibarlı sosial müdafiə;
7) güclü dövlət.

İlham Əliyevi " yeni dövrün siyasətçisi" kimi səciyyələndirən Ramiz Mehdiyev hüquqi dövlət və vətəndaş cəmiyyətinin indiki inkişaf mərhələsində Azərbaycanın siyasi məkanında transformasiyaların baş verdiyini göstərir. Azərbaycanda dövlətin və cəmiyyətin mərhələli, ardıcıl tədrici demokratikləşməsi baş vermiş, qanunun alililiyinin qorunması güclənmiş hakimiyyətin müstəsna demokratikləşməsinə kütləvi şüurun demokratikləşməsi cəhd edilmişdir. Prezident İlham Əliyevin ən ali və mühüm demokratik keyfiyyətlərindən biri də məhz onun idarəçilikdə daim sosial ədalət, düzgünlük və humanist prinsiplərə istinad etməsidir. Yüksək daxili demokratizmi, hər kəsə örnək olacaq vətəndaşlıq mənsubiyyəti ilə yeni mərhələdə insasni dəyər və azadlıqlara sadiqlik nümayiş edtdirən prezident İlham Əliyev Azərbaycanın perspektiv inkişaf prioritetlərini düzgün müəyyənləşdirərək Avroatlantik məkana inteqrasiya, sivil Qərb dəyərlərinin cəmiyyətdə tam mənimsənilməsi naminə ardıcıl fəaliyyət göstərir. İlham əliyevin həyata keçirdiyi siyasətin məqsədyönlülüyü, ardıcıllığı, obyektiv gerçəkliyə adekvatlığı, bu siyasətin ölkənin milli mənafelərini əks etdirməsi respublikamızın demokratik imicini daha da gücləndirir. Dövlət başçısı Azərbaycanın sosial-iqtisadi inkişafına paralel gedən demokratikləşmə proseslərini bir-birindən təcrid olunmuş şəkildə götürmədən hər iki xətti Azərbaycanın gələcək yüksəlişinin vahid istinad nöqtəsi kimi əsaslandırmışdır. Azərbaycan prezidentinin bu barədə irəli sürdüyü fikirlər təkcə Azərbaycanın yox, ümumilikdə, demokratiya yoluna yenicə qədəm qoymuş bütün müstəqil ölkələrin gələcək inkişafının təməl prinsipi kimi tətbiq edilə bilər.

AzərbaycanRespublikasının müstəqilliyini bərpa etməsi uzun və çətin bir proses olmuşdur. SSRİ- nin süqut etməsindən sonra Azərbaycan Respublikasının öz müstəqilliyini yenidən əldə

etməsi mümkün olsa da, 1991-1993-cü illərdə hakimiyyətdə olan liderlərin qeyri-konstruktiv mövqeden çıxış etməsi, Moskavada asılı olaraq idarəetmənin həyata keçirilməsi müstəqilliyin ilk illərində Azərbaycan Respublikasında demokratiyanın təmin olunmasında ciddi problemlərlə qarşı-qarşıya qoymuşdur. Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra Azərbaycan Respublikasının idarəetməsində çoxsaylı islahatlar həyata keçirilmişdir. Heydər Əliyevin əsas götürdüyü milli siyasətin əsas xarakteri xüsusiyyətləri Azərbaycanda daxili inkişafın təkamül yolunun seçilməsi, bütün sahələrdə - hüquqi dövlət quruculuğu, bazaar iqtisadiyyatına, çoxmülkiyyətçiliyə və azad rəqabətə keçid, demokratiya və siyasi plüralizmin yaradılmasında inqilabi yanaşmadan qaçması və təkamül prinsipini tətbiq etməsi idi. Buna uyğun olaraq 1995-ci il noyabrın 12-də demokratiyanın əsas prinsiplərini özündə əks etdirən Müstəqil Azərbaycan Respublikasının Konstitusiyası qəbul olunmuşdur.

Konstitusiya özündə ümumbəşəri dəyərləri təsbit etmişdir. Insan və vətəndaşların hüquq və azadlıqlarının tanınması, riayət olunması və müdafiəsi dövlətin başlıca vəzifəsi olmuşdur. Məhz Heydər Əliyevin apardığı siyasət nəticəsidə Azərbaycan xalqının rifahı yüksəlmiş, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsinin qayğısına qalınmışdır. Ölkədə demokratik qaydalar güclənmiş, bütün sahələrdə demokratiyanın inkişafına şərait yaranmışdır. Xarici və daxili siyasətin uğurlu şəkildə həyata keçirilməsinin nəticəsi idi ki, Azərbaycan demokratik ölkə kimi beynəlxalq təşkilatlarda təmsil olunmağa başlamış, eləcə də bir sıra Avropa ölkələriilə əməkdaşlıq yaratmışdır. 2002-ci il , 2004-cü il, 2016-ci il Konstitusiyaya edilmiş dəyişikliklər əsasında ölkədə demokratiyanın prinsipləri daha da inkişaf etmişdi.

ƏDƏBİYYAT

1. İsmayılov İ. Azərbaycanda demokratiya təsisatlarının formalaşma xüsusiyyətləri. Bakı "Azərbaycan nəşriyyatı" 2004, 192 s.
2. R.Mehdiyeb Demokratiya yolunda: irs və müstəqillik fəlsəfəsi. Bakı "Şərq-Qırb", 2008, 792 s.
3. Məmmədob Ş. Heydər Əliyevin dövlətçilik və hüquq təlimi. Bakı "Elm və təhsil", 2-14, 77 s.
4. İbadov N, Şirinov A. Politologiya (dərs vəsaiti), Bakı "Elm nışriyyatı, 2013, 248 s.
5. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 1995

AZƏRBAYCAN RESPUBLIKASINDA DEMOKRATİYANIN TƏMİN OLUNMASINDA DÖVLƏT SİYASƏTİ

XÜLASƏ

"Demokratiya" anlayışı bəşəriyyətə iki min beş yüz ildən artıq məlumdur. Demokratikləşmə prosesində cəmiyyətin bütün sahələrində - siyasi, iqtisadi, sosial, mədəni-mənəvi və s. dəyişikliklərin həyata keçirilməsi zəruri əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının demokratik siyasi sisteminin özəyi suveren Azərbaycan dövlətidir. 1995-ci il noyabrın 12-də demokratiyanın əsas prinsiplərini özündə əks etdirən Müstəqil Azərbaycan Respublikasının Konstitusiyası qəbul olunmuşdur. Konstitusiya özündə ümumbəşəri dəyərləri təsbit etmişdir. Insan və vətəndaşların hüquq və azadlıqlarının tanınması, riayət olunması və müdafiəsi dövlətin başlıca vəzifəsi olmuşdur.

ГОСУДАРСТВЕННАЯ ПОЛИТИКА В ОБЕСПЕЧЕНИИ ДЕМОКРАТИИ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

АННОТАЦИЯ

Понятие «демократия» известно человечеству более двух тысяч пятисот лет. В процессе демократизации во всех сферах жизни общества - политической, экономической, социальной, культурной и духовной и так далее, реализация изменений имеет важное значение. Основой демократической политической системы Азербайджанской Республики является суверенное Азербайджанское государство. 12 ноября 1995 года была принята Конституция независимой Азербайджанской Республики, которая отражает основные принципы демократии. Конституция определяет общечеловеческие ценности. Признание, соблюдение и защита прав и свобод человека и гражданина является основной обязанностью государства.

STATE POLICY IN ENSURING DEMOCRACY IN THE REPUBLIC OF AZERBAIJAN

SUMMARY

The concept of "democracy" has been known to mankind for more than two thousand five hundred years. In the process of democratization in all spheres of society - political, economic, social, cultural and spiritual, and so on, the implementation of changes is important. The basis of the democratic political system of the Republic of Azerbaijan is the sovereign state of Azerbaijan. On November 12, 1995, the Constitution of the independent Azerbaijan Republic was adopted, which reflects the basic principles of democracy. The constitution defines universal human values. Recognition, observance and protection of human and civil rights and freedoms is the main duty of the state.

KURİKULUM MODELİNDƏ DƏRS VƏ ONUN MƏRHƏLƏLƏRİ

İsayeva Fatma
BDU-nun II kurs magistrantı
fatma.isayeva.97@mail.ru

Açar sözlər: kurikulum, müasir təhsil,təhsilin strategiyası, müasir dərs, şagird, müəllim
Ключевые слова: учебная программа, современное образование, образовательная стратегия, современный урок, ученик, учитель.
Key words: curriculum, modern education, education strategy, modern lesson, student, teacher.

Fəal dərsə verilən tələblərin müəyyənləşdirilməsi didaktikanın, fənlərin tədrisi metodikasının qarşısında duran mühüm problemlərdəndir. Cəmiyyətin, elmin, mədəniyyətin inkişafının hər mərhələsində dəyişən şəraitə uyğun olaraq, gənc nəslin təlimi, tərbiyəsi qarşısında yeni vəzifələr qoyulur. Həmin vəzifələr təlim-tərbiyə prosesinin əsas təşkili forması olan dərsin nəzəri və praktik məsələlərində, təşkilində, metodikasına verilən tələblərdə də öz əksini tapır. Bu, təbii, qarşısıalınnmaz prosesdir. Cəmiyyətin artan tələbatına uyğun olaraq, yeni nəslin formalaşmasını təmin edən təhsil sistemi, təlimin təşkilinin əsas forması olan dərs də daim müasirləşməli, yeniləşməlidir .

Bu baxımdan Təhsilin inkişafı üzrə Dövlət Strategiyasında təlim prosesinin təşkilinin əsas forması olan dərsə yeni yanaşma diqqəti cəlb edir. Strategiyada göstərilir ki, son 30-40 il ərzindəki elmi-texnoloji tərəqqi, innovasiyalar və modernləşmə nəticəsində praktiki bilik və vərdişlərlə zənginləşməyən, sırf nəzəri xarakter daşıyan təhsil öz fundamental əhəmiyyətini itirməkdədir . Təhsilin məzmunun formalaşmasında akademik biliklərlə yanaşı, praktik bilik və bacarıqların, səriştənin vacibliyi önə çəkilir (2).

Kurikulumların məzmunu texnoloji irəliləyişin gətirdiyi yenilikləri nəzərə almaqla daim inkişaf etdirilir ki, bu da müxtəlif təhsil pillərində spesifik yanaşma tələb edir. Təhsilin inkişafında mühüm irəliləyişlərə nail olmuş ölkələrin təcrübəsi göstərir ki, informasiya-kommunikasiya texnologiyalarına əsaslanan, yaradıcı düşüncəni inkişaf etdirən və təhsilalanın fərdi xüsusiyyətlərini nəzərə alan müasir, fəal-interaktiv təlim metodlarından, informasiya-kommunikasiya texnologiyalarından istifadə daha yüksək nəticələr verir. Odur ki, qarşıya qoyulan məqsədlərə nail olmaq üçün davamlı olaraq mütərəqqi tədris metodlarının yaradılması və müəllimlərin səriştəsinin artırılması təhsil siyasətində mühüm yer tutur (1).

Beləliklə, strategiyada müasir dərs problemi kurikulumların inkişaf etdirilməsi, səriştəyə əsaslanan şəxsiyyətyönümlü təsilin məzmununun yaradılması innovativ təlim metodlarını tətbiq edən, bilik və bacarıqların səmərəli mənimsənilməsini təmin edən səriştəli təhsilverənin formalaşdırılması ilə sıx əlaqədə götürülür.

Kurikulum modelində dərsdə şagirdlərin maksimum dərəcədə fəallığı təmin edilir, yaradıcı surətdə düşünmənin elementləri formalaşdırılır, müasir sivilizasiyada mədəni insanı xarakterizə edən müsbət keyfiyyətlər tərbiyə edilir. Dərsin didaktik məqsədinə problemli təlimdən və tənqidi fikirləşmədən istifadə etməklə yeni materialı şagirdlərin mənimsəmələri üçün şəraitin yaradılması aiddir.

Fəal dərslərin xüsusiyyətləri: Diqqət ilk növbədə şagirdin şəxsiyyətinin formalaşmasına yönəlir. Müəllim ilk növbədə təlim idrak fəaliyyətinin əlaqələndiricisi, şagirdlərin məsləhətçisi və köməkçisi kimi çıxış edir. Müəllim və şagird arasında əməkdaşlığa, məktəblilərin dəlillərinə və fəaliyyətinə böyük diqqət yetirilir. Təlim məsələlərinin həlli prosesində bilik və bacarıqların tətbiqi dərsin bütün mərhələlərində (yeni materialın mənimsənilməsi, onun möhkəmləndirilməsi

və bilik, bacarıq səviyyəsinin yoxlanılması) əsas yer tutur (6). Nəticədə dərsin müxtəlif mərhələ və funksiyalarının birləşməsi, təlim prosesinin fəallaşmasına yönəlmiş sintez baş verir. Təlim prosesində şagirdlər arasında ünsiyyət olur, təlim fəaliyyəti cüt, qrup və kollektiv şəkildə həyata keçirilir. Müasir nəzəriyyə müxtəlif fənlərdən dərs deyən bir neçə müəllim tərəfindən keçirilən fənlərarası dərsləri istisna etmir. Təhsilin məzmunu ilə yanaşı şagirdlərin tərbiyə və inkişafında təlim metodları və təşkilati formalar da mühüm rol oynayır.

Fəal (interaktiv) dərsin 2 əsas növü var: induktiv və deduktiv tədqiqat. İnduktiv tədqiqat xüsusi biliklərdən ümumi biliklərə doğru irəliləyir, deduktiv tədqiqət isə əksinə. İnduktiv tədqiqat daha çox yeni mövzunun keçirilməsi zamanı istifadə olunur. Deduktiv tətqiqat daha çox mövzunun möhkəmləndirilməsi və dərinləşdirilməsi məqsədi ilə istifadə olunur.

Fəal dərsin mərhələləri: 1 Motivasiya 2.Tədqiqatın aparılması 3. Məlumat (İnformasiya) mübadiləsi 4. Məlumatın müzakirəsi və təşkili 5. Ümumiləşdirmə və nəticələrin çıxarılması 6. Yaradıcı tətbiqetmə 7. Qiymətləndirmə (8).

Motivasiya – hər hansı bir fəaliyyətə təhrik edən vasitədir. Fəal dərsdə motivasiya dərsin vacib komponentidir- təfəkkür prosesini hərəkətə gətirən və şagirdlərin idrak fəallığına təkan verən prosesdir.Motivasiya –psixoloji amil kimi hər hansı fəaliyyətin mexanizmini işə salan qüvvədir (7). Motivasiya qismində ortaya gətirilmiş problem və onun həlli tələbatı fəal dərsdə təfəkkür prosesini işləməyə sövq edən və şagirdlərin idrak fəallığını artıran amil kimi çıxış edir.

Motivasiya qismində istifadə edilən materialın xüsusiyyətləri cəlbedicidir, qeyri- adidir, müəmmalıdır, gözlənilməzdir, marağı və müstəqil təfəkkürü şövqləndirməyə qadirdir.

Problem həmişə çoxsaylı fərziyyələr, ehtimallar doğurur və bunları yoxlamaq üçün ilk növbədə tədqiqat sualının formalaşdırılması lazım gəlir. Çünki tədqiqat sualı yeni biliklərin kəşf olunmasında bələdçi kimi çıxış edir. Bu mərhələ şagirdləri düşünməyə, idraki fəallığa sövq etdiyindən həm də motivasiya adlandırılır. Bu prosesdə uşaq öz fikrini "Zənnimcə", "Mənə belə gəlir ki", "Mən belə hesab edirəm ki" sözlərindən istifadə etməklə ifadə edir. Motivasiyanın uğurlu alınması üçün aşağıdakı şərtlərə əməl olunması tövsiyə edilir:

1. Motivasiya üçün seçilən material qeyri-adi, maraqlı olmalıdır.
2. Fərziyyələri yoxlamaq, tədqiqat aparmaq və yaradıcılıq üçün imkan verməlidir.
3. Müəllim şagirdlərə yönəldici suallar verməli, fərziyyələri irəli sürərkən onları həvəsləndirməlidir.
4. Tədqiqat sualı təlim standartlarına əsasən müəyyənləşdirilməli və dərsin məqsədinə yönəldilməlidir. Dərsin məqsədinə və tədqiqat sualına uyğun iş üsulları seçilir (4).

Problemin həlli üzrə irəli sürülən fərziyələri təsdiq və ya təkzib edən, habelə qoyulan tədqiqat sualına cavab verməyə kömək edə biləcək faktları tapmağa imkan yaradır. Bu zaman yeni faktların öyrənilməsi və bu suallara cavabların tapılması gedişində düşünmək və yeni bilgiləri kəşf etmək üçün münasib şərait yaranır.Tədqiqatın aparılması zamanı müəllim bir sıra bilik,bacarıq və vərdişlərə malik olmalıdır: tədqiqatın aparılması üzrə metodların seçiminə, işimn qrup şəklində və digər formada təşkili və aparılmasına,tədqiqatın aparılması üçün tapşırıqların və bilik mənbələrinin seçilmasinə, iş vərəqlərinin hazırlanması.

Məlumat mübadiləsi mərhələsində iştirakçılar tədqiqatın gedişində əldə etdikləri tapıntıların, yeni informasiyanın mübadiləsini aparırlar. Qoyulmuş suala cavab tapmaq zərurəti tədqiqatın bütün iştirakçılarını bir-birinin təqdimatını fəal dinləməyə sövq edir. Təddimat bir növ yeni biliklərin dairəsini cızır və hələlik bu biliklər natamam və xaotik xarakter daşıyır.Yeni bir tələbat- həmin bilikləri qaydaya salmaq, sistemləşdirmək, müəyyən bir nəticəyə gəlmək üçün tədqiqat sualına cavab tapmaq zərurəti yaranır (6).

Məlumatın müzakirəsi və təşkili mərhələsi bütün bilik, bacarıq və vərdişlərin, təfəkkürün müxtəlif növlərinin (məntiqi, tənqidi, yaradıcı) səfərbərliyini tələb edir. Müəllim fasiltasiya

əsasında (yönləndirici, köməkçi suallardan istifadə etməklə) əldə edilmiş faktların məqsədyönlü müzakirəsinə və onların təşkilinə kömək edir İnformasiyanın təşkili bütün faktlar arasında əlaqələrin aşkara çıxarılmasına və onların sistemləşdirilməsinə yönəldilir. Nəticədə mövcud tədqiqat sualına cavabın cizgiləri aydın seçilməyə başlayır. Məlumat sxem, qrafik, cədvəl, təsnifat formasında təşkil oluna bilər (9).

Ümumiləşdirmə və nəticələrin çıxarılması mərhələsi şagirdlərə yeni bilginin kşfi yolunda son addımı atmaq:konkret nəticəyə gəlmək və ümumiləşdirməni aparır. Şagird nəinki əldə olunan bilgiləri ümumiləşdirməli, həm də gəldiyi nəticəni tədqiqat sualı ilə və irəli sürülmüş fərziyyələrlə müstəqil olaraq tutuşdurmalıdır. Dərsin kulminasiyasını isə bilikləri məhz özləri kəşf etdikləri üçün şagirdlərin duyduqları bənzərsiz sevinc və məmnuniyyət hissi təşkil edir.

Yaradıcı tətbiqetmə biliklərin mənimsənilməsinin başlıca meyarı onun yaradıcı surətdə tətbiqidir. Yaradıcı tətbiqetmə biliyi möhkəmləndirir, onun praktiki əhəmiyyətini uşağa açıb göstərir.Bu mərhələ vaxt etibarilə yalnız bir akademik dərslə məhdudlaşmaya da bilər, yəni onun həyata keçirilməsi sonrakı dərslərdə də mümkündür.

Qiymətləndirmə-istənilən prosesin təkmilləşdirilməsini təmin edən bir mexanizmdir. Qiymətləndirmə şagirdlərin təlimdəki nailiyyətlərinin dəyərləndirilməsi prosesidir. Qiymətləndirmə konkret meyarlar üzrə aparılmalıdır. Müəllim şagirdləri əvvəlcədən bu meyarlarla tanış etməlidir. Təkmilləşdirilləşmək üçün vaxtında öz qüsurlarını və öz nailiyyətlərini aşkar etmək, uğur qazanılmasına nələrin mane olduğunu və nələrin kömək etdiyini müəyyənləşdirmək vacibdir. Şagirdlərin təlim fəaliyyətini qiymətləndirmə və refleksiya prosesləri məhz bu məqsədə xidmət etməlidir (12).

Fəal təlimin mühüm xüsusiyyətlərindən biri şagirdlərin müstəqil təlim (öyrənməyi öyrənmək), müstəqil özüninkişaf vərdişlərinə yiyələnməsinə imkan yaratmaqdır. Dərs başa çatdıqdan sonra göstərilmiş fəaliyyətlərindən birini- qiymətləndirmə və ya refleksiyanı həyata keçirərkən müstəqil öyrənmə proseslərin nəzərdən keçirilməsi və bunun nəticəsində öz öyrənmə fəaliyyətinin təkmilləşdirilməsi məqsədəuyğun olardı.

Qiymətləndirmə müəllimin deyil, şagirdlərin maraqlarına xidmət etməlidir. Özünüqiymətləndirmə vərdişlərini formalaşdırmaq məqsədilə bütün sinfin və müəllimin qarşısında şagirdlərin özlərinə qiymətverməsi təcrübəsindən,habelə qarşılıqlı qiymətləndirmədən istifadə etmək olar. Müəllim şagirdləri öncədən bu meyarlarla tanış edə və ya qiymət verməklə onu əsaslandıra bilər .

Şagirdlərin işinin səmərəlilik dərəcəsi həm kəmiyyət və həm də keyfiyyətcə qiymətləndirilə bilər. Bu, müxtəlif üsullarla və müxtəlif formada həyata keçirilir. Lakin müəllim yadda saxlamalıdır ki, qiymətləndirmə ilk növbədə şagird üçün özünüqiymətləndirmə və özününəzarət vasitəsi rolunu oynamalıdır.

Refleksiya- artıq başa çatmış prosesin şüurda inikasıdır. Təlim prosesinin refleksiyası biliklərin mənimsənilməsinin bütün mərhələlərini təhlil etməyə və dərindən başa düşməyə imkan verən başlıca mexanizmlərdən biridir.Dərsin məzmunundan və məqsədindən asılı olmayaraq hər bir müəllim bütün şagirdlərdə refleksiyaya nail olmalıdır (8).

Müəllimin səriştəliliyi özünü, ilk növbədə yaradıcı düşüncəni inkişaf etdirən və təhsilalanın fərdi xüsusiyyətlərini nəzərə alan informasiya –kommunikasiya texnologiyalarından, fəal/interaktiv təlim metodlarından səmərəli istifadə də büruzə verir. Səriştəyə əsaslanan təhsil yeni biliyin əvvəlki bilik və bacarıqlar zəmində qavranılmasını, praktik səciyyəli çalışmalar vasitəsilə tətbiqini ön plana çəkir. Yeni mövzu şagirdlər üçün "göydəndüşmə" olmamalı, əvvəl qazanılmış müvafiq biliklərlə əlaqəli şəkildə təqdim edilməlidir . Yeni mövzu ilə bağlı əvvəlki biliklərə, o cümlədən şəxsi həyat təcrübəsinə istinad edilməsi şagirdlərin müstəqillik və fəallığının, öyrənmə prosesinin səmərəliliyinin artırılmasına səbəb olur.

Bu məqsədlə təlim prosesində Blum taksonomiyası üzrə praktik səciyyəli sual və tapşırıqlardan geniş istifadə məqsədəuyğundur. Bilik, anlama, tətbiqetmə, təhlil, sintez və dəyərləndirmə kimi dərketmə proseslərinə əsaslanmaqla bilikyönümlü, fənyönümlü təlimdən bacarıqların praktik fəaliyyətdə tətbiqinə,səriştəlilik aşılanmasına keçmək mümkündür.

Ə.Abbasov haqlı olaraq yazır ki, müasir dərsin mühüm keyfiyyətlərindən biri onun yeni düşüncə, yeni pedaqoji təfəkkürün məhsulu kimi meydana çıxmasıdır. Bu isə o deməkdir ki, dərsə quru,şablonçuluqla yanaşmaq müasir ölçülərə sığmır. Onu sadəcə inzibati strateji struktur kimiqəbul etmək olmaz . Müasir dərs həm də bəzi hallarda konkret vaxt çərçivəsini,struktur vahidliyini qırıb-dağıdır. Ona da demokratik yanaşmağı, yaradıcı bir proses kimi müraciət olunmasını tələb edir . Dərs idarə olunan bir proses olduğundan onun məntiqi struktur cəhətdən bütövlüyü əsas şərtlərdən biri kimi yüksək dəyərləndirilir (9).

Müasir dərsin müxtəlif parametrləri (məsələn: dərsin təhsil,tərbiyə inkişaf məqsədlərinin, vəzifələrin müəyyənləşdirilməsi, dərsdə qiymətləndirmə fəaliyyətinin təşkili, müxtəlif dərs tiplərinin planlaşdırılması və s.) ilə bağlı tədqiqatların aparılmasına, müzakirələrin keçirilməsinə ehtiyac vardır.Əgər həmin araşdırmalar aparılarsa, bu gün müasir dərsi fenomenal bir təhsil hadisəsi kimi daha da irəlilətmək mümkün olar (5).

Təlimdə yeni yanaşma əzbərləmə və yaddaş dərslərindən, şagirdin bərpaedici fəaliyyətinə əsaslanan dərslərdən daha fəal, yaradıcı formalara- müzakirə,araşdırma, problemlərin həlli, təhlil, tətbiq, ümumiləşdirmə dərslərinə keçməyi, səriştəli, yaradıcı şəxsiyyət formalaşdırmaq üçün müəllimdən yüksək peşəkarlıq, pedaqoji məharət, yeni texnologiyalardan, metodlardan istifadə bacarığı tələb edir.

Məktəb təcrübəsinin öyrənilməsi göstərir ki, bir çox qabaqcıl müəllimlərimiz yeni təlim texnologiyalarının- fəal/ interaktiv metodların, informasiya- kommunukasiya texnologiyalarının tətbiqi sahəsində təcrübə toplamış, elektron lövhə,kompyuter və internetdən dərs prosesində məqsədyönlü istifadə etməklə gənc nəslin təlim-tərbiyəsində ciddi uğurlara imza atmışlar. Bununla bərabər, dərs prosesində yeni təlim texnologiyalarından istifadə sahəsində bəzi çatışmazlıqlar da özünü göstərməkdədir:

1. Yeni təlim texnologiyalarından sistemsiz, ara sıra, yalnız açıq dərslərdə istifadə olunur.
2. Təlim prosesində şagirdlərin zahiri fəallığı, yaradıcı iş görüntüsü yaradılır.Bu məqsədlə veriləcək suallar və cavablar şagirdlərə əvvəlcədən (dərsə qədər) aydınlaşdırılır.
3. Müəllimlərin çüəyyən qismi çotivasiya yaratmaqda, tədqiqat sualını düzgün müəyyənkləşdirməklə çətinlik çəkir.
4. Kiçik qruplar üzrə işin təşkilində səhvlərə yol verilir. Qruplara tapşırığın icrası üçün dəqiq vaxt ayrılmır, iş vərəqlərindəki, sual və tapşırıqlar problemli, düşündürücü səciyyə daşımır.
5. Qrupların təqdimatının müəllimin şərhi ilə əvəz edilməsi də arzuedilməz haldır (10).

Böyük psixoloq L.Viqotskiyə görə, sadəcə olaraq tədris etmək üçün çox bilməyə ehtiyac yoxdur. Əksinə, şagirdin müstəqil fəaliyyətini istiqamətləndirmək üçün müəllim dəfələrlə çox bilməlidir. Ən kiçik nailiyyət belə şagirdə böyük sevinc gətirir. Dərsdə şagird hər dəfə ilk kəşf edən rolunda olmalıdır.

Fəal təlim şagirdlərin idrak fəaliyyətinə əsaslanan və təhsil prosesinin digər iştirakçıları ilə əməkdaşlıq şəraitində həyata keçirilən təlimi nəzərdə tutur. Şagirdlərin parta arxasında oturaraq kitab oxuması, vərəqlərini doldurması, müəllimi dinləməsilə yanaşı, eyni zamanda kitabxanada, kompüterdə qrup və ya fərdi şəkildə fəaliyyət göstərməsi onun əsas əlamətlərindən hesab edilir. Fəal təlim müasir şəraitdə pedaqoji prosesin qurulmasına yeni yanaşmadır. Belə yanaşma tərzində təlim şagirdlərin təkcə yaddaşının yeni elmi biliklərlə zənginləşdirilməsinə deyil, həm də təfəkkürünün inkişaf etdirilməsinə, ən mühüm bacarıq və vərdişlərin əldə olunmasına

yönəldilir. Bu zaman şagirdlər açıq sual vermək, problemləri araşdırmaq, tədqiqat aparmaq və müzakirə etmək imkanı qazanırlar. Onlar təlim materiallarının mənimsənilməsi prosesində fakt və hadisələrin səbəb-nəticə əlaqələrini, qanunauyğunluqlarını aşkar etməyi, nəticə çıxarmağı, ümumiləşdirmələr aparmağı öyrənirlər. Beləliklə, uşaqlar həm tədris, həm də sosial xarakterli problemlərin müstəqil həllinə cəlb olunur, müxtəlif informasiya mənbələrindən istifadə edir, sistematik olaraq müstəqil şəkildə bilik ehtiyatını artırırlar. Təlim prosesi uşaqda fəallığı, məntiqi düşünməyi, ətrafdakı şeylərə və hadisələrə tənqidi yanaşmağı, müstəqil düşünməyi, müstəqil bilik almağı və fərdi inkişaf etmək bacarığını tərbiyə etməlidir. Yəni şagirdin məntiqi, tənqidi və yaradıcı təfəkkürü inkişaf etdirilməlidir. Bu tələbləri nəzərə alaraq elə təlim metodlarından istifadə olunmalıdır ki, onlar özlərində aktiv, yaradıcı düşünmə qabiliyyətini və yeni biliklərə sərbəst yiyələnməyi aşılama yollarını birləşdirmiş olsun. Bu cəhətdən interaktiv təlim metodları çox səmərəlidir. İnteraktiv təlim metodları, adından göründüyü kimi, şagirdləri fəallaşdırır, ənənəvi metodda olduğu kimi, şagird biliyi hazır şəkildə deyil, bilavasitə öz subyektiv mülahizələri əsasında mənimsəyir. Burada müəllimin əsas vəzifəsi şagirdlərə yol göstərməkdir.

Fəal dərs barədə qeyd edilən fikirlər ənənəvi dərs metodlarını kölgədə qoymaq məqsədi daşımır. Böyük bir nəsil məhz ənənəvi metodlarla formalaşmış, cəmiyyətin inkişafında xüsusi rol oynamışdır. Sadəcə həyatın elə məqamları, elə dövrü var ki, hər bir cəmiyyət özünə lazım olan şəxsin formalaşmasını diktə edir. Bu gün bazar iqtisadiyyatına keçid, demokratik cəmiyyətin qurulması hadisələri olduğu kimi qəbul etməyi deyil, ona tənqidi yanaşmağı, öz münasibətini bildirməyi bacaran sərbəst düşüncəli, azad fikirli şəxsiyyətin yetişdirilməsini tələb edir.Müəllim çalışmalıdır ki, şagirdləri düzgün istiqamətləndirsin .Dərsi fəal şəkildə qurmağı bacarmalı, fəal dərs metodlarını bilməli və onların tətbiqi mexanizmini düzgün şəkildə icra etməyi bacarmalıdır.

Dərsə belə bir tərif verilir: müəllimin rəhbərliyi altında eyniyaşlı şagirdlərlə sabit cədvəl əsasında təşkil edilən, onları bilik, bacarıq və vərdişlərlə silahlandıran və tərbiyə edən məcburi məşğələ formasına dərs deyilir.Dərsin təkmilləşdirilməsi, şagirdlərdə axtarıcılıq, tapmaq, anlamaq, ümumiləşdirmələr etmək üçün düşünməyi, təfəkkürfəaliyyətinə geniş meydan verməyi tələb edir (11).

Kurikulum modelində dərsin problemli təşkili şagirdlərin zehni fəaliyyətini gücləndirir, onlarda axtarış tələbatı və müstəqil işləmək meyli və bacarıqlarının yaradılmasını təmin edir. Kompüterlərdən, displeylərdən istifadə, təlimin həyatla əlaqəsinin daha da möhkəmləndirilməsi, şagirdlərin fasiləsiz təhsilinə üstünlüyün verilməsi, elm və texnikanın nailiyyətlərindən istifadə olunması və s. dərsin təkmilləşdirilməsinin mühüm amilləridir. Bunların sayəsində şagirdlərin hərtərəfli fəallığı təmin edilir, onların təfəkkürü, idrak qabiliyyətləri inkişaf etdirilir (12).

ƏDƏBİYYAT

1. Həsənli Bilal.Təhsilin inkişafı strategiyası və müasir dərsin təşkili problemləri . Kurikulum Jurnalı 2014, №3
2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası// Azərbaycan məktəbi, 2013, № 5
3. Azərbaycan Respublikasında ümumi təhsilin milli kurikulumu. Bakı, 2006
4. Veysova Z.Fəal / İnteraktiv təlim müəllimlər üçün vəsait.2007.
5. http://www.muallim.eduşarxiv/2014/01/35.htm.
6. Mehrabov A. Müasir dərs: onun təşkilinə və gedişinə qoyulan tələblər,Kurikulum,2013, № 3
7. Mehrabov A. və b. Pedaqoji texnologiyalar. Bakı: Müntərcim,2006
8. “Kurikulum” jurnalı. № 4,2008
9. Kurikulum (elmi –metodiki jurnal) cild 9, № 4(36) .2016

10. Ə.M.Abbasov, İ.A.Cavadov, B.O.İbadova, K.R.Quliyeva, İ.H.Sultanova, S.E.Cavadova Kurikulum bələdçisi (izahlar və tətbiqlər) Bakı, "Elm və təhsil", 2019, 320 səh
11. Əhmədov A.Ə. Ümumi təhsil sistemində kurikulum islahatı: real nəticələrə doğru // "Kurikulum" jurnalı, 2008, №1, səh.21-30
12. İbadova B.O. Müasir dərs necə olmalıdır?, Yeni təhsil proqramlarının (kurikulumların) tətbiqi məsələləri, (kitab) Bakı, 2014
13. Həsənov i.,Rüstəmova A.,Babayeva N. Kurikulum Müəllimlərin işə qəbulu (MİQ),Sertifikasiya

KURİKULUM MODELİNDƏ DƏRS VƏ ONUN MƏRHƏLƏLƏRİ

XÜLASƏ

Məqalədə kurikulum modeli dərsi və onun mərhələləri ilə bağlı bir sıra məsələlər müzakirə olunur. Kurikulum modelində dərs şagirdlərə fərqli bir yanaşma tələb edir. Dərs müasir tələblərə cavab verməlidir.

УРОКИ ПО МОДЕЛИ УЧЕБНОЙ ПРОГРАММЫ И ЕЕ ЭТАПЫ

АННОТАЦИЯ

В статье рассматривается ряд вопросов, связанных с модельной учебной программой урока и ее этапами. В модели учебного плана урок требует другого подхода к ученикам. Курс должен соответствовать современным требованиям.

LESSONS IN THE CURRICCULUM MODEL AND IT'S STAGES

SUMMARY

The article addresses a number of issues related to the curriculum model lesson and its stages. In the curriculum model, the lesson requires a different approach to students. The course must meet modern requirements.

YUMŞAQ GÜC ANLAYIŞINA BEYNƏLXALQ SFERADA NƏZƏRI YANAŞMASI

dosent Əfəndiyeva Xatirə Bəxtiyar qızı
BDU-nun Politoligiya və sosiologiya kafedrası
Leyla Nağıyeva Rafail qızı,
BDU-nun II kurs magistrantı
naqhiyeva95brt.hr.council@qmail.com

Açar sözlər: beynəlxalq münasibətlər, nəzəriyyə, güc, xarici siyasət, yumuşaq güc , dövlət, beynəlxalq aktor, sərt güc, təhlil, siyasət
Ключевые слова: международные отношения, теория, сила, внешняя политика, мягкая сила, государство, международный субъект, жесткая сила, анализ, политика.
Keywords: international relations, theory, power, foreign policy, soft power, state, international actor, hard power, analysis, politics.

"Soyuq müharibə"nin başa çatmasından sonra beynəlxalq sistemin xarakteri dəyişmiş, aktorların sayı artmış, yeni bir sistem formalaşmışdır. Yeni sistemə uyğun olaraq ictimai diplomatiya ön plana çəkilmiş və xarici siyasətin həyata keçirilməsi vasitələrindən birinə çevrilmişdir. İctimai diplomatiya ölkənin yumşaq gücünü dəstəkləmək üçün bir vasitə kimi uzun bir tarixə malikdir və Soyuq müharibədə qalib gəlmək üçün diplomatiyanın bu formasından istifadə çox vacib idi. Artıq sadəcə dövlətlərin deyil, həm də qeyri-hökumət təşkilatlarının və medianın milli və beynəlxalq sahədə daha təsirli olduğu bir sistem fəaliyyət gösdərir.

İctimai diplomatiya (public diplomacy) termini ilk dəfə 1965-ci ildə Amerika diplomatı Edmund Qallion tərəfindən istifadə olunmuşdur. Edmund Gullion Taft Universitetinin Fletçer Hüquq və Diplomatiya Məktəbinin dekanı olmuşdur. Diplomat həmçinin həmin məktəbdə "İctimai Diplomatiya Mərkəzinin" əsasını qoymuşdur. Müəllifin qeydinə əsasən, ictimai diplomatiya xarici siyasətin həyata keçirilməsində ictimai mövqeyin təsiri ilə bağlıdır. İctimai diplomatiyanın əsasında informasiya və ideyaların axını durur.

İctimai diplomatiya bir sıra xarakterik əlamətlərinə görə ənənəvi diplomatiyadan fərqlənir. Belə ki, o ənənəvi diplomatiyadan fərqli olaraq, bir sıra qeyri-hökumət strukturlarını əhatə edir.İctimai diplomatiyanı reallaşdıran qeyri-hökumət aktorlarına : siyasi partiyalar , nüfuzlu şəxslər, həmkarlar ittifaqları, kütləvi informasiya vasitələri və s. daxildir. Ənənəvi diplomatiyada danışıqların gizli formada həyata keçirilməsi prinsipi əsas xarakterik əlamətlərdən biridir. Danışıqların bu formada aparılmasının üstünlüyü tərəflərin fikirləşmək üçün kifayət qədər vaxtlarının olmasıdır. İctimai diplomatiyanın mahiyyəti dövlətin mədəniyyətinin ixracına təkan verən, öz mövqeyini nəşriyyat və KİV-lər vasitəsilə daha dolğun və geniş miqyasa çatdırmasına, həmçinin hədəf dövlətlə qarşılıqlı fəaliyyətin təmin olunmasına əsaslanır. İctimai diplomatiyanın formalaşması yumşaq gücün istifadəsi üçün zəmin yaratdı. Mədəniyyət, daxili siyasət, xarici siyasət və iqtisadiyyat kimi yumşaq güc elementlərindən istifadə edərək digər ölkələrin, xalqların sevgisini qazanmaq üçün həyata keçirilən fəaliyyət ictimai diplomatiyanın ən vacib elementlərinə çevrilmişdir.

İctimai diplomatiya vasitəsilə Dağlıq Qarabağ münaqişəsinin həlli olunması həm real həm də ütopik olaraq qeyd oluna bilər. Ənənvi diplomatiyanın bu münaqişədə rolunun səmərəsizliyini 2016-cı il Aprel döyüşləri fonunda aydın şəkildə görmək mümkündür. İctimai diplomatiyanın tətbiqi olduqca vacibdir. Əgər müəyyən sülh əldə olunsa belə xalqlar arasında baraışığın olmaması sülhü uzun müddətli etməyəcəkdir. Dağlıq Qarabağ münaqişəsi başladığı ilk dövrlərdən etibarən Azərbaycan zərərçəkmiş olmasına baxmayaraq sülh mövqeyindən çıxış

etmişdir. Müasir dövrdə münaqişə tərəfləri arasında münasibətlərin yaratmasına səylə çalışan beynəlxalq qurumlar ənənvi diplomatik metodlar ilə yanaşı ictimai diplomatiyadan istifadə etmiş, dəfələrlə tərəfləri bir araya gətirərək sülhü yaratmağa cəhd etmişlər. Münaqişənin sülh vasitəsilə təmini üçün əvvəla dövlətlər arasında diplomatik razılaşma əldə edilməlidir. Diplomatik razılaşmadan sonra xalqlar arasında dostluq münasibətlərinin bərpasına əsaslanan ictimai diplomatiya vasitələrindən istifadə olunmalıdır. Həmçinin ictimai diplomatiya ilə ənənvi diplomatiya balanslaşdırılmış şəkildə aparılmalıdır

Dövlətlər tərəfindən həyata keçirilən ictimai diplomatiyanın əsas məqsədi hədəf ölkənin vətəndaşlarına təsir etməklə onları öz hökümətlərinə daxili və xarici siyasətdə dəyişikliklər etməyə, təzyiq göstərməyə vadar etməkdir. İctimai diplomatiyanın məqsədləri bunlardır :o İqtisadi məqsəd: İctimai diplomatiyanın vasitələrindən məharətlə istifadə edərək ölkənin iqtisadi inkişafına nail olmaq daxildir. Əsas vasitələrdən biridə iqtisadi sahənin yüksək formada təbliğ olunmasıdır. Məsələn, turizm, investisiya, tədqiqatçıların cəlb olunması və s. daxildir.

O Siyasi məqsəd: Beynəlxalq müstəvidə dövlətin güclü nüfuzunu formalaşdırmaq. Dövlətin xarici siyasət məqsədlərinə daha asan nail olmaq üçün şərait yaradılması da daxildir.o Mədəni məqsəd: Ölkənin mədəni imicini formalaşdırmaq üçün mədəni sahədə mübadiləni təmin etmək. Mədəni sahədə rəqabət qabiliyyətini artırmaq da daxildir.İctimai diplomatiyanı reallaşdırmaq üçün onun bir sıra özünəməxsus vasitələri vardır. Həmin vasitələrə: dialoq, internetdən istifadə, mübadilə proqramları, mədəni sahədən məharətlə istifadə (incəsənət, elm və təhsil, idman və s. nəzərdə tutulur) daxildir. Adları qeyd olunan vasitələr eyni zamanda "yumşaq güc" ün elementləridir. İctimai diplomatiya məna baxımından istifadəsi XVII əsrə dayanır, lakin fəaliyyət baxımından "Soyuq müharibə" dövründə istifadəsinə rast gəlirik.İdeoloji əsaslar dayanan iki qütblü sistemin hökmran olduğu bir dövrdə ictimai diplomatiya termini Amerika hökuməti tərəfindən tətbiqÇağdaş dövrdə güc konsepsiyası beynəlxalq aləmdə, ümumiyyətlə beynəlxalq siyasət təhlili və beynəlxalq münasibətlər nəzəriyyələrində ən çox müzakirə olunan anlayışlardan biridir.Sözün geniş mənasında güc məfhumuna başqalarına nəzarət etmək, gördükləri istənilən işlərdən onları çəkindirmək qabiliyyəti kimi qiymətləndirmək mümkündür.Eyni zamanda güc müəyyən dövlət tərəfindən başqa dövlətlərin fəaliyyətlərinə nəzarət etmək qabiliyyəti kimi müəyyən oluna bilər. Dövlətlərin və beynəlxalq aktorların fəaliyyəti güc konsepsiyalarına münasibətləri ilə əlaqəli təhlil olunur.Bir çox mütəfəkkirin fikrincə, dövlətin var-dövləti, təbii sərvətləri, işçi qüvvəsi, hərbi qüvvələri onun gücünün əsasını təşkil edir.Ancaq qeyd etmək lazımdır ki, bunların hamısı dövlətin potensialını təşkil etmir. Bu faktorların real gücə çevrilməsi onlar vasitəsilə bu və ya digər dövlətin başqa dövlətlərin fəaliyyətinə təsir edə bilməsindən asılıdır.Dövlətlər digər dövlətlərin fəaliyyətinə təsir, yaxud onlara nəzarət edə biləndə, güc siyasi xarakter daşıyır və buna görə də beynəlxalq siyasətin hadisəsinə çevrilir.Bazar münasibətlərində pulun oynadığı mühüm rolu, güc beynəlxalq münasibətlər sahəsində oynayır. Fərqli mütəfəkkirlərin fikirləri ilə zənginləşən bu anlayış əvvəllər olduğu kimi müasir dövrdə də müxtəlif araşdırmaların mövzusudur.

Gücün ünsürlərinin istifadəsini nəzərə alaraq gücə dair təsnifat müəyyənləşdirilmişdir.Güc ünsürlərindən aktorları məcbur etmək, hədələmək və maneə törətmək məqsədi üçün istifadə olunursa bu güc forması sərt güc, aktorları inandırmaq, istənilən nəticəyə gətirilməsi üçün istifadə olunan forma isə yumşaq güc kimi qiymətləndirilir. Dövlətlərarası münasibətlərin tarixinə nəzər saldıqda sərt gücdən, o cümlədən müharibə və hərbi gücdən istifadənin çox yayıldığı görülür. Xüsusilə qədim dövrlərdə sərt güc istifadəsi müəyyən bir məqsədə çatmaq istəyən aktorlar üçün demək olar ki, yeganə alternativ kimi qəbul edilmişdir.Ancaq beynəlxalq münasibətlərdə güc məfhumunun dəyişilməsi, eyni zamanda sərt gücdən istifadənin baha olması aktorları yeni güc formasından istifadəyə vadar etmişdir.Bu güc forması isə 90-cı illərdən

etibarən ədəbiyyatlara daxil olunmuş "yumuşaq güc" olmuşdur.Yumuşaq güc, beynəlxalq münasibətlərdə sərt gücün yaratdığı zəif cəhətləri yaratmadan aktorlara məqsədlərinə çatmağa imkan yaradan güc növü kimi seçilir.Mənşəyi ölkənin mədəniyyətinə, siyasi dəyərlərinə və xarici siyasətinə söykənən, sərt gücdən fərqlənən yumuşaq güc bir çox ölkə tərəfindən müxtəlif məqsədlər üçün istifadə olunur. 1990-cı illərdən bəri həm akademik sahədə, həm də mətbuatda və siyasətçilərdə populyarlıq qazanan yumuşaq güc anlayışı güc müzakirələrinə yeni bir istiqamət qazandırdı.Waring Partridge "yumuşaq güc"ü sərt gücdən istifadəsini dəstəkləyən və lazım olduqda istifadə etməyə imkan verən güc növü kimi təsvir edir.

Ədəbiyatlarda güc anlayışıyla bağlı fərqli yanaşmalar mövcuddur.Bu yanaşmalardan biri də çoxölçülü təhlildir.Gücün ilk ölçüsü, səbəb-nəticə əlaqəsinə əsaslanan aktorların davranışlarını araşdıran yanaşmadır.Bu yanaşmaya görə, məsələn A dövləti öz marağına uyğun olan bir situasiyada məqsədini reallaşdırmaq üçün B dövlətinə təsir etməyi bacara bilir.Başqa sözlə, A aktoru B-nin normal olaraq etməyəcəyi bir şeyi reallaşdırmağı bacarırsa, A aktoru güclü hesab olunur.Bu ölçü səbəb və nəticə əlaqəsində A və B davranışlarını izah edir və "B-nin fəaliyyətinə A səbəb olmuşdur" kimi qiymətləndirilir.Ancaq bu situasiya zamanla Dahl tərəfindən daha da zənginləşdirildi və A-nın gücü yalnız B-nin istədiyi şeyi etməklə məhdudlanmadı, həm də müxtəlif istiqamətlərdə ifadə olunmağa başladı.A aktoru B aktoruna müəyyən bir davranışdan imtina etməsinə imkan verərsə, A daha güclü ola bilər.Baxrach və Baratzın bu fikri gücün ikinci ölçüsünü təşkil edir və bu düşüncəyə görə, bir aktorun güclü olub olmadığını görmək üçün nə edə biləcəyinə baxmaq kifayət deyil.Görülə bilməyən işlərin qeyd olunması da güc təhlili baxımından vacibdir.Dövlətlərin siyasət məqsədlərinə çatmaq üçün istifadə etdikləri güc formaları müxtəlifdir.Aktorlar həm məqsədə doğru, həm də məqsədə çatdıqdan sonra atılan addımların dəyərini hesablamalıdırlar.Bu səbəbdən də hədəfə ən az xərclə çatmaq idealdır. Bu məntiqə əsaslanaraq, aktorlar hədəfə uyğun istifadə edəcəyi ünsürləri və güc formalarını qiymətləndirir, ən uyğun və ən səmərəli nəticələri seçirlər.

Bir çox analitiklər güc anlayışının nəzəriyyənin mərkəzində yerləşdiyini və əsas izahlı konsepsiya kimi qəbul etsələr də, digərləri bunun sistemin fəaliyyətində az əhəmiyyət daşıdığını iddia edirlər. İntizamın əsas anlayışlarından biri olan güc anlayışı beynəlxalq münasibətlərə dair fikir bildirən nəzəriyyələr tərəfindən geniş müzakirə edilmişdir.Əlbəttə ki, hər bir nəzəriyyənin bu anlayışa yanaşması bir-birindən fərqlənir.Güc anlayışı beynəlxalq münasibətlər ədəbiyyatına e.ə. 5-ci əsrdə Afinalı bir general Fukididin "Peloponnes müharibəsinin tarixi (səkkiz kitab)" adlı əsəri ilə daxil olmuşdur.Ümumiyyətlə Fukididin irəli sürdüyü bir çox idealar və müddəalar indiyədək öz aktuallığını itirməmişdir.Müəllifə görə, dövlətlərarası münaqişədə ən əsas arqument ancaq gücdür.Fukidid qeyd edir ki, güc və qüvvə məqsəd deyil, onlar sadəcə dövlətin təhlükəsizliyini və nüfuzunu saxlamaq üçün vasitədir.Mütəfəkkir məsələləri zorakılıqla həll etmək istəyini insan təbiəti ilə bağlayır, gücə əl atmağın zəruriliyini qeyd edir.Fukididin gücə olan münasibətində, həmçinin idealarında realizm nəzəriyyəsinin bir çox müddəaları öz əksini tapmışdır.Bu əsər vasitəsiylə belə bir nəticəyə gəlmək mümkündür ki, dəyişən zamanla güc fenomeni dəyişməz xarakterə malikdir.Fukidid tərəfindən banisi qoyulan klassik ənənə sonralar Nikola Makiavelli, Tomas Hobs, Karl fon Klauzevits və başqaları tərəfindən inkişaf etdiridi.

Qədim dövrlərdə güc anlayışını təhlil edən yeganə şəxs Fukidid olmamışdır.Fukididdən 100 il sonra Hindistanda yaşamış Kautilya beynəlxalq siyasətdə güc anlayışına əhəmiyyət verən digər nüfuzlu şəxs oldu. Maurya İmperiyası hökmdarının müəllimi və məsləhətçisi vəzifəsini icra edən Kautilya 15 kitab və 150 fəsildən ibarət olan "Arthaşastra" əsəri ilə dövrün siyasətində əhəmiyyətli rol oynamışdır.Kautilyanın müasiri ondan sonra yaşamış, "Hökmdar" əsəri ilə nüfuz qazanmış Nikola Makiavelli hesab olunur.Bunun səbəbi isə hər ikisi əsərlərində dövlət idarəçiliyi, bir padşahın sahib ola biləcəyi keyfiyyətlər kimi oxşar mövzulara diqqət

ayırdılar.Müəlliflərin işlədikləri mövzuların oxşar olmasına baxmayaraq, güc anlayışına və dövlətlərarası münasibətdə rolu ilə bağlı yanaşma mövqələri fərqli olmuşdur.Bu fərqli mövqelər əsas götürülərək "Arthaşastra" əsəri daha radikal hesab olunur.Padişaha tövsiyyələrində güc anlayışına xüsusi önəm verməsini, hətta onun artırılması istiqamətində bir siyasət reallaşdırmasını xüsusi vurğulamışdır.Gücü əsas tutaraq qeyd etmişdir ki, daha çox gücə sahib olan padişah digərlərə nisbətdə güclüdür, az gücə sahib olan isə az nüfuz sahibidir.Kautilya güc anlayışının qüvvət ilə eyni mənaya malik olduğunu və qüvvət vasitəsilə də başqalarının fikirlərini dəyişdirməyin mümkün olduğunu vurğulamışdır. Padişah güc və qüvvəyə sahib olmaqla düşmənlərinin fəaliyyətinə, eyni zamanda onların fikirlərinə nəzarət edə bilər.Qədim dövrlərdə Sun Tzu, Thucydides və Kautilya kimi adlar beynəlxalq münasibətlərin təhlilində güc konsepsiyasına böyük əhəmiyyət vermiş və onu ədəbiyyatda əsas anlayışlardan biri halına gətirmişdir. Qədim zamanlardan başlayan güc anlayışı sonrakı dövrlərdə də davam etdi və bir çox elm adamları bu konsepsiyanı inkişaf etdirdilər və əsərlərində istifadə etdilər.

Beynəlxalq münasibətlərdə mübahisələr ən çox liberalizm və realizm arasında olmuşdur.Bu nəzəriyyələrin güc anlayışına yanaşma mövqeləri də bir-birindən fərqlidir.Liberalizm cəmiyyətdə təkamül və inkişaf ideasına əsaslanır, idea olaraq XVIII əsrdə yaranmışdır. Liberalizm Birinci Dünya Müharibəsindən sonra Amerika Birləşmiş Ştatlarının prezidenti Vudro Vilsonun adı ilə əlaqələndirilir.V.Vilsonun rəhbərliyi ilə nəzəriyyə daha da geniş yayıldı.Elə o vaxtdan etibarən isə liberalizmin realizmlə debatı başladı.Bu nəzəriyyə insan əqlinin mövcudluğuna önəm verir.Eyni zamanda hər zaman bəşəriyyətin birliyinə yönəlmiş dəyərlərin inkişaf etdirilməsini üstün tuturlar.Liberallara üçün sülh normal sosial durumdur.Onlar bir-birilə münasibətdə gücün tətbiq edilməsindən çəkinmək istəyirlər.Liberallar bütün beynəlxalq aktorlar tərəfindən riayət olunacaq ümumi mənəvi və etik dəyərlər sistemini yaratmaq istəyirdilər.Liberal nəzəriyyənin tərəfdarları qüvvələr balansı ideasını tənqid edirdilər.Qüvvələr balansı beynəlxalq sistemdə üstün hərbi qüvvənin yoxluğu kimi xarakterizə olunur.Qüvvələr balansı elə bir proses kimi təsvir olunur ki, kiçik dövlətlər regionda güc sahibi olan hərbi dövlətə qarşı çıxan müvəqqəti birlik kimi çıxış edirdi. Bu ideanın tərəfdarlarına görə, müharibə anlayışı mənfi hadisə olmasına baxmayaraq zəruri və arzuolunan ola bilər.Liberallar isə qüvvələr balansını qeyri-müəyyən , məntiqə zidd bir proses kimi qiymətləndirirlər.Qüvvələr balansını saxlamaq səyləri adətən müharibəyə səbəb olur.

Liberal nəzəriyyənin tərəfdarları güc formalarından ən çox son zamanlar meydana çıxmış "yumuşaq güc" formasına üstünlük verirlər.Yumşaq güc anlayışı 1990-cı ildə Joseph S. Nye tərəfindən populyarlaşsa da, mübahisələrə səbəb oldu.Yumuşaq gücə görə bir aktor hədəfə doğru hərəkət edərkən, digərlərinə qarşı güc tətbiq etmədən, təhdid etmədən aktorları öz istiqamətlərinə doğru çəkməyi bacarmalıdır.Bu prosesin reallaşmasının bir çox yolu var.Aktorların mədəniyyəti, bəzən siyasi idealları başqaları üçün cəlbedici ola bilər.Yumşaq gücün də əsas xüsusiyyəti cazibədir.

Vaxt keçdikcə liberalizmin irəli sürdüyü fikirlərə gətirilən tənqidlər nəticəsində realizm-neorealizmin çevrilməsi kimi bir transformasiya baş verdi və bu yeni yanaşma neoliberalizm adlandırıldı.Soyuq müharibənin başa çatması liberalizmin nüfuzunu yenidən qaldırdı.Bu dövrdən etibarən reallıqlar nəzərə alınaraq liberalizm neoliberalizmə çevrilir.Yeni istiqamət kimi neoliberalizm XX əsrin 30-cu illərində ABŞ-da yaranmışdır.Neoliberalizm tərəfdarları dövləti beynəlxalq münasibətlərin əsas aktoru kimi qəbul etsələrdə, yeganə aktor olmadığını qeyd edirdilər. Neoliberal nəzəriyyəni qəbul edənlər güc anlayışını realistlərdə olduğu kimi nəzəriyyənin mərkəzinə qoymasa da, gücə böyük əhəmiyyət verdilər.Bəzi məqamlarda, o cümlədən konsepsiyanın tərifində fərqli fikirlər səslənsə də, güclə əlaqəli fikirlərdə iki nəzəriyyənin gözləntiləri və əldə ediləcək məqsədləri eyni olmuşdur. Anarxiya anlayışı realistlər

qədər ön plana çıxmasa da, neoliberallar sistemin anarxik quruluşa sahib olduqlarını qəbul etdilər. Ancaq bu quruluşun, realistlərin iddia etdiyi kimi, əməkdaşlığa maneə yaratmadığını müdafiə etdilər, əksinə qarşılıqlı asılılığın, xüsusən iqtisadi baxımdan, dövlətlər arasında əməkdaşlığa imkan yaratdıqlarını müdafiə etdilər.Dövlətlərarası münasibətlərdə gücün istifadə forması liberalların realistlərdən fərqləndiyi məqamdır.Realistlər hərbi gücdən istifadə olunmasını üstün tuturlarsa, liberallar iqtisadi gücdən istifadənin əhəmiyyətinə işarə edirlər.Ümumiyyətlə güc formaları arasında sıralanma vəziyyəti olduqda liberallar iqtisadi gücə üstünlük verirlər.

Neoliberallar güc anlayışından başqaların davranışlarını dəyişdirməyə istiqamətlənmiş siyasətlərin yaratdığı xərclərdən qurtarmaqla istədiklərini edə bilməsi kimi ifadə edir.Onlar fikrincə dövlətlər arasındakı münasibətləri reallaşdırmaq üçün güc amilindən başqa çoxsaylı əlaqələr, formalar mövcuddur.Bu fikrə əsasən neoliberallara görə hərbi güc amili o qədər vacib deyil. Beynəlxalq münasibətlərin digər aktorlarına hərbi güc vasitəsilə təsir etmək təhlükəlidir, iqtisadi vasitə daha səmərəli təsir vasitəsidir. Neoliberalizmin hərəkət azadlığı adlanan bu vəziyyəti neorealistlərin asılılıq dərəcəsi olaraq təyin olunur.Neoliberallar realistlərin vəziyyətində olduğu kimi, hərbi və iqtisadi vasitələrin istifadə olunduğu sərt güc formasından fərqli olaraq, mədəni, siyasi və oxşar motivləri ehtiva edən yumşaq güc formasını vurğulayırlar.Buraya sistemli, dolayı və ya yumşaq amillər daxil olsa da, son nəticədə neoliberalların gücə yanaşma mövqeyi realistlərin mövqeyindən o qədər də fərqlənmir.

Liberalizmlə birlikdə realizm beynəlxalq münasibətlər nəzəriyyəsi tarixində ilk meydana gələn ən mühüm nəzəriyyələrdəndir.Realizm təhlükəsizlik və hakimiyyət faktorlarının əhəmiyyətini nəzərə alan ideyalar məcmusudur.Bu nəzəriyyənin əsasında xalqlar arasında daim baş verə biləcək mübarizə dayanır.Bu mübarizə qanunauyğun xarakter daşıyır.Realistlərin fikrincə güclü milli dövlət yaradılması zəruridir.Realizm insanın eqoist təbiətinə istinad edir, bu nəzəriyyənin tərəfdarlarına görə insan təbiəti dəyişməz olaraq qalır.Beynəlxalq münasibətlərin daim anarxiya xarakteri daşıdığını müdafiə edirlər.Dövlətlərarası münasibətdə güc anlayışının mövcud olmasını ən çox dəstəkləyən və nüfuz qazandıran nəzəriyyə məhz realizmdir.Münasibətlərin həllində ancaq gücü vasitə kimi hesab edirlər.Beynəlxalq münasibətlər intizamının inkişafında və formalaşmasında mühüm rol oynayan realistlər gücə əsaslanan bir idea irəli sürdülər.Realistlər beynəlxalq münasibətlərin güc mübarizəsi olduğunu iddia etdilər və sistemin fəaliyyətini güc anlayışı ilə izah etdilər.Morqentau tarix boyu güc, nüfuz əldə etmək səbəbindən dövlətlərin bir-birlərinə qarşı mübarizə apardıqlarını və xarici siyasətlərini qanun və hüquqla izah etməyə çalışdıqlarını söyləsə də, bu fakt yalnız dövlətlərin gücə söykənən siyasətlərini əsaslandırmağa çalışmaqdan başqa bir şey deyildi.

Realistlər güc anlayışını insan xarakteri ilə izah etmişlər.İnsanlar xas oldugları eqoist təbiətə uyğun olaraq daim ətrafına hakim olmaq üçün güc qazanmaq arzusundadır.Buna görə də müharibələr qaçılmazdır, çünki insan həmişə güc işlətməyə meyillidir. ərdlərdən ibarət dövlətlər insanlar kimidir. İnsanlar kimi dövlətlərarasında münasibətdə də güc əsas həll edici faktordur.Daim özlərini düşünürlər və gücə sahib olmaq istəyərlər.Anarxik bir quruluşa sahib olan beynəlxalq sistemdə hər bir dövlət əvvəlcə təhlükəsizliyini təmin etməlidir və bunun üçün müəyyən ittifaqlarda iştirak etmək mümkün olsa da, yalnız öz milli gücünə əsaslanmalıdır.Realistlər gücün digər formalarını qəbul etməklərinə baxmayaraq dövlətin beynəlxalq arenada nüfuz qazanması üçün hərbi və iqtisadi güc formasından istifadəni üstun tuturlar.Dövlətlərin mövcudluğunu və təhlükəsizliyini ən vacib faktor olaraq qəbul edən realistlər hərbi məsələlərin həll olunmasına mühüm önəm verirlər. Buna görə də nəzəriyyə tərəfdarları hərbi məsələləri, hərbi gücü “yüksək siyasət” (high politics), iqtisadi və digər sahələri isə aşağı siyasət (low politics) kimi adlandırırlar.Realistlərin fikrincə, hər bir dövlət öz gücünü maksimum

dərəcədə artırmağı hədəfləyir.Bunu edərkən dövlətlər bir tərəfdən öz gücünü artırır, digər tərəfdən başqalarının bu istiqamətdə irəliləməsinə mane olmağa çalışır.Bu kontekstdə, potensial düşmən dövlətlərin güclənməsinin qarşısını almaq üçün müharibəyə müraciət etmək qanuni sayılır.Realistlərə görə haqlı və ya haqsız səbəblə başlamasına baxmayaraq müharibələr qaçılmazdır.Bir-birinin güclənməsinin qarşısını almaq üçün mübarizə aparan dövlətlərin aralarında güc balansının yaradılacağına inanılır.Onlar qeyd edirlər ki, beynəlxalq münasibətlərin təkrar olunan xarakterik xüsusiyyətləri, təhlükəsizlik və hakimiyyət uğrunda mübarizələr vaxtaşırı özünü göstərməyə davam edəcəkdir.Qüvvələrin tarazlığı, anarxik bir quruluşa sahib olan beynəlxalq sistemin sabitləşməsində əsas element kimi qəbul edilir.

Müəyyən zaman çərçivəsində beynəlxalq münasibətlərdə baş verən dəyişikliklər beynəlxalq aktorlar kimi realist nəzəriyyə daxilində fərqli görüşlərin meydana çıxmasına səbəb olmuşdur.Əsas məsələlərdə fikir birliyi olsa da, bəzi məsələlərdə fikir ayrılığı nəzəriyyəçilərin qruplaşmasının ortaya çıxmasına səbəb oldu.Nəzəriyyənin ilk ortaya çıxması kimi adlandırılan klassik realizmin tənqidləri ilə nəzəriyyə daxilində yeni qollar yarandı.1970-ci illərdə zamanın tələbinə uyğun olaraq neorealizm və ya struktur realizm formalaşdı.Neorealizm klassik realizmin bir çox müddəalarını, xüsusilə beynəlxalq münasibətlərin aparıcı aktoru kimi dövlətin ön planda saxlanılması ideasını qoruyub saxladı. 1979-cu ildə Kennet Volts, “Beynəlxalq Siyasət nəzəriyyəsi” (Theory of International Politics) ilə neorealizmin əsas prinsiplərini ortaya qoydu.Voltsu bu əsəri Hans Morqentaunun müəllifi olduğu “Millətlər arasında siyasət.Hakimiyyət və sülh uğrunda mübarizə” (“Politics among nations.The Struggle for Power and Peace”.) əsər ilə oxşarlıq təşkil edir və onu əvəz etmişdir.Neorealizmin banisi kimi tanınan Volts, insan təbiətinə əsaslanan dövlətlərin davranışlarını izah etməyə çalışan klassik anlayışa qarşı çıxdı.Onun sözlərinə görə, dövlətlərin siyasətini formalaşdıran anarxik bir quruluşa malik olan beynəlxalq sistemdir.Buna görə güc qazanmaq istəyi insan təbiətindən deyil, beynəlxalq sistemin quruluşundan yaranır.Çünki "güc dövlətlərin mövcud olması üçün, dövlətlərə həvalə olunmuş funksiyaları yerinə yetirmək imkanı verən bir vasitədir.Ümumiyyətlə neorealistlərin güc anlayışına mövqeləri klassik realistlərdən fərqlənmişdir.Dövlətlər sistemdəki digər iştirakçılardan müstəqil olaraq qərar qəbul edə biləcək dərəcədə gücə sahib olmalı olduğu düşünülür.Neorealistlər beynəlxalq sistemə müstəqil sahə kimi yanaşırlar, eyni zamanda bu sistemin bütün dövlətlərin fəaliyyətini müəyyən edən faktor kimi qəbul edirlər.Beynəlxalq sahənin anarxiya vəziyyətində olması dövlətlərə gücün artırılmasını bir tələb kimi üzərinə qoyur.Anarxiyalı mühit dövlətləri nizamlayır, yəni dövlətlər hər hansı funskiyadan öncə öz təhlükəsizliklərini qoruyurlar.Volts xüsusilə qeyd edir ki, dövlətlər beynəlxalq sistemi dəyişməyə qadir deyil.

Neorealizmə görə, realizmdə olduğu kimi güc də dövlətlər üçün əldə ediləcək bir məqsəd deyil, məqsədə çatmaq üçün bir vasitədir. Daimi bir güc əldə etmək istəyi digər dövlətlərin narahatlığına səbəb olacaq və öz növbəsində silahlanaraq ittifaqlara qoşulmağa çalışacaqlar. Bu vəziyyətdə dövlətlərin narahat olması lazım olan əsas məqam güc almaq deyil, təhlükəsizliyi təmin etməkdir. Bir sözlə, realistlərin hədəf olaraq təyin etdikləri güc anlayışı neorealistlər tərəfindən bir vasitə kimi qəbul edilir və dövlətlərin son hədəfinin təhlükəsizlik olduğunu bildirir.Nəticədə, hər iki yanaşmanın gücünün beynəlxalq aləmdəki aktorlar üçün çox vacib olduğu aydın olur.

İdealizmin II Dünya Müharibəsini qabaqcadan görə bilməməsi və / və ya qarşısını ala bilməməsi realizmin güclü bir nəzəriyyə kimi ortaya çıxmasına şərait yaratdığı kimi, realist və liberal nəzəriyyələrin Soyuq Müharibənin bitməsini izah edə bilməməsi konstruktivizmin yaranmasına oxşar təsir göstərmişdir.Konstruktivist düşüncələrin tarixi daha qədim olsa da, 1990-cı illərdən etibarən beynəlxalq münasibətlərdə əhəmiyyətli və geniş yayılmış bir

nəzəriyyəyə çevrildi. Bu nəzəriyyənin meydana çıxmasında Fridrix Kratoçvil, Nicholas Onuf və John Ruggie kimi mütəfəkkirlərin böyük töhfələri olmuşdur.Lakin nəzəriyyəni formalaşdıran əsas nəzəriyyəçi Alexander Wendt ("Social Theory of International Politics", 1999) olmuşdur. Konstruktivizm 1980-ci illərin sonlarında inkişaf etməyə başlayan və 1990-cı illərin ortalarından etibarən təsirli olan nisbətən yeni bir nəzəriyyədir.Konstruktivist nəzəriyyə əsasən təkcə dünya nizamı deyil, eyni zamanda şəxsiyyət və maraqlar daim dəyişən bir quruluşa sahibdir.Konstruktivizm termin olaraq ilk dəfə Onuf tərəfindən istifadə olunmuşdur.

Konstruktivizm beynəlxalq münasibətlər nəzəriyyəsində üç əsas debatın sonucusu olan pozitivist nəzəriyyələrin və post-pozitivist nəzəriyyələrin müzakirələrinin davamı kimi təsvir edilmişdir.Bir çox cəhətdən beynəlxalq münasibətlərin əsas cərəyanlarından fərqlənən konstruktivizmin əsas fərqləndirici cəhəti beynəlxalq münasibətlərin sosial tərəfini vurğulamasıdır. Konstruktiv nəzəriyyənin maraq anlayışı real nəzəriyyələrdən fərqlənir. Konstruktiv məktəbi qəbul edən nəzəriyyəçilər, maraqları maddi güc ilə eyniləşdirən realizmdən fərqli olaraq, fikir və inancla əlaqəli olduğunu bildirirlər.Neorealistlərdə olduğu kimi beynəlxalq münasibətlər sistemini bir quruluş kimi qəbul etsələrdə, bu quruluşun insan fəaliyyətinin nəticəsi olduğunu qeyd edirlər. Nəzəriyyəçilərə görə dövlətlərin güc siyasəti və öz təhlükəsizliklərini təmin etmək kimi idealar anarxiyadan dolayı meydana çıxmamışdır.Konstruktivistlər beynəlxalq münasibətlərin sosial tərəflərini cəmləşdirirlər, lakin maddi elementlərin mövcudluğuna məhəl qoymurlar.Gücü meydana gətirən maddi elementlər, müəyyən edilmiş maraqlara uyğun istifadə olunarsa, bir məna daşıyır. Dövlətlərin güc anlayışına yanaşmaları da gücü necə qəbul etmələri ilə bağlıdır. Fərqli aktorlar eyni fərqli qavrayışlara sahib ola bilərlər. Məsələn, müəyyən bir ölkənin davranışı başqaları üçün təhlükə kimi görünsə də, başqa bir qrup dövlət tərəfindən müsbət görülə bilər. Dövlətin davranışını faydalı hesab edən digər aktorlar da güc axtarışında olan dövlətlə əməkdaşlıq etməyi məqsədəuyğun hesab edə bilərlər. Bu səbəbdən də gücə sahib olmaq istəyi realistlərin qeyd etdiyi kimi hər zaman qarşıdurmaya deyil də, bəzən əməkdaşlığa səbəb ola bilər.

Konstruktivist yanaşma, realizm və neorealist nəzəriyyənin güc anlayışının vasitə yoxsa məqsəd olub-olmadığı ilə bağlı fikir ayrılığından daha çox, nə vaxt və hansı kontekstdə gücə fikir verilməli olduğu ilə maraqlanırdı.Konstruktivist nəzəriyyəsinə görə bir vasitə və ya məqsəd olaraq gücün vəziyyəti maraqların bölüşdürülməsi ilə əlaqədardır.Bu fikrə əsasən, güc elementləri maraqlara görə həm zəif, həm də üstünlük ola bilər.Məsələn, güc və ya onun hər hansı formaları dövlətin coğrafi xüsusiyyətlərinə, aktorun maraqlarına üstünlüklər qazandıra da bilər, zəiflik yarada bilər.Bu nəzəriyyə əsasən fərd anlayışını xüsusi vurğulayır, aktorlar və quruluşlar arasında qarşılıqlı əlaqələrin mövcudluğunu təhlil edirlər. Dövlətlərin davranışlarını təyin edən maraqların konkret və obyektiv olmadığını bildirirlər. Şəxsiyyət və düşüncə ilə formalaşan maraq anlayışına uyğun olaraq istifadə olunan güc bu mənada obyektiv xüsusiyyətə malik deyil və fərqli münasibətlərdə fərqli şəkildə ortaya çıxır.

Beynəlxalq münasibətlərin hər bir aktorunun müəyyən bir məqsədi var. Bu, beynəlxalq aləmdə fəal olan aktorlara da aiddir. Məqsədlərə çatmaq üçün aktorlar ən uyğun alternativ vasitələr seçir və məqsədlərinə çatmaq üçün səy göstərirlər. Seçilən vasitənin keyfiyyəti aktor və hədəfin xarakteri, həmçinin ətraf mühit, ətraf mühiti təşkil edən aktorların qavrayışı və istifadə olunan vasitənin dəyəri ilə əlaqələndirilə bilər. Beynəlxalq mühitdə ən tez-tez istifadə olunan və ən uzun müddət tətbiq olunan güc hərbi təcrübə və məcburedici iqtisadi tədbirləri əhatə edən sərt gücdür. Bununla birlikdə, məqsədə çatmaq üçün istifadə olunan hər hansı bir vasitə kimi, sərt güc də aktorun yerləşdiyi sistemi, sistemi təşkil edən digər aktorların qəbulu və xərclərini nəzərə alaraq qiymətləndirilir. Bu təhlil edildikdə, beynəlxalq mühitin artıq sərt gücdən istifadə üçün uyğun olmadığı, sərt gücdən istifadə edən aktorun qanuni problemlərlə üzləşdiyi və bundan əlavə

sərt gücün baha başa gəldiyi qənaətinə gəlmək olar. Güc anlayışı təsir anlayışı sıx bağlılıq təşkil edir. Bu anlayışların bəzən bir-birini əvəzlədiyindən görmək olur.

ƏDƏBİYYAT

1. Abbasbəyli A.N, Nəcəfov Etibar.Beynəlxalq münasibətlər nəzəriyyəsi.Bakı: "Mütərcim", 2007, 208 s.
2. Александр Н.О."Мягкая сила" и "умная сила".России :"Эксмо – АСТ", 2016, 179 с.
3. Лебедева М.М. «МЯГКАЯ СИЛА»: ПОНЯТИЕ И ПОДХОДЫ. России ."Вестник МГИМО-Университета", 2017, 285 с.
4. Gallarotti G. M.Soft Power: What It Is, Why It's Important, and The Conditions For Its Effective Use. London: " Journal of Political Power", 2011, 52 p.
5. Lennon, Alexander T. J.The Battle for Hearts and Minds: Using Soft Power to Undermine Terrorist Networks. Cambridge: "MIT Press", 2003, 352 p.
6. Mearsheimer John. J.The Tragedy of Great Power Politics. New York: "Norton", 2001, 160p.
7. Molloy Sean .The Hidden History Of Realism, A Genealogy Of Power Politics.New York: "Palgrave Macmillan", 2006, 187 p.
8. Nye J.S.Soft Power The Means to Succes in World Politics. Newyork: "Public Affairs" , 2004, 28 p.
9. Pallaver Matteo.Power and Its Forms: Hard, Soft, Smart.London: "TheLondon School of Economics and Political Science", 2011, 147 p.
10. Simmons BA, Carlsnaes W, Risse T ed. Handbook of International Relations.London: "Sage Publications", 2012, 902 p.
11. Anıl Yaşar Şahin.Niccolo Machiavelli.İstanbul: "Kastaş Yayınları", 2010, 280 s.
12. Arı T.Uluslararası İlişkiler ve Dış Politika.Bursa: "Marmara Kitap Merkezi", 2008, 663 s.
13. Arıboğan D.Ü.Globalleşme Senaryosunun Aktörleri Uluslararası İlişkilerde Güç Mücadelesi.İstanbul : "Der Yayınevi", 2001, 10 s.
14. Lewis B.M. İnanç ve İktidar: Orta Doğu'da Din ve Siyaset / çev. H.H.Güldü. İslanbul: Akılçelen Kitaplar, 2017, 256 s.
15. Lewis B.M. Ortadoğu, İki Bin Yıllık Ortadoğu Tarihi/ çev. S.Y.Kölay. Ankara: Arkadaş Yayınları, 2017, 560 s.

YUMŞAQ GÜC ANLAYIŞINA BEYNƏLXALQ SFERADA NƏZƏRİ YANAŞMASI

XÜLASƏ

Dövlətlərin siyasi məqsədlərinə çatmaq üçün bir vasitə kimi istifadə etdiyi güc anlayışı müxtəlif ünsürlərdən ibarətdir.Fərqli ünsürləri olan güc xüsusən də Beynəlxalq təşkilatların tərkibində mövcud olan yumşaq güc bir çox araşdırmanın mövzusudur. Bu tədqiqatlardan bəziləri güc anlayışının mənasını açıqlamağa çalışır, digərləri anlayışı nəzəri bir çərçivədə araşdırır. Beynəlxalq münasibətlərin dərk edilməsində çox vacib bir yer tutan güc anlayışını beynəlxalq münasibətlərin hər bir nəzəriyyəsi fərqli aspektdən araşdırır.

ТЕОРЕТИЧЕСКИЙ ПОДХОД К КОНЦЕПЦИИ МЯГКОЙ СИЛЫ В МЕЖДУНАРОДНОЙ СФЕРЕ

АННОТАЦИЯ

Концепция силы, используемая государствами как инструмент для достижения своих политических целей, состоит из различных элементов. Власть с различными элементами, особенно мягкая сила, существующая в рамках международных организаций, является предметом многих исследований. Некоторые из этих исследований пытаются объяснить значение концепции власти, в то время как другие рассматривают эту концепцию в теоретической основе. Каждая теория международных отношений рассматривает концепцию силы, которая играет очень важную роль в понимании международных отношений, с разных точек зрения.

THEORETICAL APPROACH TO THE CONCEPT OF SOFT POWER IN THE INTERNATIONAL SPHERE

SUMMARY

The concept of power used by states as a tool to achieve their political goals consists of various elements. Power with different elements, especially the soft power that exists within international organizations, is the subject of many studies. Some of these studies try to explain the meaning of the concept of power, while others examine the concept in a theoretical framework. Each theory of international relations examines the concept of power, which plays a very important role in understanding international relations, from a different perspective.

TARİXİ ABİDƏLƏRİN ERMƏNİLƏRƏ CAVABI

Əli Babayev
BDU-nun İslamşünaslıq Elmi Tədqiqat Mərkəzinin əməkdaşı
ali76@bk.ru

Açar sözlər: Qarabağ; Xristianlıq; Erməni faşistləri; Qafqaz Albaniyası;
Ключевые слова: Карабах; Христианство; Армянские фашисты; Кавказская Албания;
Key words: Karabakh; Christianity; Armenian fascists; Caucasian Albania;

Erməni xisləti Qarabağdakı müharibə zamanı özünü fərqli-fərqli aspektlərdən göstərir. Ağır məğlubiyyət və bütün dünyanın gözü qarşısında alçalmanın verdiyi hisslə birgə yaratdıqları mifologiyalarının da yavaş-yavaş toz-duman içində yoxa çıxmağa başlaması bu milləti məcbur edir ki, döyüşdə uduzan birinin cırmaq atması, tüpürməsi kimi çirkin hərəkətlərə əl atsın.

Dünyanın 90%-nin istifadə etdiyi Google axtarış platformasında "dünyanın ən acıqlı millətini" axtarsanız qabağınıza birinci növbədə Erməni milləti çıxacaq. Bütün bu qədər əsəb, acığın haradan gəldiyini bildiyimiz zaman onların elədiyi bütün barbarlıq və vandalizmin köklərini də başa düşmüş olacağıq. İllər boyu onun-bunun torpağından özlərinə "vətən" düzəltməyə çalışan, Böyük Ermənistan xəyalları ilə akvariumdakı balıq kimi başlarını görə bilmədikləri şüşəyə çırpa-çırpa qalan yurd-yuvasız ermənilər millət olaraq (ki onlara millət deməyə də adamın dili gəlmir) natamamlıq kompleksindən əziyyət çəkirlər. Bu kompleksin sahiblərinin vəhşilik və murdarlığa əl atması ayrıca bir psixologiya bölməsidir.

Qarabağda Erməni faşistlərinin dağıtmış olduqları 22 muzey və 4 incəsənət qalareyası, burada məhv edilib yararsız hala salınmış 4000 eksponat və sərgi, Azıx mağarasında aparılmış qanunsuz arxeoloji qazıntılar, 927 kitabxana və bu kitabxanaların ümumilikdə sahib olduğu 4.6 milyonluq kitab fondu bu barbarizmin əsas göstəriciləridir.

808 klub, 4 teatr, 2 konsert zalı, 85 (!) musiqi məktəbi məhv edilmişdir. Alban memarlığının inciləri olan Gəncəsər və Xudavənd türbələri də bu vandalizmdən öz paylarını almışdırlar.

Bir neçə gün öncə azad edilmiş Zəngilan şəhərindəki qədim ibadət ocaqları olan məsciddə ermənilərin donuz saxladığı məlum oldu.

Ermənilərin baxımsız qoyduqları, Hadrut qəsəbəsinin Tuğ kəndində yerləşən, 13-cü əsrdə inşa olunmuş Qafqaz Albaniyasına aid Qtiçavank **monastrında** da vandalizm törədilib.

İddiaları ilə hərəkətləri üst üstə düşmür bu toplumun. Onlar bizim ərazilərimizdə olan xristian alban məbədlərinin özlərinə məxsus olduğunu iddia etməklə yanaşı qonşu Gürcüstan da bu iddialarla çıxış edirlər. Belə ki bu vaxta qədər Gürcüstan ərazisində 465 kilsənin ermənilərə məxsus olması haqda iddialar ortaya atılıb. Nəzərə alaq ki, məhz, bu mövzuda ermənilərlə gürcülər arasında 18 dəfə, hətta müharibə xarakterli ciddi qarşıdurma yaşanıb, bu onların heç bir xalqla normal sülh şəraitində yaşamadıqlarını göstərir.

Ermənilərin davranışları onların Qafqaz xalqları arasında yad olduqlarını sübut edir. Gəldikləri vaxtdan qonşularına ərazi iddiaları ilə çıxış etmələri, uşaqlara,qadınlara qəddarlığı heç bir Qafqaz xalqlarının ruhiyyəsi ilə uyğun gəlmir. Hətta inanclarında belə, uygunsuzluq var. Erməni Apostol Kilsəsi (EAK) həm pravoslav (Ortodoks), həm də katolik kilsəsinin ehkamlarına görə bidətçi kilsədir. Daha sadə desək pravoslavlara və katoliklər görə ermənilər kafirdir, xristian deyillər. Bunu onların işğal etdikləri ərazilərdə xristian Alban məbədlərinə qarşı etdikləri vəhşilikləri onların xristianlığa belə yad olduğunu öz çılpağlığı ilə sübut edir.

Bu cür faktların bolluğu və vandalizmin özünü hətta qədim xristian kilsələrində də özünü biruzə verməsi ermənilərin din, mədəniyyət abidələri, etiqadlar və digər millətlərin adət-ənənələrinə qarşı nə qədər dözümsüz olduqlarının əyani sübutudur.

Məqalənin əvvəlində də qeyd etdiyim kimi, daxilən aqressiv, tarix boyu boyunduruq altında sürünən, onun-bunun kölgəsində özünə yer eləyən məğlub bir xalq bəlkə də elə özlərinə acıqlıdırlar. Bu aqressiya onları içdən-içə yeyib-bitirir və sonda bacara bilmədikləri bir düşmənin qarşısında susmağa məcbur olub qəzəblərini daşdan, abidədələrdən, təhsil ocaqlarından, tikililərdən çıxarırlar. Düzdür, kərpicdən tikilmiş bu tarixi binalar cavab zərbəsi endirə bilməsələr də, tarix özü cavab zərbəsini ermənilərə Azərbaycan ordusunun əli ilə çox gözəl endirmiş oldu.

ƏDƏBİYYAT

1. http://www.dqdk.gov.az/az/view/news/9557/dovlet-komitesi-ermenilerin-tarixi-medeni-abidelerimizi-dagitmasi-butun-besher-medeniyyetine-qarshi-tecavuzdur
2. http://anl.az/down/meqale/azerbaycan/2010/iyul/128468.htm

XÜLASƏ

Bu məqalə Qafqaza yad olan, hətta deyərdim İnsanlığa belə yad olan erməni xislətinin həqiqi mahiyyətinin açılmasına həsr olunub. Həmçinin,məqalədə erməni vandalizminin bütün mədəniyyətlərə, dinlərə, insanlara qarşı vurduğu ziyanların, etdikləri vəhşiliklərin tablosu açılır.

АННОТАЦИЯ

Эта статья посвящена раскрытию истинной природы армянского характера, чуждого Кавказу, я бы даже сказал, чуждого человечеству. Статья также рисует картину ущерба и зверств, совершенных армянским вандализмом против всех культур, религий и людей.

SUMMARY

This article is dedicated to revealing the true nature of the Armenian character, which is alien to the Caucasus, I would even say alien to humanity. The article also reveals the damage and atrocities committed by Armenian vandalism against all cultures, religions and people.

MÜHARİBƏ DÖVRÜ VƏ POST MÜHARIBƏ DÖVRÜ ƏHALİNİN SOSİAL REABİLİTASİYASI

f.f.d., Kərimova Aygün Xəlil qızı,
Fəlsəfə kafedrasının müəllimi, Bakı Dövlət Üniversiteti
aygunxalilqizi@mail.ru

***Açar sözlər*:** müharibə, əhalinin vəziyyəti, sosial reabilitasiya imkanları, sosial iş.
Ключевые слова: война, положение населения, возможности социальной реабилитации, социальная работа.
Key words: war, situation of the population, opportunities for social rehabilitation, social work.

Giriş

Ümumiyyətlə müharibə anlayışı psixoloji aspektdə ilk dəfə 1910-cu ildə araşdırılmışdır. İlk dəfə onu araşdıran psixoloq "Savaşın əxlaqi dəyəri" mövzusunda məqalənin müəllifi William Ceyms olmuşdur.

Bu məqalədə Ceyms müharibənin həm ayrı-ayrı fərdlər, həm də bütöv bir cəmiyyət üzərindəki psixoloji təsirlərini önə çəkərək göstərmişdir.

Viliam Ceymsin fikrinə görə, müharibə kollektiv təhdid qarşısında birlik duyğusunu oyandırır, insanları bir-birinə bağlayır. Həm də yalnız müharibədə iştirak edən ordunu deyil, bütövlükdə bütün toplumu bir-birinə bağlayır və insanlarda Ceymsin "disiplin" olaraq adlandırdığı "kütləvi hədəflər"ə bağlılıq duyğusu yaradır.

Müharibə yalnız əsgərlərə deyil, hər bir vətəndaşa ölkə üçün daha böyük bir yaxşılığın uğrunda şərəfli və vicdanlı şəkildə davranmaqları üçün ilham verir.İnsanların bu müharibədə psixoloji vəziyyəti həm də bir amal və əqidə məsələsinə çevrilir. Amma unutmamalıyıq ki,müharibə eyni zamanda insanların psixologiyasında o qədər dərin izlər buraxır ki, bu maddi olan hec bir təzminatla ödənilə bilməz. Məhz bu məqsədlə bu insanların həyat fəaliyyəti üçün və təkrar cəmiyyətə qaytarılması üçün xüsusi mərkəzlərin reabilitasiya məqsədli fəaliyyətlərinə böyük ehtiyac yaranır. Bu baxımdan istər müharibə dövrü istərsə də post müharibə dövrü əhalinin psixoloji zərər görmüş təbəqələri ilə sosial iş çox vacibdir. Qeyd etmək lazımdır ki, bu çətin psixoloji dövrdə nəinki hadisə yerlərində eləcə də hadisə mərkəzlərindən kənarda yaşayan insanların da durumu qismən ağırlaşa bilir. Bu o deməkdir ki, psixoloji zərbənin yayılma dalğası öz baş verdiyi nöqtəsindən daha da uzaqlara yayıla bilər.

Məhz buna görə də müharibə yaşamış ölkələrin nəinki birbaşa zərər görən üzvləri eyni zamanda bütün ölkə əhalisinin köməyə ehtiyacı yaranır. Ancaq bu da həqiqətdir ki,bu insanlarla reabilitasiya ən çox sosial faciənin baş vermə nöqətisnə daha çox lazımdır. Burada qadın və uşaqlara olan reabilitasiya xidməti daha həssas bir incəliklə işlənməlidir. Bu məqsədlə əhalinin bu hissəsinə xüsusi dövlət qayğısı və əlaqədər mərkəzlərin bu işlərin təşkilində xüsusi fəallıq göstərməsi onlarin cəmiyyətə qayıdaraq daha faydalı vətəndaşlar ola bilməsində fayda verə bilər. Burada qeyd etmək lazımdır ki, müharibə zamanı sscial reabilitasiyaya məruz qalan sadəcə mülkü vətəndaşlar deyil eyni zamanda həm də döyüşən əsgərlər ola bilər. Müharibənin əsas iştirakçıları xüsusuilə ön xətdə müharibənin dəhşətləri və psixoloji zərbələrini alan insanlar döyüşçülər və hərbi heyət olur. Buna görə də travmatik hadisələr əsasən onlara aid olunur.

I. Psixoloji təsir dairəsi

Travmatik hadisənin xüsusiyyətlərinə aşağıdakılar daxildir: həyati təhlükə dərəcəsi; itkilərin şiddəti; hadisənin qəfil olması; hadisə vaxtı təcrid ediləcək digər insanlar; ətraf mühitə təsir dərəcəsi; düşmənə qarşı qorunma hissi və s.

Travmatik hadisənin mümkün təkrarlanması zamanı qazilər travma zamanı qurban və ya aktiv qazi olaraq bir şəxs olub, bu hadisənin təsirinin dərhal nəticələri sırasında qazinin fərdi xüsusiyyətləri gözə çarpır: inkişaf səviyyəsi əvvəllər mövcud olan uyğun davranış ilə sonrakı psixoloji vəziyyəti,qorunmanın effektivliyi, həyata uyğunlaşma, yaranan zehni xəstəliklər və demoqrafik problemlər. Bu zaman qazinin müharibədən sonrakı dövrü xarakterizə olunur, onlara dəstək səviyyəsi, mədəni davranış münasibəti, müharibəyə münasibət və dövlətin onlara sosial yardımı müəyyənləşdirilir..

Müharibədə ekstrimal hallardakı gözləntilər: (toplanma, yol, ilk günlər). Bu dövrdə şəxsiyyətə mənfi təsir göstərən əsas amil narahatlıqdır.

• KİV tərəfindən verilən təhrif olunmuş bazar məlumatları;
• şəxsi iştirak təcrübəsi olan heyətdə peşəkar heyətin olmaması;
• ailə üzvləri;
• vaxtın faza müddəti;
• təbliğat işinin zəifliyi;
• müavinət, zəmanət, kompensasiya barədə məlumat çatışmazlığı;
• boş vaxtın və istirahətin qeyri-mütəşəkkilliyi.

Bu dövrdə ətrafa uyğunlaşma qeyri-adekvat bir cavab olaraq ifadə edilir. Müharibə özü özlüyündə adi gündəlik sakit həyatdan gərgin, narahat, ölümlə üz-üzə bir vəziyyətdir. Ortaya çıxmaqda olan həddindən artıq gərgin vəziyyət atəş, döyüş və s. hadisələrin insan davranışlarına mənəvi və fizioloji cəhətdən ağır bir stress və çətinlik gətirdiyini təkzib etmək olmaz.

Bu zaman bədənin adaptiv reaksiyaları işə düşür. Bədən bir rejimə girəndə həddindən artıq reaksiya, qorxu duyğusu ortaya qoyur və bu təbii olaraq ortaya çıxır.

Hərbi qulluqçular, məqsədyönlü tədbirlər və cavab növünə görə (adekvat və ya qeyri-kafi) bədənin qorxu duyğusundan keçərək dəyişirlər.

Aşağıdakı şərtlər zaman amilinə mənfi təsir göstərir:

• şəxsi təcrübənin və davranış nümunələrinin olmaması;
• nə ediləcəyi barədə məlumatın olmaması;
• bacarıq və bacarıqların çatışmazlığı;
• aydın bir təşkilatın olmaması;
• komandir və ya müraciət edən şəxslərin mənfi nümunəsi;
• ölüm amili, yoldaşların xəsarət alması;
• fərdi cavab növü.

İnular vəziyyətdəki travmatik amillərin cəmi dərhal nəticələrə səbəb ola bilər. Bu zaman insan bədəni ətrafa qeyri-adekvat cavab verə bilər: həddindən artıq ifadə olunan hiperreaksiya şəklində axın,həyəcan, qışqırıq atma ilə müşayiət olunur (həddindən artıq reaksiya - çaxnaşma), və ya bədənin inhibisyonundan ibarət olan hiporeaksiya şəklində özünü biruzə verə bilər.

Qeyd edək ki, döyüşənlərin çoxu yeni həyati şərtlərə uyğunlaşmağı bacarırlar, ancaq müharibənin nəticələri yenə də onlara təsir edəcəkdir.Müharibəyə gələn hər kəs onu fərqli bir insan olaraq tərk edir. Hərbi tibb akademiyasının mütəxəssisləri qeyd edirlər əsgərin tamamilə post-travmatik sindromdan qurtulması mümkün deyil.[9]

Sosial reabilitasiyanın əsas hədəfləri insan hüquqları, sosial vəziyyəti, sağlamlıq qabiliyyətləri və sosial hüquqlarının bərpa olunmağını nəzərdə tutur. Bu proses müharibə zamanı zərər görmüş bir insanın yaşamaq qabiliyyətini bərpa etməyi hədəfləyir. Bu zaman sosial mühitdə, həm də sosial mühitin özü, həyat şərtləri,hər hansı bir səbəbdən pozulmuş və ya

[9] Ерёмина Т.И., Крюков Н.П., Логинова Ю.Ю. Психологическая адаптация граждан, принимавших участие в боевых действиях: Методическое пособие. Саратов: ПМУЦ, 2002 .с 7

məhdudlaşdırılmış olarsa bu məqsədlə reabilitasiya həyata keçirilməlidir. İşin Sosial məqsədi reabilitasiya - fərdin ictimailəşməsini təmin etmək və onu ictimai həyata bərpa etmək.

Onu əvvəlki səviyyəyə gətirməyə çalışmaq və yalnız fiziki sağlamlığın deyil, həm də mənəvi zərbələrinin bərpasını təmin etmək lazımdır. Bir insanın sosial vəziyyəti, hüquqi statusu, mənəvi və psixoloji tarazlığı, özünə inam. sosial reabilitasiyanın ən vacib vəzifələrindəndir. Hərbi qulluqçular - hərbi münaqişələrin iştirakçıları sosial təminatlarla təmin edilməlidirlər. Dövlət isə öz növbəsində sosial müavinətlərin tətbiqinə nəzarət etməli, bu insanların hüquqi qorunmasını təmin etməli, onlar haqqında müsbət ictimai rəyin formalaşmasına çalışmalı və hərbi personal ictimai münasibətlər sisteminə cəlb edilməlidirlər.[10]

Problemin öyrənilməsində içərisində müxtəlif travmatik hadisələr (qəzalar, fəlakətlər, döyüş əməliyyatları, zorakılıq) olan stress faktorlarının təsirindən yaranan mənfi psixoloji nəticələrin öyrənilməsinə, diaqnozu və düzəldilməsinə maraq problemi ən aktual problemlərdən biridir. Bu, psixoloqları qurbanların reabilitasiya problemləri ilə yaxından maraqlanmağa vadar edir. Çünki bütün dünyada silahlı münaqişələrdə iştirak edənlərin xüsusi diqqətə ehtiyacı var.

I Dünya Müharibəsindən sonra Amerikalı general Frank B. Granger 53 xəstəxanada reabilitasiya tibbinin təməlini qoydu. Müharibədən sonra bir çox əlillərin qalması bu sahəyə marağı artırdı. Bundan əlavə, ABŞ prezidenti Franklin D. Ruzveltin poliomielitdən əziyyət çəkməsi bu mövzuda çalışan bir çox institutun yaradılmasına səbəb oldu. 1927-ci ildə qurulan İsti Bulaqlar İnstitutunda, poliomielitdən iflic olan xəstələrə su müalicəsi və digər təməlqoyma metodları tətbiq edildi. 1938-ci ildə reabilitasiya sahəsində ilk ciddi elmi jurnalın əsası qoyuldu. II Dünya Müharibəsi zamanı yaralanan əsgərlərin reabilitasiyası üçün Baruch Komitəsi adlanan ayrıca bir mərkəz quruldu.

II. Beynəlxalq qaydalar

Dünya Səhiyyə Təşkilatı (ÜST) Əlilliyin Qarşısının Alınması və Reabilitasiya Hesabatında bu sahə üçün aşağıdakı prinsipləri qəbul etmişdir:

1. Reabilitasiya; Əlilliyin və əlilliyin, əlillərin və əlillərin ətraf mühitə uyğunsuzluğunun azaldılmasına yönəlmiş bütün tədbirləri əhatə edir.

2. Reabilitasiyanın məqsədi yalnız əlil və əlil insanların ətraf mühitə uyğunlaşma təhsili vermək deyil, eyni zamanda mövcud inteqrasiya və cəmiyyəti sosial inteqrasiya üçün yaxşılaşdırmaqdır.

3. Əlil və əlillərin birlikdə yaşadığı ailələr və icmalar reabilitasiya xidmətlərinin planlaşdırılmasında və həyata keçirilməsində iştirak etməlidirlər.

Reabilitasiya tibbinin əhatə dairəsi çox genişdir. İnsult səbəbiylə danışma qabiliyyətini itirən bir xəstənin sağalmasından, ürək böhranından sonra xəstələrin normal həyata uyğunlaşmasına qədər yayılır. Ancaq ölkəmizdə qərb reabilitasiya standartlarını tətbiq edən qurumlarımızın sayı bir əlin barmaqlarını keçmir. Fiziki müalicə və reabilitasiya həkimi; Fizioterapevt, reabilitasiya tibb bacısı, peşə terapevti, danışma terapevti, ortez-protez mütəxəssisi, psixoloq, sosial işçi, peşə məsləhətçisi, diyetoloq və pedaqoqlardan ibarət komandanın rəhbəridir.

Dünyada reabilitasiya məqsədiilə fəaliyyət göstərən sahələrdən biridə psixoloji məsləhət reabilitasiyasıdır.Məsələn, travma nəticəsində onurğa beyni iflici olan bir insan:

Bu şəxsi fərdi iş həyatına qaytarmaq üçün edə biləcəyi peşələr,məhdudlaşdırmaq əvəzinə fərdin tələbinə uyğun olaraq yardım göstərmək,istədiyi işi görməsinə imkan verəcək dəstəyin verilməsi mütləq lazımdır. Digər vacib yanaşma əlillər üçün azadlıq və muxtariyyətdir. Əlillərin özləri haqqında kifayət qədər məlumat ,özləri barədə qərarlar qəbul etmələri üçün muxtariyyət və

[10] Сайфуллин В.Г. Актуальные проблемы совершенствования управления социальной реабилитацией инвалидов боевых действий // Инвалиды и общество. 2009, №2 (0,5 п.л.)

reabilitasiya təklif etmə azadlığı psixoloji məsləhətləşmənin tələblərindən biridir. Bu anda reabilitasiya psixoloji məsləhətçiləri xəstələrə terapiya və müalicə təklif edirlər.Sistematik biliklərinə əsaslanaraq proses haqqında lazımi məlumatları vermək qərar vermələrinə kömək edin. Məsələn, onurğa beyni zədələnmiş bir xəstəyə, karyera məsləhət xidməti verərkən hansı peşə ilə məşğul olmaq istəyirsən ondan psixoloji reabilitasiya barədə soruşmaq və kömək etmək lazımdır.

Məsləhətləşmələrinin və xəstələrin qərar qəbuletmə prosesinə cəlb edilməsinin müstəqilliyi təmin edilməlidir. Bu onların prinsiplərinə görədir. Göründüyü kimi, reabilitasiya psixoloji məsləhətin özünün fəlsəfi prinsipləri və əsasları var. Bundan əlavə, reabilitasiya əlilliyi / əlilliyi olub-olmamasından asılı olmayaraq hər bir insan üçün psixoloji məsləhət baxımından qiymətlidir

Lakin tibbi modeldəki kimi əlillik yalnız fiziki səbəblərdən qaynaqlanır.ya da sosial modeldəki kimi üzr / əlilliyiniz yalnız səbəblərdən qaynaqlandığı bilinir[11].

Reabilitasiya latınca - a rehabilitatio, yəni, bərpa mənası daşıyır[12]. Sosial reabilitasiya dedikdə-vətəndaşların sosial hüquqlarının qorunmasına yönəlmiş dövlət, özəl və ictimai təşkilatların həyata keçirdiyi tədbirlərin birləşməsidir. Sosial reabilitasiya prosesi fərd və cəmiyyət arasındakı elə bir qarşılıqlı bir prosesdir ki, bir tərəfdən fərdi sosial təcrübənin köçürülmə üsulu, sosial əlaqələr sisteminə daxil edilməsi yolu ilə, digəri isə şəxsi dəyişmə prosesini əhatə edir.[13]

Müharibə zamanı və müharibədən sonrakı dövr elə bir dövrdür ki,bu dövrdə cəmiyyətin bütün fərdləri istər konflikt zonasında yaşayan istərsə də münaqişə zonasından kənar mülki vətəndaşlar bundan birbaşa və ya qismən zərər görürlər. Biz yuxarıda döyüşçü və hərbi heyətin müharibə zamanı yaşadıqları psixoloji vəziyyət və onlara olunan sosial və psixoloji reabilitasiyadan bəhs etdik. Ancaq unutmamaq lazımdır ki,müharibə zamanı ondan əziyyət çəkən adi vətəndaşların da bu psixoloji və sosial reabilitasiyaya güclü ehtiyacları var. Müharibə, insanlar və cəmiyyətlər üçün fəlakətlə eyni bir mənanı daşıyır, qorxu, narahatlıq, təşviş, xaos kimi bir çox mənfi hiss ilə assosiasiya təşkil edir. Bu səbəbdən də birbaşa olaraq insanların psixi sağlamlığına təsir göstərir. Müharibə və bu istiqamətdə davam edən proseslər ölüm, yaralanma, xəstəlik, aclıq, həyat rutinində dəyişiklik, evindən, işindən, məktəbindən, ya da yaşadığı ərazidən uzaalaşma və iqtisadi çətinliklər, insanların gücsüz və təhlükəli vəziyyət yaşamasına səbəb olur. Travmatik təsirlər, insanlarda fiziki və psixoloji problemlərin ortaya çıxmasına səbəb olur. Əxlaqi dəyərlərinə də zərər verir. Yəni, insanların gələcək həyatında mənfi nəticələrə gətirib çıxarır.

III. Reablitasiya dövründə qadınlar

Qeyd edək ki, sözü gedən şəraitdə qadınların psixikası daha çox təsir altına düşür. Qadınlar, müharibə, terror hadisələri və cəmiyyətdə narahatlıq yaradan bənzər bütün mənfi situasiyalardan kişilərlə müqayisədə daha çox təsirlənirlər. Kişilər, emosional reaksiyalarını daha yaxşı nəzarət altında saxlaya bilir, buna görə də müharibə zamanı mübarizəni daha adekvat şəkildə davam etdirə bilirlər.

---

[11] Cahit Kaya ve Enver Sarı, Türk Psikolojik Danışma ve Rehberlik Dergisi, Rehabilitasyon Psikolojik Danışmanlığına Giriş, 2018, 8(51) s. 250.

[12] Советский энциклопедический словарь / Гл. ред. А.М. Прохоров. — 4-е изд. — М.: Советская энциклопедия,1988. — 1600 с.

[13] https://ru.wikipedia.org/wiki

Aparılan tədqiqatlarda, müharibədə iştirak edən kişilərdə Müharibə Sindromu adı verilən və Posttravmatik Stress Pozuntusuna səbəb olan psixoloji narahatlıq müşahidə olunur.

Kişilər struktur baxımdan daha dayanıqlı olurlar. Onlar dünyaya gəldikləri andan etibarən cəmiyyət daxilində evini, həyat yoldaşını və ailəsini qoruyan, lazım olanda vətəni üçün canını verəcək tərzdə böyüdülürlər. Buna görə də emosional reaksiyalarını daha yaxşı idarə edə bilir, lazım olduğu təqdirdə gizlədə bilirlər. İstənilən halda istər uşaq,istər qadın ,istər sə də kişi psixologiyasının bərpası üçün mütəxəssis dəstəyi vacibdir...

Müharibə, insan və cəmiyyətin psixologiyasına birbaşa təsir göstərən və təşviş hissinə təsir göstərərək bir çox xəstəliyi stimullaşdıran faktordur. Müharibə coğrafiyasının daxilində və ətrafında olan insanlara mütləq psixoloji dəstək göstərilməlidir. Sağlam nəslin formalaşması üçün həm müharibə ilə üzləşən, həm də birbaşa və ya dolayı şəkildə təsirlənən bütün insanlara disiplinar tərzdə psixososial dəstək verilməlidir.Bu məqsədlə sosial və psixoloji reabilitasiya dövlətin və cəmiyyətin zərər çəkmiş vətəndaşlar üzərində tətbiq etdiyi əsas vəzifələrdən biri olmalıdır.

ƏDƏBİYYAT

1.Ерёмина .И., Крюков Н.П., Логинова Ю.Ю. *Психологическая адаптация граждан, принимавших участие в боевых действиях: Методическое пособие*. Саратов: ПМУЦ, 2002 .с 7

2.Сайфуллин В.Г. *Актуальные проблемы совершенствования управления социальной реабилитацией инвалидов боевых действий // Инвалиды и общество*. 2009, №2 (0,5 п.л.)

3.Cahit Kaya ve Enver Sarı, *Türk Psikolojik Danışma ve Rehberlik Dergisi. Rehabilitasyon Psikolojik Danışmanlığına Giriş,* 2018, 8(51).

4.А.М. Прохоров. — 4-е изд, М.: *Советская энциклопедия*, Советский энциклопедический словарь / Гл. ред. 1988.

MÜHARİBƏ DÖVRÜ VƏ POST MÜHARIBƏ DÖVRÜ ƏHALİNİN SOSİAL REABİLİTASİYASI

Kərimova Aygün Xəlil

XÜLASƏ

Sağlam nəslin formalaşması üçün həm müharibə ilə üzləşən, həm də birbaşa və ya dolayı şəkildə təsirlənən bütün insanlara disiplinar tərzdə psixososial dəstək verilməlidir.Bu məqsədlə sosial və psixoloji reabilitasiya dövlətin və cəmiyyətin zərər çəkmiş vətəndaşlar üzərində tətbiq etdiyi əsas vəzifələrdən biri olmalıdır. Bu proses müharibə zamanı zərər görmüş bir insanın yaşamaq qabiliyyətini bərpa etməyi hədəfləyir. Bu zaman sosial mühitdə, həm də sosial mühitin özü, həyat şərtləri, hər hansı bir səbəbdən pozulmuş və ya məhdudlaşdırılmış olarsa bu məqsədlə reabilitasiya həyata keçirilməlidir. İşin Sosial məqsədi reabilitasiya - fərdin ictimailəşməsini təmin etmək və onu ictimai həyata bərpa etməkdən ibarətdir.

SOCIAL REHABILITATION OF THE POPULATION DURING THE WAR AND POST-WAR PERIOD

Aygun Khalil qizi

SUMMARY

Disciplinary psychosocial support should be provided to all people who are at war or directly or indirectly affected in order to form a healthy generation. To this end, social and psychological rehabilitation should be one of the main responsibilities of the state and society to the affected citizens. This process aims to restore the viability of a person affected by war. In this case, rehabilitation should be carried out for this purpose, both in the social environment and in the social environment itself, if the living conditions are violated or restricted for any reason. The social purpose of the work is rehabilitation - to ensure the socialization of the individual and his reinstatement in public life.

СОЦИАЛЬНАЯ РЕАБИЛИТАЦИЯ НАСЕЛЕНИЯ В ВОЕННЫЙ И ПОСЛЕВОЕННЫЙ ПЕРИОД

Айгюн Халилгызы

РЕЗЮМЕ

Чтобы сформировать здоровое поколение, всем людям, находящимся в состоянии войны и прямо или косвенно затронутым ими, должна быть оказана дисциплинированная психосоциальная поддержка. Для этого социальная и психологическая реабилитация должна стать одной из основных задач государства и общества. Этот процесс направлен на восстановление жизнеспособности человека, пострадавшего во время войны. В этом случае с этой целью должна проводиться реабилитация как в социальной среде, так и в самой социальной среде, если условия жизни нарушаются или ограничиваются по какой-либо причине. Социальная цель работы - реабилитация - обеспечение социализации человека и его восстановление в общественной жизни.

QISA XƏBƏRLƏR

İSLAM DİNİ VƏ MÜQƏDDƏS QURAN TERRORA YOX DEYİR
(elmi-fəlsəfi, ictimai, siyasi analitik təhlil)

Əsədulla Qurbanov, Bakı Dövlət Universitetinin İslamşünaslıq Elmi Tədqiqat Mərkəzinin rəhbəri, fəlsəfə elmləri doktoru, professor,

Bu yazının sərlövhəsində qeyd olunan mövzu müasir qloballaşma dövrünün xüsusi aktuallıq kəsb edən problemlərinə həsr olunmuşdur. Həmin mövzunun şərhinə ilk öncə 2001-ci ilin 11 sentyabrında ABŞ-ın iki böyük şəhərində - Nyu-York və Vaşinqton şəhərlərində baş verən, dəhşətli, çoxsaylı günahsız insanın tələf olduğu terror faciəsini xatırlamaq və yada salmaqla başlamaq istərdik.

Məlum olduğu kimi, xüsusi olaraq vurğulamaq istərdik ki, həmin dəhşətli terror aktları Amerika Birləşmiş Ştatlarının bəzi, hakim siyasi dairələrinin məkrli siyasətinin nəticəsində baş vermişdir. Həmin siyasi dairələr qeyd olunan terrorun əsas baiskarı kimi, İslamda terrorçuluğun təmsilçisi sayılan Usamə Bin Ladenin üzərinə qoymuşlar. Halbuki, həmin qanlı terrorun baiskarı islamçı müsəlman Usamə Bin Laden deyil, ABŞ-ın məkrli siyasi dairələridir.

Analoji olaraq 1992-ci ildə bəşəri faciə olan Xocalıda, 2020-ci ildə Gəncədə, Mingəçevirdə, Tərtərdə ... törədilən qanlı terrorların səbəbkarları - başda Robert Koçaryan, Serj Sərkisyan və Nikol Paşinyan olmaqla erməni faşistləridir.

... 2001-ci ilin 11 sentyabrında ABŞ-da baş verən dəhşətli terror aktları mahiyyətcə dünya dini olan İslamı və onun əsasını təşkil edən müqəddəs Quranı terrorçuluqla eyniləşdirmək cəhdindən başqa bir şey deyildir. Erməni faşistlərinin müqəddəs Azərbaycan torpaqlarında, Tovuzda, Gəncədə, Mingəçevirdə, Tərtərdə... törətdikləri qanlı terror aktları mahiyyətcə eynidir. Doğrudur, ABŞ-da törədilən qanlı terror aktları islamın və müqəddəs Quranın, ümumiyyətlə müsəlmanın əleyhinə yönəldilmişdirsə, erməni faşistlərinin müqəddəs Azərbaycan torpaqlarında törətdikləri qanlı terror daha məkrli niyyətlərə qulluq edir. Başqa sözlə desək, erməni faşistlərinin müqəddəs Azərbaycan torpaqlarında törətdikləri qanlı terror aktları dahanehlist məqsədlər, niyyətlərə yönəldilmişdir. Erməni faşistlərinin Azərbaycan torpaqlarında törətdikləri qanlı terror aktları "dənizdən dənizə böyük ermənistan, türkə, o cümlədən xüsusilə oğuz türkləri olan azərbaycanlılara ölüm, etnik təmizləmə... kimi məkrli, xəbis, işğalçılıq, vandalizm kimi niyyətlərə qulluq və xidmət edir.

Erməni faşistləri unudurlar ki, dünya dini olan İslam və onun əsasını təşkil edən müqəddəs Quran sülh, salam, əxlaq, mənəviyyat deməkdir. Yeri gəlmişkən qeyd etmək istərdik ki, islam və müqəddəs Quranı mütərəqqi bəşəriyyətə öyrədən bir dünyəvi elm var. ***O da islamşünaslıq elmidir. "İslamşünaslıq elmi ümumbəşər, o cümlədən Şərq, eləcə də Azərbaycan ictimai-fəlsəfi fikrinin mühüm tərkib hissələrindən və istiqamətlərindən biri, bəlkə də birincisidir". (tərif və kursiv bizimdir: Ə.Q.)***

...Müstəqil Azərbaycan 1992-ci ildən Beynəlxalq İslam Əməkdaşlıq Təşkilatının ən fəal üzvlərindən biridir. Bu münasibətlə konkret olaraq aşağıdakı çox xarakterik bir fakta diqqəti cəlb etmək istərdik.

2011-ci ilin iyul ayında İran İslam Respublikasının paytaxtı Tehran şəhərində beynəlxalq İslam Əməkdaşlıq Təşkilatına və İran İslam Respublikasının rəhbərliyinin təşəbbüsləri ilə İranın paytaxtı Tehranda 2001-ci il 11 sentyabrında ABŞ-da baş verən qanlı terrorun on illiyinə həsr olunmuş beynəlxalq simpozium keçirilmişdir.

İş elə gətirdi ki, beynəlxalq Tehran simpoziumunda müstəqil Azərbaycanı təmsil etmək bu sətirlərin müəllifinə qismət oldu. Dünyanın 70 ölkəsinin dövlət başçılarının və mütəxəssislərinin iştirak etdiyi bu beynəlxalq tədbirdə biz ***"İslam və müqəddəs Quran terrora yox deyir"*** mövzusunda mühazirə oxuduq. Tərcüməçi Cənubi Azərbaycandan olan bir azərbaycanlı mütəxəssis idi. Təvəzökarlıqdan bir qədər uzaq olsa da, qeyd etməliyik ki, məruzələrimizdə islam və müqəddəs Quranda tənqid olunan mövhumatın, xurafatın, fanatizmin, fatalizmin, asketizmin, mistikanın, radikalizmin, ekstremizmin, terrorçuluğun əleyhinə olan fikirlərin tənqidi, onların aradan qaldırılmasına həsr olunan elmi mülahizə və müddəalar simpozium iştirakçılarının xüsusi marağına səbəb olmuşdur. Bu barədə İran İslam Respublikasının o zamanki prezidenti simpoziumun yekun iclasında demişdir:

... İclasın sədri çıxış zamanı üzünü bizə sarı tutub dedi:

- Hörmətli professor! Sizin çıxışınız hamımızın çox xoşuna gəlmişdir. O, sözünə əlavə edərək dedi:

- Razı olsanız, barənizdə BMT-nin müvafiq rəhbər strukturlarına rəsmi müraciət edərək, sizi mükafatlandırmağınızı xahiş edərdim. Cavab olaraq biz dedik.

- Sizə təşəkkür edirəm. Sözügedən sahədə uzun illərdən bəri səmərəli tədris, tədqiqat və təbliğat işləri aparan bir mütəxəsis kimi bu, mənim borcumdur.

Aradan bir müddət keçdikdən sonra ünvanımıza aşağıdakı rəsmi sənəd gəldi. Həmin sənədin surətini yazıya əlavə edirik (Bax: əlavəyə)

SÜLH SƏFİRİ

ÜMUMDÜNYA SÜLH FEDERASIYASI
DÜNYADA SÜLH ÜZRƏ
DINLƏRARASI VƏ BEYNALXALQ FEDERASIYA

Ümumdünya Sülh Federasiyası və Dünyada Sülh üzrə Dinlərarası və Beynalxalq Federasiya başqaları üçün bir həyat idealı olan nümunəvi yaşam tərzi ilə yaşayan və özlərini universal əxlaqi dəyərlərin, sağlam ailə həyatının, dinlərarası koorperasiyaların, beynalxalq harmoniyanın, Birləşmiş Millətlərin yenilənməsinin, məsul ictimai mediyanın və sülh mədəniyyətinin yaradılması fikirlərinin irəli sürülməsinə həsr edən şəxsləri Sülh Səfirləri kimi tanıyırlar.

İrqi, milli və dini sərhədləri aşıb keçən Sülh Səfirləri əsrlər boyu həll edilməsi ümid edilən məsələlərin həyata keçrilməsinə kömək edirlər və eyni zamanda ümumdünya sülhü vasitəsilə mənəvi və maddi həyat dəyərlərini harmonizə edirlər.

Bununla
Dünyada Sülh üzrə Dinlərarası və Beynalxalq Federasiya
ƏSƏDULLA QURBANOV
kimi bir Sülh Səfirini tanımaqdan böyük məmunluq hissi duyur
və bununla fəxr edir.

2014

Rev. Dr. Sun Myung Moon, Founder

Dr. Hak Ja Han Moon, Co-Founder

Qeyd: Əsədulla Qurbanov BMT-nin "Sülh Səfiri", Ankara Beynəlxalq Söz Akademiyasının üzvü, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Fəxri diplomu"çusu, məşhur "91"-lərdən biri, "Qızıl Qələm" mükafatı laureatı, Azərbaycan Respublikasının "Qabaqcıl Təhsil İşçisi"dir.

MÜNDƏRİCAT

PEDAQOGİKA

Məcid İsmixanov, Nəzakət İmamverdiyeva. Fəal (interaktiv) dərs və onun təşkili.....3
Aysel Əfəndiyeva. Ali təhsildə qiymətləndirmə və monitorinqin xüsusiyyətləri…….9
Rəfiqə Bəxtiyarova, Təranə Kərimli. Yeni texnologiyalar və tədris prosesinin idarə olunması…...15
Vəfa Çıraqova, Ləman Hüseynova. Ümumtəhsil sistemində yeni qiymətləndirmə mexanizminin tətbiqi.....19
Nigar Mehdizadə. Monitorinq və qiymətləndirmənin təhsilin keyfiyyətinə təsiri.....23
Səkinə Seyidova. Ana - ata - yeniyetmə üçbucağına müasir baxış.....27
Nəzrin Kərimova. Təhsilin keyfiyyətinin yüksəldilməsində müasir texnologiyaların tutduğu mövqe.....31
Fəridə Süleymanova. Nizami Gəncəvi yaradıcılığında milli-mənəvi, əxlaqi dəyərlər.....34
Murad Ağalarov. Təlim prosesində monitorinq və qiymətləndirmədən istifadənin vəziyyəti.....38
Kəmalə Qəhrəmanova, Natəvan Abbasova. XIX əsrdə Azərbaycanda sosial –siyasi və iqtisadi vəziyyətin elm və mədəniyyətin inkişafına təsiri.....43

FƏLSƏFƏ

Айбала Намазова. Человек, смысл его существования и модели времени.....47
Samira Veyisova. Şirvan elinin dahisi Kafiəddin Ömər İbn Osman haqqında.....54
Nəzakət Kərimova. Jan Antuan Kondorse: ictimai inkişaf haqqında.....58
Ülviyyə Agabəyova. Yunus Əmrə və onun humanizm fəlsəfəsi.....67
Bilal Əlizadə. Tarix fəlsəfəsi: formalaşması və inkişafı.....74
Sevda Mahmudova. Философские аспекты исламоведения.....79
Сабина Мехтиева. Экономические принципы ислама в современном мире.....85
Гюльнара Юсифова. Глобализация образования……...90

SOSİOLOGİYA

Fazil Vahidov,Tahir Ağayev. Tarix terrorizmi və saxtakarlığı bağışlamır.....95
Şəbnəm Əsgərova. Beynəlxalq münasibətlərin müasir nəzəriyyələri.....99
Фарах Халилова. Проблема управления миграционными процессами в современном мире……...104
Fuad İmanov. Rifah dövləti: nəzəriyyə və müasirlik.....109

SOSİAL İŞ

Zeynəddin Hacıyev. Əlilliyin mahiyyəti, yaranması səbəbləri və reablitasiyası.....114
Mehriban Vəliyeva. Miqrantlarla çalışan təşkilatlar.....124
Validə Cəfərova. Sosial qrup kimi gənclərin məşğulluq probleminin xüsusiyyətləri.....132

İQTİSADİYYAT, İDARƏETMƏ VƏ POLİTOLOGİYA

Aytəkin Zeynalova, Lamiyə Süleymanlı. Azərbaycanda “Vətən müharibəsi” Türkiyə və Rusiya KİV-də.....139

Bəbir Quliyev, Rəşad İbrahimov. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi Azərbaycan-ATƏT əməkdaşlığı kontekstində.....145
İsmayıl Eyyubov Mirzə Fətəli Axundovun ictimai-siyasi görüşləri (1812-1878).....153
İmran Qarayev. Vergi siyasətinin davamlı iqtisadi inkişafa təsirinin müasir problemləri.....159
Bəbir Quliyev, Rəşad İbrahimov. ATƏT - Avropa təhlükəsizliyinin təmin edilməsi vasitə kimi…….....168
Kenan Niftalıyev. Azerbaycanda uygulanan devalivasiyonun nedenleri ve alınması gereken tedbirler.....178

FİLOLOGİYA

Гюляр Санани. Отбор грамматического материала при обучении русскому языку…….....186
Samirə Gəncəli. Görkəmli pedaqoq və maarifçi Fərhad Ağazadə və onun əlyazmalar institutunda qorunan əsərləri.....190
Диляра Мустафаева, Нигяр Халилова. Связь обучения орфографии с развитием речи учащихся.....195
Гюляр Санани. Внеаудиторная учебно-воспитательная работа.....200
Гюнель Мамедова. Социальная помощь людям с депрессивными расстройствами.....203
Ramin Əliyev Azərbaycan mədəniyyət siyasəti.....208
Gülşən Əliyeva. YaradIcılıq fəlsəfi problem kimi.....216
Bəsdi Şəmiyeva. Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşmasının xüsusiyyətləri.....223
Ислам Исламов. Сущностные характеристики и особенности «мультикультурализма».....229
Нигяр Агаева. освещение в Сми Карабахской войны.....236
Фикрат Эфендиев, Ислам Исламов. К вопросу о строение научного процесса познания.....239
Xatirə Əfəndiyeva. Azərbaycan Respublikasında demokratiyanın təmin olunmasında dövlət siyasəti.....244
Fatma İsayeva. Kurikulum modelində dərs və onun mərhələləri……252
Xatirə Əfəndiyeva, Leyla Nağıyeva. Yumşaq güc anlayişina beynəlxalq sferada nəzəri yanaşması…….254
Əli Babayev. Tarixi abidələrin ermənilərə cavabı.....267
Aygün Kərimova. Müharibə dövrü və post müharıbə dövrü əhalinin sosial reabilitasiyası.....269

QISA XƏBƏRLƏR

Əsədulla Qurbanov. İslam dini və müqəddəs Quran terrora yox deyir (elmi-fəlsəfi, ictimai, siyasi analitik təhlil).....275

TƏLƏBƏ HƏYATI

TƏLƏBƏLİK İLLƏRİ: LİRİK XATİRƏLƏR VƏ ARZULAR

Mən, Zərintac Həsənova, BDU-nun Sosial elmlər və psixologiya fakültəsinin 4-cü kurs tələbəsiyəm. İlk öncə, qeyd etmək istərdim ki, insan həyatında önəmli izlər buraxan illərdir tələbəlik illəri. Ali təhsilə yiyələnmək arzusu, insanları daha yaxından tanımaq üçün uzun zaman, cəmiyyətə faydalı ola bilmək istəyi və bunun uğrunda cəhdlər, həyatda nail olmaq istədiyimiz zirvələr və sonsuz, ümid dolu arzularımız, istəklərimiz, mübarizələrimiz, səhvlərimiz, - bütün bunlar bəzən silinməz, bəzən ötəri izlər qoyur həyatımızda. Ən əsası, insan olaraq özümüzü tanımağa başlayırıq. Bəzi tələbələr bunun üçün, ilk öncə, özünün, şəxsiyyətinin ona belə görünməyən, kölgəli cəhətlərini aramağa başlayır. Tapanlar olur əlbət, lakin bəziləri üçün bu zorlu yol universiteti bitirdikdən sonra da davam edir. Əsas şey nə istədiyini bilmək və onun uğrunda heç yorulmadan mübarizə aparmaqdır. Təbii ki, istəklərimiz uğrunda mübarizə apararkən başqalarına zərər verməməyi, gülmək üçün ağlatmamağı öyrənməliyik.

Mənim üçün tələbəlik illərinin gözəl keçməsinin əsas şərti istədiyim ixtisası qazanmaq idi. Sosial iş ixtisasına 545 balla daxil oldum və təhsil aldığım illər ərzində bir dəfə də olsun, bu seçimimdən peşman olmadım. Bu peşəni universitetə hazırlaşdığım müddətdə ən yaxın dostlarımdan biri mənə yaraşdırmışdı. Ondan sonra isə özüm araşdırdım və bu peşəni çox sevdim. Qərarım qəti idi, geridə qalan tək şey qəbul olmaq idi. Şükürlər olsun, o da oldu.

Yaşadığımız həyat boyu necə yaşamağımızı şərtləndirən əsas amillərdən biri də peşə seçimidir. Özümüzü harada və necə görürük?- bu suala cavab tapmaq. Sevdiyi peşəylə məşğul olan insanlar həm sevərək xidmət edir, həm də daim yeni şeylər öyrənməyə, öz peşəsinə nələrsə qatmağa can atırlar. Yaxşı mütəxəssis olmaq üçün çox çalışırlar. Mən də yaxşı mütəxəssis olmaq istəyirəm. Bunun üçün yalnızca universitet təhsili ilə kifayətlənməli olmadığımı bilirəm. Daim mütaliələr edir, ixtisasımla bağlı, insan psixologiyası ilə bağlı kitablar oxuyur, araşdırmalar aparıram. Təbii ki, tək arzum da bu deyildir. Yaxşı sosial işçi olmaqla yanaşı, insan ruhlarına az da olsa toxuna bilən, cümlələri ilə kiməsə ən qaranlıq anında kömək göstərə biləcək yazıçı olmaq ən böyük xəyallarımdan biridir. Oxuyaraq öyrənirik, əlbəttə, ancaq ki yazaraq da içimizdə bir yerlərdə üzə çıxmaq istəyən uşaqca könlümüzü dindiririk. Bu da öyrənməyin bir yoludur, mənə görə.

Həyat boyu sizə ən çox lazım olan yaxşı təhsilə yiyələnmək və yaxşı müəllimlərlə rastlaşmaqdır. Hansı ki o müəllimlər öyrətməklə bərabər, öyrənməyi də çox sevirlər. Belə şəxslər insanda sonsuz öyrənmə istəyi yaradır. Bəzi müəllimlər vardır, onların bircə cümləsi belə kifayət edər ki, sizə bir çox yerdə işıq olsun. İçində səmimiyyət, inam, hörmət, sevgi daşıyan bir cümlə... Yalnız o müəllimlər sizə yaxşı təhsil verə bilər. O müəllimlər ki özünün mükəmməl olmadığını bilir, eyni zamanda, tələbədən də mükəmməllik tələb etmir. Lakin, öyrənməyi sevərək öyrədir deyə, tələbənin həm zəkasında, həm də qəlbində dərin iz qoya bilir. Hər iki şəxs qazanc əldə edir belə bir təhsil prosesində...

İstər təhsildə, istər sə də başqa sahələrdə indiyədək ən sevmədiyim şey rəqabət olmuşdur. Mənə görə, insan bir şeyi qazanmaq, nəyəsə nail olmaq istəyirsə, bunu kimdənsə öndə olmaq üçün, sırf *birinci, ən yaxşı* olmaq üçün etməməlidir. Nail olmaq istədiyi şeyə özü istədiyi üçün nail olmağa çalışmalıdır, ilk öncə. Çünki ağıllı insan bilir ki, *ən yaxşı* heç vaxt olmayıb və olmayacaq. Digərlərinə görə, digərlərinə nisbətən yaxşı olmaq, uğurlu olmaq vardır hər zaman.

İstər təhsil sahəsi, istər iş mühiti olsun, çox insan rəqabəti professional şəkildə həyata keçirə bilmir, ona görə də şəxsi münasibətlər ziyan görür. Həm tələbələr, həm də müəllimlər arasında rəqabətin ziyansız şəkildə, düzgün aparılmasını arzu edərdim. Hər bir insanın özünü gələcəkdə

gördüyü yer, arzuları, məqsədləri eyni ola bilməz. Mənim fikrimcə, insan özünü digərlərinə yox, ilk növbədə özünü özünə sübut etməlidir: *Mən kiməm?Mən necə bir insanam və necə bir insan olmaq istəyirəm?* Və biz, özümüzü başqalarına sübut etmək çabasına daha çox tutunduqda, rəqabət çox çirkin hal almağa başlayır. Düzünü desəm, heç bir zaman rəqabəti sevmədim. Ən öndə olduğum zamanlarda da, ən öndə olmadığım zamanlarda da. Mən bilmədiklərimdən deyil də, daha çox bildiklərimdən qorxdum. Məşhur dedektiv yazıçı Aqata Kristinin dediyi kimi: "Nəyisə bildiyini görsətməyə çalışmaq, nəyisə bilməkdən daha çətindir". Mən bildiyini yaxşı göstərə bilən tələbələrdən deyildim.

Mənimçün öndə olmaq, *ən birinci olmaq* heç vaxt mühüm əhəmiyyət kəsb etmədi. Mən hər zaman məqsədlərimə addım-addım çatmağı, özüm üçün ən öndə olan dəyərlərə ulaşmağı arzu etdim. Yanlış anlaşılmasın, heç vaxt uğursuzluqla barışmamalıyıq, təbii ki. Mənim demək istədiyim yalnızca uğur ardınca qaçmaq, rəqabət mühitindən qidalanmaq, paxıllıq, qəzəb kimi hislərin əsarətində olmamaq, maddiyyatçılıqdan azad olmaqdır.

Əsl uğur bu həyatda həqiqətən ***"Yaşadım"*** *deyə bilməkdir.* Kədəri də, sevinci də, üzümüzdə güllər açdıran təbəssümü, gözlərimizdən düşən hər damlanın ürəyimizdə açdığı yara izlərini, uğurları, uğursuzluqları, peşmançılıqları, məmnuniyyəti ən dərinimizdə tüm səmimiyyətimizlə yaşayırıqmı? Bədənimizdən azad olmağa çalışan gerçək mənəviyyata həsrət ruhlarımızı nədən, ilk öncə, elə özümüz boğmağa çalışırıq? Statuslarımıza sığınırıq. Sahib olduğumuz bəzi şeylər vardır; status, rütbə, pul, əşyalar kimi... Biz olmasaq da onlar var, onlar var olacaq, başqa bədənlərdə məna daşıyacaqlar. Ancaq, elə şeylər vardır ki, onlar biz'siz heç nədir: mənəviyyatımızın hər bir parçası. Məsələn, heç kəs hamı kimi sevə bilməz. Dünyadakı minlərlə yazardan heç biri eyni deyil. Onların əsərləri tamamilə eyni ola bilməz, lakin hamısı yazır. Bütün fərq eyni ruhdan qidalanmamalarındadır; eyni həvəsdən, eyni arzudan, eyni sevgidən...

Bu böyük dünyada milyonlarca TƏK'lər içində, *ən yaxşı* olmağa çalışmağın nə mənası? Pislik etmədiyimiz müddətcə yaxşı insan oluruq. Ancaq ki *ən yaxşı, ən birinci* olmağa çalışarkən hədəflərimiz və istəklərimiz uğruna kimlərəsə pislik etmə ehtimalımız yüksəkdir.

Mən dahi Azərbaycan şairi Hüseyn Cavidin "Mənim Tanrım gözəllikdir, sevgidir!" misraları ilə böyümüş uşaq idim. Həyat fəlsəfəm: gözəllik və sevgi üçün yaşamaq idi. Şair çox illər öncə insanlığın əsas məqsədini, nə üçün yaşaması gərəkliyini şeirində bir daha xatırlatmışdı...

Ölkəmizdə tanrısı sevgi və gözəllik olan, gözəlliklər yaratmağa çalışan insanların çoxluğunu arzu edirəm.

Hörmətlə, Zərintac Həsənova.
BDU, Sosial elmlər və psixologiya fakültəsinin 4-cü kurs tələbəsi

Müəlliflərin nəzərinə!

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 30 aprel 2010-cu il tarixli iclasında (protokol №10-R) «**Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər qarşısında qoyulan tələblər**» təsdiq edilmiş və bu məsələ ilə bağlı dövri elmi nəşrlərin baş redaktorlarının iştirakı ilə keçirilmiş elmi-praktik seminarda qeyd olunan faydalı tövsiyələr nəzərə alınmışdır.

Onlardan bəzilərini nəzərinizə çatdırırıq:

1. Məqalələr dövri elmi nəşrin təsis sənədlərində qeyd edilmiş dildə və ya dillərdə (məsələn, Azərbaycan, ingilis və rus dillərində) dərc oluna bilər. Xarici dildə məqalələr dərc edən dövri elmi nəşrin redaksiya heyəti üzvlərinin sırasında dərc olunan məqalənin aid olduğu elm sahəsi üzrə xarici dili bilən tanınmış mütəxəssis olmalıdır.
2. Dövri elmi nəşr hansı dillərdə məqalə dərc edirsə, həmin dillərin hər birində məqalə müəllifləri üçün qaydalar verilməlidir.
3. Dövri elmi nəşrdə baxılan elm və ya texnologiya sahəsində qabaqçıl olan dünya ölkələrindən daxil olan məqalələrin çapına yer verilməlidir.
4. Məqalələrin mətnləri Times New Roman-12 şrifti ilə (məsələn, Azərbaycan dilində latın əlifbası, rus dilində kiril əlifbası, ingilis dilində ingilis əli fbası ilə) 1 intervalla çap olunmalıdır.
5. Hər bir məqalə yeni səhifədə verilməli və səhifənin yuxarısında dövri elmi nəşrin adını, ilini, cildini, sayını, məqalənin başlanğıc və son səhifələrini bildirən başlıq (zastavka) olmalıdır.
6. Məqalədə müəllif(lər)in işlədiyi müəssisə(lər) və həmin müəssisənin
(müəssisələrin) ünvan(lar)ı, müəllif(lər)in elektron poçt ünvan(lar)ı göstərilməlidir.
7. Elmi məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq, müəllif(lər)in gəldiyi elmi nəticə, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və s. aydın şəkildə verilməlidir.
8. Məqalənin mövzusu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır.

Məqalənin sonunda verilən ədəbiyyat siyahısı ya istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla (məsələn, [1] və ya [1, s.119] kimi işarə olunmalı) ya da əlifba ardıcıllığı ilə nömrələnməlidir. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

9. Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam
və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Elmi məqalələrə, simpozium, konfrans və digər nüfuzlu elmi tədbirlərin materiallarına və ya tezislərinə istinad edərkən məqalənin, məruzənin və ya tezisin adı göstərilməlidir. İstinad olunan mənbənin biblioqrafik təsviri verilərkən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının «Dissertasiyaların tərtibi qaydaları» barədə qüvvədə olan təlimatının «İstifadə edilmiş ədəbiyyat» bölməsinin 10.2-10.4.6 tələbləri əsas götürülməlidir.

10. Məqalənin sonundakı ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və digər etibarlı mənbələrinə üstünlük verilməlidir.
11. Dərc olunduğu dildən əlavə başqa iki dildə məqalənin xülasəsi verilməlidir. Məqalələnin müxtəlif dillərdə olan xülasələri bir-birinin eyni
olmalı və məqalənin məzmununa uyğun olmalıdır. Məqalədə müəllifin və ya müəlliflərin gəldiyi elmi nəticə, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti və s.

xülasədə yıgcam şəkildə öz əksini tapmalıdır. Xülasələr elmi və qramatik baxımdan ciddi redaktə olunmalıdır. Hər bir xülasədə məqalənin adı, müəllifin və ya müəlliflərin tam adı göstərilməlidir.

12. Hər bir məqalədə UOT indekslər və ya PAJS tipli kodlar və açar sözlər göstərilməlidir. Açar sözlər üç dildə (məqalənin və xülasələrin yazıldığı dillərdə) verilməlidir.

13. Məqalənin redaksiyaya daxil olma, təkrar işlənməyə göndərilmə və çapa qəbul olunma tarixləri sonda göstərilməlidir.

14. Dövri elmi nəşrin redaksiyası məqalənin dərc olunması ilə əlaqədar olaraq müəllif və ya müəlliflərin razılığını, göndərilən məqalənin əvvəllər dərc olunmadığını (məqalənin tezis şəklində dərc olunmuş variantı istisna olmaqla), məqalənin hər hansı bir dildəki variantının eyni zamanda digər dövri elmi nəşrlərə göndərilmədiyini və məqalə ilə bağlı elmi-tədqiqat işinin hansı müəssisədə yerinə yetirildiyini əks etdirən anket hazırlamalıdır. Bu anketi müəllif(lər) imzalayıb redaksiyaya göndərməli və ya dövri elmi nəşrin saytına daxil olub anketin elektron variantını doldurmalı və onu elektron təsdiqləməlidir(lər).

15. Elmi curnallarda «əvvəli ötən saylarımızda», «ardı növbəti nömrədə» adı altında seriya məqalələrin dərc olunmasına icazə verilmir.

16. Dövri elmi nəşrin əvvəlki nömrələrində dərc olunmuş məqalələrdə rast gəlinən ciddi səhvlər və ya texniki qüsurlara dair düzəliş və qeydlər elmi nəşrin növbəti nömrələrindən birində müəllif(lər) tərəfindən yenidən verilə bilər. Bu halda əvvəlki məqalə ilə «DÜZƏLİŞ» bölməsində verilən məqalənin adı eyni olmalıdır.

Həm də xatırlatmaq istəyirik ki, Azərbaycan Respublikasında elmi əsərlərin tərtibinə tələblərinə uyğun olaraq, məqalənin mətni aşağıdakı əsas elementləri özündə ehtiva etməlidir:

- *Ümumi problem və mühüm elmi və ya praktiki vəzifələri ilə bağlı problemin qoyuluşu;*
- *Bu problemin həllində müəllif üçün təməl rolunu oynayan son tədqiqatlar və nəşrlərin qısa təhlili;*
- *Bu məqalədə həlli nəzərdə tutulmuş məsələyə aid daha ümumi problemin hələ də həllini tapmayan tərəflərin aşkar edilməsi;*
- *Məqalənin məqsədlərinin göstərilməsi;*
- *Elmi nəticələrin tam əsaslandırılması ilə əsas tədqiqat materialın təqdimatı;*
- *Tədqiqatın nəticələri və bu istiqamətdə işin daha da inkişaf etdirilməsi perspektivləri.*

SOSİAL VƏ HUMANİTAR ELMLƏRİN MÜASİR PROBLEMLƏRİ

ELMİ ƏSƏRLƏR TOPLUSU

BURAXILIŞ № 26
(I HİSSƏ)

Təsisçi: fəlsəfə üzrə elmlər doktoru, prof. **Qızılgül Yasin qızı Abbasova**
Kompüter dizaynı – **Vüsalə Kərəm qızı Musayeva**

Yığılmağa verilmişdir: 25.11.2020

Çapa imzalanmışdır: 25.11.2020
Format: 60 ×84 1/8
Şərti çap vərəqi – 38
Sifariş № 45
Tiraj – 100 nüsxə